DÜNYA ƏDƏBİYYATI

ANTİK ƏDƏBİYYAT ANTOLOGİYASI

W6(0)
A79

ANTİK ƏDƏBİYYAT ANTOLOGİYASI

245372

İKİ CİLDDƏ

I CİLD

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2006

Bu kitab "Antik ədəbiyyat müntəxəbatı" (Bakı, Azərnəşr, 1950) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Tərtib edəni: **Əli Sultanlı**

880-dc22
AZE
Antik ədəbiyyat antologiyası. İki cilddə. I cild. Bakı, "Avrasiya press", 2006, 496 səh.

Oxuculara təqdim edilən bu kitaba qədim yunan xalq ədəbiyyatı nümunələri, müxtəlif əsatirlər və miflər, eyni zamanda antik yunan ədəbiyyatı korifeylərindən Homerin, Hesiodun, Esxilin, Evripidin, Sofoklun, Aristofanın, Aristotelin uzun əsrlər boyu dünya ədəbiyyatı xəzinəsini bəzəyən inciləri daxil edilmişdir.

ISBN10 9952-421-36-0
ISBN13 978-9952-421-36-1

© "AVRASİYA PRESS", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqlarını mənimsəmək üçün onu ilk təşəkkül mərhələlərindən başlayaraq ardıcıl şəkildə öyrənmək lazım gəlir. Buna görədir ki, uzun illərdən bəri, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da doğma ədəbiyyatın ən qədim dövrlərdən inkişaf tarixinin öyrənilməsi ilə yanaşı, bəşər mədəniyyətinin ilk nümunələrindən olan antik ədəbiyyatın tarixinə də ciddi fikir verilir. Hələ 50-ci illərin əvvəllərində antik ədəbiyyat tarixinə aid dərsliklər və müvafiq olaraq müntəxəbatlar hazırlanıb nəşr edilmişdi. Bu işdə görkəmli xarici ədəbiyyat mütəxəssisi, professor Əli Sultanlının böyük xidmətləri olmuşdu. "Antik ədəbiyyat tarixi", "Roma ədəbiyyatı" dərsliklərini, habelə xarici ədəbiyyatla bağlı bir sıra kitabları ilk dəfə o, çap etdirib oxucuların, mütəxəssislərin və tələbələrin istifadəsinə vermişdir.

Qədim ədəbiyyatın daha dərindən öyrənilməsini təmin etmək üçün nəşr olunmuş ilk "Antik ədəbiyyat müntəxəbatı"nın tərtibçisi də professor Əli Sultanlı olmuşdur. 1950-ci ildə nəşr edilən həmin kitabın müqəddiməsində tərtibçi yazırdı: "Qədim yunan ədəbiyyatından tərtib edilən bu müntəxəbat bizdə tamamilə yeni və ilk təcrübədir... Oxuculara təqdim etdiyimiz bu müntəxəbatda ellinizm dövrünə qədər yunan ədəbiyyatının ən klassik nümunələri, rus dilindən tərcümə edilərək verilmişdir". Bu müntəxəbat tərtibçinin böyük elmi və təşkilati fəaliyyətinin nəticəsi kimi meydana gəlmişdi: belə ki, o, kitabın ali məktəblər üçün nəzərdə tutulmuş proqrama uyğun məzmununu, tərtibi prinsiplərini müəyyənləşdirmiş seçilmiş bədii nümunələri əsasən görkəmli yazıçılara (M.Rzaquluzadə, R.Rza, Ə.Məmmədxanlı, Əvəz Sadıq, O.Sarıvəlli, M.Arif, M.Dilbazi, N.Rəfibəyli, S.Rəhman və başqaları) tərcümə etdirmiş, lazımi ədəbi-tarixi məlumatları yazmış, müntəxəbatı tərtib edib nəşr etdirmişdir. İndi oxuculara təqdim edilən bu antologiyada da həmin kitabdan istifadə olunmuş və onun tərtibi təcrübəsindən bəhrələnmişik.

Ümumiyyətlə, antologiyalara o əsərlər daxil edilir ki, onlar mənsub olduğu xalqın bədii təfəkkür tarixində əbədi iz salır, onun dünya mədəniyyətində müəyyən mövqe qazanmasını təmin edir, həmçinin dünya ədəbiyyatı klassikasına daxil olub, bu və ya digər sahədə örnəyə çevrilir.

Hazırkı antologiya da bundan əvvəl istifadə olunmuş bu prinsip əsasında tərtib edilmişdir. Məlumdur ki, "antik ədəbiyyat deyildiyi vaxt birinci növbədə quldarlıq cəmiyyəti şəraitində qədim yunanların və qədim romalıların yaratdığı ədəbiyyat nəzərdə tutulur" (*Ə.Sultanlı*).

Antik ədəbiyyatın ən mühüm özünəməxsus cəhətlərindən biri budur ki, o, qədim insanın təsəvvürlərini əks etdirir, mif və əsatir əsasında yazılmışdır. Estetika tarixində və müasir ədəbi-elmi fikirdə artıq təsbit edildiyi kimi, əsatir antik ədəbiyyatın yalnız mənbəyi deyil, həm də zəmini olmuşdur. Onun ideya-bədii xüsusiyyətlərini, mövzu və məzmununu, obrazlar aləmini müəyyənləşdirmişdir. Həmin əsərlərin aydın dərk edilməsi üçün əsatirlərin öz mətnlərini oxumaq lazım gəlir. Buna görə də kitabın əvvəlində bilavasitə yazılı bədii əsərlərin mənbəyi və zəmini olan əsatir və mif mətnlərinin özlərinin verilməsi metodoloji bir zərurətdir. Bir də ona görə ki, əsatir və mif özü bədii yaradıcılıq növü, şifahi xalq ədəbiyyatı nümunəsi kimi antik ədəbiyyatın tərkib hissəsidir. Əvvəlkilərdən fərqli olaraq hazırkı nəşrə bir sıra əsatir nümunələrinin daxil edilməsi də bununla əlaqədardır. Hələlik əsatirlərin əksəriyyəti Azərbaycan dilinə, tərcümə olunmadığına görə, biz indiyədək tərcümə edilmiş bəzi əsatirləri kitaba daxil etməklə kifayətlənirik.

Antik ədəbiyyat tarixində əsatir mövzularının işlənməsi adi bir təsadüf deyil, qədim insanın təsəvvürləri, inamı və tarixi-ictimai şəraitilə bağlı olmuşdur. Məlumdur ki, qədim yunanlar bütpərəst idilər. Onlar ətrafda baş verən hadisələri qeyri-adi qüvvələrin əməli sayırdılar. Buna görə də kainat hadisələrinin kənardan idarə olunduğunu güman edir və hər bir təbiət hadisəsi ilə bağlı bir allah "yaradırdılar": göy allahı, yer allahı, od allahı, dəniz allahı, gözəllik allahı, münbitlik allahı və s. Beləliklə, təbiət və cəmiyyət hadisələrinin əsl mahiyyətini anlamayan qədim insanlar allahları da insanlaşdırırdılar. Bu isə insanlar arasında münasibətlərin bədii təsviri zamanı allahları da adi iştirakçıya çevirirdi.

Qədim yunan və Roma ədəbiyyatının nümayəndələri də öz əsərlərində əsatir obrazlarını təsvir edərkən onların ilkin xüsusiyyətlərini ön plana keçirirdilər, daha çox özlərini düşündürən məsələlərin ifadəsi üçün bir vasitə kimi istifadə edirdilər. Əvvəla, bu əsərlərdə qədim dövrün tarixi öz əksini tapır, siyasi quruluşu, ictimai qurum və münasibətləri təsvir olunurdu. Ümumiyyətlə, kitaba daxil edilmiş, demək olar ki, bütün əsərlər tarixilik nöqteyi-nəzərindən mühüm idrakı əhəmiyyətə malikdir. Digər tərəfdən, antik ədəbiyyatın müxtəlif nümunələrindən əsatirin bədii

materialında əsərlərin yazıldığı dövr üçün səciyyəvi olan cəhətlər də öz əksini tapırdı. Məsələn, allahlarla titanların mübarizəsində, yaxud onlarla adi adamların qarşılaşdırılmasında mövcud şəraitdə gedən ictimai və şəxsi mübarizə və münasibətlər, idarə üsulu və s. məsələlər əyanileşdirilirdi. Bununla da sənətkarlar əsatir mövzusunda istifadə edərək öz ideyalarını və dünyagörüşlərini ifadə etməyə çalışırdılar. Antik ədəbiyyatın ən diqqətəlayiq, bu gün üçün də əhəmiyyətli olan ideya-bədii keyfiyyətlərindən biri də həmişə müasir bəşəri dəyərləri, mənəvi idealları tərənnüm etməsidir. Bütün bu cəhətlər antologiyaya daxil edilmiş bütün janrlara aid nümunələrdə öz bədii əksini tapmışdır.

Tərlan Novruzov

ƏN QƏDİM ƏDƏBİYYAT

XALQ ƏDƏBİYYATI

Qədim Yunanıstanın xalq ədəbiyyatı çox az toplanmışdır. Ələ keçən nümunələr yunan dramaturqlarının, tarixçilərinin, alimlərinin əsərlərində mühafizə edilmişdir. Bu nümunələr, əsas etibarilə, əmək prosesi ilə bağlıdır. Antik mənbələrdən bilirik ki, bu nəğmələr, biçin, üzümsıxma, dənüyütmə, çörək bişirmə, parça toxuma və sairə kollektiv iş zamanı oxunarmış. Bunların içərisində mərasim ilə bağlı nəğmələr də var. Bəzi nəğmələr ovçuluqla və müharibə ilə bağlıdır.

Nəğmələrin çoxu kollektiv tərəfindən oxunurmuş. Yunan mərasim xoru, adət üzrə, eyni cinsli və eyni yaşlı adamlardan ibarət olurdu. Misal üçün, qızların xoru, qocaların xoru və sairə. Xor bu şəkildə də dramaturgiyaya daxil olmuşdur.

Aşağıda yunan xalq ədəbiyyatından bir neçə nümunə verilir. Çevirəni M.Rzaquduzadədir.

ZƏHMƏT NƏĞMƏSİ

Haydı, çəkin bir yerdə!..
Qurtardı ha, çək bir də!..
Boş qoymayın, bərk çəkin!
İndi qurtarar yəqin!..
Hay-dı, hay-dı!.. Bir yerdə!
Hay-dı, hay-dı!.. Qurtardı!
Hay-dı, hay-dı!.. Çək bir də!..[1]

DƏYİRMANÇI QIZLAR NƏĞMƏSİ[2]

Üyüt, dəyirman, üyüt, dəni çək!
Mitelin hökmdarı Pittak[3] da
Üyüdərdi bir zaman bizim tək.

QARANQUŞ HAQQINDA RODOS NƏĞMƏSİ

Bahar nəğməsi

Xoş gəldin, ay qaranquş!
Qonaq gəldi sənlə
Bizə günəş, bərəkət.
Ay döşü ağ telli quş,
Ay qaraca belli quş!..

Ev sahibinə

– Gətir dolu təknədən,
Bizə əncir gətir sən.
Bir sənək şərab gətir,
Bir azca yaxşı pendir,
Bir neçə yağlı qoğal.
Noxud, ya yastı fətir,
Çörək bir neçə fal,
Quşcuğaza pay gətir.

Görünür ki, evdən bir şey gətirmirlər

– Tez ol, ay ev yiyəsi! Boş getmərik, ay lələ,
Özün ver, apararıq, yoxsa nə düşsə ələ.
Qapını-pəncərəni çıxardarıq yerindən.
Qaçırarıq o qaçıb otağında gizlənən
Xanımını, özün bil... Ona gücümüz çatar,
– Qonaqlıq eləyirsən, doyunca ver hər nə var.
– Baharın elçisinə aç qapını taybatay!
Biz ki şən uşaqlarıq, ver bizə doyunca pay!

LİN[4] ŞƏRƏFİNƏ NƏĞMƏ

Sən, ey allahların sevimlisi, Lin!
Onların lütfilə hamıdan əvvəl
Ahəngdar səsinlə insan nəslinə
Nəğmələr oxumaq oldu nəsibin.
Səni qəzəbli Feb[5] öldürdü nahaq,
Ağlaşıb yas tutdu sənə pərilər.

ƏSATİRLƏR

PROMETEY

KRONUN PADŞAHLIĞI – QIZIL DÖVR

Göy allahı Uranın və onun arvadı geniş sinəli Yer Allahı Geyanın övladları – titanlar doğuldu. Qəddar ata, öz oğul və qızlarına nifrət etdiyindən, uşaqlar dünyaya gələn kimi onları Yerin altında gizlədirdi. Ana –Yer qəmli-qəmli inləyir, övladları isə onun qaranlıq və rütubətli dərinliklərində dinib-danışmadan əzab-əziyyətə qatlaşmalı olurdular. Təkcə Uran və Geyanın kiçik oğlu Kron atasının əleyhinə çıxmağa cürət edib, onu hakimiyyətdən saldı, qardaşların və adi insanların hökmdarı oldu.

Bəli, təkcə allahlar deyil, insanlar da Geyadan yaranmışlar. Ona görə də insanlara "torpaqdan yaranmışlar" deyirlər. Eyni anadan əmələ gəldiklərinə görə, insanlarla allahlar bir-birilərinə bənzəyirdilər. allahlar tez-tez yerə enib öz yeməklərini insanlarla bölür və könüllərini açmaq üçün onlarla səmimi söhbət edirdilər. İnsanlar isə narahatlıq və qayğının, ağır əməyin və ürəkləri parçalayan dərd-qüssənin nə olduğunu bilmədən yaşayıb ömür sürürdülər. Ehtiyac onlara yad idi. Bərəkətli zəmilər özbaşına məhsul verir, ağaclar bol bəhər gətirir, sürülər çoxlu bala verirdi. İnsanlar istədikləri qədər işləyir və lazım olduğundan artıq heç nə əldə etməyə çalışmırdılar. İnsana qəm-qüssə gətirən qocalıq onlara yaxın düşməyə cəsarət etmirdi. Onlar əldən qüvvətli, ayaqdan iti idilər. İndiki insanların ömründən çox-çox uzun olan ömürlərini daim şənliklərdə keçirirdilər. Onlar xəstələnmədən, sanki yuxuya gedərək rahatca ölürdülər.

İnsanların bu nəsli Qızıl nəsil, Kronun hökmdarlıq etdiyi bu dövr isə Qızıl dövr adlanır.

PROMETEYİN DOĞULMASI VƏ YENİ HÖKMDARIN HAKİMİYYƏTƏ GƏLMƏSİ

Göylərdə isə bu zaman titanların yeni, şanlı nəsli olan titanidlər meydana gəlirdi. Onlardan biri də Prometey idi. Onun atası padşah Kronun doğma qardaşı titan İapet, anası isə ədalət və haqqın qoruyucusu əzəmətli Femida idi. Prometey səma qasidi və carçısı idi. O, öz qeyri-adi zirəkliyi, diribaşlığı və bacarığı ilə bütün başqa titanlardan seçilirdi.

Titanların əksəriyyəti, lovğa və təkəbbürlü olduqlarına görə, tez-tez ədalətsizlik edirdilər. Ədalətin ilk qatı düşməni isə Kron özü oldu. O, hakimiyyət başına uşaqlarından birinin keçəcəyindən qorxaraq, atası Uranın cinayətlərini təkrar etməyə başladı. Kron bütün oğul və qızlarını doğulan kimi udurdu. Kronun arvadı gözəl Reya qaçılmaz adətə görə yeni doğulmuş uşağını atasının dizi üstünə qoyanda Kron o dəqiqə körpəni yekə qarnına ötürürdü.

Reya bu dərdə susub xeyli dözdü. Nəhayət, tezliklə dünyaya gələcək əziz oğlu Zevsi gizlətməyə kömək etmək üçün Yer – Anaya və Səma – Uran ataya yalvarmağa başladı.

Geya və Uran onun bu yalvarışlarına biganə qalmadılar. Reyaya da nə edəcəyini başa saldılar.

Onların göstərişlərinə əməl edən Reya, körpə Zevsi Krit adasındakı dərin bir mağarada gizlətdi. Geya nəvəsini yedirməyi və tərbiyələndirməyi öz öhdəsinə götürdü. Reya isə uşaq əvəzinə Kronun dizi üstünə bükülmüş böyük bir daş qoydu. Günahkar titan Reyanın əskiyə bükdüyü daşı uşaq bilib uddu. Kron daşı udanda oğlunun sağ-salamat qaldığını və tezliklə atasına qalib gələrək səma taxt-tacına sahib olacağını ağlına belə gətirmirdi.

İllər tez-tez ötüb keçdi. Zevsin qoluna qüvvət, qıçına güc gəldi, mübarizə günü çatdı. Lakin Geya – Yer bilirdi ki, Krona qalib gəlmək üçün təkcə güc və qüvvət kifayət deyil, onu qəflətən yaxalamaq lazımdır. Bir dəfə Kron bal yemək üçün səmadan yerə enmişdi. Həmin Qızıl dövrdə isə bal palıd ağacının budaqları və gövdəsi ilə enli şırnaqla axıb tökülürdü. Bal Kronu məst etdiyindən o, palıdın kölgəliyində, yumşaq otun üstündə yuxuya getmişdi. Elə bu zaman Zevs qəflətən hücum edərək qəzəbli atasının əl-qolunu möhkəm zəncirlədi. Məğlub olduğunu görən Kron udduğu uşaqlarının hamısını bir-bir geri qaytardı. Sonra Zevs, Kronu ucu-bucağı görünməyən yeraltı zülmət dünyaya – Tartara atdı. Əgər mis sindanı göydən yerə tullasaq, doqquz gün doqquz gecə yol gedər. Əgər onu yerdən Tartarın dərinliyinə atsaq, o zaman da mis sindan o qədər yol gedərdi.

Lakin bu barədə başqa rəvayət də var: guya Zevs atasını Tartara deyil, sahilləri bütün qurunu əhatə edən nəhəng Okeanın suları ilə yuyulan uzaq Xoşbəxtlər adasına göndərmişdi. Deyildiyinə görə, hazırda Kron orada Qızıl dövrdə yaşamış insanların ruhlarının padşahıdır, orada Qızıl dövr indi də davam edir.

Lakin istər Tartara göndərilmiş olsun, istərsə də Xoşbəxtlər adasına, fərqi yoxdur, hər iki halda Kron taxtdan salınmış, onun övladları kronidlər azadlığa çıxmışdılar. Öz bacı və qardaşlarından başqa Zevs, Uran və Geyanın oğulları üç böyük allahı – üç siklopu da xilas etmişdi. Lakin bu sikloplar xarici görünüşlərindən titanlara bənzəmirdilər. Onların alınlarının ortasında təkcə bir böyük və yumru göz var idi. Ona görə də onlar "sikloplar", yəni "kəlləgözlülər" adlanırdılar. Bundan çox-çox əvvəl Kron Urana qalib gələrkən sikloplar Ana – Yerin dərinliklərində dustaq qalmışdılar. İndi onlar da kronidlərlə birlikdə şadlıq edirdilər. Sikloplar öz xilaskarları olan Zevsə təşəkkür əlaməti olaraq, zülmətdə əzab çəkərkən düzəltdikləri dəhşətli silahları – ildırım və yanar oxları ona bağışladılar.

TİTANOMAXİYA – TİTANLARLA MÜHARİBƏ

Titanlar isə yeni hökmdara tabe olmamaq qərarına gəldilər. Belə olduqda Zevs zirvəsi həmişə buludlarla örtülən uca Olimp dağına qalxıb böyüklü-kiçikli bütün allahları öz yanına çağırdı:

– Kim mənimlə birlikdə titanlara qarşı vuruşsa, – ildırımsaçan Zevs elan etdi, – əvvəlki şöhrət, mənsəb və hakimiyyətini saxlayacaqlar. Kronun hakimiyyəti dövründə şöhrət və vəzifəsi olmayanlar, indi öz ləyaqət və xidmətlərinə görə bunlara nail olacaqlar.

Çoxları Zevsin bu çağırışına səs verdilər. Okeanın qızı titanida Stiks birinci olaraq Zevsin tərəfinə keçdi. O, oğulları olan Güc və Qüvvəti də özü ilə gətirmişdi. Böyük titan Okeanın özü də qardaş və bacılarına xəyanət etdi.

Prometey əvvəlcə titanlara sadiq idi. Döyüşə hazırlaşarkən o, hamını inandırmağa çalışırdı ki, hakimiyyəti ələ keçirmək üçün təkcə igidlik göstərmək və güclü olmaq kifayət deyildir. Bunun üçün yalan və hiylə işlətmək lazımdır. Lakin titanlar onun sözünə qulaq asmayıb çağırılmamış məsləhətçidən nifrətlə üz döndərdilər. Uzaqgörən Prometey titanların vəziyyətinin ağır olduğunu və onların mütləq məğlubiyyətə uğrayacaqlarını tezliklə anladı. Eyni zamanda Prometeyin anası haqq və ədalət allahı Femida da oğlunun, Zevsin tərəfinə keçməsinə çalışırdı. O, anasının sözünə qulaq asaraq, onunla birlikdə ildırımsaçanın qarşısında baş əydi.

Prometeyin əkiz qardaşı Epimetey onun yanında idi. Prometey – "uzaqgörən", "gələcəyi bilən", Epimetey isə "dar düşünceli", "gələcəyi görməyən" deməkdir. Onlar heç vaxt bir-birindən ayrılmırdılar. Prometeyin digər iki qardaşı – qüvvətli Atlant və Menetey, həmçinin onların atası İapet düşmən tərəfdə – titanların tərəfində idilər.

Döyüş başlandı. Qəzəb və nifrət hissilə alışıb-yanan titan allahlarla kronid allahların bu vuruşması on il çəkdi. Zevs öz müttəfiqləri ilə birlikdə Olimp dağının dumanlı və qarlı zirvəsində mövqe tutmuşdu. Titanlar isə Ofriya dağının yüksəkliyində dayanmışdılar. Müharibənin sonu görünmürdü. Müqəddəs alov göyə sovrulur, torpaq boğuq və yazıq bir səslə uğuldayır, alovun qarsaladığı meşələr çatırtı ilə yanır, dərin dənizlər, hətta daşlar belə alovun təsirindən qaynayırdı. İldırımın parıltısı hamının, hətta Zevsin öz döyüşçülərinin də gözünü qamaşdırırdı. Əgər bu hadisəni görən olsaydı, səmanın yerə enərək onu xıncım-xıncım etdiyini zənn edərdi.

PROMETEY VƏ EPİMETEY ADİ İNSANLARI PALÇIQDAN DÜZƏLDİRLƏR

Qızıl dövrün insanları hələ allahların titanlarla vuruşmasına qədər olan dövrdə qırılıb qurtarmışdılar. Müharibə zamanı isə Zevsin saçdığı ildırımlar yer üzündəki canlıları yandırıb külə döndərmiş və bütün dünya – dağlar, geniş düzənliklər, qocaman dənizlər bomboş qalmışdı. Zevs həyatı canlandırmaq qərarına gəldi və bunu Prometeyə tapşırdı. Prometey qardaşı Epimetey ilə birlikdə palçıq yoğurdu. Lakin o, yeni hökmdar Zevsin hakimiyyəti dövründə insanları, heyvanları və balıqları hansı fəlakətlər gözlədiyini irəlicədən bildiyindən palçığı su ilə yox, göz yaşı ilə yoğurdu. Sonra qardaşlar bu palçıqdan əvvəlcə kiçik, zəif və köməksiz ölləri məxluqları düzəltməyə başladılar. Bu zaman Zevs, nə üçünsə Prometeyi yanına çağırdı. O, Epimeteyə işi dayandırmağı tapşırıb, Zevsin yanına getdi. Lakin dardüşüncəli Mimetey qardaşına qulaq asmadı. Ona elə gəlirdi ki, hər şeyi ədalətlə bölüşdürsə, təkbaşına da işin öhdəsindən gələ bilər. O özünü düşməndən müdafiə etməsi üçün canlıların hər birinə müəyyən üstünlük – birinə qanad, digərinə düşmənini qorxuzmaq üçün iri, heybətli sifət, üçüncüsünə iti ayaq, dördüncüsünə qalın dəri, beşincisinə sıx tük, altıncısına möhkəm buynuz, yaxud dırnaq verdi.

Sanki bütün işlər yaxşı gedirdi. Lakin Prometey qayıdıb gələndə gördü ki, fərasətsiz qardaşı Epimetey palçığın hamısını bütün heyvanlar aləmini yaratmağa sərf etmiş, daha vacib olan insan nəslini isə hələ yaratmamışdır. İnsanları yaratmaq üçün hazırlanıb düzəldilmiş quşların, balıqların, vəhşi heyvanların, həşəratların hərəsinin bədənindən bir parça palçıq qoparmaq lazım gəldi. Buna görə də təbiətən bərabər yaranmış insanlarda (axı bütün insanlar bir cür palçıqdan düzəldilmişdi) bəzən yaxşı, çox hallarda isə murdar heyvani sifətlərə rast gəlmək olur. Şir kimi qoçaq, pələng kimi yırtıcı, ilan kimi məkrli, balıq kimi laqeyd, dovşan kimi qorxaq, qoyun kimi gic, sərçə kimi yelbeyin, cırcırama kimi boşboğaz olmaq insanlara heyvanlardan keçmişdir.

PROMETEY ZEVSİ İLK DƏFƏ NECƏ ALDATMAQ İSTƏDİ

Allahlar və insanlar nəzərdə tutulan gün dəniz yaxınlığındakı Laləli düzə toplaşdılar. Onlar əvvəllər də burada bir yerə yığışıb, Kronun Qızıl dövründə olduğu kimi insanlarla birlikdə kef məclisi qurardılar. İndi allahlarla insanların bu yaxınlığına son qoyulmuşdu. İndi insanlar allahlara dua edərək itaətkarlıqla onlar qarşısında boyun əyməli, mehrabların ocağında kök qurbanlar yandırmalı, allahlar isə ərəmətlə bu itaətkarlığı qəbul etməlidirlər. Prometey irəlicədən böyük bir öküz kəsərək, onun içalatını çıxartdı, soyub-təmizlədi və cəmdəyi bir neçə yerə şaqqaladı. Sonra ustalıqla əti sümükdən ayırıb, ət ilə içalatı bir tərəfə yığaraq, onun üstünü çirkli və tüklü öküz dərisi ilə örtdü. Ətdən çıxarılmış ağappaq sümükləri isə günəşin şüaları altında par-par parıldayan piy qatlarına büküb başqa bir tərəfə qoydu.

Zevs və başqa allahlar göründükdə, Prometey onları salamlayaraq dedi:

– Ölməz allahların ən böyüyü və ən şərəflisi olan Zevs! Bu iki paydan birini seçib götür. Sənin seçdiyin pay, həmişəlik olaraq allahların, o biri pay isə insanların qisməti olacaqdır.

Kronun oğlu İldırımsaçan, bütün elmlərdən xəbardar olduğuna görə İapetin hiyləgər oğlunun düzəltdiyi kələyi o dəqiqə başa düşərək, acı istehza ilə dilləndi:

– Mənim əzizim, sən bu öküzü həddən artıq qeyri-bərabər hissələrə bölmüsən!

Ancaq Prometey bu istehzanı hiss etmədən təbəssümlə təkrar etdi:

– İstədiyin payı seç, hökmdar Zevs!

Əlbəttə, Zevs öküz dərisinin və piy qatının içərisində nə olduğunu bildiyinə görə, istədiyi payı seçib götürə bilərdi. Lakin onun qəlbi yenə də qəzəb hissi ilə doldu və insanlara pislik etmək üçün bu fürsəti əldən verməmək qərarına gəldi. Zevs hər iki əli ilə parıldayan piy qatını yuxarı qaldıraraq, ustalıqla ona bükülmüş öküz sümüklərini allahlara göstərdi.

– Yaxşı, İapetin oğlu, qoy sən deyən olsun, – dedi, – qoy insanlar mehrablarda yalnız sümükləri və piyi yandırsınlar, əti isə özlərinə götürsünlər. Ancaq mənim sözümü yadında saxla: sənin bu hiylən insanlara bədbəxtlik və əzab-əziyyətdən başqa heç nə gətirməyəcəkdir!

Zevs bu sözləri deyib, başı qarlı və dumanlı Olimpə yollandı. Başqa allahlar da onun ardınca getdilər.

O vaxtdan etibarən yer üzərində yoxsulluq başladı. Zəmilər və ağaclar qulluq edilmədən öz-özünə məhsul vermədi. Sürülər əvvəlki kimi dinc, sakit və çobansız otlamırdılar. Zevs insanlara çox ağır, dəhşətli, sarsıdıcı və faydasız zəhmət verməklə onları qırıb, məhv edə biləcəyinə inanırdı. O, qayğısız həyatın sevinci ilə birlikdə odu da insanların əlindən aldı. Mağaralardakı koma və daxmalardakı tonqallar söndü, kömürün üstündə bişirilən ləzzətli ətin cızıltısı daha eşidilmirdi. Axı sizin yadınızdadır ki, insanlar hələ heç nə bacarmırdılar. Ovçuluğu, balıqçılığı, bostançılığı, mal-qaranı otarmağı və arı saxlamağı bacarmadıqlarına görə, onlar özlərinə yemək əldə edə bilmirdilər. Bekarçılıq onları o qədər ərköyün etmişdi ki, soyuqdan qorunmağı belə bacarmırdılar. İndi onlar məhv olmaq təhlükəsi qarşısında qalmışdılar.

Əlbəttə, keçmiş qayğısız həyatı insanlara qaytarmağa titan Prometeyin gücü çatmazdı. Deməli, yeganə bir yol qalırdı ki, o da hər cür dərd və çətinliyə qalib gəlmək üçün insanları əməyə alışdırmaq, onlara yeni həyat şəraitində yaşamağı öyrətməkdən ibarət idi. Lakin hansı bir əməyi odsuz təsəvvür etmək olar? Prometey anlayırdı ki, ilk növbədə səmadan odu yerə qaytarmaq lazımdır. O, allahların ən böyük və sarsılmaz qüvvələrinə, Stiks çayının sularına and içdi ki, odu göydən oğurlayıb insanlara gətirəcəkdir. Prometey gələcəkdə onu nə kimi əzablar gözlədiyini bilsə də, odu oğurlayıb insanlara verdi və onlara çox şey öyrətdi. Zevs bunu Prometeyə bağışlamadı. O, əvvəlcə insanları, ən axırda isə onların müəllimi Prometeyi cəzalandırdı.

PANDORA – ZEVSİN İNSANLARA BƏXŞ ETDİYİ MƏKRLİ HƏDİYYƏDİR

Zevs allahları bir yerə yığdı və Prometeyə müraciət edərək dedi:

– İapetin oğlu, sən məkrli işlər görməkdə çox bacarıqlısan. Sən məni hiylə ilə aldadıb odu evimdən oğurlamağınla sevinirsən. Ancaq əbəs yerə sevinirsən! Mən sənin səfeh qardaşın Epimeteyin səhvini düzəldərək, insanları aclıq və soyuğa davamlı olmağa alışdırmaq istəyirdim. Mən istəyirdim ki, onlar möhkəm və güclü olsunlar. Sən isə mənim niyyətlərimi dağıdıb alt-üst etdin. İndi insanlar tamamilə zəif olacaqlar. Yer üzündə insandan zəif, aciz və gücsüz məxluq olmayacaqdır. Lakin bu azdır! Sənin oğurladığın odun əvəzində mən onlara, indiyə qədər görünməmiş və eşidilməmiş bir bəla göndərəcəyəm. Eşidirsənmi, sənin kobudluğuna və yaman əməllərinə görə onlar cəzalanmalı olacaqlar!

O saat adi insanların və allahların atası hökmdar Zevs mahir sənətkar Hefesti yanına çağırıb, tez torpağı su ilə qarışdıraraq, gözəl bir qız yaratmağı ona əmr etdi. Hökmdar Zevs Afinaya, Hefestin yaratdığı qıza zərif parçalar toxumağı öyrətməyi, o biri qızı gözəllik və məhəbbət ilahəsi qızıl Afroditaya isə ona fövqəladə gözəllik verməyi əmr etdi. Oğlu Hermese əmr etdi ki, ona ağılsız olmağı, ikiüzlülüyü, yaltaqlıq və yalançılığı öyrətsin. Allahlar atalarının əmrini yerinə yetirdilər. Bundan sonra isə Afina qıza gümüşü paltar geyindirib öz əlləri ilə onun belinə kəmər bağladı. Sevinc ilahələri olan Xaritanın qızları onun zərif boynuna qızıl boyunbağı bağladılar. Fəsil ilahələri olan gözəl saçlı Oralar isə ona gur saç bəxş edərək, qıvrım hörüklərinə yaz çiçəklərindən çələng hördülər, allahların qasidi Hermes ona Pandora adı verdi ki, bunun da mənası hamı tərəfindən "bəxşişləndirilən" deməkdir. Çünki olimplilərdən hər biri Zevsin əmrini yerinə yetirərək, ona öz qabiliyyətini bəxş etmişdir.

Hermes gözəl Pandora ilə birlikdə yerə enib uzaqgörən Prometeyin qardaşı, gələcəyi görməyən Epimeteyin evinə gəldi.

Hermes dedi:

– Görürsənmi, bu qızı Zevs sənin üçün seçib arvad göndərmişdir.

Pandoranın gözəlliyinə heyran olan Epimetey o saat qardaşı Prometeyin xəbərdarlığını unutdu. Prometey, İldırımsaçandan heç bir hədiyyə qəbul etməyib, göndərilən hədiyyəni geri qaytarmağı dəfələrlə ona

tapşırmışdı. Pandora Epimeteyin evinin tam sahibəsi oldu, elə ertəsi gün dəhşətli və düzəldilməsi mümkün olmayan bir iş gördü. Allahların qasidi itiayaqlı Hermes elə bunun üçün onu göydən endirib buraya gətirmişdi.

Epimeteyin həyətinin ortasında içərisində şərab və taxıl saxlanılan küplərə bənzər, aşağıya doğru daralan böyük bir küp basdırılmışdı. Küpün ağzında ağır qapaq vardı. Hər şeyi bilməyə çalışan Pandora evin hər bucağına göz gəzdirdi. Əlbəttə, o, küpə də nəzər yetirməyi unutmadı. Əvvəlcə küpün qapağı açılmadı. Lakin çox inadcıl olan Pandora mütləq küpdə nə olduğunu bilmək istəyirdi. O, çox əlləşdikdən sonra nəhayət, küpün qapağını aça bildi. İndiyə qədər insanlara məlum olmayan minlərlə dərd, bədbəxtlik və zərərli xəstəliklər küpün içərisinə salınmışdı. Pandora küpün ağzını açan kimi onların hamısı azadlığa çıxdı.

O vaxtdan etibarən onlar hər yeri gəzib dolaşırlar. Dünyanın bütün quru və su hissəsi onlarla doludur. Zevs onları səssiz yaratdığına görə, onlar insanları gözlənilmədən və xəlvətcə yaxalayırlar.

DAŞQIN

Bu hadisədən xeyli keçdi və Zevs insanlara göndərdiyi bəlanın heç bir nəticə vermədiyini gördü. Fasiləsiz surətdə əməklə məşğul olan insanlar getdikcə möhkəmlənirdilər. Pandoranın açıb buraxdığı dərdlər isə Prometeyin ağıllı tədbirləri qarşısında geri çəkilirdilər. Belə olduqda, qəzəb və qisas almaqdan doymayan Zevs daşqın nəticəsində insan nəslinin böyük bir hissəsini məhv etmək qərarına gəldi. Lakin Prometey Zevsin bu niyyətini vaxtında başa düşdüyündən, onun planlarına yenə də mane ola bildi.

Prometey titan Okeanın qızı titanida Asiya ilə evlənmişdi. Öz atası və bacısı Stiks kimi o da olimpli allahların titan allahlarla apardığı böyük müharibədə Zevsin tərəfində olmuşdu. Bu vuruşmada qalib gələn Zevs onun xidmətlərini əbədiləşdirmək üçün dünyanın ən böyük quru hissəsi olan Asiyanın adı ilə adlandırmışdır. Prometey ilə Asiyanın Devkalion adlı yeganə oğulları vardı. O, Epimeteyin və Pandoranın qızı olan arvadı Pirra ilə birlikdə Yunanıstanın şimalında yerləşən bərəkətli və gözəl Fessaliyanın zəngin şəhəri Ftiyada padşahlıq edirdi.

Bir dəfə Prometey sakit, qaranlıq bir gecədə oğlunun yanına gələrək, tezliklə hər şeyi dağıdıb məhv edəcək bir daşqın törəyəcəyini ona söylədi. O, Devkaliona böyük və möhkəm bir gəmi qayırmağı tapşırdı. Gəmi qayırıldıqdan və içərisinə lazım olan hər cür azuqə yığıldıqdan sonra tezliklə göy üzünü qara buludlar aldı və qırx gün qırx gecə ardıarası kəsilmədən yağış yağdı. Əvvəlcə məhsuldar Fessaliya vadisi, sonra təpələr və alçaq dağlar suya qərq oldu. Daha sonra su cənuba doğru sel kimi axaraq Elladanın bütün vilayətlərini basdı. Onu da deyək ki, Ellada sözünü o zaman heç kəs bilmirdi. Daha doğrusu bu hələ heç yaranmamışdı. "Ellada" "Ellin Ölkəsi" deməkdir. Ellin isə Devkalion və Pirranın oğlu idi ki, o hələ o zaman dünyaya gəlməmişdi.

Uzaqgörən Prometeyin məsləhəti ilə qayırılmış gəmi doqquz gün üzdü. Ən yüksək dağların ada kimi görünən zirvələrində heyvanlar qarışqa kimi qaynaşırdılar. Qorxu hissi qəddar düşmənləri barışdıraraq bir-birinə – canavarı marala, tülkünü dovşana qarışdırmışdı. Bulud kimi görünən quşlar isə ağacların başında dövrə vururdular. Lakin Devkalion və Pirra heç yerdə insanlara təsadüf etmədilər.

Nəhayət, su aşağı enməyə başladı. Bu elə an oldu ki, gəmi birdənbirə quruda – dağ ətəyində, meşənin talasında göründü. Həmin dağ elm, poeziya və incəsənətin gözəl və müdrik ilahələri – Muzaların müqəddəs evi olan məşhur Parnas dağı idi. Elm və incəsənəti insanlara öyrədən Prometeyin oğlunun həyatını xilas edən gəmi burada təsadüfən dayanmamışdı.

Lakin Parnas təkcə Muzalara aid deyil idi. Prometey burada öz anası Femidanın şərəfinə məbəd tikmişdi. Gələcəyi bilmək, özlərinin və yaxın adamlarının taleyini öyrənmək üçün bura gələn insanlara şəxsən ilahə özü peyğəmbərcəsinə cavab verirdi. Xeyli müddətdən sonra həmin bu yerdə Muzaların başçısı Zevsin oğlu Apollon – Musaget Pifon adlı nəhəng ilanı öldürərək böyük bir qəhrəmanlıq göstərmiş və adına bağlı kahinliyin əsasını qoymuşdu. Delfiya məbədi adlanan bu yer nəinki Yunanıstanda, eləcə də bütün dünyada məşhur olmuşdur.

Pifiyalı Apollonun gələcəkdə tikiləcək məbədinin yerində daşqından salamat çıxmış iki nəfər ağlayaraq, öz nənələri Femidanı köməyə çağırırdı. Onlar dayandıqları qalanı, ətrafdakı gömgöy meşəni və sağ tərəfdə, başlarının üzərində ucalan bomboz qayaları tanıdılar. Nəvələrinin bu çağırışına biganə qalmayan Femida soruşdu:

– Prometeyin oğlu və Epimeteyin qızı, siz nəyi bilmək istəyirsiniz?

245372
M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

– Biz bircə şeyi bilmək istəyirik, – Devkalion dedi. – Mənim müdrik atam Prometey bu boş dünyada bizim həyatımızı nə üçün qoruyub saxladı?

– O, boş olmayacaq, – deyə ilahə xəbər verdi, – siz yenə də onu insanlarla məskunlaşdıracaqsınız. Məhz bunun üçün də sizin həyatınız xilas olunmuşdur. Analarınızın sümüklərini bir yerə yığıb, onu çiyinləriniz üstündən arxaya tullayın.

Devkalion və Pirra Femidanın bu sözlərinin mənasını anlamaq üçün çox fikirləşməli oldular. Onlar xeyli fikirləşdikdən sonra nəhayət, bu sözlərin mənasını başa düşdülər. Piranın anasının adı Pandora idi. "Pandora"nın isə mənası yalnız "hamının bəxşişləndirdiyi" demək deyil. Onun mənası eyni zamanda "hər şeyi bəxş edən" deməkdir. Bəs hər şeyi bizə kim bəxş edir? Söz yox ki, Ana – Torpaq! Torpağın sümükləri isə daşlar hesab olunur. Buna görə də Devkalion və Pirra qucaqlarını daşla doldurub, çiyinlərinin üstündən tullamağa başladılar. Beləliklə, Devkalionun arxasında kişilər, Piranın arxasında isə qadınlar yaranırdılar...

PROMETEYƏ QARŞI HÖKM. ONUN CƏZALANMASI

Zevs insanları cəzalandırdıqdan xeyli sonra, Prometeyin özündən də qisas almaq qərarına gəldi. İapetin oğlu heç bir bəla gözləmədiyi halda Zevsin bütün əmr və göstərişlərini yerinə yetirən sadiq nökərləri Güc və Qüvvət qəflətən Prometeyi yaxalayıb, allah və insanların hökmdarının əmrini bildirdilər: itaət etmədiyinə yalan və hiylə işlətdiyinə, xüsusilə odu oğurladığına görə titan İapetin və böyük Femidanın oğlu titan Prometey dünyanın lap qurtaracağında zəncirlənərək əbədi dustaq edilir. İapetin oğullarından biri dünyanın qərb qurtaracağında dayanaraq, göyün ağırlığını öz çiyinlərində saxlamağa məhkum edilmişdir. İndi isə onun digər oğlu dünyanın şərq qurtaracağında dayanıb, düz otuz min il əzab-əziyyət çəkməli olacaqdır. Qoy titan-qardaşların çəkdikləri əzablar insanlara daim onların zəif və gücsüzlüyünü xatırlatsın. Qoy insanlar həyatlarının dərd və qüssə ilə dolu, gələcəyə bəslədikləri ümidlərinin isə əbəs və mənasız olduğunu daim xatırlasınlar.

Zevsin rəhmsiz qasidlərinin arxasında Prometeyin köhnə dostu Hefest dayanmışdı. O, utandığından başını qaldıra bilmirdi. Zevs ona, hiylədən uzaqgörən Prometey üçün əbədi, qırılmayan qandal düzəltməyi əmr etmişdi. O isə Zevsin əmrindən çıxmağa cəsarət etməmiş, onun göstərişinə tabe olmuşdu. Bir əlində çəkic, o biri əlində zəncir tutaraq, başını aşağı salıb Güc və Qüvvətin arxasında gizlənmişdi.

Prometeyin cavabında bir kəlmə də danışmadı. O, dönüb arxasına baxmadan və bir an da dayanmadan sakit addımlarla şərqə doğru getməyə başladı. Güc Prometeyin solunda, Qüvvət sağında, utandığından başını qaldırmayan Hefest isə onun arxasında gedirdi.

Əlbəttə, siz allahların necə zirək və ayaqdan iti olduqlarını unutmamısınız. Onlar bir göz qırpımında yolu qət edərək dünyanın qurtaracağına – Skifiyada dağlarla əhatə olunmuş çılpaq bir dərəyə gəlib çatdılar. Güc və Qüvvət burada dayandılar və insanları Zevsdən çox sevən cinayətkarı zəncirləyib qayaya mıxlamağı Hefestə əmr etdilər. Nə etmək olardı? Axı Zevs həmişə haqlıdır, onun qərarları həmişə müdrik, ədalətli və düzgün olur. Deməli, kim Zevsin əleyhinə çıxsa, o həm allahlarla həm də insanlara düşməndir. Əlbəttə, Prometeyə elə gəlir ki, guya o, insan nəslinin havadarıdır. Əslində isə insanlar aclığa və soyuğa dözüb alışsaydılar, daha da xoşbəxt olardılar. Çünki böyük Zevs belə düşünmüşdü. O isə həmişə haqlı olurdu... Bu düşüncələrlə Hefest öz dəmirçilik sənətinə lənət oxuyaraq, Prometeyin əvvəlcə qollarını və çiyinlərini, sonra isə ayaqlarını möhkəmcə qayaya sardı. Ən axırda Hefest iti uclu dəmir mıxı Prometeyin döşünə elə sancdı ki, mıx titanın bədənini deşərək, qayaya sancıldı. Zevsin nökərləri, Hefestin işi vicdanla görüb-görmədiyini yoxladıqdan sonra Prometeyin qayaya möhkəm zəncirləndiyinə əmin olub gedərkən istehza ilə Prometeyə qışqırdılar:

– Görək, sənin aciz insancığazların sənə necə kömək edəcəkdir! Bəlkə, öz ağlında xilas ola biləcəyinə ümid edirsən, gələcəyi düşünən Prometey? Nə deyirik ki, xilas ol görək, necə olursan?

TİTANIN ƏZABLARI VƏ ONUN BİLDİYİ SİRR

Ancaq nə ağrılar, nə də cəlladların istehzalı sözləri titanı dilləndirə bilmədi. Prometey Hefestin onu zəncirlədiyi qaya kimi dinməzcə dayanıb susurdu. O, yalnız cəlladlar uzaqlaşdıqdan sonra zarımağa başladı. Lakin bu inilti ümidsizlikdən yox, onun yaxşılıqlarını belə tezliklə

unudan qaniçən Zevsə qarşı nifrət hissindən doğurdu. Əlbəttə, Zevs onun yaxşılıqlarını unutmamışdı, lakin onları xatırlamaq hökmdara ağır gəlirdi. Özünü hamıdan güclü hesab edən və küllü-ixtiyar sahibi olmağından məst olan Zevs belə düşünürdü ki, hakimiyyətə gəlməkdə heç kəsə borclu deyil və buna görə də heç kimə təşəkkür etməməlidir. Ona hakimiyyət başına gəlməkdə kömək edənlərin hamısı onun düşməninə çevrilirdi. Zevs öz keçmişi haqqındakı xatirələri məhv etmək və onları hafizələrdən silmək üçün hakimiyyətə keçməkdə ona kömək edənləri rüsvay etməyə, onları alçaltmağa çalışırdı. Bununla da o, hamıya bildirmək istəyirdi ki, guya elə lap əvvəldən onun hakimiyyəti möhkəm və sarsılmaz olmuşdur. Yalnız bu yolla Zevs hamını öz hakimiyyətinin əbədi və sonsuz olacağına inandırmağa çalışırdı. Ancaq Uzaqgörən Prometey bu adı nahaq yerə daşımırdı. O, gələcəyi irəlicədən görürdü. O, hər şeyi olmasa da, çox şeyi əvvəlcədən bilirdi.

Bir dəfə o, insanlara dağ yamaclarından filiz çıxarmağı öyrətdiyi vaxt yuxusuz keçirdiyi bir gecədə allahların və insanların heç birinin heç vaxt eşitmədiyi bir nəğməni – tale ilahələri Moyrların nəğməsini dinləyə bilmişdi. İstər allahlar, istərsə də adi insanlar eyni dərəcədə bu böyük ilahələrin iradəsinə tabedirlər. Onların qərarı qəti və dəyişməzdir. Budur, sakit bir gecədə Prometey onların nəğməsini dinləyir. Onlar həyatın fasiləsiz olaraq dəyişməsi haqqında nəğmələr oxuyurdular. Nəğmədə deyilirdi ki, istər allahların, istərsə də adi insanların hökmdarları nahaq yerə öz hakimiyyətlərinin əbədi olacağını düşünürlər. Elə bir gün gələcək ki, bütün kainatın ən qüdrətli hökmdarı olan Zevs belə özündən daha güclü bir hökmdarın qarşısında məğlub olacaqdır. Bu məğlubiyyət günü isə bəlkə bir o qədər də uzaq deyildir. Tale ilahələri xəbər verirdilər ki, allahların, adi insanların hökmdarı Zevs, Hera, Poseydon və Afinanın ona sui-qəsd etmək istədikləri zaman yüzqollu Briazeyi onuI köməyinə gətirən dəniz ilahəsi gözəl Fetidanı sevəcəkdir. Əgər Zevs Fetidaya evlənsə, onun Fetidadan ildırımdan daha dəhşətli və daha güclü silaha malik olan bir oğlu olacaqdır. O zaman Zevsin də aqibəti ata və babasınınkı kimi kədərli olacaq, o da dərin Tartara düşəcəkdir. Onu bu vəziyyətdən xilas etmək üçün bircə yol var ki, o da Fetidanı adi insanlardan birinə ərə verməkdən ibarətdir. Doğrudur, adi insandan əmələ gələn oğlan da çox güclü, bəlkə allahlardan da güclü olacaqdır. Lakin o, nə qədər güclü olsa da, hər halda adi insan olduğu üçün qorxulu olmayacaqdır.

Tale ilahələri öz nəğmələrində həmçinin Prometeyin gələcəkdə çəkəcəyi əzablardan da xəbər verirdilər. Onların dediyinə görə bu əzab-işgəncələr heç də Zevsin müəyyən etdiyi kimi otuz min il yox, cəmisi on üç insan nəslinin ömrü qədər davam edəcəkdir. Həm də bu əzablardan onu allah yox, insan xilas edəcəkdir.

Zəncirlənmiş titan özünün və hökmdar Zevsin gələcəyi haqqındakı bu sirri bildiyinə görə, ruhdan düşmür və bütün əzablara mərdliklə dözürdü. Səhər açılan kimi Skif günəşinin hər yana od saçan şüaları onun bədəninə düşən səhər şehini bir anda yandırıb yox etdi. Bütün günü şığıyan günəş onun dərisini yandırıb, bədənini yara ilə örtmüşdü. Axşam düşən kimi qaranlığa bürünən dağlar soyuyub bumbuz olurdu. Şaxta onun çiyinlərini və əl-ayağını kəsir, Hefestin zəncirindən də çox əzab verirdi. Bəs aclıq? Bəs daimi susuzluq? Bəs onun köksünü parçalayan ağrılar? Tartarın dərinliyinə atılmış titanlar bu cür əzab-əziyyət çəkmirdilər. Başlıcası isə onların rüsvay olmasını və gücsüzlüyünü heç kəs görmürdü! Prometeyin çəkdiyi əzablar isə hamının gözü qarşısında idi. Düşmənlər ona istehza edir və sevinir, dostlar isə halına acıyırdılar.

YENİ ƏZABLAR

Prometey insan nəslinin doqquz ömrü qədər bir müddət ərzində Tartarın zülmət qaranlığında əzab çəkdikdən sonra, vicdanını itirməyən cəllad Hefestlə birlikdə Güc və Qüvvət yenə də onun yanına gəldilər. Onlar əzabkeşi yer üzünə çıxartdılar. Artıq bu dəfə Skifiya dağları yox, Qafqaz dağları onun əzab işgəncələrinin şahidi oldu. Hefest Prometeyin əl-ayağını zəncirləyib, başı əyri dəmir ilə yenidən onu qayaya zəncirlədi. O, Güc və Qüvvət ilə birlikdə tez oradan uzaqlaşdı. Onlar hələ gözdən itməmiş göydə qarıltı eşidildi. Bir anda açıq qanadların kölgəsi Prometeyin üzünə toxundu. Bu, quşlar padşahı Olimp hökmdarı Zevsin müqəddəs quşu qartal idi. O, caynaqları və dimdiyi ilə Prometeyin qarnını yırtaraq, onun buğlanan isti ciyərini dimdikləməyə başladı. İapetin oğlu çox mətin olsa da, bu işgəncəyə dözə bilməyib var gücü ilə bağırdı, çırpındı, dartındı. Lakin qandallar onu möhkəm tutub saxlamışdı. Nəhayət, qartal doydu və quyruğunu tənbəl-tənbəl onun qara qanına bulaşdırdıqdan sonra uçub getdi. Ölməz bədəndə əmələ gələn yaralar köz bağlayıb sağaldı və didilib parçalanmış ciyər yenidən yarandı. Ertəsi gün ac qartal qayıdıb gəldi və

hər şey yenidən təkrar olunmağa başladı; yenə də qartal Prometeyin qarnını yırtıb, ciyərini dimdiklədi, yenə də dəhşətli ağrılara dözə bilməyən titan fəryad edərək bağırdı.

Uzun illər keçdikdən sonra, dünyanın fatehi Makedoniyalı İsgəndərin döyüşçüləri həmin yerlərə gəlib çıxmışdılar. Döyüşçü dəstələrindən biri bu yerlərdən keçərkən təsadüfən üzərində dərin oyuqlar olan qəribə formalı sıldırım qayaya rast gəldi. Oyuqların hamısı birlikdə sanki nəhəng bir insan fiquru əmələ gətirirdi. Bələdçi bu qəribə mənzərədən təəccüblənən döyüşçüləri başa saldı ki, çox qədim zamanlarda burada yerli dağlılara məlum olmayan bir allah zəncirlənibmiş və deyildiyinə görə o, baş allaha itaət etməyib ona qarşı üsyan etdiyindən belə ağır bir cəzaya düçar olmuşdur. Yunanlar dərhal vaxtilə burada Prometeyin zəncirlənmiş olduğunu başa düşdülər. Onlar ehtiramla diz çöküb, dua etdilər. Döyüşçülər insanların xilaskarı və dostu olan Prometeyin şərəfinə çoxlu qurban verdilər...

ALLAHLAR PROMETEYDƏN İTAƏTƏ RAZI OLMAĞI, ZEVSDƏN İSƏ PROMETEYƏ RƏHM ETMƏYİ XAHİŞ EDİRLƏR

Prometey hələ əsir ikən vaxtilə dustaq edilmiş titanlar Zevsin hakimiyyətini qəbul edib, ona sadiq olacaqları barədə and içdikdən sonra Zevs onların hamısını azad etmiş və Kron padşahlığını Xoşbəxtlər adasına köçürtmüşdü. Məhbus üçün bütün dustaq yoldaşlarının bir-birinin ardınca azadlığa çıxdığını və təkcə özünün həbsxanada qaldığını görməkdən böyük dərd ola bilərmi? Prometey bu qəm badəsini son damlasına qədər içdi. Hələ üstəlik azad edilmiş titanların hamısı onun zəncirləndiyi qayanın yanına gəlib, ona İldırımsaçanla barışmasını bunun üçün ilk addım olaraq sirri açmasını məsləhət görürdülər. Prometey yanına gələn dostlarına Zevsi böyük bir bədbəxtlik gözlədiyini daim təkrar edirdi. O deyirdi ki, Zevs bu bədbəxtlikdən qorxaraq, təkəbbürlü olmaqdan əl çəkəcək və özü birinci olaraq onunla barışmağa can atacaqdır. Lakin Prometey onun yanına gələn düşmənlərinə bu barədə bir kəlmə də danışmırdı. Əlbəttə, Zevs Prometeyin bu sözlərindən tezliklə xəbər tutdu. Əvvəlcə, Zevsə qulluq göstərən xəbərçilər Prometeyin sözlərini ona çatdırdılar. Sonra isə Zevs özü yüksək səmadan yerə əyilərək, Prometeyin danışdıqlarını eşitdi. Zevs həyəcana gəldi. O, çoxdan

idi ki, yaxınlaşmaqda olan fəlakəti hiss edirdi. Zevs Prometeyin lovğa və yalançı olmadığını hamıdan yaxşı bilirdi. O, allahların içərisində yalnız Prometeyin Moyrların sirli nəğməsini eşidib, onun mənasını başa düşə biləcəyinə inanırdı. Bəs indi ondan bu sirri necə öyrənməli?

Prometey bütün mənəvi əzablara mərdliklə dözərək, titanların xahiş və məsləhətlərini rədd etdi. Titanlar Kronun hökmranlığı altında Xoşbəxtlər adasında keçirəcəkləri şən və firavan həyat haqqında danışdıqca, Prometey gözləri qarşısında canlanan xoşbəxt həyatın şirniləndirici mənzərəsini görməmək üçün gözlərini bərk-bərk yumurdu.

Hətta ulu Femida Zevsin tərəfində durub, onunla barışmasını oğlundan xahiş edirdi. Ancaq Prometey anasının da xahişini rədd etdi. Prometey tələb edirdi ki, barışıq üçün ilk addımı ədalətsizlik edən tərəf atmalıdır. Bununla həmin tərəf haqsız olduğunu etiraf edər və öz əməlini pisləmiş olardı. Çünki haqsızlığın və zorakılığın cəzalandırılmadığı, zülm edilənin zülmkardan rəhm dilədiyi bir dünyada nə xoşbəxt yaşamağın, nə də həyatın özünün mənası var!

Prometey çəkdiyi əzab-işgəncədən qurtarmaq üçün ölüm arzulayırdı. Lakin istədiyi kəsə həyat verib, istədiyindən onu almaq qüdrətinə malik Zevs, İapetin ona itaət etməyən oğluna ölümü yaxın qoymurdu.

Belə olan təqdirdə allahların böyük bir dəstəsi – qoca Kron, Xoşbəxtlər adasının bütün titanları, gümüşkamanlı Feb-Apollon, onun meşələrdə və göllərdə yaşayan vəhşi heyvanlara hökmdarlıq edən bacısı gözəl ovçu Artemida, Apollon və Artemidanın, Olimpdəkilərin ən mülayim və mərhəmətlisi, həm allahlara, həm də insanlara xeyirxahlıq edən anası qarageyimli Leto Zevsə müraciət edərək:

– Ey İldırımsaçan, əzabkeşi azad et, – deyə yalvarırdılar, Qafqazın bütün zirvələri, çayları və vadiləri əks-səda verdi: – Əzabkeşi azad et!

HERAKL QARTALI ÖLDÜRÜR

Qəzəbli hökmdar, allahların yalvarışına cavab olaraq qaşlarını çatıb başını tərpətdi.

Bu vaxt Yunanıstanın ən böyük qəhrəmanı, Zevsin və adi qadın Alkmenanın sevimli oğlu Herakl, Qafqazın yaxınlığında idi. Allahların arasında Prometey olduğu kimi, adi insanların da içərisində Herakl bütün insan nəslinin müdafiəçisi və havadarı idi.

Əlbəttə, Herakl Prometey əhvalatını bilirdi. Ancaq İapetin oğlunun məhz harda əzab çəkdiyi və bu əzabların nədən ibarət olduğu ona

məlum deyildi. Herakl çarmıxa çəkilənin Prometey olub-olmadığı barədə fikirləşərək, tərəddüd içərisində donub qalmışdı. Lakin Prometey qonağı tanıdı. Heraklın şübhələrini dağıtmaq üçün birinci olaraq özü salam verdi:

– Salam, Herakl, sevin! Sənin atan Prometeyin qəddar düşmənidir. Ancaq sən mənə əziz və doğmasan. Mən sənə kömək edəcəyəm.

– Sənə də salam, Prometey, – Herakl cavab verdi. – Sənə "sevin" demirəm. Onda sənin çəkdiyin əzablara istehza etmiş olardım. Ancaq sən məni hardan tanıyırsan və mənə necə kömək edə bilərsən?

– Mən çox şey bilirəm. Sənin Hesperidlərə yol axtardığını da bilirəm.* Əllərimin və ayaqlarımın qayaya zəncirləndiyinə baxmayaraq, mən sənin bələdçin olacağam. Sənin atdığın hər addımı irəlicədən deyəcək və səni gözləyən çətinliklər barədə xəbərdar edəcəyəm. Qulaq as və yadında saxla.

Günəş xeyli yuxarı qalxmışdı. Prometey isə hələ də Hesperid bağına getmək üçün Heraklın hansı ölkələrdən və hansı xalqların torpağından keçib getməli olduğunu söyləməkdə davam edirdi.

– Dünyanın qurtaracağında, Gecənin evinin yaxınlığında sən mənim qardaşım Atlantla görüşəcəksən. O, yerə düşməsin deyə göyü çiyinlərində saxlayır. Məni gördüyünü və Zevsə tabe olub itaət etmədiyimi ona söyləsən.

Prometey bununla öz nitqini qurtaran kimi göydə qartalın qarıltısı eşidildi. Herakl başını qaldırıb acgöz zülmkara baxdı və bu dəhşətli səhnə həmişəki kimi onun qəlbində hədsiz qəzəb hissi doğurdu. O, kamanı çiynindən alıb, oxu ona keçirtdi və yayı dartdı. Herakl oxatanlar allahı – Apollonu köməyə çağıraraq qışqırdı:

– Ey ovçu Feb, mənim oxumu hədəfə çatdır! – Bu sözləri deyib, yayı buraxdı. Ox vıyıltı ilə göyə qalxıb qartalın boğazına sancıldı. Yırtıcı quş düz Heraklın ayaqları yanında yerə düşdü. O, yalnız bu zaman allahların və insanların hökmdarının qərarını pozduğunu başa düşdü. Qorxudan Heraklı dəhşət bürüdü. Bu hiss bir an bundan əvvəl onu bürüyən qəzəb hissi qədər güclü və böyük idi. O, öldürdüyü qartalın yanında yerə yıxıldı; gözlərini yumdu, əlləri ilə qulaqlarını qapadı. Birdən kiminsə ayağının yavaşcadan ona toxunduğunu hiss etdi. Herakl gözlərini açdı. Zevsin qasidi Hermes onun başı üzərində dayanmışdı.

* Heraklın on ikinci qoçaqlığı – Hesperid almalarının gətirilməsinə işarədir.

Hermes dedi:

– Sakit ol, Herakl, sən atdığın ox ilə Zevsin qərarını pozmamısan, əksinə, onun əmrini yerinə yetirmisən. Prometey, sən isə sevin. Çünki öz istəyinə nail oldun: birinci olaraq Zevs sənə barışmağı təklif edir.

AZADLIQ

Yalnız bundan sonra öz sözünə axıracan sadiq qalan Prometey, üzünü göyə tutub, uzun müddət əzab və ingəncələrə dözərək, gizli saxladığı Moyrların sirrini Zevsə açdı. Elə həmin saat Feb-Apollon güneş şüalarından yaranmış nərdivanla yerə düşdü. O, əli ilə Prometeyin qandallarına toxunan kimi onlar öz-özünə açılıb düşdü, əzabkeşin pəncələrinə vurulmuş dəmir pazlar isə yox oldu.

Apollon dedi:

– Prometey, Zevs səni azad edir. Ancaq o, səni əbədi dustaq etmək üçün içdiyi andı pozmamaq naminə, həmişə başında çələng gəzdirməni əmr edir. Çələngin halqası sənin bağlandığın zəncirləri əvəz etməlidir.

– Yaxşı, – İapetin oğlu cavab verdi, – mən heç vaxt çələngi başımdan çıxarmayacağam. Lakin mən çələngi Zevsin andı naminə yox, könüllü olaraq insanlardan ötrü çəkdiyim əzab və işgəncələrə xatirə kimi gəzdirəcəyəm və insanları heç vaxt unutmayacağam.

Prometeyin bu sözlərini insanlar da unutmadılar. O vaxtdan etibarən ziyafətlərdə, bayramlarda, allahların mehrabları önündə və başqa təntənəli şənliklərdə başı çələnglə bəzəmək adət oldu. İnsanlar hər dəfə başlarına çələng qoyduqda, Prometeyi minnətdarlıqla yad edirlər.

– Herakl, sənin atdığın, qartalı öldürdüyün ox xatirə olaraq, – Apollon sözünə davam etdi, – göyə aparılacaqdır.

Doğrudan da həmin ox indi də gecələr göydə parıldayır və biz onu Ox bürcü adlandırırıq.

– Ancaq allahlardan görəsən hansı mənim yerimə Tartara getməyə razılıq verəcəkdir? – Prometey soruşurdu, – Tartar məni gözləyir, mən artıq onun çağırışını eşidirəm.

Bayaqdan bəri dinməzcə dayanan Herakl dilləndi:

– Mənim müəllimim Xiron ölməzlikdən əl çəkib. Prometeyin əvəzinə Tartara getməyə həvəslə razı olar.

MÜDRİK XİRONUN HEKAYƏTİ

Xiron titanların padşahı Kronun oğlu, Prometeyin əmisi oğlu idi. Xiron qeyri-adi xeyirxahlığı, mülayimliyi, həqiqətpərəstliyi və müdrikliyi ilə fərqlənirdi. Prometey insan nəslinin ilk müəllimi idi. Xironun şagirdləri isə allahların adi insanlardan olan övladları – allah və qəhrəmanlar idi. Onların çoxu Fessaliyanın Pelion dağında, Xironun mağarasında böyümüş və tərbiyə almışdılar. Feb – Apollon yenicə doğulmuş oğlu, gələcək təbabət allahı Asklepini tərbiyə olunmaq üçün Xironun yanına gətirmişdi. Asklepi Xirondan həkimlik sənətini böyük məharətlə öyrənmişdi. O, hətta ölünü belə diriltmək qabiliyyətinə malik idi. Üzümçülərin və şərabçıların allahı şən Dionis Xironun yanında böyümüşdü. Boya-başa çatdıqdan sonra o, çox şöhrətlənmiş və bütün dünyanı gəzərək hər yerdə üzümlüklər salmışdır. Ancaq deyilənə görə üzümün şirin gilələrini ilk dəfə Dionisə, məhz kentavr Xiron yedirtmiş və Ana – Yerin bu gözəl hədiyyəsini insanlara verməyi ona məsləhət görmüşdü.

Xiron vəhşi heyvanları ovlamağın sirrini bilirdi. O bu sənəti, əkinləri, zeytun meşələrini və arı pətəklərini mühafizə edib qoruyan allah Aristeyin oğlu Akteona öyrətmişdi. Bir dəfə ovçuluq ilahəsi Artemidanın Akteona qəzəbi tutmuş və onu marala döndərmişdi. Marala dönmüş sahiblərini tanımayan itlər, Akteonun üstünə cumaraq tikə-tikə etmiş, sonra onu axtara-axtara gəlib kentavrın mağarasının girəcəyində oturaraq ara vermədən ulamağa başlamışlar. Yalnız Xiron, Akteonun heykəlini düzəldib, onlara göstərdikdən sonra itlər səslərini kəsib sakitləşmişlər.

Xirondan müxtəlif elm və sənətləri öyrənən digər qəhrəmanlar içərisində Asklepinin oğulları – hər ikisi gözəl həkim olan Maxaon və Podaliri, doqquz insan ömrü qədər yaşayıb hətta öldükdə belə yaddaş və ağlını itirməyən, gələcəyi xəbər verən kor kahin Tiresi, Dioskurun Kastor və Polidevk adlı oğulları da vardı. Bir-birini həddən artıq sevən əkizlərin bu qardaşlıq məhəbbətinə mükafat olaraq Zevs onları göyə aparmış və əkizlər bürcünə çevirmişdir. Xironun doğma nəvəsi Peley və qəhrəman Heraklın özü də onun yanında tərbiyə alıb böyümüşdülər.

KENTAVRLARIN LAPİFLƏRLƏ DÜŞMƏNÇİLİYİ NƏ İLƏ QURTARDI

Kentavrlar öz qonşularına, xüsusilə Fessaliyadakı lapiflər qəbiləsinə çox əziyyət verirdilər. Onlar lapiflərlə daima düşmənçilik edərək, onların yaşadığı yerləri viran edirdilər. Hər quldur basqını zamanı son dərəcə əyyaş olan kentavrlar ilk növbədə şərab səhənglərini ələ keçirməyə çalışırdılar. Kefləndikdən sonra isə tamamilə ağıllarını itirərək, həyasız və azğın olurdular. Buna baxmayaraq, lapiflər dostluq və sülh şəraitində yaşamaq üçün davakar qonşularını hər vasitə ilə sakitləşdirməyə çalışırdılar.

Lapiflərin padşahı Piritoy evlənərkən kentavrları da toya dəvət etdi. Qonaqlar bu dəvəti həvəslə qəbul edib toy məclisinə gəldilər. Onlar əvvəlcə özlərini sakit və ədəblə aparırdılar. Lakin tezliklə şərab başlarını dumanlandırdı və kentavrlar ev sahiblərini kobudcasına ələ salmağa başladılar. Ancaq lapiflər öz sakitliklərini pozmadılar. Əgər kentavr Evrition olmasaydı, bəlkə də hər şey yaxşılıqla qurtaracaqdı. Evrition birdən gəlinin – Hippolamiyanın üstünə atıldı, onu öz sağrısının üstünə ataraq dik cığırla dağlara tərəf çapmağa başladı.

Bu yerdə daha lapiflərin səbri tükəndi. Vuruşma, daha doğrusu, qırğın başlandı, çünki sərxoş kentavrlar ciddi müqavimət göstərə bilmirdilər. Lapiflər toy şənliyindəki kentavrları qırıb qurtardıqdan sonra, ümumiyyətlə onlarla bu iyrənc qonşuluqdan birdəfəlik yaxalarını qurtarmaq qərarına gəldilər. Lapiflər dostcasına əlbir olub, kentavrların daxmalarına və mağaralarına hücum edərək onların hamısını son nəfərinədək Fessaliyadan qovub çıxartdılar. Qaçqınlar cənuba doğru üz qoydular. Xiron da onların arasında idi. Onlar Peloponnes yarımadasının Elida torpağında – itirilmiş vətənləri Fessaliyanı xatırladan dağlar arasında məskən saldılar.

Xiron başa düşürdü ki, lapiflərdən aldıqları ağır zərbələr belə, kentavrları ağıllandıra bilməyəcəkdir. Ona görə də o, kentavrlarla bir yerdə yaşamaq istəmədi. Xiron daha cənuba gedərək Peloponnes yarımadasının qurtaracağı olan Maley burnunda özünə bir mağara tapdı. O, burada yaşamaqla kentavrları yaxalayacaq yeni fəlakətlərdən uzaq olacağını güman edirdi. Ancaq təəssüf ki, o, səhv etmişdi.

HERAKL KENTAVRLARI QIRIB MƏHV EDİR

Erimanf dağında yaşayan nəhəng bir qaban Elida ilə qonşu olan yerləri dağıdıb viran edirdi. Heraklın xidmət etməyə məcbur olduğu padşah Evrisfey, Erimanf qabanını tutub öldürməyi ona əmr etdi. Herakl qabanı izləyərək (bu onun göstərdiyi on iki qoçaqlığın beşincisi idi) gəlib kentavr Folun evinə çıxdı. Fol Heraklı mehribanlıqla və gülərüzlə qarşıladı. Onun evində də gecələməyə dəvət edərək, axşam yeməyinə qonaq etdi. Yenə də şərab kentavrların böyük fəlakətinə səbəb oldu və onları məşum, əlacı tapılmayan bir bədbəxtliyə saldı.

Süfrəyə şərab badələri gələndə, kentavrlar içkinin şirniklendirici iyini duyaraq, hər tərəfdən yığışıb Herakla hücum çəkdilər. Onlar Heraklın dəyənəyinin zərbəsi altında sanki mahir biçinçinin orağı altında sünbül kimi yerə sərilirdilər. Onların çox azı sağ qala bildi (ölənlər içərisində həmqəbilələrinin ayaqları altında tapdalanan qonaqpərəst ev sahibi də var idi). Sağ qalanlar isə arxalarına baxmadan qaçırdılar. Herakl gecə-gündüz yorulmadan öz düşmənlərini qovaraq, onları izləyirdi və onun dalbadal atdığı oxların biri də boşa çıxmırdı. Beləliklə, onlar bütün Peloponnes yarımadasını kəsə yolla yüyürdülər. Artıq irəlidə gömgöy dəniz görünürdü. Daha qaçmağa yer yox idi. Bu zaman birdən kentavrlar, yaxınlıqda Heraklın köhnə müəllimi Xironun mağarasının olduğunu xatırladılar. Onlar Heraklın öz müəllimini həmişə sevdiyini və ona hörmət bəslədiyini bilirdilər. Bəlkə şagird müəlliminin xatirinə onlara rəhm etdi? Kentavrlar dəstə ilə Xironun mağarasının ağzına cumdular. Herakl isə kamanı bir an belə boş qoymayıb oxları dalbadal atmaqda davam edirdi. Qəzəb hissi Heraklın gözlərini elə örtmüşdü ki, Xiron mağarasının ağzına çıxdıqda belə o, kamanı yerə qoymadı.

SAĞALMAZ YARA

Nəhayət, kentavrların dəhşətli bağırtı səsləri kəsildi. Bir zamanlar böyük bir qəbilə olan kentavrların sonuncu nümayəndələri nəfəssiz və hərəkətsiz halda uzanıb qalmışdılar. Yalnız indi Herakl özünə gəldi. Əvvəlcə kentavrların meyitləri arasında yerə sərilmiş Xironun nəfəs aldığını gördükdə Herakl hədsiz dərəcədə sevinməyə başladı. Lakin bu sevinc hissi bir anda sönüb getdi: ox müdrik kentavrın dizinə sancılmışdı. Heraklın oxlarının ucları isə Lerney əjdahasının ödünə batırıldığından, istər adi insanların, istərsə də allahların bu oxdan aldıqları yaralar heç vaxt sağalmırdı.

Xiron bunu Herakldan da yaxşı bilirdi. O öz mağarasına girdi. Onun əzabları Prometeyinkindən də dəhşətli idi. Prometey, heç olmasa kimin üçün əzab çəkdiyini bilir və bu əzablardan xilas olacağına ümid edirdi. O isə axmaq bir təsadüfün nəticəsində, mənasız yerə əzab çəkməli olmuşdu. Hətta ölüm belə onun əzablarına son qoya bilməzdi. Axı o, ölməz idi. İstər Maxaon və Podaliri, istərsə də təbabət allahı Asklepinin özü əbəs yerə, müəllimlərinin getdikcə bütün bədəninə yayılan dözülməz şiddətli ağrıları azaldaraq sakitləşdirməyə çalışırdılar. Müdrik Xironun özü də allahların və insanların hökmdarı Zevsə sağalması üçün yox, mənfur ölməzliyi onun üzərindən götürməsi üçün yalvarırdı. Lakin İldırımsaçan susaraq cavab vermirdi. Nəhayət, indi yaralı kentavrın yalvarışlarına cavab vermək vaxtı gəlib çatdı.

XİRONUN ÖLÜMÜ – PROMETEYİN ÖLMƏZLİYİ

– Mənim müəllimim Xiron ölməzlikdən əl çəkib. Prometeyin əvəzinə Tartara getməyə həvəslə razı olar, – Maley burnunda onun gözlərini örtərək, böyük fəlakətə səbəb olan qəzəbini və öz müəlliminə qarşı törətdiyi bağışlanmaz günahını heç vaxt unutmayan Herakl dilləndi. Oğlunun sözlərini eşidən Zevs, öz cəld ayaqlı xəbərgətirəni İrida – Qövsi-qüzehi yerə, Xironun yanına göndərdi.

İrida dedi:

– Xiron, Zevsdən dəfələrlə sənə ölüm göndərməsini xahiş etmisən, allahların və insanların hökmdarı sənin, Prometeyin əvəzində ölüb, ruhunun əbədi olaraq, yer altına – ölülər dünyasının ən dərin yeri Tartara düşməsinə razı olub-olmadığını bilmək istəyir.

– Razıyam, – kentavr cavab verdi.

Beləliklə, Xiron ölümü qəbul etdi və qaranlıq Tartara endi. Bədənini isə Zevs göyə qaldırıb Oxatan bürcünə çevirdi.

HERAKL

Mikendə şah Elektrion hökmdarlıq edirdi. Pterela padşahın oğlanlarının başçılığı ilə teleboylar onun naxırını oğurladılar. Oğurluq malları geri qaytarmaq istəyən vaxtı teleboylar Elektrionun oğlanlarını öldürdülər. Elektrion padşah car çəkdirdi ki, gözəl qızı Alkmenanı naxırı qaytaran və oğlanlarının intiqamını alana ərə verəcək. İgid Amfitrion Elektrionun naxırını döyüşsüz-zadsız geri qaytardı, çünki teleboyların padşahı Pterela oğurluq naxırın qaravulunu Elidin padşahı Poliksene tapşırdı. Poliksen isə naxırı Amfitriona verdi. Amfitrion naxırı Elektriona qaytardı və Alkmenanın "hə"sini aldı. Toy günü kef məclisində naxırın üstündə sözləri çəp gəldiyindən Amfitrion Elektrionu öldürdü və arvadı Alkmena ilə Mikenə qaçmağa məcbur oldu. Alkmena cavan əri ilə qürbətə qaçmağa bir şərtlə razılaşdı ki, qardaşlarının intiqamını Pterelanın oğlanlarından alacaq. Amfitrion Fiv məmləkətinin padşahı Kreontun yanında sığınacaq tapdı və qoşunla teleboylara qarşı döyüşə yollandı. Alkmenanın gözəlliyi Zevsin ağlını başından almışdı. Amfitrionun evdə olmamasından istifadə edən Zevs onun cildinə girdi və onun arvadı ilə yatdı. Tezliklə Amfitrion evə qayıtdı. Sonra Alkmenanın Zevsdən və Amfitriondan iki əkiz oğlu oldu.

Zevsin və Alkmenanın ulu oğlunun doğulacağı gün tanrılar uca Olimpə toplaşmışdılar. Oğlunun doğulacağından sevinən qüdrətli Zevs tanrılara dedi:

– Allah və ilahələr sözümə diqqətlə qulaq asın: bunu mən sizə ürəyimin hökmü ilə deyirəm!

Bu gün ulu bir qəhrəman doğulacaq; o, mənim oğlum Perseyin nəslindən törəyən bütün qohumların hökmdarı olacaq.

Zevsin ölləri Alkmenanı alması onun arvadı Heranı qəzəbləndirdi. Alkmenanın oğlunun, bütün Perseylər üzərindəki hakimiyyətini bicliklə aradan qaldırmaq fikrinə düşdü. Hera kin-küdurətini üzə vurmadan Zevsə dedi:

– Ey ulu ildırımsaçan, sən düz demirsən! Sən sözünü heç vaxt yerinə yetirməyəcəksən! Tanrıların sarsılmaz andına qəsəm qıl ki, Perseidlər nəslindən bu gün birinci doğulan bütün qohumlarının hökmdarına çevriləcək.

Yalan ilahəsi ata Zevsin ağlını başından çıxartdı və Heranı bicliyinə şübhəsi olmayan İldırımsaçan and içdi. Hera həmin andaca Olimpi tərk elədi və qızıl arabasını Arqosa sürdü. O, gəlib Arqosa çatan kimi Perseidanın tanrılara tay arvadı Sfenelanın oğlunun dünyaya gəlməsini sürətləndirdi və həmin gün Persey nəslindən dünyaya bir zəif, xəstə uşaq gəldi. Bu, Sfenelanın oğlu Evrisfey idi. Hera tələsik Olimpə qayıtdı və bulud qovan Zevsə dedi:

– Ey İldırımsaçan Zevs, eşit məni! İndicə şanlı Arqosda Perseidlərin Sfenelasının Evrisfey adlı oğlu oldu. O bu gün doğulan ilk uşaqdı, buna görə də bütün Perseylər nəslinin üzərində hökmdarlıq eləməlidi.

Zevs kədərləndi; allah Heranın hiyləsini ancaq indi başa düşdü. Ağlını başından alan yalan ilahəsi Ataya onun acığı tutdu; Zevs hirsli-hirsli ilahənin saçından yapışdı və götürüb Olimpdən yerə tulladı. O vaxtdan yalan ilahəsi Ata insanların arasında yaşayır.

Zevs Hera ilə sarsılmaz bir müqavilə bağladı: onun oğlu ömrü boyu Evrisfeyin hakimiyyəti altında olmalıdı. O, Evrisfeyin buyruğu ilə on iki ulu qəhrəmanlıq göstərməli və bundan sonra həm Evrisfeyin hakimiyyətindən azad olmalıdı, həm də ölməzlik qazanmalıdı. İldırımsaçan Zevs başa düşürdü ki, oğlunu çox təhlükələr gözləyir, buna görə də Afina – Palladaya tapşırdı ki, Alkmenanın oğluna kömək eləsin. Sonralar oğlunun zəif və qorxaq Evrisfeyin qulluğunda durduğunu görən Zevs tez-tez kədərlənirdi. Amma Heraya verdiyi sözü poza bilmirdi.

Sfenelanın oğlu ilə eyni vaxtda Alkmenanın əkiz oğlu oldu: böyüyün – Zevsin oğlunun adını Alkid, kiçiyin – Amfitrionun oğlunun adını isə İfikl qoydular. Alkid Yunanıstanın görkəmli qəhrəmanı idi. Sonradan onu kahin Herakl çağırırdılar. O bu adla məşhurlaşdı, əbədilik qazandı və Olimp tanrıları sırasına qəbul edildi.

Hera işıqlı dünyaya göz açdığı ilk gündən Heraklı izləməyə başladı. Günlərin bir günü Hera öyrəndi ki, Herakl qardaşı İfikllə birlikdə doğulubdu və bələkdə yatır. O, təzəcə doğulmuş qəhrəmanı məhv eləmək üçün iki ilan göndərdi. Gözlərini işıldada-işıldada ilanlar sürünüb Alkmenanın otağına soxulanda şər qarışmışdı. Onlar sakitcə əkizlər yatan beşiyin yanına süründülər, balaca Heraklın bədəninə dolanıb onu boğmaq istəyirdilər ki, Zevsin oğlu oyandı. O xırda əllərini ilanlara sarı uzatdı, onların başından yapışdı elə möhkəm sıxdı ki, ilanlar boğulub öldülər. Alkmena dəhşət içində yatağından dik atıldı. Beşiyin yanındakı ilanları görən arvadlar bərkdən qışqırdılar, özlərini beşiyə sarı atdılar.

Arvadların qışqırığına yalın qılınclı Amfitrion özünü yetirdi. Adamlar beşiyin başına yığışmışdılar, onlar qeyri-adi bir möcüzə gördülər: balaca Herakl əlində iki nəhəng ilan tutmuşdu, boğulmuş ilanlar hələ də onun əlində zəif-zəif çapalayırdılar. Oğlunun gücündən heyrətə düşən Amfitrion kahin Tresiyanı çağırdı və körpənin gələcək taleyini soruşdu. Gələcəkdən xəbər verən kahin onun necə qəhrəmanlıq göstərəcəyini dedi və ömrünün sonunda uşağın əbədilik qazanacağını söylədi.

Alkmenanın böyük oğlunun gələcək şöhrətindən xəbər tutan Amfitrion onu əsl qəhrəmanlara layiq tərbiyə verdi. Amfitrion təkcə Heraklın güclənməsinin qayğısına qalmırdı, o həm də uşağın təhsilinin qayğısını çəkirdi. Ona oxumaq, yazmaq, oxumaq və kifara çalmaq öyrətdilər. Amma Herakl elmdə və musiqidə güləş, yay atmaq, silah oynatmaq sahəsindəki kimi uğurlar qazanmadı. Orfeyin qardaşı, musiqi müəllimi Lin tez-tez şagirdinə acıqlanırdı, hətta arabir onu cəzalandırırdı. Günlərin bir günü şagirdinin tənbəlliyi onu haldan çıxartdı və dərsin ortasında ona əl qaldırdı. Əsəbiləşmiş Herakl kifaranı götürüb Linin başına çırpdı. Cavan Herakl gücünü hesablamamışdı. Kifara onun başına elə möhkəm dəydi ki, Lin yıxılıb öldü. Adam öldürdüyünə görə Heraklı məhkəməyə çağırdılar. Alkmenanın oğlu özünü təmizə çıxararaq dedi:

– Axı hakimlərin ən ədalətlisi Radamant deyir ki, zərbəyə zərbəylə cavab vermək olar.

Hakimlər Herakla bəraət verdilər. Amfitrion belə hadisələrin olmayacağına əmin deyildi, buna görə də Heraklı Kiferon meşəliyinə naxıra göndərdi.

HERAKL FİVDƏ

Herakl Kiferon meşəliyində boya-başa çatdı və qüdrətli bir cavan oldu. Ucaboylu idi, başqalarından bir baş yuxarıda dururdu, gücdə hamını ötüb keçirdi. Hərbi hazırlıqda Herakla tay yox idi, kamandan və nizədən elə məharətlə istifadə edirdi ki, nişanı boşa çıxmırdı. Herakl cavanlığında dağların zirvəsində yaşayan bir qorxunc Kiferon şirini öldürdü və dərisini soyub götürdü. Şir dərisini Herakl plaş əvəzi qüdrətli çiyinlərinə salırdı. Şirin pəncələrini sinəsinə bənd elədi, başının dərisini isə dəbilqə kimi başına qoyurdu. Herakl Nemey meşəliyindən kökü ilə birlikdə çıxartdığı və dəmir kimi möhkəm göyrüş ağacından özünə

nəhəng bir toppuz düzəltdi. Herakla qılıncı Hermes, yay-oxu Apollon, qızıl zirehi Hefest bağışladı, onun geyimini isə Afinanın özü toxudu.

Herakl ərsəyə çatandan sonra Orhomena şahı Erqinin üzərində qələbə çaldı. Fiv Erqin şaha hər il böyük xərac verirdi. O, döyüş vaxtı Erqini öldürdü, Orhomenanın üzərinə fivlərin verdiyi xəracdan iki dəfə artıq xərac qoydu. Buna görə də Fiv padşahı Kreont qızı Meqeranı ona ərə verdi və tanrılar Herakla bir-birindən göyçək üç oğul bəxş elədilər.

Herakl yeddi darvazalı Fivdə xoşbəxt həyat sürürdü. Amma ilahə Heranın Zevsin oğluna nifrəti azalmamışdı. Hera onu dəhşətli bir xəstəliyə düçar elədi. Herakl ağlını itirdi, onun başına hava gəldi. Qeyzləndiyi günlərin birində Herakl öz uşaqlarını da, qardaşı İfiklin uşaqlarını da öldürdü. Ağlı başına gələndən sonra Herakl dərin yasa batdı. İyrənc qatilliyin günahından təmizlənəndən sonra Herakl Fivi tərk elədi və müqəddəs Delfə yollandı, tanrı Apollondan soruşmaq istəyirdi ki, nə edim. Apollon Herakla tapşırdı ki, əcdadlarının yurdu Tirinfə yollansın və on iki il Evrisfeyin qulluğunda dursun. Letonun oğlu kahinlərin diliylə bildirdi ki, Herakl Evrisfeyin tapşırığı ilə on iki ulu qəhrəmanlıq göstərsə, əbədilik qazanacaq.

Herakl Tirinfdə köç saldı və zəif qorxaq Efrisfeyə nökərçilik eləməyə başladı. Evrisfey bu qüdrətli qəhrəmandan qorxurdu, buna görə də onu Mikenə buraxmırdı. Zevsin oğluna bütün tapşırıqlarını Kopreyin vasitəsi ilə çatdırırdı.

HERAKLIN QƏHRƏMANLIQLARI

NEMEY ŞİRİ

Birinci qəhrəmanlıq

Herakl Evrisfeyin birinci tapşırığını çox gözləmədi. O, Herakla Nemey şirini öldürməyi tapşırdı. Tifondan və Exidnadan yaranmış bu şir çox nəhəng idi. Şir Nemey şəhəri ətrafında yaşayırdı və şəhərin civarını xaraba qoymuşdu. Herakl Nemeyə gələn kimi şirin yuvasını axtarıb tapmaqdan ötrü dağlara yollandı. Qəhrəman gəlib dağların yamacına çatanda günortaydı. Gözə canlı adam dəymirdi: nə çobanlar vardı, nə də əkinçilər. Azğın şirin qorxusundan hamı buralardan qaçmışdı. Herakl dağların meşəlik yamaclarında, dərələrdə şirin yuvasını

çox axtardı; nəhayət günəş qərbə sarı əyilən vaxt Herakl zülmət bir dərədə yuvanı tapdı. Yuva iki çıxışlı nəhəng mağaradaydı. Herakl çıxış yollarından birinin ağzını daşla qapadı və oturub şiri gözləməyə başladı. Qaş qaralana yaxın yalından qıllar sallanan bədheybət şir göründü. Herakl yayı çəkdi, dalbadal şirə üç ox atdı, amma şirin dərisi elə qalınıydı ki, oxlar şirə dəyib yerə düşdü. Şir hiddətlə nərildədi, onun nəriltisi göy gurultusu kimi dağları başına götürdü. Şir dərədə dayanmışdı və acığından par-par parıldayan gözləri ox atmağa ürək eləmiş adamı axtarırdı. Budur, şir Heraklı gördü və iri sıçrayışlarla qəhrəmanın üstünə yeridi. Heraklın toppuzu şimşək kimi çaxdı və ildırım gücüylə şirin başına dəydi. Dəhşətli zərbədən gicəllənmiş şir yerə sərildi. Herakl şirin üstünə atıldı, qüdrətli əlləriylə onun boynundan yapışıb boğdu. Öldürdüyü şiri çiyninə atıb, Nemeyə qayıtdı. Zevsə qurban kəsdi, birinci qəhrəmanlığının şərəfinə Nemey oyunlarının əsasını qoydu. Herakl öldürdüyü şiri Mikenə gətirəndə Evrisfeyin bədheybət şirə baxması ilə rənginin ağarması bir oldu. Miken şahı başa düşdü ki, Heraklda qeyri-insani güc var. O, Mikenin qapılarına yaxınlaşmağı Herakla qadağan elədi. Herakl qəhrəmanlığını təsdiq edən əşyalar gətirəndə, Evrisfey onlara hündür Miken divarlarından baxırdı.

LERNEY ƏJDAHASI

İkinci qəhrəmanlıq

Birinci qəhrəmanlıqdan sonra Evrisfey Heraklı Lerney əjdahasını öldürməyə göndərdi. Bu bədheybətin bədəni ilan bədəniydi, doqquz əjdaha başı vardı. Nemey şiri kimi, bu əjdaha da Tifonla Exidnadan yaranmışdı. Əjdaha Lerna şəhərinin yaxınlığındakı bataqlıqda yaşayırdı, yuvasından çıxırdı, sürü-sürü naxırı məhv eləyirdi, ətrafı viran qoyurdu. Doqquz başlı əjdaha ilə vuruşmaq təhlükəli idi, çünki onun doqquz başından biri ölməz idi. Herakl qardaşı oğlu İolay ilə yola düzəldi. Qəhrəman gəlib Lerna şəhəri yaxınlığındakı bataqlığa çatdı. İolayı arabanın yanında qoyub, özü əjdahanı axtarmağa yollandı. Əjdaha dörd yanını bataqlıq bürümüş mağarada yaşayırdı. Herakl oxlarını qıpqırmızı qızartdı, dalbadal əjdahanın üstünə yağdırmağa başladı. Heraklın oxları əjdahanı cinləndirdi. Əjdaha parlaq pulcuqlarla örtlümüş bədənini qıvrılda-qıvrılda mağaradan sürünüb çıxdı. Nəhəng quyruğunun üstündə dik qalxdı və qəhrəmana hücuma hazırlaşdı, amma

Zevsin oğlu ayağını onun bədəninə dirəyib əjdahanı torpağa sıxdı. Əjdaha quyruğunu Heraklın ayaqlarına doladı və onu yıxmağa çalışdı. Qəhrəman isə sarsılmaz bir qala kimi yerindən tərpənmirdi və ağır toppuzunun zərbəsi ilə bir-bir onun başını qopardırdı. Toppuz havada qasırğa kimi vıyıldayırdı; əjdahanın başları qopmuşdu, amma o hələ sağ idi. Əjdahanın hər qopan başının yerində ikisi yaranırdı. Ona kömək də gəldi. Bataqlıqdan bədheybət bir xərçəng sürünüb çıxdı və qısqaclarını Heraklın ayaqlarına sancdı. Qəhrəman işi belə görüb İolayı köməyə səslədi. İolay bədheybət xərçəngi öldürdü, yaxınlıqdakı meşənin bir hissəsini yandırdı və yanan ağac parçaları ilə Heraklın kəsib qopartdığı başların yerini yandırdı. Əjdaha yavaş-yavaş heydən düşürdü. Nəhayət, əjdahanın ölməz başı da bədənindən ayrıldı. Bədheybət əjdaha məğlub olmuşdu, üstünə iri bir qaya qoydu. Qəhrəman sonra əjdahanın bədənini yardı və oxlarını onun zəhərli ödünə batırdı. O vaxtdan Heraklın oxlarının yarası sağalmırdı. Herakl təntənəylə Tirinfə qayıtdı. Tirinfdə onu Evrisfeyin yeni tapşırığı gözləyirdi.

STİMFAL QUŞLARI

Üçüncü qəhrəmanlıq

Evrisfey Herakla Stimfal quşlarını qırıb qurtarmağı tapşırdı. Bu quşlar arvad şəhəri Stimfalın yan-yörəsini demək olar ki, bomboş səhraya çevirmişdilər. Onlar adamlara və heyvanlara hücum edirdilər, onları mis caynaqları və dimdikləri ilə cırırdılar. Ən dəhşətlisi bu idi ki, quşların qanadları bərk tuncdan idi və şığıyanda onlara hücum eləyəni ox kimi yaralaya bilirdilər. Evrisfeyin bu tapşırığını yerinə yetirmək Herakl üçün yaman ağır idi. Cəngavər Afina – Pallada onun dadına çatdı. O, Herakla iki mis təbil verdi (təbilləri tanrı Hefest düzəltmişdi) və Herakla tapşırdı ki, Stimfal quşlarının yuva qurduğu meşəlikdəki hündür təpənin üstünə qalxarsan və təbili döyəcləyərsən, quşlar qanad çalıb göyə qalxanda isə oxla onların axırına çıxarsan. Herakl deyilən kimi də elədi. Təpənin üstünə qalxdı, təbili döyəclədi, elə qulaqbatırıcı cingilti qopdu ki, iri quş dəstələri meşənin üstünə qalxdılar və dəhşət içində onun başı üzərində dövrə vurmağa başladılar. Onlar ox kimi iti mil ləələklərini yerə yağdırdılar, amma ləələklər təpədə dayanmış Herakla dəymədi. Qəhrəman kamanını əlinə aldı və ölümcül

oxlarla quşları qırmağa başladı. Qorxuya düşmüş quşlar buludlardan yuxarı qalxdılar. Onlar Yunanıstandan uzaqlara – Ponta Evksin sahillərinə uçub getdilər və bir daha Stimfal tərəflərə qayıtmadılar. Evrisfeyin tapşırığını Herakl beləcə yerinə yetirdi və Tirinfə qayıtdı, qayıdan kimi də daha ağır bir qəhrəmanlıq dalınca yollandı.

KERİNEY XALLI MARALI

Dördüncü qəhrəmanlıq

Evrisfey bildirdi ki, Arkadidə Keriney xallı maralı yaşayır, xallı maralı ilahə Artemida insanlara cəza kimi göndərmişdi. Xallı maral tarlaları viran qoymuşdu. Evrisfey Herakla tapşırdı ki, xallı maralı tutsun və diri-diri Mikenə gətirsin. Bu xallı maral dedikcə gözəl idi: buynuzları qızıldan, ayaqları isə misdən idi. Yorulmaq bilmədən Arkadii dağlarında və vadilərində külək kimi çapırdı. Herakl düz bir il xalı maralı izlədi. Xallı maral dağlardan, düzənlərdən keçirdi, dərələrdən hoppanırdı, üzüb çayları adlayırdı. Nəhayət, Herakl maralı qova-qova gəlib şimala – soyuqlar ölkəsinə və İstra çayının mənsəbinə yetişdi. Xallı maral şimala çatıb dayandı. Qəhrəman onu tutmaq istədi, amma xalı maral sürüşüb onun əlindən çıxdı və ox kimi cənuba sarı götürüldü. Qaçdı-qovdu yenidən başlandı. Herakl xallı marala bir də Arkadidə çatdı. Bu qədər qaçdı-qovdudan sonra da xallı maral heydən düşməmişdi. Ümidsizləşmiş Herakl boşa çıxmayan oxuna əl atdı. Qızıl buynuzlu maralı ayağından yaraladı qəhrəman onu ancaq yaralayandan sonra tutdu. Herakl ecazkar xallı maralı çiyninə atdı, Mikenə yollanmaq istəyirdi ki, acıqlanmış Artemida qarşısına çıxdı və dedi:

– Herakl, məgər sən bilmirdinmi ki, bu xallı maral mənimdir? Sevimli xallı maralımı yaralamaqla məni niyə təhqir elədin? Məgər sən bilmirsənmi ki, mən təhqiri bağışlamıram? Yoxsa güman edirsən ki, sən qüdrətli Olimp allahlarından birisən?

Herakl qəşəng ilahənin qarşısında ehtiramla baş əydi və cavab verdi:

– Ey Letonun ulu qızı, məni qınama! Mən işıqlı Olimpdə yaşayan ölməz tanrıları heç vaxt təhqir eləməmişəm, cah-calallı nəzir verməklə səma tanrılarına həmişə ehtiramımı bildirmişəm, ildırımsaçan Zevsin

oğlu olsam da, heç vaxt özümü onlara tay saymamışam. Sənin xallı maralını öz iradəmlə qovmurdum, bu, Evrisfeyin buyruğudu. Onun qulluğunda durmağı mənə tanrıların özləri tapşırıblar, buna görə də mən Evrisfeyin sözündən çıxa bilmərəm!

Artemida Heraklın günahından keçdi. İldırımsaçan Zevsin oğlu Keriney xallı maralını sağ-salamat Mikenə gətirdi və Evrisfeyə verdi.

ERİMANF QABANI VƏ KENTAVRLARLA DÖYÜŞ

Beşinci qəhrəmanlıq

Misayaqlı xallı maral ovundan sonra Herakl çox dincəlmədi. Evrisfey ona yeni tapşırıq verdi: Herakl Erimanf qabanını öldürməliydi. Bu qaban yaman güclüydü və Erimanf dağında yaşayırdı. Psofis şəhərinin dörd bir yanını viran qoymuşdu. Qaban adamlara da Aman vermirdi, onları iri dişləri ilə öldürürdü. Herakl Erimanf dağına yollandı. Yolüstü müdrik kentavr ona yaxşı bir qonaqlıq verdi. Qonaqlığın şirin yerində kentavr qəhrəmana hörmət eləmək üçün iri çaxır qabının ağzını açdı. Ecazkar çaxırın ətri uzaqlara yayıldı. Ətir başqa kentavrlara da çatdı. Folun çaxır qabını açması kentavrları möhkəm əsəbiləşdirdi. Çaxır təkcə Fola məxsus deyildi, bütün kentavrların malı idi. Kentavrlar Folun evinə cumdular, qəflətən onun və başına sarmaşıqdan çələng qoymuş Heraklın üstünə atıldılar.

Herakl kentavrlardan qorxmadı. O, cəld yerindən dik atıldı və hücuma keçənlərin başına tüstülənən iri kösövlər yağdırdı. Kentavrlar qaçmağa üz qoydular. Herakl onları zəhərli oxa tutub, Maleyə qədər təqib elədi. Kentavrlar Maleydə Heraklın dostu, müdrik kentavr Xironun evində gizləndilər. Herakl onların dalınca Xironun mağarasına soxuldu. Qəzəb içində kamanı çəkdi, ox havada vıyıldayıb qəhrəmanın öz müəllimi Xironun dizinə sancıldı. Dostunu yaraladığını görən Herakl dərdə düşdü, onun yarasını yumağa və sarımağa tələsdi, amma heç kimin Xirona köməyi dəyə bilməzdi. Herakl bilirdi ki, əjdahanın ödü ilə zəhərlənmiş oxun yarası sağalmazdır.

Herakl dərin kədər içində Xironu tərk elədi və tezliklə Erimanf dağına çatdı. O, qorxunc qabanı meşənin qalınlığında tapdı və qışqırıqla qorxudub cəngəllikdən çıxartdı. Herakl uzun müddət qabanı təqib elədi,

nəhayət o, qabanı dağın zirvəsindəki dərin qar olan yerə saldı. Qaban qarda ilişib qaldı. Herakl onun üstünə atıldı, ayaqlarını bağlayıb diri-diri Mikenə apardı. Evrisfey nəhəng qabanı gördü və görən kimi də qorxusundan iri bir tunc qabın içində gizləndi.

ŞAH AVGİNİN TÖVLƏSİ

Altıncı qəhrəmanlıq

Tezliklə Evrisfey Herakla yeni tapşırıq verdi. Herakl günəş allahı Heliosun oğlu, Elida şahı Avginin tövləsini peyindən təmizləməli idi. Günəş allahı oğluna saysız-hesabsız var-dövlət vermişdi. Avginin naxırının ucu-bucağı görünmürdü. Naxırda qar kimi ağ ayaqlı üç yüz öküz, rəngi sidon purpuru kimi qırmızı iki yüz öküz, qu quşu kimi ağappaq on iki öküz vardı. Bir öküz qeyri-adi gözəlliyilə ulduz kimi göz qamaşdırırdı. Herakl Avgiyə bildirdi ki, əgər şah mal-qarasının onda birini ona verərsə, tövlənin bir gün ərzində təmizləyər. Avgi bu şərtə razı oldu. Çünki belə nəhəng tövləni bir günə təmizləməyin mümkünlüyünə inanmırdı. Herakl tövlənin iki qarşı divarını söküb iki çayı – Alfey və Peney çaylarını salamat qalmış divarların arasına yönəltdi. Çayların gur suyu tövlənin bütün peyinini yuyub apardı. Sonra Herakl uçurduğu divarları yenidən hördü. İşini qurtarıb Avgidən vəd etdiyi bəxşişi istədi, lakin Avgi vədindən qaçdı və Herakl Trinifə əliboş qayıtmalı oldu.

Herakl bu hərəkətinə görə Elida şahından dəhşətli intiqam aldı. Bir neçə ildən sonra Evrisfeyin köləliyindən qurtulub böyük bir qoşunla Elidaya hücum çəkdi. Qanlı döyüşdə qalib gəlib Avgini ölümsaçan oxuyla öldürdü. Qələbəni bayram edən Herakl ordusunu yığdı, Pisa şəhərindən zəngin qənimət toplayıb Olimp allahlarına qurban verdi və Olimpiya oyunlarının əsasını qoydu. Oyunlar hər dörd ildən bir, Heraklın öz əliylə ilahə Afina-Palladanın şərəfinə saldığı zeytunlu düzdə keçirilirdi. Herakl Avginin bütün müttəfiqlərindən intiqam aldı. Pilos şahı Neleyin cəzası daha ağır oldu. Ordusuyla Pilosa gəlmiş Herakl şəhəri tutub Neleyi və onun on bir oğlunu öldürdü. Hətta Neleyin oğlu Periklimen də qurtula bilmədi. Bu oğlana dəniz allahı Poseydon aslana, ilana və arıya çevrilmək qabiliyyəti vermişdi. Periklimen arıya çevrilib Heraklın gərdunəsinə qoşulmuş atın üstünə qonanda Herakl onu öldürdü. Yalnız Neleyin bir oğlu – Nestor sağ qaldı. Sonralar Nestor yunanlar arasında öz hünəri və müdrikliyilə şöhrət qazandı.

KRİT ÖKÜZÜ

Yeddinci qəhrəmanlıq

Evrisfeyin yeddinci tapşırığını yerinə yetirməkdən ötrü Herakl Yunanıstanı tərk edib, Krit adasına yollanmağa məcbur oldu. Evrisfey Krit öküzünü Mikenə gətirməyi tapşırmışdı.. Bu öküzü Kritin padşahı Minosa yer yırğalayan Poseydon göndərmişdi; Minos öküzü Poseydona qurban kəsməliydi. Belə gözəl öküzü Minos Poseydona Qurban kəsmək istəmədi, o, öküzü naxıra ötürdü. Paseydona özünün başqa öküzlərindən birini qurban kəsdi. Poseydonun Minosa acığı tutdu və bağışladığı öküzə qızğınlıq göndərdi. Öküz adanın canına düşüb qabağına çıxan hər şeyi məhv edirdi. Herakl öküzü tutdu və əhliləşdirdi. Sonra öküzün belinə minib, dənizlə üzə-üzə Kritdən Peloponnesə keçdi. Herakl öküzü Mikenə gətirdi, Evrisfey isə Poseydonun öküzünü öz naxırına qatmağa qorxdu və öküzü azadlığa buraxdı. Yenidən azadlığa çıxdığını duyan öküz Peloponnes boyu qaçaraq şimala üz tutdu, nəhayət, gəlib Marafon çölündəki Attikaya çatdı. Öküzü Attikada Afinalı qəhrəman Tesey öldürdü.

DİOMEDİN ATLARI

Səkkizinci qəhrəmanlıq

Krit öküzünü əhliləşdirəndən sonra Herakl Evrisfeyin tapşırığı ilə Frakiyaya, bistonlar padşahı Diomedin yanına yollanmalı oldu. Diomedin elə gözəl və güclü atları vardı ki, iki göz istəyirdi tamaşasına dursun. Çidar bu atlara tab gətirmirdi, buna görə də onları dəmir zəncirlə bordağa bağlamışdılar. Padşah Diomed atlarını adam əti ilə bəsləyirdi. Şəhərinə gəlib düşən qərib adamları padşah atların qabağına tullayırdı. Herakl öz adamları ilə Frakiya padşahının məmləkətinə gəlib çıxdı. O, Diomedin atlarını ələ keçirdi və onları öz gəmisinə mindirib apardı. Diomed döyüşkən bistonları ilə sahildə Herakla yetişdi. Herakl atların keşiyini Hermesin oğlu Abderə tapşırdı, özü isə Diomedlə döyüşə girişdi. Heraklın adamları az idi, amma Diomed məğlub oldu və döyüşdə öldürüldü. Qalib Herakl gəmiyə qayıtdı. Gəlib gördü ki atlar

Abderini parçalayıblar. Abderin ölümü Heraklı dərdə saldı. Herakl sevimli Abderin təntənəylə dəfn elədi, qəbrinin üstündə hündür bir təpə ucaltdı, yanında şəhər saldı və şəhərə Abder adını verdi. Herakl Diomedin atlarını Evrisfeyə gətirdi. Evrisfey isə atları buraxmağı əmr elədi. Atlar sıx meşəliklə örtülmüş dağlara qaçdılar, onları meşədə vəhşi heyvanlar parçaladılar.

Herakl Admetin yanında

Herakl Diomedin atlarını gətirməyə gedəndə dostu padşah Admetə baş çəkmək fikrinə düşdü, onsuz da yolu Admetin hökmdarlıq elədiyi Fer şəhərinin yanından keçirdi.

Fer şəhərinin padşahının evində yas idi. Admetin arvadı Alkestida ölməliydi. Vaxtilə Apollonun xahişi ilə tale ilahələri, ulu Moyrlar müəyyənləşdirmişdilər ki, Admet ölümdən can qurtara bilər, amma ömrünün ən son anında kimsə öz xoşuyla padşahın əvəzinə Aidin zülmət səltənətinə getməlidir. Ölüm saatı yaxınlaşanda Admet qoca, əldəndildən düşmüş valideynlərindən xahiş elədi ki, onlardan biri onun əvəzində ölməyə razılıq versin, amma ata-ana razılaşmadı. Fer sakinlərinin heç biri padşah Admetin əvəzinə ölməyə razılıq vermədi.

İşi belə görən cavan, göyçək Alkestida öz həyatını sevimli ərinə qurban vermək fikrinə düşdü.

Həmin gün Admetin əvəzinə arvadı ölməyə hazırlaşırdı. Arvad tərtəmiz yuyundu, matəm paltarını geyindi və bəzəklərini taxdı. Alkestida ailə ocağına yaxınlaşıb, evə xoşbəxtlik verən ilahə Qestiyaya üz tutdu və ondan ailəsinə səadət dilədi.

Bədbəxt Admet iztirab çəkirdi:

– Həyatımın bütün sevincini sən özünlə aparırsan, Alkestida! – Admet qışqırdı. – Bütün ömrü boyu sənin həsrətini çəkəcəm. Ey tanrılar, ey tanrılar, belə arvadı da adamın əlindən alarlar?

Alkestidanın səsi zorla eşidildi:

– Əlvida! Gözlərim əbədilik qapandı. Əlvida, övladlarım! Daha mən heç nəyəm. Əlvida, Admet!

– Oy, heç olmasa bircə dəfə də gözünü aç! Uşaqları tərk eləmə! Heç olmasa qoy mən də sənlə ölüm! – Admet göz yaşları içində qışqırdı.

Alkestidanın gözləri yumuldu, bədəni soyudu və o, canını tapşırdı. Təsəllisiz Admet cənazənin üstündə hönkür-hönkür ağlayır və taleyindən şikayətlənirdi.

Admet dəbdəbəli dəfn mərasimi hazırlamağı tapşırdı, səkkiz ay arvadların ən yaxşısı Alkestidaya ağlaşma qurdu. Bütün şəhər sakinləri bu mehriban məlikəni çox istəyirdilər, buna görə də hamı yasa batmışdı.

Alkestidanın cənazəsini məqbərəyə aparmağa hazırlaşırdılar, elə bu vaxt Herakl şəhərə gəlib çıxdı. Herakl Admetin sarayına yollandı, sarayın qarşısında dostu ilə qarşılaşdı. Admet İldırımsaçan Zevsin oğlunu hörmətlə qarşıladı. Qonağını kədərləndirməmək üçün dərdini gizlətməyə çalışdı. Şənlik zamanı Herakl dostunun dərdli olduğunu hiss elədi və nökəri sorğuya tutdu, nəhayət nökər dilə gəldi:

– Ey yadelli, Admetin arvadı bu gün Aidin məmləkətinə gedibdi.

Herakl kədərləndi. Dostunun ailəsinin yasında başına sarmaşıq çələngi qoyması və onun evində kef çəkməsi Heraklın qəlbini ağrıtdı. Herakl qərara aldı ki, müsibətinə baxmayaraq onu qonaqpərvərliklə qəbul eləmiş Admetə minnətdarlığını bildirsin. Ölüm tanrısı Tanatın şikarını – Alkestidanı onun əlindən almaq fikrinə düşdü.

Herakl nökərdən Alkestidanın məqbərəsinin yerini öyrəndi və tələsik ora yollandı. O, məqbərənin arxasında gizləndi, gözləməyə başladı ki Tanat nə vaxt uçub gələcək və qəbrin yanındakı qurban qanından içəcək. Budur, Tanatın qara qanadlarının sədası eşidildi, qəbir soyuqluğu duyuldu; ölüm tanrısı, uçub məqbərənin yanına gəldi və acgözlüklə dodaqlarını qurban qanına sıxdı. Herakl pusqudan çıxdı və Tanatın üstünə atıldı. O, qüdrətli əlləriylə ölüm tanrısını qucaqladı və onların arasında dəhşətli bir mübarizə başladı. Herakl var gücünü toplayıb ölüm tanrısı ilə vuruşurdu. Tanat sümüklü əlləriylə Heraklın sinəsini basıb əzirdi, bumbuz nəfəsi onun üzünü yalayırdı, qanadlarından isə ölüm soyuqluğu axırdı. Nəhayət, İldırımsaçan Zevsin qüdrətli oğlu Tanatı məğlub elədi. O, ölüm tanrısını möhkəm-möhkəm sarıdı və azadlığının əvəzinə Alkestidanı həyata qaytarmağı tələb etdi. Tanat Admetin arvadının həyatını Herakla bağışladı, ulu qəhrəman onu ərinin sarayına gətirdi.

Admet isə arvadının dəfnindən qayıdıb əvəzolunmaz itgiyə görə acı-acı ağlayırdı. Boşalmış sarayda bir qərar tuta bilmirdi. Hara getsin? Ölənlərə paxıllığı tutur, həyata nifrət edirdi. Admet ölümü çağırırdı. Onun bütün xoşbəxtliyini Tanat oğurlayıb Aid məmləkətinə apardı. Ondan ötrü sevimli arvadını itirməkdən də ağır nə ola bilərdi? Admet təəssüflənirdi ki Alkestida onu ölməyə nahaq qoymadı, onları heç olmasa ölüm birləşdirərdi. Aid bir-birinin əvəzinə sədaqətli iki ruh qazanardı. Bu ruhlar Axerontu birlikdə üzüb keçərdilər. Kədərli Admet

qəflətən Heraklı qarşısında gördü. O, örtüklü bir arvadın əlindən tutub gətirirdi. Herakl Admetdən xahiş elədi ki, ağır mübarizədən sonra elə keçirdiyi bu arvadı Frakiyadan gələnə kimi sarayında saxlasın. Admet razılıq vermədi; Herakldan xahiş elədi ki, arvadı başqasına tapşırsın. Sevimli arvadını itirəndən sonra sarayında başqa arvad görmək Admet üçün ağırdı. Herakl xahişindən əl çəkmədi və hətta dedi ki, arvadı saraya onun özünün aparmağını istəyir. O, arvada toxunmağa Admetin nökərlərinə icazə vermədi. Nəhayət, Admet dostunun sözünü yerə sala bilmədi, arvadın əlindən tutdu ki, saraya aparsın, Herakl ona dedi:

– Admet, sən onu qəbul elədin! Necə qəbul eləmisən, eləcə də keşiyində dur! Sən indən belə deyə bilərsən ki, Zevsin oğlu sədaqətli dostdu. Bir arvada bax! Sənin arvadın Alkestidaya oxşamırmı? Xiffət çəkdiyin bəsdi! Qoy həyat səni yenidən sevindirsin!

Admet arvadın örtüyünü qaldırıb:

– Ey ulu tanrılar, – qışqırdı, – bu ki mənim arvadım Alkestidadı! Yox-yox, bu onun kölgəsidi! Bu arvad sakitcə durubdu, dinib danışmır.

– Yox, bu kölgə deyil, Alkestidadı. Mən onu ruhlar hökmdarı Tanatla ağır döyüşdən sonra geri qaytarmışam. Alkestida tövbə qurbanları verməklə yeraltı tanrıların hakimiyyətindən azad olana kimi susacaq, üç dəfə gecə gündüzü əvəz edənə kimi susacaq: yalnız bundan sonra danışacaq. İndisə əlvida, Admet! Xoşbəxt ol və atam Zevsin yaratdığı qonaqpərəstlik adətinə həmişə əməl elə!

– Ey Zevsin ulu oğlu, sən həyatın sevincini mənə yenidən bəxş elədin! – Admet qışqırdı. – Sənə minnətdarlığımı necə bildirim? Qal, qonağım ol. Əmr edəcəm ki, bütün məmləkətimdə sənin qələbəni bayram eləsinlər, əmr edəcəm ki, tanrılara qurban kəssinlər.

Herakl Admetin sarayında qalmadı, o, Evrisfeyin tapşırığını yerinə yetirməliydi və onun üçün Diomedin atlarını tapmalıydı.

İPPOLİTANIN KƏMƏRİ

Doqquzuncu qəhrəmanlıq

Heraklın doqquzuncu qəhrəmanlığı məlikə İppolitanın kəmərinin dalınca amazonkalar ölkəsinə səfəri oldu. Bu kəməri İppolitaya müharibə tanrısı Ares bağışlamışdı, məlikə bu kəməri amazonkaların üzərindəki ağalığının nişanəsi kimi gəzdirirdi. İlahə Heranın kahinəsi, Evrisfeyin qızı Admeta bu kəmərin arzusuna düşmüşdü. Onun arzusunu yerinə yetirmək üçün Evrisfey Heraklı kəmərin dalınca göndərdi. Zevsin oğlu balaca bir qəhrəmanlar dəstəsi toplayıb, gəmiylə uzaq səfərə çıxdı. Heraklın dəstəsi balacaydı, amma dəstədə məşhur qəhrəmanlar çox idi. Attika qəhrəmanı Tesey də onların arasındaydı.

Qəhrəmanları uzaq səfər gözləyirdi. Onlar Evkisinsk Pontasının ən uzaq sahillərinə gedib çıxmalıydılar. Amazonkaların dövləti və paytaxtı Femiskir orda yerləşirdi. Yolüstü Herakl cin atına mindi və həmin andaca Minosun oğlanları ilə davaya başladı. O, Parosun bir çox sakinlərini qırdı, bir çoxunu isə şəhərə qovub o vaxta kimi mühasirədə saxladı ki, şəhərdəkilər Heraklın hüzuruna səfir göndərdilər və öldürülən yoldaşlarının əvəzinə iki nəfəri seçib götürməyi xahiş elədilər. Herakl şəhərin mühasirəsini açdı və öldürülənlərin əvəzinə Minosun iki nəvəsini – Alkeyi və Sfeneli özüylə götürdü.

Herakl Parosdan Miziyuya gəldi, padşah Lik onu böyük qonaqpərvərliklə qarşıladı. Qəflətən bebriklər Lik padşaha hücum elədilər. Herakl öz dəstəsi ilə bebriklərin bütün torpağını Likə verdi. Padşah Lik həmin ölkəni Heraklın şərəfinə Herakley adlandırdı. Herakl yola düzəldi və nəhayət, amazonkaların paytaxtı Femiskirə çatdı.

Zevsin oğlunun qəhrəmanlıqlarının şöhrəti amazonkalar ölkəsinə çoxdan çatmışdı. Buna görə də Heraklın gəmisi Femiskirə yaxınlaşanda məlikələri başda olmaqla bütün amazonkalar onu qarşılamağa çıxdılar. Onlar yoldaşlarından ölməz tanrılar kimi seçilən Zevsin ulu oğluna heyrətlə baxırdılar. Məlikə İppolita Herakldan soruşdu:

– Zevsin şöhrəti oğlu, bizim Şəhərə gəlməkdə xeyir ola? Əminamanlıqla gəlmisən, yoxsa müharibəylə?

Herakl məlikəyə cavab verib dedi:

– Məlikə, coşqun dənizlər keçib, mən bura qoşunumla öz xoşuma gəlməmişəm; məni bura Mikenin hökmdarı Evrisfey göndəribdi. Evrisfeyin qızı Admeta tanrı Aresin sənə bağışladığı kəmərin arzusuna düşübdü. Evrisfey mənə tapşırıb ki, kəməri ələ keçirim.

Heraklı boş qaytarmağa İppolitanın ürəyi gəlmədi. Məlikə kəməri öz xoşuyla ona verməyə hazır idi, amma Hera nifrət elədiyi Heraklı aradan götürmək məqsədindən əl çəkməmişdi, buna görə də amazonka cildinə girib kütləyə qarışdı və cəngavər amazonkaları Heraklın üstünə qaldırmağa çalışdı.

Hera amazonkalara dedi:

– Herakl yalan danışır, o, bura bəd niyyətlə gəlibdi: sizin məlikəniz İppolitanı qaçırmaq və kəniz evinə aparmaq istəyir.

Amazonkalar Heraya inandılar. Onlar yaraqlarını götürüb, Heraklın qoşununa hücum elədilər. Amazonkaların qoşununun önündə külək kimi sürətli Aella gedirdi. Aella qasırğa kimi Heraklın üstünə həmləyə keçdi. Qəhrəman həmləni dəf elədi,

Amazonka qaçmağa üz qoydu.

Herakl özünü Aellaya yetirdi və parıldayan qılıncını endirdi. Amazonka Protoya da döyüşdə həlak oldu. Heraklın yeddi yoldaşını, yeddi qəhrəmanı öz əliylə öldürdü, amma Protoyanın özü də Zevsin oğlunun oxundan canını qurtara bilmədi. Heraklın üstünə bir dəfəyə yeddi amazonka hücum elədi: onların hamısı Artemidanın yol yoldaşları idi: nizə ilə vuruşmaqda onların tayı-bərabəri yox idi. Amazonkalar qalxanlarının arxasında daldalanıb nizələrini Heraklın üstünə yağdırdılar, amma nizələr yanından ötüb keçdilər. Qəhrəman onların hamısını toppuzu ilə şil-küt elədi: yarpaqları parıldaya-parıldaya amazonkalar birbirinin dalınca yerə sərildilər. Qoşunun sərkərdəsi Melanippanı isə Herakl Antiopayla birlikdə əsir aldı. Qorxunc amazonkalar məğlub oldular, onların qoşunu qaçmağa üz qoydu, amazonkaların bir çoxunu təqib edən qəhrəmanlar öldürdülər. Amazonkalar Heraklla barışdılar. İppolita qüdrətli Melanippanın əsirlikdən azad olması üçün kəmərini verdi. Antiopanı isə qəhrəmanlar özləri ilə apardılar. Herakl amazonkanı cəsurluğuna görə Teseyə bağışladı. İppolitanın kəmərini Herakl beləcə ələ keçirdi.

Herakl Laomedontun qızı Hesionanı azad edir

Amazonkalar ölkəsindən qayıdan baş Herakl Troyaya gəlib çıxdı. Onlar şəhərin yaxınlığında sahilə yan ala zaman qəhrəmanlar ağır bir mənzərənin şahidi oldular. Baxıb gördülər ki, Troya padşahı Laomedontun göyçək qızı Hesiona dəniz sahilindəki qayaya zəncirlənibdi. Hesionanı da Andromeda kimi dənizdən çıxan əjdaha parçalamalıydı. Laomedont Troya divarlarının haqqını Poseydona və Apollona verməkdən imtina elədiyi üçün Poseydon bu əjdahanı padşahı cəzalandırmağa göndərmişdi. Zevsin əmrinə görə, hər iki tanrı padşaha qulluq eləməliydilər, məğrur Laomedont hədə-qorxu gəlmişdi ki, divarların

haqqını tələb eləsəniz, qulaqlarınızı kəsəcəm. Əsəbiləşmiş Apollon onun bütün məmləkətinə dəhşətli bir azar göndərmişdi, Poseydon isə Troyanın ətrafını xarabazara çevirən əjdahanı göndərmişdi. Laomedont qızının həyatını qurban verməklə ölkəsini dəhşətli bəladan qurtara bilərdi. İstəməsə də qızı Hesionanın dəniz sahilindəki qayaya zəncirləməli olmuşdu.

Herakl bədbəxt qızı görüb onu azad eləmək fikrinə düşdü, əvəzində Laomedontdan İldırımsaçan Zevsin Troya şahının oğlu Hanimedin yerinə girov kimi verdiyi atları istədi. Hanimedi nə vaxtsa Zevsin qartalı oğurlayıb. Olimpə aparmışdı. Laomedont Heraklın tələbini qəbul elədi. Herakl toroyalılara tapşırdı ki, dəniz sahilində təpə düzəltsinlər, təpə hazır olandan sonra qəhrəman onun arxasında gizləndi. Herakl təzəcə gizlənmişdi ki əjdaha dənizdən çıxdı, iri boğazını ayırıb Hesionaya həmlə etdi. Qəhrəman nərə çəkib təpənin dalından çıxdı və ikiüzlü qılıncını əjdahanın sinəsinə batırdı. Herakl Hesionanı azad elədi və Laomedontdan şərtləşdikləri mükafatı tələb elədi. Padşah ecazkar atları əldən vermək istəmədi, atları Herakla vermədi, hətta hədə-qorxuyla onu Troyadan da qovdu. Herakl acığını içinə salıb, Laomedontun məmləkətini tərk elədi. Yalançı padşahdan indi intiqam ala bilməzdi, həm qoşunu az idi, həm də Troyanın qalaları alınmaz idi.

Troyanın uzun müddət mühasirədə saxlamağa Heraklın imkanı yox idi. O, İppolitanın kəmərini Mikenə aparmağa tələsirdi.

HERİONUN İNƏKLƏRİ

Onuncu qəhrəmanlıq

Herakl amazonkalar ölkəsinə səfərdən qayıdandan bir az sonra yeni qəhrəmanlıq dalınca yollandı. Evrisfey ona tapşırdı ki, Xarisaoranın və Okeanid Kalliroinin oğlu nəhəng Herionun naxırını Mikenə gətirsin. Heraklı uzaq yollar gözləyirdi. O, dünyanın qərb qurtaracağına, qürub vaxtı günəş tanrısı Heliosun göydən enəcəyi yerə getməliydi. Herakl tək-tənha yola düzəldi, Afrikadan, Liviyanın bomboş səhralarından, vəhşi barbarların ölkəsindən keçdi və nəhayət, dünaynın qurtaracağına gəlib çatdı. O, buradakı dar dəniz boğazının hər iki tərəfində qəhrəmanlığının əbədi abidəsi kimi iki nəhəng daş qüllə ucaltdı.

Herakl bozumtul Okeanın sahillərinə çatana kimi çox gəzib dolaşdı. Qəhrəman fikirli-fikirli Okeanın dalğaları əbədi səs-küy salan sahildə oturdu. Herionun naxırını otardığı Erifey adasına necə gedib çıxmalı? Gün batmaq üzrəydi. Budur Okeanın sularına enən Heliosun arabası göründü. Heliosun parlaq şüaları Heraklın gözlərini qamaşdırdı və onu dözülməz, yandırıb-yaxan bürkü bürüdü. Herakl hirsli-hirsli dik atıldı və qorxunc kamanına əl atdı; amma Helios acıqlanmadı, qəhrəmana baxıb mehribancasına gülümsədi: Zevsin oğlunun qeyri-adi cəsarəti onun xoşuna gəldi. Helios Herakla məsləhət gördü ki, Erifeyə qızıl qayıqda üzüb getsin. Günəş tanrısının özü hər axşam atıyla, arabasıyla bu qayıqda dünyanın qərbindən şərq tərəfindəki qızıl sarayına gedirdi. Qəhrəman cəsarətlə qızıl qayığa atıldı və tezliklə Erifeyin sahillərinə yetişdi. O, adaya qədəm qoyar-qoymaz ikibaşlı köpək Orfo onun iyini aldı və hürə-hürə qəhrəmana cumdu. Herakl ağır toppuzunun bir zərbəsi ilə köpəyi gəbərtdi. Herionun naxırını təkcə Orfo qorumurdu. Herakl Herionun çobanı nəhəng Evritonla da döyüşməli oldu. Heliosu qızıl qayığının dayandığı sahilə sarı qovdu. Herion inəklərin böyürtüsünü eşitdi və naxıra baş çəkməyə yollandı. Baxıb gördü ki, köpək Orfo və nəhəng Efriton öldürülübdü, naxır oğrusunun dalınca düşdü, sahildə özünü ona çatdırdı. Herion yırtıcı bir nəhəng idi; onun üç bədəni, üç başlı, altı əli və altı ayağı vardı. O, döyüş vaxtı üç qalxanla müdafiə olunurdu, eyni vaxtda düşmənin üstünə üç iri nizə atırdı. Afina-Pallada Heraklın hoyuna yetdi. Herakl Herionu görən kimi ölüm gətirən oxuyla onu nişan aldı. Ox Herionun başlarından birindəki gözünə sancıldı. Birinci oxun dalınca ikinci, sonra isə üçüncü ox yaydan çıxdı. Herakl toppuzunu hiddətlə yellədi və şimşək kimi Herionа ilişdirdi, üçbaşlı nəhəng tirtap yerə sərildi. Herakl Heliosun qızıl qayığında Herionun inəklərini Erifeydən gətirdi və Heliosun qayığını özünə qaytardı.

Qabaqda onu hələ çox çətinliklər gözləyirdi. İnəkləri Mikenə çatdırmaq lazım idi. Herakl inəkləri İspaniyadan, Pireney adalarından, Qalliyadan, Alpdan, İtaliyadan keçirib aparırdı. İtaliyanın cənubunda, Reqium şəhəri yaxınlığında inəklərin biri naxırdan ayrıldı və boğazdan keçib Siciliyaya üz tutdu. Poseydonun oğlu Eriks padşah inəyi gördü və naxırına qatdı. Herakl uzun müddət inəyi axtardı. Nəhayət, tanrı Hefestdən xahiş elədi ki, naxırın keşiyini çəksin, özü isə Siciliyaya getdi və öz inəyini Eriks padşahının naxırında tapdı. Padşah inəyi Herakla vermək istəmirdi; gücünə arxayınlaşıb Heraklı təkbətək

döyüşə çağırdı. İnək qalibə çatırdı. Eriks Herakl kimi rəqibin öhdəsindən gələ bilməzdi. Zevsin oğlu padşahı qucaqlayıb möhkəm-möhkəm sıxdı və boğdu, inəyi qabağına salıb naxıra qayıtdı və yoluna davam elədi. İoniy dənizinin sahilində məlikə Hera naxıra qızğınlıq göndərdi. Qızışmış inəklərin hərəsi bir tərəfə dağıldı. Çox əziyyətdən sonra Herakl inəklərin böyük qismini bir də Frakiyada bir yerə yığa bildi və nəhayət, naxırı qovub Mikenə gətirdi. Evrisfey isə inəklərin hamısını ilahə Heraya qurban kəsdi.

HERBER

On birinci qəhrəmanlıq

Herakl Tirinfə təzəcə qayıtmışdı ki, Evrisfey onu yenidən qəhrəmanlıq dalınca göndərdi. Bu, Heraklın Evrisfeyin qulluğunda göstərməli olduğu on birinci qəhrəmanlıq idi. O, Aidin zülmət, dəhşətlərlə dolu yeraltı dünyasına düşməliydi və yeraltı şahlığın keşikçisi, qorxunc köpək Herberi Evrisfeyə gətirməliydi. Herberin üç başı vardı, boynunda ilanlar qıvrılırdı, quyruğundan iri ağızlı əjdaha başı sallanırdı. Herakl Lakoniyaya yollandı və Tenardakı zülmət uçurumdan yeraltı şahlığın qaranlığına endi. Herakl Aid şahlığının qapısına çatdı, baxıb gördü ki, Tesey və Fessali padşahı, Perifoya qəhrəmanı qayaya mıxlanmışdır. Onlar Aidin arvadı Persefonanı qaçırmağa cəhd göstərmişdilər, buna görə də tanrılar onları cəzalandırmışdı. Tesey Herakla yalvardı:

– Ey, Zevsin ulu oğlu, məni azad elə! Sən ki mənim əzablarımı görürsən! Məni bu əzablardan ancaq sən qurtara bilərsən!

Herakl əlini Teseyə sarı uzatdı və onu azad elədi. O, Perifoyanı da azad eləmək istəyirdi, elə bu vaxt yer tərpəndi və Herakl başa düşdü ki, tanrılar Perifoyanın azadlığını istəmirlər. Herakl tanrıların iradəsinə tabe oldu və əbədi gecənin zülmətində yoluna davam elədi. Heraklı yeraltı padşahlığa tanrıların carçısı, ölmüş ruhların bələdçisi Hermes gətirdi, Zevsin sevimli qızı Afina-Pallada isə qəhrəmanı müşayiət edirdi. Herakl Aid padşahlığına daxil olanda ölülərin kölgələri dəhşət içində pərən-pərən düşdülər. Heraklı görəndə təkcə qəhrəman Meleaqrın kölgəsi qaçmadı. O, Zevsin oğluna üz tutub yalvardı:

– Ey ulu Herakl, Dostluğumuz naminə səndən bir xahişim var: yetim bacım, qəşəng Deyaniraya yazığın gəlsin! Mən öləndən sonra arxasız qalıbdı. Ulu qəhrəman, onunla evlən, onun havadarı ol!

Herakl söz verdi ki, dostunun xahişini yerinə yetirəcək və Hermesin dalınca yoluna davam elədi. Qəflətən qorxunc Horqona Meduzanın kölgəsi Heraklın qarşısına çıxdı, mis əllərini hiddətlə irəli uzatdı və qızıl qanadlarını çırpdı, başındakı ilanlar tərpənişdilər. Qorxmaz qəhrəman qılıncına əl atdı, amma Hermes onu dayandırdı:

– Herakl, qılınca əl atma! Axı bu, boş bir kölgədi! Bu kölgə sənin üçün qorxulu deyil!

Herakl yol boyu bir çox dəhşətlər gördü, nəhayət, gəlib Aidin hüzuruna yetişdi. Ölülər padşahlığının hökmdarı və arvadı Persefona İldırımsaçan Zevsin zülmət və kədər padşahlığına düşən oğluna məftunluqla baxırdılar. Herakl əzəmətlə və sakitcə Aidin taxt-tacının qarşısında dayanmışdı, nəhəng toppuzuna söykənmişdi, şir dərisini çiyninə salmışdı, kamanını çiyninə taxmışdı. Aid Zevsin oğlunu lütfkarlıqla qarşıladı və günəş işığını tərk edib, zülmət padşahlığına gəlməsinin səbəbini soruşdu. Herakl Aidin qarşısında baş əyib cavab verdi:

– Ey ölülər ruhunun hökmdarı ulu Aid, xahişim səni acıqlandırmasın! Özün bilirsən ki, mən sənin padşahlığına öz xoşumla gəlməmişəm, öz iradəmlə sənə ağız açmıram. Ey hökmdar Aid, icazə ver sənin üçbaşlı köpəyini Herberi Mikenə aparım. Bunu mənə Evrisfey əmr edibdi, işıqlı Olimp allahlarının buyruğu ilə mən ona qulluq edirəm.

Aid qəhrəmana cavabında dedi:

– Zevsin oğlu, mən sənin xahişini yerinə yetirəcəm, amma sən gərək Herberi silahsız ram edəsən. Ram eləsən, onu Evrisfeyə aparmağına icazə verəcəm.

Herakl yeraltı padşahlıqda uzun müddət Herberi axtardı. Nəhayət o, köpəyi Axerontun sahilində tapdı. Herakl Herberin boynunu əlinə keçirtdi. Aidin köpəyi hiddətlə uladı: onun ulaması bütün yeraltı padşahlığı başına götürdü. Köpək gücəndi ki, Heraklın əlindən çıxsın, amma qəhrəmanın qüdrətli əlləri Herberin boynunu daha möhkəm sıxırdı. Əjdaha başlı Herber quyruğunu Heraklın ayağına doladı, dişlərini onun bədəninə batırdı, amma bunlar əbəs cəhd idi. Qüdrətli Herakl Herberin boynunu daha möhkəm sıxırdı. Nəhayət, Aidin gicəllənmiş köpəyi qəhrəmanın ayaqlarına düşdü. Herakl köpəyi ram edib, zülmət padşahlığından Mikenə apardı. Herber gün işığından qorxuya düşdü, onu soyuq tər basdı, köpəyin üç ağzından torpağa zəhərli köpük tökülürdü, bir damcı köpük tökülən yerdə zəhərli otlar bitirdi.

Herakl Herberi Mikenin divarları önünə gətirdi. Qorxunc köpəyi görən kimi qorxaq Evrisfeyi dəhşət bürüdü. Az qala Heraklın ayağına düşüb yalvardı ki köpəyi geri Aidin padşahlığına aparsın. Herakl onun xahişini yerinə yetirdi və qorxunc keşikçisini Aidin özünə qaytardı.

HESPERİDİN ALMALARI

On ikinci qəhrəmanlıq

Evrisfeyə qulluq elədiyi vaxtlar Heraklın ən çətin qəhrəmanlığı sonuncu, on ikinci qəhrəmanlığı oldu. O, göy qübbəsini çiynində saxlayan titan Atlasın yanına yollanmalı və Atlasın qızları Hesperidlərin baxdığı bağdan üç qızıl alma gətirməliydi. Almalar qızıl ağacda bitirdi. Almanı torpaq ilahəsi Geya Zevslə Heranın toy gününə pay kimi yetirmişdi. Bu qəhrəmanlığı göstərmək üçün əvvəl-əvvəl Hesperidin bağının yolunu öyrənmək lazım idi. Hesperidlərin bağını gözlərini yummayan əjdahalar qoruyurdular.

Hesperidlərə və Atlasa aparan yolu heç kim bilmirdi. Herakl Asiyanı və Avropanı çox gəzib dolaşdı, əvvəllər Herionun inəklərinin dalınca getdiyi vaxt keçdiyi bütün ölkələrdən adladı; hər yerdə Herakl Hesperidin bağlarının yolunu soruşurdu. Herakl dünyanın şimal qurtaracağına, Eridana çayının sahilinə gəlib çatdı. Eridana çayının sahilində pərilər Zevsin oğlunu ehtiramla qarşıladılar və Hesperidin bağının yolunu öyrənməyi məsləhət verdilər. Gələcəkdən xəbər verən dəniz qocası Nerey dənizdən sahilə çıxhaçıxda Herakl onun başının üstünü kəsdirməliydi və Hesperidlərin yolunu öyrənməliydi; Nereydən başqa heç kim bu yolu tanımırdı. Herakl uzun müddət Nereyi axtardı. Nəhayət, qəhrəman onu dəniz sahilində tapdı. Herakl dəniz tanrısının üstünə hücum elədi. Dəniz tanrısı ilə vuruşmaq çətin idi. Heraklın dəmir ağuşundan xilas olmaq üçün Nerey müxtəlif cildlərə girdi, amma qəhrəman onu buraxmadı ki, buraxmadı. Nəhayət o, yorulub əldən düşmüş Nereyin əl-qolunu bağladı, azadlığa çıxmaq üçün dəniz tanrısı Hesperidlərin bağına gedən yolun sirrini açıb Herakla deməli oldu. Zevsin oğlu sirri biləndən sonra dəniz qocasını buraxdı və uzaq səfərə yola düşdü.

Yenidən onun yolu Liviyadan düşdü. Herakl Liviyada dəniz tanrısı Poseydonun və torpaq ilahəsi Geyanın oğlu, nəhəng Anteylə rastlaşdı.

Antey yolçuların hamısı ilə güləşirdi və güləşdə yendiklərinin hamısını qəddarcasına öldürürdü. Nəhəng Heraklı da güləşə çağırdı. Güləş vaxtı nəhəngin hardan güc aldığının sirrini öyrənməli təkbətək güləşəndə onu məğlub etmək mümkün deyildi. Sirr bundaydı: Antey gücünün tükəndiyini hiss eləyəndə, torpağa, anasına toxunurdu, bununla da onun gücü təzələnirdi. O, gücü anasından, torpağın ulu ilahəsindən alırdı. Anteyin ayağını yerdən üzüb göyə qaldıran kimi onun gücü tükənirdi.

Herakl uzun müddət Anteylə güşt tutdu, bir neçə dəfə onu yerə yıxdı, amma bununla da Anteyin gücü daha da artırdı. Güləş vaxtı Herakl qəflətən Anteyi havaya qaldırdı. Geyanın oğlunun gücü tükəndi və Herakl onu boğdu.

Herakl yoluna davam elədi və gəlib Misirə yetişdi. Yol yorğunu Herakl Nil çayının sahilindəki xırda meşəliyin kölgəliyində uzanıb yatdı. Poseydonun və Epafın qızı Lisianassın oğlu, Misir padşahı Busiris şirin-şirin yatan Heraklı gördü. O, Heraklı Zevsə qurban vermək istəyirdi. Yeddi il idi ki, Misirdə məhsul olmurdu. Gələcəkdən xəbər verən kiprli Frasi demişdi ki, əgər Busiris hər il Zevsə bir qəribi qurban kəssə, qıtlıq aradan qalxacaq. Busiris əmr elədi ki, gələcəkdən xəbər verən Frasini tutsunlar və birinci onu qurban kəsmişdi. O vaxtdan qəddar padşah Misirə gələn bütün qəriblər İldırımsaçana qurban verirdi. Heraklı qurbangaha gətirdilər, amma ulu qəhrəman kəndirləri qırdı və elə qurbangahdaca Busirisin özünü və oğlu Amfidamantı öldürdü. Misirin qəddar padşahı beləcə cəzalandırıldı.

Herakl ulu titan Atlasın durduğu yerə, dünyanın son ucuna gedib çıxanacan yolüstü çox təhlükələrlə qarşılaşdı. Qəhrəman göy qübbəsini çiyinlərində saxlayan qüdrətli titana heyrətlə baxdı.

– Ey ulu titan Atlas! – deyə Herakl ona üz tutdu. – Mən Zevsin oğlu Heraklam. Məni sənin yanına qızılla dolu Mikenin padşahı Evrisfey göndəribdi. Evrisfey əmr edib ki, sənin Hesperid bağındakı qızıl ağacda bitən üç qızıl almanı ələ keçirim.

Atlas cavab verdi:

– Zevsin oğlu, mən sənə üç alma verərəm, mən alma dalınca gedib gələnə kimi sən mənim yerimdə durmalısan və göy qübbəsini çiyində saxlamalısan.

Herakl razılaşdı. O, Atlasın yerinə keçdi. Zevsin oğlunun çiyninə qeyri-adi bir güc düşdü. O, bütün gücünü topladı və göy qübbəsini saxladı. Ağırlıq Heraklın qüdrətli çiyinlərini dəhşətli dərəcədə sıxırdı.

O, göy qübbəsinin ağırlığından əyildi, onun əzələləri dağ kimi şişdi, gərginlikdən bədənini tər basdı, amma qeyri-insani güc və Afinanın köməyi Herakla Atlas üç alma ilə geri qayıdana kimi göy qübbəsini çiyinlərində saxlamağa imkan verdi. Atlas geri qayıdıb dedi:

– Herakl, bu da sənin üç alman; istəyirsən almaları Mikenə mənim özüm çatdırım, amma mən gələnə kimi sən göy qübbəsini saxla; qayıdıb yenidən öz yerimə keçərəm.

Herakl Atlasın bicliyini başa düşdü, başa düşdü ki, titan özünün bu ağır yükündən birdəfəlik azad olmaq istəyir, buna görə də bicliyə qarşı biclik işlətdi.

– Yaxşı, Atlas, mən razıyam! – Herakl cavab verdi. – Amma imkan ver, mən özümə bir yasdıqca düzəldim, göy qübbəsinin ağırlığı çox incitməsin deyə çiynimə qoyum.

Atlas yenidən öz yerinə keçdi və çiyinlərini göy qübbəsinin ağırlığının altına verdi. Herakl isə yay-oxunu, toppuzunu və qızıl almaları götürdü və dedi:

– Əlvida, Atlas! Sən Hesperid almalarının dalınca gedənə kimi mən göy qübbəsini çiynimdə saxlamışam, amma göyün bütün ağırlığını çiyinlərimdə əbədi saxlamaq istəmirəm.

Herakl sözünü bitirib titandan ayrıldı. Atlas əvvəlki kimi göy qübbəsini çiynində saxlamalı oldu. Herakl geri qayıtdı və almaları Evrisfeyə verdi. Evrisfey almaları Herakla, Herakl isə öz hamisi, Zevsin qızı Afina-Palladaya bağışladı. Afina almaları Hesperidlərə qaytardı ki, almalar əbədi onlarda qalsın.

On ikinci qəhrəmanlığından sonra Herakl Evrisfeyin qulluğundan azad oldu. O, yeddi darvazalı Fivə qayıda bilərdi. Amma Fivdə Herakl çox qalmadı. Onu yeni qəhrəmanlıqlar gözləyirdi. O, arvadı Meqeranı dostu İolaya ərə verdi, özü isə yenidən Tirinfə yollandı.

Onu təkcə qələbələr gözləmirdi. Heraklın ağır müsibətləri də olurdu, çünki ilahə onu əvvəlki kimi təqib edirdi.

AFİNA-PALLADA

İlahə Afina-Palladanı Zevsin özü doğubdu. İldırımsaçan Zevs bildirdi ki, ağıl ilahəsi Metisin iki uşağı olacaq, qızı Afina və qeyri-adi dərəcədə ağıllı, güclü oğlu. Tale ilahələri Moyrlar Zevsə dedilər ki, ilahə Metisin oğlu səni taxtdan salacaq və dünya ağalığını əlindən alacaq. Zevs qorxuya düşdü. Moyrların dedikləri qorxunc taledən qaçmaq üçün Zevs ilahə Metisi şirin dillə yuxuya verdi, qızı Afina doğulmamışdan qabaq onu uddu. Bir müddətdən sonra Zevsin dəhşətli baş ağrıları başladı. Oğlu Hefesti çağırdı, başındakı dözülməz ağrılarından və səs-küydən can qurtarmaq üçün başını parçalamağı tapşırdı. Hefest baltanı yellədi, güclü zərbə ilə Zevsin kəlləsini dağıtdı. İldırımsaçanın başından qüdrətli cəngavər ilahə Afina-Pallada çıxdı. Yaraqlı-yasaqlı, par-par parıldayan dəbilqədə, nizədə və qalxanda qəlib heyrətə düşmüş tanrıların qarşısında dayandı. Afina parlaq nizəsini müdhiş şəkildə fırlatdı. Onun nərəsinin səsi göylərə çatdı və Olimpi lərzəyə saldı. Gözəl, əzəmətli, ilahə tanrıların qarşısında dayanmışdı. Afinanın mavi gözlərindən müdriklik yağırdı, bu cəngavər qızdan ilahi bir gözəllik saçırdı. Tanrılar atası Zevsin başından doğulmuş sevimli qızını, şəhərlərin hamisini, müdriklik və ağıl ilahəsini, yenilməz cəngavər Afina-Palladanı vəsf elədilər.

Afina yunan qəhrəmanlarına himayəçilik göstərir, onlara müdrik məsləhətlər verir və onları təhlükədən xilas edirdi. O, şəhərləri, qalaları, qala divarlarını qoruyur, müdriklik və ağıl verir, adamlara incəsənət və peşə öyrədirdi. Yunan qızları əl işləri öyrətdiyinə görə Afinaya hərəkət edirdilər. Adamlar və tanrılar toxuculuq sənətində Afina ilə yarışa bilmirdi. Bu işdə onunla yarışa girməyin təhlükəli olduğu hamıya bəllidi, toxuculuq peşəsində Afinanı kölgədə qoymaq istəyən İdmonanın qızı Araxnanın aqibətini hamı yaxşı bilirdi.

ARAXNA

Araxna öz sənəti ilə bütün Lidiyada şöhrət qazanmışdı. Tmola yamaclarından və Paktola sahillərindən tez-tez pərilər yığışıb gəlir, onun işinin tamaşasına dururdular. Araxna saplardan dumana oxşar, hava kimi şəffaf parça toxudu. Toxuculuq işində işıqlı dünyada tayı-bərabərinin olmadığından fəxr edirdi. Günlərin bir günü Araxna səsləndi:

– Mənimlə yarışmağa qoy Afina-Palladanın özü gəlsin! Məni yenə bilməz, onunla yarışmaqdan qorxmuram.

Budu, Afina çallaşmış, donqar, əsasına söykənən qarı cildində gəlib Araxnanın qarşısında dayandı və dedi:

– Araxna qocalıq özüylə təkcə yamanlığı aparmır, illər həm də təcrübəni artırır. Məsləhətimə qulaq as: peşədə ancaq adamları ötməyə çalış. İlahəni yarışa çağırma. Dikbaşlığına görə, acizanə şəkildə ondan üzr istə. İlahə dua eləyənlərin günahından keçir.

Araxna nazik ipliyi əlindən saldı, gözləri qeyzlə parladı qorxub-çəkinmədən cavab verdi:

– Sənin dərrəkən yoxdu, qarı. Qocalıq səni ağıldan məhrum eləyib. Belə öyüd nəsihəti gəlinlərinə və qızlarına ver, mənimlə işin olmasın. Mən özüm-özümə məsləhət verməyi bacarıram. Afina niyə gəlmir, niyə mənimlə yarışmaq istəmir?

İlahə həqiqi görkəmini alıb:

– Mən burdayam, Araxna! – dedi.

Pərilər və lidiyalı arvadlar Zevsin sevimli qızının qarşısında baş əydilər və şəninə təriflər yağdırdılar. Təkcə Araxna dinmirdi. Şəfəq – Eros işıldayan qanadlarında səmaya çıxan vaxt ala-toranlıqda üfüq alqırmızı işıqla yanan kimi, Afinanın sifəti də kindən qıpqırmızı qızardı. Araxna dediyindən dönmürdü. Afina ilə yarışmaq istəyirdi. Hiss eləmirdi ki, onu ölüm gözləyir.

Yarış başladı. Afina örtüyündə əzəmətli Afina akropolunu toxudu və Attika üzərində ağalığı uğrunda Poseydonla apardığı mübahisənin təsvirini çəkdi. Onların mübahisəsini atası Zevs daxil olmaqla on iki tanrı yoluna qoyurdu. Poseydon üçdişli silahını qaldırdı, qayaya zərbə vurdu və qısır qayadan buz bulağın ağzı açıldı. Dəbilqə geyinmiş, qalxanını əlinə almış Afina nizəsini yellədi və torpağın dərinliklərinə sancdı. Nizəsini sancdığı yerdə müqəddəs zeytun ağacı bitdi. Tanrılar Attikaya payını daha qiymətli sayaraq qələbəni Afinaya verdilər. İlahə örtüyün bir küncündə tanrıların dikbaş adamları cəzalandırmasını təsvir eləmişdi, dörd bir tərəfə isə zeytun ağacının yarpaqlarından hörülmüş çələng toxumuşdu. Araxna isə örtüyündə tanrıların həyatından səhnə çəkmişdi, bu səhnədə tanrılar zəifdilər, insan ehtiraslarının əsiriydilər. Səhnənin dörd bir yanına isə sarmaşıqdan toxunmuş gül çələngi toxumuşdu. Araxnanın işi kamil idi, Afinanın işindən geri qalmırdı, amma onun işində tanrılara hörmətsizlik, hətta nifrət görünürdü.

Afina cin atına mindi, Araxnanın işini cırdı və onu məkiklə vurdu. Bədbəxt Araxna bu biabrçılığa dözmədi, kəndir eşdi, ilgək düzəldib özünü asdı. Afina isə Araxnanı ilgəkdən azad edib dedi:

– Yaşa, dikbaş. Amma sən əbədi olaraq asılı qalacaqsan və toxumaqla məşğul olmayacaqsan, sənin nəsilin də bu cəzaya məruz qalacaq.

Afina sehrli otun şirəsini Araxnanın üstünə çiləndi, həmin andaca onun bədəni balacalaşdı, sıx saçları başından töküldü və hörümçəyə çevrildi. O vaxtdan hörümçək Araxna torundan asılı qalıb və torunu hörməklə məşğuldu.

PİQMALİON

Afrodita ona sadiq qalanlara xoşbəxtlik bəxş edir. O, kiprli rəssam Piqmaliona xoşbəxtlik bəxş eləmişdi. Piqmalionun arvadlardan zəhləsi gedirdi, evlənməməyin dərdindən tək-tənha yaşayırdı. O, bir dəfə ağappaq fil sümüyündən qeyri-adi dərəcədə gözəl bir qız heykəli düzəltdi. Bu heykəl canlı insan kimi rəssamın emalatxanasında dururdu. Elə bil heykəl nəfəs alırdı, elə bil heykəl indicə yeriməyə və danışmağa başlayacaqdı. Rəssam saatlarla heyran-heyran öz əsərinə baxırdı, axırda düzəltdiyi heykələ vuruldu. O, heykəl qıza boyunbağı, bilərzik və sırğa bağışlayırdı, cah-cəlallı paltar geyindirirdi, başını gül çələngi ilə bəzəyirdi. Piqmalion tez-tez pıçıldayırdı:

– Oh, sən canlı olsaydın, sözlərimə cavab verməydin, bilirsən necə xoşbəxt olardım!

Amma heykəl lal idi.

Afroditanın şərəfinə keçirilən bayram günləri başladı. Piqmalion eşq tanrısına buynuzları zərlə işlənmiş ağ bir düyə qurban gətirdi; əlini tanrıya sarı uzadıb yalvara-yalvara dedi:

– Ey əbədi tanrılar, ey əziz Afrodita! Əgər siz həqiqətən sizə ağız açanların arzusunu gözündə qoymursunuzsa, mənə özümün düzəltdiyim heykəl qız kimi göyçək bir arvad verin.

Piqmalion heykəl canlandırmaq üçün tanrılara ağız açmağa ürək eləmədi, qorxdu ki, Olimp allahlarının acıqlandırar. Eşq tanrısı Afroditanın təsvirinin qabağında parlaq qurbanlıq alov dilimləndi; bununla tanrılar Piqmaliona başa saldılar ki, yalvarışını eşidiblər.

Rəssam evinə qayıtdı. Heykələ yaxınlaşdı, xoşbəxtliyə bir bax, sevincə bir bax! Heykəl cana gəldi! Ürəyi döyündü, gözlərində həyat işıqlandı. Tanrı Afrodita Piqmaliona gözəl arvadı beləcə verdi.

NARSİS

Afroditaya ehtiram göstərməyən, onun sovqatından imtina edəni, hakimiyyətinə qarşı duranların eşq tanrısı amansızcasına cəzalandırır. O, çay tanrısı Kefisin və ilahə Lavrionanın gözəl, amma soyuq, məğrur oğlu Narsisi beləcə cəzalandırmışdı. Narsis özündən başqa heç kimi sevmirdi, ancaq özünü məhəbbətə layiq bilirdi.

Günlərin bir günü ov vaxtı o, qalın meşəlikdə azdı, onu pəri Əks-səda gördü. Pərinin özü danışa bilmirdi. Tanrı Heranın cəzası onu üzürdü: pəri susmalıydı, suallara cavab vermək lazım gələndə isə ancaq axırıncı sözləri təkrar edirdi. Əks-səda meşənin qalınlığında gizlənib, heyranlıqla qamətli qəşəng cavana baxırdı. Narsis yan-yörəsinə göz gəzdirdi, hara gedəcəyini kəsdirə bilmədi və bərkdən qışqırdı:

– Ehey, kim var buralarda?

– Buralarda! – Əks-sədanın bərkdən deyilmiş cavabı eşidildi.

– Bura gəl! – Narsis qışqırdı.

– Gəl! – Əks-sədanın cavabı eşidildi.

Gözəl Narsis təəccüb içində ətrafına boylandı. Gözünə dəyən olmadı. O, bundan heyrətə düşüb bərkdən qışqırdı:

– Bura gəl, tez ol, gəl yanıma!

Əks-səda sevincək onun səsinə səs verdi:

– Gəl yanıma!

Pəri ellərini irəli uzadıb, meşədən Narsisə sarı tələsir, amma bu qəşəng oğlan acıqla onu itələyirdi. O, tələm-tələsik pəridən ayrılıb, qaranlıq meşədə gizləndi.

Sevgisi cavabsız qalan pəri də meşənin qalınlığında gizləndi. Narsisi sevməsi onu əzaba salmışdı, heç kimin gözünə görünmürdü və bədbəxt Əks-səda təkcə haraylara qəmgin-qəmgin cavab verirdi.

Narsis isə hələ də məğrur, özünəvurğun bir cavan idi. O, hamının sevgisindən imtina elədi və bir çox pərilərə bədbəxtlik gətirdi. Bir dəfə sevgisi cavabsız qalmış pərilərdən biri qışqırdı:

– Narsis, görüm səni də məhəbbət bəlasına düçar olasan! Qoy sevgilin də sənin eşqinə biganə qalsın!

Pərilərin arzusu yerinə yetdi. Eşq tanrısı Afroditanın sovqatından imtina elədiyinə görə Narsisə acığı tutdu və onu cəzalandırdı, bumbuz suyla yanğısını yatırtmaq üçün çaya yaxınlaşdı. Hələ indiyə kimi bu çayın sularına və çoban, nə dağ keçiləri toxunmamışdı. Hələ indiyə kimi bu çayın sularına ağac qırıntısı düşməmişdi, hətta külək də çiçək

ləçəklərini gətirib bu çayın sularına tökməmişdi. Çayın suyu təmiz və dumduru idi. Çay elə bil iri bir güzgüydü, aləm sularında əksini tapırdı: sahildəki kol-koslar da qamətli sərvlər də, mavi səma da. Narsis əllərini sahilə dirəyib çaya sarı əyildi və onun bütün gözəlliyi sularda əks olundu. Elə burdaca Afroditanın cəzası onu haqladı. O, heyrət içində özünün sulardakı əksinə baxırdı, güclü məhəbbət duyğusu onun varlığına hakim kəsildi. Məhəbbət odu ilə alışıb yanan gözləriylə sulardakı əksinə baxırdı, onu tovlamağa çalışırdı, əllərini irəli uzadırdı, onu səsləyirdi. Narsis əksini öpmək üçün suların güzgüsünə sarı əyildi, amma dodaqları çayın bumbuz, dupduru sularına toxunurdu. Aləm Narsisin yadından çıxdı; o, çaydan uzaqlaşmırdı; heyran-heyran sulardakı əksinə tamaşa edirdi. Nə yeyirdi, nə içirdi, nə də yatırdı. Nəhayət, Narsis əllərini öz əksinə sarı uzadıb, ümidsizlik içində qışqırdı:

– Of, kim mənim kimi amansızcasına əzab çəkib! Bizi dağlar, dənizlər ayırmır, bizi suların nazik dalğaları ayırır, amma biz birləşə bilmirik. Sudan çıx!

Narsis sulardakı əksinə baxa-baxa fikrə getdi. Qəflətən ağlına dəhşətli bir fikir gəldi, suya əyilib, sakitcə öz əksinə pıçıldadı:

– Aman allah! Mən qorxuram ki, özüm özümə vurulmuş olam!

Axı sən mən özüməm! Mən özüm özümü sevirəm. Üreyimə damıb ki, yaşamağıma az qalıbdı. Çiçəklənmədən solacam və kölgələrin zülmət məmləkətinə gedəcəm. Ölüm məni qorxutmur, ölüm eşqin əzablarına son qoyacaq.

Narsis heydən düşürdü, bənizi ağarırdı və ölümünün yaxınlaşdığını hiss edirdi, amma özünün əksindən heç cür ayrıla bilmirdi. Narsis ağlayırdı. Onun göz yaşları çayın dumduru sularına tökülürdü. Sularda dairəciklər yarandı və onun əksi yoxa çıxdı. Narsis qorxu içində qışqırdı:

– Ey, hardasan! Geri qayıt! Getmə, dayan! Məni tərk eləmə, axı bu qəddarlıqdı. Heç olmasa aman ver, sənə baxım!

Budu, sular sakitləşdilər, budu, əks yenidən göründü. Narsis yenidən gözlərini ona zillədi. O, isti günəşin şüaları altında çiçəklərdəki şeh əriyən kimi əriyirdi. Bədbəxt pəri Əks-səda Narsisin əzab çəkməsini görürdü. Əks-səda onu əvvəlki kimi sevirdi; Narsisin əzabları onun qəlbini sıxırdı.

Narsis qışqırırdı:

– Aman allah, belə də dərd olar?

Əks-səda cavab verir:

– Dərd olar?

Nəhayət, üzgün Narsis öz əksinə baxıb, zəifləşən bir səslə qışqırdı:

– Əlvida!

Pəri Əks-sədanın cavabı daha astadan, zorla eşidildi:

– Əlvida!

Narsisin başı sahildəki göy otların üstünə əyildi və ölüm zülməti onun gözlərini qapadı. Narsis öldü. Meşədəki cavan pərilər və Əks-səda ağladı. Pərilər cavan Narsisə qəbir qazdılar, cənazəni aparmağa gələndə meyiti tapmadılar. Narsisin başının otların üstünə sarı əyildiyi yerdə ətirli ağ bir çiçək – ölüm çiçəyi bitmişdi; həmin çiçəyə narsis deyirlər.

ADONİS

Narsisi amansızcasına cəzalandıran eşq ilahəsinin özü də məhəbbət əzabından dadmışdı, sevdiyi Adonisə yas saxlamalı olmuşdu. Afrodita Kipr şahının oğlu Adonisi sevirdi. Gözəllikdə ölləri adamlar arasında onun tayı-bərabəri yox idi. Olimp allahlarından da qəşəng idi. Sevgilisinə görə, Afrodita Patmosu və çiçəklənən Kiferi də unutmuşdu. Ondan ötrü Adonis işıqlı Olimpdən də sevimliydi. Eşq ilahəsi bütün gününü cavan Adonislə keçirirdi. Artemida kimi Afrodita da Kiprin meşələrində və dağlarında sevgilisi ilə ov ovlayırdı, quş qışlayırdı. Qızıl bəzək-düzəkləri, gözəlliyi Afroditanın yadından çıxmışdı. Afrodita günəş yandırıb yaxanda da yağmur havada da dovşan, hürkək maral ovuna çıxırdı, qorxunc şirlərin və qabanların ovundan qaçırdı. Adonisə yalvarırdı ki, şir, ayı və qaban ovlamasın, yoxsa başına bir iş gələr. İlahə padşahın oğlunu az-az tərk edirdi, amma hər dəfə tərk edəndə yalvarırdı ki, sözüm yadından çıxmasın.

Günlərin bir günü Adonisin köpəkləri ov vaxtı nəhəng bir qabanın izinə düşdülər. Köpəklər heyvanı hürkütdülər və qeyzli-qeyzli hürüşə-hürüşə onu qovmağa başladılar. Adonis şikarın bolluğundan yaman sevindi, amma ağlına gəlmədi ki, bu onun axırıncı ovudu. İtlərin hürüşməsi lap yaxından eşidilirdi, budu, nəhəng qaban kolluğun arasındadı. Adonis qızışmış heyvanı nizəsi ilə vurmağa hazırlaşırdı, qəflətən qaban onun üstünə atıldı və qılınc kimi iti dişləriylə Afroditanın sevgilisini ölümcül yaraladı. Adonis dəhşətli yaralardan öldü.

Adonisin ölüm xəbəri Afroditaya çatdı, dərdli Afrodita sevdiyi cavanın meyitini axtarıb tapmaq üçün Kipr dağlarına yollandı. Eşq ilahəsi dağ sıldırımlarından, qorxunc dərələrdən, dərin uçurumlardan keçib

gedirdi. İtimil daşlar və göyəmtikanları onun zərif ayaqlarını yaraladı. İlahənin keçdiyi yerlərə onun qanı damcılayıb tökülürdü. Nəhayət, Afrodita Adonisin meyitini tapdı. İlahə vaxtından əvvəl ölmüş cavanın üzərində acı-acı ağladı. Onun xatirəsini əbədiləşdirmək üçün əmr elədi ki, Adonisin qanından zərif anemon bitsin. Eşq ilahəsinin yaralı ayağından qan damcısı düşən yerlərdə isə Afroditanın qanı kimi al-qırmızı qızılgüllər bitdi. İldırımsaçan Zevsin eşq ilahəsinə yazığı gəldi. O, qardaşı Aidə və onun arvadı Persefonaya tapşırdı ki, hər il Adonisi kədərli ölülər kölgəsi məkanından işıqlı dünyaya buraxsınlar. O vaxtdan Adonis yarım il Aidin şahlığında qalır, yarım il isə Afrodita ilə birlikdə işıqlı dünyada yaşayır. Afroditanın sevgilisi cavan, gözəl Adonis Yer üzünə qayıdanda bütün təbiət sevinir.

DİONİS

İldırımsaçan Zevs Fiv şahı Kadmanın göyçək qızı Semelanı sevirdi. Günlərin bir günü Zevs söz verdi ki, onun istənilən arzusunu yerinə yetirəcək və tanrıların sarsılmaz and yerinə, yeraltı Stiks çayının müqəddəs sularına and içdi. Hera Semelaya nifrət edirdi və onu məhv eləmək fikrinə düşdü. Semelaya dedi:

– Zevsdən xahiş elə ki, sənin yanına tanrı – İldırımsaçan, Olimp şahı əzəmətində gəlsin. Əgər səni doğrudan da sevirsə, sözünü yerə salmayacaq.

Hera Semelanı inandırdı və Semela Zevsdən xahiş elədi ki, bu arzusunu yerinə yetirsin. Zevs imtina eləyə bilmədi. İldırımsaçan bütün əzəməti ilə, şöhrətinin bütün parlaqlığı ilə onun yanına gəldi. Zevsin əlində parlaq şimşək bərq vururdu, ildırımın zərbəsi Kadmanın sarayını dəhşətə gətirdi. Zevsin şimşəyindən ətraf od tutub alışdı. Alov saraya keçdi, dörd bir tərəf titrədi və saray uçub dağıldı. Semela dəhşət içində torpağa yıxıldı, alov onu yandırırdı. O, baxıb gördü ki, xilas yolu yoxdu, bildi ki, onu Heranın təlqin elədiyi xahiş məhv elədi. Canı çıxmamışdan əvvəl Semelanın Dionis adlı bir oğlu oldu, zəif uşaq idi, yaşaya bilməyəcəkdi. Adama elə gəlirdi ki, uşaq da odda yanmağa məhkumdu. Məgər Zevsin oğlu ölə bilərdimi? Bir andaca torpaqdan, sanki sehrli əsanın işarəsi ilə sıx yaşıl sarmaşıq bitdi. Sarmaşıq uşağı yaşıllığında gizlədi və onu ölümdən xilas elədi.

Zevs xilas edilmiş oğluna sahib durdu, amma körpə balaca və zəif olduğundan onu buduna tikdi. Dionis Zevsin bədənində möhkəmlənəndən sonra İldırımsaçanın budundan yenidən doğuldu. Zevs Hermesi hüzuruna çağırdı və ona tapşırdı ki, balaca Dionisi Semelanın bacısı İonun və onun əri Orhomenanın hökmdarı Atamantanın yanına aparsın, uşağı onlar böyütməliydilər.

İonun və Atamantanın uşağı götürüb tərbiyə eləmələri ilahə Heranı acıqlandırdı və onları cəzalandırmaq qərarına gəldi. O, Atamantanın ağlını əlindən aldı. Tutması tutan vaxtı Atamanta öz oğlu Leanı öldürdü. İno digər oğlu Melikertlə ölümdən zorla qaçıb qurtardı. Kişi onları təqib edirdi, çatmağa lap az qalmışdı. Qabaq sıldırım dəniz sahili, aşağıda dəniz guruldayır, arxada isə ağılsız ər çathaçatda idi – İnoun xilas yolu yox idi. Oğlu ilə birlikdə sahildəki qayalıqdan dənizə atıldı. İnonu və Melikerti dənizdə su pəriləri qarşıladılar. Dionisin dayəsi və onun oğlu dəniz tanrılarına çevrildilər. Həmin vaxtdan onlar dənizin dibində yaşayırlar.

Dionisi dəli Atamantanın əlindən Hermes xilas elədi. Hermes göz qırpımında uşağı Nisey vadisinə çatdırdı və onun tərbiyəsini pərilərə tapşırdı.

Dionis gözəl, qüdrətli, insanlara güc və sevinc, məhsuldarlıq bəxş edən tanrı kimi böyüdü. Zevs Dionisi tərbiyə edən pəriləri göyə apardı və onlar qaranlıq gecədə başqa bürclərin arasında Qiad adı ilə işıq saçırlar.

SİZİF

Küləklər hökmdarı Eolun oğlu Sizif qədim vaxtlarda Efir adlanan Kornif şəhərinin bünövrəsini qoymuşdu. Bütün Yunanıstanı axtarsaydın xainlikdə, hiyləgərlikdə və diribaşlıqda Sizifə tay ikinci bir adam tapmaq olmazdı. Hiyləgərliyi sayəsində Sizif Kornifdə saysız-hesabsız var-dövlət topladı; onun xəzinəsinin şöhrəti bütün aləmə yayıldı.

Ölüm tanrısı Tanat yanına gəlib, onu Aidin yeraltı padşahlığına aparmaq istədi. Sizif isə ölüm tanrısının gəlişini qabaqcadan duyub, onu xaincəsinə aldatdı və zəncirə salıb qandalladı. Ölüm adamlardan gen gəzdi. Heç yerdə təmtəraqlı dəfn keçirilmirdi, yeraltı padşahlığın tanrılarına qurban kəsilmirdi. Zevsin yer üzündəki qayda-qanunu pozulmuşdu. İldırımsaçan Zevs işi belə görüb, müharibə tanrısı qüdrətli

Aresi Sizifin üstünə göndərdi. Ares Tanatı qandaldan azad elədi. Tanat isə Sizifin ruhunu çəkib çıxartdı və ölülər padşahlığına apardı.

Sizif tanrıları yenidən aldatdı. O, arvadına tapşırdı ki, cənazəni torpağa basdırmasın və yeraltı tanrılara qurban kəsməsin. Sizifn arvadı ərinin sözünə əməl elədi. Aid və Persefona dəfn qurbanlığını çox gözlədilər. Gözləməkdən gözlərinin kökü saraldı. Nəhayət, Sizif Aidin taxt-tacına yaxınlaşıb dedi:

– Ey ölü ruhların hökmdarı, qüdrətdə Zevsə bərabər ulu Aid, məni işıqlı dünyaya burax! Gedim arvada tapşırım ki, sənə qurbanlar kəssin, sonra da ruhlar padşahlığına qayıdaram.

Aid Sizifə inandı və onu işıqlı dünyaya buraxdı. Sizif isə Aidin padşahlığına qayıtmadı. O, özünün cah-cəlallı sarayında yaşayır, sevinc içində kef çəkir və ruhların zülmət padşahlığından geri qayıtdığına sevinirdi.

Aid acıqlandı. Tanatı yenidən Sizifin ruhunu gətirməyə göndərdi. Tanat ölərilərin ən hiyləgərinin sarayına gəldi və gördü ki, Sizif kef məclisində oturub. Tanrıların və adamların nifrət elədikləri ölüm tanrısı Sizifin ruhunu çəkib çıxartdı.

Sizifin ruhu həmişəlik ruhlar padşahlığına uçub getdi.

Yer üzündəki hiyləgərliyinə və yalanlarına görə, Sizif o dünyada ağır cəza çəkir. Sizif iri bir daşı hündür, dik dağa çıxarmağa məhkum olunubdu. O, var gücüylə gecə-gündüz işləyir. Ağır işdən sel kimi qantər axıdır. Budur, zirvəyə az qalıb; bir az da güc lazımdı, bununla da Sizif işini qurtaracaq, amma daş onun əlindən çıxır, gurultu salaraq, toz qopararaq diyirlənə-diyirlənə aşağı yuvarlanır. Sizif yenidən işə başlayır.

Daş daim Sizifin əlindən çıxıb diyirlənir və heç vaxt dağın zirvəsinə gedib çıxa bilmir.

DEDAL VƏ İKAR

Erexteya nəslinin övladı Dedal Afinanın görkəmli rəssamı, heykəltəraşı və memarı idi. Deyilənə görə, o, ağappaq mərmərdən canlılardan seçilməyən heykəllər düzəldirmiş: sanki Dedalın heykəlləri görürlərmiş və hərəkət edirlərmiş. Dedal işindən ötrü çox alətlər ixtira eləmişdi: balta və burğu onun ixtirasıdı. Dedalın şöhrəti uzaqlara yayılmışdı.

Dedalın Tal adlı bir qohumu vardı. Tal onun bacısı Perdikanın oğlu idi. O dayısının yanında şagirdlik edirdi. İstedadı və ixtiraçılığı ilə o, erkən yaşlarından hamını heyrətə salmışdı. Tal ustadını ötüb keçəcək

qədər istedadlı idi. Dedalın qohumuna paxıllığı tuturdu və onu öldürmək fikrinə düşdü. Günlərin bir günü Dedal qohumu ilə qayalığın uc tərəfindəki bir akropolda dayanmışdı. Ətrafda ins-cins gözə dəymirdi. Dedal tək olduqlarını görüb, qohumunu qayalıqdan itələdi. Rəsam ümidvar idi ki, günahı cəzasız qalacaq. Qayalıqdan yıxılan Tal ölümcül yaralandı. Dedal tələsik akropoldan aşağı düşdü. Talın cənazəsini götürdü və gizlicə torpağa basdırmaq istədi, amma afinalılar onu qəbir qazarkən yaxaladılar. Dedalın cinayəti gizli qalmadı. Areopaq ona ölüm cəzası kəsdi.

Ölümdən can qurtarmağa çalışan Dedal Zevsin və Avropanın oğlu Minos padşahın məmləkəti Kritə qaçdı. Minos məmnuniyyətlə onu himayəsi altına aldı. Dedal Kritin padşahı üçün çoxlu ecazkar incəsənət əsərləri yaratdı. O, padşah üçün məşhur Labirint sarayını tikdi. Sarayın yolları elə qatma-qarışıq idi ki, ora girən çıxış yolunu tapa bilmirdi. Minos arvadı Pasifainin oğlu qorxunc Minotavrı bu saraya salmışdı. Onun bədəni adam bədəni, başı isə öküz başı idi.

Dedal uzun illər Minosun yanında yaşadı. Padşah onu Kritdən buraxmaq istəmirdi; görkəmli rəssamın sənətindən ancaq özü istifadə eləmək qəsdindəydi. Minos, Dedalı Kritdə əsir kimi saxlayırdı. Detal qaçmaq haqqında çox düşünüb-daşındı, nəhayət, Krit əsirliyindən azad olmağın yolunu tapdı.

Dedal sevincək qışqırdı:

– Əgər Minosun əlindən quru yolla, dənizlə qaçıb qurtara bilmirəmsə, səmadan niyə istifadə eləməyim, axı səma açıqdı! Mənim yolum budu! Hər şey Minosun əlindədi, təkcə hava onun ixtiyarında deyil!

Dedal işə girişdi. O, ləələklər yığdı, kətan saplarla, mumla onları birbirinə bənd elədi və onlardan dörd iri qanad düzəltdi. Dedal işlədiyi vaxt oğlu İkar onun yanında oynayırdı; gah küləyin havaya qaldırdığı tiftikləri tuturdu, gah da əlində mum yumşaldırdı. Nəhayət, Dedal işini qurtardı: qanadlar hazır idi. Dedal qanadları belinə bərkitdi, əlini qanadlardakı ilməyə keçirdi, qanad çaldı və havaya qalxdı. İkar təəccüblə iri quş kimi havada süzən atasına baxdı. Dedal yerə endi və oğluna dedi:

– Qulaq as, İkar, biz indi uçub Kritdən gedəcəyik. Uçuş vaxtı ehtiyatlı ol. Dalğaların duzlu damcıları qanadlarını islatmasın deyə, dənizə çox yaxınlaşma. Günəşə də çox yaxınlaşma: isti mumu əridə bilər və qanadlarının hərəsi bir tərəfə dağılar. Dalımca uç, məndən geridə qalma.

Ata-bala qanadları əllərinə taxdılar və asanlıqla havaya qalxdılar. Onların yerdən çox-çox uzaqlarda uçduqlarını görənlər fikirləşirdilər ki, bunlar göydə qanad çalan iki tanrıdı. Dedal tez-tez qanrılır, oğlunun

uçmağına diqqət yetirirdi. Onlar Delos, Paros adalarını ötüb keçdilər və uça-uça yollarına davam elədilər.

Sürətlə uçmaq İkara ləzzət verirdi, qanadlarını daha cəsarətlə yelləyirdi. İkar atasının göstərişini unutmuşdu, atasının arxasınca uçmurdu. Qanadlarını bərk-bərk yellədən İkar göyün təkinə yüksəldi, şəfəq saçan günəşə yaxınlaşdı. Günəşin yandırıcı şüası lələkləri bir-birinə bənd edən mumu əritdi, lələklər yerə töküldülər, külək onları havaya qaldırıb uzaqlara apardı. İkar əllərini yellətdi, amma artıq qanadları yox idi. O, dəhşətli hündürlükdən bir göz qırpımında dənizə düşdü və dalğaların qoynunda həlak oldu.

Dedal qanrıldı, yan-yörəsinə baxdı. İkar gözə dəymirdi. O, bərkdən oğlunu çağırmağa başladı:

– İkar! İkar! Hardasan? Hay ver!

Hay eşidilmədi. Dedal İkarın qanadlarının lələklərini dənizin qoynunda gördü və nə baş verdiyini anladı. Öz sənətinə qarşı Dedalda bir nifrət oyandı. Kritdən uçmaqla azad olmaq fikrinə düşdüyü günə elə nifrət elədi ki, gəl görəsən!

İkarın cənazəsi bir müddət dalğalar qoynunda qaldı, həmin dəniz ölünün adı ilə İkariy adlandırıldı. Nəhayət, dalğalar İkarın cənazəsini adanın sahilinə çıxartdılar. Herakl sahildə meyitə rast gəldi, o, meyiti torpağa tapşırdı. Dedal isə uçmağındaydı, nəhayət, gəlib Siciliyaya yetişdi, Kokal padşahın sarayında məskən saldı. Minos onun gizləndiyi yeri öyrəndi, böyük bir qoşunla Siciliyaya gəldi və Kokaldan tələb elədi ki, Dedalı versin.

Kokalın qızları Dedal kimi rəssamı itirmək istəmirdilər. Onlar Kokalı Minosun tələblərini qəbul eləməyə və onu saraya qonaq çağırmağa razı saldılar. Minos hamamlananda Kokalın qızları onun başına qaynar su tökdülər. Minos dəhşətli əzablar içində öldü. Dedal uzun müddət Siciliyada yaşadı. O, ömrünün son illərini doğma vətəni Afinada keçirdi. O, Afinada şanlı Afina rəssamları Dedalidlər nəslinin əsasını qoydu.

ERAMIZDAN ƏVVƏL XII-VIII ƏSRLƏRDƏ YUNAN ƏDƏBİYYATI

HOMER

Qədim Yunan ədəbiyyatının ilk böyük bədii nümunələri olan "İliada" və "Odisseya" dastanları, antik ənənələrə görə, şair Homerin adı ilə bağlı olmuşdur.

Lakin o vaxt belə bu əfsanəvi şairin həyatı, şəxsiyyəti haqqında heç bir məlumat yox imiş. Əsatiri sevən qədim yunanlar Homer haqqında da çoxlu rəvayətlər uydurmuşlar. Guya, onun atası çay allahı Melet, anası pəri Kreteidadır; mürəbbisi yenə əfsanəvi ozan Femindir. O kor olmuş (yunanca Homer sözünün mənası kor, korlar deməkdir), saray-saray gəzmiş; "İliada" əsərində təsvir edilən əsatiri qəhrəmanlarla şəxsən tanış imiş; onların da sarayında əziz qonaq kimi yaşayırmış və sairə.

Bir şair kimi də o əsatirləşdirilmişdir. Belə ki, antik dövrdə yaradılan bütün əsərləri Homerin adına çıxmışlar.

Ümumiyyətlə, Homerin varlığı, həyatı və şəxsiyyəti haqqında dəqiq məlumat, hətta əsərlərin özündə müəllifin şəxsiyyətinə aid bir işarə olmadığı üçün, qədim təzkirəçilər onun tərcümeyi-halını süni, mübahisəli və uydurma-xəyali rəvayətlərlə doldurmuşlar.

Sonra gələn yunan alimləri (Herodot, Aristotel, Aristrax, Ksenon, Hellavik) Homerin həqiqətən tarixi bir şəxsiyyət olduğunu təsdiq etmişlər. Ancaq həyatı haqqında heç bir şey deməmişlər. Onların əsas işi, dastanların mətni üzərində çalışmaqdan ibarət olmuşdur. Dastanları bir sıra artırmalardan, yamaqlardan, yersiz əlavələrdən təmizləmişlər. Əsərləri hissələrə bölmüşlər. Bu bölgü indi də qalmışdır (dastanların hərəsi 24 nəğmədən ibarətdir). Dastanların üslubu haqqında tədqiqat apararkən, müxtəlif fərziyyələr meydana çıxmışdır.

Bəziləri hər iki dastanın üslubu arasında fərq görərək belə qərara gəlmişlər ki, Homer ancaq "İliada"nın müəllifidir, "Odisseya"nı başqa şair yazmışdır. Bəziləri hər iki dastanın üslubu arasında kəskin bir fərq görmədikləri üçün, belə qərara gəlmişlər ki, "İliada"nı Homer gəncliyində, "Odisseya"nı isə qocalığında yaratmışdır.

Hər iki əsərdə çoxlu uydurmalar, nağıllar, əfsanələr, mübaliğəli təsvirlər var. Lakin buna baxmayaraq, "İliada" və "Odisseya"da o dövrün yunan cəmiyyəti, cəmiyyətdəki sinfi tərkib qəbilə quruluşunun əsas

yayları, Yunan iqtisadiyyatı, maddi mədəniyyət, adət-ənənə öz həqiqi əksini tapmışdır.

Hər iki dastanda həyata nikbin baxış, həyat sevgisi, insanpərvərlik əsas yer tutur. İbtidai cəmiyyətlərə xas olan sehrbazlıq, təbiətə əsirlik, ölülərə pərəstiş bu əsərlərdə yoxdur. Əksinə burada həyatı sevmək, təbiətə bağlılıq, həyatı ölümdən yüksək tutmaq ideyaları təbliğ olunur. Odisseya əsərində belə bir yer var: yeraltı dünyada ölmüş Axillesin ruhu Odisseya əsərində deyir ki: "Hökmdar olub ölməkdənsə, cütçü olub yaşamaq daha yaxşıdır".

Hər iki poema, həqiqi mənada xalq dastanıdır. Bu dastanlarda qədim yunanların adət-ənənələri, dünyagörüşü və dünya duyğuları, mərasimləri, ailə və məişət işləri, mədəniyyət nümunələri, dövlət idarə işləri öz real əksini tapmışdır.

TROYA MÜHARİBƏSİ HAQQINDA ƏSATİR

Troya əsatiri Zevsin Fetida ilə evlənmək istəməsi ilə başlayır. Zevs Fetidanı almaq istəyir. Lakin Prometey bunun böyük bir bədbəxtlik ilə bitəcəyini xəbər verir. Bunu bilən Zevs Fetidanı Peley adlı Yunan qəhrəmanına ərə verir. Onların toyu Olimpdə təşkil olunur. Nifaq allahı Eridadan başqa bütün allahlar həmin toya çağırılır. Ona görə Erida gizlincə məclisə daxil olur və Hera, Afina, Afrodita arasında nifaq salmaq üçün onların qabağına bir alma atır. Almanın üstündə yazılmışdır: "Ən gözələ!" Onlar bu barədə Zevsə müraciət edirlər. Zevs almanı onlardan heç birisinə verə bilmir. Onları Troya hökmdarı Priamın gözəl oğlu Parisin yanına göndərir. Paris Afroditanın vədinə uyaraq almanı ona verir. Demək ki, Afrodita onların ən gözəli imiş. Afrodita isə Parisə ən gözəl bir qadın vəd etmişdi. O öz vədinə əməl edir və Parisə Menelayın arvadı Yelenanı göstərir. Bu münasibətlə Paris Menelayın sarayına qonaq gəlir, lakin Menelay evdə olmadığı vaxt Yelenanı götürüb qaçır. Şərt üzrə bütün yunan bazilevsləri (qəbilə başçıları) Menelayın çağırışı ilə onun başına toplanırlar və Troyaya müharibə elan edirlər. Həmin Troya əsatirlər silsiləsində də müharibənin başlanğıcı, Troyanın on il mühasirəsi, Troyanın alınıb darmadağın edilməsi, müharibədən sonra evlərinə qayıdan qəhrəmanların başına gələn macəralar təsvir olunur.

Bu əsatir bir çox əsərlərin mövzu mənbəyi olmuşdur. "İliada" və "Odisseya" dastanlarının da mövzusu buradan alınmışdır.

"İLİADA"NIN QISA MƏZMUNU

"İliada" İlion nəğmələri deməkdir. Bu əsərdə on il sürən Troya müharibəsinin yalnız son günləri təsvir olunur.

I nəğmə. On ildir ki, yunan orduları İlion şəhərini mühasirə etmişlər. Lakin troyalılar düşməni şəhərə buraxmırlar. Yunanlar bütün ətraf vilayətləri qarət etmişlər, şeyləri öz aralarında bölüşdürmüşlər; şəhərlərdən birini alarkən kahin Xrisin qızı Xreseidanı əsir edərək ordunun sərkərdəsi Aqamemnona vermişdilər. Qızın atası Xris Apollona yalvarır, öz qızını geri istəyir. Apollon isə buna icazə verir. Xris özü ilə çoxlu hədiyyələr götürür və Aqamemnona müraciət edir. Aqamemnon qızı atasına vermir. Buna görə də Apollonun yunanlara acığı tutur; yunan ordularını oxlamağa başlayır, onların içərisinə xəstəlik göndərir. Əsərin birinci nəğməsi bununla başlayır.

Ordunun böyük qəhrəmanı Peley oğlu Axilles xalq məclisi çağırır və bu bəlanın səbəbini bilmək istəyir. Falçı Kolxas bəlanın səbəbini izah edir. Aqamemnon falçıya acıqlandığı vaxt, Axilles Kolxası müdafiə edir. Beləliklə, ordunun baş sərkərdəsi ilə böyük qəhrəmanı arasında ziddiyyət başlayır. Aqamemnon Breseidanı geri qaytarıb Axillesi hədələyir və Axillesin əsiri Breseidanı onun əlindən alır. Buna görə Axilles qəzəblənib küsür, öz çadırına çəkilir. Müharibədə iştirak etmir.

II nəğmə. Aqamemnonun yuxuda Zevs tərəfindən aldadılması ilə başlayır. Yuxuda Zevs Aqamemnonu müharibəyə təhrik edir və o troyalılar ilə Axillessiz vuruşmağa qərar verir. Ancaq bundan əvvəl ordunu yoxlamaq üçün onlara evlərinə qayıtmağı təklif edir. Bu təklifi müstəqim mənada başa düşən əsgərlər gəmilərə doğru hərəkət edirlər. Aqamemnonun səhvini başa düşən qəbilə başçıları bir güc ilə ordunun qabağına keçib, geri qaytarırlar. Burada, xüsusilə, Tersit səhnəsi çox maraqlıdır. Qul Tersit orduya müraciət edərək sərkərdə Aqamemnonun tamahkarlığını, qarətçiliyini, məişət pozğunluğunu ifşa edir. Lakin Odissey yaxınlaşıb onu vurur və susdurur.

III nəğmədən başlayaraq vuruş səhnələri təsvir olunur. Troyalılar Priamın qəhrəman oğlu Hektorun sərkərdəliyi ilə yunanlara hücuma keçirlər. Paris təkbətək vuruşa çağırır. Onun çağırışını Yelenanın əri Menelay qəbul edir. Onlar vuruşurlar. Müvəqqəti barışıq elan olunur. Troya ağsaqqalları qaladan tamaşa edirlər. Qaçırılmış Yelena da buradadır. Yelena bütün yunan qəhrəmanlarını bir-bir göstərib onlara tanı-

dır. Menelay Parisi yerə sərir, Hamisi Afrodita onu buludlarda gizlədərək meydandan qaçırır. Menelay bunu başa düşmür; meydan boyu düşmənini axtarır.

IV nəğmə. Zevs allahların iclasında müharibənin bitirilməsini təklif edir. O, təklif edir ki, Yelena Menelyaya qaytarılsın, bununla məsələ bitsin. Yunanların hamisi Afina troyalıların müttəfiqi Pandarı məcbur edir ki, barışığı pozsun. Menelayın qəflətən yaralanması ilə təzədən vuruş qızışır.

V nəğmə. Başdan-başa yunan qəhrəmanı Diomedin vuruşlarına həsr edilmişdir. Diomed Pandarı öldürür. Eneyi yaralayır. Eneyin anası Afrodita ona köməyə gəlir. Diomed Afroditanı qolundan yaralayır. O, hətta müharibə allahı Aresin özünü də yaralayır.

VI nəğmə. Troyalı qəhrəman Qlavk ilə Diomedin üz-üzə gəlməsi təsvir olunur. Ancaq rəcəzlərdən* məlum olur ki, keçmişdə onların ataları bir-birilə dost imişlər; ona görə vuruşmurlar. Hektor Troya qadınlarını dua eləməyə çağırır. Qardaşı Parisi vuruşa təhrik edir; onu utandırır. Öz arvadı Andromaxa ilə görüşür.

VII nəğmə. Troyalıların yunanlara üstün gəldiyi məlum olur. Hektor yunan qəhrəmanlarını təkbətək vuruşa çağırır. O, Telamon oğlu Ayaks ilə vuruşur. Axşam vuruşu yarımçıq kəsilir. Müvəqqəti barışıq bağlanır.

VIII nəğmə. Troyalıların hücumu verilmişdir. Diomed, Tevkr və başqa yunan qəhrəmanları troyalıların hücumunu saxlaya bilmirlər.

IX nəğmə. Göstərilir ki, Aqamemnon öz səhvini başa düşür və dostlarının məsləhətilə Axillesin yanına minnətçilər göndərir. Ancaq Axilles Aqamemnonun təklifini qəbul etmir, minnətçilər əliboş geri qayıdırlar.

X nəğmə. Yunan qəhrəmanlarının kəşfiyyat işlərindən danışılır. Gecə qaranlıqda Diomed ilə Odissey kəşfiyyata çıxırlar və Troya kəşfiyyatçısı Dolonu ələ keçirirlər. Beləliklə, Troya ordusunun vəziyyətini öyrənirlər. Eyni zamanda məlum olur ki, Frakiya hökmdarı Ress troyalılara köməyə gəlmişdir. Dolonu öldürdükdən sonra Diomed ilə Odissey troyalıların qərargahına daxil olur. Ressi və onun adamlarından on ikisini öldürüb, atlarını da götürüb geri qayıdırlar.

XI nəğmə. Aqamemnonun qəhrəmanlıqları təsvir olunmuşdur. Lakin troyalılar durmadan hücuma keçirlər. Yunan qəhrəmanlarının çoxu, o cümlədən Aqamemnon, Diomed, Odissey və başqaları yaralanırlar, meydandan çıxırlar. Bu vaxt Axilles dostu Patroklu göndərir ki,

* Döyüş və ya güləşmədən əvvəl pəhləvanların üz-üzə durub oxuduğu şeir

vəziyyəti öyrənsin. Yunanlar müdafiəyə məcbur olmuşlar; troyalılar hər tərəfdən hücum edirlər.

XII nəğmə. Hektor qərargahın qapısını sındırır, qərargaha daxil olur.

XIII nəğmə. Vuruş yunan qərargahında gedir. Zevs troyalılara kömək edir.

XIV nəğmə. Yunan qəhrəmanları ağır vəziyyəti müzakirə edirlər. Hera Zevsi yatırdır. Poseydon yunanlara ürək-dirək verir, özü Kalxasın simasında meydana gəlir. Ayaks Hektoru daş ilə yaralayır. Onu meydandan götürüb aparırlar.

XV nəğmə. Zevs yuxudan ayılır. Vəziyyəti görüncə Heranın hiyləsini başa düşür. Allahlara əmr edir ki, yunanlara kömək etməsinlər. Troyalılara imkan yaradır ki, təzədən hücuma keçsinlər. Hektor qərargaha yaxınlaşır. Bir yunan gəmisini yandırır. Ayaks güclə hücumun qabağını alır.

XVI nəğmə. Patrokl gözü yaşlı vəziyyəti Axillesə danışır. Onu ürəksizlikdə təqsirləndirir. Xahiş edir ki, silahlarını ona versin. Axilles razı olur. Öz silahlarını əmisi oğlu və dostu Patrokla verir. Bir şərt ilə ki, gəmiləri müdafiə etsin və geri qayıtsın. Troyalılar onu bu hərbi geyimdə görərkən elə bilirlər Axilles gəlir. Qızğın vuruş başlayır. Müvəffəqiyyətindən hissiyata qapılan Patrokl, Axillesin tapşırığını yadından çıxarır və troyalıların qərargahına yaxınlaşır. Appollonun köməyilə troyalılar Patroklu mühasirəyə alırlar və onu yaralayırlar. Ən nəhayət Hektor gəlir, təkbətək vuruşurlar. Hektor Patroklu öldürür.

XVII nəğmə. Hektor Patroklun silahlarını, hərbi geyimini çıxarır. Cəsədini aparmaq istərkən Menelay vuruşa girir. Menelay güclə Patroklun cəsədini müdafiə edir. Ayaks və başqaları onun köməyinə gəlir. Qoca Nestorun oğlu Antilox Patroklun ölüm xəbərini Axillesə gətirir.

XVIII nəğmə. Axilles dostu üçün matəm tutur, acı-acı ağlayır. Özünü mənasız qəzəb üçün təqsirləndirir. Ona anası Fetida təsəlli verir. İndi Axilles ancaq dostunun intiqamı haqqında düşünür. Müharibə meydanına atılmaq istəyir, ancaq silahı yoxdur. Silahsız bayıra çıxır; elə bağırır ki, troyalılar qorxub qaçırlar. Patroklun cəsədini yunanlar geri alırlar.

Fetida dəmirçi allah Hefestin yanına gəlir; xahiş edir ki, Axilles üçün silahlar qayırsın. Hefest xahişi qəbul edir və Axillesə yaxşı, nəqsli, möhkəm silahlar qayırır.

XIX nəğmə. Sabah tezdən silahlar hazır olur. Fetida onları öz oğluna təqdim edir. Axilles Aqamemnon ilə barışır. Onun hədiyyələrini qəbul edir. Silahlanıb meydana giri. Gərdunəsinin atlarından biri Axil-

lesə onun ölümünün yaxınlaşdığını xəbər verir. Lakin bu xəbər Axillesi intiqam niyyətindən çəkindirmir.

XX nəğmə. Zevs allahlarla müharibədə iştirak etməyə icazə verir. Hera, Afina, Poseydon, Hermes, Hefest yunanlara, Arey, Apollon, Ksanf, Artemida, Letya, Kiprida troyalılara köməyə gedirlər. Axilles bir çox Troya qəhrəmanlarını öldürür, lakin o hər yerdə Hektoru axtarır. Troyalılar qaçışırlar. Axilles onları Ksanf çayının sahilinə sıxışdırır. Hektor öldürülmüş qardaşı Polidorun intiqamını almaq üçün Axillesin qarşısına gəlir. Ancaq Apollon onu buluda bürüyərək meydandan qaçırır.

XXI nəğmə. Axilles Ksanf çayı sahilinə sığınmış troyalıları qırıb tökür. Çay öz məcrasından şişib çıxır, ətrafı basmaq istərkən, dəmirçi allah Hefest onu yatırır. Allahlar arasında mübarizə başlayır. Apollon Axillesi aldadır, onu şəhərdən uzaqlaşdırır.

XXII nəğmə. Troyalılar qalaya qaçırlar. Müharibə meydanında Hektor tək qalmışdır. Atası Priam, anası Hekubə ona yalvarırlar ki, qalaya qayıtsın; Hektor onlara qulaq asmır. Qəhrəmanlıq namusu onu boğur. Lakin Axillesi ona yaxınlaşdığı vaxt qorxur və qaçmağa başlayır. Axilles onu qovur. Onlar üç dəfə İlion qalasını dolanırlar. Axırda Afinanın hiyləsilə Hektor vuruşmalı olur. Onların vuruşları təsvir olunur, Hektor ağır yaralanır. O, Axillesdən xahiş edir ki, onun ölüsünü atasına versin. Axilles qəbul etmir. Hektor onun Paris tərəfindən öldürüləcəyini xəbər verib ölür. Axilles onun cəsədini bütün meydan boyu sürüyür. Priam, Hekubə və başqaları, bu vəziyyəti görüncə ağlaşırlar. Onların ağlaşmasını eşidən Andromaxa qala hasarına gəlir, ürəyi gedir.

XXIII nəğmə. Axilles intiqamını aldıqdan sonra bir qədər soyumuşdur. Petroklun dəfn mərasimi təşkil olunur. Ona insan qurbanları kəsilir. Bütün yunan qəhrəmanları bu mərasimdə iştirak edirlər.

XXIV nəğmə. Qoca Priam Hermesin müşayiətilə Axillesin yanına gəlir. Yalvarıb oğlunun meyitini istəyir. Priam Axillesin atasını onun yadına salıb öz vəziyyətini ona anlatmaq istəyir. İki düşmən qarşı-qarşıya dayanmışdır. Ən axır Axilles razı olur. Gətirilən hədiyyələri qəbul edir. Hektorun meyitini atasına verir. On iki günlük barışıq elan edir ki, Priam öz oğlunu dəfn etdirsin. Əsər də Hektorun dəfn mərasimi ilə bitir.

"ODİSSEYA"NIN QISA MƏZMUNU

İlion şəhəri alındıqdan sonra sağ qalmış bütün qəhrəmanlar öz qənimətlərilə geri dönürlər. Geri dönərkən qəhrəmanların başına gələn macəralar, Troya silsiləsinin qayıdış hissəsini təşkil edir. "Odisseya" dastanının ad məzmunu həmin bu hissədən götürülmüşdür. On il müharibədə olan İtaki hökmdarı Odissey on il Aralıq dənizində azır. Bu dastanda həmin on ilin son qırx günü təsvir edilmişdir.

I nəğmə. Allahların iclasıdır. Onlar belə qərara gəlirlər ki, Poseydon tərəfindən təqib olunan və Okigin adasında pəri Kalipso tərəfindən zorla saxlanılan Odissey öz vətəni İtaki adasına qayıtmalıdır. Afina öz sifətini dəyişdirərək İtaki adasında Odisseyin oğlu Telemaxın gözünə görünür. Ona məsləhət görür ki, Pilosa və Spartaya getsin, anası Penelopanı istəyən gəncləri saraydan qovsun. Telemax birinci dəfə anası və gənclər ilə ciddi surətdə danışır.

II nəğmə. İkinci gün Telemax carçılara əmr edir ki, İtaki əhalisini meydanda iclasa çağırsınlar və tələb edir ki, gənclər onun evini tərk edib getsinlər. Həmin gənclərdən Antinoy ona qaba cavab verir. Telemax Pilosa getmək üçün gəmi tələb edir. Gənclər iclasa şuluq salırlar. Afina ona gizlicə gəmi verir. Telemax anası ilə görüşmədən yola düşür.

III nəğmə. Telemax Pilosa gəlir. Ölkənin hakimi qoca Nestor sahildə Poseydona qurban kəsdirirdi.

Telemax Nestordan xahiş edir ki, geri dönən yunan qəhrəmanlarının başına gələn əhvalatları danışsın. Lakin Nestor ona məsləhət görür ki, Menelayın yanına getsin, çünki o bu işləri daha yaxşı bilir. Telemax Nestorun oğlu Psistrat ilə Lakedomona yola düşür.

IV nəğmə. Telemax ilə Psistrat Lakedomona yetişdikləri vaxt, Menelay oğluna və qızına toy edirdi. O, qonaqları da hörmətlə toya çağırır. Sonralar Menelay və arvadı Elena Telemaxı tanıyırlar. Onlar Odisseyin qəhrəmanlıqları haqqında məlumat verirlər. İkinci gün Menelay falçı Proteyin Odissey haqqında dediklərini ona xəbər verir. Məlum olur ki, Odissey sağdır və pəri Kalipsonun əsiridir.

Bu zaman İtaki adasında gənclər Telemaxın getdiyini bilirlər və istəyirlər ki, qayıdarkən onu öldürsünlər. Penelopa bunu bilib çox dərdlənir. Gənclər isə Telemaxı dənizdə pusurlar.

V nəğmə. Allahların iclasıdır. Onlar Hermesi Kalipsonun yanına göndərirlər və tələb edirlər ki, Odisseyi azad etsin. Odissey özü üçün gəmi qayırır, beşinci gün yola düşür. On yeddi gün sağ-salamat üzür.

On səkkizinci gün Poseydon onu dənizdə tanıyır, fırtına qaldırır, gəmi batır, üç gün onu dalğalar atıb-tutur, dördüncü gün sahilə atır.

VI nəğmə. Afina Feaki hökmdarı Alkinoyun qızı Navsikayanın yuxusuna girir və onu təhrik edir ki, öz rəfiqələri və kənizlərilə dəniz kənarına paltar yumağa getsin. Onlar sahilə gəlirlər. Odissey bərk yatmışdır. Odissey onların səsinə ayılır. Navsikayaya yaxınlaşır və xahiş edir ki, ona paltar və yer versin. Navsikaya onu öz saraylarına çağırır. Odissey onu təqib edir.

VII nəğmə. Odissey şəhərin qapılarına çatdığı vaxt Afina onu qarşılayır. Heç kəsin gözünə görünmədən, Odissey Alkinoyun sarayına daxil olur. Alkinoyun evində qonaqlıqdır. Ona paltar verirlər. Odissey xahiş edir ki, vətəninə dönməkdə ona kömək etsinlər. Qonaqlıq qurtarır. Odissey Alkinoydan və arvadı Aretadan yenə kömək istəyir. Onlar Odisseyə kömək vəd edirlər.

VIII nəğmə. Alkinoy vətəndaşlara müraciət edir ki, Odisseyə kömək etsinlər, onların böyüklərini öz sarayına toplayır. Burada ozan Demodok nəğmələr oxuyur. Sonra oyunlar başlayır. Odissey də oyun müsabiqələrində iştirak edir. Saraya dönürlər. Axşam yeməyində Demodok Odisseyin taxta atı haqqında nəğmə oxuyur. Bunu eşidən Odissey ağlayır. Alkinoy ağlamağın səbəbini soruşur və xahiş edir ki, başına gələnləri danışsın.

IX nəğmə. Odissey başına gələnləri danışır.

Troyadan ayrılırlar. İsmar şəhəri dağılarkən, Odisseyin bir çox adamları ölür. Fırtınada Sikloplar adasına gəlib çıxırlar. O gəmiləri Keçi adasında saxlatdırır, özü on iki adamla bir gəmiyə minərək sikloplar adasına gəlir. Polifemin mağarasına girirlər. Siklop onun altı adamını yeyir. Odissey onu kefləndirir, tez gözünü çıxarır. Hiylə ilə mağaradan çıxıb qaçırlar. Onlar siklopun sürüsünü də özləri ilə aparırdılar. Polifem öz atası Poseydondan xahiş edir ki, onun intiqamını alsın.

X nəğmə. Odissey Eolio adasına gəlir. Eol küləklər hakimidir. O, Odisseyə külək dolu körük verir.

Gəmiləri İtaki adasına çatdığı zaman Odissey yatmış olur. Gəmi əhli körüyü açır, küləklər əsməyə başlayır və gəmiləri təzədən Eolio adasına qaytarır. Hirslənmiş Eol Odisseyi qovur. Odisseyin on bir gəmisi batırılır. Odissey Sirseyin adasına gəlib çıxır. Sehrbaz Sirsey onun adamlarını donuza döndərir. Lakin Odissey Hermesin köməyilə onun sehrini puça çıxarır.

Sirsey Odisseyin adamlarına təzədən adam sifəti verir və Odissey bir il burada qalmalı olur.

Sirsey ona məsləhət görür ki, yeraltı dünyaya ensin və burada ölənlərin ruhu ilə danışsın. Qapıda dayanan Tirsenden isə öz gələcəyini soruşsun.

XI nəğmə. Odissey yeraltı dünyaya enir. Anasının kölgəsilə danışır. Aqamemnonun, Axillesin, Patroklun, Antiloxun, Ayaksın kölgələri görünür. Odissey onlarla danışır. O, Tantalın, Sizifin əzablarını görür. Qorxudan dayana bilmir və geri qayıdır.

XII nəğmə. Sirsey Odisseyin gələcək çətinliklərindən danışır. Buna baxmayaraq, Odissey yola düşür. Burada Odissey bir çox xəyali təsadüflərdən danışır. Günəş allahının öküzlərini öldürdüyü üçün, Zevs ona hirslənir; gəmilərini batırır. Tək Odissey Kalipsonun adasına gəlib çıxır.

XIII nəğmə. Alkinoy bu hekayəni eşitdikdən sonra ona qiymətli hədiyyələr verir, onu yola salır.

İtaki adasına yaxınlaşdıqları vaxt gəmi əhli onu gizlicə sahilə çıxarır; şeylərini də özünə təhvil verirlər. Odissey öz vətənini tanıya bilmir, çünki Afina buranı duman ilə örtmüşdü. Afina ona məsləhətlər verir, düşmənlərlə mübarizə yolunu göstərir. Afina onu qoca dilənçi halına salır və tapşırır ki, çobanı Evmeyin yanına getsin. Özü isə Lakedomona Telemaxın yanına uçur.

XIV nəğmə. Odissey Evmeyin yanına gəlir. Evmey ilə yemək yedikdən sonra onu inandırır ki, ağası Odissey bu yaxında gələcək. Evmey ona inanmır. Odissey özü haqqında uydurma nağıllar söyləyir. Axşam olur. Yeyirlər və yatırlar.

XV nəğmə. Afina Telemaxın yuxusuna girir və ona geri qayıtmağı məsləhət görür. Menelay və Yelena ona qiymətli hədiyyələr verib yola salırlar.

Həmin bu vaxt Odissey Evmeyə deyir ki, o şəhərə dilənməyə getmək istəyir; ola bilsin ki, Penelopanı istəyən gənclərə nökər oldu. Evmey onu getməyə qoymur. Telemax sahilə çıxır və birbaş Evmeyin yanına gəlir.

XVI nəğmə. Evmey Telemaxı sevinclə qarşılayır. Telemax Evmeyi evlərinə göndərir ki, gəldiyini anasına xəbər versin. Afinanın göstərişilə Odissey özünü oğluna nişan verir. Onlar bir yerdə düşmənləri məhv etmək üçün plan hazırlayırlar. Sarayda isə gənclər Telemaxı öldürmək üçün yol axtarırlar. Onların içərisində Antinoy daha çox cəhd göstərir. Penelopa onu məzəmmət edir. Evmey geri dönür.

XVII nəğmə. Telemax saraya gəlir. Anası və adamları onu yaxşı qarşılayırlar. Evmey ilə Odissey gəlirlər. Həyətə girdikləri vaxt Odisseyin qoca iti onu görür və sevincindən ölür. O, içəri girir, gənclərdən sədəqə istəyir. Antinoy onu söyür; üzərinə kətil atır. Penelopa onu yanına çağırır və Odissey haqqında məlumat almaq istəyir. O, gecə gələcəyinə söz verir.

XVIII nəğmə. Gənclər Penelopadan tələb edirlər ki, ərə getməyə razılıq versin. O söz verir, gənclər ona qiymətli hədiyyələr gətirirlər. Melanto Odisseyi təhqir edir. Evrimax onun üzərinə kətil atır. Gənclər öz evlərinə gedirlər.

XIX nəğmə. Odissey Telemax ilə silahları hazırlayırlar. O, Penelopaya Odissey haqqında uydurma nağıllar söyləyir və inandırır ki, Odissey bu yaxınlarda dönəcəkdir. Qoca dayə onun ayağını yuduğu vaxt ayağındakı çapıqdan Odisseyi tanıyır. Odissey onu susmağa məcbur edir. Penelopa yuxusunu danışır. Məlum edir ki, kim Odisseyin yayından ox atıb hədəflərin hamısını vursa, ona ərə gedəcək.

XX nəğmə. Odissey ot üstündə yatır. Penelopanın şikayətləri onu oyadır. Qonaqlıq başlayır. Gənclər özlərini pis aparırlar. Telemaxın dostu Feoklimen onların bəlaya düşəcəklərini xəbər verir.

XXI nəğmə. Penelopa Odisseyin yayını və oxlarını gətirir. Buna görə Evmey və sadiq qul Filoti ağlayırlar. Antinoy onlara istehza ilə gülür. Gənclər Odisseyin yayından ox ata bilmirlər. Odissey özünü Evmeyə və Filotiyə tanıdır. Onlar vuruşa hazırlaşırlar. Gənclər müsabiqəni təxirə salmağı təklif edirlər. Odissey qabağa yeriyir və xahiş edir ki, ona da izin versinlər müsabiqədə iştirak etsin. Gənclər buna etiraz edirlər. Telemaxın əmrilə yayı Odisseyə verirlər. O, yayı döşünə qoyur və bir-bir hədəfləri vurur.

XXII nəğmə. Odissey yayı gənclərə tərəf çevirir. Birinci olaraq Antinoyu öldürür. Vuruş başlayır. Gənclər öldürülürlər. Odissey əmr edir, meyitləri yeməkxanadan çıxarırlar. Odissey Evrikleyanı göndərir ki, Penelopanı çağırsın.

XXIII nəğmə. Dayə Evrikleya Penelopaya xoş xəbər gətirir. Penelopa onunla bərabər yeməkxanaya gəlir. Penelopa Odisseyi tanıya bilmir. İstəyir ki, onu ətraflı yoxlasın. Vətəndaşları aldatmaq üçün Odissey sarayda gurultulu rəqs məclisi düzəldir. Çimdikdən sonra Penelopanın yanına gəlir. O, ancaq ikisinə məlum olan çarpayı haqqındakı sirri açdığı üçün Penelopa onu tanıyır. Odissey və Penelopa öz

macəralarını bir-birlərinə danışırlar. Səhər Odissey atası qoca Laertin yanına gedir.

XXIV nəğmə. Ölən gənclərin ruhları yeraltı dünyada Axilles və Aqamemnona rast gəlirlər. Amfimedon Aqamemnona əhvalatı danışır. O, Odisseyin mərdliyinə və Penelopanın sədaqətinə pərəstiş etdiyini bildirir. Bu zaman Odissey özünü atasına nişan verir. Gənclərin ölüm xəbəri şəhərə yayılır. Vətəndaşlar həyəcana gəlirlər; üsyan başlayır. Üsyançılar Evpeytin rəhbərliyilə Odisseyə qarşı mübarizəyə başlayırlar. Odissey qalib gəlir. Afinanın köməyilə sülh bağlanır. İtaki adasında təzədən əmin-amanlıq olur.

ERAMIZDAN ƏVVƏL VIII-VI ƏSRLƏRDƏ YUNAN ƏDƏBİYYATI

HESİOD

E.ə. VII əsrin sonu

Homerdən fərqli olaraq, Hesiod özü haqqında qısa da olsa məlumat vermişdir. Məlum olur ki, Hesiod Kiçik Asiyada Kim şəhərində anadan olmuşdur. Atası Din gəmiçilik edirmiş. "Kasıblıq və bədbəxtlik" üzündən ailə buranı tərk edərək, Yunanıstana, Askraya gəlmişdir. Hesiodun da gəncliyi Askrada keçmişdir. Ataları öldükdən sonra Hesiod ilə qardaşı Perses arasında miras üstündə mübahisə olmuş, məsələ məhkəməyə verilmiş, məhkəmə işi Persesin xeyrinə kəsmişdir. Hesiod həyatını çobanlıqda keçirmişdir. Öz şeirlərinin çoxunu da qardaşı Persesə nəsihət şəklində yazmışdır. Onun "Zəhmətlər və günlər" adlı didaktik poeması həmin şeirlərin bir məcmuəsidir (bu əsər cəmi səkkiz yüz misradan ibarətdir).

İmperator Adrian dövründən qalma bir əsərdə Homer ilə Hesiodun əbədi müsabiqəsindən danışırlar. Guya Evbey adasında Xalkid şəhərində qədim Yunanıstanın iki şairi ədəbi müsabiqədə üz-üzə gəlmişlər. Şairlər öz əsərlərini oxumuşlar. Homerə aludə olan dinləyicilər qalibiyyət çələngini ona vermək istərkən, müsabiqənin sədri Panid buna etiraz etmiş və "qalibiyyət çələngini müharibələr, qanlı səhnələr təsvir edən şairin başına deyil, əmin-amanlıq, sülh və azad zəhmət həyatını təsvir edən şairin başına qoymaq lazımdır", deyərək çələngi alıb Hesiodun başına qoymuşdur. Əlbət ki, bu rəvayətin doğru olub-olmadığını söyləmək çətindir. Lakin diqqəti cəlb edən budur ki, qədim zamanda belə bu iki şairi dünyagörüşü və yaradıcılıqları etibarilə birbirindən ayırırlarmış.

Doğrudan da, Hesiod zəhməti, əkinçiliyi tərənnüm edən bir şairdir. Onun əsərlərində yüksək cismani qüvvəyə malik olan pəhləvanlar lüzumsuz adamlar kimi, əkinçilər, əliqabarlı adamlar cəmiyyətin ən faydalı üzvləri kimi təsvir edilirlər.

Hesiod yaxşı müşahidə qabiliyyətinə malikdi. O, içində yaşadığı cəmiyyəti dərindən öyrənmiş və həyatdan bədbin nəticələr çıxarmışdır. Belə qərara gəlmişdir ki, içində yaşadığı cəmiyyətdə ədalət, haqq yoxdur. O öz dövrünü "dəmir dövrü" adlandırır, hətta ah çəkərək deyir ki "kaş, mən bu vaxt anadan olmayaydım, bu vaxt yaşamayaydım".

Öz dövrünün haqsızlıqlarını can yanğısı ilə təsvir edən Hesiod, xoşbəxtliyi ancaq zəhmətdə görür. Ona görə "Zəhmətlər və günlər" əsərində qardaşına öyüd verən, həyat, tarix haqqında fəlsəfi nəticələr çıxaran Hesiodun xoş sifətlə, ürəklə müraciət etdiyi adamlar əkinçilərdir, bilavasitə təsərrüfatda işləyən əməkçilərdir. Hesiod onlara işləri ətrafında məsləhətlər verir. İlli fəsillərə ayırır. Hər fəsildə kəndlinin görəcəyi işi bir-bir sadalayır. Gözəl təbiət təsvirləri yaradır. O, zəhmətkeşi, zəhmətə həvəsləndirir. Hesiod təsərrüfatın başqa sahələrinə aid də bir çox məsləhətlər vermişdir. Belə görünür ki, Hesiod bütün bu sahələri yaxından öyrənmiş və özü də sarayda sarayın kef, eyş-işrət şəraitində deyil, bəlkə zəhmət aləmində dönüb dolaşırmış.

O həyat müəllimidir: Əsərində verdiyi hekayələrdən, əsatirlərdən və ancaq həyat üçün əxlaqi nəticə çıxarmaq məqsədilə istifadə edir. Onun qısa və aforizm şəklində söylənmiş bir çox öyüdləri zərbi-məsəl kimi uzun zaman yunanlar arasında yaşamışdır.

Bir şair olaraq Hesiod, realistdir. Həyatı yaxşı müşahidə etdiyi üçün, real həyat və məişət səhnələri yaratmışdır. Onun əsərləri o dövr yunan həyatı haqqında bizə çox məlumat verə bilər.

Aşağıda "Zəhmətlər və günlər" əsərindən bir neçə parça verilir.

ZƏHMƏTLƏR VƏ GÜNLƏR

Parçalar

Nəsillərin tədricən bir-birini əvəz etmələri lövhələri. Hesiod "Dəmir nəsli" ən pis bir nəsil kimi təsvir edir.

Olimpdəki məskənlərdə olan ölməz pak allahlar,
Xəlq etdilər ən əvvəlcə insanlardan qızıl nəsli.
O zamanlar səmalara hakim Kron hökm edərdi,
O insanlar kədər, zəhmət tanımadan, allahlar tək
Könlü açıq, şən, asudə, qayğısızca yaşadılar:
Bilməzdilər əsla nədir qəm-qüssəli ixtiyarlıq,

Daim sağlam, qüvvətliydi əllərilə ayaqları.
Ömürləri ziyafətdə şən keçərdi. Öləndə də
Yuxulayan tək ölərdilər. Heç ehtiyac bilməzdilər.
Bərəkətli torpaqları özbaşına bol məhsullar
Yetirərdi. Könülləri istədikcə zəhmət çəkib
Bərəkətli məhsulları rahat-rahat yığardılar.
Qəlbə fərəh verən bol-bol sürülərə sahibdilər.
Həmin nəsli qara torpaq ağuşuna alan zaman,
Böyük Zevsin qüdərtilə, onlar xeyrə xidmət edən
Mələklərə çevrildilər: yer üzündə bizim bütün
Haqlı-haqsız işimizə göz yetirib, insanları
Qoruyurlar. Qaranlıq bir duman kimi görünərək,
Bu dünyada insanlara bol var-dövlət verir onlar.
Allahların qüdrətilə bu şərəfə yetişmişlər.

127-173-cü misralarda "gümüş nəsil", "mis nəsil" Troya müharibələri dövrünə aid "qəhrəmanlar nəsli" təsvir edilir. Nəhayət, "dəmir nəsli" gəlir.

Ax, gərək mən beşinci əsr nəsli içrə olmayaydım!
Ya ondan tez ölmüş olub, ya da sonra doğulaydım...
Bu dünyada indi dəmir nəsli yaşar... gecə-gündüz,
Zəhmət, kədər, fəlakətdən onlar bir gün görməyəcək.
Pak allahlar ağır qayğı verəcək bu insanlara;
Ancaq bu dərd-məşəqqətə həm də ki, xof qarışacaq,
Bu insanlar saçları ağ doğulmağa başlayandan,
Zevs dil bilən insanları yox edəcək yer üzündən.
Ata, oğul bir-birilə yola gedə bilməyəcək;
Dost dostuna, qonaqsa ev yiyəsinə yad olacaq;
Qardaşların olmayacaq bir-birinə məhəbbəti;
Qoca ata-analara kimsə hörmət etməyəcək;
Allahlardan qorxmayaraq, şərəfətsiz övladları
Qoca ata-anaları söyüb təhqir edəcəklər.
Heç kəs qoca valideynə yemək-içmək verməyəcək,
Heç kəs anda sadiq olan haqqı sevən və xeyirxah
İnsanlara əsla hörmət etməyəcək... həyasızlar,
Bədəfkarlar daha artıq hörmət-izzət qazanacaq.

Hər kim qolu güclü isə, haqq onunku sayılacaq.
Ar və həya qalmayacaq... Əsl yaxşı adamlara
Pis adamlar yalandan and içmək ilə, böhtan atıb,
Zərər-ziyan vuracaqlar... Şərəfətsiz hər insanın
Arxasınca bəd sifətli, bəd tinətli, acı dilli
Mənfur həsəd ayrılmadan, kölgə kimi sürünəcək.
Gözəl, zərif vücudunu qar kimi ağ bir ridaya
Bürüyərək, geniş yollu bu dünyadan qəmgin, məyus
Bir hal ilə, dik zirvəli Olimpdəki o əbədi
Allahların hüzuruna yüksələcək... İnsanlara
Bu həyatda yalnız ağır fəlakətlər qalacaqdır,
Şərdən heç kəs öz canını xilas edə bilməyəcək...

BÜLBÜL VƏ ÇALAĞAN TƏMSİLİ

Şahlar ağıllı isə də onlara bir təmsil deyim:
Bir gün güclü bir çalağan parlaq gözlü bir bülbülü
Caynağına alıb uca buludlara qaldırmışdı.
Bədəninə caynaq batan yazıq bülbül civildədi.
Çalağansa, amiranə bir səs ilə ona dedi:
"Civildəmə, sən ey bədbəxt! Mən ki, səndən çox güclüyəm!
Sən hey oxu... Kefim hara desə, səni apararam;
Həm yeyərəm, həm də, əgər arzu etsəm, buraxaram;
Zorlularla bəhsə girən düşüncəsiz olanlardır;
Çünki ona bata bilməz, öz dərdinə dərd artırar".
Belə dedi şığıyıcı, uzunqanad o çalağan.
Ey Pers, haqqı dinlə, daim lovğalıqdan həzər elə!
Lovğalanmaq, insanlarçın təhlükədir. Böyüklərə
Lovğalanmaq heç yaraşmaz: Bu onlarçın ağır yükdür,
Yalnız fəlakət gətirir... İnamlı bir başqa yol var:
Haqsevən ol! Ən nəhayət haqsevənlər lovğalara
Qalib gəlir. Axmaqlarsa, bunu yalnız çox gec anlar.
Çünki hər bir haqsız işi Ork diqqətlə təqib edir.
Müftəxorlar, haqsızlıqla azdırmağa hər nə qədər
Cəhd etsələr, haqqın yolu daim düzgün, dəyişməzdir...
Hər kim qəddar, lovğa olsa, binamusca işlər görə,
Uzaqgörən pak Kronid ona layiq cəza verər...

ƏKİNÇİNİN İŞLƏRİ

Yer altdakı Zevsə, bir qədər müqəddəs pak Demetraya
Hərarətlə dua et ki, Demetranın o müqəddəs toxumları
Yaxşı bitsin... Əkini lap əvvəlində, kotanına
Əl atanda, boyunduruq altındakı öküzləri
Bizləyəndə, allahlara dua elə... Daldan gəlib
Toxum səpən əsir oğlan quşlar üçün bir manea
Törətsin ki, toxumları yeməsinlər... İnsanlarçın
Bu həyatda səliqəli olmaq xeyli faydalıdır.
Səliqəsiz olmaq isə, zərərlidir... Əgər Olimp
Hökmdarı xoş səmərə verər isə, sünbüllərin
Dənə dolub başlarını yerə qədər əyəcəkdir.
Şux lalələr, gül açanda, bülbül qonub budaqlara,
Cəh-cəh ilə oxuyanda, keçilərin kök çağıdır:
Bu vaxt şərab ləzzət verir arvadlar çox ehtiraslı,
Kişilərsə, son dərəcə zəif olar... Parlaq Sirius
Kişilərin dizlərini, başlarını qurudaraq, hərarətdən
Bədənləri qızar, yanar... Bu zaman, bir qaya altda
Bir kölgəyə çəkil, götür bolca şərab, yağlı çörək,
Əmilməmiş keçi südü, bir parça da, meşələrdə
Ot otlamış dana, ya da körpə-sütül keçi əti...
Sərin kölgə yerdə otur, qayğısızca şərabdan iç,
Doyunca ye, sərin Zefir küləyinə ver üzünü,
Şırıltıyla axan şəffaf bulağı da seyr edərək,
Bircə hissə şərabdan tök, üç hissə də sudan qat, iç!

LİRİKA

ARXİLOX

E.ə. VII əsr

Arxilox qədim yunan şeirinin ən görkəmli nümayəndələrindən biridir. Bizim eradan əvvəl VII əsrin ortalarında Paros adasında anadan olmuşdur. Atası zadəgan, anası qul idi. Onun qeyri-qanuni dünyaya gəlməsi həmişə düşmənlərinin istehzasına səbəb olmuşdur. Hərcayi bir həyat keçirən Arxilox daima ehtiyac içində yaşamışdır. Fasos adasında və Frakiyada müharibədə olmuş, hətta bir vuruşda öz qalxanını qoyub qaçmışdır. Aşağıda verdiyimiz bir şeirində də düşmən qabağından qaçmağına bəraət qazandırır. Haksos adasında müharibədə ölmüşdür.

Arxilox nəğmələr, qəsidələr yazmışdır: lakin onu məşhur edən həcvləri idi. Bir qayda olaraq, Arxiloxu qədim yunan şeirində həcvin banisi hesab edirlər. Rəvayətə görə o, Fasos adasına getməzdən əvvəl, Neobula adlı bir qız ilə nişanlanmış, lakin bir az sonra qızın atası Likamb öz sözünü geri götürərək qızını ona vermək istəməmişdir. Görünür, varlı ata, daima ehtiyac içində yaşayan şairlə qohum olmaqdan vaz keçmişdir. Bu münasibətlə Arxilox həmin ailəyə o qədər kəskin həcvlər yazmışdır ki, hətta ailədən bir neçə nəfər rüsvayçılıqdan qurtarmaq üçün özünü öldürmüşdür. Adı bizə bəlli olmayan bir yunan şairi, bu hadisə ilə əlaqədar olaraq bir epiqram yazmışdır. O yazır: "Burada dəniz sahilində Arxilox yatır. O öz şeirinin acı göz yaşlarını ilan zəhəri ilə qarışdıraraq Gelikon dağının yüksəkliklərini qana boyamışdır. Bu həqiqəti, üç qızının qəbri üzərində göz yaşı tökən Likamb çox yaxşı bilir. Yolçu, sakit gəl, sakit keç! Ehtiyatlı ol! Bu qəbirdə yatan qəzəbli arıları oyatma!"

Bu rəvayətin düz olub-olmadığı bizə məlum deyil. Ancaq rəvayət, Arxilox həcvlərinin kəskinliyi haqqında o dövrün hakim rəyini göstərmək üçün maraqlıdır.

Onun şeirlərinin mövzusu çox rəngarəngdir. Öz şeirlərində həyatına aid hadisələri, öz eşqinin tarixini, müharibə səhnələrini təsvir edir. Onda əxlaqiliyə xüsusi meyl var. Hər nədən yazsa, ondan əxlaqi bir nəticə çıxarmağa çalışır. O, insanları şad yaşamağa çağırır. İnsan bu dünyaya bir dəfə gəlir, ölüm mühəqqəqdir. İnsan taleyi dəyişkəndir.

Xoşbəxt olmaq üçün allahlardan da bir ümid gözləmək mənasızdır. Çünki allahlar insanlara fəlakət göndərməkdən zövq alırlar.

Qədim yunanlar Arxiloxu çox istedadlı, hətta dahi şair kimi tanımışlar. Lakin biz bu barədə heç bir şey deyə bilmirik. Hətta şeirlərin məzmun və ideyasını təhlil etməyə imkanımız yoxdur. Çünki Arxiloxdan bizə gəlib çatan ədəbi irs içində bütöv bir şeir yoxdur. Ondan bizə cəmi 200-250 misra şeir gəlib çıxmışdır ki, dediyimiz kimi, onların heç biri bütöv deyil. Aşağıda verdiyimiz şeirlər ayrı-ayrı natamam parçalardır.

***

Aman qəlbim! Durmuş qorxunc fəlakətlər önündə:
Mərd ol, sinə gər onlara, düşməni məhv edək bil ki, dalğa
Kimi keçər dünyada yaxşı-yaman!

***

İnsan qayğı və zəhmətlə fanilərə Haqq bir şeyi yaradar bu dünyada.

***

Bil ki, Perikl[1], insanlara hər şey verən təsadüflə taledir.

***

Hərb bəzəyi qalxanımı kolluqlara atdım mən,
İndi yəqin frakiyalı əyləncə etmiş onu.
Mən ölümdən qaçdım ancaq... əlvida, ey qalxanım!
Bu yaxında daha gözəl təzə qalxan alaram.

MƏNİ İNCİK SALANA

...Coşqun sular aparsın.
Görüm qaranlıq gecə Salamidessa[2] yanında
Kəkilli frakiyalı
Tutsun, aparsın onu – qul xörəyi yeyərək,

Çəksin ağır iztirab!
Görüm tapsınlar onu çılpaq, dönüb key olmuş,
Sahildə zığ içindən:
Dişləri bir-birinə dəysin, it kimi əssin,
qum üstə üzüqoylu.
Yıxılsın coşub daşan dalğaların altına...
Bu gündə görsəm əgər
O and pozan alçağı, o keçmiş dostumu mən
Sevinərəm ürəkdən?

***

Yas içində boğuluruq, nə bir insan, nə də şəhər,
İnan, Perikl, arzulamır nə qonaqlıq, nə bir səfa.
Ən dəyərli insanları uddu coşqun, dəli dəniz,
Fəryadlardan, göz yaşından şişdi bizim ürəyimiz.
Ancaq çarə göndərmişdir fəlakətçin bizə allah.
Mərd ürəkli, möhkəm olmaq, – budur çarə, budur pənah!
Tale hərdən birisinə qənim olur, nə etməli!
Bu gün bizim növbəmizdir, yas tutmuşuq fəlakətə.
Sabah başqa birisinə dəyər zərbə... Ancaq əsla
Qadın kimi zarımayın, dözün, keçər-gedər bəla!

TİRTEY

E.ə. VII əsrin ikinci yarısı

Əgər Arixilox kəskin həcv ustadı isə, Tirtey qədim yunan şeirində hərbi şeirlər, marşlar şairi kimi məşhur olmuşdur. Onun şəxsiyyəti və adı əfsanələrlə bağlıdır. Rəvayətə görə spartalılar messenslər ilə müharibə apardıqları vaxt məğlub olduqlarını görərək afinalılara kömək üçün müraciət edirlər. Müqavilə üzrə afinalılar onlara kömək verməli idilər. Ancaq afinalılar kömək əvəzinə iztehza üçün çolaq müəllim Tirteyi göndərmişlər. Tirtey öz hərbi nəğmələri, vətənpərvər şeirləri ilə spartalıları hərəkətə gətirmiş və onlar düşmənə qalib gəlmişlər. Tirteydən də bizə az şeir gəlib çıxmışdır. Lakin onlar nisbətən bütöv

şəkildədir. O, vəsiyyətlər, başdaşı şeirləri, hərbi marşlar, vətənpərvər nəğmələr yazmışdır. Bu şeirlərində Tirtey qəhrəmanlığı, vətən yolunda şəhid olmağın müqəddəsliyini tərənnüm edir. Qorxaqlığı, cəbhədən qaçmağı pisləyir. Qəhrəman ölsə də onun adı yaşayır. Arvadı, uşaqları onun qəbri üstündə alnı açıq dayanar. Onlar vətənin ən hörmətli vətəndaşları olarlar. Qorxaq, cəbhədən qaçan diri qalsa da, onun həyatından nə fayda! Heysiyyətsiz yaşamaqdansa, şərəflə ölmək yaxşıdır. İnsan üçün ən yüksək mükafat vətən üçün cəbhədə ölməkdir. Belə adamlar üçün qoca da, cavan da, arvad da, kişi də, uşaq da böyük də ağlar. Onun şeirləri ədalətli müharibə aparan ordu üçün bir nizamnamə, hərbi qanunqayda kitabçasıdır.

Bəzi şeirləri sırf komanda təsiri bağışlayır. Ümumiyyətlə, onun şeirlərində Sparta intizamı və birtərəfli hərbi dövlət əxlaqı öz əksini tapmışdır. Müharibədən sonra, yoxsullaşmış əhalinin, hakim dairələrə qarşı çıxışı zamanı, mühafizəkar görüşlü Tirtey zadəganlar cəbhəsindən əhalini sakit olmağa, ağalara itaət etməyə çağırmışdır. Onun bu şeirləri "Eviomiya" adlanır.

Aşağıda verdiyimiz şeirlər onun hərbi şeirlərindəndir.

DÖYÜŞ ELEGİYASI

Döyüşdə ilk səflərdə vuruşmaq bir şərəfdir,
Mərd igidə vətənçin xoşdur döyüşdə ölmək!
Ən alçaq bir qismətdir qaçıb doğma vətəndən,
Bərəkətli zəmindən, dünyada sürünəsən:

Yanında qoca atan, əziz, mehriban anan,
Xırdaca balaların, sevimli gənc arvadın...
Ehtiyaca baş əyib kimə pənah aparsan,
Yad, məğrur baxışlarla qarşılar səni inan.
Nəslini, gəncliyini ləkələr belə insan;
İzlər onu bədnamlıq, namussuzluq hər zaman...

Doğrudan da qaçqına yoxdur əsla mərhəmət,
Ona nə şəfəqqət var, nə şərəf, nə məhəbbət.
Övladımız və doğma yurdumuz üçün gərək
Biz mərdliklə döyüşüb düşmənə sinə gərək!..

EMBATERİY[3]

Siz, ey igidlərilə tanınmış olan
Sparta oğulları, qoşun irəli!
Parlasın əzəmətlə, sol əldə qalxan,
Süngüləri silkəyin, coşun, irəli!
Canı əsirgəməyin, haydı, cəsarət.
Sparta övladında yoxdur o adət!

ALKEY

E.ə. VII əsrin sonu VI əsrin əvvəli

Alkey Lebos adasının mərkəzi olan Mitilen şəhərində anadan olmuşdur. Özü zadəgandır və öz dövrünün siyasi mübarizələrində fəal surətdə iştirak etmişdir. Bu zaman Lesbos adasında tiran seçkisində şəhər əhalisi qalib gəlmişdir. Ona görə də zadəganlıq xalq hakimiyyətinə qarşı mübarizə aparırdı. Alkey də həmin cəbhədən Mirsil və Pittak əleyhinə əldə silah mübarizə aparmaqla bərabər, öz şeirlərində də onlar əleyhinə həcvlər yazırdı. Zadəganların məğlubiyyətindən sonra, zadəgan başçıları Lesbosdan qaçırlar. Lakin Pittak Alkeyi bağışlayır. Bundan sonra Alkey məğlub olmuş zadəganlığın məyus əhvali-ruhiyyəsini, həyatdan bədbinliyini öz şeirlərində tərənnüm etmişdir.

Onun mübariz şeirləri "Mübarizə nəğmələri" adı ilə məşhurdur. Aşağıda verdiyimiz "Fırtına" şeiri həmin nəğmələrdəndir.

Lakin Alkey aşiqanə şeirlər ustadıdır. Bu lirik şeirlərdə Alkey gözəl sevgilini təsvir edərkən, siyasi mübarizələrdən ayrılıb, sevgi pərdəsi altında öz ümidsizliyini və həyatdan bədbinliyini ifadə etmişdir. Onun öz müasiri şairə Sapfoya ithaf etdiyi şeirlər də vardır. Alkeyin bir çox şeirləri, Roma şairlərinin tərcüməsində bizə gəlib çatmışdır. Alkey şeirlərinin gözəlliyi, təbiiliyi, şeiriyyəti ilə öz müasirlərindən ayrılırdı. O, "Monodin" lirik şeirinin ən bariz nümayəndələrindəndir. Aşağıda verdiyimiz dörd parça şeir Alkey şeri üçün səciyyəvidir.

***

Parlaq, tunc silahlarla
Aresin[4] şərəfinə
Bəzənmiş otaq.
Sərpuşlar par-par yanır,
Üstündə dalğalanır
Quyruqlar dümağ.
Tunc tiyələr asılmış
Bütün divar uzunu
Orda hər yandan:
Möhkəm qumaş geyimlər
Gipgirdə, qalın ağır
Parlaq tunc qalxan;
Xalkidiya[5] silahları,
Tunc kəmər qayış-qurşaq,
Hər nə desən var:
Yaddan çıxmamış heç şey,
– Biz də yadda saxlayaq
Borcu, a dostlar!

FIRTINA

Bilən desin rüzgarın qızğın üsyanlarından,
Dalğalar coşur-daşır hər tərəfdən, hər yandan.
Bu tüğyanın içinə qapılıb gedirik biz,
Çırpınır dalğalarda bu qatranlı gəmimiz
Dalğanın zərbəsinə güclə gətirir davam,
Göyərtəni başa-baş sular bürüdü tamam.
Didildi, parçalandı, artıq dözmədi yelkən,
Boşaldı gəmimizin bəndləri yerbəyerdən.
Ancaq budur, ən qorxunc düşmən baş qaldıraraq,
Dağ kimi qalxıb gəlir, qaralan dalğaya bax:
Gətirir üstümüzə min əzab, min əziyyət,
Allahlar, barigaha çatmağa varmı fürsət!..

***

Zevs ata endirir yağmuru göydən,
Əsir şimaldan da soyuq bir külək.
Dondurur yağmuru yerə düşmədən,
Çaylar buz kəsilir, – titrəyir ürək...
Qışda neyləməli? – hey ocaq qala,
Doldur qədəhləri, bol-bol şərab ver.
Şərab iç, vermə sən ömrü zavala,
. . . . . .
Gir isti yatağa qulağa qədər!..
Neçin fikr eyləyib çəkək biz əzab?
Qədərin hökmündən mümkünmü qaçmaq?
Bütün dərmanların başıdır şərab,
O dərd-qəm dağıdır, – içək, məst olaq!..

ŞAİRƏ SAPFOYA ETİRAF

Sapfo, ey bənövşə saçlı saf mələk,
Könül pərvaz edir qımışanda sən!
Sənə bir sirr açmaq dilərdi ürək,
Ancaq həya qoymur, gəlmir əlimdən!..

SAPFO

E.ə. VI əsrin başlanğıcı

Şair Alkeyin müasiri olan Sapfo, görkəmli yunan şairəsidir. O da Lesbos adasında zadəgan ailəsində anadan olmuşdur.

Lesbosda gedən mübarizələrdə Sapfo da başqa zadəganlar kimi vətəni tərk etmiş, Siciliyaya getmiş, lakin sonralar təzədən Lesbosa dönmüşdür. O, qoca yaşlarına qədər yaşamışdır. Onun həyatı haqqında çoxlu uydurmalar var. Belə görünür ki, şairənin hər bir azad hərəkəti, öz işlərində qayğısızlığı, həmin əsassız uydurmaların mənbəyi olmuşdur. Bu uydurmalardan biri də şairənin ölümü haqqındadır. Guya

Sapfo sevdiyi gənc qayıqçı Faondan razılıq cavabı almadığı üçün özünü Levkad qayasından dənizə atmış və boğulmuşdur.

Sapfo öz evində qızlar üçün məktəb açmış və burada şeir, yaradıcılıq, vəzn haqqında onlara dərs demişdir. Bunların içərisindən şairələr də çıxmışdır (Erina, Damofila). Bura hər yerdən oxumağa gələn olmuşdur.

Sapfo şeirinin əsas mövzusu – məhəbbətdir. O, daima öz vətəninin siyasi mübarizələrindən uzaqlaşmağa çalışmışdır. Onun şeirlərində qısqanclıq əzabları, hicran iztirabları, vəfasızlıqdan şikayət hissləri əsas yer tutur. Şairə bu insani hissləri bütün reallığı ilə təsvir etməyi bacarır, hətta bu sahədə Sapfo qədim yunan şeirində bərabəri olmayan bir sənətkardır.

Sapfodan bizə bir çox yarımçıq şeirlərdən başqa iki-üç bütöv şeir gəlib çıxmışdır ki, ən başlıcalarını aşağıda veririk.

AFRODİTAYA[6]

Ey bəzəkli taxtilə şöhrətli Afrodita,
Ey Zevsin hiylə toru qurmaqda mahir qızı,
Yalvarıram sənə mən, ey nəcib qız, amandır
Gəl qəlbimə toxunma.
Gəl yanıma necə ki, bir zamanlar gəlirdin,
Uzaqdan dəvətimə səs verirdin mənim sən,
Atanın sarayından o qızıl arabanla[7]
Sən gələrdin yanıma...
Səni göydən endirib süzərdi yer üzündə,
Dəstə-dəstə uçuşan o xırda sərçələr də
Çırpınardı quşların balaca qanadları
Fəzalarda, dərində.
Durardın qarşımda sən daim gülər üzünlə,
Sorardın, ey nəcib qız, ürəyimin dərdini;
Bilmək istərdim neçin dəvət etdin göylərdən
İlahəmi bu gün də
Könlümün arzusunu bilmək istər, deyərdin:
"Söylə, kimin qəlbində Peyto* eşqin odunu
Yandırsın sənin üçün? Söylə, ey Sapfom mənim

* İnam allahı

Kimdir sənə kəc baxan?
Kimdir səndən həm qaçan həm də dalınca düşən,
Hədiyyəni almayan, hədiyyələr gətirən,
Sənə aşiq olmayan, gah da eşqinlə yanan
Gah sevən, gah sevməyən?"
Ah, gəl mənim yanıma, bu acı iztirabdan
Qurtar mənim könlümü, bu qədər ehtirasla
İstədiyim şeyi sən yerinə yetir barı,
İlahəm, dostum ol sən!..

ƏLVİDA

Allah kimi xoşbəxtdir məncə sənin həmdəmin,
O kəs ki, dinlər sənin yaxından xoş səsini;
Gülüşünün o dadlı, ilahi nəğməsini
Duyar səni yaxından!
Mən olsaydım, ürəyim çarpmazdı, dayanardı...
Səni gördüyüm zaman, nitqim kəsilir mənim,
Taqət qalmır canımda, titrəyir bu bədənim,
İnan, mələyim, inan!
Bir hərarət rəşəsi dolaşır vücudumu,
Qulağım cingildəyir əsla bir an durmadan
Qaralır gözlərimdə bütün işıqlı cahan,
Baxır gözüm görmədən.
Tər basır bədənimi, qan kimi isti bir tər,
Bütün əzam titrəyir, rəngimdən qalmır əsər.
Otdan da yaşıl bir rəng çökür üzümə bəzən,
Can verirəm sanki mən!..

ALKEYƏ CAVAB

Əgər saf və gözəl olsaydı qəsdin,
Sözün olmasaydı ədəbdən kənar, -
Üzümə baxmağa ar eyləməzdin,
Açıq söyləyərdin qəlbində nə var.

ANAKREONT

E.ə. 570-478-ci illər

Anakreont Teos adasında anadan olmuşdur. İranlıların hücumu altında qaçanlarla bərabər öz vətənini tərk edərək Frakiyadan, Abderoya köçmüşdür. Uzun zaman Samos adasında yaşamış, sonralar Psistiratların dəvəti ilə Afinaya gəlmiş və saray-saray gəzmişdir.

Anakreont şeirinin məzmununa və ideyasına istiqamət verən və onu şərtləndirən sarayın təntənəli həyatı, bayramlar, mərasimlər, saray ziyafətləri və aşiqanə macəralardır.

Bu poeziya, bir qayda olaraq, köhnə ədəbiyyatşünaslıqda "Anakreont poeziyası" adlanır. Eşq, şərab və qadın Anakreont şerinin əsas mövzusudur. Hətta qoca yaşlarında, şair, öz gənclik motivlərinə sadiq qalmış, gənclərə məxsus macəralı həyat keçirmişdir. Sapfonun dərin aşiqanə və lirik hisslərinə rəğmən, Anakreont daha səthi, daha yüngül hissləri tərənnüm edir. Ondan da bizə az şeir gəlib çıxmışdır. Lakin yunan ədəbiyyatında ona çoxlu təqlidlər və nəzirələr var ki, "Anakreontika" adı ilə ədəbiyyata daxil olmuşdur. Aşağıda onun xarakter şeirlərini veririk.

***

Hey Frakiya madyanı, sən
Nə var, məndən yan gəzirsən?
Gözündəki nə şübhədir?
Xam görmüsən məni nədir?
Bircə dayan, ağzına mən
Vurum sənin polad, yüyən,
Heç görməzsən sağı, solu,
Düz gedərsən onda yolu!..
Bu gün nazlan, vüqarla dur,
Önün çəmən, könlün məğrur.
Dadmamışsan hələ yəqin
Zorun usta minicinin.

Gicgahlarım çallaşdı
Qar tək ağardı başım,
Dişlərim düşdü, gücdən,
Hardasan, ey gənc yaşım?
İçəcək şey qalmadı
Həyat piyaləsindən,
Gözüm ağlar Tartarın[8]
Çağıran nəhs səsindən.
Aid[9] zülməti qorxunc,
Çətindir yeraltı yol
O dəhşətli yollara
Gedən gəlməz, əmin ol!

***

Əlvan almasını tulladı mənə,
Qızıl saçlı Erot[10] dəvət eylədi,
Gəl əylən, ləzzət al, səfa sür, – dedi,
Saldı yar həvəsinə.
Dilbər ağ saçıma saldıqda nəzər,
Üzündə mənalı gülüşlər gəzər;
Mənə gülürsə də, ancaq o dilbər
Göz vurur özgəsinə.

FACİƏ

QƏDİM YUNAN FACİƏSİ HAQQINDA BƏZİ QEYDLƏR

Qədim Yunan faciəsi ilk şəklini şərab allahı Dionisin şərəfinə təşkil olunan mərasim bayramlarında almışdır.

Dionis (Vakx, Bakx, Baxus) üzüm, meyvə, şərab, təbiətin cücərən qüvvələri və məstlik allahıdır. Onun atası Zevs, anası Fiv şəhərini təsis edən Kadmın qızı Semeladır. Əsatirə görə o, göylərdən yerə yeni məzhəb gətirib ki, ona Bakxanaliya (eyş-işrət) deyilir. Göydən yerə gələrkən özü gərdunəyə minmiş, satirlər isə çala-çala, oynaya-oynaya onu müşayiət etmişlər. Qədim yunanların təsəvvüründə satirlər adam bədənli, at quyruqlu, keçi ayaqlı, keçibuynuz varlıqlardır. İldə üç dəfə təşkil olunan bayramlarda Dionisin yerə gəlməsi və onun başına gələn macəralar təsvir olunurdu. Adət üzrə keçi qurbanları kəsilirdi. Xor üzvləri keçi dərisini başlarına salar, başqa sözlə, satirlər rolunda çıxış edirdilər. Tragediya sözü də burdan doğmuşdur. Traqos yunanca keçi, oda isə nəğmə deməkdir. Traqosoda, yəni keçi nəğməsi. Antik dövrün alimləri bu sözə başqa izahatlar da vermişlər. Lakin tragediya sözünün lüğəti mənası keçi nəğməsi deməkdir. İlk dəfə 534-cü ildə öz xoru ilə Dionis şərəfinə bu nəğmələri oxuyan Tespis olmuşdur. Ondan sonra gələn korifeylər Pratin, Frinix traqosodanı inkişaf etdirmişdir. Frinixin xidməti ondan ibarət olmuşdur ki, o, ilk dəfə traqosodaya yeni məzmun vermiş və Miletin iranlılar tərəfindən alınmasını faciə şəklində tərtib etmişdir. Bundan sonra ta Psistratlar sülaləsindən başlayaraq bütün Yunan dövlət başçıları traqosodanı və onun təşkilini öz himayələri altına almış, inkişafına imkan yaratmışlar. Faciənin son şəklini müəyyənləşdirən isə Esxildir.

Yunan faciəsi pərdə sistemində deyildi. Bir neçə əsr o, mərasimlə bağlı şəkli xüsusiyyətlərini mühafizə etmişdir.

Adət üzrə yunan faciələri bir proloq ilə başlayırdı. Proloq əsərin ekspozisiyası idi. Burada gələcək hadisələrə işarə edilirdi. Proloq bitdikdən sonra xor amfiteatr ilə səhnənin arasındakı keçiddən orxestrə

daxil olurdu. Bu hissəyə parod (yəni keçid) deyilirdi. Xor söhbətə başlayıb, işin gedişinə müdaxilə edirdi. Xor 12-15 nəfərdən ibarət idi. O, iki dəstəyə bölünürdü; bir dəstə strof oxuyub sağa dönür, ikinci dəstə antistrof oxuyub əks tərəfə dönürdü. Bunlarla bərabər xorun korifeyi, ağsaqqalı söhbətə qarışırdı. Bəzən xor nəfərləri bir-bir ümumi mükaliməyə qoşulurdular. İlk zamanlar qədim yunan dramaturgiyasında xorun rolu mühüm olmuşdur. Xor, dramaturqun əxlaqi görüşlərini, hadisələrə baxışlarını ifadə edirdi.

Bundan sonra faciənin əsas hissəsi gəlirdi ki, buna episodi deyilir. Hər bir faciədə bir neçə episodi ola bilərdi. Ona görə onlar nömrələnirlər. Episodidə aktyorlar səhnəyə çıxır, hadisələr başlayırdı. Hər iki episodi arasında stasim (durğun nəğmə) olurdu. Stasim vaxtı xor hərəkət etmədən nəğmə oxuyurdu. Episodidən asılı olaraq bir neçə stasim ola bilərdi; ona görə stasim də nömrələnir.

Episodidə mükalimənin kəskin şəkil aldığı yerlərdə hər personaj ancaq tək misra ilə danışır ki, buna stixomitiya deyilir. Sonda xor səhnədən çıxırdı ki, buna eksodi (çıxış) deyilir. Eksodidə faciənin bütün hadisələri yekunlaşırdı.

Bunlardan başqa faciədə kommos olurdu. Kommos xorun lirik tərzdə faciəvi bir hadisəyə ağlaması və yaxud qəmgin nəğmə oxuması idi.

Bu qədim yunan faciəsinin ümumi quruluşudur. Lakin ayrı-ayrı faciələrin quruluşunda bəzi fərqlər də olurdu.

ESXİL

E.ə. 525-456

Esxil ilk yunan faciə yazarıdır. O, təxminən e. ə. 525-ci ildə Afinanın yaxınlığında Elevsin qəsəbəsində zadəgan ailəsində anadan olmuşdur. Esxilin həyatı Afina tarixinin ən mühüm dövrünə təsadüf edir. e.ə. 510-cu ildə Psistratlar tiranlığı yıxılmış, Afinada demokratiya uğrunda mübarizə genişlənmişdir. 500-cü ildə Kiçik Asiyada İran himayəsində olan yunan şəhərləri üsyan qaldırmış, İran hökuməti isə üsyanı amansızcasına yatıraraq Milet şəhərini yerlə yeksan etmişdi. Bundan sonra da İran və yunan müharibələri başlamışdı. İran şahı Dara e.ə. 492-ci ildə ilk hücuma keçmiş və bunun ardınca müharibə qızışmışdı. 480-ci ildə Salamin adasında, 479-cu ildə isə Plateydə və Mikalda yunanlar iranlıları məğlub etmişlər; bununla da həmin müharibə yunanların qələbəsi ilə bitmişdir.

Esxilin ailəsi İran-yunan müharibələrində fəal iştirak etmişdir. Qardaşı Kinger Marafon meydanında aldığı ağır yaradan ölmüşdür; ikinci qardaşı Amini Salamin yaxınlığında vuruşlar başladığı vaxt hərbi gəmi komandanı idi. Esxilin özü isə Marafonda, Salamində, Plateyada vuruşmuş və bir neçə dəfə yaralanmışdı.

Müharibə bitdikdən sonra Esxil bütün həyatını teatra və yaradıcılığa həsr etmişdir. Rəvayətə görə 72 və ya 90 əsər yazmışdır. On üç dəfə dram müsabiqələrində qalib gəlmişdir. İlk dəfə e.ə. 458-ci ildə Afinanı tərk etməyə məcbur olan Esxil, 456-cı ildə burada Gele şəhərində ölmüşdür.

Onun çox zəngin ədəbi irsindən bizə ancaq yeddi faciə gəlib çıxmışdır: 1. "Xahiş edənlər", 2. "İranlılar" (e.ə. 472), 3. "Fiv əleyhinə yeddi adam" (e.ə. 467), 4. "Prometey" (yazılış tarixi məlum deyil), 5. Oresteya üçlüyü ("Aqamemnon", "Xoeforlar", "Evmenidlər"). Bu üçlük e.ə. 458-ci ildə səhnəyə qoyulmuşdur.

Esxil yunan faciəsinin banisidir. Esxilə qədər yunan dramı sadəcə dini bir mərasim olub, hələ lirikadan ayrılmamışdı; onda dramatik ünsürlər olduqca zəif idi. Bütün hadisələr birinci aktyor hesab edilən xor başçısı vasitəsilə verilirdi; buna görə də mükalimə yox idi. Esxil, bir

gəlişdə ikinci aktyoru səhnəyə gətirməklə canlı mükalimə yaratmış, bir neçə əsr yunan dramaturgiyasında davam edən faciə quruluşunu müəyyənləşdirmişdir.

"İranlılar" əsəri öz azadlıqları uğrunda ədalətli müharibə aparan yunanların vətənpərvərlik hisslərini tərənnüm edirdi. Esxil qalan əsərlərin mövzularını yunan dastanlarından, müxtəlif əsatir silsiləsindən alsa da, onlar müasir ictimai-siyasi məsələlər ilə sıx bağlı idi. Başqa sözlə, həmin mövzular da Esxilin ictimai, siyasi, əxlaqi, fəlsəfi fikirlərinin ifadəsinə xidmət edirdi. Onun əsərlərində e.ə. V əsrin başlanğıcında Afina demokratiyasının ilk məfkurəvi cəhdləri öz əksini tapmışdır. Esxil faciələrindən qəbilə quruluşunun məfkurə qalıqlarının tənqidi, ata və ana haqqı, Areopaq* Qədim Afinada ali mühakimə və nəzarət orqanı ətrafında gedən kəskin mübarizələr və sairə kimi ciddi məsələlərə toxunur. "Xahiş edənlər" əsərində o, qəbilə quruluşu ilə əlaqədar evlənmək qanun-qaydaları əleyhinə çıxış edir. Faciənin məzmunu o qədər də mürəkkəb deyil. Danayın qaçmış əlli qızı Arqos hakiminə müraciət edir ki, onları təqib edən nişanlılardan xilas edib öz himayəsi altına alsın. Hökmdar bu məsələni şəxsən həll etməyə ixtiyarlı olmadığı üçün tərəddüd göstərir. O, xalq məclisi çağırır. Məclisində qızların xahişi qəbul olunur. Misirdən gələn vəkilin təhdidlərinə rəğmən hökmdar qızları himayə edir. Əsərdə əsas rolu oynayan qızların (danaidlər) xorudur. Bütün hadisələr də onların taleyi ətrafında mərkəzləşir. Burada Yunanıstanın azad demokratik quruluşu, şərq istibdadına qarşı qoyulmuşdur. Arqos hökmdarı xalqın iradəsi olmadan məsələ həll edə bilmir. Dramatik cəhətdən də əsər çox sadədir. Burada mükalimə zəif, lirik ünsürlər qüvvətlidir. Surətlər aydınlaşmamışdır.

"İranlılar" əsərində Daranın oğlu Kserksin Yunanıstana hücumu verilmişdir. Əsər iki nöqteyi-nəzərdən diqqəti cəlb edir. 1. Üçlüyün bu hissəsi müstəqil mövzu və müstəqil problem həll edir. 2. Əsərin mövzusu əsatirdən deyil, müasir həyatdan alınmışdır.

Əsər xor ilə başlayır. Ağsaqqallardan təşkil olunmuş xor Kserksin hücumunu yada salıb, nə isə, bu müharibənin iranlılar üçün xeyirli nəticə ilə bitəcəyinə şübhə edirdilər. Onlar İran ordusunun taleyindən narahatdırlar. Kserksin anası Atossa da pis yuxular görmüşdür. Xorun şübhələri ilə Atossanın pis yuxusu birləşərək əsərin əvvəlində

*Qədim Afinada ali mühakimə və nəzarət orqanı

müztərib bir əhval-ruhiyyə oyadır. Doğurdan da bir az sonra qasid gəlib İran hərbi gəmilərinin uğradığı hərbi pərişanlığı təsvir edir. Atossanın xor başçısı ilə söhbəti və qasidin xəbəri, yunan demokratiyasının mədhinə həsr edilib. Burada öz vətənlərini xarici işğalçılardan müdafiə edən yunan qəhrəmanları tərifləndiyi kimi, işğalçılığın əxlaqi mənası da verilmişdir. "Ölüm sünbülü, məğrurluqdan doğur ki, buradan ancaq göz yaşları biçmək olar" fikri işğalçılığı pisləyir.

Sonra Kserksin özü pərişan bir halda içəri girir. Burada da şahın xor ilə birlikdə ağlaması, daha doğrusu, ağı səhnəsi verilmişdir.

Artıq bu əsərdə mükalimə qüvvətlənmişdir. Hadisələr üzvü surətdə bir-birinə bağlı olmasa da, vahid ideya ətrafında inkişaf edir.

Rəvayətə görə, təzəcə müharibədən qayıtmış yunan gəncləri, əsəri böyük ruh yüksəkliyi ilə qarşılamışlar.

"Fiv əleyhinə yeddi adam" Edipin iki oğlu arasında hakimiyyət uğrunda gedən mübarizəni təsvir edir. Mövzu, Fivaida əsatirlər silsiləsindən alınmışdır ki, Sofokl onu daha dərin işləmişdir.

Bu əsərdə Esxil dövlət və bir mərkəziyyət təşkili ehtiyacını, eyni zamanda vətəni yadellilərdən müdafiəni tərənnüm etmişdir.

"Prometey" əsərini Esxil üçlük şəklində yazmışdır. Birinci əsər "Od gətirən Prometey", ikinci əsər "Zəncirlənmiş Prometey", üçüncü əsər isə "Xilas olmuş Prometey"dir.

Bizə gəlib çatan ancaq üçlüyün ikinci hissəsidir.

Bu əsər, Esxilin şah əsəridir. Əsərdə insanın yaratdığı və yaratmaqda olduğu mədəniyyət, Zevsin yaratdığı cəhalət və varlıq üzərində qələbə çalır. Zevsin simasında dramaturq, istibdadı, zülmü, cəhaləti pisləmişdir.

Əsər dramatik cəhətdən mükəmməl qurulduğu kimi, surətləri də çox aydındır. Hər bir əsatiri surət canlı insan səciyyəsini verir.

Esxilin son əsəri "Oresteya" üçlüyüdür. Əsərin mövzusu Troya əsatirlər silsiləsinin qayıdış hissəsindən götürülmüşdür. Mövzu mürəkkəb olmaqla bərabər, dramatik cəhətdən də qüvvətlidir. Artıq burada bir gəlişdə üçüncü aktyor iştirak edir. Bununla mükalimələr zənginləşmiş, lirik ünsürlər azalmışdır. Əsərdə Esxil analıq haqqının məhvi və atalıq haqqının qələbəsini təsvir edir.

Bu kitabda Esxilin "Evmenidlər" faciəsi verilir.

EVMENİDLƏR

İŞTİRAK EDƏNLƏR:

Orest
Apollon – allah
Afina – ilahə
Klitemnestranın kölgəsi
Pifiya – falçı qarı
Erini – Evmenidlərin xoru

PROLOQ

Delfada Apollon məbədinin qabağı. Falçı qarı Pifiya əl ağacına söykənərək orxestrə daxil olur.

Pifiya. İlk duamda birinci falçı ən qoca allah Geyanı təqdis edirəm. Ondan sonra Femidanı alqışlayıram. Anasından sonra, o, ikinci falçı oldu. O, zorla deyil, könüllü olaraq öz taxtını yerin digər qızı Titandan törəmiş Febə güzəştə getdi. Feb də təvəllüd günü hədiyyəsi kimi bu vergini, bu istedadı Febaya təqdim etdi və nəvəsinə öz adını qoydu. Özü isə, Delos qayalıqlarının sakit sularını tərk edərək mehmannəvaz Attika sahillərinə yan aldı; bura, Parnasa doğru hərəkət etdi. Hefestin oğulları onu ehtiramla yola saldılar, onun üçün yol açdılar: meşələri qırdılar, yırtıcı heyvanları qovdular. O gəldi, xalq onu təqdis etdi və ölkənin qoca hakimi Delf onun istiqbalına çıxdı və Zevs öz oğluna ilahi bir huşyarlıq bəxş etdi. O, dördüncü olaraq qeybdən xəbər verənlərin taxtına oturdu. Feb-Loksi Zevsin öz atasının falçısı oldu. Allahlara etdiyim dualarım budur. Sonra Palladaya eşq olsun, nimfalara eşq olsun. Quşlar yuva tikən allahlar evi – Qoriki mağaraları onların məskənidir. Bu dağ ətəklərinin şəhriyarı Bromiyi də unutmamışam. O sərkərdə allah, mübariz vakxları döyüşə apardı və Penfeyi bir dovşan kimi həlak etdi. Poseydonun qüdrətini də Plist çeşmələrini də alqışlayıram. Sonra isə, ey böyük və qadir Zevs, yenə səni təqdis edirəm. Bütün bu dualarımdan sonra bir falçı kimi məbədə qədəm basıram. Qoy bu günüm bütün digər ötən günlərimdən xoşbəxt olsun! Əgər ellinlər qismətlərini yoxlamaq üçün bura toplanmışsa (qanun belədir), qoy yaxın gəlsinlər. Allah nə cür buyurmuşsa, ona əməl edəcəyəm, fal açıb qeybdən xəbər verəcəyəm.

Məbədin qapısından içəri girir və dərhal dəhşət içərisində qaçıb dışarı çıxır.

Ah, nə dəhşət! Dilim söz tutmur! Gözlərim qaranlıq gətirir! Məni Loksiyanın evindən qovdular. Ayaq üstündə dura bilmirəm. Yıxılıram. Dizlərim bükülür. Əllərim üstündə sürünürəm. Qoca bir qarı olsam da, körpə bir uşaq kimi titrəyirəm.Öküz buduyla bəzənmiş məbədə girəndə tən ortada allahlar tərəfindən lənətlə damğalanmış bir adam oturduğunu gördüm. Onun titrəyən əllərindən qan damcılayırdı. Əlində yalın qılınc və ağ yuna bükülmüş zeytun şaxəsi tutmuşdu. Ətrafa nəzər saldı. Hər tərəfdə, müqəddəs və qədim kürsülərdə oturmuş dəstə-dəstə qadınlar mürgüləyirdilər. Yox, onlar qadın deyildilər, Horqona kimi bədheybət məxluqlar idi. Hətta Horqonadan da dəhşətli idilər, şəkillərini gördüyüm, Fineyin əlindən yeməyini qapan Qarpi kimi idilər. Lakin bunlar qanadsızdırlar, qapqara, iyrənc və murdar məxluqdular. Mürgü döyərək xoruldayırlar. Onlara yaxın düşmək mümkün deyildir, nəfəslərinin iyindən baş çatlayır, gözlərindən murdar və bulanıq yaş axır. Geyimləri elə bir haldadır ki, o paltarla nə allah məbədinə, nə də insan evinə ayaq basmaq mümkün deyildir. Bu müdhiş məxluqlar hansı nəsildən, hansı tayfadan törəmişlər, hansı ölkədə, hansı diyarda böyümüşlər? Vay olsun o ölkəyə yəqin sonra peşman olub fəryad etməkdədir. Artıq susuram. Qalan nə varsa qoy bu müqəddəs yerlərin sahibi allahımız Loksi qeydinə qalsın. O, şəfa verən bir peyğəmbərdir, işarə və əlamətləri təbir etmək onun əlindədir, murdarlanmış hər bir evi pak edən odur.

Pifiya gedir. Məbədin içərisi açılır. Yuxulamış erinilər arasında Orest görünür. Apollon, Hermesin müşayiətilə daxil olur.

Apollon. Yox, allahın səni elə verməyəcəkdir. Səni hifz edirəm, uzaqlarda da olsam, hər zaman səninləyəm. (*Orestə*) Sənin düşmənlərinə qarşı mərhəmətli və rəhmdil olmayacağam. Görürsənmi, bu murdar məxluqlar əsir edilmişlər. Gecənin qoca tayfası olan bu iyrənc bədheybətlər dərin yuxuya getmişlər. Nə allah, nə insan övladı, nə yırtıcı heyvanlar onlara yaxın düşmür. Onlar fənalıq üçün toplanırlar. Gecə yarı qaranlığı, yeraltı Tartarın zülməti onların məskənidir. Həm insanlar, həm Olimp sakinləri onlardan ikrah edir. Artıq dur qaç: ruhdan düşmə, onlar izini alıb dalınca gələcəklər, durmadan səni qovacaqlar. Sən qitəni kəsib gedəcəksən, quruda yolunu itirəcəksən. Dənizdə belə

səni təqib edəcəklər. Sən sahil kənarı şəhərlərin yanından ötüb keçəcəksən. Lakin yorulma! Bu məşəqqətli təqibə təhəmmül et! Palladanın[1] şəhərinə çatarkən dayan! Orada qədim bütü qucaqlayıb dua et! Orada hakimlərə rast gələcəyik. Orada şəfalı sözlər eşidəcəyik. Səni həmişəlik olaraq bu iztirabdan qurtarmaq üçün, orada bir xilas yolu taparıq. Sənə öz doğma ananı öldür deyə əmr edən axı mənəm.

Orest. Ey Apollon! Vicdan və həqiqət sənə nə əmr edirsə, sən özün bilirsən. Hamısı xatirindədir. Mərhəmətli ol! Qət elədiyin hər bir şeyi etməyə sən qadirsən.

Apollon. Hamısı xatirimdədir. Qoy qorxu sənə qalib gəlməsin! (*Hermesə*) Atamdan törəmiş doğma qardaşım Hermes, o mənə pənah gətirmişdir. Onu hifz et! Ona qeydkeş bir rəhbər və etibarlı bir çoban ol! Bədbəxtləri xilas yoluna salan carçı – Zevsin qarşısında pak, müqəddəs və toxunulmazdır.

Hermes Oresti aparır. Apollon məbədə daxil olur. Klitemnestranın qanlı kölgəsi zahir olur.

Klitemnestranın kölgəsi. Siz yatmısınız. Yuxuya getmisiniz. Ah, yatanlar mənim nəyimə gərəkdir?! Sizin yanınızda mən başqa ölülərə nisbətən daha artıq həqirəm. Həlak etdiklərimin acı sözləri yuxuya getmiş ruhlar səltənətində mənə rahatlıq vermir. Mən rüsvay olmuşam, avara və sərgərdan dolanıram. Bilin ki, onlara qarşı mənim özümün ağır və qanlı bir iddiam vardır. Əziz və yaxınlarımdan başım nə bəlalar çəkmədi? Lakin allahlardan heç kəs mənə qəhmər çıxıb qəzəblənmədi. Budur ana qatili tərəfindən həlak edilmişəm. Baxın, ürəyimdə dərin yara vardır: bu, oğlumun vurduğu zərbənin yeridir. Yuxunun zülmətində ruhun gözləri açıqdır, o hər şeyi görür, lakin günorta işığı onu korluq dumanına qərq edir. Mənim verdiyim nəzirləri siz bolluca tıxmışsınız, gecə yarı ocağı başında məst etmədən axıdılan şərab, zahid olduğunuz o qorxunc saatlarda qurulan ziyafət, başqa allahlardan əlahiddə sizə həsr olunmuşdur. Lakin indi görürəm ki, hamısı nankorcasına tapdanmışdır, unudulmuşdur. Qatil isə cavan bir maral kimi sıçrayıb aradan çıxdı, kəmənd həlqəsini qırıb uzaqlara qaçdı. O sizə güldü, sizə istehza edib getdi. Dediklərimi eşidirsinizmi? Ruhum fəğan eləyir. Anlayırsınızmı? Siz ey tabut kimi lal gecənin allahları, mən – Klitemnestrayam, yuxulu bir kölgəyəm, sizi haraylayıram.

Xor inildəyir.

Klitemnestranın kölgəsi. Siz inildəyirsiniz. O isə çıxıb getdi. İndi baş alıb qaçır. Onun dostları mənimki kimi deyillər, onun dostları daha etibarlıdır.

Xor inildəyir.

Klitemnestranın kölgəsi. Siz çox bərk yuxuya getmişsiniz. Sizin mənə yazığınız gəlmir. Orest qaçdı, anasını öldürən qatil qaçıb uzaqlaşdı.

Xor inildəyir.

Klitemnestranın kölgəsi. Ulayırsınız? Yatmısınız? Yuxudan ayıla bilmirsiniz? Əzabla incitmək, ağrı ilə əziyyət vermək – məgər sizin vəzifəniz deyilmi?

Xor fəğan edir.

Klitemnestranın kölgəsi. Quduz ilanların kin və zəhərini məhv etmək üçün, yorğunluq və yuxu iki sui-qəsdçi kimi əlbir olmuşlar.

Xor sürəkli və kəskin inilti ilə çığırır.

Xor. Tut! Tut! Tut! Qaçdı, qoyma, tut!

Klitemnestranın kölgəsi. Yuxu içərisində şikarı qovursunuz? Qəzəbli və narahat tazılar kimi hürüb zingildəyirsiniz? Bundan nə çıxar? Oyanın! Qoy ayaqlarınızı iflic vurub qurutmasın, gözlərinizi yuxu kor etməsin! Ağır vəzifəniz yadınızdan çıxmasın! Haqlı məzəmmətlərim qoy ürəyinizi alovlandırsın, kimdə vicdan varsa, şikayətlərim iti bir qamçı zərbəsi kimi onu yandıracaqdır.

Qalxın! Qovun! Zəhərli tüpürcəyinizlə onu yandırın! Qara nəfəsinizlə onu boğub qurudun, ciyərini odlayıb qaraldın! Tez izini tutub yüyürün, üstünü alıb tapdayın, əzin!

Klitemnestranın kölgəsi yox olur.

Xor ağbirçəyi. Oyanın! Oyanın! Sən onu oyat, mən də səni! Ey, hələ yatmamısan? Qalx! Yuxudan oyan! Tez! Cəld olun görək, çənə döyüb bizi haqlı məzəmmət edirdimi?

Erinilər bir-birinin ardınca qalxıb məbəddən qaçırlar.

PAROD

Xor

BİRİNCİ STROF

Ah, ah, eyvah!

Bacılar, bu nə müsibət, bu nə bəladır. Çəkdiyimiz zəhmət, qayğı və məşəqqət boşa getmişdir. Vay olsun bizə! Ağlayın, fəryad edin! Ah, bu nə fəlakətdir, ar olsun bizə! Şikarımız atdığımız tordan çıxıb qaçmışdır. Bizi yuxu aparmışdır. Ar olsun bizə! Şikarımız qaçmışdır.

BİRİNCİ ANTİSTROF

Ah, ey Zevs oğlu! Sən oğrusan. Sən həyasız bir dələduzsan. Qoca ilahələrdən qabağa düşüb, qatilə sığınacaq verdin, məlun bir adama havadar oldun. O öz valideyninin cəlladıdır. Doğma anasını öldürmüşdür. Sən isə qatili oğurlayıb aradan çıxardın. İndi kim deyə bilər ki, sən, Feb, ədalətlisən?

İKİNCİ STROF

Tənə bizi məhv etdi, məzəmmət qamçısı röyamızı dağıtdı. Sürücü öz atlarını qamçılayan kimi, zərbə, zərbə arxasınca dəydi, ürəyimiz yandı, ciyərimizə dağ çəkildi. Vuran, cəllad kimi rəhmsiz idi, qamçının ağrısı qanımıza işlədi, beynimizə, iliyimizə işlədi. Nə qədər müdhiş, nə qədər amansız bir əzab!

İKİNCİ ANTİSTROF

Bu kiçik allahlar nizam-intizamı pozub, qayda-qanunu tapdalayırlar. Həqiqətin taxtını yıxıb torpağa salırlar. O taxt artıq qara qan içindədir. Üstü də qandır, altı da qandır. Baxın yerin göbəyi belə qana bulaşmışdır, günaha batmışdır. Ağır cinayətlərlə ləkələnmişdir.

ÜÇÜNCÜ STROF

Müdhiş bir günahla öz peyğəmbərlik ocağını sən özün murdarladın, ey allah! Özün öz arzunla günaha batdın. Allahların ziddinə olaraq sən insan tayfasına qahmar çıxırsan və Moyranın əzəli hakimiyyətini təmələlindən sarsıdırsan.

Lakin günahkar mənimdir, mənim. Onu heç kəs xilas edə bilməz. Yeraltı zülmətdə gizlənsə belə, torpaqda da ona rahatlıq yoxdur. O lənətlə damğalanmışdır, o məhv olmuşdur. O öldürmüşdür. Onu da öldürəcəklər. Axıtdığı qan ondan intiqam alacaqdır.

BİRİNCİ EPİSODİ

Apollon (*əlində ox və kaman məbəddən çıxır*). Haydı, rədd olun! Əmr edirəm, tez bu evi tərk edin! Rədd olub uzaqlaşın buradan! Bu peyğəmbərlik məbədini tez tərk edin! Əks təqdirdə qızıl qövslü kamanımdan qopan sivri, parlaq oxlarım bir ilan kimi sizə sancılacaq. O zaman canınızın ağrısından ulayarsınız, qara qan qusarsınız. Axı siz bol qan içməyə vərdiş etmişsiniz. Rədd olun, çəkilib gedin! Bu məbəd altına sığınmaq bizə yasaqdır. Harada baş kəsilirsə, göz çıxarılırsa, mühakimə gedirsə edamlar olursa uşaqlar öldürülürsə, can çəkənlərin xırıltısı eşidilirsə, adamları çarxa dolayıb sümüklərini sındırılarsa, payalara taxılanların fəryadı göyə yüksəlirsə, – sizin yeriniz oradadır. Ey, məgər eşitmirsiniz? Sizin bayramınız, sizin əyləncəniz bunlardır və buna görə də allahlar sizdən ikrah edirlər. Sizin görkəminiz belə iyrəncdir. Sizin kimi murdar məxluqların məskəni, hər tərəfi laxta-laxta qana boyanmış şir mağaraları olmalıdır. Mənim müqəddəs məbədimi öz murdar varlığınızla ləkələməyin! Rədd olub gedin! Vəhşilər kimi avara və sərgərdan dolanın! allahlardan heç kəs sizə çoban olmayacaqdır.

Xor ağbirçəyi. Ey Apollon! İndi də mənə qulaq as! Mən sənə baş verən günahın iştirakçısı belə deyə bilmərəm. Yox, hamısını edən yalnız sənsən, hamısının günahı tək səndədir.

Apollon. Necə? İzah et görüm! Bunun üçün sənə vaxt verirəm.

Xor ağbirçəyi. Sən yadellini öz anasını öldürməyə göndərmisən.

Apollon. Mən ona atasının intiqamını almağı əmr etmişəm. Bəs necə?

Xor ağbirçəyi. Və anasını öldürən qatili himayən altına almısan.

Apollon. Günahdan təmizlənib pak olması üçün, mənim evimə pənah gətirməsini əmr etmişəm.

Xor ağbirçəyi. Biz isə onu müşayiət etmişik. Nə üçün bizi rüsvay edirsən?

Xor ağbirçəyi. Sizə, mənim mehrablarıma yaxın düşmək olmaz.

Xor ağbirçəyi. Bizim boynumuza belə bir vəzifə qoyulmuşdur.

Apollon. Nə gözəl vəzifədir? Bir fəxr də edirsiniz.

Xor ağbirçəyi. Biz anasını öldürən qatili evindən qovuruq.

Apollon. Həmin qadın isə ərini öldürmüşdür, bunu nə üçün unudursunuz?

Xor ağbirçəyi. Ər qadın üçün doğma deyildir. O doğma qan axıtmamışdır.

Apollon. Demək, böyük Heranın Zevs ilə bağladığı nikah andının sənin üçün heç bir qiyməti yoxdur, bu sənin üçün boş bir şeydir? Hələ məhəbbət allahı Kipridanı[2] da söyüb təhqir edirsən? Halbuki insanlara sevinc verən odur. Tale isə kişi ilə qadın arasındakı nikahı anddan, qəsəmdən daha yüksək və müqəddəs tutmaqdadır. Həqiqət bu müqəddəs ittifaqı hifz etməkdədir. Sən isə ərini öldürən qatil qadını əfv edirsən, onu edam etməyə can atmırsan, arxasınca düşüb onu təqib etmirsən. Elə isə bil ki, Oresti təqib etməyə sənin haqqın yoxdur. Tökülən bir qan üçün sən qəzəblənib coşursan. Digər qan üçünsə həddindən artıq laqeydsən. Kimin haqlı olduğunu qoy Pallada müəyyən etsin!

Xor ağbirçəyi. Qatildən əl çəkməyəcəyəm. Onu qovmaqdan yorulmayacağam.

Apollon. Qov! Qov! İstəyirsən lap dəridən, qabıqdan çıx!

Xor ağbirçəyi. Sən tənə edirsən, allah! Sən mənim hörmətimi, şərəfimi alçaltmaq istəyirsən.

Apollon. Sənin o şərəfini mənə havayı versələr də qəbul etmərəm.

Xor ağbirçəyi. Görünür, sən Zevsin səltənətində böyüksən. Lakin mən şikarımı əlimdən buraxmayacağam. Tökülən ana qanı onu təqib etməyimi əmr edir. Bir ov köpəyi kimi izini alıb dalınca gedəcəyəm.

Xor sürətlə orxestri tərk edir.

Apollon. Mən isə gedib, dua edən o insafı hifz edəcəyəm. Kömək üçün əl açandan üz döndərənə qarşı allahların və insanların qəzəbi böyük olur. Onu ələ verməyəcəyəm.

Apollon gedir.

İKİNCİ EPİSODİ

Orxestr boşalır. Əhvalat Afinada vaqe olur. Palladanın məbədinin qabağı. Orest daxil olub allahın bütü yanında oturur.

Orest. Ey hökmdar allah, Afina. Loksiya mənə bura gəlməyi əmr etdi. Günahkar bəndəni qəbul et! Əllərim artıq qandan təmizlənmişdir. Mənə edilən lənət köhnəlmişdir. Lənət zəhəri zəifləyib öz acısını qeyb etmişdir. Quruda sərsəri dolaşmışam, dənizlər aşıb bura gəlmişəm. Febin müdrik kəlamına itaət edib, sənin məbədinə pənah gətirmişəm. Ey allah, budur, sənin bütünü qucaqlamışam və burada qalıram. Qoy mühakimə olsun, qoy hökm çıxarılsın!

Erinilərin xoru orxestrə daxil olur.

Xor ağbirçəyi. İrəli! İrəli! Qatil burada təzə izlər buraxmışdır. Hiss edirəm, lal bir casus kimi qan bizi çağırır, qan bizi cəzb edir. Yaralı maralı qovan bir köpək sürüsü kimi biz də qan və tər iyini alıb şikar dalınca cumuruq. Artıq şikarın başının üstünü almışıq. Yorğunluqdan bağrımız qaralıb, nəfəsimiz kəsilib. Bütün qitəni çapıb keçmişik, qanadsız bir uçuşla uzaq dəniz üzərindən aşmışıq. Gəmilər bizimlə ayaqlaşa bilməyib arxada qalmışdır. İndi düşmən yəqin burada haradasa gizlənmişdir.

KİÇİK PAROD

Erinilər bir-birinin arxasınca orxestri dolaşırlar.

Birinci Xordan. Axtar! Axtar! Yaxşı bax! Hər tərəfi yoxla! Ana qatilini aradan çıxıb qaçmağa qoyma!

İkinci Xordan. Odur, oğru yenə özünə əmin bir iltica tapıb. Oğru ilahənin bütünü əğuşuna alıb. Gör necə ona sarılmışdır, necə ona sığınmışdır. Ağılsız səfeh mühakimə axtarır, bəraət qazanacağına ümid edir.

Üçüncü Xordan. Bu heç vaxt baş tutmayacaqdır. Ana qanı axıdılmışdır, qan torpağa tökülmüşdür. Atılan oxu geri qaytarmaq olmaz. Qan hopmuşdur, torpaq qanı sormuşdur.

Dördüncü Xordan. Günahını qanınla yuyacaqsan. Diri-diri vücudundan isti və qızıl qanını sorub içəcəyəm. Damarlarımdan qanın sorub, məst oluncaya qədər içəcəyəm.

Beşinci Xordan. Səni diri-diri yandıracağam, səni qupquru qurudacağam. Səni torpağa basdıracağam. Anasını öldürmüş oğul, sən əzaba əzabla cavab verəcəksən.

Altıncı Xordan. Sən allahları təhqir edən, qonağını və yaxud mehriban valideynini rəncidə salan günahkarların nə cür əzab çəkdiklərini görəcəksən. Hər kəs öz etdiyinin cəzasını alacaqdır, kim öldürmüşsə, öldürüləcəkdir.

Yeddinci Xordan. Aid insanların riya bilməz müddəisidir. O, yeraltı dünyada hafizəsinin lövhəsində hər şeyin hesabını aparmaqdadır.

Orest. Bədbəxtliklər mənə dərs oldu, artıq günahlardan təmizlənmək çarəsini, pak olmaq ayinlərini bilirəm. Harada danışmaq harada susmaq lazım gəldiyini anlayıram. Zəkalı mürəbbim özünü müdafiə etmək üçün nə demək lazım gəldiyini mənə öyrətmişlər. Əllərimin batdığı o qan soyumuşdur, ana qatili günahını yumaq artıq mümkündür. Axıtdığım qanı Febin məbədi qarşısında kəsdiyim qurbanlıq donuzun qanı ilə üzərimdən silib təmizləmişəm. Fənalıq etmədən mənə ünsiyyət göstərənləri sayıb-sadalamaq üçün çox danışmaq lazım gələrdi. Qoca zamanın axını hər şeyi silib aparır. Hər şeyi pak edir. Budur, artıq pak bir lisan və ehtiram ilə bu diyarın hökmdar ilahəsi Afinanı çağırıram. Qoy imdadıma yetişsin, qoy köməyimə gəlsin! Qılınc çəkmədən silah qaldırmadan o əbədi olaraq məni, doğma şəhərimi və bütün Arqos xalqını özünə müttəfiq edəcəkdir. O indi haradadır, isti Liviyanın səhralarındadırmı, yoxsa şahanə yerişi ilə Tritonida çayının sahillərində gəzərək, dostlarına kömək əlini uzatmaqdadır və yaxud Fliqrey düzlərində cəsur bir sərkərdə kimi qoşunları nizama düzməkdədir – haradadırsa qoy gəlsin. O allahdır, lap uzaqlarda, harada olursa olsun mənim imdada çağıran səsimi eşidəcəkdir, o mənə rəhm edəcəkdir.

Xor ağbirçəyi. Nə Apollon, nə Afinanın hakimiyyəti səni mənim amansız çəngəlimdən xilas edə bilməyəcəkdir. Durmadan səni diyarbadiyar qovacağıq. Sən artıq qansız bir sümüksən, cansız həyulasan, ruhsuz bir qəfəs, boş bir cəsədsən, nə üçün cavab vermirsən? Yoxsa sözlərimə tüpürüb mənə etina etmirsən? Sən mənim qurbanımsan, mənim üçün bəslənib böyüdülmüsən. Öldürmədən sənə diri-diri əzab verib əylənəcəyəm. Əlini, ayağını bağlayan mahnılarımıza, dəhşətli lənətlərimizə qulaq as! Ey, ey! Sıraya düzülün! Rəqsə və mahnıya başlayın! Artıq zaman çatmışdır, vaxt yetişmişdir. İnsanların miskin aqibətinə hökm edən qədim hakimiyyətimizi, ehtiram və rəşadətimizi

tərənnüm edərək, müdhiş mahnılarımıza başlayaq! Biz ədalətli və amansız intiqam bacılarıyıq. Kim günahsızdırsa, kim təmizdirsə, kim qüdsiyyəti pozub ləkələməmişdirsə, qəzəbimiz onun dalınca sürünməyəcəkdir, onu təqib etməyəcəkdir. O qəmsiz və qayğısız bu həyat içindən keçib gedəcəkdir. Lakin əgər qatil başını götürüb qaçan bu sərsəri kimi, qanlı əllərini gizlətmək istərsə, o zaman biz bir şahid kimi tabutda yatanların haqqını tələb edəcəyik. Biz ölülərin qan və iztiablarının iddiaçısıyıq. Biz onların əvəzinə tələb edirik və biz qatilə cəza verəcəyik.

BİRİNCİ STASİM

Erinilərin xoru Orestin ətrafında dövrə vurur.

X o r

BİRİNCİ STROF

Anamız gecə! Ah, ey gecə! Sən bizi korlara da, görənlərə də cəza vermək üçün doğub bu dünyaya gətirdin. Eşidirsənmi, ana? Letonun oğlu bizi rüsvay etmək istəyir, o, şikarımızı əlimizdən alır. Lakin ana öldürülmüşdür, cinayətkar tutulmuşdur, o bizim qurbanımızdır, o, qana qanla cavab verəcəkdir. Dinlə oxuduğumuz mahnını! Sən cəzadan boyun qaçıra bilməyəcəksən. Oxuduğumuz mahnı, erinilərin müdhiş mahnısı ağlını qaraldacaq, qəlbini didəcək, beynini sarsıdacaqdır. Hər kəs bu sevincsiz mahnını eşitdisə, solub saralacaqdır, donub hərəkətsiz qalacaqdır.

BİRİNCİ ANTİSTROF

Amansız Moyrlar mənə qara bir tale hörüb əyirmişdir. Qismətim – qatilləri edam etməkdir, ölüm davalarını idarə etməkdir. O hara qaçsa, arxasınca gedəcəyəm. Ailə düşsə, mən də orada olacağam, öləndən sonra belə o mənim olacaqdır. Dinlə oxuduğumuz mahnını! Sən cəzadan boyun qaçıra bilməyəcəksən. Oxuduğumuz mahnı, Erinilərin müdhiş mahnısı, ağlını qaraldacaq, qəlbini didəcək, beynini sarsıdacaqdır. Hər kəs bu sevincsiz mahnını eşitdisə, solub saralacaqdır, donub hərəkətsiz qalacaqdır.

İKİNCİ STROF

Doğulduğum gündən qismətim ağır bir vəzifə oldu. Yalnız təkcə allahlara əl qaldırmaq mənim üçün mümkün deyildir. Mənim ziyafətlərimdə qonaq olmur. Şən rəqslər, ağ atlaz libaslar məndə nifrət doğurur. Sənətim ocaqları söndürmək, evləri viran qoymaqdır. Hər evdə bir nifaq ruhu bəslənmişdir. Yaxın yaxına, dost dosta əl qaldıracaqdır. Qan düşəcək, qan axacaqdır. Biz isə tökülən qanın bahasını almaq üçün qatili dabanbasma izləyəcəyik. O bir pəhləvan belə olsa, həyatı pəncəmizdə sönüb tükənəcəkdir.

İKİNCİ ANTİSTROF

İşıqlı və parlaq evləri, fəzalarda olanları isə biz təqib etmirik, onları biz qovmuruq, onlarla şərəf və hakimiyyət uğrunda çəkişmirik, Yaraşmırıq. Üzərində qan damcılayan bizim köçümüzü, nifrətlər doğuran bizim dəstəmizi Zevs öz qapısından kənar elədi. Hər evdə bir nifaq ruhu bəsləmişdir. Yaxın yaxına, dost dosta əl qaldıracaqdır. Qan düşəcək, qan axacaqdır. Biz isə tökülən qanın bahasını almaq üçün qatili dabanbasma izləyəcəyik. O bir pəhləvan belə olsa, həyatı pəncəmizdə sönüb tükənəcəkdir.

ÜÇÜNCÜ STROF

İnsan şöhrəti bəzən göylərə şəfəq salır, lakin biz qará cır-cındırlar içində kimin qapısından içəri girsək, ulaşıb səs-səsə versək, o şöhrət bir an içində sönür, toza-torpağa qarışır. Qovub tələyə salacağam. Quduz kimi arxasınca çapacağam. Ağır pəncəmlə yeri tapdayacağam. Heç kəs əlimdən qaça bilməyəcəkdir. Heç kəs canını qurtara bilməyəcəkdir. Qədəmlərim itidir. Addımlarım möhkəmdir. Atanın yerişi ağırdır.

ÜÇÜNCÜ ANTİSTROF

Məğrur insan yıxıldığından bixəbərdir. O, gözü bağlı bir kordur. Etdiyi cinayətlər günahkarın başı üzərində tüstü dumanı kimi qaynaşır. Adamlar bunu duyurlar, adamlar bunu görürlər. Onlar pıçıldaşırlar: "Bu evin başında bir bəla vardır". Qovub tələyə salacağam. Quduz kimi arxasınca çapacağam. Ağır pəncəmlə yeri tapdayacağam. Heç kəs əlimdən qaça bilməyəcəkdir. Heç kəs canını qurtara bilməyəcəkdir. Qədəmlərim itidir. Addımlarım möhkəmdir, atanın yerişi ağırdır.

DÖRDÜNCÜ STROF

Belə olmuşdur və daima belə olacaqdır. Yol bizim üçün aydındır. Məqsəd bizə məlumdur. Şər, fənalıq əbədiyyən xatirimzdə qalır, biz heç kəsi əfv etmirik biz müqəddəsik. Nə adamlar içərisində, nə allahlar içərisində bizim yerimiz yoxdur, hörmətimiz yoxdur, şərəfimiz yoxdur. Günəşdən məhrum, qaranlıq, kifli bucaqlarda yuva salırıq. Nə gözü açıq olanların, nə korların bizə yaxın düşməsi üçün heç bir cığır, heç bir yol yoxdur.

DÖRDÜNCÜ ANTİSTROF

Titrətmədən, dəhşətə gəlmədən kim bizim nəğmələrimizi, qədim həqiqətlərin səsini və qədim Moyranın əzəli qanunlarını dinləyə biler? Səltənətimiz, əsrlərdən bəri dağ allahlarının möhkəm andı üzərində qərar tutmuşdur. Günəşsiz qaranlıqlarda, yeraltı zülmətdə, müzlüm tabutlarda yuva salsaq da, şanımız-şöhrətimiz daim ucadır.

ÜÇÜNCÜ EPİSODİ

Afina əlində nizə və qalxan, təpədən-dırnağa
qədər silahlanmış halda zahir olur.

A f i n a. Çox uzaqlarda, Skamandr çəmənlərində sizin çağırışınızı eşitdim. Orada mən torpaq qəbul edirdim. Axey başçıları və rəisləri hərbi qənimətdən Fesey oğullarına yaxşı bir pay fəxri bir hədiyyə olaraq məhsuldar torpaqlar ayırıb verdilər. Oradan birbaş durmadan bura gəldim. Qalxanım yelkən kimi havanı yarırdı, mən qanadsız uçurdum. Sanki qüvvətli atlar qoşulmuş bir araba dördnala göydə çapırdı. İndi burada, şəhərdə yeni qonaqlar görürəm. Görkəminiz məni qorxutmur, lakin gözlərim heyrətlə baxır. Siz kimsiniz? Haradansınız? Mənim bütümü qucaqlamış o qərib qonaq və onu əhatə edən sizlər – hamınızdan soruşuram: kimsiniz? Siz nə canlı məxluğa bənzəyirsiniz, nə allahların məclisinə gələn allahlara oxşayırsınız. İnsan tayfasına da sizin oxşarınız yoxdur. Lakin bu idbar görkəminiz üçün sizi məzəmmət etmək ədalətsizlikdir, təki ürəyiniz təmiz, əməllərniz saleh olsun.

X o r a ğ b i r ç ə y i. Zevs qızı, qısa cavabımızla kim olduğumuzu sənə söyləyə bilərik. Biz gecənin zülmətindən törəmiş məxluqlarıq. Yeraltı dünyada bizə lənət allahları deyirlər.

A f i n a. Nəsliniz məlumdur, adınız da tanışdır.

X o r a ğ b i r ç ə y i. Elə isə bizim hakimiyyət və vəzifəmizdən də xəbərdar ol!

A f i n a. Dinləməyə hazıram. Hamısını aydın bir lisanla nağıl et!

X o r a ğ b i r ç ə y i. Yaxın adamının qanını tökənləri biz evindən qovub təqib edirik.

A f i n a. Öldürən üçün bü təqibin sonu harada qurtarır?

X o r a ğ b i r ç ə y i. O yerdə ki, onun üçün artıq nə şadlıq, nə sevinc vardır.

A f i n a. Bunu da belə bir aqibətləmi təhdid edirsən?

X o r a ğ b i r ç ə y i. Bəli. O öz doğma anasını öldürməyə cəsarət etmişdir.

A f i n a. Başqa bir borcun, başqa bir vəzifənin qəzəbi onu təhdid etmirdi ki?

X o r a ğ b i r ç ə y i. Doğma ananı öldürməyə təhrik edən bir şey təsəvvür etmək olarmı?

A f i n a. Burada iki tərəf vardır. Mən yalnız birisini dinlədim.

X o r a ğ b i r ç ə y i. O and içməyəcəkdir, anda müraciət etməyəcəkdir.

A f i n a. Ədalətli olmaq istəyirsənsə, bu cür yaramaz.

X o r a ğ b i r ç ə y i. Necə? Sən ağıldan kasıb deyilsən axı bizə də bir anlat!

A f i n a. Haqlı olmayan and içsə də haqlı ola bilməz.

X o r a ğ b i r ç ə y i. Elə isə özün danışdır, özün də hökm ver!

A f i n a. Mühakiməni və qərarı mənə tapşırırsınızmı?

X o r a ğ b i r ç ə y i. Bəli. Layiq olanlara biz ləyaqətinə görə hörmət edirik.

A f i n a. Ey qərib, indi sən de görək, onlara cavabın nədir? Hansı nəsildən, hansı şəhərdənsən? Aç söylə, acı taleyindən bizi hali elə! Bütün bu ittihamları rədd et! Axı İksion kimi mənim müqəddəs ocağıma döşənib, mənim bütümü qucaqlarkən, sən yəqin ki, öz həqiqətinə inanırdın. Sən pak olmaq üçün dua edirsən. Elə isə cavab ver, hamısını aydın-açıq bizə izah et!

O r e s t. Ey hökmdar ilahə, ey Afina! Ən əvvəl ürəyimdəki qorxu və ehtiyatı dağıtmaq istəyirəm. Mən pak olmaq üçün çalışmıram. Artıq əllərim cinayətin murdarlığından təmizlənmişdir. Qurbangahını mən qucaqladım. Şəhadətim budur: qanun deyir ki, bir cadugər, südəmər bir heyvan balasının qanını töküncəyə qədər, qan tökən qatil sükut etməli, susmalıdır. Mən dəfələrlə bu cür yad ellərə isti qan və axar su

ilə paka çıxmışam. Bunu dedim ki, bu barədə təlaş və əndişədən xilas olasınız. Haradanam, hansı nəsildənəm, bu dəqiqə nağıl edərəm. Mən arqosluyam. Atamı yəqin ki, tanıyırsan: o, gəmi qoşunlarının sərkərdəsi, hökmdar Aqamemnon idi. Siz bərabər, adı dillərdə əzbər olan İlion qalasını tar-mar etdiniz. Lakin atam evə qayıdandan sonra fəna bir ölümlə həlak oldu. Anam qara bir niyyət, qara bir ürəklə başına tor atıb onu öldürdü. Hökmdar hamamda namərdcəsinə doğranıb məhv edildi. Mən o vaxt uzaqlarda sürgündəydim. Sonra evimizə qayıtdım və anamı öldürdüm. Mən etdiyimi danmaq fikrində deyiləm. Mən sevdiyim atamın qanı üçün qanla intiqam aldım. Loksi isə bu əməlimin iştirakçısı idi. Qatillərə ölümə qarşı ölümlə cavab vermədiyim təqdirdə, o məni acı əzab və qamçılarla təhdid edirdi. Mən haqlıyam, ya haqsızam – sən özün öz ədalətinlə mühakimə et! Özümü sənə təslim edirəm. Qərarın nə olarsa, qəbul edərəm.

A f i n a. Bu çətin bir mühakimədir. Tək bir adam burada bir iş görə bilməz. Bu amansız qan münaqişəsini həll etmək mənə yaraşan bir iş deyil. Sən bu şəhərə pak gəlmisən, bizə pənah gətirmisən. Mənim müqəddəs məbədim üçün sən müzürr və natəmiz deyilsən. Sən qəbahətli deyilsən. Ona görə səni ölkəmizə qəbul edə bilərik. Lakin onları da rədd etmək çox sadə bir məsələ deyil. Bu çəkişmədə məğlub olarlarsa, quduza dönəcəklər, ağızlarından aşıb-daşan zəhərli köpük yerə düşüb taun, vəba doğuracaqdır. Bunu da intixab etmək təhlükəlidir. Onları qovmaq müşküldür. Qovmayıb saxlamaq da ağırdır. Məsələni həll edə bilmirəm. Lakin vaxta ki bu çətin mübahisə bizə qədər gəlib çıxmışdır, onda mən and nizamnaməsini qorumaq üçün hakimlər təyin edib, məhkəmə təsis edirəm. Qoy bundan sonra qan davalarını həmişə onlar həll etsinlər. Sübut, dəlil toplayın, şahidlər göstərin! Mən isə vətəndaşlar içərisindən, bu ağır mübahisəni həll etmək üçün, müqəddəs andı hifz edərək mühakimə etmək haqqına layiq olanları toplaram.

Afina gedir.

İKİNCİ STASİM

X o r

BİRİNCİ STROF

Əgər anasını öldürmüş qatil oğul məhkəmə qarşısında bəraət qazanarsa, bütün qədim qanunlar məhv olacaqdır, qədim həqiqətlər zavala

uğrayacaqdır. Asan tökülən qan, yüngül və qansız məhkəmə, adamları yeni cinayətlərə, təzə qanlar axıtmağa sövq edəcəkdir. Ağlayın, saçı ağarmış qocalar! Bundan sonra nəsibiniz öz doğma övladlarınızdan əziyyət və zülm görmək olacaqdır.

BİRİNCİ ANTİSTROF

Görünür, artıq qatil arxasınca düşüb izini tuta bilməyəcəyik, qan qoxusu duyub günahlarını dabanbasma təqib edə bilməyəcəyik. Başlar kəsiləcək, qanlar töküləcək. Ağlayış və şikayət səsləri göyə yüksələcək: "Ah dərdimiz böyükdür, müsibətimiz ağırdır. Bu nə ağır zülmdür, bu amansız bəladır". Lakin bütün bu ah-vaylar hədər gedəcəkdir. Qansız dərmanlar yazıq insanlara şəfa verməyəcəkdir.

İKİNCİ STROF

Yaralar açılacaqdır, iztirablar çoxalacaqdır. Qoy artıq heç kəs fəryad etməsin, heç kəs ağı çağırıb bizi səsləməsin: "haradasan, ey həqiqət, niyə kömək etmirsən, ey erinilərin müqəddəs mehrabı!" Valideynlər belə fəryad edəcəkdir, analar bu cür ağı çağıracaqdır. Övlad əlindən ata-analar yasa batacaqdır. Artıq həqiqətin taxtı ayaq altında tapdanıb məhv olmaqdadır.

İKİNCİ ANTİSTROF

Qorxu insanlar üçün bir xilaskardır. Zəif ruhları hifz edən də qorxudur. Qoy daima əbədi olaraq qorxu ürəklərdə bərqərar olsun. Göz yaşları, ağrı və iztirab insana çox şey öyrədir. İstər tək bir adam olsun, istər bir şəhər, istər bir xalq, kimin ki, ürəyində qorxu yoxdur, kim ki xofdan azaddır, onun qəlbi saf və doğruçu ola bilərmi? Xof etməyən həqiqətə hörmət edə bilərmi?

ÜÇÜNCÜ STROF

Sən nə hakimiyyətsizliyi mədh et, nə mütləq hakimiyyəti tərifləl Yüksək yaradan orta dərəcəyə hər bir şeydə üstünlük bəxş etmişdir. İfratçılıq, sabit və möhkəm deyildir. Dediyim bu sözdə möhkəm bir həqiqət vardır; zinət və cah-cəlal ehtirası mütəkəbbir ürəklərdə qərar tutur. Aydın və ləkəsiz vicdan isə, hakim olduğu evlərdə, hər kəsə sevinc və şadlıq bəxş edən bolluq doğurur.

ÜÇÜNCÜ ANTİSTROF

Dediyim bu sözlər həmişə xatirində qalsın: qədim həqiqətin mehrabına dair hörmətin olsun! Heç vaxt qazanc dalınca düşüb həqiqəti ayaq altında tapdama! Əks təqdirdə yaxanı cəzadan qurtara bilməyəcəksən. Əziz valideynlərini ürəkdən sevib, onlara ehtiram bəslə! Qonaqpərəstliyin qədim qanunları, duz-çörək qanunu və ehtiyacı olana bir sığınacaq vermək adəti daima sizin üçün müqəddəs olmalıdır.

DÖRDÜNCÜ STROF

Kimin ki, ürəyi doğrudur, kim ki məcburiyyətsiz təmiz və pakdır, o, həyatda həmişə səadətə rast gələcəkdir. O, yıxılmayacaqdır, uçurumlara sürüklənməyəcəkdir. Lakin mütəkəbbirin gəmisi sularda qərq olacaqdır. Mütəkəbbir öz gəmisini haram mal ilə yükləmişdir. Lakin külək onun yelkənlərini cırıb dağıdacaqdır, müdhiş fırtınalar dor ağacını qoparacaq, sükanını sındırıb parçalayacaqdır.

DÖRDÜNCÜ ANTİSTROF

Qasırğa onu ağzına alanda, mütəkəbbir acı fəryad qoparacaqdır. Lakin onun səsini heç kəs eşitməyəcəkdir. Allahlar mütəkəbbirə güləcəkdir. Əvvəlcə onun bəxti gətirirdi, zirəkdi, diribaşdı, lakin birdən düşdüyü girdabda çaşıb qalacaqdır, xilas ola bilməyəcəkdir. Gəmisi həqiqətin qayasına dəyib parçalanacaqdır, insanlar rəhm etməyəcəkdir.

DÖRDÜNCÜ EPİSODİ

Hakim intixab olunmuş Afina ağsaqqalları təntənəli bir surətdə carçı və şeypurçularla bərabər orxestrə daxil olurlar. Afina məbəd içərisindən zahir olur.

A f i n a. Carçı, işə başla, camaatı sakit et! Ordlarını şişirib şeypur çal! Qoy boruların səsi göyə ucalsın, borular izdihamın başı üzərində işıldasın, gurlasın! Əmr et sükut etsinlər. Qoy bütün şəhər mənim nizamnaməmi eşitsin! Onu əbədi olaraq sizin əlinizə verirəm! Qoy hamı eşitsin, məhkəməmiz ədalətlə iş görəcəkdir.

Carçı şeypur çalır. Apollon daxil olaraq Orestin yanında dayanır.

X o r a ğ b i r ç ə y i. Ey Apollon! Nəyə sahibsən, ona hökm elə! Nə üçün bu mübahisəyə qarışırsan?

A p o l l o n. Mən bura şahid kimi gəlmişəm. Qaydaya görə o mənim himayəmdədir və mənim evimin qonağıdır. Tökdüyü qandan onu mən təmizləmişəm və bu çəkişmədə onu müdafiə etməyə gəlmişəm. Onun anası adlanan qadının ölümündə mənim də iştirakım vardır.

A f i n a (*erinilərə*). Danışın! Yüksək məhkəməni açıq elan edirəm. İlk söz müddəinindir. Qoy hamısını açıq və aydın bizə nağıl eləsin.

X o r a ğ b i r ç ə y i. Bizim sayımız çoxdur. Lakin sözümüz qısa olacaqdır. Qoy günahkar növbə ilə sualımıza cavab versin.

İ k i n c i e r i n i. Ən əvvəlcə bizə cavab ver: sən ananı öldürmüsənmi?

O r e s t. Bəli, öldürmüşəm. Etirafdan boyun qaçırmıram.

Ü ç ü n c ü e r i n i. Artıq birinci zərbə vuruldu. Torpağa yıxılıb məhv olacaqsan.

O r e s t. Mən hələ ayaq üstündə möhkəm dayanmışam. Özünü öymə!

D ö r d ü n c ü e r i n i. İndi başqa bir sualıma cavab ver: nə cür öldürmüsən?

O r e s t. Əlimdəki bıçağı boğazına saplayıb öldürmüşəm.

B e ş i n c i e r i n i. Səni bu işə kim təhrik etmişdir, kim yoldan çıxarmışdır?

O r e s t. Allah Loksi fal açıb belə əmr etmişdir. Özü bu sözümü təsdiq edə bilər.

A l t ı n c ı e r i n i. Gələcəkdən fal açan allah sənə öz doğma ananı öldürməyi əmr etmişdi?

O r e s t. Etdiyim işdən mən hələ də peşman deyiləm.

Y e d d i n c i e r i n i. Sonra başqa bir dillə danışacaqsan. Şiddətli cəzadan boyun qaçıra bilməyəcəksən.

O r e s t. Qorxum yoxdur. Atam tabutdan mənə kömək göndərəcəkdir.

S ə k k i z i n c i e r i n i. Anasını öldürmüş oğul, ölülərə bel bağlayırsan?

O r e s t. Anam ikiqat murdar cinayətlə özünü ləkələmişdir.

D o q q u z u n c u e r i n i. Hansı cinayətlə? Hakimləri başa sal!

O r e s t. Özünün ərini, mənim isə atamı öldürmüşdür.

O n u n c u e r i n i. Lakin sən hələ sağsan. Onu isə ölüm paka çıxarmışdır.

O r e s t. Nə qədər ki, sağdı, onu siz heç bir şeydə ittiham etmirdiniz.

O n b i r i n c i e r i n i. O öz ərini öldürmüşdür. Doğma qan axıtmamışdır.

O r e s t. Bəs mənim qanım elə bir ananın qanı ilə doğmadırmı?

O n i k i n c i e r i n i. Anan səni ürəyinin altında gəzdirmişdir, quduz! Oğul öz anasının doğma qanından imtina edir.

O r e s t. Apollon allahım, sən özün mənim şahidim ol, sən özün sübut et ki, mənim intiqamım ədalətlidir. Heç bir şeyi danmaq istəmirəm. Etdiklərimi gizlətməyə çalışmıram. Tökdüyün qan haqdır, ya nahaqdır, həll et! Məhkəmə qarşısında mən sənə müraciət edirəm.

A p o l l o n. Afinanın möhtəşəm məhkəməsi, mən də sizə müraciət edirəm, bu qətl ədalətlidir. Mən peyğəmbərəm. Yalan danışmayacağam. allahlar atası Zevsin mənə əmr etmədiyi bir şeyi, mən nə şəhərə, nə insanlara, nə bir kişiyə, nə bir qadına təlqin etməmişəm. Sözlərimin həqiqətini və onların qüvvətini anlayın! Atamın yüksək iradəsinə hörmət etməyi sizə əmr edirəm. Andım müqəddəsliyi qüvvətlidir. Lakin Zevs ondan da qüvvətlidir.

X o r a ğ b i r ç ə y i. Demək sən iddia edirsən ki, yüksək Zevs sənə tapşırmışdır ki, sən Oresti öz atasının qanının intiqamını almağa təhrik edəsən? Demək, o da bu təlqinə uyaraq murdar bir cinayət işləmiş, öz doğma anasını öldürmüşdür?

A p o l l o n. Allah tərəfindən hökmdarlıq tacı almış və şan-şöhrət qazanmış bir müharib döyüşlərdə məhv olmadan, amazonkaların oxu ilə yaralanmadan, gəlib öz evində bir qadın əlində həlak olursa – bü ölüm dəhşətlidir. Pallada – hamısını eşit! Siz də dinləyin, axı siz bu mübahisəni həll etməyə vəkil edilmisiniz! Ər hərbi səfərdən evə dönmüşdür, qəlbi sevinclə doludur, çaldığı qələbə ilə məğrurdur. Zövcə onu mehriban sifətlə qarşılayır, ərini hamama aparır. Orada ərinin başına örtü atır, hiylə ilə onu tora salır, kəfənə bürüyür. Sonra ölüm zərbəsi endirir. Və qəhrəman bir əsgər, qələbə çalmış gəmilər sərkərdəsi bu cür məhv olur. Bunları dedim ki, qəlbiniz qəzəb odu ilə alışıb yansın! Siz hakimlərsiniz, qərar çıxarmaq və məhkəməni aparmaq sizə tapşırılmışdır.

X o r a ğ b i r ç ə y i. Sən Zevsi xatırla, öz atanı yada sal! Məgər o özü doğma atası qoca Kronu zəncirləyib əsir etməmişdimi? Məgər si zin öz aranızda ziddiyyət və çəkişmə yoxdurmu? Dediklərimi eşitdiniz! Hamınızı bu işə şahid çağırıram.

A p o l l o n. Allahların nifrət etdiyi murdar məxluqlar! Zəncirləri açmaq olar. Zəncirlənmiş üçün xilas yolu vardır, ona kömək etmək, onu qurtarmaq olar. Lakin qanı torpaqlara hopmuş insan artıq əbədiyyən ölüdür. Onu bir daha diriltmək olmaz. Ölümə çarə yoxdur, bu barədə atam belə acizdir. Başqa işlərdə isə Zevs qadirdir, hər bir şeyi altüst etmək onun iradəsinə bağlıdır. Onun qəzəbi isə ədalətlidir, əbəs yerə o cəza verən deyildir.

X o r a ğ b i r ç ə y i. Demək, sən elə zənn edirsən ki, öz doğma anasının qanını axıtmış oğul bəraət qazanacaqdır? Və Arqosa qayıdıb öz ata evində yaşayacaqdır? Bundan sonra o ağzında dua kimin mehrabına yaxın düşə biləcəkdir? Kimlə ünsiyyət bağlaya biləcəkdir, kimlə qardaşlıq edəcəkdir?

A p o l l o n. Cavab verməyə hazıram və bu cavabımda haqlıyam. Qulaq asın! Balanı yaradan ana adlanan məxluq deyildir. – O, yalnız səpilmiş toxumu bəsləyib böyüdəndir. Yaradan – maya vurandır. Ana isə ona təslim edilmiş girovu, allah müxalif deyilsə, hifz edib saxlayandır. Möhkəm dəlil istəyirsinizsə buyurun, anasız da ata yarada bilər. Odur, Zevs, Olimpin qızı Pallada, qarşınızda durmuşdur. O, ana bətninin qaranlığını görməmişdir. Lakin buna baxmayaraq heç bir ilahə ondan gözəl bir qız doğa bilməmişdir. Mən isə, Pallada, sənə and içirəm ki, nə qədər imkanım varsa, sənin qoşunlarına şöhrət bəxş edəcəyəm, şəhərini yüksəldəcəyəm. Bu gənci Arqosdan sənin himayənə mən göndərmişəm, göndərmişəm ki, əbədi olaraq sənin ən sadiq bir bəndən olsun. Pallada, o və onun nəsli sənin müttəfiqindir. Bu ittifaq isə əbədi olaraq pozulmayacaqdır və gələcək nəvələr, gələcək nəsillər üçün həmişə müqəddəs olacaqdır.

A f i n a. Hakimlərə əmr edirəm, vicdan və mühakimə ilə hər kəs öz qürəsini salsın.* Danışıq artıq kifayət edər.

X o r a ğ b i r ç ə y i. Biz öz ittiham oxlarımızın hamısını atdıq. Gözləyək görək mübahisə nə ilə bitəcək.

A f i n a. Bəs siz? Nə etmək lazımdır ki, sonra siz narazı qalmayasız.

A p o l l o n. Nə lazımdırsa, siz eşitdiniz, indi siz, ey yadölkəli hakimlər, öz qürələrinizi sala bilərsiniz. Yalnız öz andınızı yaddan çıxarmayın.

A f i n a. Attika xalqı, mənim vəsiyyətimə qulaq asın! Tökülən qanı mühakimə edən birinci hakimlər sizsiniz! Qoy bu yüksək və ədalətli məhkəmə Egey oğulları arasında əbədi olaraq bərqərar olsun! Bir zamanlar amazonkalar bu təpə üzərinə hərbi yürüşə hazır dayanmışdılar. Onlar Fesey əleyhinə buradan döyüşə atılmışdılar. Bizim yeni qələmiz qarşısında bürclü bir şəhər salmışdılar. Onu Areyə ithaf etmişdilər. Təpə – Areopaq adlanmışdır. Ona hörmət və pərəstiş olunmuşdur.

* Bəxti sınamaq üçün atılan zər, alınan bükülü kağız, püşk

Qoy indi xof və qorxu da o hörmət və pərəstişə yoldaş olsun! Qoy həm gündüz, həm gecə burada həqiqətə riayət olunsun! Qoy vətəndaşlar mənim nizamnaməmə yaramaz qatışıq vurub onu xarab etməsinlər. Duru çeşmələrin suyuna lil atıb bulandırmaq asandır, lakin bulanıq su içmək üçün, artıq kara gəlməyəcəkdir. Xalqa, həm hakimiyyətsizlikdən, həm də mütləq hakimiyyətdən qaçmağı məsləhət görürəm. Lakin xilasedici qorxu və xof şəhərdən qovulmamalıdır. Qorxu bilmədən, xof duymadan insan övladı vicdanlı ola bilərmi? Müqəddəs həya və dindarlığı hifz edin! Bu məhkəmə sizin üçün ölkənin dayağı, şəhərin xilaskarı olacaqdır. Nə Skiflər içərisində, nə Pelopov diyarında belə bir idarə yoxdur. Mənim məhkəməm müqəddəs, satılmaz və amansızdır. Qoy şəhər yatsın, məhkəmə oyaq durub keşik çəkəcəkdir. Onu bu cür, dövlətimin nikahbanı və keşikçisi kimi təsis edirəm. Xalqıma bu tapşırığı, bu nəsihətimi, əbədi olaraq gələcək əsrlər üçün vəsiyyət edirəm. İndi isə, hakimlər, ayağa qalxın, qürələri götürün və anda sadiq qalaraq, bu mübahisəni həll edin! Sizə deyiləcək sözüm budur.

Hakimlər bir-birinin arxasınca əllərində qürə camlara yaxınlaşırlar.

X o r a ğ b i r ç ə y i. Şəhərlərin gecə qonaqları olan bizim qara tayfanı təhqir etməməyi sizə məsləhət görürəm.

A p o l l o n. Mən isə sizə əmr edirəm ki, mənim peyğəmbərlik taxtıma ehtiram göstərəsiniz. Zevs mənim dilimlə danışır. Qorxun!

X o r a ğ b i r ç ə y i. Sən özünü aralığa salıb, tökülən qan üstündə münaqişə açdın. İndi, qeybdən xəbər verən allah, sən artıq pak və müqəddəs deyilsən.

A p o l l o n. İlk qatil İksionu təmizə çıxaran atam da, bəlkə sənin gözündə günahkardır?

X o r a ğ b i r ç ə y i. Feretin[3] evində şuluqluq salan sən deyildinmi? Ölülər üçün Moyrlardan ikinci həyatı sən qopardın.

A p o l l o n. Bizə ehtiram göstərənlərə kömək etmək savab deyildirmi? Köməyə ehtiyacı olanlara isə ikiqat yardım göstərmək lazımdır.

X o r a ğ b i r ç ə y i. Sən qədim adət və qanunları pozdun. Məstedici şərab içirib qədim ilahələri sərxoş etdin.

A p o l l o n. Bu yarışda sənin əlin boşa çıxacaqdır. Zəhər tüpürüb, zəhər qusacaqsan. Lakin bizim heç bir şeydən qorxumuz yoxdur.

X o r a ğ b i r ç ə y i. Boş sözlər danışırsan. Əgər məhkəmə bizim qələbəmizə mane olarsa, burada məskən salıb, bu ölkəyə dinclik vermərik.

A p o l l o n. Nə cavan, kiçik, nə də qədim və qoca allahlar arasında sənə hörmət yoxdur. Qalib – mənəm.

X o r a ğ b i r ç ə y i. Sən cavansan, allah, amma qoca qarıları aldatmaq istəyirsən. Mən gözləyəcəyəm, hirsimi şəhərin üzərinə tökmək, ona qarğış tökmək lazımdır, ya yox – bunu mən məhkəmənin qərarını eşidəndən sonra qət edəcəyəm.

Hakimlər rəy verməni qurtarandan sonra öz yerlərində otururlar.

A f i n a. Artıq rəy verməni tamamlamaq üçün növbə mənə çatmışdır. Öz qürəmi mən Orestin xeyrinə atıram. Məni ana doğmamışdır. Kişi varlığı daha qiymətli, daha doğmadır. Mən yalnız izdivacdan ikrah edirəm. Lakin həqiqət budur ki, mən öz atamın yaratdığıyam, atamın balasıyam. Öz ərini öldürmüş qadına rəhm etməyəcəyəm. Evin ağası kişidir. Əgər Orestin lehinə və əleyhinə atılan qürələr bərabər belə olsa, o, bəraət qazanmalıdır (*öz qürəsini atır*). Hakimlər, dərhal işə başlayın! Ölüm və həyat camlarından qürələri çıxarıb sayın!

Hakimlər camlardan qürələri çıxarmağa başlayırlar.

O r e s t. Feb-Apollon! Məni gözləyən qərar nədir?

X o r a ğ b i r ç ə y i. Ey anamız gecə! Sən hamısını görürsən.

O r e s t. Cəllad, ölüm, yoxsa həyat və işıq gözləyir məni?

X o r a ğ b i r ç ə y i. Rüsvay olub diyarbədiyar gəzəcəyik, yoxsa şan və şöhrət içərisində yaşayacağıq?

A p o l l o n. Dostlar! Qürələri diqqət və ehtiyatla sayın! Yaxşı fikirləşib ədalətlə hökm verin! Bir qürə çatmasa qan və bədbəxtlik üz verəcək, bir daş artıq olsa, qədim bir xaniman xilas olacaqdır.

Hakimlər qürələri sayırlar.

A f i n a. Orest! Tökdüyün qan üçün sən bəraət qazandın. Hər iki camlardakı qürələr bərabərdir.

O r e s t (*yerindən qalxaraq*). Pallada! Ey xanimanımı xilas edən ilahə! Sən, yurdundan qovulmuş bir qəribi öz hökmdarlıq sarayına qaytarırsan. Bu gündən belə ellinlər hər yerdə deyəcəklər: "Arqoslu yenə öz dədə-babalarının irsinə yiyə durdu. Onu, Pallada Loksiya ilə bərabər xilas elədi. Qadir və xilaskar allah Zevs ona havadar oldu. Qadir allah Zevs ataya hörmət edib oğluna nicat verdi. Ana tərəfin müddəilərini rədd etdi".

Mən isə and içib sənin xalqına və sənin ölkənə əbədi sədaqətimi vəd edirəm. Doğma evə qayıdarkən bu müqəddəs andımla sənə müraciət edirəm. Qoy heç bir zaman mənim torpaqlarımın rəislərindən və şəhriyarlarından heç kəs, əlində nizə bir düşmən kimi, bu ölkəyə qədəm basmasın! Əks təqdirdə mən tabutda belə olsam, müqəddəs andımı pozanları müdhiş qarğış və lənətlərimlə fəlakətə düçar edəcəyəm. Onlar hərbi səfərə çıxdıqlarından peşman olacaqlar, etdikləri əməllərindən utanacaqlar. Yox, əgər Palladanın şəhərinə ehtiram göstərərlərsə, mənim verdiyim əhd-peymana sadiq qalıb hərbi ittifaqı hifz edərlərsə, o zaman arqoslulara qarşı mərhəmətli və xeyirxah olacağam. Əlvida, gözəl Afina! Əlvida, əziz şəhər! Daima düşmənlərin qarşısında möhkəm və sarsılmaz dayan. Qoy ölkən həmişə xoşbəxt olsun, qılıncın daima qalib gəlsin!

Orest gedir. Apollon orxestri tərk edir.

ÜÇÜNCÜ STASİM

X o r

BİRİNCİ STROF

Ah, ey kiçik allahlar, eyvah! Siz qədim həqiqətlərin qanunlarını dağıdıb tapdadınız! Əlimdən hakimiyyətimi dartıb alırsınız! Rüsvay oldum! Xəcil oldum! Qəzəbdən ürəyim od tutub yanır. Ey məlun şəhər, ey mənfur şəhər! Üzərinə zəhər və küfr yağdıracağıq! Ürəyimizin qara zəhəri ilə torpağını suvarıb yandıracağıq! Kif, zəhər, sürünüb axın, bağları, zəmiləri yandırıb-yaxın! Ah, intiqam! İntiqam! Vəba, taun, azar və bezar, aşıb-daşın, çölləri, düzləri gəmirib hər yeri bəhrəsiz qoyun! Hönkürüb ağlayıram. Nə etmək? İnsanları edam etməkmi? Vəba, taun göndərməkmi? Ölkəni viran qoymaqmı? Siz ey qara gecənin qızları, vay olsun bizə, rüsvay və xəcil olmuşuq, dərdə və yasa batmışıq.

A f i n a. Sakit olun! Ağlaşıb ürəkləri xarab etməyin! Sizi heç kəs rüsvay etməmişdir. Hökmün qürələri bərabər bölünmüşdür. Sizin şərəfiniz ləkələnmişdir. Lakin Zevsin parlaq iradəsi daha üstündür. Əmr verən özü vasitəçi oldu, müdafiə etdi və Orest cəzadan xilas edildi. Siz isə quduz kin və küdurətinizi bu torpaq üzərinə tökməyin! Qəzəblənməyin, təxribat və aclıq ilə bizi hədələməyin. Ağzınızın zəhərli köpüyü ilə yaşıllıq və bərəkətləri məhv etmək fikrinə düşməyin! Mən isə and içib sizə söz verirəm: sizə tənha bir çöl, müqəddəs hicra bir guşə ayırıram.

Cah-cəlallı iqamətgahlar yüksəldərəm və şəhər sizə ürəkdən ehtiram bəslər.

X o r

BİRİNCİ ANTİSTROF

Ah, ey kiçik allahlar, eyvah! Siz qədim həqiqətlərin qanun-qaydalarını dağıdıb tapdadınız! Əlimdən hakimiyyətimi dartıb alırsınız! Rüsvay oldum! Xəcil oldum! Qəzəbdən ürəyim od tutub yanır. Ey məlun şəhər, ey mənfur şəhər! Üzərinə zəhər və küfr yağdıracağıq! Ürəyimizin qara zəhəri ilə torpağını suvanb yandıracağıq! Kif, zəhər, sürünüb axın, bağları, zəmiləri yandırıb-yaxın! Ah, intiqam! İntiqam! Vəba, taun, azar və bezar, aşıb-daşın, çölləri, düzləri gəmirib hər yeri bəhrəsiz qoyun! Hönkürüb ağlayıram. Nə etmək? İnsanları edam etməkmi? Vəba, taun göndərməkmi? Ölkəni viranə qoymaqmı? Siz ey qara gecənin qızları, vay olsun bizə, rüsvay və xəcil olmuşuq dərdə və yasa batmışıq.

A f i n a. Sizi heç kəs rüsvay etməmişdir. İnsanlara qəzəblənməyin, ey gecə allahları! Ölkəni qarğıyıb, bəla çağırmayın! Mənim də dayağım Zevsdir. Yer altında Zevsin ildırımları hifz olunmuş məskənin açarları təkcə mənə məlumdur. Lakin bizə düşmənçilik etmək lazım deyildir. Mənə qulaq asın! Boş yerə şəhərə qarğıyıb bizi fəlakətlərlə təhdid etməyin! Quduz kin və nifrətinizi sakit edin! Mənimlə qonşu olub şan və şərəf içərisində yaşayarsınız. Uşaq diləyənlər və nikah ittifaqı haqqında dua edənlər sizə bol nemətlər ehsan edərlər. O zaman məsləhətimə görə mənə minnətdar olar, dualar edərsiniz.

X o r

İKİNCİ STROF

Ah, rüsvay oldum, ah, saçlarımın ağ vaxtında xəcil oldum. Yer altında yuva salmalıyam. Murdar üfunət və cəsədlər içərisində yaşamalıyam. Ürəyimi kin didib dağıdır, qəzəb və nifrətimdən ürəyim od tutub yanır. Ah, cəhənnəm! Cəhənnəm! Ürəyimə bıçaq saplanmışdır, bağrım

qüssədən partlamışdır. Ey gecə, ey anamız gecə, eşit fəryadımızı! allahlar qara hiylə gəldilər, qüvvətimi və şöhrətimi, qədim və sarsılmaz şan-şərəfimi ayaqlayıb tapdaladılar.

A f i n a. Bu qəzəbini əfv edirəm. Sən məndən yaşlısan və hər cür ehtirama layiqsən. Lakin məni Zevs ağıldan kəm doğmamışdır. Əvvəlcədən xəbər verirəm, köçüb başqa ölkələrə gedəndən sonra, mənim ölkəmin həsrətini çəkəcəksiniz! Zamanın selləri mənim xalqımı sönməz şəfəqli bir şöhrətə doğru ucaldacaqdır. Vətəndaşların xoru və dəstə-dəstə qarşımızdan keçən qadınlar mahnılar çağırıb şərəfi, namusu və Erextey[4] evinin qonşuları olan sizi mədh edəcəklər. Belə bir cahi-cəlalı siz başqa bir ölkədə tapa bilməyəcəksiniz! Ağlınızı başınıza yığın, mənim şəhərimə qanlı ikitirəlik salmayın! Gənclərə quduz ehtiraslar, yaramaz hisslər təlqin etməyin! Vətəndaşları bir-birini didən xoruzlara döndərib aralarında qiyam, ixtilaf və nifaq salmayın, bir-birinə düşmən edib vətəndaş hərbi başlamayın. Sərhəd arxasından bizi müharibə təhdid etməkdədir. Müharibə bizə yaxınlaşmaqdadır. Şücaət və şan-şöhrət meydanı orada olmalıdır. Ev quşları arasındakı didişmə isə – şərəfli bir döyüş deyildir. Özünə belə bir iqbal intixab etməyi sənə məsləhət görürəm. Xeyirxah bir ehtiram içərisində, xoş günlər sürərək, hər kəsə xeyir verərək, burada, allahların ən çox sevdiyi bu torpaqda yaşayın.

X o r

İKİNCİ ANTİSTROF

Ah, rüsvay oldum, ah, saçlarımın ağ vaxtında xəcil oldum. Yer altında yuva salmalıyam. Murdar üfunət və cəsədlər içərisində yaşamalıyam. Ürəyimi kin didib dağıdır, qəzəb və nifrətdən ürəyim od tutub yanır. Ah, cəhənnəm! Cəhənnəm! Ürəyimə bıçaq saplanmışdır, bağrım qüssədən partlamışdır. Ey gecə, ey anamız gecə, eşit fəryadımızı! allahlar qara hiylə gəldilər, qüvvətimi və şöhrətimi, qədim və sarsılmaz şan-şərəfimi ayaqlayıb tapdadılar.

A f i n a. Sənə xeyirli məsləhətlər verməkdən yorulmayacağam. Demə ki, səni, qoca ilahəni mən, cavan ilahə və bu şəhərin adamları şərəfsiz bir halda yola saldıq, qonaqpərəstlik göstərməyib qovduq. İnandırmaq, qane salmaq – hamı üçün müqəddəs bir qüvvədir. Mənim sözlərim isə şirindir, sakit edəndir. Bizimlə bərabər qal! Əgər qalmaq istəmirsənsə, şəhəri ədalətsizcəsinə təxribat, dağıntı, qəzəb və quduz

kin küdurətlə təhdid eləmə! Axı sizi xoşbəxt bir ölkədə, böyük şan-şöhrət içərisində və daimi bir ehtiram mühitində yaşamağa dəvət edirlər.

X o r a ğ b i r ç ə y i. Hökmdar Afina! Yaşamaq üçün bizə harda sığınacaq verəcəksən?

A f i n a. Hər bir qeylü-qaldan uzaq, sakit bir guşədə. Orada rahat yaşayarsınız.

X o r a ğ b i r ç ə y i. Qəbul edirəm. Nə cür hörmət və ehtiram vəd edirsən?

A f i n a. Sizsiz heç bir evdə xeyir-dua verilməyəcəkdir.

X o r a ğ b i r ç ə y i. Belə bir hakimiyyət və qüvvəti bizim üçün əldə edəcəksənmi?

A f i n a. Sizə ehtiram göstərənləri yüksəldəcəyəm, onlara müvəffəqiyyət bəxş edəcəyəm.

X o r a ğ b i r ç ə y i. Bu barədə əbədi olaraq bizə söz verirsənmi?

A f i n a. Mənim ixtiyarım özümdədir. Ürəyim nə istəyirsə, onu da vəd edirəm.

X o r a ğ b i r ç ə y i. Ürəyimi təskin etdin! Qəzəbimi söndürdün!

A f i n a. Burada məskən salaraq özünə dost və xeyirxah tapacaqsan.

X o r a ğ b i r ç ə y i. Şəhərinə necə xeyir-dua verməyi əmr edirsən?

A f i n a. Qoy bütün ölkə xeyir işlər üçün yarışsın! Bərəkətli torpağın sinəsi, dənizlərin dalğaları, göylərin çadırı, küləklərin nəfəsi, hərarəti yumşaldaraq ölkənin başına nemət, bərəkət yağdırsın! Heyvanlar böyüyüb artsın, tarlalar bol məhsul versin! Qoy bolluq getdikcə artsın! Nəsil artıran qadınlara xeyir-dua verin! Müzür və imansızları isə rədd edin! Qeydkeş və tələbkar bir bağban kimi, mən yaxşı və xoş çiçəkləri, boy atan pöhrə və rişələri sevirəm. Bütün bunların qayğısı sizin boynunuza düşür. Nə qədər ki, şəhərimi qalibiyyətlə şöhrətləndirməmişəm, hərbi səfərlərdə, döyüşlərdə nizə və qılıncımı yerə qoymayacağam.

EKSOD

X o r

BİRİNCİ STROF

Burada, Palladanın şəhərində yaşayacağam. Bu ölkənin şan-şöhrətini ucaldacağam. Ellin yurdunun beşiyi, dəfinəsi və möhkəm qalası, allahların isə dayağı olan bu şəhərə, uca və qadir Zevs, davakar və hirsli Ares ehtiram bəsləyirlər. Bu ölkəyə xeyir və yaxşılıq diləyirik. Ona

hər cür səadət və şadlıq bəxş edəcəyik. Günəşin alovlu, torpağın qara sinəsindən bol bəhrə çıxarıb, bol məhsul verəcəkdir.

A f i n a. Mən öz xalqımın qeydinə qalmışam. Onun qayğısını çəkmişəm. Ağır intiqam alan afaqı qüvvələrə, qüdrətli allahlara doğma ölkəmin göyləri altında məskən vermişəm. İnsanlara gələn bəlalar, insanlara gülümsəyən hər xoşbəxtlik – hamısı o yüksək qüvvələrin iradəsindən doğmaqdadır. O qüvvələrə kim bədnəzərlə baxsa, günahkar dərhal məhv olacaqdır, o, bəlanın haradan gəldiyini belə bilməyəcəkdir. Dədə-babaların günahı, gizli və örtülü günahlar insanı uçurumlara doğru sürükləyəcəkdir, nə qədər özünü öysə, nə qədər çığır-bağır salsa belə, sükut dolu bir nəhayət gözdən düşmüş bədbəxti insan içərisində dəfn edəcəkdir.

X o r

BİRİNCİ ANTİSTROF

Odlu küləklər! Bağların yaşıllıqlarını yandırıb-yaxmayın! Dua oxuyub əmr edirəm: isti və quraqlıq! Çiçəklərin gözlərini kor etmə! Cücərən toxumları qurutma! Qoy sürünən həşərat bol bəhrəni gəmirib yeməsin! Qoyunlara kökəlib yağlanmağı, cüt-cüt balalar doğmağı əmr edirəm! Otlaqlar, sürüləri bəsləyib yemləyin. Dağların sinələri, yerin dəfinələr dolu dərinlikləri – qoy bol nemət və hədiyyələr doğsun!

A f i n a. Siz, ey şəhər ağsaqqalları! Bu dua və diləkləri eşitdinizmi? Erinilər dəstəsi həm göydə, dağ allahları içərisində, həm yer altında, zülmət içərisində qüdrətli və böyükdür. Onlar insan taleyini idarə edirlər. Bəzilərinin müvəffəqiyyət və bəxtiyarlığına, digərlərinin isə kor iqbalına mahnılar oxuyurlar.

X o r

İKİNCİ STROF

İnsanlara bəla kəsilən, vaxtından tez gələn əcəli – yasaq edirəm. Ey böyük Moyralar, şirin kişi ehtirasını qızlara bir sevinc kimi bəxş edin! Bacılar, siz, ey gecənin qızları, hakimiyyət sizindir, qüdrət və qüvvət sizindir. Hər şeyə siz istiqamət verirsiniz. Hər evdə qonaqsınız,

hər işdə, hər saatda siz hazır olub kömək edirsiniz, allahlar içərisində sizdən qüvvətli olanı yoxdur.

A f i n a. Mərhəmətlə ölkəmiz yüksəlib ucalmışdır. Könül sevinir, könül şad olur. Əqidənin və inamın aydın gözlərinə eşq olsun! Qəzəblənmişləri və inadkarları yola gətirmək üçün, nitqimə qüvvət verən ürəyimdəki bu inam oldu. Mahir natiqlərin ustadı Zevs qalib gəldi. Şəhərimizdə həmişə şan-şöhrət meyli qalib gəlməkdədir.

X o r

İKİNCİ ANTİSTROF

Mənhus nifaq, fitnə və qiyam qoy dinc evlərə yol tapmasın! Vətəndaşların qardaş qanı qoy doğma torpağa tökülməsin, qana qan tələb edərək, qoy qardaş qardaşı məhv etməsin! Qoy sevincə sevinclə əvəz verilsin, ümumi işi sevmək və birgə ürəklə nifrət etmək insanlar üçün ən əziz bir dərmandır.

A f i n a. Anlayan ürəyə ağıllı sözlər həmişə yol açacaqdır. Əvvəlcə müdhiş idilər, ölümlə təhdid edirdilər. İndi isə şəhərimizin onlardan böyük nemətlər qazanacağını görürəm. Ürəkləri mərhəmətli olan xeyirxah allahları əbədi olaraq əziz tutun! Qanunun sarsılmaz himayəsi altında ölkə və xalq yüksəlib çiçəklənəcəkdir.

X o r

ÜÇÜNCÜ STROF

Bolluq və bərəkət içərisində şad olun. Hamınız sevinib bəxtiyar olun! Afina xalqı, xoşbəxt ol! Zevsin məbədini xalq hifz edir. Sevimli qız xalqı sevir. Xalq həmişə müqəddəs və zəkalıdır. Kim ki, Pallada tərəfindən hifz olunmaqdadır, Ata ona xeyir-dua verməkdədir.

A f i n a. Siz də, qadir allahlar, bəxtiyar olun! Mən isə qabaqda gedərək iqamətgahınıza yol göstərirəm. Ey, ayağa qalxın! Məşəllərin işığında allahları yola salın! Qoy atəşlərin şəfəqində bütün əndişə və bəlalar torpaq altına getsin! Qoy yerin təkindən yerin üzərinə xalq üçün xeyir və bərəkət çıxsın! Siz, ey Kraney əhli[5] siz, ey ölkənin övladları, yeni sakinlərinizə dua edin, onlara hörmət göstərin! Qoy xalqım həmişə pak ürəklərdəki xeyirxahlığı təqdis etsin!

Xor

ÜÇÜNCÜ ANTİSTROF

Yenidən təkrar edirəm: sevinin, sevinin! Bütün ölkə – allahlar da, insanlar da, hamınız sevinin! Palladanın ölkəsi, bütün şəhər – bizi, yeni sakinləri əziz tutun! Siz artıq əbədiyyən öz taleyinizdən şikayət etməyəcəksiniz!

Məşəllər alışır. Mərasim yerindən hərəkət edir.

Xeyirxah və səxavətli diləklərin üçün təşəkkür edirəm. Şəfəq saçan məşəllərin işığında, sizi yer altına, yatmış ruhlar səltənətinə müşayiət edəcəyik. Məbədin xidmətçi qızları da bizimlə gedəcəkdir. Onlar mənim bütümü mühafizə edirlər. Siz də, ey Fesey övladlarının ən güzidələri – qocalar və gənclər, qızlar və qadınlar, hörmətli analar, zinətli atlaz paltarlarınızı geyib bizi müşayiət edin! Gəlin, qoy məşəllər ətrafa şəfəq salsın. Qoy ürəyimiz həmişə dinc və sakit olsun! Qoy yeni sakinlərimiz ölkəmizin xeyrinə mərhəmətli və rəhmdil olsunlar! Və bundan belə onları Erini deyil, Evmenidlər, qəzəbli allahlar deyil, xeyirxah allahlar deyə çağıraq!

Mərasim hərəkət edir.

Müşayiət edənlər. Ey gecənin qoca qızları, ey möhtərəm və böyük allahlar, sizi evinizə müşayiət edirik. Bayram şənliyidir, mahnılar oxunur. Vətəndaşlar, mədh edin, hamınız bir yerdə əhsən deyin! Siz yer altına gedirsiniz, yerin təkində məskən tutacaqsınız. Sizə nəzir gətirəcəyik, sizə ehtiram göstərəcəyik, sizə dualar edəcəyik. Bayram şənliyidir, mahnılar oxunur. Vətəndaşlar mədh edin, hamı bir yerdə əhsən deyin! Ey allahlar, bizə qarşı səxavətli olun, bizə qarşı xeyirxah olun! Ey allahlar, buyurun evinizə qədəm basın! Məşəllər, alışıb şəfəq saçın! Bu yol bizim üçün müqəddəsdir və sevinclə doludur. Səsinizi ucaldın, sevinin, şadlanın! İttifaqımız müqəddəsdir. Siz Palladanın xalqı üçün – Evmenidlərsiniz. Hər şeydən yüksək, qadir Zevs və əbədi Moyralar belə qət etdilər. Səsinizi ucaldın, sevinin, şadlanın!

Aktyorlar və xor orxestri tərk edirlər.

SOFOKL

E.ə. 496-406

Sofokl qədim yunan dramaturgiyasının ikinci böyük simasıdır. O, eramızdan əvvəl təxminən 496-cı ildə Afinanın yaxınlığında Kolon qəsəbəsində varlı bir ailədə anadan olmuşdur. Atası silah emalatxanasının sahibi idi. Sofokl, dövrünün adəti üzrə gözəl idman və musiqi təhsili görmüş, sonralar həmişə bu sahədə təşkil olunan müsabiqələrdə birinci mükafat almışdır. Gənc yaşlarından korifeyliyə başlamış, hətta 479-cu ildə yunanların iranlılar üzərində qalibiyyətini öz xoru ilə tərənnüm etmişdir.

O, dəfələrlə böyük vəzifələrə seçilmiş, hətta dövlət xəzinədarı belə olmuşdur. Lakin mürəkkəb, siyasi dövlət məsələlərində o qədər də uzaqgörən və gözüaçıq adam deyildi.

Bütün həyatını teatra həsr etmiş Sofokl, hər il təşkil olunan teatr müsabiqələrində iştirak edərək, həmişə birinci mükafat almışdır. Onun Esxil üzərində ilk qələbəsi 468-ci ilə aiddir. Son əsəri olan "Edip Kolonda" faciəsini ömrünün sonunda yazmışdır. Beləliklə, altmış iki illik əbədi fəaliyyəti müddətində Sofokl, rəvayətə görə 123 əsər yazmışdır ki, bunlardan bizə ancaq yeddi tamamlanmış faciə gəlib çıxmışdır. "Tiran Edip", "Edip Kolonda", "Antiqona", "Elektra", "Filoktet", "Ayaks", "Traxiniya qadınları". 1912-ci ildə onun "İzaxtaranlar" əsərindən bəzi parçalar tapılmışdır. Yeddi əsərdən üçünün tamaşa tarixi bizə məlumdur. "Antiqona" e. ə. 442-441-ci illərdə, "Filoktet" e. ə. 409-cu ildə, "Edip Kolonda" isə e. ə. 406-cı ildə yəni Sofoklun ölümündən sonra tamaşaya qoyulmuşdur. Bu əsərlərdən "Tiran Edip", "Edip Kolonda" və "Antiqona" Fivaida əsatirlər silsiləsindən, "Elektra", "Ayaks", "Filoktet" Troya əsatirlər silsiləsindən, "Traxiniya qadınları" isə "Herakliada" silsiləsindən götürülmüşdür.

Sofoklun yaradıcılığı Afina quldarlıq demokratiyasının ən çiçəkli dövrünə təsadüf edir. İlk gəncliyində, mürtəce siyasi sahibkarların siyasi başçısı olan Kimon ilə yaxınlaşan və ona pərəstiş edən Sofokl, sonralar Afina quldarlıq demokratiyasının başçısı Perikl ilə dost olmuşdur. Bu vaxt o, demokratların mötədil dəstəsinə mənsub idi. Öz əsərlərində bu mötədil demokrat görüşlərini təbliğ edirdi. Ancaq siyasi görüşləri möhkəm olmayan və siyasi tərəddüdlərdən canını qurtara

bilməyən Sofokl, Afina demokratiyasının böhran keçirdiyi zaman ondan uzaqlaşmış, hətta 411-ci il antidemokratik üsyanında şəxsən iştirak etmişdir. Bu vaxt Sofokl, köhnə qaydaların, köhnə nizam-intizamın təzədən bərpa edilməsi tərəfdarı idi.

Sofokl əsərlərinin çoxusunda hadisələrin mərkəzində dayanan insan və onun taleyidir. Esxildən fərqli olaraq, o, insanın mənəvi aləmini, dərdini, hisslərini böyük ustalıqla verir. Əsərlərindən belə bir fikir oyanır ki, Sofoklu düşündürən ancaq insandır.

Sofoklun yaradıcılığında qədim yunan dramaturgiyası yeni inkişaf mərhələsinə çatmışdır. Belə ki, Sofoklun əsərlərində, Esxildən fərqli olaraq, artıq, dramaturji ziddiyyət allahlar arasında deyil, insanlar arasında gedir. Sofokl, bir gəlişdə üçüncü aktyoru səhnəyə çıxarmaqla, dramaturgiyanı lirik və təhkiyə ünsürlərindən qurtarmış, dramaturji mükaliməni qüvvətləndirmişdir. Eyni səhnədə üç aktyorun mükaliməsi müəllifə ikinci dərəcəli surətləri də dramaturji söhbətə qarışdırmağa imkan vermişdir. Onun bu yeniliyi Esxilə də təsir etmiş; Esxil də "Oresteya" adlı üçlüyündə bir gəlişdə üçüncü aktyordan istifadə etmişdir. Xorun qədərini 12-dən 15-ə çatdırmışdır. Xor Sofoklun əsərlərində müəyyən ictimai rəy ifadə edən bir vasitə olur. O, əsərlərinin tamaşası üçün dekorasiyalar yaratmışdır. Səsi yaxşı olmadığı üçün əsərlərinin baş rolunu oynamaqdan boyun qaçırmışdır. Bu vaxt artıq Yunanıstanda peşəkar aktyorlar yetişməyə başlamışdı. (Minnsk, Kallipid, Esxin və sairə). Sofokl tetralogiya sistemindən əl çəkmiş müstəqil, bütöv faciələr yaratmışdır ki, Aristotel öz "Poetika" adlı əsərində bunu xüsusilə qeyd edir.

Sofokl, insan psixologiyasını verməyə xüsusi diqqət yetirdiyinə görə, hadisələrin inkişaf üsulunu də dəyişdirmişdir. Belə ki, Esxildən fərqli olaraq, o, dramaturji hərəkətin inkişafını xarici hadisələrlə deyil, surətlərin daxili ruhi halı ilə əlaqəli şəkildə verir. Sofokl öz əsərlərində qədim yunan dramaturgiyası üçün xas olan "Tanıma" və "Peripetiya" üsullarından birinci dəfə çox ustalıqla istifadə etmişdir. Buna ən gözəl nümunə "Tiran Edip" faciəsidir. Əsərin kompoziyası o qədər sənətkarlıqla qurulmuşdur ki, indi də tamaşaçını heyrətə sala bilir və həycanlandırır.

Sofoklun dramaturgiyaya gətirdiyi bir çox şəkli və sırf dramatik sənətkarlıq xüsusiyyətləri sonralar bütün qədim yunan dramaturgiyası üçün bir qanun olmuşdur. Aristotel ədəbiyyat və dramaturgiya qanunlarını ümumiləşdirib təsbit edərkən həmişə Sofokla müraciət etmişdir.

TİRAN EDİP

İŞTİRAK EDƏNLƏR:

Edip – Fiv tiranı
İokasta – Edipin arvadı
Antiqona, İsmena – Edip və İokastanın qızları
Tirezi – Qeybdən xəbər verən qoca kor
Uşaq – Tirezini gəzdirən
Kreont – İokastanın qardaşı
Zevsin kahini
Korinf qasidi
Çoban
Edipin nökəri
Xor ağsaqqalı
Fiv ağsaqqallarının xoru

Allahın kahinləri, Edipin şəxsi mühafizələri və kölələri, İokastanın kənizləri, Kreontun şəxsi mühafizələri, mərasimdə iştirak edən oğlan və qızlar

Əhvalat Fivdə, Edipin sarayı qarşısında vaqe olur.

PROLOQ

Birinci səhnə

Pontomima. Kahinlər, uşaqlar və gənclər allahların: Zevs, Apollon, Afina və Hermesin heykəlləri qarşısındakı məzhəbələrin səkilərində əyləşmişlər. Əllərində üzərlərinə yun lentlər sarınmış zeytun budaqları vardır. Edip saraydan çıxır.

İkinci səhnə

Edip. Ey qədim Kadm[1] xanədanından didərgin düşmüş kiçik yavrular. Bütün şəhər həmd-sənaların səsi, fəryadlar və qəndillərin tüstüsü ilə dolmuşkən siz nə üçün əllərinizdə müqəddəs budaqlar, bu qədər miskin bir halda məzhəbələrin qarşısında büzüşüb qalmısınız? Əziz balalar, mən sizin dərdlərinizi özgələrdən soruşmaq istəməyib öyrənmək üçün özüm şəxsən buraya gəldim. Bu yerlərdə mənim adıma Edip deyərlər. (*Zevsin kahininə*) Söylə, qoca, söylə! Onların əvəzinə danışmaq sənin boynuna düşür. De görək siz buraya nə üçün gəlmişsiniz: qorxudan, yaxud bir təmənnanız vardır? Hər cür yardıma hazıram. Çünki bu yavrulara acımamaq böyük mərhəmətsizlik olardı.

Z e v s i n k a h i n i. Edip, ey vətənimizin böyük hökmdarı, özün görürsən ki, buraya məzhəbənin qarşısına biz müxtəlif yaşlı adamlar yığışmışıq. Burada hələ uçmağa qanad açmayan balaca yavrularla yanaşı olaraq, qocalıq yükü altında yerindən tərpənmək iqtidarını itirən ağsaqqal kahinlər də vardır. Mən Zevsin kahiniyəm. Seçmə cavanlar da buraya gəlmişlər. Xalq dəstə-dəstə əllərində budaqlar bazarda, bakir Palladanın hər iki məbədgahı qabağında və müqəddəs İsmen[2] ocaqları qarşısında yığışmışdır.

Özün görürsən ki, şəhərimiz quduz tufanların qurbanı olmuşdur. Qanlı qasırğa qarşısında gücsüzük, başımızı qaldıra bilmirik. Bərəkətli zəmilərdə torpaqdan yenicə cücərən taxıllar quruyur, mal-qara qırılır, anaların bətnindəki uşaqlar məhv olur. Mənfur azar, ölüm yayan axıcı ruh, ölkəni məhv edir. Kadm xanədanı yenə də boşalır. Hər yer fəryad və nalələrlə dolaraq qara cəhənnəmə çevrilir.

Biz, mən və yavrular elə buna görə də bu müqəddəs mehrabın qarşısında əyləşmişik. Biz sənə allah, – deyə hüzuruna gəlməmişik. Lakin istər yerdə törəyən bədbəxtliklərə, istərsə də göydən nazil olan bəlalar tuş olarkən birinci növbədə sənə müraciət edirik. Məgər sən vaxtilə, bir dəfə də Kadm şəhərinə gəlib bizi taleyin dözülməz bəlasından xilas etməmisən? Halbuki, bizim heç birimiz o vaxt dərdimizi sənə ərz etməmişdik. Sən özün allahın kəramətilə bunu dərk etmiş və bizə nicat vermişdin. Biz hamımız buna qailik.

İndi də, ey Edip, padşahlar arasında öz ağıl və zəkasilə məşhur olan hökmdar, sənə müraciət edib yalvarırıq: xilas üçün yol tap. Bu yolu istər səma aləminə nüfuz edib allahlardan öyrən, istərsə yer üzündəki ağıllı adamlardan soruş. Bəllidir ki, ağıllı adamların məsləhəti həmişə xoşbəxtliyə çağırar.

Ey bəndələrin yaxşırağı, şəhərimizi xilas et! Bununla öz hikmət və şöhrətini də qorumuş olarsan! Xalq səni əvvəlki kimi xilaskar görmək istəyir. Qoy gələcək nəsillər sənin hökmranlığını xatırlarkən deməsinlər ki, biz onun zamanında həm yüksəldik, həm də məhv olduq. Yox, sən o zaman bizim üçün əbədi bir xilaskar ol. Allahın hökmü ilə sən o zaman bizi səadətə çatdırdın, indi də bizdən bunu əsirgəmə. Əgər sən gələcəkdə yenə hökmranlıq etmək niyyətində isən məmləkətinin adamlarla dolu olmasının çarəsini düşün. Çünki içərisi boş olan qala və ya gəminin heç bir əhəmiyyəti yoxdur.

E d i p. Ah, yazıq balalar! Sizin dərdiniz mənə məlumdur. Hamının iztirab içində çırpındığını görür və yaxşıca bilirəm. Lakin inanın ki,

sizin aranızda mənim qədər iztirab çəkən yoxdur. Çünki sizin hər biriniz başqasını deyil, ancaq öz dərdinizi çəkirsiniz. Mən isə şəhərin, özümün və sənin dərdini çəkirəm.

Məni oyatmaq lazım deyil. Mən yatmamışam. Bilin ki, mən bu barədə çox göz yaşları axıtmışam. Başımdan çoxlu ağır fikirlər gəlib keçmişdir. Xeyli düşünmüşəm, bircə çarə tapmışam: qaynımı, Mangeyin oğlu Kreontu, Delfiyə, Febin iqamətgahına göndərmişəm ki, öyrənsin görək biz şəhəri hansı ibadət və ya yalvarışlarla xilas edə bilərik. Mən günləri sayıram və ondan çox nigaranam. Bilmirəm nə üçün vaxtında gəlib çıxmadı. O, çoxdan qayıtmalı idi. Yubanmasının səbəbi mənə məlum deyil. O, qayıdandan sonra allahın əmrini yerinə yetirməsəm, mən böyük günahkar hesab olunuram.

Mərasimdə iştirak edənlər Kreontun gəldiyini görüb
Zevsin kahinini xəbərdar edirlər.

Üçüncü səhnə

Z e v s i n k a h i n i. Sözü lap məqamında dedin: budur bax, yanımdakılar Kreontun gəldiyini mənə göstərirlər.

E d i p (*dönüb baxır*). Ey böyük hökmdar, Apollon! Kaş onun gətirdiyi xəbər də gözləri qədər parlaq olaydı!

Z e v s i n k a h i n i. Görünür ki, şad xəbərlərlə gəlir. Yoxsa başında şərəf çələngi olmazdı.

E d i p. İndicə məlum olar. O indi bizim sözlərimizi eşidə bilər.

Kreont daxil olur.

Mənim əzizim, hökmdar Mengeyin oğlu, söylə, allahdan bizə nə kimi xəbərlər gətirmisən?

K r e o n t. Xoş xəbərlər, inan, çıxış yolu göstərilərkən ən ağır bədbəxtlik belə xoşbəxtliyə çevrilə bilər.

E d i p. Söylə görək, axı gətirdiyin necə xəbərdir? Sözlərin hələ ki, məni nə arxayın edir, nə də qorxudur.

K r e o n t. Sən məni bunların yanındamı dinləmək istəyirsən? Deməyə hazıram, lakin biz evə də girə bilərik.

E d i p. Hamının yanında söylə. Mən onların dərdini öz dərdimdən artıq çəkirəm.

K r e o n t. Musaidənlə, allahdan eşitdiklərimi açıb söyləyə bilərəm. Ulu Feb çox aydın bir hökm buyurdu: (*Üzərində yazısı olan bir lövhə çıxarıb oxuyur*)

"Fiv torpağı bəladan təmizlənməli, bir də burada müalicəsi mümkün olmayan azarların törəməsinə yol verilməməli".

E d i p. Hansı yolla təmizlənməli? Bəlanı necə rədd etməli?

K r e o n t (*oxumağa davam edir*). "Şəhəri bürüyən azarlara, qana qarşı sürgün və ya qan tələb olunur".

E d i p Necə qan? Kimin taleyi nəzərdə tutulur?

K r e o n t. Böyük hökmdar, səndən əvvəl Lay bu yerlərin hökmdarı idi, deyilmi?

E d i p. Bəli, onun barəsində eşitmişəm. Ancaq özünü görməmişəm.

K r e o n t. O, qətlə yetirilmişdir. İndi allah onun qatillərinin, hər kim olursa-olsun, qətlə yetirilməsini tələb edir.

E d i p. Onlar haradadırlar? Kimin torpağındadırlar? Qədim bir cinayətin gizlin izlərini indi haradan tapmaq olar?

K r e o n t. Allah buyurdu ki, öz torpağımızda axtarmalıyıq. (*Xatirəsində oxuyur*) "Axtaran tapar. Mənfur cani isə daima gizlənməyə səy edəcəkdir".

E d i p. Lay evindəmi, yaxud çöldə öldürülmüşdür? Bəlkə onu başqa ölkədə qətlə yetirmişlər?

K r e o n t. Deyirlər ki, allahı ziyarət üçün evdən çıxmış, sonra bir də qayıtmamışdır.

E d i p. Məgər işdən xəbərdar olan və yaxud səfər zamanı onunla yoldaşlıq edən bir adam tapılmadı ki, sizə qatilin izini göstərsin?

K r e o n t. Bir nəfərdən başqa hamısı məhv olmuşdur. O isə dəhşətlə qaçmış, gördüyünü və bildiyini açıb deyə bilməmişdir.

E d i p. Onun gördüyü nədir? Bir kəlmə belə bizə çox şey kəşf edə bilər. Bir zaman işin açılacağına ümid bəsləyə bilərik.

K r e o n t. Demişdir k, quldurlar – həm də bir nəfər yox, çox adam – onun üstünə düşüb öldürmüşlər.

E d i p. Quldur? Yox, qızılla satın alınmayan adam heç vaxt onu öldürməyə cəsarət edə bilməzdi.

K r e o n t. Biz də bu fikirdə idik. Lakin Lay öldürüləndən sonra baş verən bədbəxtliklər o qədər böyük oldu ki, kimsə onun qanını axtarmaqla məşğul olmadı.

E d i p. Hökmdar öldürüləndən sonra sizin axtarışlarınıza mane olan o bədbəxtliklər hansıdır?

K r e o n t. Bizi Sfinks[3] yoldan çıxartdı. O, bizə belə bir müəmmalı mahnı söylədi ki, guya axtarışdan əl çəkməli və ayaqlarımızın altına baxmalıyıq.

E d i p. Mən hər şeyi yenidən müfəssəl öyrənəcəyəm. Feb də, Kreont, sən də, mərhum hökmdarın qayğısına qalmaq üçün mənə lazımi qüvvət verdiniz. Bu işdə sizə həqiqi bir müttəfiq olduğumu görəcəksiniz, mən həm yer, həm də göy üçün intiqam alacağam. Çünki mən bunu icra edərkən uzaq bir adamın mənafeyi üçün çalışmıram, xəta-bəlanı öz başımdan rədd etmiş oluram. Onu qətlə yetirən şəxs hər kim olursa-olsun, həmin əlini bir gün mənim də üstümə qaldırmağa cəsarət edər. Laya xidmət etməklə mən özümə də xidmət etmiş oluram. (*Mərasim iştirakçılarına*) Əziz yavrular, artıq bu səkilərdən qalxın, bu müqəddəs bulaqları da özünüzlə aparın. (*Kreonta*) Qoy bir nəfər Kadm əhalisini məşvərətə yığsın. Hər hansı bir qərara əməl etməyə hazıram. Bilirəm, allahın iradəsilə biz ya səadətə çatacağıq, ya da birdəfəlik məhv olacağıq.

Saraya daxil olur.

Xor yaxınlaşır.

Z e v s i n k a h i n i. Yavrularım, qalxın gedək. Biz nəyin ricasına gəlmişdiksə, o işlərin hamısı hökmdar tərəfindən yerinə yetiriləcəkdir. Bu hökmü bizə göndərən Feb, bizi xilas edəcək, məmləkəti azarlardan təmizləyəcəkdir.

PAROD

X o r

BİRİNCİ STROF

Zevsdən gələn xəbərlər, siz nə qədər xoşsunuz! Qızıllı Pifondan şanlı Febə nələr gətirirsiniz? Qəlbim dəhşətlər içərisində çırpınır. Ey Delfi allahı, ey şəfabəxş olan Pean! Səni dinlərkən nə edəcəyimi bilmirəm. Sən bizdən yeni bir ibadətmi istəyirsən, yaxud unudulmuş qədim adətlərin əhyasını tələb edirsən? Ey parlaq ümidin əbədi yavrusu, ey parlaq şöhrət mücəssəməsi, bizi agah et!

BİRİNCİ ANTİSTROF

Ey Zevsin qızı müqəddəs Afina, ən əvvəl səni çağırıram. Dairəvi meydanda, şanlı taxtda əyləşən bacın Artemidanı və oxu ilə hamını vurmaq qüdrətinə malik Febi səsləyirəm, hər üçünüz xilaskarım olun. Keçmişdə şəhərimizin üstünü bürüyən alovlu buludlardan bizə nicat verdiyiniz kimi indi də bizi bəlalardan qurtarın.

İKİNCİ STROF

Heyhat! Dözülməz əzablara tab gətiririk. Xalq həlakedici xəstəliklərə düçar olmuşdur. Düşüncələrimin silahı kütləşmişdir, ölüm qarşısında acizdir. Şərəfli münbit torpaq məhsulunu bizdən əsirgəyir. Hamilə qadınlar doğum əzabı içərisində qıvrılırlarsa da, doğa bilmirlər. Bizə nəzər sal: adamların ruhu bir-birinin ardınca, iti qanadlı quşlar kimi, ildırımdan daha artıq bir sürət ilə, gecə allahının hakim olduğu dumanlı sahillərə uçub gedir.

İKİNCİ ANTİSTROF

Şəhərdə qurbanların sayı-hesabı yoxdur. Meyitlər hər yerdə tökülüb qalmışdır, onlar üçün göz yaşları axıdan tapılmır. Onlar yeni azarlar yayırlar. Arvadlar, ağbirçək analar nicat sahilinə can atanlar kimi mehrablara pənah gətirmişlər. Ah-nalələrin səsi hər tərəfi bürümüşdür, dəhşətli bəlalardan xilas olmaq üçün yalvarırlar. Pean bütün varlığı ilə özünü hiss etdirir. Lakin onunla yanaşı hıçqırıq və fəryad səsləri ətrafı bürümüşdür. Ey Zevsin gözəl qızı[4], öz parlaq üzünü göstər, dadımıza çat.

ÜÇÜNCÜ STROF

Yalvarıram, fəryadları eşit, şəhəri yaxıb-qovuran, bizi qırıb-tökən mis qalxansız Aresi məmləkətimizdən rədd et. Amfitiritin nəhəng dərinliklərinə, yaxud coşqun Frakiyanın uzaq sahillərinə at. Bəllidir ki, gecədən qalan hər bir şey bir qənimət olaraq gündüzə çatır. Ey ulu Zevs, yaxıcı ildırımlar sənin ixtiyarındadır. Onu – Aresi öz qəzəbinlə məhv et.

ÜÇÜNCÜ ANTİSTROF

Böyük Liki hökmdarı. Yalvarıram, parlaq kamanından düşmənin üstünə qasırğa kimi amansız oxlarını yağdır. Sən isə, Artemida, Liki dağlarından alovlu məşəllər gətir, düşməni yandırıb məhv et. Adı, məmləkətin adı olan, xeyirxah nəğmələr tərənnümçüsü, qırmızı yanaqlı Bakx, sənə də müraciət edirəm, başında zərli papaq, xorun səsini yüksəlt. Yaxıcı və gözqamaşdırıcı qətranınla meydana çıx, ruhların nifrət etdiyi ruhu yandırıb məhv et.

BİRİNCİ EPİSODİ

Birinci səhnə

E d i p (*Korifeyə*). Xahişin nədir? Əgər dediklərimə əməl etsən, xahişin əncam tapacaqdır. Sən bununla allahın da hökmünü yerinə yetirmiş olarsan, məmləkət nicat tapar, bəladan qurtarar. Mənfur cinayətdən xəbərsiz olduğum kimi, bu barədəki söhbətlərə də biganəyəm. Siz mənə yardım etsəydiniz, mən bir o qədər də axtarıb araşdırmadan işin izini tapardım. İndi isə mən – vətəndaşlıq borcumu gec ifaya başlasam da, siz kadmlılara elan edirəm: kim Layın qatilindən xəbərdardırsa, açıb mənə söyləsin. Bu, mənim əmrimdir. Bunu bizə xəbər verənlər onun özündən şübhəyə düşəcəyimizdən qorxmasınlar, bundan ona heç bir zərər toxunmayacaq, sağ-salamat çıxıb gedəcəkdir. Kim qatilin başqa ölkədən, yad bir adam olduğunu da bilirsə açıb deməlidir, qatili edam edərəm, o isə məndən lütf və mərhəmət görər. Bir əmrimi də dinləyin: əgər özünüzdən və ya dostunuzdan qorxaraq hökmümü yerinə yetirməsəniz, sizinlə, itaətdən boyun qaçıranlar kimi rəftar edəcəyəm.

Qəti əmrimə qulaq asın, qatil hər kəsdirsə, mənim hakim olduğum torpaqda ona yer verilməməlidir. Qoy kimsə onunla danışmasın, o, ibadətgaha, məzbəhəyə yaxın buraxılmasın, müqəddəs sudan məhrum edilsin. Onu hamınız evlərinizdən qovun, çünki o bizim üçün murdar bir məxluq sayılır. Febin, allahın tərəfindən indicə mənə yetirilən hökm belədir.

Mən bu andan etibarən ulu Febin buyruğunu icraya və mərhum hökmdarın müdafiəsinə başlayıram. Naməlum caniyə, istər o tək gizlənmiş olsun, istərsə başqalarıyla birlikdə – lənətlər yağdırıram: qoy acı və zavallı bir həyat o məlunun nəsibi olsun. Əgər mən özüm bilə-bilə

o caninin evimdə yaşayıb ocağımın başında əyləşməsinə yol versəm, həmin lənətlər qoy mənə də gəlsin. Siz mənim xatirimə, allahın xatirinə. Və allahın qəzəbinə gəlib qısır qalan doğma torpaqlarımızın xatirinə əmrimi yerinə yetirməlisiniz.

Bu, allahın hökmüdür, lakin bu, allahın hökmü olmasa belə, şərəfli və qəhrəman hökmdarımızın intiqamını almamaq sizin üçün böyük günahdır. Onu axtarmaq borcumuzdur. İndi mən onun varisi olmuşam, taxtın sahibi, məlikənin əriyəm. Allah Laya vaxtında övlad kəramət etmiş olsaydı, uşaqlarımızı da bir yerdə tərbiyə etməli olacaqdıq. O, övladdan məhrum olduğundan mən indi doğma atam kimi onun müdafiəsinə qalxıram. Mən Aqenorun kötücəsi, Kadmın nəticəsi, Polidorun nəvəsi Labdağın oğlu Layın qatilini ələ keçirmək üçün var qüvvəmi sərf edəcəyəm. Üzümü allaha tuturam: əmrimi icra etməyənin əkdiyi torpaq məhsul verməsin, arvadı qısır qalsın, bədəni indiki bəlaya və ya daha da dəhşətli bəlalara düçar olub çürüsün.

Siz isə, ey Kadm övladı, əmrimi yerinə yetirin, qoy həqiqət və bütün başqa allahlar da daima köməkçiniz olsun!

B i r i n c i a ğ s a q q a l. Hökmdar, sən öz lənətlərinlə məni danışmağa məcbur etdin, açığını deyim: Layı mən öldürməmişəm və öldüreni də göstərməkdə acizəm. Axtarmağa gəlincə qoy Feb özü qatili bizə nişan versin.

E d i p. Doğru deyirsən. Ancaq heç kəs allahları özlərinin istəmədikləri bir şeyi icraya məcbur edə bilməz.

İ k i n c i a ğ s a q q a l. Mən isə ağlıma gələn ikinci bir fikri söyləmək istəyirəm.

E d i p. Lap istəyirsən üçüncüsünü söylə, ancaq açıq danış.

İ k i n c i a ğ s a q q a l. Mən bilmirəm Tirezi[5] qeybdən xəbər verməkdə Febdən əskik deyil. Ey hökmdar! Sən ondan işin həqiqətini öyrənə bilərsən.

E d i p. Mən bilatəxir, bu işə əncam vermişəm. Kreontun məsləhətilə onun dalınca iki qasid göndərmişəm. İndiyə qədər gəlib çıxmaması təəccüblüdür.

Ü ç ü n c ü a ğ s a q q a l. Daha qədim və dumanlı bir rəvayət də var...

E d i p. O hansı rəvayətdir? Mən hər şeyi bilməliyəm.

Ü ç ü n c ü a ğ s a q q a l. Deyirlər ki, guya onu yoldan keçənlər öldürüblər.

E d i p. Bunu mən də eşitmişəm. Lakin bunu görən adamı tanımıram.

Ü ç ü n c ü a ğ s a q q a l. Əgər o qorxaq bir adamdırsa, sənin yağdırdığın lənətlər qarşısında davam gətirə bilməz.

E d i p. İşdə qorxmayanlar sözdən qorxmazlar.

B i r i n c i a ğ s a q q a l. Budur, qatili aşkara çıxara bilən adam gəlir. Allahın sirlərinə vaqif olan bir şəxsiyyətdir, insanların içərisində həqiqəti bilmək yalnız ona müyəssərdir.

Tirezi onu gəzdirən uşaqla daxil olur.

E d i p. Ey, hər kəsdən iti görən, nəzərləri yer üzünün və göy aləminin hər bir açıq, gizlin işlərinə nüfuz edən Tirezi! Özün görməsən də paytaxtımıza müsəllət olan bəladan xəbərdarsan. Ancaq sən bizi xilas edə bilərsən. Ulu Feb bizim sualımıza belə bir cavab göndərmişdir: biz ancaq Layın qatillərini taparaq onları öldürdükdən və yaxud öz torpağımızdan qovduqdan sonra bəladan qurtula bilərik. İndi sən gələcəkdən xəbər verən quşlardan soruşmaq və ya fal açmaqla bu işin çarəsini göstər, özünü və şəhəri xilas et, məni qurtar! Meyitlərin törətdiyi murdarlığı təmizlə. Bizim nicatımız sənin əlindədir. Başqalarına əlindən gəldiyi qədər yardım etmək – gözəl və xeyirli bir işdir.

T i r e z i. Ey bilik! Biliyindən bir fayda olmadığını bilmək çox dəhşətlidir. Bu, mənə çox yaxşı məlumdur, ancaq görünür ki, unutmuşam, yoxsa buraya gəlməzdim.

E d i p. Nə olmuşdur? Nə üçün bu qədər məyussan?

T i r e z i. Əmr et məni buradan geriyə aparsınlar. Sən öz işinlə məşğul ol, mən də öz işimlə. Bu daha yaxşı olar. Qanuna müvafiq danışmırsan.

E d i p. Bildiyini gizlədirsənsə, demək, öz doğma şəhərini sevmirsən.

T i r e z i. Yox, deyəcəyim sözlər sənin xeyrinə deyil. Mənim də başıma əngəl açа bilər...

X o r (*diz çökür*). Allah xatirinə, bildiklərini müzayiqə etmə. Qarşında diz çökərək yalvarırıq.

T i r e z i. Ağılsızlar! (*Edipə*) Söyləməyə məcbur etdiyin sözlər sənin fəlakətinə səbəb olur. Mən bunları heç vaxt söyləmərəm.

E d i p. Bu nə deməkdir? Bilirsən, söyləmirsən? Sən bizə xəyanət etmək və şəhəri dağıtmaq niyyətindəsən.

T i r e z i. Nə özümü, nə də səni incitmək istəmirəm. Nə üçün məcbur edirsən. Bir kəlmə də deməyəcəyəm.

E d i p. Yox, sən pislərin pisisən, sənin hərəkətin daşı da belə qəzəbləndirə bilər. Sən bildiyini nəhayət deyəcəksənmi? Yaxud həmişə inadlı və daşqəlbli olaraq qalmaq istəyirsən?

T i r e z i. Sən mənə burada əxlaq dərsi verirsən, halbuki öz eyibinə korsan.

E d i p. Sənin sözlərinə kimin qəzəbi tutmaz? Şəhərimizi bu cür vicdansızcasına biabır etdiyinə kim dözə bilər?

T i r e z i. Mən sussam da, sirr açılacaqdır.

E d i p. Elə isə, sən özün açıb mənə söylə.

T i r e z i. Mən bundan artıq heç bir şey söyləməyəcəm. Ən şiddətli bir qəzəblə coşsan belə, məndən bir kəlmə də qopara bilməyəcəksən.

E d i p. Bəli, mən şiddətli qəzəblə coşmuşam və buna da səbəb gördüklərimdir. Qulaq as deyim: mənə elə gəlir ki, sən özün qətldə iştirak etməsən də, bu işdə barmağın var. Əgər kor olmasaydın, deyərdim ki, o qətl tamamilə sənin öz əlinin işidir.

T i r e z i. Doğrudanmı? Mən isə deyirəm: fitvan özünə aiddir. Bundan sonra nə mənə və nə də bunlara müraciət etmə, çünki doğma torpağı murdarlayan sən özünsən.

E d i p. Sən bu cür murdar sözləri dilinə gətirdiyin halda, cəzadan qorxmursanmı?

T i r e z i. Mən cəzadan qorxmuram, həqiqət mənimlədir.

E d i p. Səni kim öyrətmişdir? Bu, sənin öz məharətin deyil.

T i r e z i. Məni sən öyrətdin. Özün məni cəsarət göstərməyə məcbur etdin.

E d i p. Nə dedin? Bir daha təkrar et, yaxşı başa düşüm.

T i r e z i. Hələ də anlamamısan? Yoxsa lap dərindən öyrənmək istəyirsən?

E d i p. O qədər də aydın başa düşməmişəm, bir də söylə.

T i r e z i. Deyirəm eşit, həmin məchul qatil sənsən.

E d i p. Özün üçün bundan daha zərərli bir söz tapıb deyə bilməzdin.

T i r e z i. Yenədəmi danışmağımı istəyirsən? Qəzəbin daha da artar.

E d i p. Nə qədər istəyirsənsə danış, dediklərin boş və mənasız sözlərdir.

T i r e z i. Qulaq as, sən özün də bilmədən ən doğma bir adamla iyrənc əlaqədəsən, öz fəlakətindən xəbərin yoxdur.

E d i p. Bu cür sözlər üçün cəzasız qalacağınımı güman edirsən?

T i r e z i. Bəli, həqiqətdə əgər azacıq da olsa güc varsa, mən cəza görməyəcəyəm.

E d i p. Sən həqiqətə biganə olduğun üçün onun gücünə də güvənmə. Çünki sən gözdən, qulaqdan və ağıldan məhrumsan.

T i r e z i. Bədbəxt zavallı! Mənə dediyin sözləri çox çəkməz ki, sən özün də hər kəsdən eşidərsən.

E d i p. Sən məşum gecənin yavrususan. Gündüzün işığını görənlərə sən zərər yetirə bilməzsən. Mən də o sırada.

T i r e z i. Düzdür, tale sənin əcəlini mənim əlimlə yazmamışdır. Lakin Apollonun hökmü yerinə yetişəcəkdir.

E d i p. Bu uydurma fikirlər Kreontunmu başından çıxmışdır, ya sənin?

T i r e z i. Kreontla işin yoxdur, sən özün özünə düşmənsən.

E d i p. Ah, pul və hökmranlıq! Siz hər sənətkarlıqdan yüksək, coşqun bir ehtirasa, bir qüvvətə maliksiniz. Siz dünyada nə qədər həsəd doğurursunuz? Mən heç vaxt hökmranlığa can atmamışam. Bu hakimiyyət mənə bir hədiyyə olaraq çatmışdır. Məgər bunlar məlum deyil? Halbuki köhnə və sadiq dostum Kreont hakimiyyəti ələ keçirmək və məni qovmaq üçün gizlicə tor qurmaq fikrinə düşmüşdür. Onun sehrkarlığı, yalançı bir səfili mənim yanıma göndərmişdir, bu səfil yalnız hiylə və məkrdə gözlüdür, öz sənətində isə kordur. Deyin, o, indiyə qədər hansı bir məsələni düzgün yozmuşdur?

Söylə, hər şeyə vaqif olan o, qanadlı Sfinks gələndə sən əhalinin xilası üçün bir məsləhət gördünmü? Halbuki hər təsadüf edilən kəsin ağlı o müəmmanı kəşf edə bilməzdi və sehrkarlıq məharətini göstərmək üçün o zaman sənin əlində böyük imkan vardı, sən isə nə uçan quşlardan bir xəbər gətirdin, nə də allahdan bir şey öyrənib dedin. Mən qeybdən xəbər vermək iqtidarına malik olmadığım halda, gələrək məmləkəti xilas etdim. Bu işi həm də quşların uçuşundan mənə çıxarmağa çalışmadan öz ağlımla etdim. İndi sən Kreontun taxt-tacına yaxın olmaq arzusu ilə məni ölkədən qovmaq istəyirsən. Ancaq əmin olun, sən də, sənin müəllimin də, şəhəri bu yol ilə paklığa çıxarmaq niyyətiniz başınıza bəla açacaqdır. Əgər sən qoca olmasaydın, mən ağır cəza ilə səni ağıllandırardım.

B i r i n c i a ğ s a q q a l. Hökmdar! Sözün düzü budur ki, onun xəbərləri də qəzəblə doludur, sənin cavabın da. Biz bunları bir kənara atmalı, allahın hökmünü necə icra etməyi düşünməliyik.

T i r e z i. Sən hökmdar olsan da, dediyin sözlərə mənim qədər cavabdehsən. Mənim ixtiyarım özümdədir, mən sənin deyil, Loksinin

quluyam. Kreontun müdafiəsinə ehtiyacım yoxdur. Sən mənim korluğuma həqarətlə baxırsan. Qulaq as, mən də sözlərimi deyim: sən gözlü olsan da öz bədbəxtliyini görmürsən, harada olduğundan, kimə ərlik etdiyindən xəbərsizsən. Sən öz ata-ananın kimlər olduğunu bilirsənmi? Sən onların qəddar düşmənisən, bundan heç özünün xəbərin yoxdur. Bil, sən yerin üstündə də, yerin altında da onların düşmənisən. Bir gün dəhşətli yürüşlə gələn lənət allahı həm atanın, həm ananın hayıfını səndən çıxacaq, ikiqat qəzəblə səni qovacaqdır. İndi gördüyün işığa həsrət qalacaqsan, nəsibin əbədi qaranlıq olacaqdır. Heç bir sahil səni nalələrdən xilas etməyəcək, fəryadlarına Kiferondan[6] cavab eşitməyəcəksən. Sən o zaman həmin nikahın necə bir qəbahət olduğunu anlar və bu evə bir nicat limanına üzən kimi üzmədiyini bilərsən. Getdikcə daha çoxlu bədbəxtliklərə düçar olarsan, ananla bir yataqda yatdığın, övladına qardaş olduğun sənə məlum olar. Ondan sonra istəyirsən Kreontun və mənim sözlərimi çamurlarda tapdala. Ancaq bunu bil, bütün dünyadakı məxluqat içərisində səndən artıq fəlakətə düçar olan tapılmayacaqdır.

E d i p (*birinci ağsaqqala*). Biz bunun dözülməz sözlərini hələ çoxmu eşidəcəyik? (*Tireziyə*) Rədd ol! İtil cəhənnəmə! Tez! Bəs nə üçün durursan? Bu dəqiqə evimi tərk elə, haradan gəlmisənsə, oraya da qayıt.

T i r e z i. Mən buraya sənin dəvətinlə gəlmişdim.

E d i p. Belə axmaq sözlər danışacağını bilmirdim. Yoxsa səni qətiyyən buraya çağırmazdım.

T i r e z i. Sən bizi axmaq sayırsan, halbuki ata-ananın yanında biz ən ağıllı kimsələrdən hesab olunurduq.

E d i p. Kimlərin yanında? Dayan! Məni kim doğmuşdur?

T i r e z i. Doğulduğun gündən sənin məhvinə də hökm çıxarılmışdır.

E d i p. Yenə də müəmmalı və anlaşılmaz sözlər danışırsan.

T i r e z i. Sən ki, hər cür müəmmanın kəşfində usta idin.

E d i p. Hər halda mənim böyüklüyümü etiraf edirsən, deyilmi?

T i r e z i. Bəli, ancaq bil ki, qazandığın müvəffəqiyyətlər sənin məhvinə səbəb olacaqdır.

E d i p. Şəhəri bəladan xilas etmişəm, bu, mənim üçün kifayətdir.

T i r e z i. Mən gedirəm. (*Uşağa*) Məni ötür.

E d i p. Qoy ötürsün, sənin burada olmağın məni darıxdırır, getsən dərdim azalar.

T i r e z i. Qoy nə üçün gəldiyimi söyləyim. Mən səndən qorxmuram. Məni məhv etməyə sənin gücün çatmaz. Eşit, bil: sən hədələrlə Layın qatilini axtarırsan həmin qatil, bax, buradadır. Onu gəlmə sayırlar, ancaq onun fivalı olduğu anlaşılacaq, lakin öz vətəninə qovulması onun üçün bir sevinc olmayacaq. O, gözlü ikən kor, varlı ikən dilənçi olacaq, əsasına təkiyə edə-edə qürbət vilayətlərə yola düşəcəkdir. Onun öz uşaqlarının həm atası, həm qardaşı, onu doğan ananın isə həm oğlu, həm əri olduğu, anası ilə bir yatağa girdiyi və öz atasını qətlə yetirdiyi aydınlaşacaqdır. İndi evə gedib dediklərimi yaxşı-yaxşı düşün, sözlərimdə yalan tapsan, qeybdən xəbər vermək iqtidarıma şübhə edə bilərsən.

Uşağın müşayiətilə gedir.

BİRİNCİ STASİM

BİRİNCİ STROF

X o r. Allahın işlərindən xəbərdar olan Delfi qayasından o adamın bizə göstərdiyi cani kim ola? Qanlı əlləri ilə eşidilməmiş o dəhşətli günahı yapan kimdir? Qoy o, yel qanadlı atların sürətilə gedib bizdən uzaqlaşsın. Qüdrətli Zevsin qəzəbli oğlu[7] alovlu ildırımlarla onu təqib edir. Onun arxasınca da dəhşətli və amansız Hera çapır.

BİRİNCİ ANTİSTROF

Zirvəsi qarlı Parnasdan[8] bir az bundan əvvəl belə bir səda eşidilmişdir: hamı o naməlum adamı axtarmaqdadır. O, bədbəxt mağaralarda, keçilməz meşələrdə, dağlarda, vəhşi bir öküz kimi təktənha dolaşır. Yerin mərkəzindən gələn hökmdən qaçınmağa cəhd edir. Bu hökmlər isə bir an ayrılmadan onun başının üstündə hərlənirlər.

İKİNCİ STROF

Ağıllı peyğəmbər qəlbimdə dəhşətli, bəli, çox dəhşətli fikirlər oyatdı. İnanmağa da, rədd etməyə də gücüm çatmır. Nə qərar qəbul etməliyəm? Bilmirəm.

Nə keçmişə, nə gələcəyə ümid bağlamıram. Bütün ömrüm boyu Polib[9] nəsili ilə Labdak nəslinin düşmənlik etdiyini görməmişəm, indi də belə bir şey qətiyyən nəzərə çarpmır. Əlimizdə elə bir dəlil və

sübut yoxdur ki, biz xalqın məhəbbətini qazanmış Edipə qarşı çıxaq, kimin tərəfindən öldürüldüyü məlum olmayan Labdakın qanını ondan tələb edək.

İKİNCİ ANTİSTROF

Həqiqət halda: Zevs və Apollon hər şeyə vaqifdirlər, bəndələrin işindən xəbərdardırlar. İnsanların əqidəsi sanki sehrkarlığı da ötüb keçmiş, ağıla qeyri-müvafiq bir şəkil almışdır. İnsan yalnız öz ağlı ilə başqasına üstün gələ bilər. Yox, lazımi sübutlar yox ikən mən onun sözlərinə inanıb Edipə qarşı çıxa bilmərəm. Biz hamımız Edipin qanadlı bir qız qarşısında öz kəmalını necə sübuta yetirdiyinin şahidi olmuşuq. Hamı onun ağıllı və kamil olduğuna inanmışdır. Buna görə də mən birdən-birə onu pis bir işdə müqəssir saya bilmərəm.

BİRİNCİ EPİSODİ

Birinci səhnə

K r e o n t (*xora*). Həmvətənlər! Edip öz nitqlərində məni dəhşətli cinayətlərdə təqsirləndirmişdir. Mənə bunu söylədilər, dözə bilməyib gəldim. Biz onsuz da bədbəxtik, əgər hökmdar bu fikirdədirsə ki, mən öz sözlərim və ya əməlimlə ona zərər yetirirəm, artıq bu dünyada yaşamaq mənə haramdır. Bu, mənim üçün də yüngül deyil, böyük bir ləkə, çox ağır bir töhmətdir. Mən şəhərdə və siz dostların yanında cani hesab olunuramsa buna təhəmmül etmək olmaz.

B i r i n c i a ğ s a q q a l. Düzdür, lakin bu sözlər ancaq sağlam bir düşüncədən deyil, qəzəbdən doğmuşdur.

K r e o n t. Yox, o söyləmişdir ki, guya falçını mən öyrətmişəm, o da gəlib yalandan bu sözləri demişdir.

B i r i n c i a ğ s a q q a l. Doğrudur, belə dedi, ancaq bu sözləri nə məqsədlə söylədiyini bilmədik.

K r e o n t. O, vicdan əzabı çəkmədən mənim üzərimə belə bir böhtan atmağa cəsarət etmişdir.

B i r i n c i a ğ s a q q a l. Bilmirəm. Hökmdarların işindən başım çıxmaz. Budur, bax, özü də evdən çıxıb gəlir.

Edip gəlir.

İkinci səhnə

E d i p. Sənsənmi! Necə cəsarət edib buraya gəlmişsən? Yoxsa sənin üzündə həya-abır qalmamışdır? Çəkinmədən mənim evimə soxulmusan? Məni qətlə yetirmək və hökmdarlığı ələ keçirmək niyyətində olduğun artıq məlumdur. Allah xatirinə, söylə, sən bu fikrə düşərkən məni axmaqmı və qorxaqmı saydın? Yaxud güman etdin ki, mən bundan xəbər tutmayacağam. Əməllərin o qədər məkrli olacaqdır ki, onları kəşf etməyə mənim ağlım çatmayacaq və mən onlara təhəmmül edəcəyəm? Köməksiz və pulsuz hökmranlıq eşqinə düşmək axmaqlıq deyilmi? Məgər sən bilmirsən ki, bunun üçün çoxlu tərəfdar və pul lazımdır?

K r e o n t. Sən gəl mənə qulaq as: sən öz sözlərini dedin, qoy mən də öz sözlərimi deyim, dinlə, sonra qərar ver.

E d i p. Sən danışmaqda mahirsən, lakin mən səni dinləmək istəmirəm, çünki sən mənim qəddar düşmənimsən.

K r e o n t. Elə bu barədə danışmaq istəyirəm, qulaq as.

E d i p. Danış, lakin mənə təmiz adam olmadığından dəm vurma.

K r e o n t. Öz dediyində düşünmədən inad etməyi ağıllı bir əməl sayırsan, bil ki, yanılırsan.

E d i p. Sən də yaxın adamına pislik etdiyin halda cəzasız qalacağını güman edirsənsə bil ki, yanılırsan.

K r e o n t. Bu sözlərində haqlısan, etiraf edirəm. Ancaq söylə görək sənə nə zərərim toxunub.

E d i p. Həmin möhtərəm sehrkarın dalınca adam göndərməyi mənə məsləhət görən məgər sən deyildin?

K r e o n t. Bu məsləhəti mən indi də görərəm.

E d i p. Lakin başına həmin hadisə gələndən...

K r e o n t. Hansı hadisə? Səni anlamıram.

E d i p. O hadisə ki, öldürücü zərbə yeyərək sorğu-soraqsız itmişdir, o zamandan çox vaxt keçmişdir.

K r e o n t. Hesabla, bəli o zamandan çox illər keçmişdir.

E d i p. Sənin bu falçın o zaman fəaliyyətdə idimi?

K r e o n t. Bəli, o zaman da indiki kimi bilik və hörmət sahibi idi.

E d i p. Həmin illərdə o mənim adımı çəkmişdimi?

K r e o n t. Mənim yanımda qətiyyən yox.

E d i p. Onun ölümü haqqında siz o zaman istintaq aparmışdınızmı?

K r e o n t. Əlbəttə, aparmışdıq. Ancaq heç bir nəticə əldə edə bilməmişdik.

E d i p. Bəs o ağıllı zat nə üçün bu məsələni o zaman açıb söyləməmişdi?

K r e o n t. Bilmirəm. Bilmədiyim şeyi isə danışmaram.

E d i p. Yaxşı, bildiyini necə, dostcasına mənə deyərsənmi?

K r e o n t. Nəyi? Bildiyim bir şey varsa, qətiyyən inkar etmərəm.

E d i p. Düzünü söylə, əgər siz ikiniz sözü bir etməsəydiniz, o, heç cəsarət edib məni Layın qatili adlandırardımı?

K r e o n t. Onun nələr dediyini sən daha yaxşı bilirsən. İndi mən də səndən bir şey soruşmağa özümü haqlı bilirəm.

E d i p. Soruş. Ancaq mənim qatil olduğumu sübut edə bilməyəcəksən.

K r e o n t. Dinlə, sən mənim bacımın ərisən, deyilmi?

E d i p. Bəli, bunu inkar etmək olmaz.

K r e o n t. Hökmranlığa o da səninlə şərikdir, deyilmi?

E d i p. Bəli, hər arzusu yerinə yetirilir.

K r e o n t. Məgər mən də sizinlə əlbir deyiləm?

E d i p. Əlbir idin, fəqət xəyanət etdin.

K r e o n t. Qətiyyən. Yaxşı-yaxşı düşün, mənim kimi dərindən fikirləş. Rahatca şirin yuxu yatan və hökmdar qədər ağalıq edən bir adam, heç hökmdar olmağı arzu edərmi? Qorxu və həyəcanı əskik olmayan hökmdarlıq həyatı məni heç vaxt cəlb etməmişdir. Mən həmişə hökmdarın məiyyəti olmağı hökmdar olmaqdan üstün tutmuşam.

Hər bir əqli-səlim sahibi belə düşünər. İndi sən nə əta etsən mən qorxmadan qəbul edə bilərəm. Halbuki hökmdar olsam, çox vaxt öz arzularımı yerinə yetirməkdən çəkinəcəyəm. Özün söylə, heç bir qayğı çəkmədən mən bir hökmran güc və qüdrətində olduğum halda, nə üçün dərdi-səri çox olan hökmdarlığı arzulamalıyam? Mən hələ ağlımı o dərəcədə itirməmişəm ki, başqalarının xeyrini düşünürkən öz zərərimə çalışam.

İndi mənə hər yerdə salam verir, hörmətimi saxlayırlar. Səndən bir təmənnası olanlar mənə müraciət edirlər. Onların xahişini yerinə yetirmək isə mənim əlimdədir. Mən nə üçün bu mövqeyi əlimdən buraxıb o birini tutmalıyam? Əqli-səlim sahiblərinin düşüncələri heç bir zaman onlara xəyanət etməz. Mən heç vaxt xəyanətə mail olmamışam və başqasının xəyanətinə də qətiyyən şərik olmaram.

Məni yoxlamaq istəyirsənsə, özün Pifona gedib qeybdən eşitdiyim xəbərləri sənə düzgün yetirib-yetirmədiyimi öyrən. Əgər mənim həmin falçı ilə xəyanət əqdi bağladığımı aşkara çıxarsan, mənim üçün sənin edam hökmün azdır.

Mən özüm buna ikiqat hökm imzalaram. Sübutsuz bir şübhə ilə məni təqsirləndirmə. Xainləri yaxşı adam adlandırmaq ədalətsizlik olduğu kimi, yaxşı adamları əbəs yerə xain adlandırmaq da ədalətsizlikdir. Sədaqətli dostu qeyb etmək öz həyatının bəzəyi olan əziz bir şeyi itirmək kimi ağırdır. Zaman keçdikcə sən bu həqiqətə inanarsan. Vaxt özü kimin namuslu və kimin namussuz olduğunu göstərər. Bir gün sən özün pis adamı tanıyırsan.

B i r i n c i a ğ s a q q a l. O, çox ağıllı sözlər dedi. Dərrakəli adamlar bu sözlərdən xeyirli nəticələr çıxararlar. Hökmdar, onu bil ki, tələsik verilən hökm doğruluqdan uzaqdır.

E d i p. Bədbəxt xain sürətlə hərəkət edib gizli torlar qurursa, mən də qərar qəbulunda tələsməliyəm. Yavaş tərpənsəm, fürsəti fövt edərəm, düşmənin əlində məhv olaram.

K r e o n t. Demək, güzəştə getmirsən və mənə inanmırsan, eləmi?

E d i p. Yox, sən paxıllığın cəzasını çəkməlisən.

K r e o n t. Tələbin nədir? Məni ölkədən sürgün etməkmi istəyirsən?

E d i p. Heç də yox, səni sürgün etmək deyil, öldürmək istəyirəm.

K r e o n t. Zevs, eşidirsənmi?

E d i p. Əbəs yerə qışqırma.

K r e o n t. Sən inadlı və dəlisən.

E d i p. Öz işlərim haqqında heç də yox.

K r e o n t. Mənim haqqımda da elə olma.

E d i p. Sən xainsən.

K r e o n t. Bəlkə yanılırsan.

E d i p. Mənə itaət et.

K r e o n t. Yox, pis hökmdara itaət etmək yaramaz.

E d i p. Ah, ölkəm, ölkəm!

K r e o n t. Ölkədə sən tək deyilsən, mən də varam.

B i r i n c i a ğ s a q q a l. Hökmdarlar, dayanın, kifayətdir, İokasta lap vaxtında saraydan çıxıb buraya gəlir. Onun hüzurunda dalaşmaya son verib barışın.

Üçüncü səhnə

KOMMOS

İ o k a s t a (*daxil olur*). Bədbəxtlər! Bu axmaq deyişmə və dalaşmaya səbəb nədir? Xalq iztirablar içərisində məhv olur, siz isə birbirinizə şəxsi ədavət bəsləyirsiniz, barı xalqdan utanın. (*Edipə*) Evə getsən daha yaxşı olar. Kreont, sən də evə get. Boş yerə araya ədavət salmaq mənasızdır.

K r e o n t. Bacım! Edip, sənin ərin məni dəhşətli bir şeylə təhdid edir. O mənim üçün iki ağır hökm çıxarmışdır: məni ya sürgün etmək istəyir, yaxud edam.

E d i p. Bəli, zövcəm, doğrudur. Ancaq onun mənə qarşı sui-qəsd hazırladığını aşkara çıxarmışam.

K r e o n t. Əgər mən müttəhim etdiyin əməldə müqəssirəmsə, qoy bir də səadət üzümə gülməsin, nəsibim lənət olsun, yurdumdan itkin düşüm.

İ o k a s t a. Edip, əbədi allahların xatirinə sən ona inan, onun içdiyi andı etibarlı tut, məni və qarşında duran bu qocaları məyus etmə.

Xor ağsaqqalı. Hökmdar, yalvarıram, yaxşı-yaxşı düşün, bizə nəzər sal, qəzəbi bir tərəfə burax.

E d i p. Yoxsa sən mənim güzəştə getməyimi istəyirsən?

Xor ağsaqqalı. O, həmişə ağıllı olmuşdur, səadət üçün içdiyi andı eşit, onu əfv et.

E d i p. Sən məndən nə rica etdiyini bilirsənmi?

Xor ağsaqqalı. Bilirəm.

E d i p. Elə isə danış.

Xor ağsaqqalı. Sənin qardaşın günahsızdır. Sən heç vaxt dostlarını şübhəli bir söz üstə əbəs yerə təqsirləndirməzsən.

E d i p. Bilməlisən ki, belə bir şey rica etməklə, sən mənim üçün qətl və sürgün arzulamış olursan.

Xor ağsaqqalı. Ey ölməz allahların allahı, ulu Qeli! Sən mənim sözlərimə şahid əgər mən sənin üçün ölüm arzulayıramsa, qoy özüm allahsız, dostsuz, üzsüz, hörmətsiz ölüb məhv olum. Yox, ölkənin bu cür ağlar vəziyyəti mənim ürəyimi parçalayır. Köhnə bəlalar kifayət deyilmiş kimi indi də yeni bəlalar fövc-fövc onun üzərinə gəlir.

ANTİEPİRREMA

E d i p (*İokastaya*). Yaxşı, qoy getsin, axırda özüm öldürülməli olsam və yaxud hörmətsizcəsinə sürgün edilsəm də onu buraxıram. O, xain adamın sözləri deyil, sənin yalvarışların məni yumşaltdı.

K r e o n t. Sən çox kinli hərəkət etdin. Qəzəbin soyuyandan sonra, əlbəttə, peşman olacaqsan. Xasiyyətin öz başına bəladır və nə çəksən yerindədir.

E d i p. Bəsdir. Çıxıb gedəcəksənmi?

K r e o n t. Gedirəm. Sənin yanında etibarımı itirmiş olsam da, bunların yanında yenə də möhtərəm sayılıram.

X o r ağsaqqalı. Zövcə, nə üçün dayanıb baxırsan, onu evə apar.

İ o k a s t a. Mən dalaşmanın necə başladığını bilmək istəyirəm.

X o r ağsaqqalı. Birdən şübhə doğdu. Məlumdur ki, şübhə yalan və iftiradan doğsa belə yenə də bizə əzab verir.

İ o k a s t a. İkisidəmi bir-birini təhdid edirdilər.

X o r ağsaqqalı. Bəli.

İ o k a s t a. Axı davaları nə üstə idi?

X o r ağsaqqalı. Məncə, məmləkətimizin bəlalara məruz qaldığı belə bir anda dava harada başlamışsa, orada da bitməlidir.

E d i p. Sənin bu sözlərin necə bir adam olduğunu mənə aydınlatdı. Demək, mənim taleyim səni düşündürmür, mənə canın yanmır?

X o r ağsaqqalı. Ey hökmdar, sədaqətim barədə mən dəfələrlə sənə and içmişəm. Bunu yaxşı bil: mən tərs, axmaq və dəli bir adam olmalıyam ki, səndən üz döndərim. Axı fəlakətə düşmüş vətənimin nicatı sənin əlindədir. Sən indi bizim üçün xalqı doğru yola çıxaran şərəfli bir rəhnümasan.

Dördüncü səhnə

İ o k a s t a. Hökmdar, Allah xatirinə, məni də agah et, bu qədər dəhşətli bir qəzəb nədən doğdu?

E d i p. Zövcəm məni dinlə, sən mənim yanımda onlardan daha möhtərəmsən. Kreont həyatıma qəsd etmək fikrində idi.

İ o k a s t a. Söylə, bu iddian üçün əlində tutarlı bir dəlil varmı?

E d i p. O bu fikirdədir ki, Layı mən öldürmüşəm.

İ o k a s t a. Özümü bunu deyir və ya bunu bir başqasından eşitmişdir?

E d i p. O, məkrli falçını mənim yanıma göndərmişdir. Öz boynuna isə heç bir təqsir almır.

İ o k a s t a. Hökmdar, sən bu düşüncələri burax. Məni dinlə və bil: insanların heç biri qeybdən xəbər vermək iqtidarına malik deyil. Bunu istəsən lap bu dəqiqə sənə qısaca sübut edə bilərəm. Çox keçmişdə Febin kahinləri – bilmirəm bəlkə də özü tərəfindən Laya bir xəbər çatdırmışdır ki, guya onun çox məşum bir taleyi vardır. Guya Lay mənim ondan doğduğum oğlunun əlilə qətlə yetiriləcəkdir. Halbuki deyilənlərə görə o, üç yolun birləşdiyi yerdə quldurlar tərəfindən öldürülmüşdür. Uşaq isə üçgünlük ikən atası onun qıçlarının bəndlərindən bağlatdırıb keçilməz bir uçuruma atılmasını əmr etmişdi. Beləliklə, görürsünüz ki, Apollon uşağın öz atasının qatili olması və Layın öz oğlunun əlilə həlak edilməsi haqqındakı hökmünü yerinə yetirməmişdir. Demək, qeybdən xəbər verilən şeylər düz çıxmamışdır. Edip, sən bunlara inanma. Allah lazım bildiyi hər şeyi çox asanlıqla xəbər verir.

E d i p. Zövcəm, səndən indi eşitdiyim sözlər mənim bütün varlığımı sarsıtdı, qəlbimi iztirabla doldurdu.

İ o k a s t a. Söylə, sənə əzab verən nədir?

E d i p. Sən dedin ki, Lay üç yolun birləşdiyi yerdə öldürülmüşdür.

İ o k a s t a. Belə dedilər və indiyə qədər də belə deyirlər.

E d i p. Dəhşətli hadisənin baş verdiyi həmin yer haradadır?

İ o k a s t a. O yerin adı Fokidadır, Delfi və Davliyə gedən yollar orada birləşir.

E d i p. Həmin əhvalat çoxmu zaman bundan əvvəl olmuşdur?

İ o k a s t a. Sən hökmranlığı əlinə almamışdan bir az əvvəl, bu xəbər o zaman məmləkətə yayılmışdır.

E d i p. Ey Zevs! Sən mənim başıma nələr gətirmək niyyətindəsən?

İ o k a s t a. Nə olmuşdur məgər? Mənim Edipim? Söylə, bu sözlər nə üçün sənə bu qədər təsir edir?

E d i p. Yetər, sonra! Söylə, Lay zahirən nə sifətdə idi və neçə yaşı olardı?

İ o k a s t a. Hündür boylu bir adam idi. Qıvırcıq və çallaşmış saçları var idi. Sənə bənzəri çox idi.

E d i p. Yazıq mən, özüm bilmədən dəhşətli lənətlərə hədəf olmuşam.

İ o k a s t a. Sən nələr söyləyirsən, Edip? Sənə baxarkən adamı dəhşət alır.

E d i p. Qorxuram ki, qeybdən xəbər verən həmin kor gözlülərdən daha iti görən olsun. Yox, dayan! Sən mənə daha bir şey söylə.

İ o k a s t a. Cavab verməyə qorxuram. Ancaq bildiklərimin hamısını deyərəm.

E d i p. O, təkmi gedirdi, yaxud, bir hökmdar kimi, yanında çoxlu mühafizləri var idi?

İ o k a s t a. Cəmisi beş nəfər imişlər. Biri carçı imiş. Lay özü tək arabada əyləşmişdi.

E d i p. Heyhat! Hər şey tamamilə aydınlaşdı. Zövcəm, bir şeyi də söylə. Bu xəbəri sizə kim gətirdi?

İ o k a s t a. Kölələrindən biri ölümdən xilas olaraq təkcə qaçıb gəlmişdi.

E d i p. O, indidəmi bizim sarayımızda yaşayır?

İ o k a s t a. Bura gəlib çıxarkən Laydan sonra hökmranlığın sənin əlinə çatdığını görüncə əllərimdən yapışdı, onu paytaxtdan uzaqlara, kəndə, çobanların dolandığı düzəngahlara buraxmamı rica etdi. Əgər o kölə olmasaydı böyük mərhəmətə layiq ola bilərdi.

E d i p. Onu tez buraya gətirmək olmazımı?

İ o k a s t a. Əlbəttə olar. Lakin o sənin nəyinə gərəkdir?

E d i p. Zövcəm, qorxuram ki, onu görmək arzum haqqında çox danışmış olam, əvvəlki söhbətimdə də çox demişəm.

İ o k a s t a. Əmin ol, o gələr. Lakin Edip, sənin nədən əzab çəkdiyini bilməyə mən də özümü layiq sanıram.

E d i p. Layiqsən. Bu cür həyəcanlar içərisində çırpınırkən, əlbəttə, açıb deməliyəm. Belə bir bədbəxtlik üz verdiyi zaman əziz zövcəm, mən dərdimi sənə danışmayıb kimə danışacağam. Eşit, mənim atam korinfiyalı Polib, anam doriyalı Meropadır. Öz məmləkətimdə, mən, bir hadisənin baş verməsinə qədər ən hörmətli adam sayılırdım. O hadisə heyrətə layiq olsa da, mən o zaman ona lazımi əhəmiyyət verməmişdim: ziyafətdə çoxlu içib sərxoş olan bir şəxs söyləmişdi ki, guya mən öz atamın oğlu deyiləm. Hirs başıma vurdu, lakin gecəni birtəhər dözüb səhər açılar, açılmaz həqiqəti öyrənmək üçün atamın və anamın yanına getdim. Onların bu sözə çox acıqları tutdu, sözü deyən şəxsə ağır cəza verdilər. Mən onların qəzəbinə sevindimsə də şübhə vücudumu gəmirirdi: mən şübhəmin getdikcə daha dərinləşdiyini görürdüm. Atamdan və anamdan gizlin mən Pifona getdim, lakin Feb iltifat edib mənə cavab vermədi, bir çox dəhşətli və məşum xəbərlər söyləyib geriyə yola saldı. Dedi ki, mən anamla canicəsinə əlaqədə olacağam, hamının yanında mənfur olan bir nəsil əmələ gətirəcəyəm. Hələ bunlardan başqa, doğma atamı də öz əlimlə qətlə yetirəcəyəm.

Bu sözləri eşidib qərara gəldim ki, bundan sonra Korinf torpağı mənə göydəki ulduzlar qədər uzaq olmalıdır və mən söylənən həmin

dəhşətlərin yerinə yetməsinə imkan verməmək üçün baş alıb evdən qaçdım. Bir qədər getdikdən sonra gəlib hökmdarımızın öldürüldüyünü nağıl etdiyim həmin yerə çıxdım. Zövcəm, sənə bütün həqiqəti açıb söyləyəcəyəm: mən üç yolun ayrıcına gəlib çatarkən tamamilə sənin nağıl etdiyin şəkildə carçı qabaqda, qoca bir kişi isə gözəl atlar qoşulmuş arabada oturmuş halda qarşıma çıxdılar. Arabaçı və qoca özü məni güclə yoldan kənara qovmağa başladılar. Arabaçıya qəzəbim tutdu. Məni itələməsinə qarşı mən də onu vurdum. Qoca isə mənim arabaya yaxınlaşdığımı görərək iti uclu və ikibaşlı qamçı ilə vurub başımı yardı. Mən də cavab verdim, lakin mükafatı bərabər olmadı: mənim dəyənəyimin zərbəsi ilə arabanın otasından dığırlanıb yerə düşdü. Qalanların hamısını vurub öldürdüm.

Əgər məhv olmuş Lay ilə həmin yolçular arasında bir qohumluq varsa, söyləyin, məxluqatın içərisində məndən bədbəxt və Allahın yanında məndən mənfur bir adam varmı? Mən indi o adamlardanam ki, nə həmvətəni, nə də başqa yerli onu öz evinə buraxmamalı, salamını almamalı və evindən qovmalıdır. Mən özümü lənət üçün hədəf etmiş bir kimsəyəm. Qanlı əllərim ölünün yatağına toxunsa, onu murdarlar. Mən allahların düşməni deyiləmmi? Mənə tam bədbəxt demək olmazmı? Qaça bilərdim...

Lakin qaçmaqla sevdiyim adamlara həsrət qalar, vətənimin doğma torpağından uzaq düşərdim. Yoxsa anamla nikah əqd etməli, yaxud atamı – məni dünyaya gətirən və tərbiyə edən Polibi qətlə yetirməliydim. Bu bədbəxtliklərin mənə bir üzvi qüdrət tərəfindən göndərildiyinə şübhə ola bilərmi? Yox! Yox! Ey müqəddəs allahlar! Parlaq nur, mənim bu gözlərimə o günləri gətirməyin! O cür şərəfsiz və ləkəli yaşamaqdansa, bu dünyada heç bir iz buraxmadan ölüb məhv olmaq daha yaxşıdır.

Xor ağsaqqalı. Hökmdar biz də həyəcan içərisindəyik. Lakin hələ şahid ətraflı danışdırılmamışdır. Ümidi itirmək lazım deyil.

Edip. Ümidlə mənim aramda çox az müddət qalmışdır. Çobanın gəlməsini gözləyirəm.

İokasta. Onun gəlməsinin sənə nə xeyri ola bilər?

Edip. Qulaq as! Əgər onun dedikləri sənin dediklərinlə düz gəlsə, mən qurtulmuş oluram.

İokasta. Sən mənim hansı sözümə bu qədər əhəmiyyət verirsən?

Edip. Dedin ki, hökmdarı quldurlar öldürüblər. Quldurların bir neçə nəfər olduğunu təkrar etsə, demək ki, öldürən mən deyiləm. Yox,

əgər o, qətlin bir nəfərin əli ilə edildiyini söyləsə, günah mənim boynumda qalır.

İokasta. Əgər belədirsə, əmin ol. Bu sözləri o özü söyləmişdir və heç vəchlə indi dəyişdirə bilməz. Bunu yalnız mən deyil, bütün şəhər eşitmişdir. O, əgər əvvəlki sözlərini dansa belə, yenə də onun dedikləri Layın mənim oğlumun əli ilə öldürüləcəyi haqqında Loksinin fərmayişini doğrulda bilməz. Çünki mənim bədbəxt oğlum onu öldürə bilməzdi. Balacığazım ondan çox qabaq məhv olmuşdu. Bax, buna görə də mən allahların qeybdən yetirdikləri nə bu xəbərə və nə də bundan sonra yetirəcəkləri xəbərə qətiyyən inanmıram.

Edip. Çox ağıllı danışırsan. Bununla belə həmin kəndlinin dalınca bir adam göndər. Təxirə salma.

İokasta. Lap bu dəqiqə göndərirəm. Gedək evə. Sənə hər cür xidmətə hazıram.

Saraya gedirlər.

İKİNCİ STASİM

Xor

BİRİNCİ STROF

Ey mənim taleyim, söz və əməlimdə müqəddəsliyin əbədi mühafizə olunmasında mənə kömək et. Yüksək səmalarda həqiqətin özündən doğan qanunlara riayət etməkdə yardımçı ol. Məni o pak adamlardan et ki, onlar nurani efirdən yaranmışlar. Olimpin öz övladıdırlar. Onların, ərz kürəsinin məhvə məhkum insanları doğmamışdır. Allahın nəzərindən heç vaxt uzaq deyildirlər. Böyük və qüdrətli allah onların daxili aləmində yaşayır. Qocalıq nə olduğunu bilməzlər.

BİRİNCİ ANTİSTROF

Hökmranlıq dəli qürur doğurur. Qürur isə heç bir ölçü bilmədən həddini aşıb qudurğanlıq şəklini alarkən zərərli olur, sahibini səadət zirvəsindən dərin uçurumlara sürükləyir. Məğrur adamın ayaqları orada möhkəm dayana bilməz. Ulu allah Loksi, yalvarıram, şəhərdəki axtarışları dayandırma! Gələcəkdə də, allah mənim əbədi yardımçım olsun.

İKİNCİ STROF

Kim sözündə və ya əməlində dikbaşlıq edib həqiqətdən qorxmur və allahların hökmranlığına baş əymirsə, qoy bu murdar məğrurluqlarına görə nəhs bir tale onların nəsibi olsun. Qeyri-qanuni bir yolla xeyrə çatmaq istəyən, gizli günahlar işləyən, allahsız əməllərdən çəkinməyən adam allahın qəzəb oxundan arxayın ola bilməz. Belə bir şəxs öz əməlləri ilə necə fəxr edə bilər? Belə günahların sahibləri şərəf qazansa, daha mən allaha öz mahnılarımı necə oxuya bilərəm?

İKİNCİ ANTİSTROF

Allahın insanlar haqqında nazil etdiyi hökmlər yerinə yetməyəcəksə, daha mən nə üçün dua-sənalarla müqəddəs torpağın təkinə enməliyəm. Abey məbədgahına[10] getməliyəm, Olimp təpələrinə qədəm basmalıyam? Ey qadir Zevs! Sən həqiqətən qüdrət sahibisənsə, öz hökmünü göstər. Günahkar, sənin əbədi hökmranlığından qaçıb gizlənə bilməz. Loksinin qeybdən verdiyi xəbərlər öz gücünü itirir. Apollonun şərəfi yer üzündən silinir, allahlar unudulur.

ÜÇÜNCÜ EPİSODİ

Birinci səhnə

İokasta daxil olur. Əlində üzərinə yun parçalar sarınmış zeytun budağı və balaca mücrüdə ətirli qətran vardır. Kənizlərin dalınca gəlirlər.

İ o k a s t a. Məmləkətimizin hörmətli kübarları, başıma belə bir fikir gəlmişdir: çələnglər və buxurlarla allahların məbədlərinə getmək istəyirəm. Kədərli fikirlər Edipin ruhunu həddindən artıq həyəcanlandırmışdır. Düşüncələri keçmişlə məşğuldur.

Sağlam bir mühakimədən məhrumdur. Gələcək haqqında düşünə bilmir. Dəhşətli şeylər söyləyən hər kəsin sözlərinə inanır. Mən də onu qane etməkdən acizəm. (*Əlini Apollonun heykəlinə sürtür*) Sən, ey bizə hamıdan yaxın olan Likey Apollonu, ən əziz hədiyyələrlə hüzuruna gəlib yalvarıram: mərhəmətini bizdən əsirgəmə! Hamımız qorxu içərisindəyik. Tufana düşənlər xilaskar gəmiçiyə, ümidli nəzərlərlə baxdıqları kimi, biz də gözlərimizi ruhi həyəcanlar keçirən hökmdarımıza dikmişik.

Budağı heykəlin ayaqları altına qoyur, sonra qətrandan bir qədər götürüb üstünə atır.

İkinci səhnə

Korinfdən gəlmiş qasid daxil olur.

Q a s i d. Tanımadığım ağalar, müsaidənizlə sizdən Edipin sarayını soruşmaq olarmı? Yaxud özünün yerini lütfən mənə söyləyin.

Xor ağsaqqalı. Sarayı budur, özü isə orada içəridədir. Qonaq, bax, bu isə onun arvadı, uşaqlarının anasıdır.

Q a s i d (*İokastaya*). Hökmdarın nəcib və mükərrəm məlikəsi daima xoşbəxt olsun və xoşbəxtlərlə yaşasın!

İ o k a s t a. Bu cür ehtiramına və şirin dilinə görə, qonaq, mən də sənin üçün səadət arzu edirəm. Ancaq söylə, sən buraya nə üçün gəlmisən. Bəlkə bir xəbər gətirmisən.

Q a s i d. Saray və sənin ərinə xoş xəbər gətirmişəm.

İ o k a s t a. Söylə, o necə xəbərdir? Səni buraya kim göndərmişdir?

Q a s i d. Mən Korinfdən gəlirəm. Sözlərim səni sevindirəcək, əlbəttə, belə sözlərə heç sevinməmək olarmı? Ancaq kim bilir, bəlkə də kədərləndəcəksiniz?

İ o k a s t a. Dediyin nədir? Heç bir sözdə iki məna ola bilərmi?

Q a s i d. İstmiylilər[11] onu özlərinə hökmdar etmək istəyirlər. Onlar belə qərara gəlmişlər.

İ o k a s t a. Necə, məgər qoca Polib artıq orada hökmran deyil?

Q a s i d. Xeyr. Əcəl onu qəbrə gömdü.

İ o k a s t a. Nə dedin? Polib ölmüşdür?

Q a s i d. Bəli. Yalan deyirəmsə, qoy mən də ölüb qəbrə gedim.

İ o k a s t a (*kənizə*). Kəniz, tez evə yüyürüb hökmdarı çağır. Ey allahların qeybdən verdikləri xəbərlər, bəs siz necə oldunuz? Edip onu öldürməkdən qorxduğu üçün oradan uzaq gəzirdi. İndi isə Polib Edipin əli ilə deyil, öz taleyinin hökmü ilə ölmüşdür.

Üçüncü səhnə

E d i p (*daxil olur. İokastaya*).İokasta, əziz zövcəm, məni nə üçün saraydan bayıra çağırdın.

İ o k a s t a. Buyur dinlə və qeybdən verilən müqəddəs xəbərlərin nə qədər doğru olduğunu gör.

E d i p. O kimdir, mənə bir sözümü var?

İ o k a s t a. O, Korinfdən gəlmişdir. Sənin atan, hökmdar Polibin ölüm xəbərini gətirmişdir. O, artıq həyatı tərk etmişdir.

E d i p. Öldürülmüşdür? Yaxud təsadüfən azarlayıb ölmüşdür?

Q a s i d. Qoca üçün ölüm çox tez müyəssər olan bir şeydir.

E d i p. Zavallı, görünür xəstəlikdən ölmüşdür.

Q a s i d. Həm də qocalıqdan.

E d i p. Heyhat! Heyhat! Zövcəm, daha bundan sonra Pifey məzbəhəsindən verilən müqəddəs xəbərlərə və ya səmanın altında hərlənən quşların səsinə inanmaq olarmı? Onların hökmünə görə mən öz doğma atamı öldürməli idim. İndi isə atam öz əcəli ilə ölüb torpağa dəfn olunmuşdur. Halbuki mən oradan uzaqda yaşayırdım və əlimi də heç qılınca uzatmamışam. Bəlkə o, mənim ayrılığımın qüssəsinə tab gətirməyərək ölmüşdür və "mənim əlimdən ölməlidir" sözünü biz belə başa düşməliyik? Demək, Polib qeybdən verilən bütün hökmləri də özü ilə götürərək yer altına getmişdir. Hökmlər isə mənasız bir şey imiş!

İ o k a s t a. Mən sənə bunları çoxdan demirdimmi?

E d i p. Bəli, deyirdin. Lakin qorxu məni çaşdırmışdı.

İ o k a s t a. Artıq bundan sonra heç bir şeydən qorxma.

E d i p. Bəs anamla nikahdan necə? Ondandamı qorxmayım?

İ o k a s t a. İnsan həyatda qeybdən verilən xəbərlərlə deyil, hadisələrin hökmü ilə yaşadığı halda, nədən qorxmalıdır? Hər kəsin həyatda nəsibi nədirsə, ona çatacaqdır. Artıq sən ananla nikahdan da qorxma. Çoxları yuxuda anaları ilə yatdıqlarını görmüşlər. Bu yuxuların onlar üçün heç bir əhəmiyyəti yoxdur və belə yuxuları nə qədər tez unutsalar, həyat onlar üçün bir o qədər xoş olar.

E d i p. Çox gözəl danışırsan. Lakin hələ anam sağdır. O yaşadıqca sənin sözlərin doğru olsa da, mən yenə də qorxumdan xilas ola bilməyəcəyəm.

İ o k a s t a. Atanın məzarı sənə böyük bir təselli deyilmi?

E d i p. Böyük təsəllidir. Lakin anam sağdır, qorxuram.

Q a s i d. Sizin qorxduğunuz hansı qadındır?

E d i p. Meropa, hökmdar Polibin arvadı.

Q a s i d. Onun siz nəyindən qorxursunuz?

E d i p. Allahların verdiyi xəbərlər məni qorxutmuşdur, qonaq...

Q a s i d. O xəbəri deyə bilərsənmi? Yoxsa, başqalarına söyləmək olmaz?

E d i p. Qulaq as, deyim. Vaxtilə Loksidən belə xəbər gəldi ki, mən guya anamla bir yataqda yatacağam və öz əlimlə atamın qanını tökəcəyəm. Buna görə də öz arzumla Korinfdən uzaqda yaşayıram. Mən burada xoşbəxt ömür sürsəm də, ata-anamın mehriban nəvazişlərindən məhrum olmuşam, halbuki bu nəvazişlər insan üçün böyük xoşbəxtlikdir.

Q a s i d. Sən elə bundanmı qorxaraq didərgin düşübsən?

E d i p. Bəli, qoca. Ata qatili olmaq istəmədim.

Q a s i d. Hökmdar, madam ki, mən buraya xeyir xəbərlə gəlmişəm, səni qorxudan da xilas edərəm.

E d i p. Buna qarşı məndən layiqli mükafat da alarsan.

Q a s i d. Mən elə onun üçün gəlmişəm ki, sən evinə qayıdasan və mənə bir şey iltifat edəsən.

E d i p. Xeyr, mən heç vaxt validəmin yanına qayıtmayacağam.

Q a s i d. Oğul! Sən o qadının xatirinə evə qayıtmamaqda...

E d i p. Sən nə barədə danışırsan? Qoca, bütün allahların xatirinə mənə söylə.

Q a s i d. Özün də nələr etdiyini bilmirsən.

E d i p. Qorxuram ki, Febin buyurduğu düz çıxa.

Q a s i d. Ananın yatağını murdarlamaq istəmirsən, eləmi?

E d i p. Bəli, möhtərəm qoca, həmişə bundan qorxuram!

Q a s i d. Halbuki, sənin qorxun əbəsdir.

E d i p. Necə yəni? Məgər mən onların doğma övladı deyiləm?

Q a s i d. Bil ki, Polibin sənə heç bir qohumluğu yoxdur.

E d i p. Sən nə danışırsan? Məgər mən Polibin oğlu deyiləm?

Q a s i d. Mən nə qədər oğluyamsa, sən də bir o qədər.

E d i p. Bəs bu necə işdir? Mən atasızmı dünyaya gəlmişəm?

Q a s i d. Hökmdar, sən hər halda nə mənim, nə də onun oğlu deyilsən.

E d i p. Bəs nə üçün o məni öz oğlu adlandırırdı?

Q a s i d. Çünki əvvəllər o, sonsuz idi.

E d i p. Başqalarından aldığı halda o məni bu qədər sevə bilərdimi?

Q a s i d. Bil ki, o töhfəni hökmdara təqdim edən mənəm.

E d i p. Sən məni pullamı almışdın, yaxud tapmışdın.

Q a s i d. Kiferon dərələrində, cəngəllikdə tapmışdım.

E d i p. Sən o yerlərdə nə üçün dolanırdın?

Q a s i d. Mən dağlarda sürü otarırdım.

E d i p. Sən, demək, çobanlığı özünə peşə etmişdin, deyilmi?

Q a s i d. Oğul, mən o zaman sənin xilaskarın olmuşam.

E d i p. Məni hansı bəladan qurtarmısan, necə xilas etmisən?

Q a s i d. Buna sənin qıçlarının bəndləri şahiddir.

E d i p. Keçmiş dərdləri nə üçün yada salırsan?

Q a s i d. Mən sənin yaralı ayaqlarını sağaltmışam.

E d i p. Bəli, mən hələ qundaqda ikən böyük bədbəxtliyə düçar olmuşam.

Q a s i d. Sənin adın da bu bədbəxtlikdən doğulmuşdur.

E d i p. Aman, ya rəbbi, müqəssir kim idi? Anam, atam, söylə.

Q a s i d. Mən bilmirəm, bunu səni mənə verən bilər.

E d i p. Məgər sən məni başqasından almısan? Özün tapmamısan?

Q a s i d. Xeyr, səni mənə başqa bir çoban vermişdir.

E d i p. Kimdir o çoban? Sən onun sorağını mənə verə bilərsənmi?

Q a s i d. Özünü Layın qullarından adlandırırdı.

E d i p. Buradakı keçmiş hökmdarımı deyirsən?

Q a s i d. Özüdür ki, var. O, hökmdarın naxırçısı idi.

E d i p. O, indi sağdırmı? Mən onu görmək istərdim.

Q a s i d. Bunu siz daha yaxşı bilərsiniz, buralısınız.

E d i p. Qocalar, sizlərdən bu adamın dediyi naxırçını tanıyan varmı? Hər kəs onu burada və ya kənddə görmüşsə, söyləsin, çünki sirri açmaq vaxtı çatmışdır.

X o r ağsaqqalı. Bəli, bu elə həmin çobandır ki, sən onu görmək istəyirdin. Bu suala hər kəsdən artıq İokasta düzgün cavab verə bilər.

E d i p (*İokastaya*). Zövcəm, bəlkə elə bu adamın dediyi naxırçı, ardınca adam göndərdiyimiz həmin çobandır?

İ o k a s t a. Onun dediyi adam? Canım, sən buna fikir vermə. Boş sözlər səni narahat etməsin.

E d i p. Yox, əldə belə bir dəlil varkən mən öz doğuluşumun sirrini nə üçün açmayım?

İ o k a s t a. Edip, allah eşqinə, bu iztirablar bəsdir. Öz canına və mənə yazığın gəlsin.

E d i p. Qorxma... Mən kölə nəslindən olsam belə, yenə də üçqat bir kölə kimi hüzurunda durmuşam. Sənin həmişəki şan-şöhrətin mühafizə olunacaqdır.

İ o k a s t a. Məni dinlə, bu işdən əl çək.

E d i p. Əl çəkim? Yox, hamısını öyrənəcəyəm.

İ o k a s t a. Mən işdən xəbərdaram və sənin xeyrinə çalışıram.

E d i p. Bu "xeyrin" nədən ibarət olduğunu çoxdan bilmək istərdim.

İ o k a s t a. Bədbəxt! Sən bütün ömrün boyu kim olduğunu bilməsən daha yaxşı olardı.

E d i p (*mühafizlərə*). Bu dəqiqə naxırçını hüzuruma gətirin. Bu isə qoy gedib öz kübarlığına sevinsin.

İ o k a s t a. Heyhat! Heyhat! Bədbəxt! Sənə yalnız bunu söyləyə bilərəm. Bundan başqa deyəcək heç bir sözüm yoxdur.

Gedir.

Dördüncü səhnə

Xor ağsaqqalı. Edip, zövcənin nə qədər böyük bir dərdlə çıxıb getdiyini gördünmü? Qorxuram onun sükutu dəhşətli bir fəlakətlə nəticələnmiş ola.

E d i p. Nə ilə istəyirsən nəticələnsin. Mən isə alçaq ailəyə mənsub olduğum aydınlaşsa belə, öz ailəmi tanımaq istəyirəm. Zövcəmi mən anlayıram. Bütün qadınlar şöhrət düşgünüdür. Mənim alçaq nəsildən doğulduğum onun qüruruna toxunar. Mən səadətin oğluyam. Xoşbəxtlik mənimlə bərabər doğulmuşdur. Heç bir şeyin adımı ləkələyə biləcəyindən qorxmuram.

Mən taleyin oğluyam. Bilin, mən Ayların oğluyam. Kiçikliyimi də, böyüklüyümü də onlara borcluyam. Onlar məni böyüdüb yetirmişlər. Mən indi başqa yol tuta bilmərəm. Öz doğuluş sirrimi aydınlaşdırmalıyam.

ÜÇÜNCÜ STASİM

X o r

STROF

Mən qeybdən xəbər vermək məharətinə malikəmsə, köksümdə çeşmə kimi qaynar müqəddəs bir ruh yaşayırsa, Olimpə qəsəm edirəm: Kiferon, bizi dinlə. Sabah bədirlənmiş ay altında sənə mədh və səna üçün hamımız ayağa qalxacağıq. Çünki sən Edip üçün doğma vətən, ana və mürəbbi olmusan. Sənin şəninə mahnılar oxuyacağıq. Çünki sən Fiv hökmdarları xanədanına sevinc gətirmisən. Ey mərhəmətli Feb, sənə ibadət edirik, duamızı qəbul et!

Ey yavrum, səni uzun ömür sürən analardan hansı doğmuşdur? Dağlara bələd olan Pan[12] atanın yanındamı böyümüsən? Yaxud yüksək dağ silsilələrini və dərin uçurumları sevən Loksimi səni ağuşunda bəsləmişdir? Yoxsa səni Gelikon dağlarının allahı, yüksək dağ zirvələrində Killenin böyük hökmdarına, yaxud Bakxa bir töhfə olaraq təqdim etmişdir?

DÖRDÜNCÜ EPİSODİ

E d i p (*xora*). Qocalar, bax, o gələn adam həmin çoxdan gözlədiyimiz çoban olmalıdır. Mən onu heç bir yerdə görməsəm də buna əminəm. (*Korinf qasidini göstərir*). O da bu qasid kimi qocadır. Bir yaşda olarlar. Yanındakılar isə gərək ki, mənim qullarımdır. Doğrusunu isə sən bilərsən. Çünki o çobanı sən yəqin dəfələrlə görmüşsən.

Xor ağsaqqalı. Yanılmırsan, gələn Layın çobanıdır. Laya o, bir qul qədər sədaqətli idi.

E d i p (*Korinf qasidinə*). Ey korinfli qonaq, birinci olaraq səndən soruşuram, sən onun barəsindəmi danışırdın?

Q a s i d. Bəli, elədir ki, var.

Çoban iki qulun müşayiətilə daxil olur.

E d i p (*çobana*). Ey qoca, gözlərimin içinə baxıb suallarıma cavab ver. Sən vaxtilə Layın qulu olmusanmı?

Ç o b a n. Bəli, olmuşam. Lakin satın alınma deyil, evdə böyümüş qul idim.

E d i p. Peşən nə idi, nə ilə dolanırdın?

Ç o b a n. Ömrümün çoxunu naxırçılıqda keçirmişəm.

E d i p. Haralarda daha çox yaşamısan?

Ç o b a n. Kiferonda və ətrafında.

E d i p (*korinfli qasidi göstərir*). Bu adamı tanıyırsanmı? Vaxtı ilə o sənin tanışın olmuşdurmu?

Ç o b a n. O nə etmişdir ki? Sən məndən kimin haqqında soruşursan?

E d i p. Qarşında duran bu adam haqqında. Sən ona heç rast gəlmisənmi?

Ç o b a n. Birdən xatırlamıram. Görünür az təsadüf etmişəm.

Q a s i d. Burada heç bir təəccüblü şey yoxdur. Mən onu hər kəsdən daha aydın xatırlamağa məcbur edərəm. Kiferonda necə dolandığımız inanın ki, onun yaxşıca yadında olmalıdır. O, iki sürü otarırdı, mən birini. Biz üç il dalbadal Arkturaya qədər[13] bütün yazı və yayı bir yerdə olmuşuq. Qışda mən sürümü dağlardan pəyəyə sürüb gətirərdim. O isə Layın həyətinə sürüb aparardı. Düzmü danışıram, belə olub ya yox?

Ç o b a n. Bəli, danışdıqların bir həqiqətdir. Ancaq o zamandan çox illər keçmişdir.

Q a s i d İndi söylə, mənə tərbiyə etmk üçün bir uşaq verdiyin yadındadırmı?

Ç o b a n. Nə olmuşdur ki, Bunu nə üçün soruşursan?

Q a s i d (*Edipi göstərir*). Bax, dostum, həmin uşaq budur.

Ç o b a n. Səni görüm yerə keçəsən. Lal ol.

E d i p. Qoca, sən buna acıqlanma, çünki sənin sözlərin daha çox qəzəbə layiqdir.

Ç o b a n. Hörmətli ağa, mənim təqsirim nədir?

E d i p. Təqsirin həmin uşaq haqqında bildiyini gizlətmək.

Ç o b a n. Nə deyim? O, heç bir şeyi bilmir. Özünü nahaq zəhmətə salır.

E d i p. Könüllü demək istəmirsənsə, şallaq zərbələri altında söylərsən.

Ç o b a n. Yox, allah xatirinə məni döymə. Qocalığıma rəhmin gəlsin.

E d i p (*mühafizlərə*). Bu dəqiqə qolları arxasında bağlansın.

Ç o b a n. Ah, mən bədbəxt, sən axı nəyi bilmək istəyirsən?

E d i p. Həmin uşağı sən ona vermisənmi?

Ç o b a n. Vermişəm, kaş həmin gün ölüb yerə girəydim

E d i p. Sözün düzünü deməsən, elə indi də ölüm nəsibin olacaqdır.

Ç o b a n. Yox, sözün düzünü desəm, ölümdən yaxamı heç qurtara bilmərəm.

E d i p (*mühafizlərə*). Görürəm ki, o yenə də bizə kələk gəlmək istəyir.

Ç o b a n. Xeyr, əsla. Dedim ki, vaxtilə vermişəm.

E d i p. Sənə haradan çatmışdır? Özüننkü idi və ya özgədən almışdın?

Ç o b a n. Özümünkü deyildi... Mən onu başqasından almışdım.

E d i p. Hansı evdən? Bunların hansından?

Ç o b a n. Hökmdar, allah xatirinə sorğu-sual kifayətdir.

E d i p. Sualımı təkrara məcbur etsən, özünü ölmüş bil.

Ç o b a n. Bil, o, Layın adamlarından biri idi.

E d i p. Qullardan idi, yaxud hökmdar nəslindən.

Ç o b a n. Təəssüf ki, mən bütün dəhşəti açıb danışmalıyam...

E d i p. Və mən də onları dinləməliyəm... Nə olursa-olsun, danış, qulaq asıram.

Ç o b a n. O, hökmdarın oğlu idi. Əhvalatın qalanını arvadın daha yaxşı nağıl edər.

E d i p. Demək, uşağı sənə arvad özü vermişdi?

Ç o b a n. Bəli, hökmdar.

E d i p. Nə üçün?

Ç o b a n. Öldürməyi əmr etmişdi.

E d i p. Bədbəxt! Ana öz oğlunu!

Ç o b a n. Qeybdən söylənən bəd xəbərlərdən qorxduqları üçün.

E d i p. Hansı bəd xəbərlərdən?

Ç o b a n. Belə demişdilər ki, uşaq böyüsə atasını öldürəcək.

E d i p. Bəs sən nə üçün məni bu qocaya verdin?

Ç o b a n. Yazığım gəldiyi üçün, hökmdar! Düşündüm ki, uzaq ölkələrə aparar. Daha demə həmin uşağı mən böyük bədbəxtliklər üçün mühafizə etmişəm. Sən əgər həmin uşaq isən, bil ki, bədbəxtliklər üçün doğulmusan.

E d i p. Heyhat! Heyhat! Artıq hər şey sona yetdi... Əlvida, ey işıq, mən səni sonuncu dəfə görürəm! Mən şərəfsiz bir doğuluşla dünyaya gəlmişəm. Nikahı haram olan adamla yaşamışam. Qətli günah olan bir adamı öldürmüşəm.

Plaşı başına çəkib gedir.

DÖRDÜNCÜ STASİM

X o r

BİRİNCİ STROF

Heyhat! Siz ey insan nəsili, ölümə məhkum bəndələr! Sizin həyatınız qiymətsiz, yaşayışınız müvəqqətidir. Kim insanlardan, söyləyin, kim daimi səadətə nail olmuşdur? İnsan özünü xoşbəxt hesab edib parlayır və parlayınca sönüb əbədi məhv olur. Sən özün də buna canlı

bir timsalsan. Edip, sənin taleyinin məşumluğu artıq məlumdur. Sənə yalnız bircə ad vermək olar: bədbəxt! Bu dünyada özün üçün səadət aramaq əbəsdir.

BİRİNCİ ANTİSTROF

Ey Zevs! O tam hədəfə nişan almağı bacarmış, bütün səadəti ələ keçirmiş, iti pəncəli Sfinksin qeybdən xəbər verən qızını məhv etməyə müvəffəq olmuşdu. Sən doğma vətənin üçün sarsılmaz bir qala idin. Sən ey ulu Feb hökmdarı, o zamandan bizim hökmdarımız olmusan və sənə hamıdan artıq hörmət edilir.

İKİNCİ STROF

İndi isə məxluqatın arasında səndən bədbəxti varmı? Kimin həyatı sənin kimi kəskin dəyişilmiş, kim sənin qədər əzici, dəhşətli əzablara dözməli olmuşdur? Ey bizim ali şan Edipimiz! Ey hökmdar! Bir ehtirasın qurbanı olaraq oğul atanın ardınca nikahı qəbul etmiş və məhvə məhkum olmuşdur. Ey zavallı, yazıq! Atanın tarlası bu qədər uzun illər müddətində səsini çıxarmadan belə bir dəhşətə necə dözmüşdür.

İKİNCİ ANTİSTROF

Hər bir şeydən xəbərdar olan zəmanə bu haram nikah üçün sənə divan tutar; sən eyni zamanda həm ata, həm də oğul oldun, bunun cəzasını çəkərsən. Eyvah! Ey Layın yavrusu! Mən səni əbədi və ömürlük olaraq görməsəm, daha yaxşıdır. Çünki kədər qəlbimi doldurmuş, nalə və fəryadım göylərə yüksəlmişdir. Görünür ki, belə olmalı imiş: sənin varlığınla mən asudə yaşayırdım, sənin səbəbinə də dünya mənə zülmət oldu.

EKSOD

Birinci səhnə

E d i p i n n ö k ə r i. Ey ölkəmizin möhtərəm şəxsiyyətləri, nələr eşitməli və nələr görməli olcaqsınız! Əgər qəlblərinizdə qədim Labdak xanədanına məhəbbət mühafizə olunursa, çox böyük dərd və qüssə çəkməli olacaqsınız. İstr[14] və Fasis[15] sularını bir-birinə qatıb böyük bir sel əmələ gətirilsə belə, bu evdə gizlənən sonsuz, bilərək edilən və bilmədən edilən murdarlıqları yuyub təmizləyə bilməz. İndi isə yeni bir

fəlakət xəbəri eşidəcəksiniz. Adamın bilə-bilə özünü bədbəxt etməsi qəlbləri daha artıq yandırar.

Xor ağsaqqalı. Bizə artıq məlum olan bədbəxtliklərdən daha ağır bir bədbəxtlik təsəvvür etmək olmaz. Sən bunun üzərinə daha bir şeyi əlavə edəcəksən?

E d i p i n n ö k ə r i. Bu xəbəri təxir etmədən söyləmək və eşitmək olar: böyük məlikə İokasta vəfat etdi.

Xor ağsaqqalı. Ah, zavallı! Ölümünə səbəb nə oldu?

E d i p i n n ö k ə r i. Səbəb özü oldu. Ancaq sənin kədərin o qədər ağır ola bilməz, çünki faciəni sən özün gözünlə görməmisən. Mən isə hamını görmüşəm, hamısı da hafizəmdə əbədi həkk olunmuşdur. Bədbəxt yazığın necə əzab çəkdiyini eşit: iztirablar içərisində çırpınaraq saraya daxil olar-olmaz dərhal öz nikah yatağına sərildi. Əlləri ilə saçlarını yolmağa başladı. İçəriyə girən kimi qapını bağladı. Qadın çoxdan bəri ölmüş ərini çağırdı. Layı öldürən, doğma anasına ərlik edən, murdar nəsil törəməsinə səbəb olan məlun oğlunu yad etdi. Yazıq qoşa çapayının üstündə qıvrılıb çabaladı. Bu, həmin çarpayı idi ki, onun üstündə əri ərindən və oğlu oğlundan doğulmuş idi. O, belə bir vəziyyətdə məhv oldu. Ancaq necə öldüyündən xəbər tuta bilmədi. Çünki bu zaman Edip ah-fəryadla içəri daxil oldu. Mən artıq İokastanın nə kimi əzablar çəkdiyini görə bilmədim. Ancaq Edipin necə çırpındığını yaxşıca gördüm. Səndələyərək öz qılıncını istədi və özünü tələşlə zövcəsinin, bilmirəm zövcəsimi deyim, anasımı deyim, ikiqat məhsul verən, həm öz anası, həm də uşaqlarının anası olan həmin qadının yanına yetirdi. Şaşqın idi. Çırpınırdı. Orada olanlardan heç kəsdən soruşmadı, allah özü ona yol göstərdi. Vəhşicəsinə bağıraraq xariqüladə bir qüvvətlə və işdən xəbərdarmış kimi, özünü ikitaylı qapıya vurdu. Qapının oxu yerindən çıxıb düşdü və o, içəriyə soxuldu. Biz orada onun arvadını asılmış gördük, məlikə həlqə boynunda yırğalanırdı. Bəli, o, zövcəsini bu vəziyyətdə gördü. Bədbəxt, qışqıraraq eşilmiş kəndiri açdı. Zavallı qadın yerə düşdü. Daha dəhşətli səhnə isə sonra başladı. Qadının əynindəki donun üzərindən şahanə zinətləri çıxartdı və qızıl bir sancaq qapıb öz gözlərinə batırdı. O, qışqıraraq deyirdi: "Ey mənim gözlərim, nəsibim olan dəhşətləri və əlimlə icra olunan fəlakəti görməmək üçün əbədi kor olun. Ömrümün son gününə qədər zülmətdən qurtulmayın, görünməsi lazım olmayanları görün, görmək istədiyinizə isə həsrət qalın. O, belə sözlər söyləyərək bir dəfə deyil, dəfələrlə sancağı gözlərinə batırdı. Gözlərindən qan qəliz

qətrələrlə deyil, qara bir sel kimi axıb saqqalını islatdı. İki fəlakət birdən üz verərək ər və arvadın faciəvi məhvinə səbəb oldu. Onlar keçmişdə xoşbəxt idilər. Həqiqətən həsəd aparmalı bir səadətləri var idi. İndi isə fəryad, ölüm, fəlakət, biabırçılıqdan və hər cür bədbəxtlikdən başqa bir şeyləri yoxdur. Dünyadakı bütün bəlaların hamısı bir yerə yığılmışdır.

Xor ağsaqqalı. İndi o bədbəxt nə haldadır? Özünə gəlmişdirmi?

E d i p i n n ö k ə r i. Qışqırır ki, qapını açın, qoy bütün kadmlılar öz atasını qətlə yetirəni və anasını... pis söz deməyə dilim gəlmir... görsünlər. Deyir ki, özüm özümü ölkədən sürgün edəcəyəm, evdə yaşamayacağam, özümə lənətlər yağdıracağam. Söz yox ki, o, müşayiətçinin yardımına möhtacdır. O, təhəmmüledilməz bir iztirab çəkir. İndi onu sənə göstərərlər. Budur, qapıların sürmələrini dartırlar. İndi elə bir mənzərə görəcəksən ki, onu düşmən də görsə ürəyi yanar.

İkinci səhnə

KOMMOS

Öz gözlərini çıxarmış Edip saraydan gəlir.

Xor ağsaqqalı. İnsanların iztirabına baxmaq dəhşətlidir... Sənin iztirabların isə ömrümdə gördüyüm fəlakətlərin hamısından ağırdır. Zavallı, sən belə bir dəliliyi nə üçün etdin? Cəhənnəmin dərinliklərindən hansı amansız ruh quduz bir sıçrayışla sənin taleyinə bu cür qəsd etdi? Bədbəxt, yazıq, səndən çox şey sormaq, çox şey öyrənmək, sənlə dərdləşmək istərdim. Lakin sənin üzünə baxa bilmirəm. Halına tab gətirə bilmirəm.

E d i p. Vay! Vay! Vay! Vay! Yazıq, bədbəxt canım! Bu başı bəlalı bəndəni hara aparırlar? Mənim səsim haralarda eşidiləcək. Şeytan, sən məni hara gətirib çıxartdın?

Xor ağsaqqalı. Görünməz, eşidilməz və təhəmmül edilməz bir hal!

E d i p. Bu nə duman və zülmət... Eyvah! Mənim dəhşətli halımı dillə ifadə etmək olmaz! Sonsuz dərin bir zülmət! Yazıq canım, ikiqat bədbəxt canım! Bu yaraların dözülməz ağrısı bir tərəfdən, xatirimdə yaşayan fəlakətlər ikinci tərəfdən məni əzib məhv edir.

X o r a ğ s a q q a l ı. Bu cür iztirablar içərisində ikiqat yanmağın, başına gələn fəlakət haqqında ikiqat fəryad etməyin heç də təəccüblü deyil.

E d i p. Vay! Vay! Dostum, qullarımın arasında yalnız sən mənə sədaqətli çıxdın. Yalnız sənin ürəyin korun vəziyyətinə yandı. Vay! Vay! Sən məndən qaçıb gizlənməmisən. Qaranlıq olsa da səsini tanıdım.

Xor ağsaqqalı. Sən bu cür bir dəhşətin yaranmasına necə səbəb oldun? Sən öz bəbəklərini söndürməyə necə cürət etdin? Sənə bunları allahmı təlqin etdi?

E d i p. Apollon, bəli, dostlar, Apollon özü belə əmr etdi. Mənim fəlakətimi o yeni bir bədbəxtliklə tamamladı. Mənim gözlərimi heç kəs çıxarmamışdır. Bunu mən bədbəxt öz əlimlə etmişəm. Dünyada sevindirici bir şey görməyəcəyəmsə, göz mənim nəyimə gərəkdir?

Xor ağsaqqalı. Düz deyirsən, hər şey söylədiyin kimidir.

E d i p. Axı mən nəyə baxmalı idim? Mən nəyi sevməli, kiminlə şirin-şirin danışmalı idim? Dostlar, söyləyin, mən kimi sevinclə dinləməli idim? Siz məni tez buradan uzaqlara, daha uzaqlara aparın. Dostlar, siz məni, allahın və bəndələrin yanında mənfur və məlun sayılan bu murdar məxluqu uzaqlara aparın.

Xor ağsaqqalı. Ah, ağıllı və eyni dərəcədə bədbəxt zavallı! Kaş mən səni əvvəldən heç tanımaya idim.

E d i p. Otlaqda ayaqlarımdan buxovu açan adamı görüm əbədi çürüsün! O, məni əzablardan qurtarıb xilas etdi, fəqət heyhat, o, mənim xoşbəxtliyimə səbəb olmadı. O zaman ölsəydim, nə ata-anamı, nə də özümü bu qədər bəlaya salmazdım.

Xor ağsaqqalı. Mən də bu qədər əzab çəkməzdim.

E d i p. Atam mənim əlimlə öldürülməzdi. Mən özümü doğan qadının kişisi olmazdım. İndi isə allah məndən üz döndərmişdir. Mən cani bir oğulam. Öz anamla bir yataqda yatmışam. Dünyada olan ən ağır müsibət və bəlalar Edipin payı olmuşdur.

Xor ağsaqqalı. Bilmirəm sənin bu əməlini tərifmi edim? Yox, kor yaşamaqdansa, doğulmamaq daha yaxşıdır.

Üçüncü səhnə

E d i p (*Xor ağsaqqalına*). Sən mənim pis iş tutduğumu söyləmə. Məsləhət görməyi burax. Bilmirəm mən cəhənnəm əzabları içərisində qıvrılarkən atamın və ya bədbəxt anamın üzünə hansı gözlərlə baxmağa cəsarət edərdim? Mən ata-anamın qarşısında o qədər günahkaram ki, dar ağacından asılsam belə təqsirimi yuya bilməzdim. Bəlkə deyəcəksən ki, mən uşaqlara baxıb həzz ala bilərdim, – onun doğduğu uşaqlara, eləmi? Əlbəttə, mənim gözlərim buna dözməzdi. Bəlkə deyəcəksən ki, sən paytaxtımıza, qüllələrə, müqəddəs allahların abidələrinə baxardım – xeyr, mən, Fivdə ən məşhur adam sayılan mən bədbəxt özümü hər şeydən məhrum etdim. Özüm əmr etdim ki, hamı mürtəd və murdar bir məxluq kimi məni hər yerdən qovsun. Özümü bu qədər ləkəli bildiyim halda, mən onların gözünün içinə necə baxa bilərdim? Yox, yox, qulaqlarımı eşitməkdən məhrum edə bilsəydim, bundan geri durmaz, səslərin belə bir murdar vücuda gəlib çatmasına imkan verməzdim. Kor olduğum kimi, kar da olardım. Bədbəxtliyi dərk etmədən yaşamaq daha xoşdur. Ey Kiferon, sən nə üçün məni qəbul etdin və yaxud qəbul edərkən məni nə üçün dərhal öldürmədin ki, mən öz həyatımı borclu olduğum adamların yanına gəlib çıxmaya idim?

Ey Polib! Ey Korinf, ey ata yurdum! Mən düşüncələrimdə nə qədər yanılmışdım? Siz məni nə qədər zahiri gözəlliklər içərisində böyütmüşdünüz, halbuki bu gözəlliklərin arxasında irinli yaralar gizlənmiş imiş. İndi bu cür bəlaya düşməyimə səbəb həyatımın o cür bir fəlakətlə başlaması olmuşdur.

Ey üç yolayrıcı, qalın meşə ilə örtülmüş qaranlıq dərə! Mənim qanımı içdiyiniz yadınızdadırmı? O qanı mən özüm tökdüm. Mənim oradakı əməlim və ondan sonrakı cinayətlərim xatirinizdədirmi? Ey ikiqat nikah! Məni sən doğdun və doğandan sonra eyni tumu qəbul etdin. Bu tumdan eyni zamanda ata, oğul, qardaşlar törədi. Bir adam həm gəlin, həm arvad, həm ana oldu. Məxluqat arasında daha bundan da biabırçı hal baş verə bilərmi?

Artıq yetər! Ayıblı işlər haqqında danışmaq kifayətdir. Allahların xatirinə sizə yalvarıram. Məni yubanmadan öldürün və əbədi olaraq dənizlərin arxasına sürgün edin ki, heç kəsin gözü məni görməsin. Yaxın gəlin. Mən bədbəxtə əlinizi vurmaqdan qorxmayın. Mənim fəlakətim ancaq özümə məxsusdur. Başqalarına bundan zərər toxunmaz.

Xor ağsaqqalı. Budur, lap vaxtında Kreont buraya gəlir. Sənin xahişini yerinə yetirər və nə etmək lazım gəldiyini söylər. Ölkənin indi yeganə hakimi odur.

Kreont hökmdar paltarında daxil olur.

E d i p. Heyhat, mən hansı üzlə onunla danışım? Kreontla o qədər qaba rəftar etdiyim halda indi ondan mən etibar və ədalətli bir hərəkət gözləyə bilərəmmi?

K r e o n t. Edip, mən buraya sənə istehza etməyə və ya bir az əvvəlki acığı çıxarmağa gəlməmişəm. (*Xora*) Siz isə əgər bəndələrdən utanmırsınızsa barı həyata hərarət bəxş edən böyük güneşdən həya edin və söyləyin bu cür günahı açıqdan-açığa göstərmək olarmı? Elə bir günah ki, nə torpaq, nə müqəddəs yağış, nə də nur onu qəbul etməz. Siz tez onu evə aparın. Çünki müsibətzədə insanların dərdlərinə ancaq onların doğma qohumları dözə bilər.

E d i p. Madam ki, sən mənim kimi bir günahkarın yanına belə xoş sifətlə gəldin, artıq mənim qorxum yoxdur. Allah xatirinə bir ricamı qəbul et və bil ki, mən bunu yalnız özümü düşünərək deyil, səni də düşünərək xahiş edirəm.

Dayə Antiqona və İsmenanı gətirir.

K r e o n t. Söylə, bu qədər israrla etdiyin xahiş nədir?

E d i p. Bir an da təxir etmədən məni elə bir yerə göndər ki, mən orada insan üzü görməyim.

K r e o n t. Ricanı yerinə yetirməyə hazıram. Lakin əvvəl allahların sənin haqqındakı hökmünü bilmək istərdim.

E d i p. Allahın hökmü məlumdur: "atasını qətlə yetirən caninin cəzası ölümdür".

K r e o n t. Düzdür, allahın hökmü belədir. Lakin hər dəfə çətinliyə düşərkən allahın rəyini soruşmaq vəzifəmizdir.

E d i p. Belə bir bədbəxt haqqında allahdan rəy soruşmaq?

K r e o n t. Əminəm ki, sən özün də allahın hökmünü dinləməyə hazırsan.

E d i p. Sənə tapşırıb yalvarıram: evdəki cənazəni istədiyin kimi dəfn et. Bununla öz qohumluq vəzifəni yerinə yetirmiş olarsan. Mənim isə bundan sonra burada yaşamaqla doğma torpaqlarımızı murdarlamağıma razı olma. Müsaidə et, gedib Kiferonda yaşayım. Ata-anam oranı mənə diri-diri məzar qərar vermişdilər. Onlar məni həmin çöldə məhv etmək istəyirdilər. Qoy mən gedib orada da ölüm. Lakin bilirəm

ki, heç bir bəla məni öldürə bilməz. Mən daha dəhşətli bəlalar çəkmək üçün ölümdən xilas edilmişəm. Qoy tale necə istəyirsə, elə də olsun.

Kreont, mənim böyük uşaqlarımın, oğlanlarımın dərdinə qalma. Onlar yaşa dolmuşlar. Özləri hər yerdə ehtiyaclarını rəf edə bilirlər. Yazıq və bədbəxt qızlarımın isə hallarına acıyıram. Onlar heç vaxt atalarından ayrı süfrədə əyləşməzdilər. Mənə çatan hər bir şeydə onların da payı var idi. Mənim xatirimə onların dərdinə qal. Onları oxşamağıma və onlar üçün göz yaşları axıtmağıma müsaidə et. Ey alicənab hökmdar! Onlara əlim dəysə, elə bilərəm ki, yenə əvvəlki kimi gözlərim kor deyil, onları yenə də görürəm, onlar yenə də mənimkidir. Nə deyirəm? allaha and olsun, elədir ki, var. Məgər eşitmirəm, budur, mənim əziz balalarım, ağlayırlar. Kreont, mənə acıyıb bu iki sevimli uşaqcığazı yanıma gətirmisən. Düz deyilmi?

K r e o n t. Düzdür, onları görməkdən sənin son dərəcə sevinəcəyini bilərək, onları sənin yanına gətirmişəm.

Dayə Antiqona və İsmena ilə Edipə yaxınlaşır.

E d i p. Allah səni xoşbəxt etsin! Həyatını məni mühafizə edən ruhlardan daha yaxşı ruhlar mühafizə etsinlər! Əziz balalar, haradasınız? Yaxın gəlin, bax belə, qardaşınızın əlləri sizi oxşasın. Doğrudur, bu əllər sizi dünyaya gətirən atanın vaxtilə parlayan işıqlı gözlərini indi gördüyünüz şəklə salmışdır. Atanız özü görmədən və bilmədən doğulduğu qadından sizi doğurmuşdur. Sizin halınıza ağlayıram. Gözlərim sizi görməsə də, insanlar arasında keçirəcəyiniz ağır günləri təsəvvür edirəm. Siz hansı həmvətənlərlə bir məclisdə əyləşə biləcəksiniz? Hansı toybayramdan siz şadlıq əvəzinə kədərlə qayıtmayacaqsınız? Siz ərə getmək yaşına çatarkən sizi kim alacaq? Sizə, bizim nəslimiz kimi mənfur bir nəslə kim yaxın düşər? Başınıza hansı bəla gəlməmişdir. Atanız öz atasını öldürmüş, özünü doğan ana ilə evlənmiş, sizi isə özünü doğan anadan əmələ gətirmişdir. Sizi bu cür ləkəli sayacaqlar. Kim sizin nişanlınız olmaq istər? Belə adamlar heç vaxt tapılmayacaq və siz yetimlər şübhəsiz ki, evdə qız qalıb solacaqsınız.

Ey Kreont! İndi onların atası yalnız sənsən. Çünki onları dünyaya gətirilənlərin hər ikisi artıq məhv olmuşdur. Onların səfil-sərgərdan çöllərə düşmələrinə, ərsiz-evsiz qalmalarına, mənim kimi bədbəxt olmalarına razı olma! Onların, bu kiçik yavruların, yeganə pənahısan. Heç bir kəsləri yoxdur. Ey alicənab insan, and iç və əlinlə mənə toxun.

(*Kreont ona əl verir. Antiqona və İsmenaya*) Sizə isə, uşaqlar, əgər ağlınız kamilləşmiş olsaydı, çoxlu vəsiyyət edərdim. Taleyin hökmü necədirsə, elə də yaşayın. Atanızın həyatından daha yaxşı bir həyat nəsibiniz olsun!

Qızlarını qucaqlayır, Kreont və xor ağsaqqalı ilə vidalaşır. Çoban ona əsa verir. Edip əlini onun çiyninə qoyur və əsanı yerə sürtə-sürtə saraya tərəf gedir.

K r e o n t. Göz yaşları axıtdın, bəsdir. Get saraya.

E d i p. Nə qədər ağır olsa da itaət edirəm.

E d i p. Mənim şərtimi bilirsənmi?

K r e o n t. Söylə, eşidib bilərəm.

E d i p. Məni ölkədən qov.

K r e o n t. Buna allahın hökmü lazımdır.

E d i p. Allahların yanında mən mənfur bir bəndəyəm.

K r e o n t. Elə buna görə də hökm tez sadir olar.

E d i p. Elə isə əmr et, məni yola salsınlar.

K r e o n t (*Antiqona və İsmenanı göstərir*). Sən get, onlar qalsınlar.

E d i p. Onları mənim əlimdən alma.

K r e o n t. Hər şeyə sahib olmaq arzusundan düş. Sahib olduğun şeylər sən gedərkən heç vaxt ardınca gəlməz.

X o r. Ey doğma Fiv torpağının sakinləri! Budur, Edip qarşınızda dayanmışdır. O, hikmət və şöhrət sahibi bir hökmdar idi. Çoxları onun taleyinə həsədlə baxırdılar. Görün indi nə qədər dəhşətli bir fəlakət girdabına yuvarlanmışdır. Biz bəndələr öz son günlərimizi daima göz önündə tutmalıyıq. Həyatda bütün bədbəxtliklərin üstündən atlamayan və qədəmini son pilləyə basmayan heç kəsə xoşbəxt demək olmaz.

Faciənin sonu

"EDİP KALONDA" FACİƏSİNİN QISA MƏZMUNU

Bu əsərdə "Tiran Edip"dən sonrakı hadisələr təsvir edilir. Öz gözlərini çıxarmış Edip, qızı Antiqona vasitəsilə Fivdən ayrılır və Kalona tərəf yola düşür. Kalon sərhədində gözətçilər onu Kalona buraxmırlar. Onun qəbulu üçün ölkənin hökmdarı məclis çağırmalı və müzakirə etməlidir. Edipin ikinci qızı İsmena gəlib çıxır. İsmena Fiv sarayında baş verən hadisəni danışır. Məlum olur ki, əvvəl qardaşlar (Eteokl və Polinik) hakimiyyəti dayıları Kreonta vermək istəmişlər, lakin sonra hakimiyyət üstündə vuruşmağa başlamışlar.

Kiçik qardaş Eteokl dayısının köməyi ilə Poliniki Fivdən qovmuş, özü hakimiyyəti ələ almışdır. Polinik isə Arqosa getmiş, orada evlənmiş, başına ordu yığaraq Fivə hücuma hazırlaşır. Hatifin qərarı ilə Edipi Kalona qəbul edir.

Edip haqqında qərardan xəbər tutan Kreont Edipin dalınca gəlir. Onu ilk əvvəl xoşluqla Fivə dəvət edir. Edip razı olmur. Öz oğluna lənət oxuyur. Kreont onu zor ilə aparmaq istəyir. Tezeyin gözətçiləri və xalq mane olur. Kreont əliboş geri qayıdır. Sonra Edipin böyük oğlu Polinik gəlir. Atasını öz tərəfinə çəkmək istəyir. Edip ona da rədd cavabı verir. Antiqona qardaşını bu vuruşmadan çəkindirmək üçün ona çox yalvarır. Çünki məlum idi ki, qardaşlar bir-birilərini öldürəcəklər.

Elə də olur. Vuruşmada Eteokl ilə Polinik qarşı-qarşıya çıxırlar, birbirlərini ağır surətdə yaralayırlar. Ağır yaradan sonra ölürlər. Bu xəbər gəldikdən sonra Edip ölümün yaxınlaşdığını hiss edir; bu barədə Tezeyə xəbər verir. Tezey ilə bir yerdə evmenidlərin (şəfqət allahları) müqəddəs meşəsinə gedir; torpaqların altında özünə rahatlıq tapır.

Antiqona ilə İsmena isə qardaşlarının taleyini yerində görmək üçün Fivə qayıdırlar.

Bundan sonrakı hadisələr "Antiqona" əsərində verilmişdir.

ANTİQONA

İŞTİRAK EDƏNLƏR

Kreont – Fiv hökmdarı
Evridika – onun zövcəsi
Hemon – onların oğlu
Antiqona, İsmena – sabiq tiran Edipin qızları
Tirezi – kor falçı
Uşaq – Tirezinin köməkçisi
Keşikçi
Birinci qasid
İkinci qasid
Xor korifeyi,
Ağsaqqallar xoru

Hadisə Boetiy Fivində, sarayın önündə vaqe olur.

Antiqona

İsmena, ey mənim mehriban bacım!
Bilirsənmi yazıq Edip nəslini
Zevs fəlakətə məhkum eləmiş?
Qəm, kədər, fəlakət, biabırçılıq
Bizə nəsib olmuş. Bilirəm özüm
Nələr danışılır indi şəhərdə.
Hökmdar Kreont verdiyi fərman
Sənə də məlumdur, bizim düşmənin
Qardaşımız üçün böyük fəlakət
Olacaq qəsdindən xəbərin varmı?

İsmena

Yoxdur, Antiqona! Bilirsən özün,
Heyf... Bir-birinin qıyan əlilə
İki qardaşımız öldü bir gündə
Nə qəmli, nə də şad xəbər deyməmiş.
Mənim qulağıma o gündən bəri,
Bir onu bilirəm: Həmin bu gecə
Arqiv qoşunları birdən çəkilmiş.
Vəssalam! Bundan da məlum ki, bizə
Nə bir zərrə xeyir, nə də zərər var!

Antiqona

Onsuz da bilirdim sən bixəbərsən...
Saraydan buraya çağırmaqda da
Məqsədim odur ki, kimsə bilməsin
Xəlvətcə danışım bu bəd xəbəri.

İsmena

Nə olmuş, görürəm çox həyəcanlısan?

Antiqona

Belədir, Kreont bizim qardaşın
Birini dəfn etmiş şərəflə, şanla.
Digəri şərəfsiz edilmiş əfsus...
Deyirlər Kreont adətlə, dəblə,
Eteoklu dəfn edib, o da Aidin
Müqəddəs adına layiq olmuşdur.
Lakin bədbəxt, mərhum Polinikinsə
Dəfn edilməsini tez carçılarla
Bütün əhaliyə yasaq eləmiş:
"Quşlara ləzzətli yem olsun deyə,
Üstü açıq qalsın onunçün kimsə
Ağlayıb ah-fəryad etməsin gərək!"
Deyirlər mərhəmət sahibi Kreont,
Bu haqda sənə də, mənə də bəlli...
Mənim özümə də tapşırıq vermiş...
Budur, özü gəlir, bilməyənlərə
Əmrini, hökmünü bildirmək üçün,
O bu işə böyük əhəmiyyət verir.
Bu əmrə itaət etməyənləri,
Daş-qalaq etdirib öldürə bilər.
Oxşayacaqsanmı görüm əslinə,
Yoxsa ki, namuslu, adlı adamdan.
Alçaqmı, rəzilmi doğulmuş bacım?

İsmena

Mən bədbəxt, söylə bir nə edim indi,
Kömək, maneçilik məndən aslımı?

Antiqona

Bax, görüm arxamda duracaqsanmı?

İsmena

O çətin iş nədir, de, fikrin nədir?

Antiqona

Mənimlə tabutu götürərmisən?

İsmena

Yoxsa dəfn etməyi qərara aldın?
Bu ki, bizə qəti yasaq edilmiş!

Antiqona

Lakin ölən bizim qardaşımızdır.
Yəqin bil, bu işdən sən çəkilsən də,
Mən ona xəyanət edə bilmərəm.

İsmena

Heç qorxun yoxmudur? Bu hökmdarın
Məgər zidd deyilmi iradəsinə?

Antiqona

Bilirəm Kreont malik deyildir,
Mənə sədd olacaq gücə, qüdrətə!

İsmena

Bacı, çox əfsus ki, bizim atamız
Çıxarıb gözünü öz əllərilə
Faş edib özünün xəyanətini,
Hamının gözündə düşdü hörmətdən,
Atam arvad edib öz anasını,
Eşilmiş ilməkdən asıb özünü
Biabır bir halda öldü anamız.
İki qardaşımız, iki bəxti kəm
Bir gündə öldürüb bir-birlərini
Eyni bir taleyə sahib oldular.
İndi sən bir düşün qalıb kimsəsiz,
Fəlakət içində məhv oluruq biz.
Əgər asi olsaq biz hökmdara,
Tapdamış olarıq qanun-qaydanı,
Qadın doğulmuşuq bir də, unutma!
Bizim kişilərlə toqquşmağa heç
Haqqımız da yoxdur, zira erkəklər
Daima hakimdir üzərimizdə.
Onlar itaət vəzifəmizdir.
Üzümü tuturam ona görə də
Yeraltı aləmin allahlarına.
Mən hakim olana müti oluram.
Madam ki, bir daşa gücün çatmayır,
Ondan yapışmağın mənası yoxdur?

Antiqona

Daha istəsən də təklif etmərəm
Kömək eləsən də bil ki, xoş gəlməz
Necə olursan – ol, qaçan deyiləm.
Borcumu yerinə yetirib, sonra
Şərəflə ölərəm, günah eləyib
Qanunu pozaram, lakin yanaşı
Yataram qəbirdə əzizimlə mən!

Xoşdur ölənlərin xoşuna getmək,
Xoşuna gəlməkdən yaşayanların.
Əbədi məskənim çünki məzardır.
Bacım! İstəyirsən sən allahlara
Xoş gələnləri sev, ya da ki, sevmə.

İ s m e n a

Hər zaman sevmişəm mən allahları,
Fəqət xalqıma zidd gedə bilmərəm.

A n t i q o n a

Yayına bilərsən... Yalnız mən özüm
Gedib əzizimi dəfn eləyərəm.

İ s m e n a

Dəhşət! Mən əsirəm sənin yerinə!..

A n t i q o n a

Mənim dərdimi yox, öz dərdini çək!

İ s m e n a

Barı heç olmasa bu sirri özün
Kimsəyə söyləmə, mən də açmaram!

A n t i q o n a

Təəssüf!.. Hamıya açıb deməsən,
Ömrüm boyu sənə nifrət edərəm!

İ s m e n a

Ölüm qorxusu var, lakin odlusan...

A n t i q o n a

Kimlərin xoşuna getməliyəmsə,
Mənim onlara da hörmətim vardır.

İ s m e n a

Əlimdən gəlməyir... Mümkün olsaydı...

A n t i q o n a

Yox! Geri durmaram haldan düşməmiş!

İ s m e n a

Əbəsdir yapışmaq düzəlməz işdən

A n t i q o n a

Narazı qalıram, bax, bu nitqindən
Mərhumun ruhu da inciyər səndən!
Eyibi yox, ağılsız desəniz də mən
Şərəfsiz ölümə dözə bilmərəm
Duymaq istəyirəm bu dəhşətləri.

(*Gedir*)

İ s m e n a

Eybi yox, sən necə istəyirsən et!
Görürəm çılğınsan, başı odlusan
Lakin sədaqətə sadiqsən yenə...

(*Gedir*)

PAPOD

X o r

BİRİNCİ STROF

Ey yeddi darvazalı
Bu gözəl Fiv şəhərini,
Yüz dəfə gözəl edən
Həmişə olduğundan

Parlaq günəş ziyası!
Gündüzlərin bəbəyi,
Nuru olan şamını
Yandırdımı nəhayət?!
Sən bu Dirka çayının
Dalğası üzərində,
Gələn kimi bizlərə
Təpədən dırnağadək
Silahlanmış cəngavər
Ağ qalxanlı ağ Arqos
Qoşununu, bir də ki,
Onlara bələd olan
Poloniki – xaini
Qovdun vətənimizdən!
O gələndə özüylə
Qoşunlar gətirmişdi.
Onun müharibləri
Başlarında qabağı
At yalmanlı, at yallı
Parlayan dəbilqələr,
Ağ qanadlı quzğuntək
Cumdular üstümüzə!

BİRİNCİ ANTİSTROF

Bu yeddi darvazalı
Fivi qamarladılar.
Mühasirə olunmuş
Şəhərin üzərində
Cərgələndi nizələr.
Açıb ağızlarını
Quduz canavar kimi
Tezcə hazırlaşdılar
Qanımızı içməyə.
Lakin Hefest qətranla
Yanan məşəllərini

Hələ işə salmamış,
Qələnin əklilləri
Alovlanmamış hələ,
Pozğun düşdü qoşuna,
Arxadan Arey belə
Nərə çəkdi ucadan
Düşmən qoşunlarına.
Həmlə etdi Drakon.
Zira ki, ta əzəldən
Zevsin bu cür lovğalar
Heç xoşuna gəlməmiş
Nifrət etmiş onlara.
Zirehli, dəbilqəli
Gümüş kimi parlayan
Düşmən döyüşçüləri
"Mənəm-mənəm" deyərək,
Gurlayaraq çöllərlə
Üstümüzə gələndə,
Düşmənin sərkərdəsi
Hamının qabağında
"Müzəffər çıxdıq" deyə
Lovğalanmaq istərkən
Onu sərdi torpağa
Zevsin ildırımları.
O Bakxdan mülhəm olmuş
Sürətli küləklərin
Zəhmini duyan kimi
Dəhşətli səs-küy ilə
Ağzı üstə sərildi
Düz bu qara torpağa
Lakin böyük mərhəmət
Sahibi olan Arey
Seçdi dostu, düşməni
Verdi layiqilə o
Hər kəsin öz payını.
Bu yeddi darvazanın
Hər birinin önündə

Bir sərkərdə dayandı.
Qalib çıxan başçılar,
Bu dünyaya gələnlər,
Faciəli ölümlə
Bir zamanda ölənlər
İki düşmən, iki dost -
İki qalib nizədən
Başqa hamı dayandı,
Hamı qoydu meydana
Aldığı qəniməti.

İKİNCİ ANTİSTROF

Sonra şanlı, şərəfli
Qələbə ilahəsi
Nika gəldi oraya.
Fiv şəhərinə özüylə
Hədiyyələr gətirdi
Döyüş arabaları.
İndi o cəngavərlər
Yoxdur daha dünyada
Biz onları unutduq;
İndi hamı bu gecə
Xor oxuya-oxuya
Üz qoysun məbədlərə[1],
Qoy indi Fiv şəhrini
Vurub ayaqlarını
Vəcd ilə oynayaraq
Bakx bəyəndiyi tək
Özü idarə etsin!
Lakin göz qoyun yenə
Menekeylər nəslindən
Olan hökmdar – Kreont
Allahların əmrilə
Yeni bir fəlakətin
Qarşısında dayanmış!
Görünür ki, müəyyən

Bir fərmanla, qərarla
Yanımıza gəlməyə
Xeyli vaxtdır tələsir
Odur ki, car çəkdirib,
Bütün başbilənləri
Buraya toplayaraq
Yığıncaq düzəldəcək.

Kreont daxil olur.

BİRİNCİ EPİSODİ

Kreont

(*xora*)

Ey Fivin başbilənləri!
Bizim müqəddəs allahlar
Mərhəmətlə şən etdilər
Bərbad olmuş şəhərləri.ı
Buyurmuşdum carçılara
Car çəksinlər, hamı gəlsin
Bizim bütün başbilənlər,
Şəhərin ağsaqqalları!
Mən bilirəm Lay nəslini
Hörmətlə yad edirsiniz.
Edip bizim ölkəmizi
Abad etdi, güşad etdi,
Siz onu da sevirsiniz
O zaman ki, Edip öldü,
Həlak oldu uşaqları.
Yadımdadır, siz hünərlə
Mənim arxamda durdunuz
Bilirsiniz iki qardaş
Bir-birini həlak etdi,
Bilirsiniz öz qanları
O dost-doğma qardaşların

Əllərini ləkələdi.
Bilirsiniz hamınızdan
Mən yaxınam ölənlərə,
Xanədanlıq mənə çatır
Mən də qəbul etməliyəm.
Lakin dövlət işlərində
Özlərini göstərməmiş
Adamları tez tanımaq
Mümkündürmü? Əlbəttə, yox!
Məni bilmək istəsəniz
Fikrim budur: Yaxşı sözə,
Məsləhətə kəmetina,
Qorxusundan bir qul kimi
Əli-qolu bağlı olan,
Öz ağzına qıfıl vuran
Hakimləri sevməyirəm!
Kim dostunu vətənindən
Əziz tutsa bilin ki, siz
O burada qalmayacaq.
Hər bir gücə qadir olan
Zevs özü də yaxşı bilir,
Hər bir vətən əhlinə mən
Yaxşı günlər diləmişəm.
Lakin onlar fəlakətə
Doğru azca meyl edərkən
Bir an belə susmamışam.
Bu ölkəyə düşmən olan
Mənim dostum ola bilməz!
Əgər düzgün yolla getsən
Dostlar özü rast gələcək
Hər bir şeyi tapmaq olar,
Lakin vətən misilsizdir.
Onun qəlbi səadətin,
Xoş günlərin məskənidir.
Bu düzgün məsləhətlərlə
Tanıdaram məmləkəti.
İndi vətəndaşlarımı
Agah edim, iki qardaş

Edip şahın oğlanları:
Mərd Eteokl vətənimiz
Uğurunda rəşadətlə
Vuruşaraq həlak olmuş,
Biz şərəfli ölənləri
Ləyaqətlə dəfn edirik.
Mərd Eteoklun cənazəsi
Şan-şərəflə götürüldü.
Qaldı ki, o – Eteoklun
Dost-doğmaca qan qardaşı -
Polinik öz ölkəsini
Allahları, çox müqəddəs
Ocaqları istədi ki,
Kül eləsin, bölük-bölük
Əsir alsın insanları
Qolu bağlı qul eləsin.
İndi onun haqqında mən
Bütün elə bildirirəm:
Gərək onun murdar leşi
Torpağa dəfn edilməsin!
Üzərində ağlanmasın,
Bir gilə yaş tökülməsin
Onun leşi qurda-quşa,
Ac itlərə yem edilsin!
Mənim hökmüm budur, bilin!
Cani, fədakarla mənim
Gözümdə bir ola bilməz.
Kim vətənə sadiq olmuş -
İstər ölü, istər diri -
Daim hörmət görər məndən.

Korifey

Ey Menekin oğlu Kreont
Vətənin dostu, düşməni
Onun öləni, qalanı
Haqqında qərar verməyə
Tamam külli-ixtiyarsan.

Kreont

Lakin belə bir hökmü sən
Tətbiq edə bilərmisən?

Korifey

Kim ki, nisbətən cavandır
Ona tapşır bu hökmünü.

Kreont

Ancaq meyitin yanına
Keşikçilər qoyulmuşdur.

Korifey

Belə olan bir surətdə
Özgəyə buyruğun nədir?

Kreont

Hər kim müti olmayırsa
Qanunlara, qaydalara
Heç bir güzəştə getmədən
Ona cəza verməliyəm!!!

Korifey

Hansı axmaq ölüm dilər?

Kreont

Bu doğrudur, günahkarlar
Özləri də yaxşı bilir.
Lakin təmə – kor xəyanət
Onu çəkir fəlakətə.

Keşikçi yüyürüb gəlir.

Keşikçi

Hökmdar zənn etməsin ki,
Tez, çaparaq gəlmişəm mən
"Gedim, yoxsa geri dönüm"
Fikri məni düşündürdü.
Öz-özümə deyirəm ki,
"Bədbəxt! Nəyə tələsirsən?
Oradakı ölüm sənin
Yollarına müntəzirdir.
Geri dönmək?.. Mənasızdır.
Onsuz da bu bəd xəbəri
Hökmdar tez birisindən
Eşidəcək, onda sənin
Harayına kim çatacaq?"
Bu dolaşıq fikirlərlə
Ağır-ağır gəlib çıxdım.
Ey hökmdar, hər nə olmuş
Açıb sənə deyəcəyəm.
Mənim bircə ümidim var.
Tale bizə nə yazmışsa,
Ona əsla pozu yoxdur.
Mən taleyin necə olsa
Dözəcəyəm bu hökmünə!

Kreont

Nə var, nədən qorxmuşsan?

Keşikçi

Öncə demək lazımdır
O işi mən etməmişəm.
Edəni də görməmişəm.
Cəza çəksəm nahaq yerə
Düz olarmı? Əlbəttə, yox!

Kreont

Oxunu çox düz atırsan,
Yayını tez gizlədirsən,
Səndə mühüm bir xəbər var.

Keşikçi

Qorxulu iş özü, qorxu yaradır...

Kreont

Müşərrəf eləm, de, itil burdan!

Keşikçi

Bu saat deyirəm: yaxın günlərdə
Birisi meyiti dəfn eləmişdir.
Bizim adətlərə uyğun olaraq
Torpaq də tökmüşdür onun üstünə.

Kreont

Nə deyirsən? Bizim vətəndaşlardan
Kim cürət edərdi?

Keşikçi

Nə deyim, düzü,
Baltadan, kürəkdən əsla bir nişan
Görmədik, yer də ki, tamam qupquru.
Nə bir təkər izi, nə qazıntı var
İzi də qalmamış heç müqəssirin
Birinci növbənin keşikçisindən
Heyrətli bir xəbər eşitdik əfsus!
Doğrudur, heç bir yer qazılmamışdı
Yəqin meyit murdar olmasın deyə
Torpaq səpmişdilər onun üstünə
Bir canlı görmədik oralarda biz
İt-pişik meyitə toxunmamışdı.
Lakin aramızda qilü-qal düşdü.

Getdikcə böyüdü sevinc, mərəkə
Az qaldı ki, böyük fəlakət ola.
Bir adam yox idi araləşdıra.
Bu işdə hamımız müqəssir idik.
Lakin heç bir kəsi, düzü müqəssir
Etmək olmayırdı, hamı and içir -
Hamı bir qızarmış dəmir əlində,
Hazırdır odların keçsin içindən
Düşünüb-daşındıq elə bu zaman
Biri bir söz dedi keşikçilərdən
Heyrətdən qanımız dondu bədəndə,
Böyük xəcalətdir... Lakin biz bunu
Sənə bildirməyi qərara aldıq...
Kim desin? Çöp atdıq istər-istəməz
Mən oldum qasidi o bəd xəbərin
Könüllü-könülsüz yanına gəldim.

Korifey

Hökmdar, başıma bir fikir gəlir!
Bəlkə buyruğudur bu allahların?

Kreont

Sus! Mənim qəzəbim aşıb-daşmamış!
Ağılsız danışma ixtiyar çağı!
Nədir danışdığın? Guya allahdır
Bizim məbədləri odlara yaxmaq,
Talamaq istəyən xəzinəmizi,
Bütün qanunları ayaqlayaraq
İflasa çalışan bu yurdumuzu -
Mənfur meyitini bir ziyankarın
Günahsız ölənin cənazəsilə
Bir tutub, ona da hörmət eləyir?
Belə şey olmuşdu? Yox, ziyankarlar
Əsla bu hörməti görməyəcəklər!!!
Mənim qərarımı eşidən zaman
Bütün qiyamçılar narazı qalıb -
Dartınıb xəlvəti boğazlarını

Çıxarmaq istəmiş boyunduruqdan
Satqın keşikçilər susamış pula,
Qanunu-qaydanı ayaqlamışlar.
Fəlakətə salır pul insanları,
Qaçırır onları eldən, obadan.
Böyük şəhərləri bərbad eləyir,
Təmiz ürəkləri ləkələyir pul.

(*Keşikçiyə*)

Lakin əkdiyini biçəcək hər kəs,
Müqəssir alacaq cəzasını tez.
Hörmət bəslədiyim müqəddəs Zevsə
Hamının yanında and içirəm ki,
Onu basdıranı, kim olur-olsun
Tapıb tez yanıma gətirməsəniz
Müqəssirdən qabaq sizin özünüz
Çox ağır cəzalar çəkəcəksiniz!
Hərgah min işgəncə, min əzab versəm
Məcbur olarsınız açıb deməyə
Onda qanarsınız mayasız qazanc
Sizə xeyirdən çox zərər gətirir.

K e ş i k ç i

İcazə olarmı, yoxsa qayıdım?

K r e o n t

Dilin çox acıdır, bilirsənmi sən?

K e ş i k ç i

Nə cəhətdən dedin? Nitqim qəlbinə,
Yoxsa qulağına toxundu sənin?

K r e o n t

Cəhətini düzgün bilməyin neçin?

K e ş i k ç i

Müqəssir qəlbini incitmiş sənin,
Mən də qulağına toxundum yəqin.

K r e o n t

Təəssüf... Anadan görünür ki, sən
Boşboğaz doğuldun, elə deyilmi?

K e ş i k ç i

Hər halda bu işdən yoxdur xəbərim

K r e o n t

Yaxşı var, bilirəm, hətta pul üçün
Namusu, vicdanı yaxşı satmısan!

K e ş i k ç i

Təəssüf!..

(*Kənara*)

Belə bir yanlış qənaət
Haradan doğmuşdur, bu hiddətlidir?..

K r e o n t

Nə istəyirsən de; lakin əgər siz
Tapıb günahkarı gətirməsəniz.
Murdar qazancınız qana dönəcək!

(*Gedir*)

K e ş i k ç i

Yaxşı olardı ki, onu axtaraq
Fəqət tapılacaq, tapılmayacaq -

Asılıdır, şübhəsiz, bir təsadüfdən.
Yox! Bir də buraya dönən deyiləm!
Şükür allahların kəramətinə
Ölümdən sivişdim, gözlənilmədən.

(*Gedir*)

BİRİNCİ STASİM

Xor

BİRİNCİ STROF

Bu dünyada qüvvətli
Canlılar az deyildir.
Lakin insan dünyada
Hər şeydən qüdrətlidir.
O qışda tufanları,
Azğın qasırğaları
Yararaq, dənizlərin
Ağ saçlı dalğaları
Üzərinə cürətlə,
Cəsarətlə atılır.
O sevdiyi dostunu -
İş atını qoşaraq,
Kotanla bu torpağın
Sinəsini yararaq,
Açır dərin şırımlar,
Beləliklə də insan
Ölməz, yorulmaz Geya
Sıxışdırır torpaqdan.

BİRİNCİ ANTİSTROF

O məharət sahibi
Cələ qurur, tor qurur
Bölük-bölük quşları,
Heyvan sürülərini:
Girdabların içində

Dəniz heyvanlarını
Tezcə ələ gətirir.
Min fəndlə, əməllə
Dağları məskən edən
Yırtıcı heyvanları
Xam atları, dəlisov
Yabanı öküzləri
Ram eləyir özünə.

İKİNCİ STROF

O yaratdı dilləri,
Qanadlı fikirləri
Ox kimi dəlib keçən,
Şiddətli soyuqlardan
Göydən sel kimi axan
Ağ yağmurdan, yağışdan
Hifz olunum – deyə o
Ev tikdi, məskən etdi.
O, məğlub eləsə də
Bütün xəstəlikləri
Ancaq bircə Aiddən
Yaxa qurtara bilmir.

İKİNCİ ANTİSTROF

Lakin ümidli olub
O bəzən öz əqlinə
Sonsuz məharətinə
Seçə bilməyir pisi
Uzun müddət yaxşıdan,
Gah pisliyə meyl edir
O gah da yaxşılığa.
Qəvi hökmdar olan
Bizim doğma ölkədə
Qanuna, məhkəməyə,
Müqəddəs allahlara
Daima hörmət edir.
Kimlər ki, bu ölkədə

Cinayətə meyl edir
Pis günə düşür onlar.
Qoy gözümün önündə
Bir daha durmasınlar.
Nə o sayaq adamlar,
Nə də ki, o pislərlə
Yaxın dostluq edənlər.

K o r i f e y

Çox təəccüblü möcüzə
Görüb şübhələrimlə
Mübarizə edirik...
Təəssüf, özgənin yox,
Qızın – Antiqonanın
Müqəssir olduğunu
Bildiyim halda bunu
Necə dana bilərəm?
Sən, ey bədbəxt hakimin
Bədbəxt olan övladı!
Sənin başın bəlaya
Ona görə düşdü ki,
Çılğın oldun əzəldən
Hökmdarın əmrinə
İtaət eləmədin.

İKİNCİ EPİSODİ

Birinci səhnə

K e ş i k ç i

(*Antiqona ilə daxil olaraq*)

Budur, axtarılan müqəssir haman
Bunu biz meyiti dəfn edən zaman
Tutmuşuq. Kreont özü haradadır?

K o r i f e y

O, qəsrdən çıxmış, bu saat gələr.

(*Kreont daxil olur.*)

K r e o n t

Nə olub, məni kim çağırmış, deyin?

K e ş i k ç i

Ey hökmdar, gərək insan qabaqdan
Bir işə hökm edib heç and içməsin!
Elə ki, dönürsən sonra fikrindən
Qabaqkı qərarın yalan görünür.
Qorxumdan deyirdim bir də buraya
Gəlmərəm, doğrusu, gözlənilməyən
Sevinc güclü olur əyləncələrdən
And-aman etmişdim, olmadı yenə
Gəldim, fəqət daha çöplə gəlmədim,
Buyurun! Gətirdim qızın özünü!
Tutulmuş, meyiti yandıran zaman
Bunu özgəsi yox, özüm tapmışam,
İndi, ey hökmdar, buyur təhvil al,
Lazım gəlsə faş et, mühakimə et!
Haqqım var cəzadan azad olmağa.

K r e o n t

Lakin doğru söylə, de görüm bunu
Haradan və necə tutub gətirdin?

K e ş i k ç i

Özün bilirsən ki, həmin meyiti
Dəfn edən bu qızdır

K r e o n t

De görüm sənin
Əqlin başındamı, düzmü deyirsən?!

Keşikçi

Bəli, düz deyirəm; yasaq edilmiş
Leşi basdırarkən gözümlə gördüm
Fikrimi mən aydın demirəm məgər?

Kreont

Söylə, onu necə tuta bildiniz?

Keşikçi

Əhvalat belədir: elə ki, sənin
Eşitdim qorxulu təhdidlərini
Gecə dönər-dönməz leşin üstünə
Yuxaca səpilmiş tozu, torpağı
Süpürdüm, fəqət o getdikcə artıq
Pozulmaq üzrəydi; əsdikcə külək
Durmaq olmayırdı üfunətindən.
İyi burnumuza dəyməsin deyə
Balaca təpənin başına çıxdıq
Gecə durmaq üçün keşikdə möhkəm
And içdik, söz qoyduq; söhbət uzandı –
Gün çıxana kimi sevinc, qiyamət...
Göylərin qəzəbi tutdu yerləri
Birdən boran qopdu, tufan başladı,
Bürüdü dünyanı bir anda sel-su
Töküldü yarpağı göy ağacların
Çökdü yer üzünə qara toz, duman
Yumub gözümüzü xeyli gözlədik
Göylərin qəzəbi dayansın deyə
Külək dinər-dinməz öz yuvasını
Balasız, peşiman görən quş kimi
Bu qız da oldu ağlar, mükəddər...
O, leşi çıl-çılpaq görən kimi tez
Fəryada başladı, onu bu hala
Salana lənət və nifrət oxudu

Dərhal gətirdiyi iri mis qabdan.
Meyitin üstünə torpaq tökərək
Xeyir-dua verdi ona yenidən
Bunu görən kimi yüyürüb, dərhal
Cinayət yerində tutduq qızı biz
Mən buna həm qəmgin, həm də şad oldum.
Nə qədər xoşdursa xilas eləmək
Özünü çox ağır bir fəlakətdən,
O qədər ağırdır yaxın dostunu
Ağır fəlakətə düçar eləmək!
Lakin necə olsa məndən ötrü
Əzizdir, şirindir öz səadətim
Özgənin ən ağır fəlakətindən.

Kreont

(*Antiqonaya*)

Başını aşağı tutmusan indi...
Təqsiri boynuna alırsan, ya yox?!

Antiqona

Mən inkar etmirəm etdiklərimi.

Kreont

(*keşikçiyə*)

İndi sən haraya gedirsənsə get!
Ağır ittihamdan azad edildin

(*Antiqonaya*)

De görüm bu haqda olan buyruğu
Bilirdinmi?

Antiqona

Bəli! Yaxşı bilirdim.

Kreont

Demək, bilə-bilə cürət eləyib
Qanunu-qaydanı ayaqlamışsan?

Antiqona

Bu qanun nə Zevsin, nə də Dikanın
Xalqa tapşırığı, hökmü deyildir.
Mən zənn etmədim ki, sənin buyruğun
Nə qədər güclüdür, hətta allahın
Müqəddəs, yenilməz qanunlarını
Ayaqlaya bilər, tapdaya bilər.
Dünəndən, bu gündən deyil ki, bilək
Nə zamandan bəri onlar dünyada
Yaşayır, kimsəyə məlum deyildir...
Bircə allahların hüzurunda mən
Çalışdım düz olam, yoxsa ki, sənin
Əslə çəkinmədim qərarlarından.
Sən ölümlə təhdid etdin, etmədin
Bilirdim onsuz da ölməcəyimi.
Mənim kimi yazıq, bədbəxt olana
Ölmək çox yaxşıdır, diri qalmaqdan
Bu ağır kədərin, qəmin yanında
Ölümə nə var ki, kaş tez öləydim...
Borcumu verməyib ölsəydim əgər
Bu mənə ölümdən ağır olardı.
Axmaqlıq zənn etsən əgər bunu sən
Demək mən axmağın hüzurundayam.

Korifey

(*öz-özünə*)

Qız da atası tək sərtdir, ötkəmdir
Heç bir fəlakətə boyun əyməyir.

Kreont

Unutma, sərt ağac daha tez sınır,
Çox zaman tez sınar polad dəmirdən.
Bilirsən, ram edir dəli atları
Boynuna keçəndə nazik bir kəmənd.
Hər kim dustaq olsa qohumlarına
Qoy heç güvənməsin o, qohumluğa.

(*Korifeyə*)

Qanuna-qaydaya əvvəla bu qız
Həyasızlıq edib nifrətlə baxdı.
Sonra utanmayıb öz əməlindən
Güldü mənə acı kinayələrlə
Əvəzində ağır cəza almasa
Onda kişi mən yox, qoy bu qız olsun!
Bu mənim dost-doğma bacım qızıdır.
Əgər ailələr hamisi olan
Zevs onu daha da yaxın etsəydi,
And içirəm, inan, yenə cəzasız
Qalmayacaq idi. Onunla hələ
Ayrı bir müqəssir onun bacısı
İsmena özü də cəzalanacaq.

(*Xidmətçilərə*)

Onu da çağırın! Oğurluq dərhal
Özünü bildirir. İndicə gördüm
Tamam sərsəm idi, demək dərdi var...

(*Antiqonaya*)

Mən nifrət edirəm, cinayətlərdə
Müttəhim edilən zamanda hər kim
Çirkin işlərini pərdələyirsə -
O mənim gözümdə alçaq adamdır.

Antiqona

Hökmdar, sən məndən nə istəyirsən -
Ölümdən artıq da bir cəzan varmı?

Kreont

Sən ölsən çataram öz məqsədimə.

Antiqona

Niyə məəttəlsən! Öldür! Onsuz da
Xoşuma gəlməyir sözlərin sənin
Məndən də yaxşı söz görməyəcəksən!
Mənə nə var? Daha borcumu verdim -
Ölümü dəfn etdim, bilirəm hərgah
Qorxu kəsməsəydi xalqın dilini
Mənə haqq verərdi bütün camaat
Bircə müstəbidlər sərbəstdir ancaq
Onlar hər şey deyir, hər şey edirlər.

Kreont

Nə oldu bu boyda Kadm nəslindən
Düzgün başa düşən bircə sən oldun?

Antiqona

Bu ağsaqqallar da mən fikirdədir,
Dinə bilməyirlər qorxularından.

Kreont

Görürsən heç dinib-danışan yoxdur.
Mənə ağ olmağın pis iş deyilmi?

Antiqona

Heç də pis iş deyil qardaşlarımın
Daim əziz tutmaq xatirəsini

Kreont

Yoxsa ki, onunla qabaq-qabağa
Vuruşaraq ölən qardaşın deyil?

Antiqona

Doğma qardaşımdır, danmıram onu.

Kreont

Bəs niyə asiyə hörmət eləyib
Şərəflə öləni təhqir edirsən?

Antiqona

Mərhum bu sözlərə layiq deyildir.

Kreont

Ya mömin, ya da ki tamam allahsız -
Sən üçün yəqin ki, hamısı birdir...

Antiqona

Ölən qardaşımdır, adi qul deyil!

Kreont

Lakin unudursan, onlardan biri
Fəth etmək istərkən əziz vətəni
Vətən keşiyində öldü digəri.

Antiqona

El üçün bir qanun istəyir Aid!

Kreont

Satqınla, sadiqin taleyi birmi?

Antiqona

(əlini aşağı uzadaraq)

Nə bilmək indidən biz o dünyada
Kim sadiq, kim satqın sayılacaqdır?

Kreont

Harda olur-olsun ölüm, düşməni
Hamı nifrət ilə qarşılayacaq!

Antiqona

Dosta nifrət üçün deyil yəqin bil
Onu sevmək üçün yaranmışam mən!

Kreont

(yeri göstərərək)

Daha o dünyada gedib sevərsən.
Lakin bu dünyada nə qədər sağam
Qadınlar ağalıq etməyəcəkdir!

İsmena daxil olur.

İkinci səhnə

Korifey

Bax, budur, İsmena gəlir saraydan
Onu qardaşının dərdi alıbdır.
Qara bulud kimi tutqundur üzü
Qoşa çaylar kimi axan göz yaşı
Sulayır qızarmış yanaqlarını.

Kreont

(İsmenaya)

Təəssüf ki, mənim öz sarayımda
İki əfi ilan, iki üsyankar
Düşmən olduğunu indi bilmişəm
İştirak etdinmi, söylə dəfndə?
Yoxsa ki, and içib – Yox! – deyəcəksən?

İsmena

Əgər Antiqona məqbul sanırsa
İştirak etmişəm, günahım vardır.

Antiqona

Mənim günahıma nahaqdan şərik
Olmağın düz deyil, Dika[16] da bunu
Düzgün hesab etməz, zira mən sənin
Doğrudan görmədim bir köməyini

İsmena

Çəkdiyin min əzab, min əziyyətə
Ölüm-dirim günü bu fəlakətə
Şərik olmağıma utanmayıram.

Antiqona

Hər kim can qoymuşsa bu işə başdan
Onu Aid bilir. Lakin quru söz -
Dildə olan sevgi kimə gərəkdir?

İsmena

Tabutun paklığı uğrunda mənim
Ölüm şərəfinə nail olmama
Güman sən narazı qalmayacaqsan?

Antiqona

Mən tək öləcəyəm, sənin mənimlə
Bərabər ölməyə layiqin yoxdur.

İsmena

Yaşaya bilmərəm sənsiz, əzizim!

Antiqona

Kreontdan sor bunu, daima onun
İtaət edirdin qanunlarına.

İsmena

Bundan özünə də bir xeyir yoxdur,
Nəyə əzab verir, əzab çəkirsən?

Antiqona

Acı gülüşlərlə sənə güləndə
Bilirsən nə qədər əzab çəkirəm?..

İsmena

De görüm o işdə mən nə cəhətdən
Sənincin faydalı ola bilərdim?

Antiqona

Özünü xilas et! Sağ qalmağına
İnan ki, heç qibtə etməyəcəyəm.

İsmena

Uf... Yazıq canım, sənin taleyinə
De, necə layiqdi, biganə qalım?

Antiqona

Mən ölüm yolunu seçdim o gündən
Sən də bu dünyada qalmaq, yaşamaq,

İsmena

Mənim susmağımın səbəbi lakin
Heç də bu deyildi.

Antiqona

Məlum olur ki,
Əgər bir cəhətdən mən haqlıyamsa
O biri cəhətdən sən haqlısanmış,
Hər kəs haqlı imiş qənaətində.

İsmena

Hər halda bir çıxar günahlarımız.

Antiqona

Bacım, cürətli ol! Sən yaşayırsan
Lakin mən ayrı bir aləmə getdim -
Artıq ölülərin arasındayam.

Kreont

(*xora*)

Bunlardan birinin yaxın zamanda,
Lakin digərinin anadan doğma
Dəli olduğuna inandım, artıq.

İsmena

Ancaq ey hökmdar, dərdə düşənin
Heç qala bilərmi ağlı başında?

Kreont

Görünür ağlını sənin qəm, kədər
Başından almışdır, odur ki, gəlib
Tez şərik olursan bu cinayətə.

İsmena

Necə yaşayaram, söylə, onsuz mən?

Kreont

"Onsuz" deyib durma, o daha yoxdur!

İsmena

Hökmdar, doğrudan öldürərmisən
Öz əziz oğlunun nişanlısını?

Kreont

Eybi yox, tapılar hər necə olsa
Kişilərə qadın, qızlara da ər.

İsmena

Nə qıza elə bir oğlan tapılar,
Nə də ki, oğluna elə gözəl qız!

Kreont

Mənim pis gəlinə nifrətim vardır.

Antiqona

Əziz Hemonum, sən əgər bilsəydin
Atan səni necə təhqir elədi?!

Kreont

Məni utandırdın sən öz toyunla.

Korifey

Hökmdar, çətindir, məgər bu qızdan
Məhrum edərsənmi öz oğlunu sən!

Kreont

Evlənmələrinə Aid onların
Mənim əqidəmcə son qoymuş artıq.

Korifey

Belə görünür ki, tale bu qızın
Ölümünü yazıb...

Kreont

Bizdən ötəri
Məlumdur ki, tale hər ikisinin

(*Xidmətçilərə*)

Xidmətçilər! Tezcə qəsrə aparın
Nəzarət altında qoyun bunları!
Dustaq eləyin ki, ölüm qorxusu
Hiss edər, hiss etməz hətta cəsurlar
Qaçıb qurtarmağa fürsət axtarar.

Keşikçi qullar İsmenanı və Antiqonanı aparırlar.

İKİNCİ STASİM

Xor

BİRİNCİ STROF

Hər kimin ki, həyatı
Keçmiş qəmsiz, kədərsiz
O xoşbəxtdir dünyada.
Fəqət kimin evinə
Rəxnə salmış allahlar

Ordan əsla fəlakət,
Şər uzaq olmayacaq –
Kəsməyincə nəslini
Yer üzündən tərtəmiz,
Frakiya dənizi
Qasırğalı olanda
Girdabların dibindən
Dənizin göy səthinə
Qara qumlar sovurur
Şiddətli dalğaların
Güclü təlatümündən
Bir gurultu qopur ki,
Sahil uçub tökülür.

BİRİNCİ ANTİSTROF

Labdak xanədanlığı
Necə uçub dağılır
Qədim ata-babadan
Nəvə nəticəsinə
Necə keçir fəlakət -
Öz gözümlə görürəm...
Fəlakət fəlakəti,
Ölüm də ki, ölümü
Təqib edir daima.
Yetən yoxdur imdada
Bu nəslə allahın da
Mərhəməti gəlməyir.
Bu qız Edip nəslinin
Hifz edilməyən, zərif,
İncə bir fidanıdır.
Zülmət qaranlığında
Kiçik qığılcım kimi
Heyf sönüb gedəcək.
Yeraltı, kor dünyanın
Qanlı təbərzinləri
"Ah, aman" eşitmədən

Bu fidanı doğrayır.
Qurban gedir zavallı
Dəli, çılğın ruhların
Qəzəbinə, kininə...

İKİNCİ STROF

Zevs, sənin gücünü
Məgər bu insanların
Lovğalığı dəf edər?
Zevsin yer üzündəki
Caniləri oxşayan
Onları bihuş edən
Yuxudan baqi yoxdur.
O yenilməz qüvvəyə
Heç yorulmaq bilməyən
Daim dönüb dolanan
Aidə güc gəlməyir.
Nə köhnəlik bilir o,
Nə də ki, bir qocalıq.
Sən ey, külli ixtiyar!
Səhər-səhər Olimpin
Qərq olaraq nuruna
Bizə qonaq gəlirsən
Bu dünyada hər zaman
İnsanlar üzərinə
Bir qanun hökmrandır:
İnsanların həyatı
Qəmsiz, kədərsiz olmaz!

İKİNCİ ANTİSTROF

Bəzən xəyal görünən
Şirin ümid insanı
Düz yollara çıxarır.
Bəzən də insanlara
Boş ehtiraslar üçün
Mənasız xəyal olur

Kimin ki, başı hələ
Daşdan-daşa dəyməmiş,
Körpə uşaqlar kimi
Təcrübəsizdir hələ,
Ümid onun qəlbinə
Daha tezcə yol tapır.
Müdrik bir adamındır
Söylədiyim bu sözlər:
O zaman ki, pis yola
Allah özü gətirir,
Onda qara gün sənə
Yaxşı bir iş görünür.
Lakin onu bil ki, sən
Amansız fəlakətdən
Əsla uzaq deyilsən.

ÜÇÜNCÜ EPİSODİ

Birinci səhnə

Korifey

Diqqət et o kimdir? Kiçik övladın
Taleyinə acıyıb nişanlısının
Evlənib o bədbəxt Antiqonaya,
Sonra da sarsılıb peşiman olan -
Hemon deyilmidir gələn buraya?

Kreont

Hatiflər hər şeyi müəyyən edir.

(*Hemona*)

Oğul, sən yəqin ki, nişanlın haqda
Verdiyim hökmdən hali olmusan
Xeyli qəzəblisən atana qarşı?

Hemon

Sən mənim atamsan, mən övladınam,
Zərərli olmaz ki, məsləhətlərin?
Mənə göstərdiyin doğru, düzgün yol
Üstündür, əlbəttə, toydan, nişandan.

Kreont

Oğul, heç unutma ürəyində tut!
Ata iradəsi önündə hər şey
Təslim olur. Məhz buna görə də
Düşmənə tək cavab verəcək,
Lakin dosta ata-babası kimi
Hörmət edə bilən, çox itaətkar
Övlad tərbiyəsi üçün daima
Allaha sidqlə dua edirik
Xeyirsiz, bəhərsiz övlad yetirən
Adamlar haqqında nə deyə billik?
Ata-anasına bu sayaq övlad
Ağır bir yük olur, qurğuşun yükü
Düşmənlər üçün də oyuncaq olur.
Oğlum, qadın üçün hissə qapılıb
Körpə uşaq kimi şıltaq eləmə!
Bala! Yaxşı bil ki, evlənəcəyin
Evin yaraşığı – evin gəlini
Yaramaz bir qadın çıxarsa əgər
Həqiqət deyirəm, inan ki, onun
Qucağı buz kimi soyuq olacaq.
Söylə, yaxın dostun bəd olmasından
Bəd azar, bəd yara varmı dünyada?
Ola bilməyəcək o sənə munis!
Əl çəkib yaramaz Antiqonadan
Aidə təslim et. Qoy o dünyada
Kimi istəyirsə onunla olsun
O, böyük pənahı ailələrin
Müqəddəs Zevsə də minnət eləsə
Şəhərə yalançı çıxa bilmərəm.
O qızın yırtıcı müti olmayan

Çirkin əməlini tamam necə var
Xalqa deyəcəyəm sonra da haman
İcra edəcəyəm ölüm hökmünü!
Sözümə baxmayıb öz qohumlarım
Əgər ağ olsalar mənim üzümə,
Onda nə gözləyim özgələrindən?
Kimin ev işində səriştəsi var -
Hamıya bir gözlə baxa bilirsə,
Ona hətta dövlət işlərində də
Etibar eləyib iş vermək olar.
İxtiyar, vəzifə sahiblərinə
Kəmetina olub, saymayanları
Əsla sevməyirəm, zira hər kimi
Camaat bir işə seçib qoyubsa
Ona da itaət olunmalıdır.
İnanmaq olar ki, yaxşı dövləti
Həmin adam sevər, həm də bacarar
İdarə etməyi, belə adamlar
Ən yaxın, ən güclü silahdaş kimi
Qızğın vuruşlarda yanında olur
Dünyada hər şeydən başıpozuqluq
Pisdir, qorxuludur, o şəhərləri
Dağıdır, məhv edir, xaraba qoyur.
Bir də görürsən ki, pozub səfini
Dağıdır müttəfiq qoşunlarını.
Bir qanun, bir qayda olarsa işdə
İtaət edirlər tapşırıqlara,
Onda tələfat da yəqin çox olmaz
Qanun mühafizə edilsin gərək
Güzəşt edilməsin qadın cinsinə!
Şayəd, işdi buna ehtiyac olsa -
Yenə kişilərin hakimiyyəti
Yaxşıdır qadınla hesablaşmaqdan.

Korifey

Ey hakim, yaşımın çoxluğu mənə
Haqq verir bu haqda fikrimi deyim
Dinlədim, həqiqət, çox düz buyurdun.

Hemon

Atacan, allahlar hər şeydən qabaq
İnsana dəyərli bir nemət verir.
O nemət şüurdur, vəzifə deyil!
Doğru olmasa da buyurduqların
Zidd gedə bilmərəm sənin hökmünə!
Lakin unutma ki, yer qulaqlıdır...
Camaat içində olan söhbəti
Sən eşitməsən də mən eşidirəm.
Yaxşılıq, yamanlıq nə söylənirsə
Elə bil hamısı qulağımdadır.
Bir fikir xoşuna getməyən zaman
Şəhər əhli üçün sərt baxışların
Nə qədər qorxuncdur. Məhz ona görə
Çəkinirlər sənə bir söz deməkdən
Lakin məndən əsla çəkinməyirlər.
Bütün şəhər əhli qəmgindir, ata!
O qızın dəhşətli müsibətinə -
Antiqona haqda deyir ki, hamı
"Qadınlar içində bir məsumədir.
Başına hər nə iş gətirilərsə
Onun cəsarətli olmağındadır.
Yazıq Antiqona, vuruşmalarda
Ölərkən dəfni yasaq edilmiş
Əziz qardaşının cənazəsini
Yırtıcı quşların və ac itlərin
Didib yeməsinə imkan verməyib
Dəfn etmək istəmiş. Odur ki, yazıq
Bu yolda günahsız məhv olacaqdır.
Qızıl mükafata layiqdir o qız!"
Belə söz gap gəzir indi hər yanda,
Lakin sən, atacan, əgər firavan,
Bəxtəvər yaşasan daha mən artıq
Nə arzu edərəm, bu mənə bəsdir.
Məlumdur, atalar övladlarının
Elə də övladlar atalarının
Şani-şöhrətilə fəxr eləyirlər.

Mən sənin xeyrini demək istərdim.
Sən elə zənn etmə, atacan yəqin
Bircə sən haqlısan, başqaları yox!
Hər kim xudpəsənddir, o zənn edir ki,
Ondan yaxşı natiq, igid, qəhrəman
Axtarsan tapılmaz bütün dünyanı
Lakin beləmidir? Təəssüf ki, yox!..
Görərsən heç şeydir diqqət yetirsən!
Əqli, fəzilləti lap çox olsa da
Kişi öyrənməyi heç eyib sanmaz!
Bilirsən, çovğunda hansı ağac ki,
Küləyin meylinə görə əyilir,
Qoruyub borandan budaqlarını.
Hansı ağaclar ki, heç əyilməyir,
İnadla dayanır küləyə qarşı
Şiddətli bir həmlə edəndə boran
O möhkəm ağaclar kökündən qopur.
Ata, eləcə də hansı gəmiçi
Saymazlıq eləyib tufanlı gündə
Yelkənin ağzını çəkib yığmayır,
Dəryada qərq olur onun gəmisi.
Odur ki, qəzəbin soyusun bir az!
Hökmünü ləğv elə, gənc olsam də mən
Məsləhət edərdim münasib bilsən;
Dünyaya gələnlər alim gəlməyir,
Müdrik doğulmayır anadan hamı
Madam ki, belədir – onda dinləmək
Lazımdır ağıllı məsləhətləri.

Korifey

Hökmdar! Münasib görülsə əgər
Deyərdim onu da dinləmək lazım,
Nitqiniz yaxşıdır ikinizin də...

Kreont

Durub mən ixtiyar çağımda indi
Körpə uşaqdanmı öyrənməliyəm?

Hemon

Bari heç olmasa insafın olsun
Çox da ki, mən gəncəm. Lakin nə olar,
Yaşa yox, başa da baxmaq lazımdır.

Kreont

Söylə, asilərə hörmət eləmək
Yaxşı olardımı?

Hemon

Mən demədim ki,
Hörmət eləyəsən yaramazlara.

Kreont

Həmin o qız özü bu xəstəliyə
Dikbaş olarmı, tutulmasaydı?

Hemon

Bunu təsdiq etmir bizim Fiv əhli.

Kreont

Məgər Fiv əhlinin buyruqlarıyla
Durub oturmalı?

Hemon

Ata, uşaq tək
Danışdığın sözü hiss edirmisən?

Kreont

Məgər bu şəhərə məndən başqa bir
İxtiyar sahibi yenə lazımdır?

Hemon

Hansı ölkədə ki, bircə müstəbid
Hökmranlıq edir – ölkə deyil o!

Kreont

Məgər dövlətləri idarə etmək
Öz işi deyilmi hökmdarların?!

Hemon

Bu şəhərin deyil, boş bir səhranın
Hakimi olsaydın yaxşı olardı...

Kreont

(*xora*)

Belə görünür ki, qarımış qızın
Üstündə bizimlə davaya durmuş...

Hemon

Qarımış özünsən!.. Mən sənin üçün
Narahat oluram.

Kreont

Yaramaza bax!
Ağ olur üzünə öz atasının!

Hemon

Nə edim, görürəm, çox nahaq yerə
Haqqı tapdayaraq günah edirsən.

Kreont

Mən öz dövlətimə hörmət edirəm
Bəlkə də sən bunu günah sayırsan?

Hemon

Etmədiyin halda allaha hörmət
Dövlətə haradan hörmət edirsən!

Kreont

Aciz təbiətli, qadın düşkünü!

Hemon

Əsiri deyiləm alçaq hisslərin
Bu ittiham üçün dəlilin yoxdur!

Kreont

O sənin dilindən düşməyir, bəli!

Hemon

Təkcə o deyil ki, sən də, özüm də
Yeraltı aləmin allahları da...

Kreont

Yox! Qadın əsiri, hiylə ilə sən
Ələ gətirməyə çalışma məni!

Hemon

Özün danışırsan yalnız hər zaman
Kimsəni dinləmək istəməyirsən.

Kreont

Hər halda nə qədər bu dünyadasan
Onunla evlənə bilməyəcəksən!

Hemon

Onun ölümü, bil, başqasının da
Vaxtsız ölümünə səbəb olacaq!

Kreont

İgid, demək, məni təhdid edirsən?!

Hemon

Çürük fikirləri qəbul etməmək
Məgər təhdidmidir?

Kreont

Ehtiyat et ki,
Sonra boşluğunu fikirlərinin
Başa düşməyəsən gözləri yaşlı!

Hemon

Nə edim atamsan, əgər özgəsi
Olsaydın inan ki "axmaq!" deyərdim.

Kreont

De beləmi oldu? And olsun qüdsi
Olimpə məni ki, təhqir elədin
Yəqin bil cəzasız qalmayacaqsan!

(*xidmətçilərə*)

Buraya gətirin cinayətkarı!
O burda Hemonun gözü önündə
Öldürülməlidir!

Hemon

Yox, yox, o burda
Məhv edilməyəcək mənim yanımda
Zira, istəsən də üzün üzümü
İnan ki, bir daha görməyəcəkdir!
... Belə vəhşətləri gizlətmək üçün
Məni yox, özünə dost, tanış axtar!

(*Gedir*)

İkinci səhnə

Korifey

Ey hökmdar, o çox qəzəbli getdi.
Belə cavan yaşda kədərli olmaq
Xeyli qorxuludur.

Kreont

Qoy nə edir etsin!.. Qeybət eləsin
Ağ olsun üzünə öz atasının
Lakin heç fərqi yox, bunlar ölümdən
Xilas etməyəcək günahkarları!..

Korifey

Hökmdar, qərarın hər ikisini
Məhkum etməkmidir yəqin ölümə?!

Kreont

Müqəssir olanı, olmayanı yox!
Qərarım qətidir.

Korifey

Ölümə məhkum
Ediləni necə öldürəcəksən?

Kreont

Onu tamamilə insan olmayan
Bir yerdə, qaranlıq bir zirzəmiyə
Atarlar, ölərkən onun günahı
Bizləri tutmasın deyə yanına
Bir azca çörəkdən, sudan qoyarlar.
Xeyir-dua etsə orda Aidə
Yaxası qurtara bəlkə ölümdən.
Bəlkə də, əksinə, gözüylə görüb
İnana Aidə olan duanın,
Hörmətin tamam puç olduğuna.

(*Gedir*)

ÜÇÜNCÜ STASİM

Xor

STROF

Ey şiddətli vuruşlarda
Mahir ovçu igid Eros!
Ehtiraslar ilahəsi
Gecələri şux qızların
Al və zərif yanaqları
Üzərində dincəlirsən;
Sonra da göy dənizlərin
Üzərindən süzüb keçər,
Enər vəhşi heyvanların
Uzaq, xəlvət kahasına,
Oradaca gizlənərsən.
Nə allahlar, nə insanlar
Səndən yaxa qurtarmırlar,
Onlar səndən vəcdə gəlir;
Şura gəlib ilhamlanır,
Sonra da iztirab çəkir.

ANTİSTROF

Dərələrlə möminlərin
Qəlbini tez ələ alıb,
Onları sən yanlış yola –
Fəlakətə aparmışsan.
Budur, can bir, qan bir olan
İki kişi arasında,
Barışılmaz nifaq saldın.
Fəqət bakirə bir qızın
Gözlərində yanan atəş
Dəfələrlə qüvvətlidir.
Allahların yaratdığı
Pak, müqəddəs qanunlara,
Ehkamlara əsir olan
Möminlərin gözlərindən
Əbədi gənc olan xanım –
Afrodita rəqs edərkən
Hamının qəlbini dərhal
Öz əlinə ala bilir.

DÖRDÜNCÜ EPİSODİ

Birinci səhnə

Korifey

Budur, mən özüm də bu mənzərəni
Seyr etdiyim zaman gözümdən axan
Sel kimi yaşları kəsə bilmirəm –
Muğayır olsa da ədəb-ərkana
Təəssüf, belədir, yazıq qızcığaz
Heç qədəm qoymamış toy gərdəyinə
Qara sərdabaya girməli oldu...

Keşikçilər Antiqonanı gətirirlər.

KOMMOS

BİRİNCİ STROF

Antiqona

Ey doğma şəhərin insanları, siz
Baxın, mən günəşi sonuncu dəfə
Görməli oluram. Bu son yolumdur.
Hamını torpaqda gizlədən Aid,
Toy-nişan nəğməsi altında məni
Apardı Axeront sahillərinə.
Qonaqlar nəğməylə nişanlı qızı
Gəlin gərdəyinə müşayət etmək
İstəməyir fəqət mən Axerontla
Evlənir, ona da vüsul oluram.

Korifey

İnsanlar çox zaman xəstələnərək,
Bəzən də qılıncla vuruşmalarda
Yaralanıb ölür, lakin sən hələ
Cavan, sağ-salamat, həm də gəncliyin
Təbii və təmiz sifətlərini
Yaşatdığın zaman özündə bütün
Aidə könüllü əsir olmaqla
Əbədi şöhrətə nail olursan.

BİRİNCİ ANTİSTROF

Antiqona

Bəli, eşitmişdim, qədim zamanda
Frikiyalı qonaq Tantalidanın[17]
Sipil dağlarının yaxınlığında
Əzab-əziyyətlə məhv olduğunu.
Açıb qollarını sıldırım dağlar

Onu hər tərəfdən bürümüş tamam
Deyirlər, göylərdən Tantalidanın
Başının üstündə ildırım çaxar.
Üstünə aramsız qar, yağış yağar
Onu isladarmış başdan-ayağa
Onun göz yaşları qaynar bulaq tək
Biaram süzülüb kirpiklərindən
Axarmış dağların ətəklərinə.
Mənim də taleyim belədir yəqin.
Allah daş zindana, qara məhbəsə -
Ölüm yatağına aparır məni.

Korifey

Allah övladilə bəhsmi edirsən
Anadan ilahə doğulmuşdu o?
Bizlər ki, ölümə məhkum edilmiş
Adi insanlarıq. Lakin Allahın
Çox sevdiyi üçün sənin taleyin
Taleyi kimidir Tantalidanın.

İKİNCİ STROF

Antiqona

Ölüm məqamında mənə gülürsən.
Hələ diri ikən, hələ günəşin
Gördüyüm zamanda şəfəqlərini -
Əzab verirsiniz, ilahi, mənə.
Ey mənim vətənim, vətəndaşlarım!
Adlı adamları bu məmləkətin!
Gözəl Dirka çayı, Fiv çəmənliyi!
Bari şahid olun, bari siz deyin
Mən hansı qanuna görə günahsız
Qəbir tək qaranlıq sərdabələrdə
Qalmalı oluram? Təəssüf ki, heç
Dalımca ağlayan bir kimsəm yoxdur.

Səni diri-diri, ey yazıq canım
Canlıdan, cansızdan, pisdən, yaxşıdan,
Olmayan kimsəsiz bir qaranlığa
Atıb gələcəkdir, ağırdır, heyhat...

Korifey

Məğrur qız, sən insan əli çatmayan -
Yüksəlmək istərkən – uca göylərə,
Günahkar olduğu səbəbdən atan
Dikanın müəzzəm taxtinə dəyər
Ağır əzablarla yerə düşərsən!

İKİNCİ ANTİSTROF

Antiqona

Sən mənim yarama toxundun yenə -
Nə üçün o bədbəxt, yazıq atamı,
Labdaklar nəslini təqib eləyən,
Fəlakət törədən qara taleyi,
Əfsus xatırladın, incidir məni...
Anamın günahkar ağuşu, heyhat!
Öz doğma oğlunu qəbul elədi,
Atam da evləndi bədbəxt anamla.
Sonra da mən bədbəxt meydana gəldim.
İndi də hər yandan lənətlənərək,
Onların yanına gedirəm, əfsus...
Təəssüf, qardaşım! Düşüb sevdaya
Həm özün özünü, həm də ki, məni
Bir qadın ucundan bədbəxt elədin.

Korifey

Ölülərə hörmət elədiyin tək,
Qanun-qaydanı da saxlamaq gərək!
Onu basıb keçmək, tapdamaq olmaz,
Hakimlər qanunun keşiyindədir;
Sənin sərbəstliyin evini yıxdı.

Antiqona

İndi mən talesiz, dostsuz, aşnasız
Murada çatmamış, kama yetməmiş
Gedirəm, son yolum, son səfərimdir.
Günəşin müqəddəs şəfəqlərini
Heyf ki, bir daha görməyəcəyəm -
Mənim taleyimə ağlayan yoxdur.

İkinci səhnə

Kreont

Ölüm məqamında cinayətkara
Köməyi olsaydı ahın, fəryadın
Günahkar daima fəğan edərdi.
Mən belə dedim ki, aparın təkcə!
Sərdabəyə atın! Lakin qapını
Elə bağlayın ki, çıxa bilməsin!
İstər ölsün, istər kimi sevirsə
Onunla orada izdivac etsin!
Onda biz günahkar olmarıq, həm də.
Cani bu işıqlı dünyada qalmaz!

Keşikçilər Antiqonanı aparırlar.

Antiqona

Ey qaranlıq məzar, qara sərdabə,
Gəlinlik gərdəyim sizmi oldunuz!
Əziz qonaq getmiş Persefonaya,
Mənim unudulmaz qohumlarım var -
Onların yanına gedirəm indi.
Mən böyük bir nəslin son övladıyam.
Qara tale məni hələ gənc ikən
Torpağa – Aidə qismət elədi.
Lakin ürəyimdə bir təsəlli var.
Bilirəm ki, atam, anam, qardaşım

Mənim taleyimə xoşnud olarlar.
Zira ölüm günü qəyyum mən oldum,
Allaha əyandır, öz əllərimlə
Onları mən yudum, mən dəfn elədim -
Allahın xoşuna getsinlər deyə,
Ədəblə, ərkanla şərab da içdim.
Polinik, ey mənim əziz qardaşım!
Ucuz oturmadı mənə cənazən,
Onu götürərkən haqqımı aldım.
Lakin qananların nəzərlərində
Tabutun hörmətlə götürüldü, bil!
Tabut övladımın, ya da ərimin
Olsaydı güman ki, qanun-qaydanı
Pozub mən onları dəfn eləməzdim,
Başqa birisinə ərə gedərdim.
Ondan bir uşağım olardı yenə,
Lakin atam, anam başqa aləmə -
Aid aləminə vasil oldular.
Onlar daha geri dönməyəcəklər.
Mənim də qardaşım olmayacaqdır.
Ey əziz qardaşım, doğrudur, səni
Hörmətlə basdırdım, lakin Kreont
Qanunu, qaydanı tapdadın – deyə
Məni cani kimi qələmə verdi.
İndi, budur, hələ kama çatmamış,
Hələ eşitməmiş toy nəğməsini,
Hələ bəsləməmiş körpə uşaqlar,
Qəsdən ayrı salıb dostdan-tanışdan
Məni diri-diri qəbrə atırlar,
Nə səbəbə görə? Allahın hansı
Yaxşı işlərinə asi olmuşam?
İndi yazıq canım, yenə allaha
Mənası varmıdır hörmət etməyin?
Namusla yaşadım, ancaq səbəbsiz
Müttəhim etdilər şərəfsiz deyə.
De kimi imdada çağırım daha?
Günahkar sanıldım, mən allahların

Yolunda ölürəm, dözərəm, ancaq.
Əgər allahların günahı varsa
Heç arzu etməzdim yenə ürəkdən
Onlar mənim kimi əzab çəkələr.

Korifey

Həmin küləklərdir başında yenə,
Yenə həmin dəli, həmin divanə!

Kreont

İşlər çox ləngidi. Bax, keşikçilər
Bezib təntimişlər yazıqlar tamam.

Antiqona

Heyhat, anlayıram bu məşum sözlər
Ölüm xəbərini yetirdi mənə.

Kreont

Elədir! Qürurla danışmağını
Məsləhət bilmirəm, güman, yaxanı
Ölümdən qurtara bilməyəcəksən!

(*Gedir*)

Antiqona

Ey Fiv torpağının doğma şəhəri! -
İlahi yurdumuz! Gedirəm daha.
Təəssüf, gecikə bilməyəcəyəm...

(*xora*)

Ey Fiv allahları, barı siz baxın
Mənə – son nəslinə xanədanlığın.
Hörmət etdim deyə mən o kəslərə,
Bir görün nə qədər əzab çəkirəm.

Antiqonanı aparırlar.

DÖRDÜNCÜ STASİM

X o r

BİRİNCİ STROF

Danaya[18] da sənin tək
Mis divarlı məhbəsə
Düşərək işığına
Həsrət qaldı göylərin,
Zülmət qaranlığıyla
İzdivac elədi o.
Kübar nəslindən gözəl
Bir qız idi, Danaya.
Deyirlər, allahların
Allahı Zevs özü də
Sevirmiş o dilbəri,
Qızıl su damlasına -
Zərrələrə çevrilib
Zevs vüsalına çatmış
Zevsdən qızın hətta
Övladı da olmuşdur.
Lakin tale yenilməz
Qüdrətli bir qüvvədir.
Nə qalın mis divarlar,
Nə gur nərəli Arey,
Nə döşünə dalğalar
Vuran qara gəmilər,
Ondan yaxa qurtarar.

BİRİNCİ ANTİSTROF

Hökmdar Driantın
Oğlu çox dəliqanlı,
Çox da qəzəbli idi.
Edonlara padşah
Olduğu zamanda o
Çox lovğalıq edirdi.

Hətta Vakx oyunları -
Ayin mərasimləri
Ona xoş gəlməz idi.
O səbəbdən Driyiyans
Onu qayaların dar,
Qaranlıq oyuğuna
Salmış. O da sənin tək
Qaranlıqda yıxılmış
Zaman keçmiş, lovğalıq,
Qudurğanlıq, dikbaşlıq
Azalmış yavaş-yavaş.
Hökmdar ayılanda
Anlamış ki, ağlını
İtirmiş, boş avara
Yaramaz sözlərlə o
Toxunmuşdur allaha
Qadınların əlindən
Lovğalıqla alaraq,
Dionisin müqəddəs
Məşəlini söndürüb.
Şirin-şirin nəğmələrə
Gözəl-gözəl tütəklərə
Aşiq olan Muzaları
Təhqir etmiş acı sözlə.

İKİNCİ ANTİSTROF

İki yaxın, həmhüdud
Dənizin arasında,
Göy qayanın yanında,
Oradakı Bosforun
Göy sahili, bir də ki,
Vəhşi Frakiyanın xoş,
Əzəmətli şəhəri,
Şən Salmides görünür.
Orada kı, gurlayır
Areyin nərələri
Finey, lənətə gəlmiş -

Gözləri çıxarılmış
İki doğma oğlanın
Yarasını görəndə,
Eşidildi onların
Ahları, fəryadları.
Onların gözlərini
Qəddar analıqları
İti nizələrlə yox,
Məkiklə çıxarmışdı.

İKİNCİ ANTİSTROF

Onlar fəryad etdilər
Göy yaşları tökərək.
Qara talelərinə
Bədbəxt analarını
Xatirə gətirdilər.
Onların anaları
Boreada çox qədim -
Erexfilər nəslindən
Gözəl bir qız olmuşdu.
Həmin allahlar qızı
Təbiətin qoynunda
Sıldırım qayalıqda
Yaşamışdır. Atası
Onu şirin və əziz
Nəvazişlə böyütmüş,
Tərbiyə eləmişdi.
Boreada qayğıyla
Pərvəriş tapdığından
Gözəl, göyçək, qəhrəman
Erkək at kimi qaçan
Cəsur bir qız olmuşdu.
Fəqət yenə bunun da
Qarşısına əbədi
Həyat sürən Moyrlar
Çıxmışlar, ey qızım, bil!

BİRİNCİ EPİSODİ

Birinci səhnə

Tirezi

(*onun əlindən tutan uşaqla bərabər daxil olaraq*)

Ey Fiv şəhərinin başbilənləri!
Doğrudur, ikimiz bir yolla gəldik
Lakin birimizin gözü gətirdi,
Zira bu belədir bizi – korları
Hərləyir həmişə gözü olanlar.

Kreont

Tirezi, nə olub, təzə xəbər var?

Tirezi

Sən qoca hatifi dinləməkdə ol,
O açıb hər nə var sənə söyləsin.

Kreont

Sənin ki, o müdrik məsləhətlərin,
Rədd edilməmişdir hələ bir kərə.

Tirezi

Məhz ona görə də sən ölkəmizi,
Doğru, düzgün yola gətirə bildin.

Kreont

Mənimçin hər zaman xeyirxah oldun.

Tirezi

Lakin ey hökmdar, taleyin yenə
Bir tükdən aslıdır!

Kreont

Nə olub məgər?
Zəhmli sözlərin məni titrədir.

Tirezi

Hökmdar, dinləyin, təfsilatilə
Söyləsəm hər bir şey aydın olacaq.
Qədim quş kahında oturmuş idim -
Orada yırtıcı, carçı quşların
Hər növü, hər cinsi güman ki, vardı.
Birdən, qanılmayan, lakin heybətli
Ağır qanadların şaqırtısından
Aydın qanırdım ki, yırtıcı quşlar
Didir bir-birini caynaqlarilə.
Mən qorxu, vahimə içində dərhal
Nur saçan mehriban işıqlarilə
Fala baxdım, ancaq nəzir-niyazım,
Kəsdiyim qurbanlar fayda vermədi.
Mehrabın ocağı yaxşı yanmadı,
Əriyib töküldü kök ətin piyi –
Ətsiz qabırğalar qar tək ağardı.
Heyf ki, yanmadı piy külə hopdu,
Ciyərin mehraba ödü dağıldı.
Uşaq nəql edəndə bunları mənə,
Bildim, hikmətlərim faydasız olmuş -
Mən xalqa rəhbərlik etdiyim kimi
O da bu yollarla hərləyir məni...
Ey hökmdar, sənə məlum olsun ki,
Hökmün sayəsində bizim ölkəmiz
İflasa uğrayır dəfn olunmamış.

Meyitdən ac itlər, yırtıcı quşlar
Yemişlər, odur ki, həmin heyvanlar,
Həm də ki, məbədlər, ziyarətgahlar
Tamam murdar olmuş. Ona görə də
Allahlar hirslənib, vətəndaşların
Qəbul etməyirlər qurbanlarını.
Xeyir xəbər verən carçı quşların
Səsləri kəsilmiş çox dəhşətlidir...
Hökmdar! O quşlar murdar meyitdən
Yeyib dinməyirlər... Qabırğalardan
Alov da çıxmayır. Oğul, bu haqda
Düşün! Hamı günah eləyə bilər.
Fəqət günahını boynuna alan,
Pis əməllərinə peşiman olan
Ən xoşbəxt, ən müdrik insandır, məncə!
Hər kim öz işinin nöqsanlarını
Görür, lakin yenə inad edərək
"Düzgündür" deyirsə axmaqlıq edir.
Çəkindirmək lazım onu bu yoldan!
Hökmdar düşmənin olsa da, gərək
Hörmət eləyəsən tabuta yenə!
Durub kin bəsləmək ölüb gedənə
Yararmı? – ölülər üzərində sən
Şöhrətin artarmı təntənə etsən?
Hökmdar, qəzəbin gəlməsin mənə,
Sevməsəm deməzdim. Yaxşı məsləhət
Bil ki, xoşbəxt edir daim insanı
Qulaq as faydalı məsləhətlərə!

Kreont

İxtiyar, görünür, çox düz atırsan –
Nişangaha dəyər atdığın oxlar!
Yəqin ki, sən fala baxdığın zaman,
Məni nəzərindən qaçırmamışsan.
Bizim qohumlardan, təəssüf, biri
Məni düşmənlərə çoxdan satmışdır.

Siz tamahkar olun, qoyun hər yandan -
Uzaq Hindistandan çox uzaq Sarddan
Qiymətli daş-qaşlar, – kəhrəba, qızıl...
Axıb evinizə tökülsün tamam.
Lakin fərqi yoxdur. Poliniki siz
Yəqin ki, dəfn edə bilməyəcəksiz!
Hərgah ki, Zevsin öz boz qartalları,
Yem üçün meyiti oğurlayaraq,
Dievin taxtının hüzurunacan
Aparmış olsalar, yenə də qorxum
Yoxdur o murdardan o leşi əsla
İcazə vermərəm dəfn eləsinlər!
Çünki mənim üçün aydındır, insan
Allahları murdar eləyə bilməz!
Ey qoca Tirezi, güclü adamlar
Öz adamlarına nitq söyləməyi
Bacarsalar belə, özləri bir gün
Çirkin bir ölümlə ölüb gedirlər.

Tirezi

Heyhat!.. Bilirlərmi, düşünürlərmi?

Kreont

Buyur, bəlkə yenə məsləhətin var?

Tirezi

Nə qədər üstündür şüur dövlətdən!

Kreont

Axmaqlıq nə qədər böyük zərərdir.

Tirezi

Təəssüf... anadan doğulanda sən,
Mübtəla doğuldun o xəstəliyə.

Kreont

Mən hatifi təhqir edəcək cavab
Vermək istəmədim.

Tirezi

Onsuz da gözəl,
Düzgün sözlərimi yalan sayanda
Mən təhqir olundum.

Kreont

Bəli, pulgirdirlər bütün hatiflər!

Tirezi

Zalımlar da zülmə çox hərisdirlər!

Kreont

Unutdun kiminlə danışdığını?

Tirezi

Unutmadım, fəqət mən səbəb oldum
Ölkəni hifz edib, hökmdar oldun!

Kreont

Sən müdrik adamsan, sərvaxt adamsan,
Lakin həqiqətlə heç aran yoxdur!

Tirezi

Bir sirri deməyə məcbur edirsən.

Kreont

De, öz nəfin üçün yalan olmasın!

Tirezi

Həmişə düz olmuş mənim sözlərim.

Kreont

Birdəfəlik bil ki, mənim qəlbimi,
Əlinə gətirə bilməyəcəksən!

Tirezi

Yadında saxla ki, bir azdan göydə -
Cıdır meydanında günəş allahı
Helios sürətli cıdır edəcək.
Sən ki, diri-diri yazıq bir qızı
Yeraltı aləmə – Aidə verdin,
Sən ki, bir meyitin layiqsiz edib
Qoymadın yazığı dəfn olunmağa -
Buna allahın da haqqı yox idi -
Bil ki, əvəzində bu günahların
Yeraltı aləmin allahı – Aid
Bir də ki, Erini qisas, intiqam
İlahəsi səni təqib eləyir.
Məgər belə doğru, düzgün söz deyən
Satqınmı sayılır? Hökmdar, Kreont!
Çox çəkməz ki, sənin qəsrini, inan
İnilti, sızıltı, şivən bürüyər.
Hansı ölkədə ki itlər, pişiklər
Ac vəhşi heyvanlar, yırtıcı quşlar,
Çürümüş meyitdən bütün şəhərə
Qüdsi allahların ocaqlarına
Üfunət yayırlar, bu hal, əlbəttə,
Xoşuna gələrmi heç allahların?
Gəlməz, ölkəmiz də xaraba qalar
Təhqir olunmuşam... mahir ovçu tək
Sənin ürəyinin başına kinlə,
Qəzəblə alışan bir ox atım ki,
Onun alovundan külə dönəsən!!!

(Uşağa müraciətlə)

Yenə evə qaytar, ey uşaq, bizi!
Töksün qəzəbini, kinini lakin,
Mənə yox, qoy yaşı az olanlara!
Həm də ki, ağzının kəmini möhkəm
Saxlasın... Özü də belə, yox bir az
Məsləhət eşitsin, ağıllı olsun!

Tirezi uşaqla gedir.

İkinci səhnə

Korifey

Hökmdar, o qorxunc bir gələcəkdən
Xəbər verib getdi. Mənim saçlarım
Qar kimi ağarmış, ancaq ömrümdə
Bu qoca hatifin hələ bir dəfə
Yalan dediyini eşitməmişəm.

Kreont

Doğrudur. Pis oldu. Xəcalətliyəm.
Fəqət çox ağırdır güzəştə getmək.
İnad edənlər də çox vaxt sonradan
Ağır fəlakətə düçar olurlar.

Korifey

Ey Menekey oğlu, inad eləmə,
Qulaq as ağıllı məsləhətlərə!

Kreont

Nə edim, buyur de, qulaq asıram.

Korifey

Gedib mağaradan qızı tez çıxar!
Çöllərdə çürüyən meyiti dəfn et!

Kreont

Bunu bəyənərsən? Demək ki, mənə
Güzəştə getməyi təklif edirsən?!

Korifey

Elədir, tələsik, mümkün olduqca!
Cəza ilahəsi çox sürətlidir.
Sonra min bəlaya düçar olarsan.

Kreont

Təəssüf olsun ki, mən öz – özümün,
Əksinə hərəkət etməli oldum.
Başqa çarə yoxdur bu mümkünmüdür,
Gedim əleyhinə bu zərurətin?

Korifey

Hökmdar! Özün gör, get bu işləri
Əsla başqasına arxayın olma!

Kreont

Bu saat gedirəm,

(*xidmətçilərə*)

Siz də tez olun!
Kim gedir, kim qalır, yola düşənlər
Baltadan, külüngdən götürüb birbaş
Uzaqda görünən günbəzə gəlin!

Tərpənin! O qızın haqqında olan
Qərarı dəyişdim. Necə ki, dustaq
Etmişəm, elə də buraxmalıyam!
Bəlkə də biz qanun qoyanlar üçün
Öz həyatımızı əmniyyətdə
Keçirmək daha da faydalı olar?..

(*Gedir*)

BEŞİNCİ STASİM

Xor

BİRİNCİ STROF

Sən ey Kadm nəslinin
Min bir adlı övladı!
Gözəl qızı Semela[19]
Ey dəhşətli ildırım!
Elesinli Demetrin[20]
Xəlvət işləri üçün
Bütün qiblələrin
Görüş yeri sayılan
Elevzis, çox məhsuldar
İtaliya sahilini
Məskən edən Dionis -
Bayramlar yaraşığı!..
Coşqun kahinələrin
Vətəni Fiv şəhəri -
Orada ki, aramla
Axır İsmena çayı
Qədim zamanda qəddar
Əjdahalar oraya
Dişlərini səpmişlər.

BİRİNCİ ANTİSTROF

Orada Kariki qızları
Şaqraq kahinələr tək,
Çalırlar, oynayırlar.
Orda döşü çəmənli,

Dağları yarıb çıxan
Yanları məxmər kimi
Yosunlara bürünmüş
Kastalı çay, axır
Sən Nisey dağlarının
Ətəyində yerləşən
Yaşıl meynəliklərin
İçində görünürsən.
Ey Dionis, hər yandan
Müqəddəs şənlik səsi
Səni daim bürüyür.
Ey xalqımın hamisi,
Şən gözəl Fiv şəhrinin
Meydanına gəlirsən...

İKİNCİ STROF

Ey Dionis, gəl yetiş!
Sən öz ildırım vuran
Ananı sevən kimi
Sevirsən Fiv şəhrini.
İndi bizim bu şəhər
Çox ağır xəstəliyə
Düçar olduğu zaman
Ya sıldırım dağların
Aşıb ətəklərindən,
Ya dərin boğazların
Yarıb dalğalarını,
Tez özünü yetir, tez!

İKİNCİ ANTİSTROF

Ey səmada – ulduzlar
İşığında yaşayan,
Orda dövr edən bütün
Səma canlılarının
Xoş nəğməli xoruna

Daim başçılıq edən,
Gecələrə şölə, nur
Saçan qadir hökmdar!
Zevsin nəsli, övladı -
Mərhəmətli Dionis!
Öz füsunkar nəğməli,
Şux gülən, şux oynayan
Kahinələrinlə gəl!

EKSOD

Birinci səhnə

Birinci qasid

(*təcili*)

Amfion[21] yurdunun Kadm qəsrinin
Varisi olanlar! İnsan nə qədər
Diridir, heç onun gələcəyini
Bilmək mümkün deyil! Tale uşaq tək
Şıltaqdır. O bəzən bir talesizi
Murada çatdırır. Bəzən də onu,
Yenə bədbəxt edir tezcə, yenidən.
Odur ki, insanlar arasında heç
Gələcəyi bilən adam tapılmaz!
Qibtə edilməli insandır Kreont,
Kadm torpağını o, düşmənlərin
Hücumundan xilas etdi hünərlə,
Hörmətli, müqtədir hökmdar oldu.
Şərəfli nəsil də yetirdi, lakin
İndi hər şey tamam məhv olub getdi.
İnsan səadəti, sevinci əgər
İtirsə o artıq diri deyildir -
Bir cansız meyitdir. Belədir, hərgah
Xoş günün yox isə, böyük qulluğun
Sərvətin, dövlətin nə mənası var?

Korifey

Hökmdar nə kimi bir fəlakətə
Tutulmuş, nə kimi qara xəbər var?

Birinci qasid

Onlar artıq ölmüş, fəqət bu işdə
Müqəssir sayılır diri qalanlar.

Korifey

De görək öldürən, ölən kimlərdir?

Birinci qasid

Hemon öldürülmüş qanlı əllərlə.

Korifey

Söylə, özununmü, atasınınmı
Qanlı əllərilə öldürülmüş o?

Birinci qasid

Qızın ölümünə qəzəblənərək,
Özünü öldürmüş öz əllərilə.

Korifey

Sənin dediklərin, ey qoca hatif,
Həqiqət düz imiş...

Birinci qasid

Madam ki, belədir, lazım deyilmi
O biri haqqında məsləhətləşək?

Korifey

Lakin hökmdarın əziz zövcəsi -
Evridika xanım, odur, gəlir, bax!
Güman ki, eşidib fəlakətini
İstəkli oğlunun. Ona görə də
Saraydan çıxaraq, buraya gəlir.

Evridika gəlir.

İkinci səhnə

Evridika

Vətəndaşlar, nədir eşitdiklərim?
Məbədə gedirdim – Afinaya – mən
İbadət etməyə, dua etməyə
Qapını açaraq çıxmaq istərkən,
Bizim ailəyə üz vermiş olan
Qara xəbər gəldi qulaqlarıma.
Tez o dəm qorxudan cariyələrin
Qolları üstünə düşdüm şüursuz.
Açın, deyin mənə bilim hər nə var!
Ağır fəlakət də baş vermiş olsa
Onu soyuqqanlı dinləyəcəyəm.

Birinci qasid

Ey qadın hökmdar, öz gözlərimlə
Görmüşəm, hər nə var olduğu kimi
Açıb söyləyərəm, danmaq nə üçün?
Mən sənə yalandan təsəlli versəm,
Sonra də həqiqət aydın olanda
Bəs mənə yalançı deməzsən onda?
Hər hansı hadisə bir həqiqətdir,
Danmaq mümkünmüdür həqiqətləri?
Hökmdar yaxından yola düşəndə,
Düşdüm arxasınca dabanbasma mən.

Mən də bir xidmətçi olduğum üçün,
Çıxdıq təpəsinə kiçik bir dağın.
Nə gördük? Hələ heç basdırılmamış
Yazıq Polinikin eybəcər halda
İtlərə yem olan cənazəsini.
Mərhumun günahı azalsın deyə,
Yalvarıb Plutona[22] həm də Heqkaya
Mərhəmət dilədik. Sonra qüsl edib,
Qalan sür-sümüyü göy budaqların
Üstündə yandırdıq. Sonra də həmən,
Dəfn etdik o doğma torpaqda onu,
Sonra məskəninə döndük Aidin.
Qızın yaşadığı sərdabəyə biz,
Enmək istəyirdik kim isə birdən
Bir fəryad eşidib yerin altından,
İşarə elədi tez Kreonta.
Kreont sərdabəyə tərəf yönəldi,
O eşidən kimi bu iniltini
Köksünü ötürdü. Yanar vulkan tək
Qopdu sinəsindən alovlu sözlər:
"Yazıq bədbəxt canım, arif olmadın...
İndi çox çıxılmaz yola düşmüşəm,
Nədir qulağımı oxşayan, nədir?
Oğlumun mehriban səsidirmi bu?
Tez olun qaldırın bu sal daşları,
O səs Hemonundur. Görün odurmu
Yoxsa xəyalatdır məni aldadan?"
Hökmdar həyəcanla belə deyərkən,
Mən bu mağaranın küncünə qədər
Getdikdə nə gördüm: incə tul kimi
Parçadan eşilmiş ilməkli bir ip,
Bir də meyitini Antiqonanın.
Meyit tək deyildi, onun yanında
Hələ gözlərinin qanlı yaşları
Tamam qurumamış bir meyit vardı.
Qəmli cöhrəsində biz o cavanın,
Aydın oxuyurduq kini, qəzəbi.

Oğlunu bu halda görəndə Kreont,
Onu qucaqlayıb fəryad elədi:
"Ey bədbəxt, nə üçün özün özünə
Belə qəsd elədin! Yalvarıram, dur!
Dur, buradan gedək!" Doğrudur, Hemon
Hələ ölməmişdi, fəqət dinmədi.
Kinli gözlərini zillədi düz bir
Qəmli gözlərinə öz atasının
Birdən qılıncını çıxarıb Hemon
Qəzəblə endirdi. Lakin onacan
Atası qılıncın önündən qaçdı.
Bir az da hiddəti artdı Hemonun
Özünün qarnına soxdu qılıncı...
Hələ şüurunu itirməmiş o,
Hələ soyumamış əli, ayağı,
Basdı öz bağrına Antiqonanı.
Qızın rəngi qaçmış yanaqlarına
Çilədi al qanı, yazıq oğlanın -
Üstünə sərildi meyit meyitin.
Yeraltı aləmdə – Aid allahın
Qara dünyasında belə toy oldu -
Bir kəbin kəsildi, məşum bir kəbin...
Bir qərara gəlmək lazımdır indi,
Bizi təhlükələr gözləyir hələ...

Evridika gedir.

Üçüncü səhnə

Korifey

Nə oldu? O qadın pisdən, yaxşıdan
Bir kəlmə deməmiş buradan getdi?..

Birinci qasid

Təəccüb edirəm... Bəlkə oğlunun
Ölümü olduqca onu yandırır!
Bəlkə, istəmədi bu camaatın,

Gözü qarşısında haray salmağı,
Saraya getdi ki, cariyələri
Toplayıb başına ağlaşma qursun?!

Korifey

Mən bir şey bilmirəm. Lakin hər halda
Uzun müddət susmaq özü də mənə
Uzun müddət yersiz ağlamaq qədər
Ağırdır. Xoşuma gəlməz adətən.

Birinci qasid

Mən gedib, bilərəm qəsrə dönməkdə
Məqsədi nə imiş? Bəlkə qəlbində
Gizli bir sirri var? Doğru buyurdun
Xeyli qorxuludur susmaq adətən!

Dördüncü səhnə

Korifey

Budur, əllərində əsaslı sübut,
Zavallı hökmdar gəlir buraya,
İcazə verilsə demək olar ki,
Özü törətmişdir bu fəlakəti
Çəkir cəzasını özü də indi.

Kreont Hemonun meyiti qolları üzərində daxil olur.
Onun arxasınca Antiqonanın meyitini gətirirlər.

KOMMOS

Kreont

Ey fəhmsiz ağıl, ey ağır günah!
Təəssüf edirəm... üç şən həyatın
Məhz siz oldunuz məhvinə bais...
Bu qatil, bu məqtul qan qohumları
İndi bir siz baxın! Təəssüf... mənim

Bu məşum, bu qara fikirlərimdən
Fəlakət üz verdi, nəhayət mənə.
Heyhat!.. əziz oğlum, mehriban oğlum,
Sən hələ cavankən tərk etdin bizi...
Yox, özün ölmədin bu daş qəlbimdə
Səni mən öldürdüm, günahkar mənəm.

Korifey

Təəssüf... görünür sən həqiqəti
Çox gec dərk edirsən, çox gec duyursan...

Kreont

Təəssüf... mən bədbəxt indi anladım.
O zaman allahın kini, qəzəbi
Elə bil ağlımı aldı başımdan.
Əyri yolə düşdüm. Xoş günlərimiz
Tezcə külə döndü. Heyf insanın
Çəkdiyi mənasız, boş zəhmətlərə!

İkinci qasid daxil olur.

Beşinci səhnə

İkinci qasid

Hökmdar sağ olsun, bu necə işdir,
Göz açа bilmirsən heç fəlakətdən?
Burda qurtarmamış birindən hələ,
Digəri sarayda səni gözləyir.

Kreont

Bundan ağır da bir fəlakət varmı?

İkinci qasid

Hökmdar, Hemonun anası yazıq
Ölmüşdür... görünür elə bu saat
Yenicə qəsd etmiş bədbəxt canına,
Yarası hələ də istidir onun.

Kreont

Uf!.. Dəhşət!.. Uf!.. Dəhşət, amansız ölüm,
Aid, sən nə üçün məhv etdin bizi?[1]

(*Qasidə*)

Ey bədxəbərlərin məşum carçısı!
Dəhşət... bu bəd, qara xəbərlərinlə!
Məni bədbəxt edib pis günə qoydun.
Söylə, doğrudanmı oğlum Hemonun
Ölümündən hələ bir gün keçməmiş
İndi də məhv oldu istəkli zövcəm?

Korifey

Buyur, öz gözünlə görə bilərsən!
Budur, gətirirlər Evridikanı.

Qəsrin orta qapısı açılır. Evridikanın cənazəsi görünür.

Kreont

Uf!.. Mən taleyi kəm budur, yenidən
Dəhşətli səhnələr görürəm deyə,
İndi hansı tale gözləyir bizi.
Hələ qaldırmamış cənazəsini
Qollarım üstündən əziz oğlumun
İndi də başqa bir tabut görürəm -
Ah, qadın!.. Ah, yazıq, zavallı ana!
Uf!.. Əziz övladım, istəkli balam!..

İkinci qasid

Xanım xatırladı uşaqlarını -
Qabaqca şöhrətli oğlu Mageri,
Sonra də Hemonu, ağladı yazıq.
Lakin çox çəkmədi ordaca birdən,

Ölüm qaranlığı çökdü gözünə
Yıxıldı mehrabın yaxınlığına.
Övlad qatilinə – hökmdar, sənə
Lənətlər oxuyub yumdu gözünü,

Kreont

Qorxudan, heyrətdən titrəyirəm mən,
Halıma acıyan bir kəs olsaydı
Qılıncı köksümə saplardı mütləq!
Bilirəm mən yazıq bu müsibətdən,
Təəssüf olsun ki, qaçan deyiləm.

İkinci qasid

Xanım həm özünün, həm də oğlunun
Fəlakətə düçar olmasında, bil
Hökmdar, müqəssir sayırdı səni.

Kreont

De görüm o bədbəxt qadın özünü
Necə həlak etdi?

İkinci qasid

Xanım elə ki,
Bildi ölümünü oğlunun, o dəm
Qılıncı özünün köksünə çaxdı.

Kreont

Siz, ey vətəndaşlar! Özgəsi deyil,
Onu mən öldürdüm! Mən əzab çəkən!
Siz də xidmətçilər! Tez olun məni
Götürün buradan! Məhv olduq artıq –
Daha bu dünyada yoxdur Kreont!!!

Korifey

Daha bir mənası yoxdur durmağın,
Zərərdən nə fayda gözləmək olar?
Canını nə qədər tez bu dünyadan,
Qurtarsan o qədər faydalı olar!

Kreont

Gəl, ey ölümlərdən gözəl ölümüm,
Gəl yetiş, hardasan? Ayrı bir günü
Görmək istəmirəm, özünlə mənim
Gətir son günümü, durma, tez ol, gəl!

Korifey

Sabahı gələcək özü göstərər,
Ölümü allahlar düşünsünlər qoy.
İndini – bu günü düşünmək gərək!

Kreont

Mən bütün arzumu, diləklərimi
Bu son dualarda ifadə etdim.

Korifey

Dua filan etmə! Qara taledən
Xilas olmaq üçün insanlara heç
Bir yerdən zərrəcə bir imdad yoxdur!

Kreont

Aparın buradan sərsərini tez -
Ağlımı itirdim, məni aparın!..
Öldürən mənmiyəm, ey oğul, səni?
Zövcəm, bəxti qara, talesiz qadın.

Sənin ölümünə səbəb kim oldu?
Yox, heç yerdə daha sevməzlər məni,
Kül oldu dövlətim, hökmranlığım
Taleyim öz qara hökmünü verdi.
Əzab çəkməyə də taqətim yoxdur.

Hemonun tabutu üzərinə əyilir.

Korifey

(*tamaşaçılara*)

Əgər istəyirsən bədbəxt olmamaq,
Müdrik ol, sərvaxt ol sən əzəl başdan.
Kimsə allahları şərəfsizliklə
Təhqir edə bilməz! Onlara qarşı
Təkəbbür edənlər, lovğa natiqlər
Onların zərbinə düçar olanda,
Çox gec olsa belə, ağıllanırlar...

Son

ELEKTRA

İŞTİRAK EDƏNLƏR:

Egisf – Miken hökmdarı
Klitemnestra – onun arvadı
Elektra-
Xrisofemida-
Orest-
} Klitemnestranın birinci ərindən olan uşaqları.

Pilad – Kritsey hakiminin oğlu, Orestin dostu.
Talfibi – Aqamemnonun köhnə xidmətçisi, Orestin tərbiyəçisi.
Korifey
Xor
} – Miken qızları

Klitemnestranın kənizləri.
Orestin xidmətçiləri.

Səhnə Miken qalasının qabağını təsvir edir. Qarşıda Atridlər sarayının zəngin və qorxunc fasadı görünür. Ortalıqda, iki sütun arasında tunc rəngli geniş qapılar var. O, örtülüdür. Qapının yuxarısında, kirəcdən tökülmüş və zaman-zaman qaralmış, iki şir şəklini andıran üçbucaq bir sal qoyulmuşdur. Sarayın sağ və sol tərəflərində Apollonun və Artemidanın üzləri bir-birinə çevrilmiş çox qədim bütləri durur. Apollon çılpaqdır. Artemida isə uzun, qırış-qırışlı alt paltarındadır. Hər ikisinin qolları yana salınmış, bir ayaqları qabağa atılmış və üzlərində təbəssüm donmuşdur. O yanda, səhnənin hər iki tərəfində, Hermesin və Heranın bütləri durur. Uzaqlarda dağlar görünür. Dan yeri ağaran vaxtdır.

Birinci səhnə

Qərib adam qiyafəsində qoca Talfibi, onun arxasınca da iki nəfər cavan oğlan – Orest və Pilad daxil olurlar.

Talfibi. Ey Troya ətrafındakı Axey qüvvələri sərkərdəsinin oğlu! Ürəkdən arzuladıqlarını indi sən öz gözlərinlə görə bilərsən. Sənin sevimli Arqosun buradadır, buradadır qəzəbli İonun müqəddəs Seyvanı; odur, bax, mənim əzizim, qurd qıran allahların Likey meydanı: ondan sol tərəfdə şöhrətli ilahə Heranın ibadətgahı durur.

Budur, düz qabağımızda isə Mikenin qızıl meydanını, al qana qərq olmuş Pelopidlər evini görürsən.

Sənin atan burada həlak edilmişdir. Onun qətlə yetirildiyi gün mən səni bacından aldım, buradan qaçırıb, bir qəhrəman olaraq boya-başa yetirdim ki, atanın qatillərindən intiqam alasan.

İndi sən, Orest və sən, möhtərəm qonağımız Pilad, nə edəcəyimiz haqqında tezliklə bir qərara gəlin. Artıq günəş doğmaq üzrədir, onu qayğısız bülbüllərin nəğmələri səhər salamilə qarşılayır və ulduzlu gecənin qatı qaranlığı yer üzünü tərk edib çəkilir. Çox keçməz, adamlar çıxacaqlar. Tez olun – məsləhət görün. Bu vəziyyətdə, biz gecikə bilmərik, hərəkət etmək lazımdır.

Orest. Ey mənim əziz xidmətçim, sən öz sədaqətini nə qədər aydın sübut edə bilərsən! Cins at ölüm qarşısında ikən öz başını əymir: uzaqda döyüş səsləri eşitdikdə o, qulaqlarını mis kimi şəkləyir və dəhşətə qarşı qorxu bilmədən irəliləyir. Sən də eləsən. Bizə cəsarət verirsən, qabaqda gedənlər sırasında, birinci olaraq döyüşə girməyə can atırsan! Mən öz fikrimi bu saat sənə deyim. Sən isə onu yaxşı düşün, nöqsanlarımı düzəlt.

Mən, Delfidə Febə müraciət edib, atamı öldürənlərdən necə intiqam almağı soruşmuşdum. O vaxt allah tərəfindən mənə belə bir səda gəlmişdi ki, mən öz əlimlə, heç bir kəsə arxalanmadan, hiyləgər oğru kimi, qanlı intiqam almaqda qəhrəmanlıq göstərməliyəm.

İndi biz hamımız allahın rəyini bildik; siz də eşidin və bunun ifasına kömək edin.

Əlinə fürsət düşdükdə sən evə girərsən, orada nələr baş verdiyinin şahidi olarsan – və doğru xəbərlə yanıma qayıdarsan. Onlar səni tanıya bilməyəcəklər: sən oradan neçə illərdir ki, çıxmısan və o zamandan bəri lazımınca qocalmısan: gümüş kimi ağarmış saçlarını görsələr, səndən əsla şübhələnməzlər də. Onlara belə bir nitq söylə: guya ki, fokeyli Fanotey tərəfindən xəbər gətirmisən (bu adam onların yaxın qonaqlarıdır), çalış onları inandır ki, Orest ölmüşdür (burada and içməkdən də çəkinmə.) Onları inandır ki, Orest taleyin pozulmaz rəyilə Pifiya cıdırında sürətlə gedən gərdunədən yıxılıb əzilmişdir.

Budur sənin deyəcəyin sözlər. Onları yadında yaxşı saxla.

Biz allahın itaətkar bəndələri isə, atamın qəbrinə gedək, qəbrinin üzərinə müqəddəs hədiyyələr və kəsilmiş saç hörükləri tökməklə, onu ziyarət edək. Ondan sonra isə biz də, əlimizdə (mənim əvvəlcədən kolda gizlədiyim) mis urna olaraq qayıdıb oraya gələrik, Orestin yandırılıb kül edilməsi haqqında yalan quraşdıraraq, əvvəlcədən onlara

deyilmiş yalan xəbəri təsdiq edərik. (*Qeyri-ixtiyari olaraq diksinir, sonra tez özünü doğruldur).* Qorxmaq nə üçün? Mən yalnız danışdıqda ölürəm, işdə isə – həyat və şöhrət qazanıram. Faydalı sözdə qorxmalı bir şey yoxdur. Ağıllı və çoxbilmiş adamlar haqqında mən az şeylər eşitmişəm; eşitmişəm ki, onlar öz ölümləri haqqında əvvəlcə yalan xəbər yaymış, sonradan isə qayıdıb gələrək, ikiqat artıq şöhrətlə, yüz illərcə yaşamışlar.

Allah eləsin ki, qorxunc danışıqların zülməti içərisindən mən də ulduz kimi parlayaraq, düşmənin üzərinə enə bilim!

Siz də, ey ata-babalarımızın allahları, ey mənim doğma torpağım, mənim gəlməyimə xeyir-dua edin, yalvarıram; sən də həmçinin, ey mənim ata evim. Mən, allahın iznilə sənə keçmiş parlaqlığını qaytarmaq üçün həqiqət deyib gəlmişəm. Sən mənim buradan namussuzcasına qovulmağıma yol vermə; atamın hökmranlığını mənə qaytar və onun nəslini bu hökmranlıqda yenidən əsaslandırmaq üçün imkan yarat!

İndi kifayətdir. Sən get, qoca, həlledici dəqiqəni itirmə. Biz də gedirik: yaranmışların bütün müəzzəm işlərini həll edəcək xoş saat bizi gözləyir.

İstəyir getsin, bu anda saraydan səs gəlir.

E l e k t r a n ı n s ə s i. Of, yazıq mənim halıma, yazıq!

T a l f i b i. Eşidirsənmi, oğlum? İçəridən kənizin ah-vay səsi gəldi.

O r e s t. Bu, yazıq Elektranın hıçqırıqları deyildimi? Onun nəyə kədərləndiyini eşitmək pis olmazdı.

T a l f i b i. Olmaz. Heç şeylə yubanmadan, Febin buyruğuna əməl etmək – bizim borcumuzdur. Atanın məzarına getmək – bu, birinci vəzifədir. Bizim gücümüz və gəlməyimizin qalibiyyəti bundadır.

O sağ, tərəfə, Orest ilə Pilad isə sol tərəfə gedirlər.

İkinci səhnə

Gün çıxmış. Sarayın ağır tunc qapıları yavaş-yavaş açılır. Elektra içəridən çıxır. O 20 yaşlı, gözəl üzlü, solğun və ciddi bir qızdır; saçları boynunun dalına kimi qırxılmışdır, əynində sadə qara matəm paltarı var. Onun gəlməsinin və bundan sonrakı bütün səhnəni həzin yürüş marşı müşayiət edir.

E l e k t r a. Sən, ey qaralmaq bilməyən günəş, ey yer ilə birləşən aydın üfüq, siz acı göz yaşlarının şahidisiniz, siz, dan yeri ağaran vaxtı qanlı əllərlə yorğun köks qəfəsinə endirilən ağır zərbələrin şahidisiniz! Gecələr mənim nələr çəkdiyimi, yuxudan necə ləzzət aldığımı isə, sarayın nifrətə layiq olmuş yorğan-döşəyi bilir ki, mən onun üçün – bədbəxt atam üçün əbədi olaraq göz yaşı tökürəm. Qana yerikləyən Ares onu düşmən torpaqlarında öldürüb qoya bilmədi. O, öz doğma anamızın və onun xain dostunun əlində, alnına endirilən qanlı qiymə-keş altında odun parçası kimi düşərək həlak oldu. Heyf sənə, ata, sənin ölməyin nə yaman oldu! Bu yetim qalmış qızın Elektradan başqa heç kəs sənin üçün ağlamağa belə cəsarət etmir. Ancaq bunun müqabilində, mənim ah-naləmdən doğan kədərli nəğmələr isə, gecənin almaz ulduzları batmayınca, səhərin parlaq şüaları gözümə görünməyincə susmur! Mən, meşələrdə dincəlmək bilmədən cəh-cəh vuran ana quşcuğaz kimi, ata kəşanələrindən eşidilən tutqun əks-sədalar kimi, öz igid nəğmələrimi əbədi olaraq təkrar edəcəyəm.

Sən, ey Persefonlar sarayı[23] Aidlər seyvanı, sən, ey yeraltı Hermes və lənət ruhları, ey allahların qızları, müqəddəs erinilər! Siz ki, zülmət içərisində yurd dağıdanlar yığıncağını görürsünüz! Kömək edin, zahir olun, yazıq atamın namussuzcasına öldürülməsinin intiqamını düşmənlərdən alın! Və tezliklə mənim qardaşımı mənə göndərin! Mən artıq gücdən düşmüşəm, gündən-günə artan ələm və kədər yükünü tək daşıya bilmərəm.

O, axırıncı duanı diz üstə çökərək oxuyur və müqəddəs qüvvələrin diqqətini cəlb etmək məqsədilə, açıq əlini yerə çırpır. Bundan sonra o, yorğun halda yerə düşür və ahəstəcə ağlayır.

PAROD

Musiqi Elektranın ağlamasını müşayiət edir. Onun xəbəri olmadan səhnəyə Miken qızları girir, bunlar Elektranın dostları, faciənin xor dəstəsidir. Elektranın səsi gəldikdə qızlar onu əhatə edib, aşağıdakı nəğməni oxuyurlar. Musiqi nəğməyə uyğun olaraq münasib yerlərdə dəyişilir. Elektra qalxır.

X o r

Ey dostumuz Elektra,
Sən, ey yazıq, bədbəxt qız!
Mümkündürmü axşam-səhər ağlayasan aramsız?
Neçə illər keçir ki, quraraq çirkin hiylə

Öldürmüşlər atanın-ananın əməlilə.
Bir qorxağın əlində həlak oldu qəhrəman,
Lənətə gəlsin onu! allah, keç günahımdan!

E l e k t r a. Alicənab ataların uşaqları, görürəm siz kədərlilərə təsəlli vermək üçün gəlmişsiniz; ah, mən sizin cəhdinizi yaxşı anlayıram, ancaq mən ağlamalıyam, dərdli atamın ölümünə mən mütləq ağlamalıyam. Əziz rəfiqələrim, hər bir nəzakəti mənim məhəbbətimə çevirən sizsiniz, ancaq rica edirəm, mənim kədərli nəğmələrimə mane olmayın!

X o r

Gücsüzdür ah və fəryad,
Mümkün deyil sən inan.
Əbədi yuxusundan atan dönsün Aidin.
Əbəsdir, əzizim, bunca xiffət edirsən,
Aramsız qüssələrlə təlef olub gedirsən.

E l e k t r a. Doğma valideyninin xəyanətlə həlak olmasını ağılsızlar unudar! Mən qəlbimi, yorulmaq bilmədən kolluqlarda İtiya–İtiya deyə, səslənən quşa, Zevsin xəbərçisinə vermişəm.

Ey daş qəbirdə göz yaşları qurumayan, əbədi əzablara məhkum olunmuş ana – Niobeya, mənim allahım indi sənsən!

X o r

Tək sənəmi, rəfiqəm,
Kədər olmuşdur zindan?
İbrət götürsənə sən, doğma bacılarından!
Bir gör Xrisofemida, yaxud İfianasa
Necə xoş yaşayırlar, batmadan qəmə-yasa!
Bir də, körpəliyindən alqışlanan bir gənc var:
Çox keçməz, dönər bu gənc – bizə sevinc qaytarar.
Tezliklə gələr Orest, kömək etsə Zevs əgər:
Şəhər doğma oğlunu çiçəklərlə bəzəyər.

E l e k t r a. Əbəs şeydir ki, illər uzunu onu gözləyərək, mən, evsiz-övladsız tələf oluram, təsəllisiz qəm yükünü özümlə çəkərək, aramsız göz yaşları tökürəm. O, öz oğulluq borcunu və mənim nəsihətlərimi unutmuşdur; yalnız mənə yalan xəbərlər göndərir! Doğrudur, o da kədərlənir, ağır qüssə çəkir, bununla belə yenə də dönməyə tələsmir.

X o r

Cəsur ol sən, rəfiqəm! Zevs eləyər mərhəmət,
Odur hər şeyi görən, onda var böyük hikmət,
Tapşır ona kinini, əfv etmədən düşmənə;
Həddindən artıq bu kin lazım deyildir sənə!
Zəmanə allahında – əmniyyət var, ümid var,
Axeront dalğasında kinlidir qara ruhlar -
Eləcə də, inan sən, unutmamış bu dağı,
Aqamemnonun oğlu – Parnasların qonağı.

E l e k t r a. Ah, uzun illər ümidimi qırıb aparmışdır! Günlər keçir, mübarizə etməyə artıq taqətim yoxdur. Sevimli ərin oxşamasını bilmədən, neçə illərdir ki, yetim – kimsəsiz, köməksiz inləyirəm, öz doğma atamın evində ola-ola qara cındır içində, qədir-qiymətsiz bir qul kimi səfillik edirəm, gecənin bir aləmində boş dolablardan loxma-tikə toplayıram!

X o r

Gecənin bağrından qopdu inilti,
Sızıltı saraya hökmran oldu,
Qiyməkeş endikdə onun başına,
İşgəncə otağı qan ilə doldu.

Üstün gəldi ehtiras, baş tutdu alçaq hiylə;
Çox dəhşətli bir yaddaş qaldı bütün nəsilə,
Dilbər olmuş bu xainlərin əlindən,
Allah da qurtarmazdı bu cinayət felindən.

E l e k t r a. Ox, o qara gün! Bütün günlərdən artıq mənim qəlbimdə nifrət oyadan o gündür.

Of, o qanlı gecə!

Sən, ey dillərə düşməmiş xörək süfrəsi, əbədi kədər yükü!

Onu orada öldürdülər, o, öz ikiqat ölümünü ikilərin əlindən orada aldı! Sizi lənətə gələsiniz, əllər! Siz mənim həyatımı məhv etdiniz. Sizi görüm göylər hakimi Zevs ikiqat ağır cəzaya məhkum etsin, sizi görüm dəhşət zoğlarınızdan sevinc ağacı bitib, qol-qanad açmasın!

X o r

Saxla sözünü! Bir gör
Nədən baş verir xətər:
Qiyam tufanı səni
Günah işə sürüklər.

Bədbəxtlik kasasını doldurmusan, qismən, sən,
Düşmənçilik odunu coşdurmaqla qəlbindən.
Anla ki, sahibinə yanaşmaq düşmənliklə
Faydasız igidlikdir, heç şey gətirməz ələ.

E l e k t r a. Ah, dəhşət! Dəhşət sıxır qəlbimi! Şübhəsiz, mən – ruhən inadkaram. Bağışlayın. Dəhşət məngənəsi arasında ikən, mən günah etməyə bilərəm, mənim həyatım hələlik bunun üzərində dayanır. Yox, yox! İş-işdən keçmişdir. Mənim ümid çiçəklərim solmuş və əbədi olaraq məhv olub getmişdir.

Kimdir mənə inam sözünü pıçıldayan? Hansınızın qəlbində canlı həyat qığılcımı var?

Əl çəkin, əl çəkin mənə təsəlli verməkdən: mənim qəza və qədərimin düyünü möhkəm çəkilmişdir, mən amansız kədərdən can qurtara bilməyəcəyəm, göz yaşlarım əbədi olaraq qurumayacaqdır!

X o r

Ana məhəbbətilə,
Dost sözü deyirəm mən
Bir günahdan, ikinci
Günahı doğurma sən!

E l e k t r a. İşıq yolu olmayan qüssənin sonu varmı? Öləndən üz döndərmək – namusdandırmı? Əgər mən atama verəcəyim borcu yerinə yetirmərəmsə, onda qoyun məni həyasız adlandırsınlar, onda qoyun mənim qəlbimdəki son xeyirxah çıraq da sönsün və şikayət qanadlarım yanıma döşənsin! Odur, düşmənlərinin əlilə o, külə döndərilmiş və bir heç olaraq məzarda yatır; qatillər isə, onun qanı müqabilində hələ də öz cəzalarına çatmamışlar. Yazıq insan övladı üçün burada qorxmaq və yaxud həya etmək mümkün olan şeydirmi?

BİRİNCİ EPİSODİ

Birinci səhnə

Musiqi dayanır. Getdikcə artan bir təlaş içərisində xora cavab verən Elektra, əhayət, əllərilə üzünü örtüb ağlayır. Korifey Miken qızlarından ayrılır və qayğılı halda Elektraya yaxınlaşır.

K o r i f e y. Əziz rəfiqəm, biz ümumi fayda üçün yanına gəlmişik. Əgər haqlı deyiliksə – qalib çıx: biz sənin tərəfindəyik.

E l e k t r a. Rəfiqələrim, mən əbədi göz yaşımla sizi kədərləndirdiyim üçün, qarşınızda xəcalət çəkirəm; ancaq mərhəmətli olun! Ah, mənim ixtiyarım öz əlimdə deyil, inanın mənə. Alicənab nəsildən olan bir qız üçün atasına qarşı eşidilmiş bu qədər ağır bir zülmün təhqirinə dözmək mümkün olan şeydirmi? Mənim üçün isə bu təhqir, gündən-günə və gecədən-gecəyə nəinki solub azalır, hətta, əksinə olaraq, çiçəklənib açılır və artıb çoxalır.

Hər yanda yalnız qəm var; qüssə, kədər, ələm var.

Doğma anamın məni görməyə belə gözü yoxdur. Mən öz sarayımda atamın qatillərilə yaşamalı olmuşam. Onların hər əmrinə kor-koranə baş endirməli, ac qalıb onlardan bir tikə çörək ummalı olmuşam. Bir düşünün, atamın hökmdar libasını geyinərək, onun taxtında əyləşən Egisfi gördükcə, xain, öz cinayət işlərinin şahidi olan ocağa öldürülmüş hökmdar kasasından allahlar namına müqəddəs maye tökdükcə, mənim üçün necə bir gün doğur? Bütün bu rüsvayçılığa əlavə olaraq, alçaq qatilin bədbəxt anamla qucaqlaşdığını və onunla birlikdə, doğma atamın yorğan-döşəyinə girdiyini belə mən görməliyəm... Bu, kifayətdir! Onun qucağında yuxulayıb yatan adamı mən ana deyə çağıra bilərəmmi?

Yox, görünür sayıq Erinilərin qəzəbini unutmuş bu qadına əclaf ilə yaşamaq kimi günah və bədnamlıq dəxi az imiş; – atam onun hiyləsinin qurbanı olaraq, həlak edildiyi bir anda, o, öz bədəfkar işlərinə gülürmüş kimi, yenidən fürsət tapır, qoyun gətirir, yallı düzəldir və bir aylıq camaat duası ilə "allahların nicatı" adlandırdığı günün yığıncağını keçirir. Bütün bunların hamısını mən görməliyəm, qapı-bacanı arxamca basdırıb bağladığım, ahu kimi hönkür-hönkür ağladığım havayı deyil, atamın adı ilə dillərə düşmüş o ziyafətə lənətlər oxuyaraq, diz üstə çökürəm, ağlayıram – dərdimi göz yaşımla tökürəm; ancaq həzin-həzin ağlamağa belə onlar məni qoymurlar. O, hər yerdə ləyaqətdən basıb-bağlayan qadın, görün mən yazığı necə ağır sözlərlə təhqir eləyir.

"Ay allahsız heyvan! Dünyada atasız qalan bircə sənsənmi? Səndən başqa heç kədərli olan adam yoxdurmu? Səni görüm parça-parça olub çürüyəsən! Sənin bu kədərini cəhənnəm allahları da canından çıxarmasınlar!"

Budur onun mənə qarşı nəzakəti. Əgər oğlunun qayıdıb gəlməsi haqqında birisi ona işarə belə edərsə, dərhal özündən çıxır, vəhşi kimi nərə çəkərək üzərimə yüyürür: "Bütün bu işlərin müqəssiri sən deyilsənmi? Budur sənə deyirəm və yadından çıxarma, səni olduqca ləyaqətli bir cəza gözləyir!"

Bundan sonra çirkin sözlər bir-birinin dalınca yağdırılır, onun dediklərini isə, sayğısız əri – o qorxaq, qadın əlilə döyüş aparan azar parçası – tutuquşu kimi təkrar edir.

İndi gözləyirəm. Görüm Orestin müqəddəs intiqam odu nə vaxt çıxacaq – gözləyirəm və gözləməkdən də quruyub tələf oluram. O, mütləq gecikir, keçmiş və gələcək ümidlərimin kökünü qurudur. Belə bir bədbəxtlikdə, əlbəttə ki, hörmətə və xoş xasiyyətə yer yoxdur, əzizlərim, təəccüblü deyildir ki, bədxah taledən bədxah da fikirlər doğur.

K o r i f e y. Sən mənə bir şeyi de: Egisf yaxındadırmı? Bizim söhbətimizi eşidirmi, yoxsa evdən çıxıb bir yana getmişdir?

E l e k t r a. Əlbəttə, getmişdir. Əgər o evdə olsaydı, mən sizinlə bir yerdə ola bilməzdim. O, uzaqda – tarladadır.

K o r i f e y. Çox sağ ol. İndi mən cəsarətlə səndən soruşa bilərəm.

E l e k t r a. Ürəyin hər nə istəyirsə, hamısını soruş.

K o r i f e y. Məni başa sal görüm: qardaşın haqqında nə kimi danışıqlar var? O, gəlməyə tələsirmi, yoxsa hələ ləngiyəcəkdirmi?

Bunları mən bilmək istəyirəm!

E l e k t r a. Gəlməyə hazırdır, – ax, o, çoxdan hazırdır!

K o r i f e y. Allah hər şeyi dərhal yaratmır.

E l e k t r a. Fəqət mən onun həyatını xilas etmişəm.

K o r i f e y. O, alicənab adamdır. Ümidini kəsmə!

E l e k t r a. Mənim də həyatım bir ümidə bağlıdır.

K o r i f e y. Sənin doğma bacın Xrisofemida evdən çıxdı; əlində yeraltı allahlara salam vermək üçün ehsan qabı var.

İkinci səhnə

Xrisofemida evdən çıxır. Xarici görünüş etibarilə o, Elektradan çox cavandır. eyirxah üzündə bir o qədər də dərin ifadə əlamətləri yoxdur. Geyimi hökmdar qızına layiqdir. Sol əlində köksünə sıxılmış urna var. Bir müddət qapının ağzında dayanıb, diqqətlə Elektraya baxdıqdan sonra, pilləkənləri enir və ona yaxınlaşır.

X r i s o f e m i d a. Sən yenə də qapının ağzındasan, bacım, və öz əski qüssəli nəğmələrini yenə də oxuyursan. Bu coşqunluğa ürək verməkdən zaman hələ də səni çəkindirmədimi? Məni həyatın bu gedişi sıxır, əgər məndə lazımi güc olsaydı – onlara necə mərhəmətsiz bir hökm verəcəyimi dərhal görərdilər. Fəqət nə etmək, bizə xoş külək əsmir, – və biz də öz yelkənimizi salıb, onlara kar etməyən açıq hücum xülyasını başımızdan atmalıyıq. Belə bir qərara gəlməyi sənə də təlqin etmək istərdim. Doğrudur, həqiqət mənim sözlərimi deyil, sənin düşündüklərini təsdiq edir, ancaq azad yaşamağa böyük ehtiyacım var. Azadlıq isə – yalnız itaətə bir hədiyyə ola bilər.

Elektra göz qırpmadan bacısına baxır və öz kəskin nəzərlərilə onu utandırır.

E l e k t r a. Doğurdanmı sən öz doğma at atanı tamamilə unutmusan və bircə ananın qeydinə qalırsan? Aydındır ki, bu sözlərin hamısı – yalnız onun sənə keçdiyi dərslərdir: özündən isə sən mənə yeni bir şey deyə bilmədin. Nə edim, özün bil! Hər halda, iki şeydən mütləq birini seçməlisən: ya boynuna almalısan ki, bütün bu işləri şüursuz olaraq görürsən və yaxud da, təsdiq etməlisən ki, şüurlu olaraq öz təbii dostlarından üz döndərirsən. İndicə deyirdin ki, "əgər gücüm olsaydı, onlara öz qəzəbimi bildirərdim". Bəs nə üçün atamızın namusu uğrunda ayıq olaraq mənə kömək etmək istəmirsən? Yox, sən məni də yolumdan azdırmaq, namusunu itirmiş bir arsız eləmək istəyirsən! Nə üçün?

Söylə, ya da ki, mən ağlamasam, məni hansı hədiyyələr gözlədiyini özüm sənə deyə bilərəm. Mən yazıq olmuşam, gözləmirəm, ancaq belə yaşaya bilərəm. Nə etmək? Mənimki belə imiş. Fəqət, mən onlara əzab verərəm və bununla da atam üçün sevinc çələngi hörərəm – qoy o, qaranlıq dünyada mənim məhəbbətimi duysun.

Sənin qəzəbin onlar üçün yalnız sözdə qorxuludur. İşdə isə sən, onlarla – atamızın qatillərilə əlbirsən. Sənə bunca əziz olan o şeylərin hamısını mənə versələr belə, mən onların qarşısında öz başımı əymə-yəcəyəm. Dəbdəbəli xörək masalarını, həm də ağzına kimi dolu həyat kasalarını sənə bağışlayıram. Qoy mənim xörəyim düşmənlərin işgəncəsi olsun, bu sənin şərəflərindən daha dadlıdır. Əgər sənin ağlın başında olsaydı, özün də belə bir qərara gələrdin. Bir düşün: sən, "atasının hökmdar qızı" adlana bilərdin, ancaq "anasının qızı" adlanmağı özünə layiq gördün! Xoş gəldin. Atanı və ümumi qan qohumluğunu satmaqla, sən bütün el içərisində özünü bədnam eləmisən!

K o r i f e y. Allahların xatirinə, qəzəblənmə! Hər ikinizin sözündə həqiqət vardır, siz cəsarətlə bir-birinizdən öyrənə bilərsiniz.

X r i s o f e m i d a. Ax, əzizlərim, mən onun ağır sözlərinə öyrənmişəm... Bu dəfə də səsimi kəsərdim və danışmazdım. Ancaq görürəm, onun üçün elə bir fəlakət qorxusu var ki, ah-vay edərək tökdüyü göz yaşları öz-özünə quruyacaqdır.

E l e k t r a. Söylənə, necə fəlakət? Onsuz da mənim həyatım başdan ayağa fəlakətdir. Əgər bundan pis olacaqdırsa, söylə, sənlə razılaşaram.

X r i s o f e m i d a. Mən bildiklərimin hamısını sən də biləcəksən. Onlar belə bir qərara gəlmişlər ki, əgər aramsız şikayətlərindən əl çəkməsən səni yeraltı həbsxanaya məhkum etsinlər, orada gün üzü görə bilməyəcəksən, doğma vətənin xaricində, məzar divarları arasında yaşayaraq, qəmli nəğmələrini özün üçün oxuyacaqsan. Özündən muğayat ol, bədbəxtlikdə məni təqsirləndirmə, artıq ayrılmaq vaxtıdır.

E l e k t r a. Mənimlə belə rəftar etməyi onlar qət etmişlərmi?

X r i s o f e m i d a. Bəli, Egisf qayıdan kimi.

E l e k t r a. Allah salamat qaytarsın – istəyir lap bu saat gəlsin!

X r i s o f e m i d a. Nə danışdığını bir düşün, gör nəyə dua edirsən?

E l e k t r a. Onun qayıdıb gəlməsinə və öz əmrini yerinə yetirməsinə.

X r i s o f e m i d a. Öz əmrini yerinə yetirməsinə? Nə üçün? Ağlın çaşıbdırmı?

E l e k t r a. Sizdən uzaqlaşmaq, üzünüzdən qurtarmaq üçün!

X r i s o f e m i d a. Demək, sən öz həyatını puç etmək istəyirsən?

E l e k t r a. Bəh-bəh, əcəb gözəl həyatım var!

X r i s o f e m i d a. Əgər ağlını başına yığsaydın, gözəl olardı.

E l e k t r a. Yenə də mənə xainlik öyrədirsən?

X r i s o f e m i d a. Sənə, amansız qüvvə qarşısında güzəştə getməyi öyrədirəm.

E l e k t r a. İtaət mənim xasiyyətimə yabançı şeydir.

X r i s o f e m i d a. Düşüncəsiz olaraq yıxılmaqdan bizə nə fayda var ki?

E l e k t r a. Atamızın intiqamını alaraq, lazım gələrsə, ölə də bilərik!

X r i s o f e m i d a. Mən əminəm ki, atam bizi bağışlar.

E l e k t r a. Yalnız qorxaqlar özünə belə təsəlli verirlər!

X r i s o f e m i d a. Demək, sən məni eşitmək istəmirsən?

E l e k t r a. Allah eləməsin ki, o dərəcədə ağılsız olam!

X r i s o f e m i d a. Onda bağışla! Məni qulluğa göndərmişlər.

E l e k t r a. Hara gedirsən? O ehsan payı kimin üçündür?

X r i s o f e m i d a. Anam buyurmuşdur ki, bunları atama ehsan verim.

E l e k t r a. Ola bilməz! Özü ədavət bəsləyərək...

X r i s o f e m i d a. Öldürdüyü şəxs üçün – fikrini tamamlayıram.

E l e k t r a. Bu qərarı ona kim təlqin edə bilər ki?

X r i s o f e m i d a. Gecə qorxulu yuxular görmüşdür.

E l e k t r a. Ey allahlar! Heç olmasa indi dadıma yetin!..

X r i s o f e m i d a. Onun qorxmasımı səni şücaətləndirir?

E l e k t r a. Sən yuxunu mənə söylə, sonra deyərəm.

X r i s o f e m i d a. O barədə mən çox az eşitmişəm.

E l e k t r a. Barı onu söylə. Biz bəzən bu az sözlərdən ölüm, ya həyat qazanırıq.

X r i s o f e m i d a. Danışın belədir. O, yuxusunda görmüşdür ki, atam yenidən yaşamaq üçün qayıdıb gəlmiş və indi Egisfin sahib olduğu öz hökmdarlıq əsasını alaraq, yerə sancmışdır. Yerə sancılan əsa cücərib – zoğ atmış, bu zoğlar isə tez bir zamanda böyümüş, böyümüş və nəhayət yamyaşıl bir kölgə olaraq bütün Miken diyarının üstünü almışdır.

Anam, gördüyü həmin yuxunu, günəşə açırmış, orada olan şahid, bu sözləri ondan eşitmişdir, nəhayət onlar mənim də qulağıma çatmışdır. Artıq bir şey bilmirəm. İndi anamın, bu qəbirüstü hədiyyələri

göndərməsinə səbəb, həmin qorxulu yuxudur. (*Elektra bacısını böyük bir maraqla dinləyir. Sonra birdən-birə yerə çökür və açıq əlini üç-dörd dəfə yerə çırpır. Bu halı görən Xrisofemida qorxuya düşərək, Elektranı güclə yerdən qaldırmağa çalışır.*) Elektra! Səni and verirəm doğma allahların adına, məni dinlə, razı olma ki, ağlın səni yıxıb məhv etsin. Budur deyirəm əgər indi sən məni özündən rədd edərsənsə, sonra, gözü yaşlı olaraq, geriyə çağıracaqsan.

E l e k t r a. Bacım! Atamın qəbrini bu arvadın hədiyyələrilə murdarlama. Ədalət və möminlik cani arvadından ona pay aparmağına dözə bilməz. Səpələ onları, küləklər aparsın: ya da ki, quma basdır, ancaq dərin olsun ki, atamın rahatlığını pozmasın və anamızın öləcəyi günə qalsın. Əgər o, qadınlar içərisində ən qəddar bir cani olmasaydı, bu bir damcı qəbir üstü səpməsi ilə öz ölmüş ərinin qəzəbini satın almağı ağlına belə gətirə bilməzdi! Özün düşün: məzarın dibində yuxulamış atam onun paylarını mərhəmət iləmi qəbul edər?

Atamı onun özü öldürmüşdür və təhqir edilmiş düşmən kimi, qollarını çapıb yanına salmışdır, bundan sonra isə, ləkəni öz üstündən yumaq niyyətilə, qiyməkeşin qanlı ağzını ölünün başına silmişdir! Budur, indi o, sənin xidmətindən istifadə edərək, qatillik damğasını öz üstündən təmizləmək istəyir.

Yox, belə ola bilməz! Bunların hamısını at, atam üçün isə, hörüyünü kəs; məndən də miskin bir hədiyyə – onun qızının var-yox dövləti olan – sadə bir kəmər və bir büküm də nəzarətsiz qalmış baş tükü əlavə et. Duanı qəbrin üzərinə əyilərək oxuyarsan ki, o yerin qaranlıq tərkindən bizə, düşmənlərinin üzərinə getmək üçün kömək göndərsin – onun oğlu Orest sağ-salamat gəlsin və od parçası kimi şığıyaraq, xəbis düşmənlərin başlarını bədənlərindən salsın. Belə olarsa, biz gələcəkdə onu daha səxavətlə yad edə bilərik. Mən inanıram, bəli mən inanıram ki, bu arvada sevinc gətirməyən yuxu atamın buyruğundan kənar olan bir şey deyildir. Hər halda, bacım, həm mənim, həm də sənin faydamıza olaraq mənə qulaq as, öz məhəbbətini yaranmışların ən əzizi olan insandan – ruhu cənnətə vasil olmuş atamızdan əsirgəmə!

K o r i f e y (*Xrisofemidaya*). Ah, qızcığaz mömin kimi danışır. Ağıllı ol, ona qulaq as.

X r i s o f e m i d a (*bir az tərəddüddən sonra, qəti*). Olsun, qulaq asıram. Həqiqət tərsliyi və mübahisəni sevmir – ona iş ilə xidmət edirlər. Ancaq siz, əzizlərim, dilinizi dinc qoymaqla məni müdafiə

edin və bu işdə mənə ürək-dirək verin; belə olmazsa – anam əhvalatdan xəbər tutar və mən ağır cəzalara məhkum edilərəm.

O, qorxulu nəzərlə ətrafa boylanaraq, əlində urna sol tərəfə gedir. Elektra şadlıqla onun arxasınca baxır. Stasim zamanı Elektra Artemidanın bütünə söykənir.

BİRİNCİ STASİM

X o r

Kamildirsə ağlım, deyilsə naqis,
Uzaqgörəndirsə – düşünmürsə pis,
Gələr uğrumuza müqəddəs qüvvət -
O doğru xəbərçi, o pak həqiqət.
Çox keçməz, çatacaq imdada haman
Həqiqət, alacaq qan yerinə – qan!

***

Dadlı ümidlər ilə, köksümdə var şücaət,
Görülən yuxularda duyulur ulu qüvvət.
Demək, unutmamışdır düşmənini doğma ər -
Ellinlərdə yuxulamış o böyük şanlı rəhbər,
Köhnə mis qiyməkeş də unutmamış onları -
Hədsiz ağır günahla, öldürən düşmənləri.

***

Eşidirəm zülmətdən gələn misin səsini,
Görürəm yumruqlarda intiqam həvəsini,
Gəlirlər Erinilər!
Həqiqəti sevənlər üçün böyük dəhşət var!
Cüt cəlladın toyu dönüb olur qanlı yas -
Başlanır artıq qisas!
İnanıram: bu yuxu zalım və cəlladlara
Vuracaq dərin yara!
Varsa əgər həqiqət
Qorxulu yuxulardan:
Keçən gecəki kölgə çıxarır bizi dardan.
Gülümsər bizə şəfqət!

* * *

Ey, dəniz üstündə
Atını çapıb gedən -
Pelop, ey göz yaşıyla
Yerləri sirab edən!
Qəmlə adını anar
Bu diyar,
Qızıl gərdunə nur saçır
Dalğaların üstündən;
Qızıl çərxlindən suya
Mirtili tulladın sən;
Dodaqlarında dondu,
Onun küskün naləsi...
O gündən
Günahla dolmuş evdən
Gəlir ağlaşma səsi.

İKİNCİ EPİSODİ

Birinci səhnə

Sarayın qapısı yenə də açılır, gözəl geyinmiş Klitemnestra səhnəyə çıxır. Bir əlində hökmdarlıq əsası, o biri əlində isə maye kasası var. O, 40 yaşlarında, əvvəlki gözəllik əlamətlərini saxlamış bir qadındır, təkəbbürlülüyü və rəhmsizliyi üzündən bəllidir. Arxasınca gələn kəniz səpmə maye bardağını və içi qurban hədiyyələrilə dolu olan səbəti gətirir. İkinci kəniz isə Apollonun məbədinə yaxınlaşır və onun üzərində ocaq yandırır. Apollonun bütünə yaxınlaşan Klitemnestra, Elektranın kəskin nəzərini gördükdə, istər-istəməz diksinir və yerində dayanır. Qurban vermə zamanı Elektranın onu görməsi, Klitemnestraya olduqca pis təsir bağışlayır. Fəqət o, qızını buradan rədd etmək iqtidarında deyildir. Öz istehzalı gözlərini bir an belə anasından çəkməyən Elektra, kəskin baxışları ilə onu təqib edir və arabir qabağa atdığı hər addım ilə Klitemnestranı geriyə çəkilməyə məcbur eləyir.

K l i t e m n e s t r a. Görürəm, yenə də sərbəst gəzirsən, nə edim! Egisf burada deyil: öz doğma aileni el içərisində rüsvay etməkdən sənin cilovunu o çəkə bilirdi. Fəqət indi o burada deyil, mənə də ki – qulaq asmaq istəmirsən...

Hər halda sən çoxlarının qarşısında məni pisləyirsən. Deyirsən ki, səni nahaq yerə danlayıram, sənin kədərini haqsız, səbəbsiz və lovğalıqdan söyürəm. Lovğalıq mənə yabançıdır, səni söyüb təhqir eləməyim isə, sənin təhqiredici sözlərinin qarşılığıdır...

Həmişə dava salmaq üçün, atan sənə bir bəhanə olmuşdur. Deyirsən ki, o mənim əlimlə qətlə yetirildi. Bəli, o, mənim əlimlə ölmüşdür! Danmaq istəmirəm: mənim əlimlə onu həqiqət özü yıxdı. Sən dəxi ağıllı ol, gərək həqiqətə kömək etməyi sən də özünə lazım biləydin...

Unutma ki, o, həmişə xatırlayıb ağladığını atan öz rəhmsizliyilə ellinlərin hamısını ötüb keçmişdi. O sənin bacını allahlara qurban kəsdi. Bəxtəvər ata! Körpə uşağımıza can verərkən mənim kimi yanmamışdı; Onun beli-buxunu – doğmaq əzabını mənim kimi dadmamışdı...

Söylə, sən özün söylə, nə üçün, kimin xatiri üçün o mənim balamı kəsdi? Deyəcəksən ki, arqivlərin xatiri üçün? Yoxsa öz qardaşı Menelayın xoşuna gəlsin deyə, mənim körpəmi onun xatiri üçün qurban verdi? Həqiqətə qalarsa Menelay yalnız öz balalarına ixtiyarlıdır! Özün söylə. Menelay ki, iki uşağın atası idi! Analarının böyük müharibəyə səbəb olan günahını yumaq üçün, hər kəsdən qabaq, onlardan biri ölməli idi! Bəlkə mənim körpəmin cavan qanına kölgələr hökmdarı Aid çoxdan susayırmış?

Bəlkə də, Menelay öz arvadının uşaqlarına can yandırdığı bir zamanda, sənin atan öz qızına qarşı nifrət bəsləyirmiş? Görürsənmi, o öz daşqəlbliliyini harada göstərmişdir!

Mənim düşündüyüm belədir, qoy sənə yad olum, bunun əvəzində ölən qızım mütləq mənimlə şərikdir. Sənə isə məsləhət görürəm: əgər ananı pisləmək istəyirsənsə, heç olmazsa, özün yaxşı ol!

E l e k t r a. İndi, sənin bu sözlərin mənə nəvazişsiz bir təsir bağışlamır. Bununla belə, əgər razı olsaydın mən həm atam haqqında, həm də mərhum bacım haqqında işin həqiqətini deyə bilərdim.

K l i t e m n e s t r a. Razıyam, de gəlsin – əgər qabaqlarda da sən mənimlə belə hörmətlə danışmağı bacarsaydın, diqqətlə səni həmişə dinləyə bilərdim.

E l e k t r a. Mənim deyəcəyim sözlər belədir. Atamı sən öldürmüsən, bunu özün dedin. Bundan daha qorxunc bir etiraf ola bilməz. Doğrudanmı sən onu haqlı olaraq öldürmüsən, yoxsa yox? Fəqət mən gözünün içinə demək istəyirəm ki, sənin gördüyün bu işdə həqiqətin əli olmamışdır, sən bu cinayət işi, indi özünə ər edərək yaşadığın xəbisin nəvazişinə uyaraq görmüsən!

Ov allahı Artemidadan soruş, gör nə üçün o bizə qəzəbləndi, nə üçün külək qoşunları Avliddə sıxışdırıb saxladı... Bir də ki, sən onu sorğu-suala çağıra bilməzsən; yaxşısı budur ki, mən özüm sənə deyim: qulaq as! Mənə deyildiyinə görə, atam Artemidanın meşəsində gəzirmiş: ayağının şıqqıltısı ilə xallı maralı ürkütmüş, nişan alaraq vurub onu öldürmüş, sonra isə sevindiyindən bir neçə lovğa sözlər də demişdir. Bunu görən Artemida bərk qəzəblənmiş, heyvanın intiqamı əvəzində, atam ona öz balasını qurban gətirməyincə – arxeyliləri Avliddə gözləməyə məcbur etmişdir və qoşuna qırğın azarı salmışdır. Mənim bacımın həlak edilməsinə səbəb olan şey də budur: çünki onların yolu həm Troya tərəfə getmək, həm də geriyə qayıtmaq üçün Artemida tərəfindən bağlanmış imiş. Demək ki, atam Menelayın xatiri üçün deyil, bu ağır vəziyyətdən çıxmaq məcburiyyəti altında, bacımın qurban verilməsinə razı olmuşdur.

Yaxşı, fərz edək ki, sən haqlısan; fərz edək ki, o Menelayı yüksəltmək istəmişdir. Nə olsun? Ona görə də o, sənin əlinləmi ölməli idi? Belə qanunu sən haradan tapıb çıxarmısan? Bir düşün! İnsan övladına belə bir ölüm hökmünü icra etdiyin üçün sən özünə həddindən ziyada günah və fəlakət toplayırsan. Əgər biz hər öldürəni öldürməli olarıqsa, onda doğrudan da növbə sənin özünə çatmışdır və indi, birinci olaraq, sən ölməlisən.

Ancaq yox. Bu mahnıları sən özün üçün düzəltmisən. Əgər mən səhv edirəmsə, onda mənə de görüm özünü belə bir rüsvayçılıq çirkabına batırmağın hansı intiqamın müqabilidir? Nə üçün əlbir olaraq atamı öldürdüyün səfil ilə ər-arvadlıq edirsən? Nə üçün ona oğul-uşaq doğursan, öz qanuni ərindən olanları isə – yad hesab edirsən? Sənin belə işlərinə nə ad vermək olar? Bəlkə burada da deyəcəksən ki, bunları ölən qızının acığına edirsən? Bunu etiraf etməyə, utan! Əgər bunları ölən qızının xeyrinə etmiş olsan belə xəbis düşməni özünə "ər" deyə çağırmağın murdar və yuyulmaz bir rüsvayçılıqdır!

Hələ bu harasıdır ki! Sən mənə danışmağa belə imkan vermirsən; həmişə səndən: "anana böhtan atırsan" – deyə töhmət eşidirəm. Mən də ki, səni öz uşaqlarının nəinki anası, bəlkə ağası hesab etməli olmuşam. Hüzurunda bir qul kimi yaşayıram; həm səndən, həm də sənə dost çıxmış adamdan gələn hər incikliyə dözürəm. Əlindən güc ilə qaçıb qurtarmış oğlun Orest isə yadların içərisində mühacir olaraq

yaşayır. Onun haqqında da sən mənə gün-dirilik vermirsən. "Onu, məndən intiqam almaq üçün yetişdirirsən" – deyə, məni danlayırsan. Bəli, burada sən haqlısan: əgər lazımi qədər gücüm olsaydı, onun intiqamına mən daha böyük bir həvəslə ilham verərdim, bunu bil!

Bu qədər; mənim deyəcəyim bunlardan ibarət idi. İndi, istər məni hamının qarşısında axmaq adlandır, istər davakar, istərsə həyasız; bu sənin öz işindir. Əgər doğrudan da eləyəmsə, mən nə edim? Sən isə anam deyilsən.

K o r i f e y. Görürəm, Klitemnestra çox qəzəblidir. Ancaq o, öz qəzəbində haqlıdırmı ya yox, budur məsələ.

K l i t e m n e s t r a. Belə qızın, hörməti artıq olsun, anasını qəsdiqərəzdən təhqir edir; bu ki hələ ağzından süd iyi gələn uşaqdır! Siz özünüz görürsünüz ki, o, hər şeyin ustasıdır, onda həya və utanmaq deyən bir şey yoxdur.

E l e k t r a. Doğru deyil. Mən utanıram, qəlbimin içərisinə qədər utanıram. Mən özüm yaxşı bilirəm ki, hərəkətlərim qız hərəkətləri deyil; ancaq başqa bir çıxış yolu varmı? Sənin böhtanların qırmızıdır, sənin hərəkətlərin məni belə davranmağa məcbur eləmiş. Pis iş, daima pis mühitdən doğar.

K l i t e m n e s t r a. Bas-bağla, ədəbsiz, mənim sözlərim və rəftarım səni qorxuya salır!

E l e k t r a. Təqsirin də budur. Çirkin işləri görürsən, sözün də çirkin rəng alır.

K l i t e m n e s t r a. Müqəddəs Artemida bilir ki, Egisf gəlsə sənə divan tutacaq!

E l e k t r a. Yenə də hədələndim. Mən ki səndən danışmağa söz almışdım, özün qulaq asmağı bacarmırsan, korlayırsan.

K l i t e m n e s t r a (*rişxəndlə*). Söz almışdım! Barı indi icazə verərsənmi ki, xilaskara bir az dua oxuyum – pərəstiş edim?

E l e k t r a. Buyur, oxu. Ümumiyyətlə sən məndən razı qalacaqsan: bundan sonra cınqırım belə çıxmayacaqdır.

Geri çəkilir və Artemida bütünün yanında əvvəlki vəziyyətdə dayanır. Klitemnestra ikinci kəniz ilə, Apollonun üzərində gur ocaq qalanmış mehrabına yaxınlaşır. Dua və pərəstiş zamanı o, bir-birinin dalınca ocağa gah çaxır çiləyir, gah duz qatışıqlı vələmir, gah da bir sıra quru meyvələr atır. Bütün bu işlər görülərkən Elektra anasına elə kəskin bir nifrətlə baxır ki, Klitemnestra arabir duanı dayandırıb ona baxır və qorxur.

K l i t e m n e s t r a. Kənizim, meyvə səbətini buraya ver. Sahibim Febə dua oxumaq istəyirəm: qoy o gecəki yuxunun əzabını mənim qəlbimdən çıxarıb rədd etsin. (*Dua oxumağa başlayır*)

Nəzakətsiz mühit içindəyəm mən,
Ey himayəkarım, ey Feb, amandır,
Eşit mənim gizlin iltimasımı -
Onlar gərək sənə aydın-əyandır.
Dərdimi söz ilə açа bilmirəm,
İnadçı qızımın olduğu yerdə:
O, şadlıqla nərə çəkib, bu sirri,
Salar dildən-dilə bütün şəhərdə.
Yox, sən belə eşit – mən deyən kimi:
Yuxuda gördüyüm əmmalı xəyal
Dostum isə əgər, ey parlaq allah -
Bir dost kimi onu himayənə al;
Düşmən isə əgər rəhm elə mənə, -
Sən onu bir düşmən surətinə sal!
Və gizlində, məni taci-taxtımdan
Salmaq üçün qurulursa xəyanət -
Özün yardıma gəl, qoyma bəxtimdən
Əlin çıxsın – tarac olsun səltənət;
Mənə baş endirən dostlar içində,
Bundan belə dəxi sağ və salamat
Hökmranlıq edim, əlimdə qalsın
Bu Atridlər evi – əsai – dövlət.
Xeyir-dua elə balalarıma -
O balam ki, mənə yaman baxmayır,
Düşmənçilik etmir, öz anasına -
Zəhər olub ürəyimə axmayır!
Lütf elə Apollon – Likey allahı -
Duamız səbəbsiz qalmasın barı!
Və bil ki, içimdən əriyirəm mən:
Görür bunu Zevsin öz oğulları!

O, əlini bükür, buxur ilə doldurub ocağa atır, ocaqdan tüstü bulud kimi qalxır. Apollonun bütü və səhnə görünməz olur. Klitemnestra dua oxuyan bir vəziyyətdə əllərini yuxarıya qaldırıb dodaqlarını titrədərək, yerində dayanmışdır. Tüstünün buludu çəkildikdə, Apollonun bütünün yanında dayanmış Talfibi görünür.

İkinci səhnə

Klitemnestranın dua oxuduğunu görən Talfibi, yaxındakı qızlardan birinə müraciət edir.

T a l f i b i. Vətəndaşlar – qızlar, mən necə bilim, Egisf hökmdar, buradamı olur?

K o r i f e y. Burada olur, ey qonaq özüdür ki var.

T a l f i b i. Səhv etmirəmsə, bu dua oxuyan qadın gərək onun zövcəsi olsun: suyumundan hakimlik yağır, görünüşündən – hökmdardır.

K o r i f e y. Yenə də sözlərində sən haqlısan.

Talfibi, hörmətlə Klitemnestranın ibadətdən qalxmasını gözləyir, dua bitdikdən sonra, o, Klitemnestraya yaxınlaşır.

T a l f i b i. Gözün aydın olsun, sevin, hökmdar! Doğru bir kişidən xoş-xəbərim var.

Bu söz Elektranın diksindirir. O, qorxulu bir şey duyaraq əlini köksünün üstünə sıxır və yavaşca danışanlara yaxınlaşır. Talfibi ilə məşğul olan Klitemnestra onun yaxınlaşdığını görmür.

K l i t e m n e s t r a (*gülümsəyərək*). Təşəkkür etməyə boyun oluram; hər halda, sənə birinci sualım budur: səni buraya göndərən kimdir?

T a l f i b i. Fokeyli Fanotey, mühüm xəbərlə.

K l i t e m n e s t r a. Nə xəbər, qonağım? Dostumdan yəqin sən dosta layiq sözlər deyəcəksən?

T a l f i b i. Orest öldü; budur sözün qısası.

E l e k t r a (*nalə çəkib yerə düşür*). Bu gündən mənim həyatım pozuldu!

K l i t e m n e s t r a (*özünü itirmiş halda*). Nə dedin, qonağım? Onu dinləmə!

T a l f i b i. Orest sağ deyildir – təkrar edirəm.

E l e k t r a. Çırağım qaraldı! Sönüb gedirəm.

K l i t e m n e s t r a (*Elektraya*). Rədd ol buradan! Qonaq, sən düzünü de, hansı ölüm ilə o həlak oldu?

T a l f i b i. Bu saat söyləyim. Məni bunun üçün buraya göndərmişlər. (*Klitemnestra Talfibini səhnənin sol tərəfindəki Artemida*

bütünün yanına çəkir və üzü ona, arxası isə – Elektraya tərəf dayanır. Yerə düşmüş Elektra başını qaldırıb Talfibinin nağılını dinləyir və arabir dərin ah çəkməklə onun sözlərini kəsir. Talfibi davam edir) O, Delfi oyunlarında iştirak etmək üçün şanlı Ellin yarış meydanlarına gəlmişdi. Budur, cıdırın nəticəsi haqqında carçının səsi eşidildikdə o, camaatın qarşısında, hamını heyrətə salan parlaq bir gənc olaraq tanındı və təbiətin lütfü cıdırın nəticəsini haqlı olaraq başa vurdu, Parnas cığırını o, şanlı qələbə çələnglərilə qoyub getdi.

Mən, az sözümlə çox böyük işləri ifadə etmək istəyirəm: tək bir kişinin özünə bu qədər şan-şöhrət qazandığını indiyə kimi görməmişdim, yalnız bircə şeyi xatırla: oyun nəzarətçiləri hansı bir müsabiqəni araya sürmüşlərsə, bunların hamısında qalibiyyət çiçəyini sənin oğlun dərmişdir. Hər dəfə carçı: "birinciliyi – şöhrətli qoşun dəstələrini bütün Elladalara çəkmiş Aqamemnonun oğlu, Orest adlı arqivli oğlu qazanmışdır" deyə elan etdikdə, hər tərəfdən şadlıq səsi eşidilirdi.

Xoşbəxt dəqiqə!

Ancaq insana allah düşmən olsa – əcəldən nə igid, nə hakim qurtarar.

O günlər keçdi. Günəş yenidən doğdu, yüksəldi və atıcılar gəlib oraya çıxmışdı; onun ətrafında isə təcrübədən keçmiş at sürənlər dəxi az deyildi. Burada axeyli var idi, spartalı var idi; yanımıza, öz gərdunələri və atları ilə, uzaq Liviyadan iki nəfər gəlmişdi; bu adamların arasında beşinci o idi, öz Fessaliya atları ilə gəlmişdi: sonra – dörd kəhər ilə gələn etoliyalı idi; yeddinci adam – maqnetlərin dağlıq vilayətindən gəlib çıxmışdı; səkkizinci – tünd gümüşü atların sahibi, enian sürücüsü idi; allahın yaratdığı Afinadan gələn doqquzuncu idi; bütün bunların sırasını dolduran onuncu rəqib isə – beotiyalı idi.

Püşk atdılar. Püşkün göstərməsinə riayət edərək, yarış nəzarətçilərinin göstərdiyi qayda ilə, sıraya düzüldülər. Budur, boru səsləndi – cıdır başlandı. Sürücülər hay-küy salaraq, atları cilov qayışları ilə dəhmərlədilər; gərdunələr xışıltı ilə ötüb, qabağa atıldılar və cıdır meydanında toz qaldıraraq, güllə kimi irəli cumdular. Əvvəlcə onların hamısı bir topada gedirdi, ancaq hər kəs qabaqlamaq istəyən gərdunənin böyründən ötmək və kişnəşən atların başlarını arxada buraxıb keçərək, sərbəstliyə çıxmaq istəyirdi. Bunun üçün onlar öz qamçılarını aramsız şaqqıldadır, cərgə ilə qaçan atların yanbızlarını dalayırdılar: qamçıların yeri zol-zol dururdu, heyvanların ağızlarından daşlanan ağ

köpük onların bel-buxunlarını və arabanın təkərlərini batırırdı. Öz cıdırını çox ustalıqla idarə edən Orest idi: o, sağ cinahdakı ata tam sərbəstlik verir, sol cinahdakı atın cilovunu isə dartaraq, hədəf dairəsini həmişə sıx-sıx dolanırdı. Beləliklə, bir müddət onların hamısı bir topada olaraq qabağa uçurdular. Birdən enianlının atları tərsliyə düşdü, onlar cilovu gəmirərək sağ tərəfə burxuldular – bu, altıncımı və yaxud yeddinci dönüş idi – enianlının sağa burxulan atları, döngənin tam qurtaracağında – təpələri üstə liviyalının gərdunəsinə dəydilər; arxadan gələnlər də bir-birinin dalınca onların üzərinə qalandı. Taqqıltı və şaqqıltıdan, dad və haraydan quluq tutulurdu. Göz yumub açan dəqiqədə Krisey çölü əzilib parçalanmış at və arabalarla doldu.

Başqalarının fəlakətini uzaqdan görən və haqq-hesabını yaxşı anlayan Afina sürücüsü atlarının başını sağ tərəfə dartdı – qaynayan girdabın böyründən yel kimi ötüb keçdi.

Bizim Orest lap axırda gəlirdi. O, son qalibiyyətə ümid bağlayaraq, atları qovub yormaq istəmirdi. Bütün rəqiblərdən yalnız birinin salamat qaldığını gördükdə, o, qamçısını qaldırdı və onu atların qulağının dibində elə dəhşətlə şaqqıldatdı ki, atlar tozanaq kimi qabağa atılıb, həmin saat özlərini rəqibə çatdırdılar. Budur, onlar yanaşmışlar və yanaşı olaraq qovurlar: rəqiblər – ciddi rəqib idilər. Hərdənbir gah bu atın, gah da o birisinin yalnız başı qabaqda görünə bilirdi. Sürətlə gedən gərdunənin üzərində ayaq üstündə şax durmuş Orest, demək olar ki, bütün döngələrdən müvəffəqiyyətlə keçmişdi.

Bədbəxt! Hədəfin axır döngəsini burularkən, sol əlindəki cilov yerə düşdü, gərdunənin oxu dikdirə dəydi. Çulka dərhal parçalandı: o, gərdunədən yıxılıb, dişlədə qayışlara dolaşdı, atlar isə hürüşərək səhra tərəfə götürüldülər. Bu hadisəni gördükdə hamının içərisindən bir dəhşət nalesi qopdu; bu qədər qəhrəmanlıqlar göstərmiş misilsiz gəncin axırda belə bədbəxtliyə düçar olmasına hamı qan-yaş tökərək ağlayırdı.

Atlar isə onu, quru daş və kəsəklərə çırpa-çırpa sürüyüb daha da uzaqlara aparırdılar. O, gah üzü üstə çevrilir, gah da arxası üstündə, boş torpaqda sürünərək, çarəsizlikdən dizlərini rəhmsiz göyə doğru qaldırırdı. Süvarilər, dəli kimi qaçmaqda olan atları, nəhayət, böyük bir çətinliklə dayandıra bildilər və onu qayışlardan açıb çıxardılar. Biçarənin qana qərq olmuş sir-sifəti dostları üçün belə tanınmaz olmuşdu.

Tezliklə qəhrəmanı oda verdilər, külünü xırdaca bir urnaya doldurdular; pəhləvanın, öz qəbrilə, doğma yurdunda xatırlanması üçün, Fokey

məmləkətinin seçilmiş adamları indi onun miskin külünü yanınıza gətirəcəklər.

Orestin ölməsi belə olmuşdur. Bu fəlakət hələ sözdə bu qədər acınacaqlıdır: biz şahidlər üçün isə bu, həyatda gördüyümüz bütün bədbəxtliklərin hamısından yamandır.

K o r i f e y. Of, yazıq bizim halımıza! Əsl sahibimizin evi indi tamamilə tar-mar oldu.

K l i t e m n e s t r a. Ya Zevs! Mən sənin bu qərarını necə adlandırım? Doğrudanmı bu, xoşbəxtlikdir? Yoxsa bu bədbəxtlik, fəqət xilasedici bir bədbəxtlikdir? Ey təsəllisiz qürə! Mən, öz kədərimlə – öz həyatımı xilas edirəm!

T a l f i b i (*imtahanedici tərzlə*). Gətirdiyim xəbərmi səni qəmgin edir?

K l i t e m n e s t r a. Dəhşət burasındadır ki, onu – mən doğmuşam! Dünyada elə bir rəncidəlik yoxdur ki, ana öz balasına nifrət etsin.

T a l f i b i. Görürəm, mənim gəlişim nahaq imiş.

K l i t e m n e s t r a (*öz hissini boğaraq*). Nahaq imiş? Yox! Sən elə sözü demə! Məndən olub, mənim südümdən və mənim məhəbbətimdən kənar çəkilmiş, yad əllərdə və yad adamlar arasında böyümüş şəxsin qəzaya uğraması haqda sən mənə xoş xəbər gətirmisən. Doğma yurdunu ataraq, o, məni bir dəfə də olsun belə görməmişdir; məni atasının qatili adlandırmış və dəhşətli intiqamla təhdid etmişdir; nə gecələr gözümü şirin bir yuxu ilə yummuşam, nə də gündüzlər sevincli bir istirahət görmüşəm, yaşadığım hər yeni saat, mənə ölümdən yalnız qısa bir möhlət kimi keçmişdir.

Fəqət, bu gün mənə azadlıq qaytardı. Bu gündən onun... (*Elektra ağlayır. Klitemnestra dönüb şad nəzərlə ona baxdıqdan sonra, sözünə davam edir*). ... Və bunun qorxusu mənim canımdan çıxdı. Bu mənim üçün böyük bir azar olmuşdu. Mənimlə yaşayaraq, qanımı ciyərimin içərisindən çəkib sorurdu. İndi kifayətdir! Bunun hədələri artıq məni qorxutmaz və istirahətimi pozmaz.

E l e k t r a. Yazıq mənim halıma! İndi sənin ölümünə, Orest, mən ikiqat ağlamalıyam. Siz, ey allahlar, doğrudanmı bizimlə ləyaqətli davrandınız?

K l i t e m n e s t r a (*rişxəndlə*). Səninlə yox, ancaq onunla olduqca ləyaqətli davranmışlar.

E l e k t r a (*hirs ilə əlini yerə çırpır*). Eşit, ey ölənlərin istinadgahı, Nemezida![24]

K l i t e m n e s t r a. O, haqlı duanı eşitmiş və hər şeyi haqlı olaraq həll etmişdir.

E l e k t r a. İndi sən bizim məzhəbimizi cəsarətlə söyə bilərsən: bundan belə hökmranlıq sənin əlindədir.

K l i t e m n e s t r a. Mənim hökmranlığımı Orest ilə sən kəsmirsənmi?

E l e k t r a (*Həyəcanlı yerindən sıçrayır və anasının qarşısında elə ciddi bir vəziyyətdə dayanır ki, Klitemnestra istər-istəməz geri çəkilir və Talfibiyə arxalanır. Qısa fasilədən sonra*). Bizim öz ümidimiz əbədi olaraq kəsilmişdir: sənin azğınlığını kəsən biz olmayacağıq!

K l i t e m n e s t r a (*Talfibiyə*). Sənin gəlişin, qonaq, məhz ona görə xeyir-dua edilməlidir ki, bu bayquşun səsini əbədi olaraq kəsdin!

T a l f i b i Demək, mən arxayın gedə bilərəm?

K l i t e m n e s t r a. Yox. Elə şey yoxdur: bu cürə qayıdıb getsən, həm bizim xatirimizə dəyərsən, həm də səni buraya göndərən adamın. Yox: gedək evə, onu isə qoy qalsın bu meydanın ortasında ürəyi istəyən qədər həm özünə ağlasın, həm də dostlarına.

Evə gedir və Talfibini də özü ilə aparır. Elektra,
onun arxasınca lənət işarəsi göndərir.

Üçüncü səhnə

E l e k t r a (*xora*). Bu da ana! Gördünüzmü, yazıq, öz doğma oğlunun ağır fəlakətlə ölməsini eşidib, kədərindən dəli oldu və ağlını itirmiş halda bütün meydan dolusu dad-fəryad qopardı. Elə deyilmi? Əlbəttə, yox! Yalnız qəh-qəh çəkib getdi! Yazıq mənim halıma, yazıq! Orest, əzizim, sən öz ölümünlə məni məhv etdin. Mən, sənin bir gün parlaq intiqam ildırımı kimi çaxacağını, məzardakı atamızın və mən bədbəxtin intiqamını alacağını gözləyirdim; sən mənim qəlbimdəki son ümid çırağını da söndürdün! İndi nə edim? İndi mən bu işıqlı dünyada atasız, qardaşsız qalmışam. Yenədəmi xain cəlladlara qul olmalıyam! Ey allahlar, siz mənimlə ləyaqətli rəftar etdinizmi? Yox, mənim artıq onlarla bir divar arasında yaşamağa taqətim qalmamışdır: nə qədər ki, nəfəsim ağzımdan çıxmamışdır, burada, qapı ağzında, ailədən kənar olaraq yatmaq istəyirəm. Əgər ev qulluqçularından birisi mənim bu vəziyyətimə tab gətirməzsə, qoy məni öldürsün və canımı qurtarsın. Mən ona

yalnız sağ ol deyərəm. Həyat mənim üçün artıq dözülməz bir yük olmuşdur: onda arzulanacaq daha heç bir şey qalmamışdır!

Taqətsiz bir halda Apollon bütünün qabağında yerə yıxılır. Sakitlik.

İKİNCİ STASİM

Musiqi çalınır. Xor Elektraya müraciət edir.

X o r

Haradasınız, ey güneşin
Qəzəblənmiş şüaları?
Sən, ey Zevsin ildırımı,
Görmürsənmi zülmkarı?

E l e k t r a. Of, yazıq mənim halıma, yazıq!
X o r. Nə üçün qanlı yaşlar axır?
E l e k t r a. Fəlakət!
X o r. Dayan sən, ah-zar etmə!
E l e k t r a. Rəhm elə!
X o r. Nə dedin!
E l e k t r a. O, yerin altındadır, bunu özün bilirsən. Əgər qəlbimin ümid çırağını sən yenidən yandırarsansa – dərdim daha ağır olacaq – qaralmış fəlakətim qaradan rəng alacaq.
X o r. Qulaq as: Amfiaray adında bir hökmdar varmış, o, arvadının bəd əməlinə rast olmuş, həlak edilmiş və zülmətlər sarayına göndərilibmiş.
İndi həmin hökmdar ölülər arasında...
E l e k t r a. Of, yazıq mənim halıma, yazıq!
X o r. Qüdrətlə hökmranlıq edir!
E l e k t r a. Fəlakət!
X o r. Bəli, fəlakət. Qatil...
E l e k t r a. Cəzalandı?
X o r. Bəli!
E l e k t r a (*fasilədən sonra, məyusanə*). Bilirəm onu intiqamçı cəzalandırdı: atasının kədərini oğlu söndürdü. Elə bir intiqamçı bizdə də var idi, onu allahlar götürdülər!

X o r. Ax, heyf sənin həyatına, heyf!
E l e k t r a. Mən onun səfasını gördüm. Ay dalınca ay ötən kimi, qara günlər bir-birinin dalınca, məyusanə bir silsilə kimi gəlib keçdilər!
X o r. Sənin qüssəni biz bilirik.
E l e k t r a. Sən də lal olsana, məhəbbət sədası! Görürsənmi orada yoxdur...
X o r. Nə yoxdur?
E l e k t r a. Ümid yeri yoxdur ki, doğma qəhrəman atamın qanına qan alınsın.
X o r. Bütün yaranmışlar üçün müəyyən bir ölüm saatı hökm olunmuşdur.
E l e k t r a. Cıdır meydanında cilovların torundan asılmaq, ümidsiz və imdadsız olaraq, quru torpaqda sürünmək və son nəfəsini əzab içərisində buraxmaq dəxi hökm olunmuşdurmu?
X o r. Səndə intihasız böyük kədər var!
E l e k t r a. Məndə olmayıb da kimdə olacaq? Mənsiz o ev düşmənlərə qalacaq.
X o r. Əfsus!
E l e k t r a. Bədbəxt qardaşımı oda verdilər: təsəlli nəğməsinin səsi kəsildi!

ÜÇÜNCÜ EPİSODİ

Birinci səhnə

Xrisofemida sol tərəfdən tələsik gəlir, ətrafa nəzər salıb Elektranı tapır və onu qucaqlayır.

X r i s o f e m i d a. Bacıcan, sevinclə qanadlanaraq uçub yanına gəlmişəm. Ədəb-ərkanı unutdum ki, tezliklə səni xəbərdar edim. Gətirdiyim xəbər isə – şadlıq və sənin canını bu ağır dərd-qəm əzablarından qurtaran bir şeydir.
E l e k t r a (*tutqun*). Mənim dərdim çarəsiz dərddir; sən məni bu dərd-qəmdən qurtarmağa qadir deyilsən: sözlərinin mənası nədir?
X r i s o f e m i d a. Xəbərdar ol! Bizim Orestimiz buradadır: məni öz qarşında gördüyün kimi – onun də burada olduğuna inana bilərsən!
E l e k t r a. Görünür sən ağlını itirmisən: həm mənim, həm də özünün bədbəxtliyini istehzaya qoyursan!

X r i s o f e m i d a. Atamın ocağına and olsun! Mən bunu istehza üçün yox, aydın bir həqiqət olaraq deyirəm: o buradadır!

E l e k t r a. Vay, yazıq! Sən kimin sayıqlamalarına belə qeyd və şərtsiz olaraq inandın?

X r i s o f e m i d a. Mən özgə sözünə yox, öz gözlərimə inanıram: bundan mötəbər sübut ola bilməz.

E l e k t r a Ah, mötəbər sübut olmalıdır! Əl çək! Yalançı ümid odilə xəstə ürəyi qızdırmaqdan əl çək!

X r i s o f e m i d a. Səni and verirəm allahlara, heç olmazsa dinlə! Sonra məni ağıllımı və ya ağılsızmı adlandırmaq lazım gəldiyini özün bilərsən.

E l e k t r a. Nə edim, əgər danışmaq xoşuna gəlirsə, danış.

X r i s o f e m i d a. Gözümlə nə görmüşəmsə hamısını sənə söyləyəcəyəm.

Mən atamın köhnəlmiş kurqanının yanına gəldim. Bir də nə gördüm, gördüm ki, təpəciyin üzərinə yeni tökülmüş ağappaq süd ağzı aşağı axır. Onun ətrafı isə, yer üzərində bitən bütün çiçəklərlə, al-əlvan bəzənmişdir. İşdən baş açа bilməyib nəfəsimi dərdim, yaxınlarda adam olub-olmamağını bilmək niyyətilə ətrafa göz gəzdirdim. Heç kəsi görmədim: hər yanda sakitlik idi. Daha yaxın gəldim. Birdən qəbrin üstündəki ocaq yerinin yanında, bıçaq ilə kəsilmiş bir dəstə cavan saç tükünü gördüm. Mən bunu görən kimi elə bil ildırım çaxdı: ruhlar tərəfindən bəslənmiş, yaranmışlar içərisində ən sevimli olan Orestimizin surəti, dərhal gəlib bütün parlaqlığı ilə gözümün qabağında dayandı: bu saç hörüyünü o, qoyub getmişdir! Əlimə götürdüm, sevincimdən çığırmaq istədim... Ancaq yaramazdı. Ora müqəddəs yerdir, şadlığımdan yalnız gözlərimi yaş bürüdü.

Bacım, buna mən, orada olduğum kimi, indi də inanıram. İnanıram ki, həmin qəbri belə misilsiz hədiyyələrlə yalnız o bəzəyə bilər. Yoxsa belə bir möminlik etməyə kim məcbur olmuş ki? Sən, bir də mən. Ancaq mən özümü bilirəm, bilirəm ki, iş sahibi mən deyiləm. Sən olmadığına da inanıram. Bilirəm ki, sən hətta dua eləmək üçün belə, evdən bir yana çıxa bilməzsən, üzərində dəhşətli tufan ildırımları çaxar. Anam haqqında düşünməyə belə dəyməz. O, belə bir ruhun sahibi deyil və ağlım kəsmir ki, bu işdə o özünü gizlətsin. Yox, bu Orestin işidir: bu şərəfli işi o atam üçün etmişdir.

Bələliklə, sən özünə təsəlli verə bilərsən, əzizim. İnsanın taleyi həmişə işgəncəli olmaz. Xəbis qadın indiyə kimi bizə qaşqabaq edirdi: bunun əvəzidir ki, nəhayət, şadlıq günü gəlib yetmişdir!

E l e k t r a. Yazıq sənin divanə halına!

X r i s o f e m i d a. Yenədəmi məni danlayırsan? Dediklərim səni sevindirmirmi?

E l e k t r a. Sən öz ruhunun hansı torpaqlarda, hansı xəyali kölgələrin arxasında dolaşdığını bələ bilmirsən.

X r i s o f e m i d a. Öz gözümlə gördüyümün nə olduğunu mən bilmirəmmi?

E l e k t r a. Bədbəxt, o artıq bu dünyada deyil! Bizim ümidgahımız həlak olmuşdur. Ondan təsəlli gözünü çək!

X r i s o f e m i d a. Sən nə danışırsan? Bu xəbəri kim gətirmişdir?

E l e k t r a. Onun həlak olmasını yaxından görən adam.

X r i s o f e m i d a. Kül başıma, o adamın özü haradadır ki?

E l e k t r a. Anamın sevimli qonağı olaraq evə girmişdir.

X r i s o f e m i d a. Yazıq bizim halımıza! Bəs onda atamın kurqanını bu qədər namuslu adama məxsus hədiyyələrlə kim bəzəmişdir?

E l e k t r a. Yəqin onları, Orestin ölməsinə xatirə olaraq, onun kənar torpaqlardakı dostlarından biri gətirmişdir.

X r i s o f e m i d a. Ax, yazıq qardaşım! Mən axmaq da, böyük kədərin bu qədər yaxında olmasını bilməyərək, sevincli xəbərlərlə buraya, sənin yanına yüyürürdüm. Budur, indi mən buradayam, ancaq?.. Əvvəlki qüssəmin üzərinə biri daha əlavə olundu.

Kədərlə kənara çəkilir və yerə oturub, ahəstəcə ağlayır. Elektra ona yaxınlaşır və dostcasına əlini onun çiyninə qoyur.

E l e k t r a. Bəli, bunların hamısı həqiqətdir. Sən gəl mənim məsləhətimi qəbul et, onda amansız bədxahlığın ağır yükündən özün də xilas ola bilərsən.

X r i s o f e m i d a (*tutqun*). Ölən adama mən həyat qaytara bilərəmmi?

E l e k t r a. Onu demək istəmirəm! Mən hələ ağlımı itirməmişəm.

X r i s o f e m i d a. Bəs nə buyurursan, mənim gücüm çatan işdirmi?

E l e k t r a. Çatar, ancaq bu şərtlə ki, nəsihətlərimin ifasında möhkəm olasan!

X r i s o f e m i d a. Faydalı nəsihətdirsə möhkəm olaram.

E l e k t r a. Sən bilirsən ki, zəhmətsiz bal yemək olmaz.

X r i s o f e m i d a. Bilirəm: zəhmətimi də esirgəməyəcəm.

E l e k t r a. Onda mənim qərarımı dinlə. Sən özün bilirsən ki, dostlardan bizə yardım olmayacaq, çünki bizim artıq dostumuz yoxdur. Kimimiz vardırsa, hamısını Aid əlimizdən aldı, biz yalnız atılıb qalmışıq. Nə qədər ki, qardaşım qolunun qüvvətlənən bir çağında yaşayırdı, mən onun simasında öz ümidgahımı görürdüm. Görürdüm ki, o doğma qardaşcığazım atamın qanını almaq üçün vəd olunmuş bir intiqamçıdır. Artıq o yoxdur, bu gündən gözümü sənə dikmişəm. (*Xrisofemida cəld qalxır və şaşqın bir halda geriyə çəkilir; Elektra onun arxasınca gedir və qolundan tutur*).

Sən bu cürətli qollarınla mənə – doğma bacına Egisfi yıxmaq işində kömək etməlisən, bizim aramızda artıq heç bir gizli iş olmamalıdır!

Bir düşün! Sülh qayğısızlığı ilə sən çoxmu gözləmək istəyirsən? Bir ümid yeri bilirsənmi? Mən səni gözü yaşlı görürəm: görürəm ki, sən atamın bütün mirasını itirmisən, neçə illərdən bəri ərsiz və uşaqsız olaraq solub gedirsən. Arxayın ol, bundan belə daha da pis olacaqsan, ərsiz və övladsız qalacaqsan: əgər belə olmazsa, demək, sənin, və ya mənim nəslimizin davamına yol verməyən Egisf, açıqdan-açığa özünə quyu qazmış olar!

İndi, sən bir qərara gəl: məni cürətlə izlə! Bununla də həm atamızın və qardaşımızın ruhunu şad edərsən, öz namus borcunu vermiş olarsan, həm də, anadan doğulduğun vaxtlardakı kimi, yenə də sərbəst olaraq tanına bilərsən. Bundan sonra isə, özünə layiq ər taparsan: aydın bir şeydir ki, insanlar həmişə alicənablığa doğru can atırlar. Bəs şan, bəs şərəf! Əzizim, məgər sən öz hərəkətinlə mənə və özünə necə əbədi bir şərəf tacı qazanacağını görmürsən? Hara getsək, adamlar – vətəndaşlar və qonaqlar bizi böyük ehtiramla qarşılayacaqlar: "Budur, deyəcəklər, dostlar, atalarının tar-mar olmuş evini yenidən quran, öz canlarından keçərək, qatil düşmənlərinin döşlərinə, onların qələbə saatında intiqam xəncərini soxan bacılar! Alqış və salam olsun onlara hörmət və ehtiram! Allahların bayramlarında, camaat yığıncaqlarında, cəsurluqlarına görə onlara eşq olsun!

Ax, əzizim! Sən mənim sözlərimə qulaq as. Atamıza yardım etmək, qardaşımıza təsəlli vermək sənə və mənə kədərsiz istirahət qazanmaq xatirinə qərarımı qəbul et"!

Gözəllik üçün yaranmışa çirkin əzab işgəncələri altında yaşamaq qəbahətdir!

K o r i f e y (*Xrisofemidaya*). Belə yerdə dərin düşüncəli olmaq, həm məsləhət verən, həm də məsələhət alan üçün faydalı şeydir.

X r i s o f e m i d a. Ax, rəfiqələrim, əgər onda ağıl olsaydı, ağzını açmazdan qabaq qadınlığın vəzifələri haqqında düşünərdi. Fəqət yox, o, bunu tamamilə unutmuşdur. Sən o qədər hünəri haradan aldın ki, özün xəncərin dəstəsindən yapışırsan və məni də bu işə sövq edirsən? Özünün kişi yox, qadın doğulduğunu, əllərinin isə düşmən xəncərindən zəif olduğunu sən görmürsən? Sən görmürsənmi ki, onları müdafiə edən ruh onların tərəfini saxlayır, bizimki isə alçalmış və bizə mərhəmət gözü ilə baxmır? Belə bir düşmənlə açıq vuruşmağa başlayaraq, işin bizə sevinc gətirəcəyinə ümid bağlamaq olarmı? Əgər onlar bizim bu sözlərimizi eşidərlərsə, şübhəsiz, bədbəxtlik yükümüz daha da ağır olacaq və təsəlli gətirməyəcək. Ölüm qorxulu şey deyil, o, bizə çox xoş olardı, ancaq namusla ölməyə onlar bizi qoymazlar.

Yalvarıram sənə, bacım, kökümüzün kəsilməsinə, evimizin boş qalmasına yol vermə: qızğınlığından əl çək? Sənin sözlərini unudaq: fərz edək ki, onlar mənim qulağıma belə çatmamışlar. Ancaq sən, doğma bacım, heç olmazsa indi, gec də olsa ağlını başına yığ: gücsüzsən, güclünün qarşısında güzəştə get!

K o r i f e y (*Xrisofemidaya*). Sən özün güzəştə get! Uzaqgörənlik və mərifət allah tərəfindən insana verilmiş ən gözəl bir hədiyyədir!

E l e k t r a. Sənin sözlərin gözlənilməz deyildi: mən çox yaxşı bilirdim ki, sən mənim fikrimin əleyhinə çıxacaqsan. İndi ki belə oldu, mən işi öz əlimlə, tək olaraq, ifa edəcəyəm: qəlbimin coşqunluğu havayı getməyəcəkdir.

X r i s o f e m i d a. Ax! Nə üçün atam öldürülən dəqiqələrdə sən belə deyildin? Ona böyük yardım edə bilərdin.

E l e k t r a. O vaxt mən ruhən yox, əqlən zəif idim.

X r i s o f e m i d a. Sənin o vaxtkı ağlını allahlar həmişə saxlayaydılar!

E l e k t r a. Görürəm, səndən mənə köməkçi olmayacaqdır.

X r i s o f e m i d a. Yaman fikir – nəticə ilə bağlıdır.

E l e k t r a. Sənin ağlına həsəd aparmaq olar, qorxaqlığına isə yox.

X r i s o f e m i d a. Söyüşə dözmüşəm tərifə də dözəcəyəm.

E l e k t r a. Belə qorxudan sən artıq ötüşmüsən!
X r i s o f e m i d a. Qabaqda hələ çox günlər var: onlar göstərərlər.
E l e k t r a. Xoş gəldin! Mən səndən fayda gözləmirəm
X r i s o f e m i d a. Fayda olardı, əgər sən istəsəydin.
E l e k t r a. Get və ananı xəbərdar et!
X r i s o f e m i d a. Yox, mən bir o qədər də sənə nifrət bəsləmirəm.

Getmək istəyir. Xrisofemidanın yumşaqlığından utanan Elektra, yüyürüb onun qolundan yapışır, dərin bir nəzərlə uzun müddət onun gözünün içinə baxır.

E l e k t r a. Anla ki, sənin qərarın namussuzluq qərarıdır.
X r i s o f e m i d a. Mənim qərarımda namussuzluq yox, yalnız qayğı var.
E l e k t r a. Demək, mən sənin istədiyinəmi tabe olmalıyam?
X r i s o f e m i d a. Ağıllı olsan mən də sənin arxanca gedərəm.
E l e k t r a. Sənin parlaq sözlərində ayrı fikirlər gizlənir.
X r i s o f e m i d a. Öz xəstəliyin haqqında çox tutarlı şey dedin.
E l e k t r a. Mənim haqlı olduğumu doğrudanmı sən görmürsən?
X r i s o f e m i d a. Bəzən həqiqət özü də zərər gətirir.
E l e k t r a. Belə qanunları mən tanımaq istəmirəm!
X r i s o f e m i d a. İstədiyin işə başla, onda tezliklə tanıyarsan.
E l e k t r a. Arxayın ol, başlayacağam, məndə qorxu yoxdur.
X r i s o f e m i d a (*ürəkdən*). Və bu qərarı dəyişməyəcəksən ki, doğrudanmı?
E l e k t r a. Öz qərarını dəyişməkdən də nifrətəlayiq bir şey yoxdur.
X r i s o f e m i d a. Mənim dediklərimi də ki, ağlına vurmaq istəmirsən?
E l e k t r a. Tutduğum yolun cizgisi mənim üçün çoxdan çəkilmişdir.
X r i s o f e m i d a (*qəmgin*). Onda bağışla! Nə sənin qızğınlığın mənə xoş gəlir, nə də mənim düşüncəm sənə.
E l e k t r a. Əlvida, bacım! Sən qüssə içərisində inləyəcək olsan belə, mənimki sənin tutmayacaq. Boş kölgə arxasınca yüyürmək ağılsızlıqdır.
X r i s o f e m i d a. Nə edim, əgər qarşında ağıllı bir şey görürsənsə, onun arxasınca yüyür; o səni sürükləyib bədbəxtliyə düçar elədikdə isə, mənim məsləhətlərimi özün təsdiq edərsən.

Qəmgin saraya girir. Elektra xəyal içərisində onun arxasınca baxır

ÜÇÜNCÜ STASİM

Keçən danışıqlar zamanı xor, Elektranın tərəfini saxlayır. Xrisofemidanın cəsarətsizliyini məzəmmət edirdi. Bu nəğmədə isə o, ümdə olaraq nəğmənin ikinci yarısında Elektranın cəsurluğuna xeyir-dua oxuyur

X o r

Buludların altında
Süzər idraklı quşlar:
Onların valideynə
İncə nəzakəti var:

Yaz zamanı onları
Doğan, elmlə doyuran
Valideyni yad edər -
Unutmazlar heç zaman.
Niyə biz onlardan almırıq ibrət ?

Yox, bizə ildırımın
Çaxması müqəddəsdir.
Elə də, mələklərin
Həqiqəti bir dərsdir.
Yox, bizdən ötüb keçməz məşəqqət!

***

Ey axirət dünyasının
Xəbərçisi ulu səs!
Səslən: yerin təkində
Bilsin Atridlər: əbəs
Tökülür qanlı yaşlar, -
Haqsızlıq var, ələm var!

Sən onlara söylə ki: eviniz olur bərbad;
Düşmüş yaman ayrılıq; iki bacı olmuş yad.
Barışmağa artıq qalmamış güman!

Qüssə dəryasındadır.
Elektra, solur tək...
Bülbül kimi, aramsız
Qəmli fəqan edərək.

Atasının dərdindən:
Yad olmuş ona canı,
İşıqlı gün görməyir -
Məhv etməkçin düşmanı;
Varmı üstün bir şey namusluluqdan?

***

Həyatın çirkabında
Bulandı pak, şanlı ruh, batsın onların adı
Cəhənnəm girdabında!

Sənin yolunsa, qüzum, göz yaşınla yuyulmuş.
İşıqlanmış, tovlanmaq sənə yabançı olmuş.
İndi ikiqat namus ilə artmış hörmətin:
Biri ağlındır sənin, biri – qız məhəbbətin!

***

Nə qədər ki, düşmənin
Səni sıxıb, alçaldır,
Ondan daha güclü ol -
Başını uca qaldır!

Səni kədərdə tapdım, yazıq bir taleyinlə;
Ancaq ki, allahların həqiqətindən, hələ,
Ən müqəddəs və əziz – balalıq borcunu sən,
Dərin məhəbbət ilə ödəməyi bilirsən!

DÖRDÜNCÜ EPİSODİ

Birinci səhnə

Sol tərəfdən Orest ilə Pilad və onların arxasınca da Orestin iki nəfər xidmətçisi yaxınlaşırlar. Xidmətçilərin birinin əlində mis urna var. Nə Elektra onları, nə də onlar Elektranı tanımayaraq, qızlara müraciət edirlər.

O r e s t (*nəzakətlə*). Vətəndaşlar, bizə doğrumu yol göstəriblər və biz istədiyimiz yerə düzmü gəlib çıxmışıq?

K o r i f e y. Nə üçün gəlmisən və nəyi bilmək istəyirsən?

O r e s t. Köhnə sualı təkrar edirəm: Egisf harada yaşayır?

K o r i f e y. Yol göstərən cəzaya gəlməz: budur, burada yaşayır.

O r e s t. İkinci bir sualım var: bizim xeyir xəbərlə gəlməyimizi kim ona deyə bilər?

K o r i f e y (*Elektranı göstərərək*). Hökmran ailənin bir üzvü olaraq o xəbər verər.

O r e s t (*Elektraya*). Ay qız, get söylə ki, Fokeydən gələn qonaqlar hökmdar Egisfi görmək istəyirlər.

E l e k t r a. Ax, bədbəxtliyi duyuram! Siz o dəhşətli xəbərin açıq sübutunumu gətirmişsiniz?

O r e s t. Sən hansı xəbəri deyirsən, bilmirəm; qoca Strofi Orest haqqında mənə tapşırıq vermişdir.

E l e k t r a. Nə tapşırıq, qonaq? Mən qorxumdan titrəyirəm.

O r e s t. Bu gördüyün qulplu bardaqda biz ölmüş adamın acınacaq qalıqlarını gətirmişik.

E l e k t r a. Ox, allah məni öldürsün! İndi heç bir şübhəm qalmadı! Bədbəxt hadisənin bütün ağır nəticəsi artıq gözümün qabağındadır.

O r e s t. Əgər Orestin fəlakəti səni kədərləndirirsə, onda bil: bu qabın içindəki onun külüdür.

E l e k t r a. Ox, səni and verirəm allaha, qonaq, əgər bu bardaqdakı onun külüdürsə, ver onu mənim əlimə, özümü və bizim bütün bədbəxt ailəmizi onun üzərində gözyaşı tökməklə yad edim.

O r e s t (*xidmətçilərə*). Urnanı, tanımadığınız bu qıza cəsarətlə verə bilərsiniz. Aydındır ki, onu bu işə sövq edən düşmənçilik fikri deyil, ya dostluq, ya da qohumluqdur.

Xidmətçilər urnanı Elektraya verirlər.

E l e k t r a. Salam olsun sənə, ey yaranmışların ən əzizi olan Orestin külü, onun ruhunun mirası! Sən mənim ümidlərimi necə aldatdın! İndi sən bir heçsən, əllərdə dolaşan boş bir şeysən, mən isə səni evdən yenicə çiçəklənən bir adam olaraq yola salmışdım. Mən öz əlimlə səni oğurlayıb, uzaq torpaqlarda tərbiyə almaq üçün qatillərin əlindən xilas etdiyim dəqiqədə, allah mənim canımı alaydı! Onda sən həmin günü öldürülərdin, qəbirlərin birində basdırılaraq, öz doğma torpağında qalardın, indi isə sən, bədbəxt qaçqın, yad torpaqlarda, bacının əli çatmayan bir yerdə işgəncəli ölümlə tələf oldun. Müqəddəs yuyucuxanada səni öz əllərimlə təmiz-təmiz yuya bilmədim: qızğın odun, hər şeyi yandıran alovların içərisindən mən sənin yazıq qalıqlarını öz əlimlə qəbul edərək, bacılıq borcumu yerinə yetirə bilmədim: özgələrin əlilə toplanmış və qaba tökülmüş bir ovuc kül olaraq gəlib çıxdın!

Heyif olsun mənim vaxtilə sərf etdiyim havayı nəzarətə! Heyf olsun mənim yorulmaq bilmədən sənə çəkdiyim ləzzətli əməklərə!

Can, qardaş! Sən mənə olduğun qədər, anam üçün əziz olmamısan. Hanı sənin o şirin-şirin körpə danışıqların? Bircə məni dayə, bircə də məni bacı deyə çağırardın və o qədər xoşbəxt günləri sən indi tək özünlə aparıb getdin! Can, əziz qardaşım, can! Sən tozanaq kimi hər şeyi özünlə süpürüb apardın. Atamız məzarda idi, sən məni də məzara qoydun və özün də həyatdan əl üzüb, qaranlıq dünyaya getdin. Düşmən gülür, daş qəlbli anan özündən çıxaraq nəşə çəkir... Bəs sən, mənə, ondan intiqam alacağın haqda gizli xəbərlər göndərirdin! Görünür bizim – sənin və mənim allahımız bədbəxtlik allahı imiş, o, bizim bütün ümidlərimizi qırdı, sevimli bir can əvəzində, səni belə bir ovuc kül və vahiməli bir kölgə olaraq mənə göndərdi.

Of, fəlakət,
Acınacaq, fəlakət,
Qorxunc və dəhşətli fəlakət!

Yolların qorxuncdur, əziz qardaşım. Məni də sən özünlə məhv elədin. Məni də özünlə apar, qardaşım, al yanına: indi mən də heçəm, mən sənin birgə, bir məzarda yatmaq istəyirəm.

Sən dünyaya gələn gündən, qardaşım, mənim fikrim sənin bağlanmışdı: indi o, məni yanına qəbul edə, bizi məzarda bir torpaq örtəydi.

K o r i f e y. Sən, ölümə məhkum olan atadan doğulmusan. Elektra, qardaşın da ölümə məhkum olan bir insan idi: sakit ol! Onların nəsibi olan bu kədərli pay bizim hər birimizin nəsibimiz olacaqdır.

Elektra urnanın üzərinə əyilib ağlayır.

O r e s t. Nə eləyim? Qəlbimi çırpındıran bu mübarizədən çıxış yolu varmı? Mənim artıq sirr saxlamağa taqətim yoxdur.

E l e k t r a (*başını qaldıraraq*). Sənin dərdin nədir ki? Nə demək istəyirsən?

O r e s t. Mən, şöhrətli Elektranın surətinimi görürəm?

E l e k t r a. Elektranın? Bəli, yazıqlar yazığı Elektra mənəm!

O r e s t. Mən nə qorxunc bir dərdə düşdüm!

E l e k t r a. Mənəmi yazığın gəlir, a qonaq?

O r e s t. Of, yazıq sənin puç olmuş gününə!

E l e k t r a. Bu yaman sözləri, mənəmi atırsan, qonaq?

O r e s t. Sən sevincsiz, evsiz, uşaqsız solursan!

E l e k t r a. Sənin elə baxışın nə üçündür və nə üçün sən belə ah çəkirsən?

O r e s t. Öz dərdimi belə çəkə bilmirdim!

E l e k t r a. Yeni kədər sənə haradan gəldi?

O r e s t. Səni yas libasında görməyimdən!

E l e k t r a. Mənim kədərimin sən nəyini bilirsən ki?

O r e s t. Bu halından aydın deyilmi?

E l e k t r a. Onda bil, qonaq: mən qatillərlə bir evdə yaşayıram!

O r e s t. Ox, kimin qatililə, söylə?

E l e k t r a. Atamın qatillərilə: özüm də ki, dönüb bir qul olmuşam!

O r e s t. Səni ayaq altına salan kimdir?

E l e k t r a. Onun adı anadır, fəqət xasiyyətcə o ana deyil.

O r e s t. Nə üçün? Zorluğu iləmi, yoxsa sənə verdiyi əzablar ilə?

E l e k t r a. Həm zori lə, həm də hər bir şey ilə.

O r e s t. Məgər sənin heç bir köməkçin yoxdur?

E l e k t r a. Biri vardı, ancaq onu bu gün sən, kül olaraq, urnada gətirmisən!

O r e s t. Aman, aman, bədbəxt qız! Sənə yazığım gəlir.

E l e k t r a. İndiyə kimi, qonaq, mənə yazığı gələn olmamışdır, heç kim mənim dərdimə sənin kimi qalmamışdır.

O r e s t. Doğrudur, doğrudur, elədir! Mənim dərdim dəxi sənin-kindəndir.

E l e k t r a. Bəlkə də sən bizə qohumsan, qonaq?

O r e s t. Can-başla deyərdim, nə edim; ancaq... qızların dili dinc durarmı?

E l e k t r a. Açmazlar, bu qızlar mənə sadiqdirlər.

O r e s t. Onda urnanı ver, işi bilərsən.

E l e k t r a. Yox, yox, yalvarıram! Onu əlimdən alma!

O r e s t. Sözlərimə inan, onlar doğrudur.

E l e k t r a. Amandır, mənim təsəllimi əlimdən alma!

O r e s t (*urnanı dartıb alır*). Nahaq yerə yalvarma!

E l e k t r a. Can, mənim əziz Orestim! Sənin külünü belə əlimdən alırlar!

O r e s t. Haqsız danışma! Sən kədərlənməyə haqlı deyilsən.

E l e k t r a. Həlak olmuş qardaşım haqqında kədərlənməyə haqqım yoxdurmu?

O r e s t. Elə danışmağa sən haqsızsan!

E l e k t r a. Demək, son təsəllimdən belə məhrum edildimmi?

O r e s t. Mərhum edilməmisən, urna sənin deyil!

E l e k t r a. Vaxta ki bunda Orestin külü var, nə üçün mənim deyil?

O r e s t. Orada Orestin külü yoxdur? Söz bir olar.

E l e k t r a. Bəs onda yazığa kurqanı siz harada qurmusunuz?

O r e s t. Heç yerdə. Sağ adama kurqan qurulmaz.

E l e k t r a (*özünü itirmiş halda*). Nə danışırsan?

O r e s t. Bu, müqəddəs həqiqətdir, inan.

E l e k t r a. Demək, o sağdır, mənim şahinim?

O r e s t. Əgər sağdırsa, o da mən özüməm.

E l e k t r a. Sən, sən Orestsən?

O r e s t (*üzüyünü ona göstərir*). Atamın möhürünü tanıyırsanmı? Bax, gör düz deyirəm, yoxsa yox?

E l e k t r a (*onun qolundan yapışır*). Ey böyük şadlıq günü!

O r e s t. Bəli, şadlıqdır, inanıram.

E l e k t r a. Can, sənin sevimli səsinə qurban olum, qardaş!

O r e s t. İndi qardaşını tanıya bildinmi?

E l e k t r a. Doğrudanmı mən əlimlə səni tutmuşam?

O r e s t. Kaş həmişə bir-birimizi belə tuta biləydik.

E l e k t r a (*xora*). Əziz rəfiqələrim, vətəndaşlar – qızlar, Orest buradadır! O buradadır, ölüm bir hiylə imiş, həmin hiylə ilə də o, qayıdıb, yenidən işıqlı dünyaya gəlmişdir.

K o r i f e y. Doğrudan da, əzizlərim, xoşbəxtliyin birdən-birə üz verməsini gördükdə adamın gözü sevinc yaşları ilə dolur!

Elektranın şadlığına uyğun musiqi başlayır. Elektra hələ də Orestin əlini buraxmayaraq, onun gözlərinə baxır.

E l e k t r a. Ey mənim əzizim, ey mənim gözümün nuru, pəhləvan qardaşım! Mənim qarşımda duran sənsənmi? Sən buradasanmı, qardaşım, görürsənmi məni – yetim bacını?!

O r e s t. Mən buradayam, ancaq sən bir az hay-küy salma, danışma, səbir elə, dayan!

E l e k t r a. Səbir elə! Danışma?

O r e s t. Danışmamaq yaxşıdır: evdə bizi eşidə bilərlər!

E l e k t r a. Yox, Artemidanın qəzəbi mənim üçün dəhşətlidir: yox, ana torpağın üzərində mən, faydasız bir ağırlıq olaraq qalmaq istəmirəm, qadınlar qarşısında mən titrəməyəcəyəm!

O r e s t. Elə demə! Qadın da öz əlilə ölüm saça bilər: bunu sən yaxşı bilirsən – başına gələn təcrübəni yəqin ki, unutmamısan.

E l e k t r a. Of! Amansız kədər nəğmələri! Ax, Atridlər nəslinə dəyən sağalmaz və unudulmaz yaranı sən yenə də mənim yadıma saldın!

O r e s t. Onu da bilirəm. Qoy saatı gəlib yetişsin, hamısını, evimizdə baş vermiş bütün fəlakətləri biz xatırlayacağıq.

E l e k t r a. Of, hər saat, indi hər saat onun taleyini həll etmək üçün işləyir; həqiqət bunu tələb edir. İndi, indi mənim iradəm və ixtiyarım artıq işıqlanmışdır!

O r e s t. Bilirəm işıqlanmışdır: barı sən onu müdafiə et, saxla!

E l e k t r a. Necə edim?

O r e s t. Vaxtından əvvəl bu qədər danışmaq olmaz!

E l e k t r a. Sən parlaq bir şölə olaraq mənim qarşımda durmusan, səsimi kəsməklə onu qaraltmaq mənəmi qalmışdır? Axı mənim ümid çırağım aləm içərisində əbədi olaraq sönüb qaralmışdı.

O r e s t. Allahların dəyişilməz səsi məni yerimdən qımıldatdığı dəqiqədə o yenidən yandı.

E l e k t r a. Nə böyük şadlıq! Demək səni allah özü mənim yanıma göndərmişdir. Sənin yenidən mənim yanıma dönməyin möcüzələr içərisində görülməmiş bir möcüzədir!

O r e s t. Doğrudur, bacım. Sənin şadlığını kəsməyə heyfim gəlir, ancaq ona həddindən artıq tabe olmaq isə qorxulu şeydir.

E l e k t r a. Neçə müddətdir ki, gözlərimi yoluna dikib səni gözləmişəm, qardaşım: nəhayət, bu gün gəlib çıxmağınla mənə sevinc gətirmisən: dözülməz qəm dəryasına qərq olmağımı isə, özün gördün, amandır, rəhmsiz olma!

O r e s t. Mən, rəhmsizəmmi, bacım?

E l e k t r a. Məni şadlığımdan ayırma!

O r e s t (nəzakətlə). Başqası olsaydı, bunu da bağışlamazdım!

E l e k t r a. İcazə olarmı?

O r e s t (*gülümsəyərək*). Əlbəttə, olar!

E l e k t r a (*Orestin boynunu qucaqlayır*). Can, qardaşım! O xəbər məni ildırım kimi vurmuşdu, ancaq bütün ağrını mən öz qəlbimdə saxlayaraq dözürdüm; nitqim tutulmuşdu, nalə çəkə bilmirdim. İndi sən mənimləsən. Səni sevib oxşamaqla məst oluram. Bu böyük şadlığı mən həyatımın ən ağır günlərində belə yadımdan çıxarmıram.

Başını Orestin sinəsinə qoyur. Orest onu nəzakətlə oxşayır. Sükut. Musiqi dayanır. Orest yavaşca bacısının qolunu öz boynundan çəkir.

O r e s t. İndi, lazım olmayan uzun danışıqlardan əl çək; ananın sənə verdiyi ağır əzablardan, ata irsimizin Egisf tərəfindən dəlicəsinə əzilib dağılmasından və tar-mar olmasından hələlik danışma; belə danışıqlarla məşğul olsaq, bizi gözləyən dəqiqəni unuda bilərik. İndi sən mənə de görüm işə necə başlamaq lazımdır: haraya getmək və özümüzü harada gizlətmək lazımdır ki, düşmənlərin qəhqəhə səsi əbədi olaraq kəsilsin? Sonra, bir şey də var. Biz evin içərisinə girməliyik: özünü gözlə ki, üzündəki sevinc əlamətləri bizi ələ verməsin. Sən, eşitdiyin bədbəxt xəbər doğru imiş kimi, kədərlən, ağla və ah-nalə et! İşimiz baş tutan kimi – istədiyimiz qədər danışıb gülə bilərik.

E l e k t r a. Can, qardaşım! Sən lazım bilən şeylərin hamısı mənim üçün qanundur: bu şadlığı mənə bağışlayan sənsən. Mənim canım da sənindir. Əzizim, dünyanı mənə versələr belə, onu sənin xırdaca bir incikliyinə dəyişmərəm. Əgər sənin arzuna qarşı cüzi bir maneçilik edərəmsə, bu əlbəttə ki, bizi yuxarıya qaldıran allaha pis xidmət ola bilər. O ki qaldı bizim işlərimizə onları sən özün yaxşı bilirsən; Egisfin burada olmadığını və anamın evdə tək qaldığını eşitmisən; anam da ki mənim üzümdə xoşbəxtlik əlamətini görə bilməz; ona bəslədiyim köhnə nifrətin izləri hələ də üzümdə durur; bundan əlavə, səni görəndən bəri, gözlərimdən aramsız sevinc yaşları axır və bu sevinc yaşları necə axmaya bilər ki, bir gəlişinlə, sən mənim qarşımda həm ölü, həm də diri olaraq dayandın! Sən elə bir möcüzə göstərdin ki, əgər atam belə qayıdıb yanıma gəlsəydi, mən buna təəccüb etməzdim və gözlərimlə gördüyümə tərəddüdsüz olaraq inanardım! Budur, nəhayət sən buradasan, arzum başa çatmışdır, bu gündən sən mənim əmredicimsən. Əgər mən tək qalsa idim, onda, inan iki şərəf tacından mütləq birini almalı idim: ya mərdliklə öz həyatımın hakimi olardım, ya da ki mərdliklə ölərdim.

O r e s t (*alçaq səslə*). Bacım, yavaşca danış! Addım səsi eşidirəm, qapıya tərəf gələn var.

Piladın və xidmətçilərin yanına çəkilir. Elektra əvvəlki pərişan vəziyyətini alır.

E l e k t r a (*bərkdən*). Evə girin, yadelli qonaqlar, bu sarayın qapısı sizə açıqdır; siz özünüzlə kədərli, fəqət zəruri bir hədiyyə gətirmişsiniz.

İkinci səhnə

Sarayın qapıları açılır və bütün bu səhnə boyunca açıq qalır. Talfibi qayğılı halda içəridən çıxır və Elektraya fikir vermədən, Orest ilə Pilada müraciət edir.

T a l f i b i. Siz dəli olmusunuzmu! Burada nə oyun çıxardırsınız. Məgər öz canınızın qədir-qiymətini bilmirsiniz? Yoxsa ki, anadangəlmə ağlınız indi başınızdan çıxıbdı. Bir düşünün, siz burulğanın kənarında durmamışsınız, qayığınız girdabın düz içindədir, amma siz, hələ də öz uğrayacağınız fəlakəti görmürsünüzmü? Əgər mən həmişə sizin sadiq gözətçiniz olaraq, keşiyinizdə durmasaydım, özünüzdən qabaq işiniz gəlib saraya yetişərdi. Bunu bilin. Mən öz qeydkeşliyimlə üstünüzü alacaq böyük bir qorxunu rədd etdim; uzun danışmağı bir yana buraxın, doyub-dolanmaq bilmədiyiniz şadlıq hay-küyündən əl çəkin!

Evə girin. Bizim işimizdə gecikmək qorxulu şeydir. Həlledici saat gəlib yetişmişdir!

O r e s t. Ancaq bilmirəm, mənim gəlməyimi atamın evi necə qarşılayacaqdır?

T a l f i b i. İşlər yaxşı qurulmuşdur; səni heç kim tanımır.

O r e s t. Yəqin ki, sən mənim ölüm xəbərimi vermisən?

T a l f i b i. Onlar səni indi axirət dünyanın orta göbəyində hesab edirlər.

O r e s t. Bəs özləri nə ilə məşğuldurlar? Gülürlərmi, yoxsa ağlayırlar?

T a l f i b i. Sonra deyərəm. Hələlik onu bil ki, onlar üçün işlər yaxşılaşmışdır və bir də ki, əgər onlar belə düşünməsəydilər bizim üçün pis olardı.

Əvvəlcə Talfibidən qorxan və pis xəbər gətirdiyi üçün bir müddət ona düşmən nəzərilə baxan Elektra, indi onun Orestə yaxın adam olduğunu anlayır.

E l e k t r a. Sevimli qardaşım! Bu qonaq kimdir?

O r e s t (*gülümsünərək*). Tanıya bilmədinmi?

E l e k t r a. Ağlım işləmir.

O r e s t. Məni kimə tapşırdığını xatırlamırsanmı?

E l e k t r a. Nə danışırsan?

O r e s t. Bəs məni Fokidə aparan, sənin ağıllı sözlərini və arzularını yerinə yetirən kimdir ki?

E l e k t r a. Ey allahlar! O vaxt öldürülmüş atamdan, bu günə kimi, öz sədaqətini kəsməyən vahid adam budurmu?

O r e s t. Özüdür ki var. Budur bütün sualların cavabı.

E l e k t r a (*Talfibinin əlini sıxır*). Ah, həyatımızın işığı, evimizin vahid xilaskarı! Sənimi görürəm? Onu və məni sən qədər bəlalardan şücaətlə saxlamısan! Ah, səmimi əllər, unudulmaz xidmətlər görmüş ayaqlar! Ay insafsız, neçə vaxtdır ki, sən buradasan, ancaq bu sirri hələ də mənə açmamısan! Mənə intahasız sevinc verəcək bir iş ilə gəldiyin halda, dediyin sözlərlə məni öldürüb qurtardın! Salam olsun, sənə, ata! Sənin simanda mən həqiqətən də doğma atamı görürəm! Alqış sənə, ata! Və onu da bilməlisən ki, bir günün içərisində sənə ən acı nifrətlər bəsləyən mən idim, hamıdan artıq səni sevən də mən oldum.

T a l f i b i. Danışığı qurtarmaq lazımdır. Göy öz fırlanması ilə, Elektra, bizə çox günlər göndərəcək; onda sən burada deyib tamamlaya

bilmədiyin sözlərin olduqca parlaq nəticəsini öz gözünlə görə biləcəksən. Sizə isə, dostlar, yenə də təkrar edirəm: işin vaxtı çatmışdır! İndi Klitemnestra təkdir və bu saat kaşanədə heç bir kişi yoxdur. Cəld olun! Yoxsa sayca ötkün və ağılca kəskin olan düşmən gəlib üstümüzü alar.

O r e s t. Gedək, Pilad; həlledici saat yetişəndə uzun danışmaq yaramaz. Yuxulamadan qapılarımızın keşiyində duran bütün bu doğma allahlara salam verərək, tezliklə saraya girməliyik.

Talfibi, gənclər ilə bərabər, Apollonun, Artemidanın, Heranın və Hermesin bütlərinə yaxınlaşır və dodaqlarının altında onlara salam verib, dua oxuyur. Elektra, böyük bir təlaş ilə, Apollonun ayaqlarına düşür.

E l e k t r a. Eşit onların duasını, hökmdar Apollon; eşit mənim də and-amanımı! Neçə dəfələrlə mən sənə ehtimamlı əllərimlə, gücüm çatan qədər pay gətirmişəm: İndi də sənə gücüm çatan qədər hörmət edərək yalvarıram, dua edirəm və and verirəm: ey Likey Apollonu! Öz mərhəmətinlə, bizə başladığımız bu işdə köməkçi ol! Qoy bütün insanlar bilsinlər ki, bədbəxtlik törədənlərə kərim allah tərəfindən necə hədiyyə gəlir!

Dua qurtardıqdan sonra hamısı saraya tərəf yollanırlar: qabaqda Talfibi gedir, onun arxasınca Orest ilə Pilad, sonra, xidmətçilər, lap axırda isə – Elektra. Bu qayda ilə onlar pilləkənləri qalxır və sarayın yarımqaranlıq seyvanında gözdən itirlər; onların arxasınca qapılar möhkəm bağlanır.

DÖRDÜNCÜ STASİM

Sakit və qəmgin bir musiqi başlayır. Xor ortalıqdakı bütlərin arasında dayanmış və aramsız olaraq sarayın bağlanmış qapılarına tərəf baxır.

X o r

Odur, görürəm, gedir, qabaqcıldır isti qan
Allahı ovçu – Ares; alınacaq intiqam!
Köpək Erinlər də, hiss edərək araya
Düşür qədim, günah qan doluşdular saraya.
Bitdi təlaş, məşəqqət!

Qəlbimdəki yuxular, bir anda, qarşımızda
Olacaqdır həqiqət!
Odur, mərhumlar dostu gizlicə, sinə-sinə,
Girdi qədim hökmran ata kaşanəsinə
İtilənmiş xəncəri çıxmaq istər qınından –
Almaq üçün qana qan.
Yetişdi axır saat!
Əzib onu hiyləgər, kinli, tutqun bir zülmət
Hermes gedir onunla,
Hədəf keçmişdir ələ!

EKSOD

Birinci səhnə

Qapı bir az açılır, Elektra yavaşca sivişib oradan çıxır. O, tələsindən özünü bilməyərək müvazinətini itirir, söykənəcək bir şey axtarır və arxasını girəcəkdəki sütuna verib toxtayır. Musiqi davam edir və getdikcə daha da qorxunc bir ahəng alır, axşamdır.

E l e k t r a. Sakit olun, rəfiqələrim, səs salmayın! Onlar artıq hədəfin üstünü almışlar; iş bir dəqiqədə tamam olacaqdır!

K o r i f e y. Bəs orada nə işlər baş verir?

E l e k t r a. Anam urnanı əklillərlə bəzəyir! Onlar qarşısında durmuşlar, başının üstündə isə...

K o r i f e y. Bəs sən nə üçün çıxdın?

E l e k t r a. Mən gözətləməliyəm ki, iş vaxtı Egisf onların üstünü almasın.

K l i t e m n e s t r a n ı n s ə s i. Ah, evim! Qanlı evim vay! Dostlarım uzaqda qalmış, canilər üstümü almış!

E l e k t r a. Ay! Fəryad səsi gəldi, eşitdinizmi, rəfiqələr?

X o r

Nalə sədası gəlir dəhşət gətirir səsi...
Dözülməzdir bu fəryad!

K l i t e m n e s t r a n ı n s ə s i. Bədbəxt canım vay! Haradasan Egisf, harada qalmısan?

E l e k t r a (*Egisfin adını eşitdikdə dərhal qəddini düzəldir*). İkinci fəryad!

K l i t e m n e s t r a n ı n s ə s i. Bala! Anana yazığın gəlsin, bala!

E l e k t r a. Sənin ona yazığın gəlmişdimi, sən onun atasına rəhm etmişdinmi?

X o r

Məhv oldu xain arvad.
Ey şəhər, ey kədərdə təcrübələnmiş nəsil!
Bu gündən son qoyuldu yaman taleyinə, bil!

K l i t e m n e s t r a n ı n s ə s i. Vurma, bala, dayan, dur!

E l e k t r a. Gücün varkən, bir də vur!

K l i t e m n e s t r a n ı n s ə s i. Fəlakət!

E l e k t r a. Bəli, Egisf ilə sənin üçün!

X o r

Qəza bitdi, qurtardı; tapdı yeni bir həyat
Qara yerin altında gömülmüş hökmdar o pak zat;
Vurduğu yara ilə, yara almışdır cəllad;
Qan qusur qan yerinə, son dəfə edir fəryad!

İkinci səhnə

Qapı yenə də açılır. Orest ilə Pilad çıxırlar.
Orestin əlində təzə qana batmış xəncər var

K o r i f e y. Onlar çıxdılar, əllərində qurban nəmişliyi var. Onları biz danmamalıyıq.

E l e k t r a (*başını qaldırmadan*). Tamam oldumu, Orest!

O r e s t (*tutqun*). Apollonun mərhəmətli buyruğu ilə, sarayda işlər yaxşı getdi.

E l e k t r a. Tələf oldumu?

O r e s t. Arxayın ol! Ananın namussuzluğundan və sənə əzab verəcəyindən artıq qorxmaya bilərsən.

E l e k t r a. Atamın ölümünü və sənin kədərlərini o öz qanı ilə yudu.

O r e s t. Qoy onunla birlikdə nəslimizdəki lənət damğası da rədd olsun!

X o r. Danışıq kifayətdir; mis parıltısı gəldi yəqin Egisf buraya tələsir.

O r e s t. Gəlsin, xoş saatla! Mən onu qəbul etməyə çox şadam.

E l e k t r a. Orest, sən uzaqlaş!

O r e s t. Onu harada görürsən? Yaxındırmı buraya?

E l e k t r a. O, şəhər civarından nəşə ilə yığışıb, nəşəsiz yola düşdü.

X o r

Tez olun. Qapıların dalına girin!
Bir işi şadlıqla vurdunuz başa -
İkinciyə indi edək tamaşa!

O r e s t. O da baş üstə!

E l e k t r a. Tez ol saraya gir.

O r e s t (*Pilad ilə saraya girərək*). Mən getdim.

E l e k t r a. Onu mən özüm qəbul edəcəyəm.

X o r

Düşmən eşidəcəkdir həlim-həlim sözünü,
Sızıldayan səsində bir yaltaqlıq görəcək;
Öz yaxın ölümünü duymayaraq, vəhşi tək
Cumacaq həqiqətin sərt toruna girəcək!

Üçüncü səhnə

Elektra yenə də Orest ilə Piladın girdiyi qapı ağzında dayanmışdır. Sol tərəfdən, Egisf gəlir. O, əvvəlcə Elektranı görməyərək xora müraciət edir. Musiqi dayanır.

E g i s f. Kim deyər mənə, gərdunələrin uğradığı qəzada Orestin ölməsi haqqında xəbər gətirən fokeyli qonaqlar haradadırlar?

Elektranı görərək. Mənim sualım sənədir: hə, sənə – sənin adət etdiyim ədəbsiz hazırcavablığının axırı nə oldu? Bu xəbər hamıdan artıq səni narahat etmişdir və bu barədə hamıdan yaxşı sən bilməlisən!

E l e k t r a. Sən haqlısan; mən öz dostlarımın böyük sevinclərinə yabançı qala bilərdimmi?

E g i s f. Bəd yadellilər haradadırlar? Yerlərini de!

E l e k t r a. Qonaqpərəst evdarımızın şərifində.

E g i s f. Ölüm haqqında onlar doğrumu sözlər danışırlar?

E l e k t r a. Əlbəttə, hətta özlərilə meyiti belə gətirmişlər.

E g i s f. Onu öz gözümlə görə bilərəmmi?

E l e k t r a. Əlbəttə, sənə kim bir söz deyə bilər ki?

E g i s f (*etimadsız*). Səndən çıxmayan iş, sözlərində sevinc əlaməti var!

E l e k t r a. Nə edim, sevinməli yerdə sevinmək lazımdır!

E g i s f. Hamınız səsinizi kəsin! Açın qapıları, taybatay eləyin: qoyun onun meyitini bütün mikenlilər və bütün arqoslular görsünlər. Əgər vətəndaşlardan zəkasız olaraq öz ruhuna ümid təsəllisi verən varsa, qoy bu hərəkətsiz meyiti öz gözü ilə görsün və başını, bir daha donquldanmadan, mənim cilovuma salsın; qoy bundan belə, o gözləməsin ki, sonradan-sonraya başına gələn ağlı, onu mənim sərt cəzalarımdan rəf edə biləcəkdir!

E l e k t r a. Məsələn, mənim kimi, görürsənmi, mən daha ağıllanmışam. Sənin gücün qarşısında ikiqat olub baş əyirəm.

Dördüncü səhnə

Elektra qapıları taybatay açır. Sarayın içi məşəllərlə işıqlanmışdır; qapının ağzında, üstü cecim ilə örtülmüş və ayaqları ilə qapıya tərəf uzadılmış meyit görünür. Ölünün baş tərəfində Talfibi, ondan bəridə, qapının yaxınlığında iki nəfər xidmətçi, ölünün ayaq tərəfində isə Orest ilə Pilad durmuşlar. Hamısının xəncəri plaşlarının altındadır. Qapıları açdıqdan sonra Elektra Egisfi meyitin qarşısında qoyub, özü pilləkənlərlə aşağıya, xorun yanına enir.

E g i s f (*öz-özünə*). Ya Zevs, mən onumu görürəm? O, həlak olmuşdur. Mən xoşbəxtlik içərisində ikən, allahın həsədinə layiq olduğum bir vaxtda ikən – Nemezida, sənin nifrətini qazanmaq istəmirəm. (*Orestə və Pilada*) Siz isə, meyitin örtüyünü götürün, doğma övladıma özüm də ağlamaq istəyirəm.

O r e s t. Onu sən öz əlinlə götürməlisən: burada ağa mən deyiləm ki, sənsən. Ölüyə bir nəzər sal və ona mehribanlıqla salam verib hörmət et.

E g i s f (*pilləkənləri qalxaraq*). Doğru sözdür, elə də olmalıdır, onda sən get Klitemnestraya de buraya gəlsin.

O r e s t. O, yaxındadır və çağırmaq da lazım deyil.

Orest, Pilad ilə bərabər pilləkənləri enib, səhnəyə düşür və meyitin qarşısında Egisfə yer verirlər. Egisf, bir az tərəddüddən sonra cəld hərəkətlə meyitin üstündəki örtüyü atır və Klitemnestranı tanıyır.

E g i s f (*qorxaraq*). Allahlar! Mən nə görürəm?

O r e s t. Kimi görmək istəyirdin ki?

Egisf qaçmaq istəyir. Orest ilə Pilad xəncərlərini siyirib, onun yolunu kəsirlər. Egisf geriyə, sarayın içinə doğru qaçır, ancaq burada da onu siyirməxəncər Talfibi ilə xidmətçilər qarşılayırlar. O, dəhşətdən özünü itirərək, pilləkənlərdə dayanır və Orestə baxır.

E g i s f. Siz kimsiniz! Necə olmuşdur ki, mən hiyləgər xainlərin toruna düşmüşəm?

O r e s t. Sən, həmişə diri adamı ölü adlandırdığını bilmirdinmi?

E g i s f. Anladım, anladım! Artıq heç bir şübhəm qalmamışdır: ox, yalançı, hiyləgər! Bilirəm, sən Orestsən!

O r e s t. Bununla da belə, ey peyğəmbər, sən uzun müddət özözünü aldatdın?

E g i s f. Ax! Ölüm artıq üstümü almışdır! Yalvarıram sənə, heç olmazsa bir kəlmə söz deməyə mənə imkan ver!

E l e k t r a. Səni and verirəm allaha, qardaşım, söz deməklə, ona öz həyatını uzatmaq imkanını vermə. Sayğısız xainin öz zəruri ölümünü bir an belə olsun uzatmasından bizə nə fayda var ki? Bu dəqiqə onu öldür, meyitini isə, gözümüzdən tezliklə rədd eləmək üçün ləyaqətlə qəbir qazanlara tapşır; belə olmazsa, işgəncələr çəkmiş qəlbimizin ağrısı kəsməyəcək.

O r e s t (*xəncəri ilə içəri qapını göstərərək*). Tez ol, gir saraya! İndi boş sözlərin vaxtı deyil; mənə sənin həyatın lazımdır.

E g i s f. Nə üçün saraya? Bu qədər şöhrətli qəhrəmanlığını sən qaranlıq içərisində basdırmaq istəyirsənmi? Məni burada öldür!

O r e s t. Mənə öyüd-nəsihət lazım deyildir. Sən orada, atamın qiyməkeş ilə həlak edildiyi yerdə ölməlisən!

E g i s f. Ey Allah, Pelopidlərin qəza və qədərinə belə ölümmü yazılmışdır?

O r e s t. Yox, yalnız səninkinə. Burada sənin peyğəmbərin mənəm.

E g i s f. Bu çoxbilmişlik sənə atanın mirası deyildir!

O r e s t. Cavab verməklə sən yalnız öz ölüm dəqiqəni ləngidirsən, yeri!

E g i s f. Apar!

O r e s t. Qabağıma düş!

E g i s f. Mənim qaçacaq yolumu kəsmək istəyirsənmi?

O r e s t. Yox. Ölümün yolu sənin üçün həmişə açıqdır: sən onun bütün acılığını dadmalısan! Ancaq bircə burası pisdir ki, xəbislər öz bəd əməllərinin qarşısında dərhal öldürülmürlər: bununla da namussuzların nəsili törəyir və artır.

Orestin yenidən əmr işarəsini görən Egisf, başını aşağı salır və sarayın içərisinə tərəf gedir. Orest və Pilad onu izləyirlər. Qapılar bağlanır. Elektra pilləkənin başına yüyürüb, sükuta söykənir və saraydan uzaqlaşan adamların ayaq səsləri gəlir; sonra isə, dəhşətli bir bağırtı ilə bərabər ağır bir insan cəsədinin yerə düşdüyü eşidilir. Yenə də sakitlik olur. Bir az fasilədən sonra qapılar taybatay açılır. Qapının ağzında Egisfin və Klitemnestranın yanyana döşənmiş meyitləri görünür. Orest, qanlı xəncərini aşağı salaraq onların yanında durmuşdur. Qalanları isə kənardadırlar. Bu səhnəni görən Elektra, şadlıq bağırtısı ilə qardaşının boynuna sarılır. Bütün bu hadisələr zamanı səhnə yavayavaş adamlarla dolmuşdur, onlar Oresti və Elektranı təbrik edirlər. Musiqi marş çalır.

K o r i f e y. Siz, ey Atridlərin nəvələri, azadlıq yolu ilə hərəkət edərək, çox ağır kədər və fəlakətlərdən keçdiniz, işıqlı dünyaya yol açdınız. İndi siz xoşbəxtsiniz!

Camaat və xor şadlıq içərisində dağılışıb gedirlər, qapılar bağlanır.

S o n

EVRİPİD

E.ə. 480-406

Evripid yunan dramaturgiyasının üçüncü görkəmli şəxsiyyətidir. Yunanilər hər üç dramaturqu məşhur Salamin qalibiyyətilə bağlamışlar. Məlumdur ki, Esxil bu vuruşda şəxsən iştirak etmiş və yaralanmışdı. Sofokl həmin qalibiyyət üçün nəğmə qoşmuş, öz xoru ilə ifa etmişdi. Evripid isə Salamin vuruşu ilində anadan olmuşdur.

Evripidin həyatı çoxlu əfsanələr və rəvayətlərlə doludur. Xüsusilə, məşhur yunan məzhəkəsi Aristofan məzhəkələrində Evripidi gülünc vermək üçün, onun həyatı haqqında bəzi şeylər uydurmuşdur ki, bunlar bir çox zənlərin, fərziyyələrin doğmasına səbəb olmuşdur.

Evripid 480-ci ildə Salamin adasında anadan olmuşdur. Bir rəvayətə görə, onun atası Mnesarx kiçik alverçi, başqa rəvayətə görə zadəgan sinfinə mənsub imiş. Evripid yaxşı təhsil almışdır. Onun o dövr üçün zəngin kitabxanası varmış. İlk əvvəllər idman işlərinə, sonralar rəsmə, xüsusilə karikaturaya həvəs göstərən Evripid, sonralar fəlsəfə ilə maraqlanmış, öz dövrünün məşhur filosofları olan Anaqsaqor, Arxelay sofistlərdən Protaqor və Prodik ilə yaxın dost olmuşdur.

Qədim "tərcümeyi-hal" yazanlar onu tərki-dünya bir adam kimi təsvir edirlər. O, cəmiyyət və dövlət işlərindən uzaqlaşaraq, guya Salamin adasında bir mağarada öz əsərlərini yazarmış. Lakin bütün bu rəvayətlərə baxmayaraq, onun əsərlərində dövrünün ən mühüm ictimai hadisələri, siyasi və fəlsəfi toqquşmaları öz əksini tapmışdır. Hətta Sofokldan fərqli olaraq günün ən başlıca və ən vacib məsələlərinin əks-sədasını onun əsərlərində tapmaq mümkündür. Evripid, səhnəni siyasi ideyaların təbliği üçün bir xitabət kürsüsünə çevirmişdi. Bu cəhəti ilə Evripid həm Esxildən, həm də Sofokldan fərqlənirdi.

Evripid yaradıcılığının bir hissəsi Afina quldarlıq demokratiyasının ən çiçəkli dövrünə, ikinci hissəsi isə Peloponnes müharibəsi (431-404) illərində həmin demokratiyanın ağır böhran keçirdiyi və düşdüyü dövrə təsadüf edir.

Onun tərəddüdləri birinci növbədə siyasi görüşlərində özünü göstərir. Qeyd etmək lazımdır ki, Evripidin Afina demokratiyasına mü-

nasibəti ikili xarakter daşıyırdı. O, sıx-sıx Afina demokratiyasını azadlıq və bərabərlik quruluşu kimi tərifləyir. Tiranlığı, oliqarxiya, tək hakimiyyət quruluşunu pisləyir. O biri tərəfdən, rəiyyət və xalqın həqiqi demokratiya uğrunda mübarizəsi, bir sıra radikal tələbi onu təşvişə salırdı. Bunu biz Evripidin "Xahiş edənlər" əsərində aydın görə bilirik. Evripidin ideallaşdırdığı əsatiri Afina hökmdarı Fesey belə deyir: "Üç sinif vətəndaş var. Birincisi varlılardır ki, onlardan heç bir fayda gözləmək olmaz. Onlar həmişə öz varlarını artırmağa çalışırlar. İkincisi, yoxsullardır. Onlar varlılara qarşı öz paxıllıqları ilə qorxuludurlar. Həmişə pis rəhbərlərin aldadıcı nitqlərinə uyaraq dövləti daimi qorxu içərisində saxlayırlar. Üç sinifdən dövlətin dayağı orta sinifdir. Bu sinif həmişə müəyyən edilmiş dövlət qanun-qaydalarını gözləyir". Tezeyin bu mühakimələri, hər şeydən əvvəl, Evripidin öz ictimai görüşlərinin əsasını təşkil edir. Evripid orta siniflərə qarşı rəğbətini "Orest" adlı faciəsində də vermişdir. Afinanın yürütdüyü işğalçılıq siyasətinə düşmən olan Evripid, eyni zamanda, Spartanın düşməni və Afinanın ehtiraslı vətənpərvəri idi.

Onun qullara və quldarlığa qarşı münasibəti də maraqlıdır. Dramaturq öz əsərlərində qulların ağır və acınacaqlı həyatını təsvir edərək göstərir ki, bu əsarət onlarda ən yüksək və insani hissləri öldürür. Qul bir sıra mənəvi xüsusiyyətlərilə azad vətəndaşlardan çox-çox yüksəkdə dayana bilər. Əsərlərində qul, siyasət, fəlsəfə məsələləri haqqında mühakimə yürüdür.

Misal üçün, "Medeya" əsərində dayə deyir ki: "Ax, bu hökmdarların çalğın iradələri nə müdhişdir! Onlar öz ehtiraslarına qalib gələ bilmirlər. Qulları həddindən artıq çox, qarşılarında duracaq kimsə yox! Yox, yox, mən əminəm ki, qanun qarşısında hamı bərabərdir. Arzum bu idi ki, qocalıq günlərimi təntənə və dəbdəbədən, hökmdarlardan uzaq bir guşədə sakit və asudə keçirə idim. Zira həqiqəti dildə tərifləmək yaxşıdırsa, işdə göstərmək daha xoşdur". Bu sözləri deyən xalq nümayəndəsidir. Hadisələrin gedişindən hiss olunur ki, həmin fikirlər dramaturqun özünə aiddir.

Fəlsəfi görüşlərilə Evripid sofist deyildi. Ümumiyyətlə, onun siyasi görüşləri kimi fəlsəfi görüşləri də ardıcıl olmamaqla bərabər, eyni zamanda, müəyyən bir sistem təşkil etmirdi. Ancaq heç şübhəsiz, Evripid materialist olmamışdır. Onun əsərləri fəlsəfi mühakimələr ilə dolu idi. Ona görə qədim yunanilər Evripidi səhnə filosofu adlandırmışlar.

Evripidin yaradıcılığı antik qəhrəmanlıq faciəsinin sonuna təsadüf edir. Yunan filosofu Aristotelin rəvayətinə görə, Sofokl özü ilə Evripidi müqayisə edərək demişdir ki: "Əgər mən olmasını zəruri gördüyüm hadisələri verirəmsə, o, olmuşları və olanları verir". Doğrudan da, Evripid Esxilə və Sofokla nisbətən realist idi, xüsusilə Evripid götürdüyü əsatiri mövzuları real həyat ilə real insan ruhu ilə uyğunlaşdırmış, allahların və yarımallahların sifətində real insan hissləri, ehtirasları vermişdir. Onun əsərlərində allahlar əksəriyyətlə mənfi ehtirasları, inadları, tərsliklərі və sərtliklərilə, yolunu azmış insanların ruhunda canlanırlar.

O, qəhrəmanlıq səciyyəsini yumşaldır, buna uyğun real səhnə şəraiti yaradır. Əsatir, müəllifin əlində sadəcə bir bəhanə olur. Onun faciələrinin bir çoxu dram dərəcəsinə enir. Əsərlərinin bir çoxu xoşbəxt nəticə ilə bitir.

Sofokla nisbətən, Evripidin faciələrində bütöv kompozisiya, hərəkət vəhdəti də yoxdur. Təsadüfi və yandan gəlmə hadisələr bəzən süjetin gedişini dəyişdirir. Əksinə, intriqanı Evripid çox mükəmməl yaradır. Bəzən olur ki, faciənin sonunda mürəkkəbləşmiş intriqanı açmaq üçün müəllif allahların müdaxiləsindən istifadə edir; belə ki, allah nazil olur, dolaşmış işləri açır. Qədim dövrdə buna "maşından allah" deyirdilər. Çünki səhnə şəraitində allah mancanaq vasitəsilə səhnəyə enirdi.

Evripid mükalimə ustadıdır. Əsərlərində mükalimə həqiqi kəskin fikir mübadiləsinə çevrilir. Onun dili, heç şübhəsiz, səələflərinin dilindən nisbətən sadədir. Onun əsərlərini xorsuz da vermək olar, çünki artıq burada xor, hadisələrə təkan verici və həlledici rol oynamır.

Rəvayətə görə, Evripid doxsana qədər əsər yaratmışdır. Ondan bizə 18 əsər gəlib çıxmışdır (19-cu sayılan "Res" əsəri indi də şübhəlidir). Bizə çatan əsərləri təxminən sıra ilə bunlardır:

"Siklov" (satirik dram), "Alkesta", "Medeya", "İppolit", "Gekubə", "Heraklidlər", "Andromaxa", "Herakl", "Xahiş edənlər", "İon", "Troya qadınları", "Elektra", "İfigeniya Tavriddə", "Yelena", "Finikiya qadınları", "Orest", "Vakxanki", "İfigeniya Avliddə". Adlarından da görünür ki, Evripid qədim yunan əsatirinin bütün silsilələrindən mövzu götürərək istifadə etmişdir. Həyatda ikən, Evripidin o qədər ədəbi hörməti olmamışdır, lakin ellinizm dövründə yunan teatrlarının əsas repertuarını, demək olar ki, onun əsərləri təşkil edir. Aristotel onu səhnədə "Şairlərin ən tragiki" adlandırmışdır.

ALKESTA

İŞTİRAK EDƏNLƏR:

Apollon
Ölüm iblisi
Admet – Fessaliyada Fer hökmdarı
Alkesta – onun gənc arvadı, İolk hökmdarlarından Peliyin qızı, Akastın bacısı
Evmel, Perimela – onların uşaqları
Feret – Admetin qoca atası
Herakl – Arqos hökmdarı Evrisfeyin vassalı, Admetin dostu
Admetin xidmətçisi
Alkestanın xidmətçisi (qadın)
Xor – Fer əhalisi

PROLOQ

Səhnə Fessaliya Ferində sarayın ön tərəfini təsvir edir. Sübh vaxtıdır.

Birinci səhnə

Apollon saraydan çıxır. Paltarının üstündən ox qabı asılmışdır, əlində kaman vardır.

Apollon. Əlvida, ey hökmdar Admetin evi! Zevsin iradəsi ilə mən bu evdə nökərlərlə pay bölmüşəm. O mənim oğlum Asklepi vurduqda, mən də qəzəblənib onun üçün dəhşətli qılınc hazırlayan siklopları məhv etdim. Zevs məndən müdhiş bir qisas aldı: məni yer üzünə göndərdi, burada gah qoyun otardım, gah ev qorudum. Nəcib hökmdara nəcabətlə xidmət etdim. Məələklərə hiylə gələrək hökmdarın həyatını ölümdən qurtardım. Moyrlar mənə söz verdilər ki, əgər Feret oğlu Admet öz yerinə başqa bir adam tapıb qurban versə, özü ölümdən qurtara bilər. O, hamını yoxladı, qoca atasına və anasına da müraciət elədi, amma heç biri ona kömək etmədi. Ancaq bircə arvadı onun halına yandı, ərinin yerinə ölməyə, Aidlər zülmətinə getməyə razı oldu. İndi Alkesta həyatla vida etməkdədir. Artıq onun son dəqiqələridir. Mən də bu əziz evdən getməyə tələsməliyəm ki, mənfur ölümü gözüm görməsin. (*Qara geyimli böyük Ölüm iblisi səhnəyə gəlir, dodaqları qıpqırmızı qızarmışdır, əlində böyük qara bir qılınc*

vardır) Budur, Ölüm iblisi ölülər kahini gəlir. Qadını Aidlər mənzilinə aparmağa hazırlaşır. Bu elə gözətçidir ki, ölüm dəqiqəsini, əcəl saatını heç gözdən qaçırmaz.

İkinci səhnə

Apollon və Ölüm iblisi

Ölüm iblisi (*Apollona yaxınlaşmadan*). Hə! Yenə sənsən... Appolon! Nə axtarırsan? Burada dayanmaqda məqsədin nədir? Yoxsa yenə mənim qurbanımda gözün vardır? Admeti ölümdən xilas etdiyin bəs deyilmi? Mələkləri aldadıb hiylə işlətdiyin yetməzmi? Bu ox-kaman taxmağın nədir? Peliyin qızı özü ərinin əvəzinə ölməyə razılıq vermədimi?!

Apollon. Nə bilirsən, elə. Mən həqiqət aşiqiyəm.

Ölüm iblisi. Həqiqət, bəli! Bəs bu ox-kaman nədir?

Apollon. Ey iblis, bu bir adətdir.

Ölüm iblisi. Admeti hiylə ilə xilas etmək də bir adətdirmi?

Apollon. Dostların pis günü mənə ağır gəlir.

Ölüm iblisi. Sən məni ikinci meyitdəndəmi məhrum edəcəksən?

Apollon. Mən birincini də səndən zorla almamışdım.

Ölüm iblisi. Nə olursa olsun, o indi məzarda deyil, yer üzündədir.

Apollon. Arvadı onun əvəzinə ölecək... Sən də onun dalınca gəlmisən, deyilmi?

Ölüm iblisi. Bəli, onu yerin alt qatlarına aparmağa gəlmişəm.

Apollon. Apar, səni qandırmaq çox çətindir.

Ölüm iblisi. Aparmaq mənim vəzifəmdir.

Apollon. Ölüm astanasında yubananı apar.

Ölüm iblisi. Çox gözəl razıyam.

Apollon (*bir qədər susduqdan sonra*). Demək, sən Alkestaya qocalmağa imkan verəcəksən.

Ölüm iblisi (*başını yırğalayaraq*). Ölüm töhfəsi hörmətli olur.

Apollon. Sənə bir can lazımdır, deyilmi?

Ölüm iblisi. Gənc ömür daha şərəflidir.

Apollon. Qocanın dəfni gözəldir.

Ölüm iblisi. Sən zənginləri nəzərdə tutursan.

Apollon (*istehza ilə*). Mərhəba, mərhəba, heç sözüm yoxdur!

Ölüm iblisi (*davam edərək*). Zənginlər qocalana qədər ölümdən yaxa qurtarırlar...

Apollon (*sükutdan sonra*). Demək, sən Alkestanı mənə vermirsən?

Ölüm iblisi. Əlbəttə, yox! Sən ki mənim xasiyyətimi bilirsən.

Apollon. İnsanlar üçün zəhərdir, allahlar üçün şərbət.

Ölüm iblisi. Bu sözlərin faydası yoxdur.

Apollon. Amansız olsan da, ey İblis, nəhayət təslim olacaqsan... Bir gün Evrisfey nəslindən bir kişi buradan keçəcək, Frakiyalılardan dörd gözəl at almaq üçün gedən bu kişi Admetin evində qonaq qalacaq. O, səndən Alkestanı zorla alacaq. Sən mənim ricamı rədd etdin. Amma bir gün mən deyənə gələcəksən. Arada qazancın bu oldu ki, sənə qarşı qəzəbim artdı... (*Gedir*)

Üçüncü səhnə

Ölüm iblisi (*tək*). Çox danışdıq, amma bihudə!.. Qadın Aidlər mənzilinə getməlidir... Mən ona yaxınlaşıb qılıncımla toxunmalıyam... Bu qara qılıncım kimin saçına toxunsa, o, dərhal ölümün ixtiyarına keçəcək. (*Evə girir*)

PAROD

Sarayda tam və məşum bir sükut hökm sürür. Ferlilərin xoru orxestrə yaxınlaşır. Əvvəlcə lal bir səhnə. Ferlilər dəstə-dəstə olub ayrılır, saraya baxaraq işarə ilə öz təəccüblərini bildirirlər. Hərəkətlərində bir qorxu və həyəcan hiss edilməkdədir.

Xor

(*müqəddimə mahnısı*)

Dərin bir sükuta dalmışdır hər yan...
Səs-səmir gəlməyir bu lal saraydan.
Kimsə görünməyir, bomboşdur otaq,
İndi Alkestaya yasmı saxlayaq?
Yoxsa Peliy qızı ölməmiş, sağdır,

Ölüm-itim ondan hələ uzaqdır.
Günəş seyr edirmi görən o yarı,
O nəcib xilqəti, o şux nigarı.
Ərə sədaqətli, ərə vəfalı,
Tapılmaz dünyada onun misalı...

B i r i n c i y a r ı m x o r. Saraydan gələn inilti səslərini eşidirsinizmi? Fəryadları dinləyirsinizmi? (*Sükut, dinləyirlər, sonra yavaşca*) O iniltilər "iş bitdi!" – deyə xəbər vermirmi?

İ k i n c i y a r ı m x o r. Qapıda gözətçi də görünmür... Nigarançılıq məni öldürür... Ey Pean, dağıt bu fəlakət buludlarını!

B i r i n c i y a r ı m x o r. Ölmüş olsaydı belə susmazdılar...

İ k i n c i y a r ı m x o r. Ölmüşdür...

B i r i n c i y a r ı m x o r. Cənazəni hələ evdən çıxarmamışlar.

İ k i n c i y a r ı m x o r. Nə bilmək olar. Həm şübhə edirəm, həm də qorxuram... Sən necə də arxayınsan.

B i r i n c i y a r ı m x o r. Yoxsa, Admet sevimli arvadının cənazəsini təntənəsiz dəfn etmək istəyir!

İ k i n c i y a r ı m x o r. Sarayın qapısında mən çeşmə suyu ayinini görmürəm. Cənazə evdə deyildi.

B i r i n c i y a r ı m x o r. Müsibət günündə başdan tökülən saçlara rast gəlmirəm... Cavan əlləri dizlərinə vuran görmürəm...

İ k i n c i y a r ı m x o r. Fəlakətli gün gəlmişdir.

B i r i n c i y a r ı m x o r. Ah, nələr eşidirəm!

İ k i n c i y a r ı m x o r. Onu bu gün torpağa basdıracaqlar.

B i r i n c i y a r ı m x o r. Kədərin ağır mizrabını sən mənim qəlbimə və fikrimə toxundurdun.

İ k i n c i y a r ı m x o r. Köhnə və sadiq dost yaxşı yoldaşın fəlakətinə necə ağlamasın?!

X o r

Gəmilərlə töhfələr,
Dalğaları yararaq,
Ya müqəddəs Likiyə[1],
Ya o susuz Ammona[2],
Hara getsə fərqi yox,

Nahaqdır, bütün nahaq...
Sərt qayalar ardından,
Günəş geriyə dönməz...
Kimdən istəyim aman,
Kimə pənah aparım.
Hansı məbəd önündə,
Qurban kəsib yalvarım?

Günəş öz tellərini
Ona saçaydı, ey dad!
Cəhənnəm zülmətindən
Onu edəydi azad.
Asklepiy[3] bilirdi
Diriltmə yollarını,
Ağır, odlu bir qılınc
Sustaltdı qollarını...
İndi kimə yalvarım,
Kimə pənah aparım?

Admet nələr etmədi...
Verdi saysız ehsanlar.
Hər məbədin önündə
Kəsdirdi çox qurbanlar,
Lakin dərdə bir dava
Tapan olmadı əsla.

BİRİNCİ EPİSODİ

Həmin adamlar. Saraydan xidmətçi qadın çıxır. Yas paltarı geyməmişdir, ancaq gözləri yaşlıdır. Qadın orxestrə yaxınlaşır.

F e r a ğ s a q q a l ı. Dayanın... dayanın, saraydan xidmətçi çıxıb gəlir, onun gözləri yaşlıdır... Görəsən nə xəbər gətirir. Hökmdarın müsibətinə şərik olub ağlamaq lazımdır, ya yox?

Xor xidmətçi qadını əhatə edir və diqqətlə onu dinləyir.

X i d m ə t ç i q a d ı n. Onu həm sağ hesab elə, həm ölmüş...

F e r a ğ s a q q a l ı. Ölü adam necə diri ola bilər?

X i d m ə t ç i q a d ı n. O, həyatla vidalaşır, əzab çəkir.

F e r a ğ s a q q a l ı. Ah, Admet, Admet! Sən kimi itirirsən?

X i d m ə t ç i q a d ı n. Alkesta ölməndən sonra Admet onun qədrini biləcək.

F e r a ğ s a q q a l ı. Onu xilas etməyə heç bir ümid yoxdurmu?

X i d m ə t ç i q a d ı n. Əcəlin hökmü belədir.

F e r a ğ s a q q a l ı. Necə? Onu ölümə təslim etməyə hazırlaşırlar?

X i d m ə t ç i q a d ı n. Bəli, pal-paltarı da hazırdır, əri dəfn edəcək.

F e r a ğ s a q q a l ı (*əllərini göyə qaldırır*). Ah, ölümdən qorxmayan insan! Ah, arvadlar içində ən gözəl arvad!

X i d m ə t ç i q a d ı n. Əlbəttə, gözəldi ona sözmü var! Ən yaxşı bir qadın olmaq üçün daha nə etmək lazımdır? Məgər ər yolunda ölümə gedən hər bir arvada haqq vermək olarmı? Amma bunu bütün şəhər tanıyırdı... Ey qoca, bir məni dinlə, gör bu evdə nələr oldu... Son gününün yaxınlaşdığını bildikdə, axar su ilə ağ bədənini yudu. Sonra sidr ağacından qayrılmış sandıqdan paltarlarını çıxardı, geyindi-keçindi. Ocağın qabağında dayanıb belə dua elədi: "Ey allah, məni Aid öz qaranlıq otağına aparır. Mən indi axırıncı dəfə sənin qabağında diz çöküb yalvarıram: mənim yetimlərimi hifz et! Oğluma ağıllı bir arvad qismət elə, qızıma kübar bir ər yetir, qoy onlar anaları kimi bədbəxt olmasınlar, ləzzətlə ömür sürüb dünyada rahat olsunlar". Sarayda nə qədər mehrab varsa hamısını gəzib dua etdi və yaşıl yarpaqlarla bəzədi. Allah onun nalə və göz yaşlarına rəhm etmədisə də fəlakət də onun hüsnündəki nəcabət nurunu qaralda bilmədi. Mehrablardan sonra öz zifaf otağına gəldi və yatağını görüb ağlaya-ağlaya dedi: "Ey mənim gəlinlik kəmərimi açılmış görən yataq, məni əfv et! Sən məni məhv etdinsə də, mən səndən incimirəm. Mən sənə və ərimə xəyanət etməkdən qorxdum, amma indi, bax, ölürəm. Sən başqa bir arvada xidmət edəcəksən, o məndən ismətli olmasa da, xoşbəxt olacaq". Bu sözləri deyib hökmdarın arvadı yatağını qucaqlayıb bağrına basdı, gözlərindən sel kimi yaşlar axıtdı. Ağlayıb doyduqdan sonra da yataqdan ayrıla bilmədi. Qapıya qədər gəlib yenə geriyə baxdı, qayıdıb yatağına sarıldı. Uşaqları da gəlib ağlaya-ağlaya ətəyindən yapışdılar. Alkesta uşaqları qucağına götürüb xeyir-dua verdi, gah qızını öpdü, gah da oğlunu. Admetin sarayında yaşayanlar hamısı onu yola salanda ağladı. Alkesta hamımıza əl verdi, görüşməmiş bir nökər belə qoymadı, hamını dinlədi. Admetin macərası indi başlanır. Özü ölsəydi

dərddən xilas olardı, amma indi ölümdən qurtardığı üçün həmişə vicdan əzabı çəkəcək.

F e r a ğ s a q q a l ı. Ah, bu gün o nə qədər göz yaşı tökəcək! Belə bir arvadı itirmək asan işdirmi?

X i d m ə t ç i q a d ı n. Sevimli arvadını əlindən buraxmaq istəmir. Alkesta onun qucağında dərdin gücündən getdikcə əriyir, artıq taqəti qalmamışdır. Amma nə qədər ki, nəfəsi kəsilməmişdir, daima günəşə baxmaq istəyir. Gedim sənin gəldiyini onlara xəbər verim. Heyflər olsun ki, belə müsibət üz verdiyi zaman dərdə şərik ola biləcək yaxın adamlar azdır. Sən bizim ağaların sadiq və köhnə dostusan, tanıyıram. (*Evə gedir*)

BİRİNCİ STASİM

STROF

B i r i n c i y a r ı m x o r. Ey Zevs, bu bəladan xilas olmaq üçün bir yol yoxmudur? Pərvərdigara, hökmdar ailəsinə üz vermiş bu fəlakətin qabağını almayacaqsanmı?

İ k i n c i y a r ı m x o r. İçəridən bir çıxan olmayacaqmı? Saçlarımızı kəsib qara geymək vaxtı çatmamışdırmı?

B i r i n c i y a r ı m x o r. Fəlakət sona yaxınlaşır, ibadət edək, dostlar, ibadət edək, allahların qüdrəti intəhasızdır.

İ k i n c i y a r ı m x o r. Ey qadir Pean, sən hökmdara kömək et! Kömək et, allahım, kömək et! Keçmişdə onların xilaskarı olduğun kimi, indi də xilaskar ol, ey Pean! Qoy zalım Aid sənin qüdrətin qarşısında məhv olsun, ey Pean!

ANTİSTROF

B i r i n c i y a r ı m x o r. Heyhat!.. Feret oğlu indi necə yaşayacaq! Artıq onun nəcib arvadı yoxdur.

İ k i n c i y a r ı m x o r. Bir bıçaqmı onun həyatına son qoyacaq, ya havadan asılan bir ipmi Admetin boğazına keçəcək!

B i r i n c i y a r ı m x o r. Bu ağır gündə Admet öz istəkli arvadının ölümünə dözə bilməyəcək.

Sarayın qapıları geniş açılır, adamlar çıxırlar. Ağlamaqlarını güclə saxlayan xidmətçi qadınlarla və bir neçə qoca qul ilə bərabər gələn Admet, qucağında Alkestanı gətirir. Onun dalınca gələn qoca və axsaq bir qul pedaqoq Evmalın və onun bacısının əlindən tutub gətirir. Dalda gələn adamların içərisində kahin və doktor da vardır.

İ k i n c i y a r ı m x o r. Bir baxın, bir baxın, saraydan çıxıb gəlirlər... ey torpaq, inlə, fəryad et! Ağlayın, ey ferlilər, Alkestanın halına ağlayın! Zülmün çəngəlində inləyən qadın şahanə saraydan Aidin qaranlıq zirzəmisinə gedəcəkdir.

Dəfn keçidi gəlib səhnənin qabağında dayanır. Həyəcan. Xidmətçilər arasında hərəkət. Orxestrə alçaq bir taxt gətirib qoyurlar. Xor qurtarmaq üzrə ikən Admet rəngi ağarmış və zəif Alkestanı ehtiyatla taxtın üzərinə qoyur. Admet ayaq tərəfində ayaq üstə, xidmətçi qadın isə hökmdar hərəminin başı üzərində dayanır. Ferlilər hökmdar ailəsini salamlayırlar.

X o r (*təmkinlə*). Yox, izdivacın nəşəsi onun ağır iztirablarını unutdura bilməz, heç vaxt! Admetin başına gələn müsibət hər bir dərddən ağırdır... Ah, indi o bu boş xanimanda necə yaşayacaqdır?

İKİNCİ EPİSODİ

Admet, Alkesta, uşaqları və məiyyəti. Sükut.
Bütün nəzərlər Alkestaya çevrilir.

A l k e s t a

taxtdan yavaş-yavaş qalxaraq

Alqış sənə, ey şad günəş!
Alqış sənə, azad bulud!

A d m e t

Qoy, hər iki bəxti qaranı görsün;
Allahın qarşısında alnımız açıqdır.

A l k e s t a. Ey torpaq, ey doğma xaniman! Ey gəlinlik otağım, sən də, ey doğma şəhər!.. Əfv edin məni!..

Taqətsiz halda taxtın üzərinə düşür.

A d m e t. Mətanətli ol, zavallı, özünü itirmə! Dua et!.. (*Sükut*)

A l k e s t a. qorxudan üzü dəyişmiş halda bir dəqiqəyə qədər susur, yalnız dodaqları tərpənir. Sonra nazik ağ əllərini göyə qaldırır, yavaş-yavaş ayağa qalxır, gözləri geniş açılır. Uzaqları göstərir.

Odur, odur onlar... ikiavarlı bir qayıq suda üzür odur, ölülər içərisində qayıqçı. Xaron[4] sükana söykənərək məni çağırır, "Niyə yubanırsan? Niyə yubanırsan?" – deyib çağırır... "Tez ol!" – deyir... "Səni gözləyirik... Tez ol!"

Camaat içərisindən xidmətçi qadınların hönkürtüsü eşidilir.

A d m e t. Vay olsun halımıza! O yol fəlakətlər yoludur! Fikrini dağıt! Ah, fəlakət, fəlakət!

A l k e s t a (*qalxır və Admetin əlindən tutur*). Aparır... aparır məni. Sən məgər görmürsən?! Ölülər məkanına aparır... gözlərdən mavi alovlar çıxan yerə aparır... Odur, qanadları da var. Ah... nə edirsən? Aparma bizi! Məni hara aparmaq üçün bəzəndirirsən?.. Mən qorxuram...

Ağlaşma səsləri çoxalır və gurultu artır... Admetin işarəsi ilə ağlayanları itələyib aradan çıxarırlar.

A d m e t. Ah, fəlakətli yol!.. Bu yol uşaqlarıma və mənə nə qədər ağır olacaq... Qara günlərimiz başlayır... (*Sükut*)

Alkesta gözünə görünən xəyalların təsirilə taxtdan uzaqlaşır. Ayıldıqda özünü ayaq üstə saxlaya bilməyib gözlərilə dayanacaq axtarır. Nəhayət, rəngi tamamilə ağarmış bir halda Admetin qucağına yıxılır, Admet isə onu sinəsinə basıb saxlayır və dinmədən saçlarını oxşayır. Səssiz səhnə.

A l k e s t a (*yavaşca*). Buraxın, buraxın məni!.. Dayana bilmirəm... Yerimə qoyun!.. Aid başımın üzərində dayanmışdır... Qara buludlar gözlərimi qapamışdır... (*Admet onu taxtın üzərinə qoyur. Birdən-birə qüvvət almış kimi*) Ah, uşaqlarımı, uşaqlarımı verin!.. (*Əsəbi halda uşaqlarını oxşayır, uşaqlar bərkdən ağlayaraq analarına qısılırlar, taxtın üzərində otururlar*) Sizin ananız yoxdur, artıq ananız yoxdur... Əlvida!.. Günəş öz işığını sizdən əsirgəməsin, uşaqlarım!..

Uşaqları kənar edərək taxtın üzərində uzanır

A d m e t (*ona tərəf əyilərək*). Vay mənim halıma! Vay, vay! Bu sözlər mənə ölümdən daha ağırdır... Yox, əzizim, yox, sən bizi qoyub getməzsən, deyilmi? Uşaqların xatirinə... Bu yetimləri qoyub gedərsənmi? Ah, bizə rəhmin gəlsin!.. Sən getsən... mən də yaşayan deyiləm, bizim həyatımız da, ölümümüz də səndən asılıdır. Sənin eşqin mənim mehrabımdır.

A l k e s t a (*yavaş-yavaş özünə gəlir və danışmağa başlayır. Əvvəlcə sakit və dayana-dayana, getdikcə daha sərbəst*). Admet, görürmüsən?.. Mən hələ ölməmişəm. Həyatın son dəqiqələrini yaşayıram. Admet, mən sənin həyatını özümünkündən daha şərəfli hesab etdim və sən yaşayasan deyə mən öz ruhumu təslim etdim. Ah, mən hələ də yaşaya bilər, Fessaliyada özümə istədiyim bir ər tapa bilər, taxt-tacı və həyatın bütün ləzzətini onunla bölüşə bilərdim. Lakin Admetsiz həyat, yetimlərlə yaşamaq mənə lazım deyildir... Sənsiz gənc ömrümün ləzzəti yoxdur... (*Sükut*) Səni atan və anan rədd etdi, halbuki onlar məsul bir ömrü sürüb qoşa qarımışlar və sən də onların gözünün ağı-qarası bir övladsan. Onlar istəsəydilər, günəşin ziyasını sənə tərk edib, sədaqətlə ölə bilərdilər. Onların ki, başqa bir övladları yoxdur... O zaman mən də hələ yaşaya bilərdim, sən də yetim uşaqlarla dul qalaraq arvadın üçün yas saxlamazdın... Görünür, allahlardan biri belə istəmişdir... Qoy elə olsun... Ancaq sən mənə söz ver. Çox şey istəmirəm... Candan əziz şey olmasa da, sən mənim xahişimin ədalətli bir xahiş olduğunu təsdiq edərsən. Sev bu uşaqları (*uşaqları oxşayır*), mənim kimi sev! Sən ki onları sevirsən, deyilmi? Sən dəli deyilsən... evimi bu uşaqlar üçün hifz et! Uşaqlarımı ögey ana əlinə vermə! Ögey ana hirslənib bu zavallıları döyüb incitməsin, Admet! İlan ögey anadan daha mərhəmətlidir. Sən oğluma havadar ol! Qızım (*qızını öz tərəfinə çəkib oxşayır*), sən gəlin olub atanın arvadına ana deyəcəksən. Səni təmiz saxlayacaqmı?.. Sənin təmiz adını ləkələməyəcəkmi? İzdivac sənin gününü əbədi olaraq qara etməyəcəkmi? Heyhat! Səni nişanlına təslim etmək mənə nəsib olmayacaq. Analıq iztirabları ilə sənə təsəlli verə bilməyəcəyəm. Bu iztirablardan daha şirin bir şey varmı? (*Sükut. Dinməzcə qızını oxşayır, Evmel əlini xidmətçinin əlindən çəkərək başını aşağı salır*) Mən ölməliyəm... Ölüm sabah deyil, bu gün gələcək, günləri saymağa da ehtiyac qalmayacaq. Bir dəqiqə sonra Alkestanın adını bir zaman yaşayıb ölənlərin içərisində çəkəcəklər... (*Qalxır və əllərini qaldıraraq əvvəlcə Admetə, sonra isə uşaqlara xeyir-dua verir*) Xoşbəxt

olasınız! Sən, Admet, fəxr etməlisən, sənin arvadın yaxşı bir arvad idi. Siz isə, balalarım, ananızın şərəfli adı ilə yaşayın...

F e r a ğ s a q q a l ı. Məlikə, əmin ol! Əgər hökmdarın ağlı olsa, arvadının dediklərinə əməl edər.

A d m e t. Əlbəttə, əlbəttə! Əmin ol, hamısını edəcəyəm. Sən mənim bu dünyada arvadım idin, o dünyada da bu adı daşıyacaqsan. Fessaliyanın heç bir qızı məni ər deyə çağıra bilməyəcək. Onlar nə əsl-nəcabətdə, nə də gözəllikdə sənə tay ola bilməzlər. Uşaq isə mənə bəsdir. Səni saxlaya bilmədimsə, onlar üçün allahlara yalvaracağam. Sənin üçün mən bir il yox, ömrüm olduqca yas saxlayacağam; ata-anama isə əbədi olaraq nifrət edəcəyəm. Məhəbbət onların dilində idi, sən isə öz şirin canını qurban verməklə məni ölümdən qurtardın... Belə bir arvadı itirdiyim üçün ağlamayımmı?.. Artıq mən ziyafətləri, əylənciləri, nəşəli yar-yoldaşı unutmalıyam... Bir də əlim çalğı tellərinə toxunmayacaq... bir də qəmgin ruhumu Liviya fleytası ilə oxşamayacağam, sən mənim həyatımın sevincini özünlə aparırsan... Ustalara sənin heykəlini sifariş edəcəyəm, heykəlini yatağıma qoyacaq, gecələr qucaqlayacaq, sənin adını çağıracağam, təsəvvür edəcəyəm ki, sənsən, Alkesta, səni qoynuma basıram... Doğrudur, bu çox soyuq bir təsəllidir; amma hər halda ürəyə böyük dayaqdır. Ehtimal ki, xəyala dalarkən siz gözlərimə görünəcəksiniz mənə təskinlik verəcəksiniz. Xəyalən də olsa, dostları görmək şirindir, belə görüşün hər dəqiqəsi əziz və qiymətlidir. Ah, kaş məndə Orfey[5], qüdrəti olaydı, gözəl sözlər və incə səslərlə Persefona yalvarar, dualarla Aidi yumşaldar, səni qaytarardım. And olsun, səni işıqlı dünyaya çıxarmamış, məni nə cəhənnəmin Kerberi[6], nə də orada kürəyə söykənmiş Xaron arzumdan döndərə bilməzdi...

Sükut. Admet Alkestanın saçlarını oxşayır. Bu vaxta qədər Alkesta gözü yumulu yatırdı. Admet uşaqlardan danışıb qurtarandan sonra Alkesta gözlərini açır.

A d m e t (*göz yaşlarını udaraq*). Sən məni gözləyəcəksən, deyilmi? Orada mənim üçün ev hazırlayacaqsan ki, öləndə sənincə bir yerdə yaşayım. Burada isə hər ikimizi sidr ağacından qayrılmış bir tabutda basdırmağı əmr edərəm. Orada mən sevgilimlə birgə uzanıb yataram, onu məndən ölüm də ayıra bilməz...

F e r a ğ s a q q a l ı. Ey hökmdar, mən də səninlə bərabər ağlayacağam, məlikə buna layiqdir.

A l k e s t a (*uşaqlara*). Eşitdinizmi, balalarım, atanız evlənməyəcək! O sizi yad bir qadının əlinə verməyəcək, məni hörmətdən salmayacaq, o, söz verdi...

A d m e t. Mən təkrar edirəm, əməl edəcəyəm!..

A l k e s t a (*Admetə*). Mən sənə inanıram, uşaqları məndən qəbul et!

A d m e t (*uşaqları qucaqlayaraq*). Ah! Sevimli əllərdən əziz bir töhfə qəbul edirəm.

A l k e s t a. Sən bu zavallılara bundan sonra ana ol!

A d m e t. Ana olmalıyam... anasızlara... ana.

A l k e s t a. Uşaqlarım, yaşamaq istəyirəm... Məzar qaranlıqdır.

A d m e t. Ah, mən! Bəs mən indi necə yaşayacağam?

A l k e s t a. İllər yaranı sağaldarlar, ölən unudular.

A d m e t (*daha çox hissə qapılaraq*). Yalvarıram, məni də, məni də özünlə apar...

A l k e s t a. Sizlərdən bircə mən kifayətəm.

A d m e t. İlahi, bizlərdən kimi aparırsan?

A l k e s t a (*bir daha qalxmamaq üzrə uzanır*). Gözlərim gecənin ağır zülməti altında...

A d m e t. Məni atıb getmə, məhv oldum...

A l k e s t a. Mən artıq yoxam... Bir heçəm... Alkesta yoxdur.

A d m e t. Heç olmasa uşaqlara baxmaq üçün üzünü döndər.

A l k e s t a. Bacarmıram, Admet! Əlvida, balalarım!

A d m e t. Uşaqlara bax, uşaqlara...

A l k e s t a. Alkeska yoxdur.

A d m e t. Nə edirsən? Getdinmi?

A l k e s t a. Əlvida!

A d m e t. Ah, fəlakət!

F e r a ğ s a q q a l ı. Artıq Admetin arvadı dirilər cərgəsində yoxdur.

Bir dəqiqəlik sükut. Hamı səssizcə Alkestanın qabağında diz çökür. Admet əlləri ilə üzünü örtür. Birdən Evmel, anasının cənazəsinə doğru yüyürərək sükutu pozur.

E v m e l. Vay, vay olsun mənim halıma, əziz anam torpaq altda yatacaq. Ata, qara məzarda anamı günəş daha isitməyəcək. Yazıq ana, yetim oğluna niyə yaşa deyirsən? (*Atasına*) Ona bax, göz qapaqları yumuldu, əlləri hərəkətdən qaldı. (*Anasına müraciət edir və yavaşca əllərinə toxunur*) Ana, mənə qulaq as, oğlunu dinlə, yalvarıram. (*Öpür*) Sənin soyuq dodaqlarından öpən öz balandır.

A d m e t. Balalarım, o bizi eşitmir, görmür... Bizim müsibətimiz ağırdır.

E v m e l (*atasına yanaşaraq*). Ata, mən sənin bircə oğlunam, bu evdə çox tez yetim qalıram... Bu az ömrümdə nə qədər dəhşətlər görmüşəm, ata! (*Atasına sığınır və əlilə, dinməzcə anasına baxan bacısının əlini tutmaq istəyir*) Bacı, bu dərdləri sən də mənimlə birlikdə çəkmisən. Ata, sən evləndin, amma xoşbəxt olmadın, yaşayıb qoşa qarımaq sizə nəsib olmadı; indi də anamız bizi qoydu getdi, qədim bir xanədan dağılacaq.

F e r a ğ s a q q a l ı (*Admetə yanaşaraq*). Admet, müsibətə dözməkdən başqa əlacımız yoxdur. İsmətli arvada həsrət qalanların nə birincisisən, nə də axırıncısı. Unutma ki, bütün yaranmışlar, biz hamımız, öləcəyik.

A d m e t (*ciddi vəziyyət alaraq*). Bu müsibət mənə birdən-birə üz vermədi. Mən bunu çoxdan bilirdim, çoxdan onun əzabını çəkirdim, ona hazırlaşırdım. Lakin mən cənazəni qaldırmaq üçün tədbir görməliyəm. Siz burada qalın və yeraltı qüvvələrin allahlarına dualar oxuyun! Fessaliya əhalisindən bu müsibətimə şərik olmağı xahiş edirəm: saçlarınızı kəsdirin, qara geyin, təkatlı və dördatlıların yallarını qırxın, küçələri ney və rübab səsləri ilə doldurmayın, on iki ay yas saxlayın... Mənim bundan əziz bir ölüm olmayacaq ki, mən dəfn edim... Heç kəs onun kimi yüksək bir fədakarlıqla məni özümə borclu etməmişdir.

Xidmətçilər cənazəni tez geyindirirlər. Admet içəri otağa girir.

İKİNCİ STASİM

X o r

Ah Peliada[7], Aidin
Günəş üzü görməyən
Evinə sevinc apar.
Sən də, ey qara saçlı,
Qəmgin sükançı, Aid,
Ağır avar çəkə-çəkə
Meyit daşıdığın zaman
Bil ki, Axeront suları
Görməmişdir belə qadın.

Tez-tez yarın və yoldaşın
Yeddi simli rübab çalar,
Çalğısız da könüllərdə
Sənin şöhrətin ucalar.
Spartada Korney ayı
Şərəfinə işıq saçar,
Afinanın gözəlləri
Yenə səndən söhbət açar.
Ah, Alkesta, nə çox nəğmə
Bəxş elədin sən aləmə!
Ey allahlar, hanı məndə
O qüvvət ki, edim azad
Məlikəmi o zülmətdən,
Kəc Aidin zindanından,
Daim axan Kokit çayın
Naləsindən, əfqanından,
Arvadlarda yox sənə tay,
Kim görüb bu məhəbbəti:
Ər yolunda qəbul etdin
Bu ölümü, bu zülməti...
Görüm sənin üstündəki,
Torpaq tükdən yüngül olsun,
Əgər ərin arvad alsa,
Qoy qəlbimiz ona qarşı
Nifrət ilə daim dolsun.
Nə anada qeyrət oldu.
Tək oğlunu xilas etsin.
Nə atada cürət oldu,
Torpaq altda özü getsin.
Onların ki, vaxtı ötmüş,
Saç-birçəyi ağ, lap gümüş,
Amma sən bir yaz çiçəyi,
Ər yolunda qəbul etdin
Bu torpağı, bu əməyi.
Kaş ki, mən də rast gələydim
Belə gözəl bir yoldaşa,
Bəzəyəydim şən ömrümü

O nemətlə başdan-başa.
Yaşayaydım onunla mən
Dərd bilmədən, qəm bilmədən.

ÜÇÜNCÜ EPİSODİ

Birinci səhnə

Çöl tərəfdən Herakl daxil olur. Çiynində şir dərisi, əlində toppuz, ox və kaman vardır. Ferlilər onun gəlişindən həyəcana düşmüş kimi, söhbətə tutub yubandırmağa çalışırlar.

H e r a k l. Möhtərəm Fer əhlinə məndən... (*Salam verib, salam alır*) Admet saraydadırmı?

F e r a ğ s a q q a l ı. Bəli! Feret oğlu evdədir. Yəqin ki, Heraklın Fessaliyada işi vardır, yoxsa yolunu Fer şəhərindən salmazdı, deyilmi?

H e r a k l. Bəli, Tirinf hökmdarından fərman var.

F e r a ğ s a q q a l ı. Herakl, hara belə silahlanmısan?

H e r a k l. Frakiyalı Diomedin[8] dörd atı üçün gedirəm.

F e r a ğ s a q q a l ı. Gətirə biləcəksənmi? Heç frakiyalıların necə adam olduqlarını bilirsənmi?

H e r a k l. Yox, Bistoniya ölkəsində olmamışam.

F e r a ğ s a q q a l ı. Döyüşsüz sənə at verməzlər.

H e r a k l. Mən bu işdən boyun qaçıra bilmərəm.

F e r a ğ s a q q a l ı. Ya ölərsən, ya öldürərsən...

H e r a k l. Ölümlə üz-üzə gəldiyim birinci dəfə deyil.

F e r a ğ s a q q a l ı. Tutaq ki, hökmdarın özünü öldürdünüz... Nə çıxsın?

H e r a k l. Onun atlarını gətirib Yevrisfeyə verəcəyəm.

F e r a ğ s a q q a l ı. O atların ağzına yüyən salmaq asan iş deyil.

H e r a k l. Məncə onların nəfəsləri alov püskürmür.

F e r a ğ s a q q a l ı. Herakl, o atlar ağızları ilə igidləri gəmirirlər.

H e r a k l (*inanmayaraq*). Sən dağdakı yırtıcılardan danışırsan.

F e r a ğ s a q q a l ı. Ey igid, onların axurları həmişə qanlı olur.

H e r a k l. Elə isə de görüm, onları hansı oğul bəsləmişdir?

F e r a ğ s a q q a l ı. Aresin oğlu, qızıl qalxan gəzdirən adam bəsləmişdir.

H e r a k l. Mənim taleyim belədir; Heraklın yolu getdikcə daha sərt və ağırdır. Deyəsən Aresdən olanların hamısı ilə vuruşmaq mənim alnıma yazılmışdır. Likaonla vuruşdum. Kikinlə vuruşdum[9], indi də üçüncüsü ilə, at sahibilə vuruşmalı və qalib gəlməliyəm... Amma Alkmena[10] oğlunu düşmən qabağından qaçan görən olmayacaq.

İkinci səhnə

Həmin adamlar. Yas paltarı geymiş və ağlamış Admet.

F e r a ğ s a q q a l ı. Budur, hökmdarımız Admet də öz otağından çıxıb gəlir

A d m e t. Herakla baş əyərək sevin, ey Zevs oğlu Perseid![11]

H e r a k l (*salamına cavab verərək*). Sən sevin, ey Fessaliya hökmdarı!

A d m e t. Kaş elə olaydı, yoldaşım, kaş elə olaydı!

H e r a k l (*ona diqqətlə baxır*). Siz qara geyinmisiniz... Saçlarınızı kəsmisiniz... Buna səbəb nədir? (*Qısa bir sükut*)

A d m e t (*qüvvəsini toplayaraq*). Bu gün mən birini dəfn etməliyəm...

H e r a k l. Allah göstərməsin, yoxsa uşaqlardan birini?..

A d m e t. Admetdən olanlar hamısı sağ-salamatdırlar.

H e r a k l. Atan qocalmışdı... o olmasın?

A d m e t. O da sağdır, anam da hələ yaşayır.

H e r a k l. Əlbəttə, arvadın, Alkesta deyil.

A d m e t (*zor ilə*). Onun barəsində sənlə ikilikdə danışa bilərəm.

H e r a k l. Alkesta ölmüşmü ya sağmı, söylə?

A d m e t. Həm sağdır, həm yox, dərdimin də səbəbi budur.

H e r a k l (*düşünərək*). Sənin sözlərindən mən heç bir şey başa düşə bilmədim.

A d m e t (*bir qədər susduqdan sonra*). Bir de görüm, onun taleyi haqqında eşitmisənmi?

H e r a k l. Sənin əvəzinə ölməyə razı olduğunu eşitmişəm.

A d m e t. Elə isə mən ona "yaşayır" deyə bilərəmmi?

H e r a k l. Hələlik yas saxlamaq da tezdir.

A d m e t. Ölümə məhkum olan ölüdür; ölü isə bir heçdir.

H e r a k l. Lakin hər halda varlıqla yoxluq bir-birindən fərqli şeylərdir.

A d m e t. Sən belə düşünürsən, mən isə, Herakl, başqa cür. (*Sükut*)

H e r a k l. Sən ağlayırsan? Axı ölən kimdir?

A d m e t. Sən arvadı soruşdun, o buradadır.

H e r a k l. Ölən doğmadır, ya yad?

A d m e t. Yaddır, bəli, amma ailəyə yaxın idi.

H e r a k l. Sizin evdə ölməsinə səbəb nədir?

A d m e t. Atadan yetim idi, bizdə yaşayırdı. (*Sükut*)

H e r a k l (*getməyə hazırlaşaraq*). Sən yas içindəsən... Çox təəssüf edirəm, Admet...

A d m e t (*cəld*).Bu sözlərlə nə demək istəyirsən?

H e r a k l. Qalmağa gedib başqa yer axtarmalıyam.

A d m e t. Yox, yox!.. Elə bir o çatmırdı...

H e r a k l. Admet, dərdli adamın qonaqdan acığı gələr.

A d m e t. Torpaq ölənlərin, ev isə dostlarındır...

H e r a k l. Ağlayanlar içində ziyafət yaramaz...

A d m e t. Sənə ayrı otaqlar acdıraram.

H e r a k l. Qoy gedim, həmişəlik məni özünə borclu etmiş olarsan...

A d m e t. Heç ola bilməz ki, sən gedib başqa bir yer axtarasan. (*Xidmətçiyə*) Qonağı o başdakı salona apar, qonaq otağını açdır; xidmətçilərə tapşır ki, qonağa hökmdara layiq hörmət etsinlər. Ara qapıları bağlatdır. Ağlamaq səsi nəşəni pozar, qonağı qüssələndirmək olmaz...

Qul əvvəlcə könülsüz gedir, sonra Admetin ciddi nəzərlərini görüb qabağa düşür və baş əyərək Herakla qapı açır.

Üçüncü səhnə

Herakl getmişdir.

F e r a ğ s a q q a l ı. Admet, bu nə işdir sən görürsən? Belə müsibətli bir gündə qonaq qəbul edirsən, bu nə dəlilikdir?

A d m e t (*acıqlanmadan, lakin hövsələsizliklə*). Mən də səndən soruşuram: qonağı evdən, şəhərdən qovmaq ağıllı işmidir? Qonaqlara üz göstərməməklə mən öz kədərimi yüngülləşdirə bilərəmmi? Evimizə gedən fəlakətin üzərinə Fer şəhərində vəhşi adətlər yarandığı barədə şayiələr artırmaqla bu fəlakəti azaltmaqmı olar? Axı tale məni arqoslların susuz ölkəsinə atdıqda həmişə Herakl məni böyük bir mehmannəvazlıqla evinə qəbul edir.

F e r a ğ s a q q a l ı. Əgər Herakl sənin inanmış dostun isə, niyə müsibətini ondan gizlətdin?

A d m e t. Bu nə sualdır? Əgər o mənim müsibətimin bir hissəsini belə bilsə idi, qapımdan içəri girərdimi? Mən bilirəm ki, o da sənin kimi məni ağılsız hesab edərdi; amma Admetin evi nə qonağı rədd edər, nə də incidər.

Tələsik içəri girir.

ÜÇÜNCÜ STASİM

X o r

Qoy igid ərlərin, eşq olsun yenə
Açıq qapısına açıq evinə!
Ey incə səsli bir rübabın şahı,
Səni tale seçdi Pifi allahı!..
O bu qayalarda qaldı bir zaman,
Qoyun da saxladı, oldu bir çoban.
Sürünü səslərkən yaşıl çəmənə,
Ruhunu oxşadı, ney çaldı sənə.

Çalğının səsinə yüyürdü qaplan,
Dağları tərk etdi yırtıcı Aslan:
Altun telli yalları
Əyildi sənə sarı;
Neyin o xoş səsinə
Maral çıxdı meşədən,
Ürkək-ürkək boylandı,
Xoşlandı mənzərədən.

Admet şahın mülkünün
Yoxdur ucu-bucağı.
Bir yanı Molos çölü,
Bir yanı Peli dağı;
Egey sahillərində
Dalğa görməz qayıqlar,

Hər yan sürülməmiş çöl,
Hər yan yaşıl çəmənzar.
Orda Bebid suyundan
Qoyunlar içər, doyar,
Yorğun atları orda
Gelios dincə qoyar.

İndi şahın gözündən
Qanlı yaşlar axsa da,
Sevimli Alkestanın
Dərdi onu yaxsa da,
Qapısını açdı o
Yeni gəlmiş qonağa,
Nəcib adam heç düşməz
Nəcabətdən uzağa -
Başdan aşsa müsibət,
Gözlər yenə o hörmət.
Siz də edin yaxşılıq -
Alnınız olsun açıq!

İşi budur dünyanın,
Siz də buna inanın:
Kim etsə allahlara
Sədaqətlə bəndəlik,
Xeyir görər allahdan
Dünyada həmişəlik.

DÖRDÜNCÜ EPİSODİ

Birinci səhnə

Admet matəm alayının müşayiəti ilə qapıda görünür. Xora və Fessaliya camaatına müraciət edir, sonra qapıya tərəf çəkilir, qapı dəfn mərasimi üçün açılır. Admet orxestrə yaxınlaşmadan.

A d m e t (*şahanə bir əda ilə*). Ey Fer camaatı, müsibətimizə şərik olan həzərat! Mərhuməni geyindirmişlər, onu bu saat məzara aparacaqlar. Adətə görə, ona bu son gedişdə əlvida deyin!

Xor səssizcə təzim edir. Sükut.

F e r a ğ s a q q a l ı (*Admetə*). Baxın, atanız gəlir, özü də çox tələsir. Məiyyəti dalınca cənazəyə münasib xeyli hədiyyə gətirir.

İkinci səhnə

Feret kiçik bir matəm alayı ilə gəlir, dərin bir matəm içərisində şəhər tərəfdən içəri girir. Xidmətçilər ətriyyat, ağ incə tül və boyunbağı gətirirlər. Admet dinməzcə gözləyir, salam vermir və ona tərəf bir addım belə atmır.

F e r e t. Oğlum, sənin dərdini bölüşməyə gəlmişəm. Mərhumə, heç şübhəsiz, mələk kimi arvad idi; ismətli bir zövcəni itirdin, getdi, oğlum. Əfsus ki, biz aciz bəndələr qəzanın zərbələrinə qarşı dura bilmirik. Hədiyyələri qəbul et! (*Xidmətçilər Feretin işarəsilə hədiyyələri Admetə tərəf aparırlar. Admet əllərini yanına salaraq dinməzcə dayanmışdır*) Qoy bunlar da onunla məzara getsin. Mən onun ruhunu şad etməyə bilmərəm, axı o özünü fəda etməklə bizi ölümdən qurtardı, mənə də son günlərimi sakit yaşamağa və ata olduğumu dərk etməyə imkan verdi. Oğlum, onun bu rəşadəti o qədər böyükdür ki, bu rəşadətdən başqa qadınların da həyatı şöhrətə minir.

Admet işarə ilə hədiyyələri rədd edir. Bu zaman qapıdan dəfn mərasimi görünür, Alkestanın cənazəsi olan mafəni əl üstündə yuxarıya qaldırırlar. Ağlamaq səsləri eşidilir. Əhali və xidmətçilər əllərini Alkestaya tərəf uzadırlar. Feret cənazəyə tərəf bir neçə addım atır, lakin xidmətçilər Admetin işarəsi ilə cənazəni qocadan xeyli uzaqda yerə qoyurlar.

F e r e t (*uzaqdan cənazəyə müraciət edərək*). Ey Admeti və onun valideynini ölümdən xilas edən insan, sənə eşq olsun! Aid məkanına səadət və rəhmət yağsın! (*Təzim edir və əlilə yerə toxunur; sonra qalxıb əhaliyə müraciət edir*) Belə qadınlar xəzinədirlər; başqasına evlənməyin məncə heç mənası yoxdur...

A d m e t (*Alkestanın cənazəsinin qabağını kəsir*). Sən bu matəm mərasimi günündə çağırılmamış qonaqsan, səni mən özümə dost hesab edə bilmərəm, götür, apar bu hədiyyələri! Bu paltar mərhumə ilə bir məzara qoyula bilməz. Halıma yanmaqda gecikmisən. Ey qoca, onda ki ölüm başımın üstünü almışdı, sən gəlmirdin, beş günlük ömrünü məndən əsirgəyirdin. İndi, sənin yolunda məhv olmuş bir gənc üçün göz yaşı tökməyəmi gəlmisən? Camaat içində biabır oldun, sənə mən necə ata deyə bilərəm, qoca? Məni doğduğu üçün fəxr edən o anaya da ana deyə bilərəmmi? O ölərkən kənizin uşaqlarını öz uşağı kimi çağırdı və qucağına aldı. Yoxsa, sən dünyadakı ataların hamısından daha qansızmışsan? İlahi! Bir damla qanı öz doğma oğlundan əsirgəmək, badəni dibinə qədər içmək... Bəli, sən və anam yad bir arvada özünüzü sakitcə dəyişdiniz. Qoy bu gün mən öz ata-anamı da onunla birlikdə dəfn etmiş olum. (*Sükut*) Sənin ömründən az bir şey qalıb. Amma onu fəda etsə idin nə böyük ad çıxarmış olardın... Sən dünyada hər cür ləzzət çəkmisən: gənclikdən hökmdar olmusan, vəliəhdin olub, səndən sonra yerində otura bilən adam olub. Sənə qocalıqda ağ olduğumu, sənə hörmətsizlik etdiyimi də iddia edə bilməzsən. Bəli, mənim qayğılarımın əvəzini anamla sən çox gözəl verdiniz. Ey qoca, tələs ki, yenə də uşağınız olsun; yoxsa səni kim saxlayacaq, öləndə kim dəfn edəcək? Məndən, Admetdən gözünü çək... O, sənin üçün çoxdan qara torpaqlar altındadır. Əgər indi sağamsa, günəşə baxıramsa, bundan ötrü sənin pərəstarın və oğlun olmağa borclu deyiləm. Həmişə belə olur, qocalar ölüm arzulayırlar, ölüm gəldikdə isə heç kəs ölmək istəmir. Qocalıq onlar üçün dərhal bir səadətə çevrilir.

F e r a ğ s a q q a l ı. Yaxşı, bəsdir! Dərdin onsuz da çoxdur. Atanı əsəbiləşdirmə!

F e r e t (*öz həyəcanını boğmaq istəyirmiş kimi, bir qədər yubandıqdan sonra*). Oğlum, bu nə sözdür, sən kiminlə danışırsan? Lidiyadan və Frigiyadan qulmu almısan? Yaddan çıxarma ki, sənin qarşında duran fessaliyalıdır, azad atanın azad oğludur. Məni qaba sözlərlə söyməyə cürətmi edirsən? Mən sənə atalıq edib bəsləmişəm ki, ata evini

sənə tapşırım, yoxsa səni ölümün əlindən satın almaq mənim vəzifəm deyildir. Atalıqda mən belə şey görməmişəm və ellin olduğum üçün əqidəm belədir ki, hər kəsin bəxtinə nə çıxmışsa, o da olacaq. Mən öz vəzifəmi yerinə yetirmişəm: sən böyük hökmdarsan; nəhayətsiz torpaq sahibisən. Atanın nəyi varsa Admetindir. Deyin görüm nədən narazısınız? Səni nədən mərhum etmişəm? Əvəzimə ölməyi mən səndən xahiş etmişəmmi? Heç vaxt! Sən də məndən onu xahiş etmə! Sən yəqin ki, həyatı sevirsən; atanı nə üçün o sevgidən məhrum etmək istəyirsən? (*Sükut*) Bir də ki, bu dünyada az bir müddət yaşamaq bir əsr torpaq altında yaşamaqdan qiymətlidir... Misal – sən özün. Ölümün müddətini uzaqlaşdırmaq üçün talelə şərəfsiz bir mübarizəyə girişdin; indi də arvadını öldürüb, onun hesabına yaşayırsan; igid bir arvada məğlub olduğun halda, məni qorxaqlıqda ittiham edirsən. Heç sözüm yoxdur... vəfalı arvadların sayəsində heç ölmədən, əbədi olaraq yaşaya bilərsən... Hələ bir cürət edib öz günahlarını başqasında axtarırsan da. Sus, oğlum, biz hamımız həyatı sevirik... Sənin ciddi töhmətlərinə mənim cavabım ancaq budur!

F e r a ğ s a q q a l ı. Ata və oğul, siz hududu aşdınız. Qoca, töhmətdən əl çək!

A d m e t. Qoy danışsın, mən də öz sözümü demişəm. Əgər həqiqət yaxşıdırsa, bəs niyə onu belə tapdayıb keçirsən?

F e r e t. Mən öz həyatım bahasına sənə həyat almış olsaydım da, yenə həqiqəti tapdamış olacaqdım, Admet!

A d m e t.Qoca ilə gəncin ölümü birdirmi?

F e r e t. Bizim qəlbimiz birdir, iki deyil.

A d m e t. Elə isə Zevsdən də çox yaşa...

F e r e t. Əgər inciməmişsənsə atanı qarğıma!

A d m e t. Sənin üçün yaşamaqdan şirin şey yoxdur.

F e r e t (*tabutu göstərərək ciddi*). Alkesta kimi əvəzində ölümə gedir?

A d m e t. Qoca, bu işdə sənin də günahın vardır.

F e r e t. Yoxsa, onu mənim yerimə dəfn edirlər, demək istəyirsən?

A d m e t. Ehtimal ki, mən də sənə oxşayacağam.

F e r e t. Tez-tez arvadı dəyiş, özün salamat qalarsan.

A d m e t. Sən utanmalısan. Canını niyə əsirgədin?

F e r e t. Ah, allahın həyat adlı neməti nə gözəldir!

A d m e t. Adını kişi qoymusan? Kişilərin adını batırırsan...

F e r e t. Mən sənin əvəzinə ölsəydim, gülüb məni ələ salacaqdın.

A d m e t. Sən də öləcəksən, amma şərəfsiz öləcəksən.

F e r e t. Şərəf ölünün nəyinə lazımdır?

A d m e t. Ay qoca... sən də heç haya yoxmuş!

F e r e t (*Alkestanın cənazəsini göstərərək*). Bu çox həyalı idi, amma ağılsız idi.

A d m e t. Yalvarıram, get! Qoy ölünü dəfn edim!

F e r e t. Gedərəm! Amma sən arvad qatilisən, Alkestanın intiqamını səndən alacaqlar. İgid Akast bacısının qisasını səndə qoysa, kişi olmaz. (*Öz məiyyəti və hədiyyələri ilə gedir*)

Üçüncü səhnə

Feret və adamları getdikdən sonra.

A d m e t (*Gedənlərin dalınca*). Lənət olsun sənə və sənlə baş bir yastığa qoyan adama, oğlunuz sağ ola-ola siz qoca yaşınızda oğulsuz qalmaq istəyirsiniz. Mənim qapım bundan sonra sizin üzünüzə bağlı olacaqdır. Əgər carçılar vasitəsi ilə ata xanimanından əbədilik əl çəkməli olsam, boyun qaçırmaram. Amma müsibət bizi tələsdirir: mərhuməni odla təqdis etməliyik.

Cənazəni qaldırırlar. Ağlaşma, musiqi.

X o r

Ey gözəl, mərd qadın, əfsus, min əfsus,
Qadınlar içində nəcib bir qadın.
O qaranlıq Aid, o qoca Hermes,
Xoşbəxtlik gətirsin, ucalsın adın.
Ey şanlı Alkesta bizi əfv elə!
Getdiyin aləmdə yaxşılıq varsa,
Sən də nemətindən bir pay alaraq,
Orda məsud yaşa, bəxtiyar yaşa.

Dəfn alayı yavaş-yavaş uzaqlaşır. Xor, orxestri tərk edərək mərasimi təqib edir. Admet qəmgin-qəmgin cənazənin dalınca gedir.

Dördüncü səhnə

X i d m ə t ç i. Mən ömrümdə çox qonaq görmüşəm. Uzaq ölkələrdən Admetin yanına gəlib ziyafət süfrəsində oturublar. Amma belə bir üzlü qonağa rast gəlməmişəm... Görür ki, hökmdar müsibət içindədir, yenə də evə soxulur. Olandan süfrəyə qoyduq. Başqa həyalı bir adam olsaydı, bu müsibətli gündə nə verdilər yeyər, durardı... Amma bu, doymaq bilmir... Nahar qurtaran kimi böyük piyaləni götürüb qara şərabla doldurur və içir, şərabın hərarəti damarlarına yayılana qədər içir. Sonra başına yaşıl mərsin budaqlarından çələng qoyub oxuyur. Lap it kimi hürür... Səslər bir-birinə qarışır. Qonaq Admetin müsibətinə fikir verməyib bağıraraq mahnı oxuyur, biz isə Admetin tapşırığına görə göz yaşlarımızı qonaqdan gizləyərək xanım üçün ağlayırıq. Bir işə bax ki, xanımın hörmətini saxlamağa, onun üçün ağlamağa imkan tapmadan mən lotunun, oğrunun, kələkbazın, bəlkə də soyğunçunun birini yedirib içirməliyəm. (*Ağlayır*) Axı mərhumə biz qullara analıq edərdi, neçə dəfə bizi Admetin qəzəbindən xilas etmişdi. Qonaq vaxtıdırmı?

Beşinci səhnə

Xidmətçi və Herakl. Heraklın başında mərsin yarpaqlarından çələng vardır, gözləri qızarmışdır. Əlində də mərsin budağı və bir piyalə vardır.

H e r a k l. Ey qul, niyə belə qəmgin-qəmgin baxırsan, dərdin nədir? Qonaqlara xidmət edərkən, öz qəmgin sifətinlə onların ovqatını təlx etmə, üzügülər ol! Mən sənin ağanın yoldaşıyam, amma sən burnunu sallayıb dayanmısan, özgənin dərdini çəkmək sənəmi qalıb?.. Gəl öyrən, ağıllı olarsan: heç bilirsənmi həyatımızın mənası nədən ibarətdir? Ey kölə, haradan biləcəksən! Sən hara, belə şeylər hara. Eyibi yoxdur, bilmirsən, öyrən! Bütün yaranmışların sonu qəbirdir və heç kəs bilmir ki, sabaha sağ çıxacaq, ya yox. Tale bizə öz sirlərini öyrətmir; nə elm ilə, nə hiylə ilə onun sirrini açmaq olmur. Bunu düşün və kefində ol. Piyalə əlində ikən bu gündən istifadə et, o sənindir; sabah isə, kim bilir kimindir. Məncə allahlar içərisində insanlar üçün ən dadlısı Kipridadır[12]. Onu qəbul et, başqalarını at getsin. Sözlərim sənə doğru gəlirsə onda mən deyənə qulaq as! Deyəsən mən doğru deyirəm... (*Çələngi və piyaləni ona uzadır*) Gedək mənimlə: başımızı

çələnglərlə bəzəyək, şərab içək, inan ki, səni qəm dəryasından şərabın nəşəli dalğaları və bu piyalə çəkib sahilə çıxaracaqdır. Mənim əqidəmə inanırsansa, sənə deyim: qəmgin adam üçün həyat, həyat deyil, bir əzabdır.

X i d m ə t ç i (*onun verdiklərini rədd edərək*). Bunların hamısını biz bilirik. Amma indi bu evdə şadlıq edib gülmək şərab içmək olmaz.

H e r a k l. Ölən adam ki qohum deyil, yaddır. Doğmalar sağsalamat ikən yasa batmaq nə üçündür?

X i d m ə t ç i. Kimdir sağ-salamat? Bizim müsibətimizi unutdunuzmu?

H e r a k l. Admet mənə müsibət barədə bir söz demədi...

X i d m ə t ç i. Admet qonaqlara çox hörmət edir.

H e r a k l. Özgələrin ölüsü üçün biz ağlamalı ki deyilik.

X i d m ə t ç i. Özgə kimdir? Əfsus ki, özgə deyildir.

H e r a k l. O, öz müsibətini məndən gizlətməmişdir, deyilmi? (*Sükut*)

X i d m ə t ç i. Sən get kefini çək! Biz ağamızın dərdinə şərik oluruq.

H e r a k l. Siz deyəsən özgə müsibətindən danışmırsınız?

X i d m ə t ç i. Əgər elə olsaydı, mən heç acıqlanardımmı?

H e r a k l. Yoxsa ağan öz müsibətini məndən gizlətmişdir?

X i d m ə t ç i (*sükutdan sonra*). Sən bizə yaxşı vaxtda gəlmədin. Bizə böyük bir müsibət üz vermişdir. Görmürsənmi? Hamımız qara geymişik, saçlarımızı kəsdirmişik...

H e r a k l. Ölən kimdir? Qoca atasımı? Oğlumu? Yoxsa qızımı?

X i d m ə t ç i. Ey qonaq, Admetin arvadı ölmüşdür. (*Bir dəqiqə sükut*)

H e r a k l. Nə danışırsan? Mən ölünün yanındamı kef etmişəm?

X i d m ə t ç i. Qapını sənin üzünə bağlamağa utanırdı.

H e r a k l. Ox, zavallı dost! Elə bir arvadı itirmək...

X i d m ə t ç i. O bizim hamımızın bu evdə belimizi sındırdı.

H e r a k l (*xatırlayaraq öz-özünə*). Onun gözlərində yaş vardı. Üzündəki kədəri pərişan saçlarını məndən gizləyə bilməmişdi... Ancaq dedi ki, özgə bir adamı dəfn edirlər. Mən də şübhələnmədim, qapını açıb içəri girdim, dostum dərddən inlədiyi zaman mən içib kefləndim. İndi də başımda çələng vardır... (*Çələngi götürüb qırır və atır*). Ey qul, bu işdə sən də müqəssirsən. Nə üçün müsibəti gizlədirdin? Yaxşı, de görüm, xanımı harada dəfn etdilər? Onu mən harada tapa bilərəm?

X i d m ə t ç i. Larisaya düz bir yol gedir. Şəhərdən çıxan kimi yonulmuş daşdan tabutunu tanıyarsan. (*Evə gedir*)

H e r a k l (*tək*). Ey ürək, sən çox rəşadətlər göstərmisən, sən mənim qüvvətli əlim olmusan. Sən bu gün də tirinfli Alkmenanın allahlar allahı üçün necə bir oğul doğduğunu göstərməlisən. Bu gün soyuq məzara basdırılan qadını bu evə qaytarmalı, dostumu şad etməliyəm. Qara geyimli ölülər padşahının, o iblisin izinə düşməliyəm. Ehtimal ki, onu məzarlar yanında tapa biləm. O yəqin ki, bir az əvvəl kəsilmiş qurbanların qanını içir. Pusquda durub sonra birdən ölümün üzərinə atılaraq qollarından tutacağam. Əlimdən qurtara bilməz, qadını verməyincə buraxmayacağam. Əgər iblisdən iş aşmasa onu öldürüb, yerin altına, dərinliklər hökmdarının və Korun[13] qaranlıq evinə girərəm... Allahlara yalvararam, Alkestanı alıb Admetin ağuşuna qaytararam. Taleyin ağır zərbəsinə məruz qaldığı halda o məni qapısından qaytarmadı, məni nəcib bir qonaq kimi qəbul etdi. Bütün Fessaliyada, bütün Elladada səxavətdə ona bərabər adam yoxdur. And içirəm ki, mən də aciz deyiləm, yaxşılığının əvəzini verəcəyəm. (*Gedir*)

EPİPAROD

Admet ilə xor orxestrə yaxınlaşır.

A d m e t. Əfsus! Əfsus! Evə qayıtmaq bir dəhşətdir! Bu nə görünüşdür! Boş ev nə qorxuncdur! Vay olsun mənim halıma! Mən haraya gedim? Harada özümə sığınacaq tapım? Ağlayım, neyləyim, susum, neyləyim? Talesiz günümə, ah nə deyim, nə! Eh kaş mən öləydim. Ölənlərin halına qibtə edirəm, onların qaranlıq aləmi nə qədər gözəldir. Günəşin işığı məni boğur, ayağımı ayağımdan ata bilmirəm. Ölüm, ağır mübarizədə vəfadarımı əlimdən aldı. Həyatımın ən yaxşı yoldaşı indi Aidlər əlində əsirdir

X o r. Get, bir qədər istirahət et!

A d m e t. Ah, halım yamandır!

X o r. Halına ağlamaq yaraşar.

A d m e t. Ah, halım ağırdır!

X o r. Sənin yolun müsibətlər yoludur. Mən bilirəm.

A d m e t. Ah, əfsus!

X o r. Lakin ölüyə kömək edə bilməzsən.

A d m e t. Əfsus! Əfsus!

X o r. Sevgilinin üzünü bir də görməyəcəksən, bu çox ağırdır.

A d m e t. Bu sözlərlə ürəyimi yaralayırsan. Ər üçün vəfalı bir arvadı itirməkdən böyük dərd olarmı? Kaş mən onunla heç yaşamaya idim; evlənməyənlərə, uşaqsızlara qibtə edirəm. Təkbaşına yaşayanlar dərd yükünü asanlıqla çəkirlər. Bu xəstə uşaqları görərkən, zifaf yatağındakı bu ölüm zərərdidələrini görərkən ürəyim əzilir. Evlənməyənlər ömürlərini asanlıqla başa vururlar.

X o r. Amansız taleyin qurbanısan sən!

A d m e t. Vay mənim halıma!

X o r. Göz yaşıyla dərd azalmaz.

A d m e t. Vay mənim halıma!

X o r. Sənə səbir etməyə qüvvə gərəkdir.

A d m e t. Əfsus! Əfsus!

X o r. Ürəkli ol! Arvadı ölən bir sən deyilsən...

A d m e t. Əfsus! Əfsus!

X o r. Bədbəxtlik insanlara heç vaxt aman vermir, əlinə düşən kimi kəsir.

A d m e t. Torpaq altına gedən rəfiqənin dərdi nə uzun imiş... Niyə məni onunla məzarda qalmağa qoymadın? Niyə qoymadın ki, ən yaxşı bir arvadla soyuq yatağa şərik olam? Bir kölgə əvəzinə Aidə ikisi çatardı, Xaronun gəmisində, onun evində qoşa olardıq...

X o r. Sənə, göz yaşı tökməyə layiq bir əhvalat söyləyim: bir atanın tək bir cavan oğlu ölmüşdü. Atası ər kimi bu müsibətə dözdü; lakin başının tükü qar kimi ağardı, onun da ömrü qüruba tərəf meyl etdi.

A d m e t. Mən bu evə girməyə qorxuram. Mən bu evdə necə yaşayacağam. Taleyim yaman döndü. Yadımdadır Peliy zirvələrindən məşəllər yolumuzu işıqlandırırdı, toy mahnıları oxunurdu... Mən arvadımın qolundan tutub gəlirdim. Dalımızca xor gəlir. Alkesta ilə məni alqışlayırdı. Biz kübar idik. Böyük cah-cəlalımız vardı. Matəm ağlaşması izdivacı əvəz etdi... O cah-cəlalın üstünü qara bir rida örtdü. İndi boş yatağa təkbaşıma sürünürəm.

X o r. Admet, nə qədər ki, dərd sənin yanından ötüb keçərdi, sən özünü, xoşbəxt zənn edərdin. Nə eyibi var? Sən onun həyatını qoruyardın. Sən onun gözəlliyini çox sevərdin... Lakin İblis bir sənin deyil, başqalarının da əziz arvadını əlindən alır.

A d m e t. Dostlarım! Torpaqda yatan qadın öz ərindən xoşbəxtdir. İstər günəş, istər Aid, Alkesta üçün heç fərqli yoxdur, onu daha heç bir

fəlakət qorxuda bilməz: o, hər bir qaygıdan azaddır, o, böyük bir şərəfə nail olmuşdur. Lakin bu baha qiymətə alınmış həyat Admetə nə verdi? Mən indi bu qapıdan içəriyə girəcəyəm... Məni kim qarşılayacaq. Kim salamıma cavab verəcək. Evə getməyim bəs hara gedim? Evə girsəm, boş ev məni geriyə qovacaq; orada arvadımın soyuq yatağı, istəkli kreslosu durur, evlər də süpürülməmiş qalmışdır... Orada uşaqlar ayağıma düşüb analarını çağırır və ağlayırlar. Xidmətçilərin, xanımları üçün inlədiklərini eşidirəm. Evim qəmgindir, adamlar ondan da qəmgindir. Alkestanı mənə xatırladan izdivac və cəmiyyət necə şad ola bilər, necə məni evə cəlb edə bilər?.. Dostlar isə məni görərkən deyəcəklər: "Rüsvayçılıqla həyat qazanmış adam, bax, budur! Özü ölümdən qaçdığı üçün arvadını Aidə verdi. O, özü qorxaq olduğu halda atanasını necə töhmət edə bilər". Bu dedi-qodular Admetin dərdinə bir dərd də artıracaq. Keçmiş səadət və şərəfi geriyə qaytarmaq mümkün deyilsə, o zaman yaşamağın nə mənası vardır?

DÖRDÜNCÜ STASİM

X o r. Allahların sözünə baxaraq ulduzlara qədər qalxdım, bir çox elmlərlə tanış oldum, amma taledən qorxunc bir qüvvə görmədim. Orfeyin canlılar üçün yazdığı lövhədə də taleyə bir əlac yoxdur. Feb nökərləri də Asklepiy də buna bir dərman hazırlaya bilmədilər.

Ona nə məbəd təsir edir, nə qurban. Ey şah hərəmi, yalvarıram, necə vardınsa, elə də qal. Zevs nə arzu edirsə, sənin vasitənlə edir. Taleyi, şöhrəti dəmir kimi əlində əzirsən. Sənin soyuq iradənə təəssüf yabançıdır.

Ey Admet, səni də tale öz yenilməz əlinə aldı. Lakin cəsarətli ol, ağlamaqla ölünü işıqlı dünyaya qaytara bilməyəcəksən... Allahların oğulları da qaranlıq məzarda yatırlar. Alkesta bizim üçün bütün qadınlardan əziz idi. Öləndən sonra da biz onun hörmətini saxlayırıq. Belə nəcib bir qadın hələ dünyaya gəlməmişdir.

Onun məzarı adi məzarlardan deyil, ilahi bir məbəd olacaq... O, bir ziyarətgah sayılacaq. Yoldan keçən müsafirlər onun məzarına baxıb deyəcəklər: "Bu qadın öz ərinin yolunda ölmüşdür, indi isə müqəddəslər içində müqəddəs olmuşdur. Ey Alkesta, bizə də xoşbəxtlik əta et!" Budur, hökmdar hərəminin şöhrəti, Admet!

EKSOD

Herakl soldan gəlir. Onun dalınca gözəl geyinmiş və qara bir örtüyə bürünmüş görkəmli bir qadın daxil olur. Herakl və Admet.

F e r a ğ s a q q a l ı. Ey hökmdar, bir bax, deyəsən Alkmenanın oğludur, bura sənin yanına gəlir.

H e r a k l. Admet, mən istəmədim ki, dostumun evində qonaq qala-qala onun gizlində qəzəb və nifrətinə səbəb olum. Ey hökmdar, yoxsa məni bir dost kimi öz müsibətinə şərik olmağa layiq bilmədin? Alkesta öldüyü halda, sən nə üçün bunu məndən gizlədib, ölən yad adamdır dedin? Yas günündə, məni ziyafət düzəldib key etməyə vadar etdin... Sənin yalanını açdığım üçün səndən inciməli idim. Amma Admet, sənin müsibətinə bir müsibət də artırmaq istəmirəm. Qayıtmağımın səbəbi isə budur. (*Dalınca gələn qadını göstərir*) Bu qadın sənin yanında qalacaq. Mən Frakiyaya gedib, Biston hökmdarını öldürüb onun atlarına sahib olmuş Diomedin yanından qayıdınca bu qadını yanında saxla. Əgər, allah eləməmiş, qayıtmasam, qoy bu qadın sənin kənizin olsun. Onu çox çətinliklə qazanmışam. Güləşmə yarışında birincilik qazandığım üçün onu şərəfli bir mükafat almışam. Əvvəlki yarışlar yüngül idi, qazananlara at bağışlayırdılar; sonra bir qədər çətin yarışlar başlandı, güləşmədə və yumruq döyüşündə qazananlara sürülərlə öküz bağışlayırdılar. Axırıncı mükafat qadın idi. Belə gözəl bir mükafatı almamaq ayıb olardı, fürsət vardı, mən də aldım. Admet, onu qoru sonra bir gün bəlkə özün mənə təşəkkür etdin.

A d m e t (*əlilə onun təklifini rədd edərək*). Mən Heraklı təhqir etməyi ağlıma belə getirməzdim... Belə də düşmən olarmı? Arvadımın ölümünü səndən gizlətməyimin səbəbi, qonağı qapımdan rədd etməklə özüm üçün yeni bir dərd artırmaq istəməməyim idi. Mən öz ailə müsibətimə şərik olmağa yoldaş axtarmırdım. Bunu isə (*bir qədər qorxu ilə qadını göstərir*) başqasına ver, rica edirəm! Elə fessaliyalı tap ki, o bu gün öz arvadını defn etməmiş olsun. Yaralarımı təzələmə! Göz yaşları tökmədən ona baxa bilmərəm... Evdə öz bədbəxtliyim özümə bəsdir... Tale mənə etdiyini etmişdir... Və bir də, mən onu harada saxlayacağam? O, gəncdir... (*Kənizə diqqət edir*) Gəncdir, əlbəttə... Bu nə paltardır?! Bu nə dəbdəbəli geyimdir?! Bunu kişilərin yanında saxlamaq olmaz. Onların yanında yaşasa təmiz qalmaz. Gəncləri saxlamaq olarmı? Sən özün də onunla bir yerdə olsaydın... Yoxsa onun üçün arvadımın otağını açmağı əmr edirsən? Alkestanın otağını bir

kənizə verməyə cürət edərəmmi? Elə etsəm, hər tərəfdən üstümə töhmətlər, böhtanlar yağar, məni xilas edən qadına xəyanət etdiyimi güman edərlər... Hərəmimin xatirəsini mən xalq arasında təmiz saxlamağa çalışmalıyam. Onu unutmaq olarmı? Yox, yox! Sən isə ey kəniz... kim olduğunu bilmirəm, amma sən mənə Alkestanı xatırladırsan. Lap o boyda, o qamətdə. Vay olsun mənim halıma! (*Herakla*) Allahlar xatirinə, tez bunu mənim gözlərimdən uzaqlaşdır. Ölmüş adamı bir də yenidən öldürmə! Mənə elə gəldi ki, mən Alkestanın kölgəsini gördüm. Mühakiməm dumanlanır, gözlərimdən sellər axır, yaralarım yenidən açılır. Mənə yazığın gəlsin... (*Ağlayır*)

F e r a ğ s a q q a l ı. Taleyə rəhmət oxumuram, ancaq allah verənə qane ol!..

H e r a k l. Admet, kaş məndə elə bir qüdrət olaydı ki, sənin arvadını yerin dibindən allahın işıqlı dünyasına çıxarıb səni sevindirə idim.

A d m e t. Sən bunu arzu edərsən, bilirəm. Amma hanı? Bu dünyada ölüləri diriltmirlər...

H e r a k l. Qane ol, bəxtindən küsmə!..

A d m e t. Ey qoçaq, səbir etmək məsləhət verməkdən çətindir.

H e r a k l. Ey hökmdar, göz yaşından özümüzə yeni bir tale yarada bilmərik.

A d m e t. Əlbəttə, bilmərik. Ancaq göz yaşları məhəbbətdən doğur.

H e r a k l. Əlbəttə, ölüləri göz yaşsız sevmək olmaz...

A d m e t. Mənim müsibətimi ifadə edəcək söz yoxdur, Herakl!

H e r a k l. Sən misilsiz bir arvadı itirdin...

A d m e t. Onunla birlikdə həyatımın sevincini də həmişəlik itirdim.

H e r a k l. İndi dərdin təzədir; illər keçər, yumşalar

A d m e t. İllər nə üçün... Qısaca – ölüm desənə...

H e r a k l (*yoxlamaq məqsədilə*). Yeni arvad, yeni toy da dərdi yumşaldar.

A d m e t. Nə danışırsan? Sus! Mən o fikrə düşmərəm...

H e r a k l. Evlənməyəcəksən? Həmişə dul qalacaqsan?

A d m e t. Mənimlə evlənəcək qadın hələ anadan olmamışdır...

H e r a k l. Nə olsun? Ölüyə bunun nə faydası?

A d m e t. Harada olur-olsun mən ona hörmət etməliyəm.

H e r a k l. Burada ağıldan artıq alicənablıq vardır.

A d m e t. Qoy elə olsun, hər halda mən artıq evlənəsi deyiləm.

H e r a k l (*ciddi və səmimi*). Sən ölən qadının vəfalı dostusan, çox vəfalısan!

A d m e t. Dostluqda xəyanət edənin cəzası ölümdür.

H e r a k l (*kənizi göstərərək*). Nəcib evinə bu qadını qəbul et!

A d m e t. Yox, yox, səni Zevsə and verirəm!

H e r a k l. Rədd etdiyin üçün sonra peşman olarsan hökmdar!

A d m e t. Əgər qəbul etsən, ürəyim parçalanar...

H e r a k l. Sözümə qulaq as! Sonra özün də şad olarsan.

A d m e t. Əfsus! Sən bu mükafatı nə üçün aldın?

H e r a k l. Əziz dostumla bölüşmək üçün.

A d m e t. Çox sağ ol! Ancaq onu buradan uzaqlaşdır!

H e r a k l. Əgər lazım gələydi, uzaqlaşdırardım; lakin lazımdırmı, bir düşün?

A d m e t. Acığın gəlməsin. İnandırıram ki, lazımdır.

H e r a k l. Mən də nahaq yerə inad etmirəm.

A d m e t. Mən razı olsam da, könülsüz razı oluram.

H e r a k l. Razı ol, sonra mənə təşəkkür edəcəksən.

A d m e t (*xidmətçilərə*). Ey, bu qonağı içəriyə aparın!

H e r a k l. Mən olsaydım, onu xidmətçilərə tapşırmazdım.

A d m e t. Elə isə, buyur özün içəri apar.

H e r a k l (*təsirli*). Onu əlbəəl sənə təslim etmək istəyirəm.

A d m e t (*səbirsizliklə*). Mən ona əl vurmaram, qoy özü getsin.

H e r a k l. Mən onu sənin əlinə tapşırıram.

A d m e t. Güc hakimdir. Admet burada acizdir.

H e r a k l. Əlini ona toxundur, ancaq toxundur!

A d m e t (*əlini uzadır, üzünü isə kənara tutur*). Qorqonu[14] öldürən adam kimi toxunuram.

H e r a k l. Əlini tutdunmu?

A d m e t. Tutdum!

H e r a k l (*qadının üzündən örtüyü çəkir*). Elə isə yaxşı saxla! Bundan sonra Zevsin oğlunu özünə alicənab bir qonaq hesab et! Bax, gör kimdir? Kimə bənzəyir? Göz yaşlarını sil!

A d m e t (*bir dəqiqəlik sükutdan sonra*). Ey allahlar!.. Yox, yox!.. Bu möcüzmüdür!.. Bu Alkestadır! Mənimlə allahlar zarafatmı edir?

H e r a k l. Yox, bu sənin həqiqi arvadındır, Alkestadır!

A d m e t. Herakl, bu Alkestanın xəyalı deyil ki, bir bax!

H e r a k l. Admet, sənin qonağın ruhlar padşahı deyildir.

A d m e t. Alkestanı mən özüm dəfn etməmişdimmi?

H e r a k l. Bəli, dostum, sən doğru deyirsən, çox qəribədir...

A d m e t. Diriyəmi toxunuram. Diriyləmi danışıram?

H e r a k l. Nə istəyirdinsə hamısına nail oldun.

A d m e t (*hərəkətsiz, saralmış və dinməz dayanan Alkestanı qucaqlayır*). Ah, mehriban vücud! Gözəl qadın!.. Səni bir də görəcəyimi təsəvvür edə bilərdimmi?

H e r a k l. O sənindir! Allah sizə xeyir-dua versin.

A d m e t. Ey böyük Kronkdin[15] oğlu, ey qonaq, xoşbəxt ol, səni atamız öz pənahında saxlasın! Sən mənim evimi yenidən tikdin. Axı sən bunu necə etdin?

H e r a k l. Ölüm iblisi ilə əlbəyaxa vuruşuna girişdim.

A d m e t. Ölüm iblisi ilə sən harada vuruşdun?

H e r a k l. Məzarın yanında pusqudan çıxıb onun üzərinə atıldım və əllərindən tutdum.

A d m e t. Bəs nə üçün o danışmır.

H e r a k l. O hələlik yer altı allahların ixtiyarındadır. Onun səsini eşitmək üçün o təmizlənməlidir, üç dəfə günəş doğub batmalıdır. Apar onu evə, Admet! Özün isə həmişə ədalətli ol və qonağa hörmət et! Mən getməliyəm. Görəcək işlərim vardır: hökmdar Evrisfeyin tapşırığını yerinə yetirməliyəm.

A d m e t. Qal burada, əziz qonağım ol!

H e r a k l. Yox, başqa vaxt gələrəm. İş məni gözləyir.

A d m e t. Elə isə yaxşı yol, sağlıqla qayıdasan! (*Herakl gedir*) Siz də, ey mənim əyalət və şəhər vətəndaşlarım, bu xoşbəxtliyi şənliklə, xorlarla keçirin. Qoyun məbədlərdə allahlar şərəfinə yağlar yanıb tüstüləsin. Mən göylərin həsədindən qorxmuram və güneşə deyirəm: "Bax, mən xoşbəxtəm!"

Sevinc alqışları altında Alkesta ilə bərabər evə girir. Güneşin son şüaları görünür.

X o r

(*marş mahnısının müntəzəm səsi altında uzaqlaşaraq*)

Fələyin cürbəcür oyunları var:
Onu fəhm eyləməz adi bir insan.
Ümidlər məhv olur tapmadan əncam,
Ümidlər doğrulur heç umulmadan,
Burda dramımız qoy olsun tamam...

S o n

MEDEYA

İŞTİRAK EDƏNLƏR:

M e d e y a – Yazonun zövcəsi, Kolxida hökmdarının qızı
Y a z o n – Arqonluların sərkərdəsi
B i r i n c i o ğ u l, İ k i n c i o ğ u l – Medeyanın oğlanları
K r e o n t – Korinf hökmdarı
E g e y – Afina hökmdarı
M e d e y a n ı n d a y ə s i
M e d e y a n ı n o ğ l a n l a r ı n ı n mürəbbisi
Q a s i d
K o r i n f l i q ı z l a r x o r u

Əhvalat Korinfdə, hökmdar Kreonun sarayı önündə vaqe olur.

PROLOQ

D a y ə. Ah, kaş ki, cəsur arqonlular gəmilərini Simpleqadın[16] lacivərd sularından sürüb uzaq Kolxidaya getməyə idilər! Kaş ki, Pelion[17] vadilərində şam ağacları bitməyə idi. Mərd igidlər onlardan kürək qayırmayıb həşəmətli Peley[18] üçün qızıl dəri ardınca getməyə idilər!

Onda mənim sevimli məlikəm Medeya çılğın bir sövdaya düşüb İolka[19] gəlməzdi. Peleyin bədbəxt qızlarını ata qətlinə təhrik etməzdi, balalarını götürüb Korinfə qaçmazdı, ehtiras əsiri olub xalqın mərhəmətinə möhtac qalmazdı. Ax, bu dünyada ər-arvad arasında ülfət və ünsiyyətdən yaxşı şey varmı?

Artıq hər şey məhv olub getdi. Yazon öz arvad uşaqlarına nifrət edir, Korinf hökmdarı Kreonun qızına məftun olmuş, onunla evlənmək fikrinə düşmüşdür... Zavallı Medeya ərinin onunla əhd-peymanlarını ah-zar ilə yad edir, allahları şahid çağırır. Gecə-gündüz yeməyib-içməyib qəmdən-qüssədən boğulur. Başını aşağı salıb gözlərini də qaldırmır. Dostların təsəlilərinə cansız bir qaya, coşqun bir dalğa kimi laqeyd və biganədir. Qar kimi ağappaq boynunu əyib iztirablar içində gözəl vətənini, əziz dostlarını, xain bir ər üçün aldadıb tərk etdiyi mehriban atasını yad edir. Yalnız indi hicran əzabları içində, əziz vətən torpağında yaşamağın nə böyük bir səadət olduğunu dərk edir. Öz doğma balalarına nifrət edir...

Aman, nə dəhşət! Yəqin Medeyanın məşum bir məqsədi var: mən onu yaxşı tanıyıram, o belə bir həqarəti əfv edən deyil. Ax, qorxum

budur ki, məlikəm iti xəncəri qəlbinə soxub özünü həlak etsin və ya gizlincə içəri girib fəlakətlər törətsin. Mən Medeyanın qəlbinə, ruhuna bələdəm: o, məğrur və kinlidir. Düşmənlərinə mübarizəsiz baş əyən deyil! (*Uzaqdan mürəbbi Medeyanın iki oğlu ilə görünür*) Ax, budur, uşaqlar məktəbdən gəlirlər. Yazıqlar başlarına gələcək fəlakətdən bixəbər, nə qədər də şəndirlər. Bəli, gənclik qəm-qüssəyə yaddır!

Mürəbbi uşaqlarla birlikdə daxil olur.

M ü r ə b b i. Ey məlikəmin mehriban və əziz xidmətçisi, söylə görüm bu qapının ağzında nəyə belə tək-tənha durub acı xəyallara qərq olubsan? Necə olub ki, Medeya sənsiz tək qalıb?

D a y ə. Ey Yazon oğullarının mürəbbisi, bilirsən ki, sadiq xidmətkarlar üçün sevimli ağalarının dərdindən böyük dərd yoxdur. Nəcabətli məlikəmizin başına gələn fəlakətlər məni elə bir dərdə salıb ki, burada, yerin-göyün hüzurunda ah-zar il ürəyimi boşaldıram.

M ü r ə b b i. Ax, bədbəxt məlikəmiz hələ də ağlamaqdan əl çəkmirmi?

D a y ə. Yox, yox, onun dərdi, qəmi, ah-zarı get-gedə daha da şiddətlənir.

M ü r ə b b i. Dilim-ağzım qurusun, o bədbəxtin yeni fəlakətlərdən hələ xəbəri yoxdur!

D a y ə. Nə olub ki, tez ol söylə, məni üzmə, qoca!

M ü r ə b b i. Heç bir şey... qorxuram ki, dediyimə də peşman olam.

D a y ə. Mən ki fəlakət yoldaşınam, məndən çəkinmə, and verirəm, söylə, əmin ol, mən sirr saxlamağı bacarıram.

M ü r ə b b i. Eləsə, qulaq as. Bir dəfə gizlincə pusub dinlədim. Pirrena bulağı[20] başında rəislər aşıq atıb söhbət edirdilər ki, hökmdar Kreon Medeyanı uşaqlarilə birgə Korinfdən qovacaqdır. Bilmirəm əsli var, ya yox, allah eləsin ki, yalan olsun.

D a y ə. Yazon buna razı olarmı? Axı arvadilə küsülü olsa da, uşaqlar ki, öz doğma balalarıdır?

M ü r ə b b i. Ancaq eşqin təzəsi köhnəsindən güclü olar. Yazondan daha ailə məhəbbəti gözləmə!

D a y ə. Aman allah! Dərdimiz az idi, bu da bir dərd!

M ü r ə b b i. Gərək məlikə bundan xəbərdar olmasın. Bu sirri ona söyləmə ha!

D a y ə (*Medeyanın uşaqlarına*). Ax, yazıq balalar. Bir görün atanız nə işlər görür! Mən onu qarğıya bilmərəm, Yazon mənim ağamdır. Ancaq düzünə qalsa, yaxşı iş görmür!

M ü r ə b b i. Ah, insanlar hamısı belədir. Bəs sən hələ bilmirsən ki, insan xudbindir? Biz özümüzü ən yaxın adamlarımızdan da çox istəyirik, kimi bunu nəcabətlə büruzə verir, kimi xəyanətlə; görürsən ki, ata yeni bir arvad alıb öz əvvəlki oğul-uşağını da atır.

D a y ə (*Medeyanın uşaqlarına*). Gedin, əziz balalar, gedin evə, allahlar özləri sizə rəhm eləsin! (*Mürəbbiyə*) Sənin gözün onların üstündə olsun. Anaları kindən, qəzəbdən nə etdiyini bilmir. Uşaqları ona yaxın qoyma. Bir dəfə özüm gördüm ki, o, öz balalarına azğın və qəzəbli nəzərlərlə baxırdı, elə bil ki, onlarçın məşum bir fikri vardı. Medeyanın qəzəbi qansız-qadasız soyumayacaqdır. Xatası düşmənlərin başına, dostlardan iraq olsun!

M e d e y a (*saraydan*). Eyvah! Eyvah! Ağlamaqdan-sızlamaqdan zara gəldim... Fəryadımın sonu yox... ah, kaş ki ölüb qurtaraydım!..

D a y ə. Eşidirmisiniz, balalar? O, sizin ananızdır. İndi o yaman dərdlidir, yaman acıqlıdır... Tez olun, qaçıb sarayda gizlənsin. (*Uşaqlar gedirlər*). Ax, bu qəm-qüssə bir bulud kimi artıb coşacaq, bir fırtına qopacaq... Kim bilir, onun bu sonsuz müdhiş qəzəbi nə bəlalar törədəcək!

M e d e y a (*sarayın içindən*). Aman bu dərdin əlindən!.. Aman! O qədər dərdim var ki, nə qədər fəryad etsəm, yeridir. (*Öz oğullarını görərək*) Ah, bədbəxt ananın bədbəxt balaları! Siz də, atanız da allahların lənətinə gələsiniz! Evimiz yıxılsın, bütün ailəmiz puç olsun, puç!

D a y ə. Elə demə, məlikəm, elə demə!.. Bu nə sözlərdir? Axı sən ki, anasan! Ataları xain çıxıbsa, yazıq uşaqların nə günahı var?

Aman, nə dəhşət... yazıq balalarım, kim bilir, başınıza nələr gələcək! Ax, bu hökmdarların çılğın iradələri nə müdhişdir! Onlar öz ehtiraslarına qalib gələ bilmirlər. Qulları həddindən çox, qarşılarında duracaq kimsə yox! Yox, yox, mən əminəm ki, qanun qarşısında hamı bərabərdir. Arzum bu idi ki, qocalıq günlərimi təntənə və dəbdəbədən, hökmdarlardan uzaq bir guşədə sakit və asudə keçirə idim. Zira həqiqəti dildə tərifləmək yaxşıdırsa, işdə göstərmək daha xoşdur... hər bir şey həddini aşanda fəlakət gətirir. İnsan nə qədər məğrur olarsa, allahların qəzəbi də, cəzası da o qədər böyük və amansız olur...

PAROD

X o r

Eşitdik biz, eşitdik Kolxida məlikəsi,
Ağlayırdı, zavallı... ürək dəlirdi səsi.
Yoxmu dərdinə dərman?
Ey dayə, danış bizə onun hekayətini,
Eşitdik naləsini, odlu şikayətini,
Nədir bu ah-əfğan?
İnan ki, biz yanırıq məlikənin halına,
Dostuq nəcib nəslinin şəninə, cəlalına,
İnan, ey dayə, inan!..

D a y ə (*xora müraciətlə*). Hanı o şərəfli nəsil, şanlı xaniman?! Hər şey məhv oldu. Əri hökmdar qızının, öz məşuqəsinin yanına getdi. Yazıq arvad tək-tənha əzab içində ölür... Yox, yox, bu dərdə heç bir dost, heç bir nəsihət təsəlli ola bilməz!

M e d e y a (*saraydan*). Aman! Uf! Aman! Haradadır göylərin şimşəkləri, ildırımları, bir zərbədə məni bu işgəncədən qurtarsınlar! Nəyə gərəkdir artıq bu həyat? Ax, haradasan, ey sakit ölüm, haradasan, ey məni bu əzablardan qurtaracaq xilaskar ölüm?!

X o r

STROF

Ey günəş, ey asiman, ey torpaq, ey allahlar,
O bədbəxt məlikənin etdiyin bu ah-zar
Tapdanmış bir vüqarın nifrinidir, çarəsiz...
Aman, bu qarğışları qəbul eləməyin siz!
Medeya, ey məlikə, söylə görək nədir bu?
İzdivac bəstərinə belə çılğın bir arzu?
Bu həvəs, bu ehtiras nədir ki, bu yolda sən
Vaxtsız məşum ölümü özün dəvət edirsən?!
Bəsdir, nifrini burax, yersiz qarğışdan əl çək!
Sənin vəfasız ərin evlənirsə də gerçək,
Nə olar, bir adətdir, taleyə baş əy, ram ol,
Xain çatar cəzaya, sən ağlama, aram ol!..

M e d e y a (*saraydan*). Ax, ey xilaskar Femida[21], ey məsum Artemida! Bir görün allahın lənətinə gəlmiş xaindən nələr çəkirəm! O xain ki, mənim ərim idi, o xain ki, müqəddəs əhdü-peyman etmiş idi!

İntiqam istəyirəm, intiqam! Onları görüm ki, evləri başlarına uçsun, onları görüm ki, bəylik-gəlinlik yatağında qoşa ölsünlər!

Ax, atacan, ax, ey vətən, öz doğma qardaşımı öldürüb sizi tərk etdim, sizə xain çıxdım!..

D a y ə (*xora müraciətlə*). Eşidirsiniz? Məlikə əhdü-peyman hamisi Zevsi, nəcabətli Femidanı dada çağırır. İndi əmin olun ki, onun qəlbindəki kin və qəzəb odlarını yalnız böyük və müdhiş bir intiqam söndürə bilər!

X o r

ANTİSTROF

Nə olardı Medeya çıxıb gələydi bir an,
Biz onun dərdlərinə edəydik bari dərman.
Ağıllı məsləhətlər, şirin nəvazişlərlə
Küskün, dərdli qəlbini bəlkə alaydıq ələ.
Ey bacılar, biz onun halına qalmalıyıq.
Dostumuzu pis gündə dərddən qurtarmalıyıq.
Tez çağır gəlsin bura o bədbəxt məlikəni,
Söylə ki, bacıların orda gözləyir səni.
Tez ol, yoxsa amandır, iş işdən keçmiş olar.
Aldanmış bir qadının qəzəbi müdhiş olar!..

D a y ə (*xora müraciətlə*). Bütün dediklərinizi məmnuniyyətlə edərəm. Ancaq qorxuram ki, onu inandıra bilmərəm. Məlikə balalarını qoruyan dişi bir aslan kimi qorxunc və qəzəblidir. Kimsəni yaxın qoymur. Kimsəni dinləmir.

Ax, insanlar, insanlar! Sizlər dəli deyilmisiniz? Siz şən ziyafət məclisləri üçün nə şirin sözlər, nə gözəl nəğmələr qoşubsunuz... insanların böyük əzab və iztirablarını isə, hələ heç bir kimsə ahəngdar rübab və şirin nəğmələrlə təskin edə bilmir. Odur ki, ədavət və ölüm evinizi yıxır. Ax, nə olardı ki, zərif ahəngdar nəğmələr ilə insan qəlbinə əlac edə bilərdiniz!

Şən ziyafətlərdə nəğməyə nə ehtiyac var ki? Onsuz da bol şərab, dadlı yeməklər hamını şad və məmnun etmirmi?

X o r

Ey cəfakeş Medeya, eşitdik naləni biz,
İzdivac bəstərinə xain çıxmış o xəbis...
Çatsın deyə o alçaq cürmünün cəzasına,
Yalvarırsan Zevsin o himayəkar qızına –
İnsanların andını qoruyan ilahiyə,
İntiqam alsın deyə...
Sən ki o zülmət gecə qorxunc Pontdan[22] aşanda,
Təhlükəli dənizlər keçib tənha qaçanda,
Femida olmuş idi səni himayə edən,
İndi, bu pis günündə nalə – nifrin edib sən,
Yalvarırsan o munis, mehriban ilahəyə,
İntiqam alsın deyə...

BİRİNCİ EPİSODİ

Medeya saraydan çıxır.

M e d e y a (*xora müraciətlə*). Ey nəcabətli Korinf arvadları! Mən hüzurunuza gəldim ki, sonra məni məzəmmət etməyəsiniz: bilirəm ki, dostlarının sözünü dinləməyən adam, özü bilmədən onlara düşmən, onların hörmət və məhəbbətindən məhrum olur. Bilirəm ki, insanın gözü bəzən həqiqəti görmür: çox zaman biz başqasının qəlbinə vaqif olmadan, bizə heç bir pislik etməmiş adamlardan ilk baxışda nifrət edirik. Qərib bir adam isə, hörmət və mərhəmətə hamıdan daha çox möhtacdır. Ancaq öz vətənində də vətəndaşlarına həqarətlə baxan, onlarla qaba rəftar edənlər tərifə layiq deyil...

Buyurun, bütün həqiqəti açıb sizə söyləyim: başıma ansızın elə bir fəlakət gəlib ki, həyatdan bizar olmuşam, özüm ölüm istəyirəm. Mənim könül verib sevdiyim, həyatımda mənə hamıdan əziz olan ərim ən murdar bir xəyanət işləmişdir.

Biz qadınlar bütün məxluqatın içində ən bədbəxt yaranmışıq... Biz əvvəlcə qızıl verib özümüzə ər alırıq, bədənimizi bir qul kimi onun ixtiyarına veririk. Sonra da, bütün fəlakətlərin səbəbi budur ki, – böyük bir şübhə içində qalırıq, görəsən ərimiz necə adam olacaq, layiqmi, yoxsa rəzil bir alçaqmı?

Çünki nə olur-olsun, daha ondan ayrıla bilmərik: boşanmaq namussuzluqdur!

Bu məchul aləmə qədəm qoyduqdan sonra, atamız evində gördüyümüz bütün naz və nemət unudub əlimizdən gələn qədər ərimizə yaranmalı, yaltaqlanmalıyıq. Hələ bütün bu ciddi-cəhdimiz boşa getməsə, ərimiz bu qulluğu qəbul etsə nə yaxşı! Bu da olmasa, – ölüm vacibdir!

Evində xoşnud olmayan kişi baş götürüb dostlarının, yoldaşlarının yanına gedir ki, dərdini-qəmini dağıtsın, ürəyi açılsın. Arvadın isə bircə təsəllisi, bircə sevinci var, – o da əri!

Bizə söyləyirlər ki, kişilər bizi qorumaqçın dava meydanlarında vuruşur, savaşır, amma biz evdə rahat, asudə ömür sürürük, bu yalandır, yalan! Mən bir dəfə doğmaqdansa, on dəfə qalxan alıb vuruşmağa razıyam...

Ancaq yenə də sizin taleyiniz mənimkindən yaxşıdır: sizin evinizeşiyiniz var, vətəniniz var, həyatdan məmnunsunuz, sevən dostlarınız var. Mən isə, vətəndən didərgin düşmüş, əri tərəfindən tərk edilib atılmış bədbəxt bir qəribəm: nə anam, nə qardaşım, nə dostlarım var ki, təsəlli verib dərdimə şərik olsunlar...

Ah, ey mehriban rəfiqələrim, sizə yalvarıram: xain ərimdən, qızın atasından və ya özündən intiqam almaq istəsəm, mənim işimin üstünü açmayın, səsinizi çıxarmayın!

Biz arvadlar çox ürəyi yumşaq adamlarıq, qan və qılınc görəndə, dözə bilmirik... ancaq ailə yatağımızda bizim qadınlıq haqqımıza təcavüz ediləndə qəzəbimiz qorxunc və amansız olur!

X o r

Səni vermərik ələ, dərdin bizə bəllidir:
Haqqın da var, intiqam – yeganə təsəllidir!
Yavaş!.. Bura gəlir, bax, Kreon, o hökmdar,
İndi söyləyər görək nə fikri, nə hökmü var...

Kreon daxil olur.

K r e o n. Ey qara gözlü sehrbaz əcuzə, sənə əmr edirəm. Hər iki uşağınla təxirsiz mənim torpaqlarımdan rədd ol! Hökmü özüm yerinə yetirəcəyəm. Sən şəhərdən çıxmayınca evə qayıtmayacağam...

M e d e y a. Hər şey bitdi! Son saatım çatdı. Düşmənlər addım-addım məni izləyir, gizlənməyə yerim də yox... (*Kreona*) Mənim ki, bir günahım yoxdur. Məni niyə qovursan?

K r e o n. Nə üçün gizlədim, sözün düzü, səndən qorxuram. Qorxuram sehr və tilsimlə qızımı həlak edəsən. Buna haqqım da var. Ərin əlindən çıxdığı üçün ürəyin yaralı, özün də pislik etməkdə mahirsən! Şəhərdə hamı danışır ki, məndən də, qızımdan da, nişanlısından da intiqam almaq fikrindəsən. Səninlə açıq mübarizəyə girişib əzizlərimi və evimi qorumaq istəyirəm ki, iş-işdən keçəndən sonra peşmanlıq çəkməyim... Anladınmı, ey qadın?

M e d e y a. Heyhat! Heyhat! Bu saxta şöhrət ilk dəfə deyil ki, başıma fəlakət gətirir. Ağıllı bir ata gərək övladlarının fikrini həddindən artıq biliklə yormaya... Biliklə çox məşğul olanlar cahillərin həsəd və kininə hədəf olurlar. Axmaqlara yeni bir fikir söyləsən, səni dəli sayarlar, qara camaat arasında həqiqi alimlərdən çox şöhrət qazansan, deyəcəklər ki, o, xalq üçün qorxuludur.

Mənim taleyim belədir, Kreon: biliyim başıma bəla olub, biliyimə görə mənə kin bəsləyirlər. Kimi mənə qəddar deyir, kimi axmaq, kimi ağıllı... ancaq mənim nə biliyim var?.. Ah, ey hökmdar, səndəmi hamı kimi zənn edirsən ki, biliyimlə bir Adama ziyan yetirə bilərəm? Məndən qorxma, hökmdar, axmaqların sözlərinə inanma! Hökmdarlarla bəhsə girişmək qadına yaraşan bir işmidir?

Axı sən mənə nə pislik edibsən ki? Öz qızını istədiyin adama verməyə haqqın yoxmudur? Mən nifrət eləsəm də, səndən yox, ərimdən nifrət edə bilərəm. Sən ki ağıllı iş görübsən. İnan ki, səndən əsla narazı deyiləm. Ey hökmdar, allah səni də, qızını da xoşbəxt eləsin!

Səndən bircə ricam var: icazə ver, sənin ölkəndə qalım... Əgər bizə bir pislik eləmiş olsan da, dözmək və sənin hökmünə itaət etmək borcumuzdur.

K r e o n. Sözlərin itaətkaranədir, ancaq qorxuram ki, ürəyin kinlə dolu ola? Sözlərinə əvvəlkindən də az inanıram. Qəzəblərini cürətlə büruzə verən ərlərdən də, arvadlardan da qorunmaq asandır, amma kinini ağlı ilə pərdələyib lal görünənlər çox qorxuludurlar. Tez şəhərdən rədd ol, boş yerə uzun danışma, mən belə əmr edirəm! Heç bir hiylə ilə məni aldada bilməzsən. Bilirəm ki, sən mənə düşmənsən!

M e d e y a. Ayaqlarına düşüb səni qızının gəlinlik çələnginə and verirəm!

K r e o n. Rədd ol, məndən əl çək, nahaq yalvarma!

M e d e y a. Ah, ricamı dinləmirsənmi? Rəhmin gəlmirmi?

K r e o n. Sənə öz qızımızdan artıqmı rəhmim gələcək?

M e d e y a. Ah, ey vətən nə yaman günlərə qaldım bu qürbət eldə!

K r e o n. Mənim üçün də vətənim, ata ocağım, balalarım daha əzizdir.

M e d e y a. Ah, eşq bu dünya üçün nə böyük bir fəlakət imiş!

K r e o n. Kiminə fəlakətdir, kiminə səadət... bəxtəbəxtdir!

M e d e y a. Allah rəzilin cəzasını verər!

K r e o n. Rədd ol, hərzəkar, daha təhəmmülüm qalmadı!

M e d e y a. Təhəmmül edən sən deyilsən, mənəm!

K r e o n. Qullara əmr edərəm, əl-qolunu bağlarlar!

M e d e y a. Ah, ey hökmdar, yalvarıram, sözlərimi dinlə!

K r e o n. Bəsdir, məni qəzəbləndirmə!

M e d e y a. Gedirəm, gedirəm, qorxma, başqa bir ricam var...

K r e o n. Bəs niyə durmusan? Məndən nə istəyirsən?

M e d e y a. Bircə gün, tək bircə gün möhlət ver ki, uşaqlarım üçün qürbətdə bir sığınacaq yer tapım. Ataları onları atmış... Ah, anaya rəhmin gəlsin, hökmdar, axı sənin də balan var, sən özün də atasan. Mənə qarşı amansız olma! Görürsən ki, mən özüm üçün yox, bədbəxt uşaqlar üçün yalvarıram!

K r e o n. Yaxşı, hərçənd insanlardan yaxşılıq əvəzinə daima yamanlıq görmüşəm, ancaq mən daş qəlbli deyiləm. İndi də, qadın, bilirəm ki, sənə güzəşt etməklə səhv iş görürəm, ancaq ricanı qəbul edirəm. Sən deyən olsun. Amma özünü gözlə, şəfəq söküləndə səni və uşaqları öz ölkəmdə görsəm, öldürəcəyəm!.. Get, unutma ki, sözümüz sözdür! Sənə bircə gün möhlət verirəm. Bu qısa müddətdə böyük bir yamanlıq etməyə fürsət tapmazsan. (*Kreon gedir*)

X o r

Ah, ey zavallı qadın, yanırıq halına biz,
Qürbət yer, iki uşaq, yazıq ana kimsəsiz...
Əsrarəngiz bəlalar girdabına düşdün, ah,
Gör nə işlər gətirir başına zalım allah!..

M e d e y a (*xora müraciətlə*). Doğrudur, mən həqir oldum, alçaldım; ancaq bilin ki, ruhdan düşməmişəm, yox, yox! Görün, gəlinin də, bəyin də, onları birləşdirənin də başlarına gətirəcəyəm! Yoxsa elə güman edirsiniz ki, mən ona boş yerə yalvarıb-yaxarırdım?

Mən əlimin ona toxunmaqla, dodaqlarımın ona yalvarmaqla ləkələnməsinə razı olardımmı? O axmaq o qədər sadədildir ki, mənə bir gün möhlət verdi. Halbuki rədd etməklə mənim bütün arzu və əməllərimi boşa çıxara bilərdi.

Bircə gün... Bu bircə gün içində hər üç xaini: atanı da, qızını da, ərimi də öldürməyə fürsət taparam. Onları həlak etmək üçün çox yollar var. Amma ey əzizlərim, hələ bilmirəm hansı yaxşıdır: gəlinlə bəyin yatacağı qəsrimi yandırım, yoxsa gizlincə onların yataqlarına soxulub hər ikisinin qəlbinə xəncərimi saplayım?.. Ancaq qorxuram ki, düşmənlər məni əli silahlı tutub işimin üstünü açalar və mənim ölümüm onları sevindirə... Zəif qadınların füsunkar silahı olan zəhər daha yaxşı deyilmi?..

Deməli ki, belə!..

Ancaq bir məsələ də var: düşmənlərim məhv olduqdan sonra mən hara, hansı xalqın yanına sığınıb pənah apara bilərəm?..

Yox, gərək hələ bir az gözləyəm, özümə sığınacaq tapdıqdan sonra hamısını hiylə ilə gizlincə öldürəm. Ancaq tale axırıncı xilas yolumu da kəsmiş olsa, onda hər şeyə hazıram: ölümü gözə alıb, əldə xəncər, açıqdan-açığa hamısını öldürərəm.

And içirəm, sirdaşım solğun bənizli ilahə aya, and içirəm, ailə ocağımın keşikçisi olan Hekataya ki, xainlər cəzadan qurtarmayacaqlar, göz yaşlarımın acısını onlardan alacağam, onların toy məclisi matəm olacaq!

Hazır ol, Medeya, fürsət vaxtı gəlir. Qorxunc füsunkarlığının bütün qüdrətini göstər, bu böyük işi qırpınmadan icra et?

Ey Kolxida hökmdarının qızı, Sizif [23] uşaqlarının əlində oyuncaq, Yazonun məşuqələrinin əlində əyləncə olma, sənin damarlarında qan allahı günəşin qanı axır!

Tədbirli ol: düz deyiblər ki, xeyir üçün zəif yaranmış olan biz qadınlar şər işində qüdrətliyik!.. (*Medeya gedir*)

BİRİNCİ STASİM

X o r

BİRİNCİ STROF

Artıq tərsinə axır müqəddəs, pak nəhirlər.
İnsanlar vəzifəni, qanunu gözləmirlər;
İstehzaya qoyulur, yəminlər əhdü-peyman...
Xain ərlərin indi qəlbinə hakim olan
Arvad kimi məkr ilə hiylədir, xəyanətdir.

Ah, bu nə pis adətdir!
Görəsən taleyimiz
Beləmi qalacaqdır:
Arvadın şöhrətilə
Ərlər ad alacaqdır!
Görəsən bundan sonra
Adi böhtanla təhqir
Qəlblərə, vicdanlara
Etməyəcəkmi təsir!?

BİRİNCİ ANTİSTROF

Böyük nəğməkarların ey qədim pəriləri!
Qadınların məkrindən sizin qədimdən bəri
Qoşduğunuz nəğmələr düşmüşdür etibardan...
Hayıf, ulu Feb bizə xariqələr yaradan
Bir rübab verməmiş ki, odlu nəğmələr deyək.

Bu dünyaya söyləyək:
Ərlərlə arvadların
Eşqə sədaqətindən,
Mərd, nəcib övladların
Əsl şücaətindən,
Uzun əsrlər boyu
Taleyindən, bəxtindən...

İKİNCİ STROF

Ey Medeya! Ərinə çılğın məhəbbətindən,
Ata xanimanını eşqə fəda edibsən
Amansız Simpleqad qayalarından aşdın,
Burulğanlı dənizlər keçib qürbətə qaçdın!..
İndi bax, ey zavallı,
Səni aldatdı ərin.
Qovuldun, rüsvay oldun,
Yox gedəcək bir yerin!..

İKİNCİ ANTİSTROF

Artıq bu Elladada nə namus qaldı, nə ar,
Müqəddəs yəminlərə yoxdur edən etibar!
Sədaqət ilə vicdan
Yox oldu bu diyardan...
Ey Medeya! Bax, buna bais oldun sən özün;
Bir də atan evinə dönməyə yoxdur üzün.
İtirdin ər evində
Ailə bəstərini;
Ərinin gənc arvadı
Tutdu sənin yerini!..

İKİNCİ EPİSODİ

Yazon və Medeya daxil olurlar.

Y a z o n (*Medeyaya*). Mən indi bir daha inanıram ki, qızğın qəzəbdən böyük bir şər yoxdur. Sən hökmdarın iradəsinə tabe olub, onun mehmannəvaz sarayında asudəcə yaşaya bilərdin. Ancaq özün dilini dinc qoymadın, sürgün edilməyinə səbəb oldun. Mənim üçün heç bir fərqi yoxdur. Sən məni adamların ən pisi adlandırsan da, acığıma gəlməz. Ancaq şükür elə ki, hökmdar ailəsi haqqında söylədiyin hərzələr üstündə cəzan yüngül olmuş, yalnız sürgün edilirsən. Mən yalvarıb-yaxarmaqla hökmdarın qəzəbini yumşaltdım, arzum bu idi ki, sən bizim evdə qalasan. Ancaq sən dilini saxlamadın, hökmdar barəsində daha azğın sözlər söylədin. İndi daha səni sürgündən qurtara

bilmirəm. Bununla bərabər dostluğumuzu pozmuram. Budur bax, indi də sənin yanına gəlmişəm, məhəbbət və iltifatımı əsirgəmirəm. Mən razı ola bilmərəm ki, uşaqlarla sən ehtiyac içində qalasan, pulsuz-parasız sürgünlərə gedəsən, onsuz da yad ellərdə sərgərdan qalan qəriblərin günü bir gün deyil. Sən məni düşmən bilsən də, görürsən ki, mən sənin pisliyini istəmirəm.

M e d e y a. Qorxaq! Ax, rəzil qorxaq! Sənin alçaqlığına başqa bir ad tapa bilmirəm. Necə? Başımıza gətirdiyin bu fəlakətlərdən sonra hələ bir gözümə görünməyə cürətin də var! Yoxsa xəyanət etdiyin dostların üzünə sakit-sakit baxmağı sən bir şücaətmi sayırsan? Onu bil ki, bu, rəzalətlərin ən çirkinidir, bu həyasızlıqdır!

Səni gördüyümə məmnun oldum: heç olmasa ürəyimi boşaldaram, həyan varsa, utanıb-qızararsan, qorxaq!

Keçmişləri bir yadına sal: bütün ellinlərin, bütün arqonluların yadındadır ki, sən gəmi ilə Kolxidaya gəlib, od püskürən öküzləri boyunduruğa qoşmaq, qara ölüm zəmisinə toxum səpmək istəyəndə, səni mən fəlakətdən qurtarmışam. Qızıl dərini qat-qat həlqələri içinə alıb xəzinəni qoruyan, yatmaq bilməyən qanlı əjdahanı mən öldürmüşəm. Sənin gözlərinə həyat nuru verən mən olmuşam, mən! Mən atama xəyanət edib, doğma ailəmi, evimi-eşiyimi atdım. Sənin Peliotda İolk şəhərinə gəldim... ağlım yox idisə də, eşqim tükənməzdi... Mən min cür hiylə işləyib günahsız hökmdar Peleyi öz övladlarına öldürtdüm; bunu mən sənin üçün etdim ki, sən qayğısız, rahat yaşayasan, ürəyində qorxu qalmasın. Sən də bütün bunların əvəzində mənə xəyanət etdin. Məni, yazıq uşaqlarımızı atıb yeni bir eşqə düşmüsən!

Barı, uşaqların olmasaydı, bəlkə deməyə bir sözün olardı. Sən əhdü-peymanı, içdiyin andı ayaqlar altına aldın

Yoxsa elə güman edirsən ki, and içdiyin allahlar daha yoxdur, yoxsa elə bilirsən ki, göylərin qanunu dəyişmişdir? Sən ki, müqəddəs yəminləri tapdamağın nə demək olduğunu yaxşı bilirsən!

Bir bax: bu əllər həmin əllərdir ki, vaxtilə öz əlinə almışdın, bu ayaqlar həmin ayaqlardır ki, vaxtilə qəlbində riya olduğu halda, gözlərində məhəbbət nəvazişlərilə, diz çöküb qucaqlamışdın!..

Hər nə qədər səndən heç bir yaxşılıq gözləmirəmsə də, səninlə əvvəllər olduğu kimi, bir dost kimi danışmaq istəyirəm: mənim suallarıma cavab verməlisən, bu suallarla sənin həyasızlığını üzünə vuracağam!

Söylə görüm: mən hara getməliyəm! Sənin üstündə xəyanət edib atdığım atam evinəmi gedim? Yoxsa öldürtdüyümüz Peleyin qızlarınamı pənah aparım? Onlar məni böyük bir hörmət-izzətlə pişvaz edərlər, deyilmi?!

Görürsənmi, sənin üstündə mən müqəddəs qohumluq əlaqələrini kəsdim, ən sevimli adamlarıma düşmən oldum... sən də bunun müqabilində məni Ellada qadınlarının ən xoşbəxti elədin. Mənə sadiq və nəvazişkar bir ər oldun!.. Üzün ağ olsun!

Taleyə bir bax! Yazıq uşaqlarımla qürbət ellərə sürgünə gedəcəyəm. Bir ər üçün nə böyük şərafət: arvadı-uşaqları bütün Elladanı sərgərdan gəzib dilənçilik edir!

Ax, ey Zevs, qızılın safını-saxtasını tanımaq üçün sən insanlara meyar məhək vermisən, ancaq gərək insanlar üçün də bir meyarın olaydı ki, onların da bədənlərinə damğa vurulaydı, rəzil və xain adamları hamı tanıya biləydi!

Korifey

Nə qədər möhkəm olsa əvvəl dostluq, məhəbbət,
O qədər qızğın olar sonra düşən ədavət!

Y a z o n. Sənə cavab vermək üçün gərək söz ustası olasan. Gərək mən mahir bir gəmiçi kimi şiddətli fırtınadan bütün yelkənləri qoruyam ki, bu acı sözlərindən yaxamı qurtaram.

Ey qadın, hər nə qədər mənə etdiyin köməyin çox şişirtsən də, deməliyəm ki, mənə dənizlərdə məsud yolu göstərən nə başqa bir allah, nə də fani bir qadın deyil, böyük Afrodita olmuşdur.

Bilirəm ki, sən zərif və parlaq bir zəkaya maliksən. Ona görə əhvalatı başdan-ayağa danışmağa, zəhlə tökməyə ehtiyac yoxdur. Özün inkar etməzsən ki, yayınmaz oxlar atıb mənim həyatımı qurtarmağa səni ehtiraslar allahı Eros vadar etmişdi. Düzdür, sən mənə kömək etmişsən, ancaq mən də indi isbat edərəm ki,əvəzində sənə on qat artıq yaxşılıq etmişəm...

Əvvəlcə buradan başlayım ki, sən indi öz vəhşi vətənində deyil, Elladada yaşayırsan, onun-bunun kefinə tabe olmayıb, həqqaniyyət və qanunlara riayət etməyi bacarırsan. Bütün Ellinlər sənin gözəl biliklərinə hörmət edirlər. Əgər əvvəlki kimi dünyanın uzaq bir guşəsində

qalmış olsaydın, həyatın şərəfsiz, şöhrətsiz donub qalardı. Məncə, adamın şərəf və şöhrəti olmayandan sonra, evi dolu qızıl olsa, məclisində Orfey nəğmələri oxunsa da, faydası yoxdur...

Bəsdir, daha etdiyim yaxşılıqlardan danışmıram. Bunları da ona görə dedim ki, bəhsi sən özün açdın...

Medeya, indi də hökmdarın qızı ilə evlənməyimdən danışım. Sən bunun üçün məni acı-acı töhmətləndirirsən. Ancaq mən isbat edərəm ki, bunda da mən ağıllı iş görmüşəm, nəcib bir məqsədlə sənə və uşaqlarımıza yaxşılıq eləmişəm. Ancaq sən qəzəblənmə, sakitcə qulaq as. Mən başıma min fəlakət gəldikdən sonra, İolk şəhərindən qayıtdım; adım xain çıxdığı bir zamanda, hökmdarın öz qızı ilə evlənməkdən daha yaxşı bir qismət gözləyə bilərdimmi? Mən onun gözəlliyinə aşiq olmamışam. Sənin məhəbbətini ayaq altına salmamışam. Başqalarilə nəsil artırmaq müsabiqəsinə girişmək fikrinə düşməmişəm... Yox, yox, sənin doğduğun uşaqlar mənə kifayət edərdi...

Məqsədim yüksəlmək, ehtiyacın daşını həmişəlik atmaq, sənilə birlikdə firavan yaşamaqdır. Çünki yoxsul bir adamdan dost-aşna da üz çevirər.

Mən uşaqlarımıza layiqli təhsil və tərbiyə vermək istəyirəm. Əgər oğullarımızın yeni qardaşları da olarsa, məqsədim onları məsud bir ailə içində böyütməkdir. Söylə görüm bundan sonra uşaq doğmaq sənə nə lazım? Mənim ikinci izdivacdan doğulan oğullarım, iki əvvəlki oğlanlarıma dayaq olar...

Ancaq bütün qadınlar belədir. Nə qədər ki, rəqibləri yoxdur, nə qədər ki, ailə yatağında hökmrandırlar, heç bir şeydən çəkinmirlər.; ancaq xəyali bir kölgə də onların zövcəlik haqqına toxunacaq olsa, hər şey bitib gedir, ən böyük səadət gözlərinə dözülməz bədbəxtlik kimi görünür...

Ax, Zevs bu qadınları yaratmasaydı, insan başqa bir yolla doğulsaydı, dünya nə xoşbəxt olardı!

Korifey

Ey Yazon, sözlərinə nə qədər rövnəq versən,
Acığına gəlsə də, bunu yaxşı bil ki, sən:
Xəyanət eyləyərək, atmısan arvadını,
Namərdcə tapdamısan peymanını, andını!

M e d e y a. Mən başqalarına bənzəmərəm, məncə, şirindil cinayətkar daha artıq cəzaya layiqdir. Çünki o şəri riya və yalanla bəzəyib daha cürətkar olur. Heç bir zaman bununla o ağıllı ola bilməz.

Sən də gözəl sözlərlə vicdansız xəyanəti örtüb basdırmağa çalışdın. Ancaq mən bircə sözlə sənin dilini-ağzını bağlaya bilərəm: əgər mənə pislik etmək istəmirdinsə, onda məndən gizlin deyil, mənim razılığımla evlənməli idin!

Y a z o n. Bəli, sən indi də çılğın qəzəbini ağlına tabe edə bilmədiyin bir halda, mən evlənəcəyimi sənə söyləyəndə, yaxşı köməkçim olardın!

M e d e y a. Yox, yox, sən bunu heç ağlına da gətirməmişsən. Qorxmuşsan ki, vəhşilər diyarına mənsub bir qadınla birləşməyin sənə dövlət və şöhrət qazandıra bilməyəcək!

Y a z o n. Sən başa düşmək istəmirsən ki, bu yeni izdivacı mən özüm üçün etmirəm, ailənin xeyri, sənin xeyrin üçün edirəm ki, kiçik qardaşları oğlanlarımıza dayaq olsunlar, uşaqlarımızın hökmdar ailəsində hamiləri olsun.

M e d e y a. Nə olar ki, xoşbəxt ol! Ancaq bil ki, sənin səadətindən, sənin məlun və mənfur dövlətindən mənə pay lazım deyil!

Y a z o n. İnan ki, fikrini dəyişəcəksən, gec-tez ağlın başına gələcək, taleyin bəxş etdiyi səadətin qədrini biləcəksən, şirinə acı deməyəcəksən!

M e d e y a. Bəli, bəli, öz gücündən, qüdrətindən istifadə ilə qərib, bikəs bir qadına istehza et!

Y a z o n. Qərib və bikəs qalmağına, sürgünə özün bais olmuşsan.

M e d e y a. Niyə, bəlkə ərimə xəyanət etmişəm, eləmi?

Y a z o n. Hökmdar ailəsinə qarğamısan.

M e d e y a. Hələ bir gözlə, sənin ailənə qarğışımı görərsən?

Y a z o n. Mən daha sənin lə bəhs etmək istəmirəm: ancaq özün və ya mənim uşaqlarım üçün məndən bir kömək istəyirəmsə, qorxma, söylə. Səxavətimə əmin ola bilərsən. İstəsən dostlarıma məktub da yaza bilərəm ki, sənə mehmannəvazlıq və hörmət etsinlər. Ax, ey qadın, bil ki, imtina etsən, yaxşı olmaz. Bir düşün, qəzəbini yatırmaq daha yaxşı deyilmi?

M e d e y a. Sənin dostlarının himayəsinə mən nifrət edirəm, sənin kömək liyin də mənə lazım deyil. Pis adamların bəxşişindən xeyir görmək olmaz.

Y a z o n. Qoy bütün allahlar şahid olsun ki, mən sənə və uşaqlara əlimdən gələn hər yaxşılığı etməyə hazıram, sən özün istəmirsən. Mənim məhəbbətimi də rədd edirsən, bil ki, bir zaman peşman olacaqsan, Medeya! (*Yazon gedir*)

M e d e y a (Yazonun ardınca). Get ey damad, get, gəlin səni gözləyir. Yubanma, həvəs və arzu səni məst edib... Tez ol, tez ol, get kefini çək, ey təzə bəy! Ancaq bil ki, allahların köməyilə bir gün sən də peşman olacaqsan! (*Medeya gedir*)

İKİNCİ STASİM

X o r

BİRİNCİ STROF

İnsanlar arasında həddən aşsa ehtiras,
Şərəfdən, etibardan, ülfətdən əsər qalmaz!
Hər kim qədrini bilsə həqiqi məhəbbətin,
Ona munis Kiprida havadar olar yəqin...
Ah, ey eşq ilahəsi, bizə qızıl kamandan
Amansız oxlar atma,
Qəlbimizi aldatma,
Ehtiras zəhərindən bizləri hifz et, aman!..

BİRİNCİ ANTİSTROF

Ey allahlar, siz bizə həya eləyin qismət!
Həyalı arvadların bəzəyi budur əlbət.
Azğın Kiprida bizi salmasın şər toruna,
Qanunsuz sövdalara, ədavət qürurunа...
Ehtirasdan, şəhvətdən eləsin bizi uzaq,
Özü hifz etsin bizi!
Təmiz ismətimizi,
Məhəbbətdən həyalı olaq daim, üzü ağ!

İKİNCİ STROF

Ey evim, ey vətənim!
Diləyim budur mənim:
Sizdən düşməyim uzaq,
Qalmayım sizdən iraq.
Səfil, qərib, sərgərdan...
Ölüm yaxşıdır bundan!
Yurd-yuvasız mərd olmaz,
Bundan böyük dərd olmaz!

İKİNCİ ANTİSTROF

Görün bunun halını!
Bu bədbəxt zavallını
Tərk edib əqrəbası,
Yoxdur eli-obası.
Yox olsun bu dünyadan
Məzluma acımadan,
Mərhəmət etməyənlər,
Həmiyyət etməyənlər!
Vicdansız olsa hər kəs,
Bizə dost ola bilməz!

ÜÇÜNCÜ EPİSODİ

Medeya saraydan çıxır. O yandan yolçu paltarında Afina hökmdarı Egey gəlir və Medeyanı görüb salamlayır.

E g e y. Məsud olasan, Medeya! Dostun dosta ən yaxşı salamı budur!

M e d e y a. Sən də məsud olasan, ey Pandion oğlu! Söylə görüm, belə haradan gəlirsən?

E g e y. Qədim Delfi ibadətgahına getmişdim.

M e d e y a. Dünyanın qəlbi olan o əsrarlı mağarada allahdan arzum nə idi, ey Egey?

E g e y. İstərdim biləm, övladım olacaqmı?

M e d e y a. Necə? Hələ uşağın yoxdurmu?

E g e y. Görünür allahın iradəsi belə imiş!

M e d e y a. Subaysanmı, yoxsa evli?

E g e y. Çoxdan evlənmişəm.

M e d e y a. Bəs Feb sənə övlad barəsində nə dedi?

E g e y. Onun cavabını hamı başa düşə bilərmi?

M e d e y a. Dediyin sözləri mənə söyləyirsənmi?

E g e y. Qulaq as deyim, əlbət ki, burada nazik bir məna var.

M e d e y a. Söylə görüm, dinləyirəm.

E g e y. "Mən hələ körükləri açmayacağam".

M e d e y a. Sən nəyi etməyincə?

E g e y. "Mən öz evimə qayıtmayınca"

M e d e y a. Bəs sən nəyə Korinfə gəldin?

E g e y. Trezendə hikmət bilən hökmdar Pifeyin yanına gedəcəyəm.

M e d e y a. Hə, Pelopsun nəcabətli oğlu, tanıyıram.

E g e y. İstəyirəm falı ona söyləyim.

M e d e y a. Bəli, Pifeyin belə işlərdə təcrübəsi çoxdur.

E g e y. Bir də ki, o mənim köhnə silah yoldaşımdır.

M e d e y a. Yaxşı yol, hökmdar, allah xeyrə calasın!

E g e y. Bəs rəngin nəyi belə solğundur, Medeya, baxışların niyə kədərlidir? Sənə nə olub?

M e d e y a. Ərim Yazon insanların ən rəzili imiş...

E g e y. Bu nə sözdür! Tez ol danış görüm, nə var?

M e d e y a. Heç bir günahım olmadığı halda, Yazon məni rüsvay etdi.

E g e y. Axı nə eləyib, qorxma, söylə.

M e d e y a. Yenidən evlənmək fikrinə düşüb...

E g e y. Buna necə cürət etdi?

M e d e y a. Bəli, o, mənim məhəbbətimə istehza edir...

E g e y. Sənədəmi nifrət etdi, yoxsa rəqibinəmi bərk vuruldu?

M e d e y a. Aman, ey allahlar! Görünür, ona bərk vurulub ki, etdiyiniz müqəddəs yəminləri tapdaladı!

E g e y. Elə, onun üçün təəssüflənməyə dəyməz!

M e d e y a. Hökmdar ailəsinə qohum olmaq xəyalındadır.

E g e y. Qız kimlərdəndir? Atası kimdir?

M e d e y a. Korinf hökmdarı Kreon.

E g e y. Ax, zavallı, qəmlənməyə haqqın varmış!

M e d e y a. Heyhat... Onlar hələ məni qovdular da...

E g e y. Bu da bir dərd! Kim qovdu?

M e d e y a. Kreon.

E g e y. Bəs ərin sənə kömək edib saxlamadımı?

M e d e y a. O, üzdə mənə dost görünsə də, ürəkdən düşməndir. (*Diz çökür*) Ah, ey mehriban hökmdar, ayaqlarını qucaqlayıb, əlimlə üzünü oxşayıb sənə yalvarıram, lütf et, mərhəmət göstər, məni rədd etmə, məni öz evinə qəbul eylə! Mən ki hamının tərk etdiyi, qovulmuş, bikəs bir yazığam: əvəzində allahlar sənə uşaq versin, xoş bir aqibət qismət eləsin!

Heç bilirsənmi mən kiməm, mənim nə gözəl bir məharətim var: mən səni sonsuzluqdan qurtararam, saysız-hesabsız övladın olar. Mən bütün dərman otlarını yaxşı tanıyıram.

E g e y. Ax, ey qadın, mən allahlar xatirinə də, vəd etdiyin uşaqlar xatirinə də sənin arzunu yerinə yetirərəm. Uşağım olmaq üçün bütün ömrüm uzunu allahlara yalvarmışam, bir şey çıxmayıb...

Fikrim belədir: əgər sən özün mənim ölkəmə gedib çıxmış olsan, mən heç bir kəsin hüququna toxunmadan, səni qərib bir qonaq kimi qəbul edə bilərəm. Ancaq səni xəbərdar etməliyəm ki, gizlincə özümlə apara bilmərəm. Özün qovulmuş bir qadın kimi evimə gəlsən, səni daha heç kimin əlinə vermərəm. Ancaq sən mənim köməyim olmadan Korinf hökmdarının evini tərk etməlisən. Mən, dost olduğum adamlar qarşısında bir zərrə də təqsirkar olmaq istəmirəm.

M e d e y a. Sən deyən olsun. Ancaq and iç ki, mən arxayın olum.

E g e y. Yoxsa mənə inanmırsan? Söylə görüm axı nədən ehtiyat edirsən?

M e d e y a. Mən sənə inanıram, ancaq mənim düşmənlərim olan hökmdar Kreon da, Peleyin qızları da çox güclüdürlər. Burada allahlar hüzurunda and içmiş olsan, məni müdafiə etməyə bilməzsən. Ancaq and içməsən, düşmənlərimlə birləşib məni onların qasidlərinə verə bilərsən. Mən zəif və yazıq bir qadınam. Onların əlində isə, həm qızıl var, həm də hökmranlıq.

E g e y. Ey qadın, çox ehtiyatlı hərəkət edirsən. Ancaq mən and içməkdən imtina edən deyiləm. Düşmənlərə qarşı əlimdə bu bəhanə olandan sonra səni xilas etmək daha asan olar. Sən də mənim evimdə bu and sayəsində rahat və asudə yaşarsan. Ancaq söylə görüm, hansı allahlara and içim?

M e d e y a. Yerə və mənim ulu babam Günəşə, bir də Olimpdə olan bütün müqəddəs allahlara...

E g e y. Əhdim nə olsun, söylə?

M e d e y a. Nə qədər ki, sağsan, özün məni evindən qovmayacaq və düşmənlərin əlinə verməyəcəksən.

E g e y. Yaxşı, and içirəm Günəşin ilahi parıltısına, and içirəm anamız torpağa və bütün müqəddəs Olimp allahlarına ki, sənin dediklərini yerinə yetirəcəyəm.

M e d e y a. Əgər yetirməsən?

E g e y. Onda allahsızların layiq olduğu cəzaya giriftar olum!

M e d e y a. Təşəkkür edirəm. İndi get, məsud olasan, ancaq bil ki, ey hökmdar, buradakı bütün lazım olan işləri etdikdən sonra sənin şəhərinə gələcəyəm...

X o r

(*Egeyin ardınca*)

Ey Egey! Səyyahların qadir hamisi olan
Allah qanadlı Hermes köməyin olsun hər an!
Sən ki, bədbəxt qadınla etdin şahanə rəftar.
Olasan hər işində gündən-günə bəxtiyar!

M e d e y a. Ey ulu Zevs, ey allahların qızı həqiqət, ey müqəddəs Günəş! İndi biz doğru bir yola düşdük. İndi bizə böyük zəfər nəsib olacaq. Mən bütün düşmənlərimdən intiqam alacağam! Hökmdar Egey də mənim üçün möhkəm bir müdafiə qələsidir. Gəmim şiddətli tufanlara düşəndə, Pallada şəhərinə girib lövbər salacaq, o barigaha sığınacağam... (*Xora müraciətlə*) Ey mehriban qadınlar, hər bir şeyi açıb sizə söyləyəcəyəm. Dinləyin, bəlkə mənim bu sərt sözlərim sizin qulaqlarınızı dırmalayacaq, amma zərər yoxdur, dinləyin: xidmətkarlarımdan birini Yazonun evinə göndərib onu çağırdacağam, hiyləgər bir yaltaqlıq və nəvazişlə ona yanaşıb deyəcəyəm ki, guya ərimin iradəsinə tabe oluram; guya onun mənimlə rəftarı aqilanə və adilanədir.

Ona yalvaracağam ki, uşaqları burada Kreonun sarayında saxlasın. Əlbəttə, mən onları düşmənlərimin əlinə həqarət və istehza üçün vermirəm. Yox, yox, onların əlilə mən təzə gəlini öldürəcəyəm. Uşaqlarla

gəlinə bir qızıl çələng və zərif bir paltar göndərəcəyəm. Bunları elə bir zəhərlə zəhərləyəcəyəm ki, gəlin çələngi taxıb paltarı geyəndə, müdhiş bir ölümlə öləcək və ona yaxın düşənlər hamısı həlak olacaqlar...

Bununla sözlərimi qurtarsam, yaxşı olmazmı? Sonra daha nələr edəcəyimi düşünəndə, özümü də dəhşət alır: uşaqlarımı da öldürəcəyəm, heç bir qüvvət onları xilas edə bilməyəcək...

Yazon nəslini tələf etdikdən sonra isə, əzizlərimin qanını gözümlə görməmək üçün, çıxıb gedəcəyəm...

Mən elə bir cinayət işlədəcəyəm ki, hələ ona ad qoyan olmayıb! Bəli, mən bunu bilirəm... Ancaq düşmənlərimin mənə istehza etməsinə dözə bilmərəm... Bir də ki, vətənim, əzizlərim və heç bir ümidim olmayandan sonra, həyat mənim nəyimə gərəkdir?

Yox, yox, hər şey məhv oldu... Yad bir adamın andına inanıb mən bədbəxt ata ocağımı atdım... İndi, ey hiyləgər Ellin, bil ki, mənim əlimdən qurtara bilməyəcəksən! Bir də öz balalarını diri görə bilməyəcəksən: təzə arvadından da övlad görməyəcəksən. O xain mənim zəhərimdən bir məlunə kimi gəbərəcək!

Qoy məni məğmun, yazıq və zəif bilməsinlər... Yox, yox, mən düşmənlərim üçün qorxunc və biaman, dostlarım üçün sadiq və mehribanam: onların qisməti əzəmətli və şərəflidir!

Korifey

İndi ki, öz qəsdini söylədin bizə aşkar,
Ey Medeya, bizim də sənə bir sözümüz var:
Gəl analıq naminə, insanlıq naminə sən,
Əl çək bu məqsədindən!

Medeya. Yox, yox, etməliyəm, edəcəyəm! Ancaq ey qadınlar, sizin də haqqınız var, çünki mən çəkdiyim iztirabları siz çəkməmişsiniz.

Korifey

Buna əlin vararmı, nə ad qoyarlar sənə?
Heç ana da qıyarmı öz ciyərparəsinə?!

Medeya. Əlbəttə! Çünki başqa heç bir şeylə mən ərimin qəlbinə belə bir yara vura bilmərəm...

Korifey

Eləsə, sənin adın
Qalar ən bədbəxt qadın!

Medeya. Olsun!.. İndi daha məsləhət vaxtı deyil! (*Xidmətçisinə*) Tez ol, get Yazonu bura çağır! Bu günə qədər sən mənim sadiq xidmətçim olmusan, öz xanımını sevirsənsə və qadın adına layiqsənsə, sirrimi düşmənə vermə, dinmə, danışma!

ÜÇÜNCÜ STASİM

Xor

BİRİNCİ STROF

Ey gözəl Attikanın bəxtəvər, şən övladı,
Ey nəcib allahların qədim, məsud əhfadı!
Sizə nəsib olmuşdur zəkavətlə şərafət,
Suyunda, meyvəsində var yurdun bu kəramət.
Yurdunuzun havası büllur tək açıq, şəffaf;
Həyatınız asudə, könül təmiz, ürək saf.

Deyirlər ki, bir zaman
Altun saç Harmoniya[24]
Orda hamilə olmuş,
Doqquz müqəddəs pəri
O torpaqda doğulmuş!

BİRİNCİ ANTİSTROF

Orada şəffaf Kefisin[25] şaqraq zümzüməsindən,
Səfalı nəsimlərin ətirli nəfəsindən
Zövq alaraq Kiprida – məhəbbət ilahəsi
Oxşayır nəvazişlə qəlbi təmiz hər kəsi.
Taxaraq saçlarına o yurdun güllərindən,
Göndərir insanlara Attika ellərindən

Əql ilə həmdəm olan
Saf, təmiz məhəbbət;
Zəkaya məhrəm olan
Pak, əziz məhəbbət...

İKİNCİ STROF

Ey əlləri pak uşaq qanilə ləkələnmiş
Kinli, qəzəbli qadın, nədir bu tutduğun iş!
Söylə, insanlar içrə məhəbbətə həvadar
Olan o pak nəhirlər, o munis, gözəl diyar
Necə alsın qoynuna sən kimi bir cəlladı!
Layiqmidir heç sənə müqəddəs ana adı!
Gördünmü uşaqların o məsum, al qanını?
Eşitdinmi onların yanıqlı əfqanını?!
Yox, yox! Sənin önündə çöküb itaətlə diz,
Hamımız and veririk, yalvarırıq sənə biz:
Rəhm et o məsumlara!

İKİNCİ ANTİSTROF

Ey qadın, bu nə cürət, nə amansız cəsarət?
Hardandır bu səndəki mərhəmətsiz kor qüvvət?
O məsum, o köməksiz uşaqlarda nə günah?
Necə varar əllərin onları vurmağa, ah!..
Onlar sənə sığınıb – can, anacan! – deyəndə,
Quzu kimi mələşib mərhəmət diləyəndə,
Söylə görək, gözlərin qanlı yaşla dolmazmı?
Daş qəlbində bir zərrə mərhəmətin olmazmı?
Yox, yox!.. Bala qanına boyama xəncərini,
O ana əllərini!..

DÖRDÜNCÜ EPİSODİ

Y a z o n. Mən kinli deyiləm, Medeya, görürsənmi, çağırdın, yenə də gəldim. Qorxma, nə sözün, nə arzun varsa, söylə, mən dinləməyə hazıram.

Medeya. Yazon, əzizim, o haqsız qəzəbimi yadından çıxar, məni bağışla. Əvvəlki dostluğumuz naminə, and verirəm, mənə acığın tutmasın.

Təklikdə düşünüb mən öz-özümü danladım, dedim ki, ey bədbəxt, bu nə çılğınlıqdır, nə üçün sənin xeyrinə çalışanlara nifrət edirsən? Nə üçün hökmdarı və mehriban ərini özünə düşmən etdin, onun ki bütün fikri-zikri hamıya xeyirxahlıqdır. O, yalnız ona görə hökmdarın qızını alır ki, qüdrətli qardaşları sənin öz oğullarına dayaq olsunlar. Bu çılğın qəzəbi yatırmaq daha yaxşı deyilmi? Sən tək-tənha, qürbət ellərdə, uşaqlarla nə edə biləcəksən?..

Belə düşünüb gördüm ki, qəzəbim doğrudan da yersiz və ağılsız bir şey imiş. Hökmdar ailəsinə qohum olmaqda sənin nə qədər ağıllı iş gördüyünü anladım. Mən axmaq əvvəlcədən sənin hər bir işinə kömək etməli və böyük bir məmnuniyyətlə özüm yataq başında durub sənin mehriban gəlininə xidmət etməli idim!

Ancaq arvada arvad deyiblər, kişiyə kişi... Kişi gərək çox da arvadla ağız-ağıza verməyə, arvadla bəhs etmək, axmaqlığa axmaqlıqla cavab vermək deməkdir.

Görürsən ki, peşman olmuşam və qarşında məmnuniyyətlə təqsirimi boynuma alıram...(Sarayın qapısına yaxınlaşaraq). Ay uşaqlar, ay uşaqlar, tez olun, bura gəlin! Gəlin atanızı qucaqlayın, öpün, o ananızın təqsirindən keçdi, ailəmizdə yenə əvvəlki mehribanlıq düzəlsin! (*Medeyanın oğlanları saraydan çıxırlar*). Gedin onun əllərindən tutun, qorxmayın... Ax, yazıq balalarım! Neçin sizə baxanda mənim ürəyimi dəhşət və iztirab bürüyür? Kim bilir, ömrünüz çoxmu qalıb, çoxmu mehribanlıqla ananızın ağuşuna sığınacaqsınız?

Ax, nə dəhşət, nə dəhşət!.. Ağlayıram, bütün varlığım üçündür... bəsdir artıq, hamısı keçdi getdi. Daha barışdıq... sevincimdən göz yaşlarımla uşaqlarımın yanağını isladıram!..

X o r

Bizim də gözümüzdən durmadan yaş axır, bax!..
Heyhat... Sevincdən deyil bu göz yaşları, ancaq
Müdhiş fəlakətlərin acı ifadəsidir!..

Y a z o n. Bax, indi ağıllı söz danışırsan. Keçənləri bir də yad etməyək... Bir də ki, əri yenidən evlənmək fikrinə düşən bir arvaddan ummaq olmaz ki, qəzəblənməsin. Ancaq yaxşı ki, fikirləşib vaxtında

yola gəldin. Bax, indi sübut etdin ki, sən ağıllı və itaətkar bir arvadsan. (*Oğlanlarına*) Ay uşaqlar, atanız sizin xeyriniz üçün nə lazımsa edər, bir zaman gələr ki, Korinfdə sizi hamı barmaqla göstərər. Təki siz boya-başa çatın, qalan şeyin qayğısına atanız bir də haminiz Geniy[26] qalar, ümidim budur ki, qocalıq günlərimdə sizin gözəl və çiçəkli gənclik çağınızda bütün düşmənlərinizə üstün gəldiyinizi gözlərimlə görərəm. (*Medeyaya*) Medeya, sənə nə olub, nəyə acı-acı ağlayıb solğun üzünü gizlədir və mənim bu xoş arzu və sözlərimi dinləmirsən?

M e d e y a. Bağışla, əzizim, mən uşaqların fikrini çəkirdim.

Y a z o n. Arxayın ol, onların xoşbəxtliyi üçün nə lazımsa, hamısını edəcəyəm.

M e d e y a. Əlbəttə... Yazon, mən sənin sözlərinə inanmıram... Ancaq özün bilirsən ki, biz qadınların göz yaşımız ovcumuzun içindədir.

Y a z o n. Çox qəmgin görünürsən. Sənə nə olub ki?

M e d e y a. Axı mən onların anasıyam... Sən onların xoşbəxt gələcəyindən danışanda, məni fikir aparmışdı, görəsən bunlar olacaqmı, o xoş günləri görəcəyikmi? Ürəyimə elə bir qorxu çöküb ki...

Ancaq qoy sözümü qurtarım. Bax, əziz dostum, bircə ricam da var. Görürəm ki, Kreonun məni qovması öz xeyrimədir: Burada qalıb heç kəsin gözünə görünməsəm, könlünü bulandırmasam yaxşıdır. Bilirsən ki, burada hamı mənə nifrət edir... Elə özüm də bu şəhərdən çıxıb getmək istəyirəm... ancaq uşaqları sən öz yanında saxla, onlara özün tərbiyə ver. Sən hökmdardan rica edə bilərsən ki, uşaqlarımı qovmasın.

Y a z o n. Bilmirəm hökmdar buna razı olarmı... çalışıram...

M e d e y a. Gəlinə söylə, o atasından rica etsin ki, uşaqları bağışlasın.

Y a z o n. Çox yaxşı, düzəldərəm. O, sənin dərdini anlar, axı o da qadındır.

M e d e y a. Bu işdə mən də sənə kömək etmək istəyirəm. Uşaqlara qızıl bir çələng və zərif bir paltar verib bu gözəl hədiyyələri gəlinə göndərəcəyəm. Bunlar elə gözəl şeylərdir ki, heç bir kəsdə misli tapılmaz...

Hey, qaravaşlar, o bəzəyi qəsrdən tez bura gətirin! Qoy dünyanın bütün şənlikləri arvadına qismət olsun: sən dünya ərlərinin ən yaxşısı, bu bəzək də bəzəklərin ən gözəlidir. Onu vaxtilə ulu babam günəş allahı Kolxida hökmdarlarına bağışlamışdı.

Qaravaş, içində bəzək olan qiymətdar sandıqçanı gətirir.
Medeya alıb oğlanlarına verir.

M e d e y a. Balalarım, bu toy hədiyyəsinin o xoşbəxt gəlinə aparın. Bu, Yazonun arvadı və hökmdarın qızına layiq bir hədiyyədir!

Y a z o n. Ay dəli, bu xəzinəni niyə əlindən verirsən? Bilmirsənmi ki hökmdarların gözəl libasları və qızılları boldur? Onu özünə saxla... Əgər gəlinin gözündə mənim bir qiymətim varsa, o məni bütün hədiyyələrdən artıq tutar.

M e d e y a. Yox, yox, allahlar özləri də hədiyyədən xoşlanar. Adamlar üçün isə, qızıl hər cür şirin sözdən qiymətlidir. Axı indi bütün ixtiyar yeni məlikənin əlindədir. İndi tale də, allahlar da ona mayildir. Uşaqlarımın yolunda isə qızıl nədir, mən canımdan da keçərəm! (*Oğlanlarına*). Tez olun, saraya gedin. Bu gözəl hədiyyəni atanızın gənc arvadı və mənim xanımıma verib yalvarın, sizi buradan qovmasınlar. Ancaq balalarım, yadınızdan çıxmasın ha, hədiyyəni onun özünə verin. Tez olun, aparın və gəlib mənə xoş xəbər gətirin.

Yazon ilə uşaqlar getdikdən sonra, Medeya sarayın qapısına yaxınlaşıb gözləyir və diqqətlə dinləyir.

DÖRDÜNCÜ STASİM

X o r

BİRİNCİ STROF

Onlar müdhiş ölümdən qurtarmayacaq daha...
Ana övladlarını göndərdi qurbangaha!..
Aidin məşum qızıl çələngini o gəlin
Sevinc ilə başına taxacaq, yazıq yəqin;
Ölüm saçan bu bəzək,
Gəlini öldürəcək!

BİRİNCİ ANTİSTROF

Çələngin zər şöləsi, libasın parıltısı
Füsunkar təsirilə əsir edəcək qızı;

Geyinib bəzənəcək... əynində toy libası,
Alacaq ağuşuna onu ölüm dünyası.
Onunçun bu tələdən
Yoxdur artıq qurtuluş.
Orda ölüm ifriti
Parka pusquda durmuş.

İKİNCİ STROF

Ey zavallı yazıq ər, gülmədi bəxtin sənə!
Nahaq düşdün şah ilə qohum olmaq qəsdinə...
Bu niyyətin üstündə nəsibin qan olacaq,
Uşaqların, gəlinin buna qurban olacaq...
Əməlinə istehza
Eləyir sənin qəza!

İKİNCİ ANTİSTROF

Ey uşaqlar qatili olacaq bədbəxt ana,
Ey bikəs qalmış qadın, yanırıq biz halına!
Əziz balalarının anasını tərk edən,
Yeni bir eşqə düşən o bihəya ərindən
İntiqam qəsdilə sən
Cinayət işləyirsən!..

EKSOD

M ü r ə b b i. Ah, xanım, uşaqların bağışlandı, daha onları sürgünə göndərməyəcəkdir. Gəlin özü sevinə-sevinə sənin hədiyyəni qəbul etdi. Daha qorxma, uşaqlar əzabdan qurtardı.

M e d e y a. Ah, eyvah!.. Ay... Ay... Ay!..

M ü r ə b b i. Bəs nəyə belə donub qaldın? Bu xəbər səni sevindirmirmi?

M e d e y a. Vay mənim halıma!

M ü r ə b b i. Bu qəm-qüssənin mənası nədir, nəyə ah çəkirsən?

M e d e y a. Heyhat, eyvah!..

M ü r ə b b i. Yoxsa, özüm də bilmədən boş bir ümidə qapılıb sənə pis xəbərmi söylədim?

M e d e y a. Yox, yox, mən də elə bu xəbəri gözləyirdim. Sənin heç bir təqsirin yoxdur.

M ü r ə b b i. Eləsə, bəs niyə kədərlənib ağlayırsan?

M e d e y a. Necə ağlamayım? Ax, bilsəydin allah və qəzəb mənim başıma nələr gətirir?

M ü r ə b b i. Özünü elə al, xanımım, uşaqlar bir az böyüyəndə, sən də sürgündən qurtarıb onların yanına qayıdarsan...

M e d e y a. Lakin əvvəlcə mən özüm başqalarını elə bir sürgünə göndərəcəyəm ki, oradan qayıdan olmayıb!..

M ü r ə b b i. Uşaqlarından ayrı düşən ana bircə sən deyilsən ki... biz, fani insanlar hamımız taleyə ram olub dözməliyik.

M e d e y a. Olsun!.. Yaxşı, sən get evə, uşaqlar üçün nə lazımsa hazırla. (*Mürəbbi gedir. Oğlanlarına*). Əziz balalarım, indi sizin rahat və asudə bir sığınacağınız var. Siz burada ananızdan həmişəlik ayrı yaşayacaqsınız.. Mən isə, qürbət ellərdə səfil, sərgərdan olub sizin həsrətinizi çəkəcəyəm, oğlanlarımın səadətinə baxıb sevinə bilməyəcəyəm. Sizin toy yatağınızı düzəltməyəcəyəm, toy qəndilinizi yandırmayacağam...

Ah, lənətə gələsən, ey mənim qəzəbim! Ah, ey balalarım, sizi bəsləyib boya-başa çatdırmaq üçün çəkdiyim əzablar, sizi doğanda çəkdiyim iztirablar hamısı boş yerə imiş!

Mənim nə şirin xəyallarım, ən dadlı arzularım vardı. Deyirdim ki, qocalanda siz mənə dayaq olarsınız, öləndə ayinimi icra edər, yasımı saxlarsınız... İnsanların həsrət çəkdiyi bu arzular... Bütün bu ümidlər məhv olub getdi... Sizsiz mənim bütün həyatım əzab və iztirablarla dolu qapqara bir zindan olacaq... Siz də elə bir həyata qovuşmalısınız ki, daha bir də ananızın üzünü görməyəsiniz!

Ah, nə dəhşət, nə dəhşət! Ah, əziz balalarım, bu son təbəssümlə mənə niyə belə baxırsınız? (*Xora müraciətlə*) Ah, ey qadınlar, onların parlaq gözlərinə baxanda bütün cürət və cəsarətim əlimdən gedir, taqətim qalmır... Yox, yox, bunu edə bilməyəcəyəm... Əl çəkin məndən, ey məşum xəyallar, ey çılğın əməllər!..

Uşaqlarımı da alıb sürgünə gedəcəyəm. Atalarından intiqam almaq üçün, niyə mən öz əllərimlə balalarımı müdhiş işgəncələrlə məhv edim? Əl çəkin məndən, ey məşum xəyallar, ey çılğın və müdhiş əməllər!..

Eləsə, bəs sonra necə olsun? Necə? Düşmənlərimin mənə istehza etmələrinə intiqam almadan dözmək olarmı? Nə həqarət, nə həqarət!

Bu alçaq fikir mənim qəlbimə haradan girə bildi! Gedin, balalarım, saraya... Tez olun!.. (Xora müraciətlə). Kim qurbanları görmək istəmirsə, buradan rədd olsun. İndi artıq mənim ellərim əsməyəcəkdir! (*Uşaqları evin qapısına aparır, ancaq astanada durub qollarını balalarına uzadır və ağlayır*). Eyvah... Eyvah! Ah! Ey qəlbim, gəl bunu etmə!

Gəl bundan əl çək! Balalara toxunma onlara rəhmin gəlsin! Onların həsrətini çəkmək, onları uzaqdan-uzağa da olsa sevmək nə qədər şirindir!

Yox, əsla yox! And içirəm cəhənnəmin kölgələrinə, and içirəm yer altındakı Evmenidlərin – intiqam, intiqam! – deyən nərələrinə ki, əl çəkən deyiləm: balalarımın düşmənlər əlində istehza əyləncəsi olmasına yol verməyəcəyəm. Onlar üçün bu, ölümdən də betərdir! Yox, onlar ölümdən qurtara bilməyəcəklər, onları özüm doğmuşam, özüm də öldürəcəyəm! Qoy taleyin hökmü yerinə yetsin!..

İndi artıq şahzadə qız çələngi taxıb zəhərli libas içində can verməkdədir. Mənim də bu müdhiş yola çıxmağımın zamanı gəlmişdir. Balalarımın yolu isə mənimkindən də dəhşətlidir! Barı son dəfə onları bir qucaqlayım... (*Oğlanlarına*). Qoyun əllərinizdən öpüm, balalarım... ah, ey mehriban əllər! Ah, ey məsum baxışlar! Ah, ey nəcabətli cöhrələr!.. Sizi görüm ömrünüz xoş olsun, ancaq buradakı yox, oradakı ömrünüz...

Atanız sizi dünya səadətindən məhrum etdi.

Ah, ey zərif gül dodaqlar, ah! Ey pak, saf nəfəslər!..

Gedin, balalarım, gedin. Artıq sizə baxa bilmirəm! Ah, buna bir ana ürəyi təhəmmül edə bilərmi: edəcəyim işi düşünəndə özümü də dəhşət alır. Ancaq hiss edirəm ki, ağlım bu acı fəlakətlərin baisi olan qəzəbimdən daha zəifdir!

Oğlanları gedirlər.

Xor

Rahat qoymayır bizi bu narahat əqlimiz,
Qadınların ağlına batmayan şeyləri biz
Dərk etmək istəyirik, – zəka, o sakit pəri
Bizə də təlqin edir ali düşüncələri

Qadından mütəfəkkir, doğrudur, çox kəm olur,
Bəzən Pieridalar[27] bizə də həmdəm olur...
İndi fikrimiz budur: dünyada ən bəxtiyar
Odur ki, nə arvadı, nə də uşaqları var.
Məhrumsa da o insan atalıq səfasından,
Asudədir ailə cövründən-cəfasından.
Onlar ki evlərində bahar çiçəkləri tək
Qayğısız, şən uşaqlar yetişir gözəl-göyçək.
Ömürləri bir əzab-işgəncədir, doğrusu:
Əvvəlcə uşaqları yetişdirmək qayğısı
Sonra mal-dövlət yığıb həyat yoluna salmaq...
Bütün əziyyətlərə dözürsən, yenə ancaq
Yollarında ömrünü edərkən belə tələf –
Bilmirsən nə olacaq, mehriban, ya naxələf?
Ancaq bununla belə ən böyük bir dərd də var:
Əziz övladlarınçın, qayğı çəkən atalar
Allahların himməti sayəsində firavan
Məsud, gözəl, asudə bir həyat quran zaman,
Görürsən namərd ölüm aşına zəhər qatdı,
O həyat qönçəsini aldı, Aidə atdı!
Nə məna var xilqətin belə kəc gərdişində,
Allahların bilinməz müəmmalı işində:
Azmış guya insanın dünyada iztirabı,
Bir də bu övlad dağı, nakam ölüm əzabı!..

Medeya (*xora müraciətlə*). Ah, ey mehriban qadınlar, nigaranlıqdan bağrım çatladı. Bilmirəm məqsədim sarayda yerinə yetdimi? Aha, odur, Yazonun xidmətçilərindən biri sürətlə bura gəlir. Bir görün rəngi necə solmuş, nəfəsi tutulur. Yəqin ki, dəhşətli bir xəbər gətirir! (*Qasid gəlir*)

Q a s i d . Ey qəddar cinayətlər işləyən Medeya, tez ol qaç, qurtar! Dənizdən, qurudan, haradan yol tapsan, qaç qurtar, burada gözə görünmə!

M e d e y a. Nə olub ki, məni belə tələsik qaçmağa vadar etsin?

Q a s i d. Sənin zəhərinlə indicə şahzadə qız da, hökmdar Kreon da həlak oldular!

M e d e y a. Ah, nə şad xəbər! Ey mehriban qasid, bu gündən sən mənim ən əziz dostum, ən yaxın xeyirxahım oldun!

Q a s i d. Dəlimi oldun, ey qadın! Özünə gəl! Hökmdarın xanimanını dağıdıb, bu xəbəri qorxmadan şadlıqlamı dinləyirsən?

M e d e y a. Sənə mən yaxşı cavab verərdim, ey dostum... Ancaq acığın tutmasın, hər şeyi bizə danış, onların dəhşətlər içində həlak olduqlarını eşitməklə şadlığım qat-qat artar!

Q a s i d. Sənin oğlanların atalarilə birlikdə gəlinin yanına gələndə, biz sadiq qullar sevindik, çünki ürəkdən sənin halına yanırdıq. İndi hamımıza yəqin oldu ki, onunla barışmısan. Uşaqları araya alıb kimi onların sarışın, qıvırcıq saçlarını oxşayır, kimi əllərini öpürdü. Mən o qədər sevindim ki, özümü saxlaya bilməyib, onların ardınca xanımın otağına qaçdım. Orada sənin yerinə gələn yeni xanımımız hələ uşaqları görməyib aşiqanə baxışlarla öz nişanlısına baxırdı. Birdən uşaqları görcək, gözlərini çəkdi və qəzəbli üzünü kənara çevirdi. Ərin, qızın ürəyini yumşaltmaq üçün ona dedi ki: "Dostlarına düşmən olma, qəzəblənmə, mehriban baxışlarını uşaqlara çevir. Ərin üçün əziz olan bu balaları sən də sevməlisən. Onların hədiyyəsini qəbul elə, mənim adımdan da atana yalvar ki, balalarımı məndən ayırmasın..."

Gəlin bəzəyi görən kimi, qaş-qabağı açıldı, ürəyi yumşaldı, onun dediklərinə razı oldu. Yazon uşaqlarla birgə otaqdan çıxar-çıxmaz, gəlin bəzəyi götürüb rəngarəng libası əyninə geydi, qızıl çələngi saçlarına taxdı: parlaq güzgünün önünə keçib saçlarını hörməyə başladı: sevincindən gülə-gülə öz gözəlliyindən zövq alırdı. Sonra yumşaq qoltuqdan qalxıb otaqları gəzməyə başladı. Bəyaz ayaqlarını oynada-oynada gəzir, hədiyyələrə baxıb fərəhlənirdi. Başını arxaya çevirib hörüklərinin qıvrımlarını seyr edirdi...

Ancaq birdən dəhşətli bir hadisə baş verdi. Qızın rəngi meyit kimi ağardı, bütün vücudu uçuna-uçuna yırğalandı, büdrədi və özünü sədirin üstünə yetirə bilməyib yerə sərildi. Qoca qaravaş onun pan[28] və ya başaq bir allahın qəzəbinə gəldiyini güman edib ulaya-ulaya dua oxumağa başladı. Ancaq qızın gözlərinin axdığını, rənginin qaçdığını və ağzının köpüklənd iyini gördükdə, qarı müqəddəs ulamasını kəsib vəhşi bir nərə ilə çığırdı. Səsə bütün qadınlar axışıb gəldilər. Bu qara xəbəri çatdırmaq üçün kimi qızın atasının, kimin ərinin yanına qaçdı. Bütün saray bir-birinə dəyib çaxnaşma, vurnuxma düşdü. Ancaq qızın gözləri çoxdan qapanmışdı.

Bir qaçağanın meydanda yüyürüb bir mərhələ aşması və əlini nişan daşına vurması qədər bir müddət olardı ki, qızın gözləri qapalı

idi. Nəhayət, bədbəxt, acı bir fəryadla gözlərini açdı. Çəkdiyi iztirablar çox işgəncəli idi: başını sıxmaqda olan çələng hər şeyi yaxıb yandırır, od püskürürdü. Sənin oğlanlarının hədiyyə etdiyi şəffaf, zərif libas bədbəxt qızın gül bədənini yandırırdı. Qız dəhşətə gəlib yerindən qopdu və od-alov içində qaça-qaça başını, saçlarını silkələyirdi ki, odlu çələng qopub düşsün. Ancaq qızıllar saçlarına ilişib qalmışdı, qız başını silkələdikcə, alov daha da şiddətlənirdi. Nəhayət taqətdən düşüb yerə sərildi... İndi onu doğma atası da tanıya bilməzdi. Nə mehriban üzündən, nə bərraq gözlərindən bir əlamət qalmamışdı. Ərimiş qızıl, qan qarışıq axıb yandırırdı. Bütün zərif bədəni şəffaf şam qatranı kimi od tutub yanır, gözə görünməz zəhər vücudunu külə döndərirdi...

Nə dəhşətli bir mənzərə! Yazıq qızın başına gələn fəlakəti gözümüzlə görən bizlərdən heç birimiz qorxudan ona yaxın düşməyə cürət edə bilmədik.

Birdən atası yüyürə-yüyürə gəldi, fəlakətdən xəbərdar olmamış, özünü qızının üstünə atdı, solğun cəsədini bağrına basdı və dodaqlarından öpə-öpə fəryad etdi:

"Ah, yazıq balam, səni hansı allah bu dəhşətli ölümə məhkum etdi? Bir ayağı məzarda olan mən bədbəxt qocanı kim bikəs qoydu? Ah, əziz bala, gərək hamımız sənlə birgə öləydik!"

Qoca ah-naləsini qurtarıb qalxmaq istəyəndə, dura bilmədi. Palıd ağacının qabığı gövdəsinə möhkəm yapışan kimi, zəhərli paltar da onun bədəninə yapışmışdı. O, bəzən gücünü vurub dizini qaldırır, ancaq cəsəd onu geri çəkirdi. Yapışan libası var gücilə çəkəndə, əti də gəmiyindən ayrılıb qopdu. Axır ki, qoca da iztirablar içində donub qaldı, nəfəsi kəsildi. O da yerə sərildi; ata-qız əbədi bir-birinə bitişib yanyana qaldılar. Onların də məşum taleyi belə bitdi...

Budur, nə varsa, hamısını sənə söylədim. Necə qaçıb qurtarmağı isə, özün məndən yaxşı bilirsən.

Mən daim belə düşünmüşəm: insan həyatı bir kölgədir. Cürətlə deyirəm ki, hikmət və bəlağətdə şöhrət qazanmış adamlar bəlkə hamıdan artıq kordur.

Bu dünyada səadət yoxdur! Həyatı var-dövlət gözəlləşdirə bilir, amma heç bir şey məsud edə bilməz!

Qasid gedir.

Xor

Ey Yazon, allahların qəzəbi tutmuş səni,
Bu gün bu haqlı qəzəb dağlayacaq sinəni!
Ey bədbəxt şahzadə qız! Yanırıq əhvalına,
Çəkdiyin əzablara, o mənhus iqbalına!..
Nişanlının etdiyi cinayət sayəsində
Aid zülmətgahına bir qurban getdin sən də!..

Medeya. Ah, ey qadınlar, mən indi ikinci qəsdimi yerinə yetirməli, uşaqları öldürüb qaçmalıyam. Gecikməm, onları daha qəddar yad əllər öldürəcək, onlara ölümdən qurtuluş yolu yoxdur. Eləsə, mən özüm onlara verdiyim canı, özüm almalıyam!

Ah, ey qəlbim, mətanətli ol, amansız ol, qoy taleyin məşum hökmü yerinə yetsin!

Mən müdhiş ölüm xəncərini əlimə alıram.

Siz, ey mənim yazıq əllərim, cürətli olun! Sən, ey Medeya, ürəyini yumşaltma, yadından çıxar ki, sən onları sevirsən, yadından çıxar ki, sən onların anasısan: bircə an, bircə an üçün uşaqlarını yadından çıxar. Sonra bütün ömrün boyu onlar üçün ağla...

Ey bədbəxt! Sən onları öldürsən də, məhəbbətlərini qəlbindən qopara bilməyəcəksən! (*Medeya əlində sıyrılmış qılınc, saraya girir və qapıları bağlayır*)

Xor

BİRİNCİ STROF

Ey torpaq! Ey müqəddəs günəş, baxın, bir baxın:
O daş qəlbli, amansız, qan içən qəddar qadın
Əl qaldırdı o məsum balaların qətlinə!
Ey günəş allah, özün rəhm elə öz nəslinə!..
Aman, bu dəhşət sığmır insanın vicdanına:
İnsan əli boyanmış allahların qanına!
Sən ey müqəddəs atəş,
Amandır ram et onu!

Rədd elə, qov saraydan
O qaranlıq ruhunu,
Qan içən ifritəni!

BİRİNCİ ANTİSTROF

Sən, ey qorxunc boğazdan Simpleqaddan keçən,
Ey səfil, ey sərsəri, ey bədbəxt, ey qan içən,
Övlad qatili qadın!.. Onları niyə doğdun?
Neçin o məsumları öz qanlarında boğdun?
Bir gör nələr gətirdi başına azğın qəzəb!..
Sən, ey cəfakar ana, söylə, nə oldu səbəb
Ki, qəlbindən müqəddəs ana eşqi yoxladı,
Yerində qan, intiqam, ölüm arzusu qaldı?!

Vay olsun bu dünyada
Əqrəba qanı tökən
Cəfakar insanlara!
Allahlar nəsil-nəsil
Qəzəb edər onlara!

Saraydan Medeyanın oğlanlarının fəryadı eşidilir.

Birinci oğul. Ay aman, biz neyləyək, anamızın əlindən haraya qaçaq?

İkinci oğul. Ah, əziz qardaşım, biz yazıqlar məhv olduq!

Xor

Eşitdinizmi? Bu səs uşaqların səsidir!
Ah, ey bala qatili! Bu bala naləsidir!..
Biz neyləyək, gedəkmi, ona mane olaqmı?
Balaları ananın pəncəsindən alaqmı?

Oğlanlar. Ay aman, ay haray, qoymayın!.. Vay halımıza! Qılınc başımızın üstün aldı... Qoymayın, qurtarın!..

Xor

Sənin qəlbin daşdanmı, dəmirdənmi, ey qadın?
Onlar ki, öz qanınla bəslədiyin övladın,
Ciyərparələrindir! Necə qıydın onlara.
Ey günü-bəxti qara?!.
Eşitmişik, sənin tək bir ana da bir zaman
İki əziz oğlunu etmiş qəzəbə qurban;
Allahların qəzəbi tutub onun gözünü,
Bir sıldırım qayadan tullayaraq özünü,
Dənizdə dalğaların pəncəsində boğulmuş,
Əziz balalarıyla gedib həmağuş olmuş...
Ancaq sənin qəzəbin ondan da şiddətlidir;
Etdiyin bu cinayət ondan da dəhşətlidir.
Fəlakətlər baisi,
Ey izdivac bəstəri!
Törədən sənsən bütün
Saysız cinayətləri!

Sarayın o biri qapısından Yazon çıxıb gəlir.

Y a z o n. Ey qadınlar, siz ki, sarayın qapılarından çəkilməyibsiniz, söyləyin, bu qanlı cinayətləri işləyən arvad hanı! Saraydadırmı, yoxsa qaçmaqmı istəyir? Ancaq yerin altına da girsə, qanadlanıb buludlara da uçsa, hökmdar xanimanının intiqamından qurtara bilməyəcəkdir!

Sərsəm qadın, hökmdarı öldürüb qaçmaq, qurtarmaq xəyalına düşüb!..

Ancaq məni uşaqların qayğısı almışdır. Lənətlə ləkə vurduğu hökmdar nəslinə mənsub olanlar onun cəzasını verər; mən ancaq balalarımı xilas etməyə gəldim. Qorxuram ki, analarının intiqamını onlardan alalar.

K o r i f e y

Ey Yazon, fəlakətdən xəbərin yoxdur yəqin,
Artıq mənası yoxdur söylədiyin sözlərin!

Y a z o n. Nə fəlakət? Yoxsa məni də öldürmək fikrindədir?

K o r i f e y

Ey bədbəxt, fəlakətin bilmirsən nə müdhişdir:
Yazıq balalarını o artıq öldürmüşdür!

Yazon. Nə deyirsən ey qadın, sus! Sözlərin ölümdən də dəhşətlidir!

K o r i f e y

Əgər bilmək istəsən, belədir sözün düzü:
Uşaqları öldürdü o bədbəxt ana özü!

Y a z o n. Orada, saraydamı, yoxsa, evdən kənardamı?

K o r i f e y

Nahaq sözü uzatma, qapını aç, istəsən,
Onların cəsədini öz gözlərinlə gör sən.

Y a z o n (*xidmətçilərə*). Cəld olun ey qullar, qıfılları sındırın, qapıları açın ki, ikiqat fəlakətimi iki balamın ölümünü gözlərimlə görüm, intiqam alım!

Sarayın qapıları açılır, Medeya günəş allahının əjdahaları qoşulmuş sehrli bir gərdunə içində uçaraq zahir olur; iki oğlunun boğazı kəsilmiş cəsədləri ayaqları altındadır.

M e d e y a. Evə zorla girməkdən qəsdin nədir? Qapıları nəyə qırırsan? Nahaq zəhmət çəkmə, artıq balalarının cəsədi də orada yoxdur, burada yanımdadır. Mənə deyəcək sözün varsa, söylə. Ancaq toxunmağı xəyalına da gətirmə: mən atam günəş allahının amanındayam. Onun hədiyyə etdiyi bu gərdunə məni bütün düşmənlərimdən qoruyar!

Y a z o n. Ey allahların da, insanların da nifrətinə layiq məxluq, ey murdar əcuzə! Sən bir qılınc zərbəsilə öz məsum balalarını da, məni də məhv etdin! Bu mənfur cinayətdən sonra günəşə, torpağa baxmağa üzün də var!

Ax, məlunə! Mən indi anlayıram ki, öz nəslinə, öz vətəninə xəyanət edən səni vəhşilər diyarından ellinlər evinə gətirməklə nə böyük

bir xəta eləmişəm. Sən bizə fəlakət və həlakət gətirdin. Səni intiqam allahları mənim üçün bəla pərisi göndəriblərmiş! Sən arqonluların gözəl gəmisinə ayaq basanda artıq öz qardaşını öldürmüşdün, bu sənin ilk cinayətin imiş. Sonra, qısqanclıq və murdar ehtiraslar üçün öldürmək məqsədilə doğduğun uşaqların pak qanlarını öz əllərinlə tökdün!

Yox, yox, Ellada qadınlarından heç birinin bu mənfur cinayətə əli gəlməz! Mən hələ səni sevirdim də, sənin kimi murdar bir ilanı qəlbimin atəşilə istəyərdim!..

Yox, yox, sən qadın deyilsən, sən məchul dənizlər nəhəngi qəddar Ssila[29] ifritəsindən daha amansız bir qəlbə malik bir qaplansan!.. Ancaq mənim təlinlərim sənə bir əsər elərmi? Səni həyasızlıq bir qalxan kimi hifz edir. Rədd ol gözümdən, ey elləri, qəlbi qan ləkəli həyasız! (*Ağlayır*) Heyhat, ömrüm uzunu sevgili nişanlım və əziz balalarımın həsrətilə ağlamaqdan başqa çarəm qalmadı. (*Əllərini oğlanlarına uzadaraq*) Ah, əziz balalarım, sizi bir daha görmək mənə nəsib olmayacaq... Mən bədbəxt, mən özüm sizin ölümünüzə bais oldum!..

M e d e y a. Mən də sənə uzun-uzadı cavab verərdim. Ancaq nə lazım! Atamız Zevsin mənim məhəbbətimə, sənin xəyanətinə şahid deyilmi? Tale səni mənim iztirablarıma istehza edərək, məsud yaşamağa qoymadı. İndi artıq nə hökmdarın qızı, nə də sizə ara düzəldən Kreon özü məni bir dilənçi kimi evimdən qova bilməzlər!.. Mən sözlərimi qurtardım.

Sən Medeyaya qaplan da deyə bilərsən, ifritə Ssila da! Sən cəzanı aldın, gərək belə də olaydı! Sən mənə əzab və iztirab rəva gördün, mən də eyni qılıncla səni qəlbindən yaraladım!

Y a z o n. Sən ki uşaqları öldürməklə özünə də cəza verdin!

M e d e y a. Olsun! Bu dərd mənə xoşdur, çünki daha mənə istehza edə bilməzsən!

Y a z o n. Ah, yazıq balalarım, sizin qatiliniz öz ananız oldu!

M e d e y a. Ah, zavallı balalarım, öz atanızın qurbanı oldunuz!

Y a z o n. Onları mənim əllərim öldürməyib...

M e d e y a. Əllərin öldürməyibsə, riyakar, fitnəkar qəlbin öldürüb!

Y a z o n. Ana da qısqanclıq üçün balalarını öldürərmi?

M e d e y a. Səncə bir qadın üçün ailə yatağının ləkələnməsi, namus ləkəsi azmıdır?

Y a z o n. Düzdür, həyalı, ismətli qadınlar üçün elədir, sənin kimi bihəyalar üçün yox!..

M e d e y a. Bu həqarətlərlə balaların dirilən deyil!..

Y a z o n. Onlar özləri diriləcək, intiqam pərilərinə dönüb səni addım-addım izləyəcəklər!

M e d e y a. Allah şahiddir ki, onların ölümünə bais olan kimdir.

M e d e y a. Bəsdir, artıq, sənin qərğışların zəhləmi apardı...

Y a z o n. Sən də mənim zəhləmi tökdün... Biz çox asan ayrıla bilərik...

M e d e y a. Nə etmək lazımdır? Mən hazıram.

Y a z o n. Balalarımın cəsədlərini ver ki, onları dəfn edim, matəm saxlayım.

M e d e y a. Yox, yox, onların məzarını öz əllərimlə qazacağam. Orada dənizlərin üstündə Heranın[30] sakit meşəciyində... Orada heç bir kəs onların müqəddəs yuxusuna mane ola bilməz. Sizif torpaqlarında da onların məsum qanlarını əda üçün allahlara layiq əsrarəngiz ayinlər icra edəcəyəm. Özüm isə Erxetlər ölkəsinə, Pandion oğlu hökmdar Egeyin yanına gedəcəyəm. Sən də özünə layiq aqibətə irişəcəksən. Öz gəmin Arqonun ənqazı altında qalıb, layiq olduğun həqir bir ölümlə məhv olacaqsan!

Y a z o n. Ey uşaqların qanından törəyən Evmenidlər, ey allahların həqqaniyyəti, intiqam alın, intiqam!

M e d e y a. Müqəddəs andlarını ayaq altına alan riyakarların sözlərini ədalətli allahlar dinləməzlər.

Y a z o n. Lənətlərə gələsən, ey uşaq qatili!..

M e d e y a. Get evinə, arvadının dəfni ilə məşğul ol!

Y a z o n. Gedəcəyəm, uşaqlarsız, kimsəsiz, tək-tənha qalmış o qara zindana dönmüş evə, gedəcəyəm!..

M e d e y a. Göz yaşları tökməyə tələsmə, irəlidə hələ uzun, nəmütənahi qocalıq günlərin var!

Y a z o n. Balalarım, ah, yazıq balalarım!

M e d e y a. Onlar sənin deyil, sən onlara düşmənsən, düşmən!

Y a z o n. Onların qatili sən oldun!

M e d e y a. Bəli, səndən intiqam almaq üçün!..

Y a z o n. Yalvarıram, icazə ver bircə dəfə onların solğun dodaqlarından öpüm!

M e d e y a. İndi onları sevirsən, cəsədlərini oxşamaq istəyirsən...Bəs nəyə diri olanda onlara rəhmin gəlmədi?!

Y a z o n. And verirəm, qoy bircə o gül bədənlərinə əlimi vurum!

M e d e y a. Nə desən, nə qədər yalvarsan, boşdur!

Sehrli gərdunədə uçub gedir.

Yazon. Ey ulu Zevs, özün şahidsən ki, bu məlunə, qan ləkəli həqir məxluq, bu uşaq qatilinin əlindən nələr çəkirəm!.. Son nəfəsimə qədər çığıracaq, bağıracaq, yalvaracaq, yaxaracaq, uca göylərdən intiqam diləyəcəyəm, intiqam! (*Medeyanın ardınca*) Sən, ey məlunə, balalarımı öldürüb qoymadın bir cəsədlərini qucaqlayam! Qoymadın dəfn edəm! Ah, kaş ki sonsuz ölüb gedəydim, ananın uşaqlarını öldürdüyünü görməyəydim!

Xor

Olimp zirvələrindən qadir, Zevs qismət edər
İnsana müəmmalı min cür qəzavü-qədər.
Belədir bu dünyanın əzəl gündən gərdişi,
Allahların hökmüylə gedir insanın işi.
Burada da belə oldu, əhvalat belə bitdi,
Bu surətlə qəzanın hökmü yerinə yetdi!

Son

KOMEDİYA

QƏDİM YUNAN KOMEDİYASI HAQQINDA BƏZİ QEYDLƏR

Məzhəkə də faciə kimi şərab allahı Dionisin şərəfinə təşkil olunan mərasimlərdən doğmuşdur. Lakin o, xalq mərasim oyunları ilə əlaqədar olduğu üçün, dövlət onu öz himayəsinə almamış, əksinə, təqib etmişdir. Aristotel məzhəkəni, münbitlik bayramları münasibətilə oxunan fallik nəğmələri ilə bağlamışdır. Məzhəkənin quruluşu Aristotelin həmin fikrini təsdiq edir.

Komediya (komoidia), komos nəğmələri deməkdir. Komos, avara gənclər mənasına gəlir. Yuxarıda adını çəkdiyimiz bayramlarda avaralar dəstəsi gəzə-gəzə bəzən nümayiş şəklində gülünc, istehza ilə dolu ya tərifnamə, ya da aşiqanə nəğmələr oxuyurdular. Komos-oda həm dini mərasimlərdə, həm də məişət işlərində özünü göstərmişdir. Qədim Yunanıstanda komos-oda istismarçılara, zalım dövlət başçılarına, ölkə valilərinə qarşı mübarizədə yoxsulların əlində bir etiraz vasitəsi olmuşdur. Rəvayət edirlər ki, bir kəndli vali tərəfindən təhqir olunduğu zaman kənd cavanları dəstə düzəldərək valinin evi ətrafında həcvlər oxuya-oxuya nümayiş edirdilər. Bu bir növ ictimai məhkəmə idi. Belə nümayişlər bəzən böyük toqquşmalara, üsyanlara səbəb olurdu.

Məzhəkədə komos ünsürü özünü xorda göstərir. Misal üçün qurbağaların, arıların, quşların xoru onların səsini çıxarır. Bir çox məzhəkələr də həmin xorların adı ilə adlanmışdır.

Sonralar komos-oda inkişaf edərək ədəbi bir janr səviyyəsinə qalxır. Onun inkişaf tarixində Epixarm, Kratin, Krates, Evpolid və xüsusilə Aristofan kimi yazıçıların böyük rolu olmuşdur.

Qədim yunan məzhəkəsi daha çox siyasi pamfletlər ilə dolu idi. Bununla yanaşı Siciliyada məişət məzhəkəsi yaradılmışdı ki, Attika məzhəkəsi ilə Siciliya məzhəkəsinin birləşməsindən, yaxud da Siciliya məzhəkəsinin qüvvətli təsiri ilə qədim yunan klassik məzhəkəsi yaranmışdır. Bunun da ən görkəmli nümayəndəsi Aristofan idi.

Hər bir məzhəkə adət üzrə proloq ilə başlayırdı. Proloqda əsərin ekspozisiyası verilir və qəhrəmanın xəyalı planları aydınlaşdırılırdı.

Bundan sonra Parod (keçid) başlayırdı ki, bu zaman xor orxestrə daxil olurdu. Məzhəkədə xor adət üzrə 24 nəfərdən ibarət olurdu. Xor birbirinə zidd iki yarımxora ayrılırdı. Bu, komos ünsürü idi. Məzhəkənin arasında xor parabaza dönürdü ki, bunun əsl mövzu ilə əlaqəsi yox idi. Xor marş şəklində tamaşaçıların qarşısından keçirdi sözün də lüğəti mənası buradan doğmuşdur. Parabaz iki hissədən ibarət olurdu, birinci hissə, bir qayda olaraq, xor başçısının söhbətindən ibarət idi. O, tamaşaçılara müraciət edir, düşmənlər haqqında məlumat verir. Əsərə, işin gedişinə diqqətlə qulaq asmağı xahiş edirdi. Xorun ikinci hissəsi faciədəki strof xasiyyəti daşıyırdı. O da öz növbəsində dörd parçadan ibarət idi. Oda (nəğmə), Epirrema (təkiyeyi-kəlam) antoda və antepirrema. Göründüyü kimi, burada da xor bir-birinə zidd iki hissəyə ayrılır. Bu mübahisədə aktyor da iştirak edə bilirdi. Bundan sonra Çetalar (cütlüklər) başlayırdı ki, burada da əsas etibarilə iki tərəfin mübarizəsi, mübahisəsi verilirdi. Əsl mənada aqon (vuruş, mübahisə) başlayırdı. Aqonlar kiçik və böyük ola bilirdi. Eksodda (çıxış) xor nümayiş tərzində orxestrdən çıxırdı. Əsərin mübarizə və mübahisələrinə yekun vurulurdu.

Göstərdiyimiz bu quruluş nümunəvidir. Məzhəkə yazanların bəzisi bu planı saxlamış, bir qismi də bəzi dəyişikliklər edərək quruluşa əlavələr daxil etmişlər.

Pərdə sistemində olmayan bu məzhəkələri oxuyarkən, heç şübhəsiz, bu quruluşu yadda saxlamaq lazımdır.

ARİSTOFAN

E.ə. 450-380

A r i s t o f a n qədim yunan klassik məzhəkəsinin banisi və yeganə nümayəndəsidir.

Onun həyatı haqqında məlumat olduqca azdır. O, Kidafin əyalətində anadan olmuşdur; ilk uşaqlığını Egine adasında keçirmişdir. Buna baxmayaraq Afina vətəndaşı hesab olunurdu. Gənc yaşlarından məzhəkə yazmağa başlamışdır. Təqibdən qorxduğu üçün, ilk əsərlərini "Kallistrat" imzası ilə buraxmışdır.

Aristofan öz məzhəkələrində daima dövrün ən nüfuzlu demaqoqlarından olan Kleona sataşdığı və onu kəskin surətdə həcv etdiyi üçün, Kleon onu təqib etdirmiş, iki-üç dəfə məhkəməyə vermişdir. Buna baxmayaraq, Aristofan təxminən hər məzhəkəsində bu və ya başqa münasibətlə Kleonu tənqid etmiş, onun hərbçi siyasətini, daxildə qoyduğu ağır vergilərin nəticələrini, özünün dövlət xəzinəsinə əl atdığını göstərmişdir. "Atlılar" adlı məzhəkəsində o, Kleonun eybəcər simasını vermək lə bərabər, özü də bir aktyor kimi həmin rolu ifa etmişdir.

Aristofan 40 qədər məzhəkə yazmışdır. Bunlardan bizə on biri gəlib çatmışdır. "Axarnyanlar", "Atlılar", "Buludlar", "Arılar", "Sülh", "Lisistrata", "Fesmofori bayramında qadınlar", "Qurbağalar", "Xalq məclisində qadınlar", "Sərvət".

Aristofan yaradıcılığının ən yetkin dövrü Peloponnes müharibəsi illərinə və Afina quldarlıq demokratiyasının dərin daxili böhran keçirdiyi bir vaxta təsadüf edir. Afina demokratiyasının başçısı Perikl V əsrin otuzuncu illərində işğalçılıq siyasətinə uyaraq 431-ci ildə Sparta əleyhinə aqressiv bir nitq söyləmişdi; bunun arxasınca Afina orduları Spartaya qəflətən hücuma keçmişdilər. 431-ci ildə başlayan Peloponnes müharibəsi 404-cü ildə Afinanın məğlubiyyəti ilə bitmişdi. Xüsusilə, müharibənin ikinci ilində vəba xəstəliyindən ölən Periklən sonra dövlət başına keçmiş demaqoqlar Perikl siyasətinin ən aqressiv

xəttini davam etdirmişlər və Afinanı həm xarici, həm də daxili cəhətdən zəiflətmişdilər. Qeyd etmək lazımdır ki, bundan sonra Afina demokratiyası bir də əvvəlki vəziyyətini əhya edə bilməmişdir.

Aristofan öz məzhəkələrində ağır böhrana düşmüş Afinanın ictimai-siyasi düşkünlüyünün qüvvətli, cəsarətli və düzgün tənqidini vermişdir. Onun əsərlərində, o zamanki Afina cəmiyyətinin bütün təbəqələrini – dövlət adamlarını, sərkərdələrini, filosoflarını, kiçik, böyük məmurlarını gülünc şəkildə görmək olar. O, şəhərliləri, kəndliləri, qulları, onların həyatını, düşüncə və mühakimələrini cəsarətlə təsvir edib verir. Bəzən karikatura şəklində verilmiş surətlər böyüyüb tipikləşir və ümumiləşir.

Aristofanın əsas tənqid hədəfi işğalçı xasiyyət daşıyan Peloponnes müharibələri, daxildə isə dövlət başçılarının yürütdüyü ağır iqtisadi siyasət idi. Gün-gündən demokratiyanın müqəddəs prinsipləri yoxalırdı. Hərbi diktatura, möhkəmlənirdi. Müharibə ölkəni dilənçi vəziyyətə salmışdı; yoluxucu xəstəliklər başlamışdı. Müqəddəs ailə əlaqələri daxildən çürüyürdü. Aristofan isə Kleonu və onun dostlarını bu ictimai bəlanın müqəssiri bildiyi üçün, həmişə əsərlərində onları tənqid hədəfi kimi almışdır. Müqəssirlər silsiləsində tarixdə tanınmış (Kleon, Nikin, Giperbol) şəxsiyyətlər olduğu kimi, indi məlum olmayan sıravi adamlar da vardır ki, oxucu o yerləri oxuduğu vaxt çətinlik çəkir. Aristofan günün ən vacib, ən zəruri siyasi hadisələri ilə maraqlanırdı, lakin onu lazımi qədər ümumiləşdirə bilmirdi. Əsərlərində bəzi səhnələr günün felyetonu kimi səslənirdi.

Onun "Atlılar" əsəri, ən kəskin siyasi məzhəkələrindəndir. Burada Demosun (yəni xalqın) canına daraşmış demaqoqların, dövlət adamlarının işi, məqsədləri ifşa olunur. Xüsusilə, Kleon mərkəzdə dayanmışdır. Aristofan Kleonu çirkin məqsədli, xalqı ölümə, aclığa yuvarlayan, şəxsi xudbin məqsədlərlə xalqı aldadan bir demaqoq kimi vermişdir. Burada tarixi faktlar da çoxdur. Əsərin əsas mövzusu Demosa hakim olmaq üçün, onun etibarını qazanmaq üçün ayrı-ayrı dövlət adamları arasında gedən mübarizədir. Heç şübhəsiz, məzhəkədə bu mübarizə gülünc dəlillər ilə aparılır.

Bir neçə məzhəkəsində ("Axarnyanlar", "Sülh", "Lisistrata") Aristofan Peloponnes müharibəsini tənqid edir. O, müharibəni xalqın, kəndlilərin nöqteyi-nəzərindən tənqid edirdi. Bu tənqid eyni zamanda

demokratiyaya zidd olan böyük yer sahiblərinin arzusuna müvafiq idi. Aristofan, müharibənin ədalətsiz bir müharibə olduğunu izah etmir. O, ancaq onun uzun sürməsinə, nəticədə əkinçilərin əkib-biçmələrinə mane olmasına, aclığın və dilənçiliyin artmasına qarşı etiraz edirdi. O, başa düşmüşdü ki, bu müharibədən müvəqqəti də olsa müəyyən adamlar xeyir götürür. Bu məzhəkələrdə də sıx-sıx Kleonun və başqa demaqoqların adına rast gəlmək olur.

"Buludlar" əsərində Aristofanın əsas tənqid hədəfi yunan sofistikasıdır. Bu fəlsəfədə onu ən çox narahat edən əxlaq məsələləridir. Aristofana görə sofistlərin əxlaqi görüşləri, ailənin müqəddəs bağlarını qırır, gəncləri əxlaqsızlığa aparıb çıxarır. Burada əyrilik ilə düzlüyün mübahisəsi diqqəti cəlb edir. Müəllif Sokratın simasında sofistlərin dünyagörüşlərini, mühakimə üsullarını, həyata, ailəyə baxışlarını karikatura şəklində ümumiləşdirmişdir. Əsər Sokratın fəlsəfə məktəbinin yandırılması ilə bitir ki, burada müəllif öz görüşlərini belə yekunlaşdırmışdır: Bütün ailə bədbəxtlikləri, əxlaqsızlıq – hamısı həmin sofistlərdən gəlir. Aristofanın tənqid hədəflərindən biri də dramaturq Evripid və onun yaradıcılığı idi. Bu tənqid bəzən şəxsi xasiyyət daşısa da, çox zaman daha prinsipial idi. Belə ki, Aristofan Evripid dramaturgiyasına gəncliyi pozan, ailəni pis yollara aparan, əxlaqi nöqteyi-nəzərdən miskin, fəlsəfi mənası etibarilə sofistlərin dəyirmanına su tökən bir dramaturgiya kimi baxırdı. Bir çox məzhəkələrində buna kiçik işarələr var. Lakin "Qurbağalar" məzhəkəsində artıq bu məsələ baş mövzudur. Esxil ilə Evripidin deyişməsi sistemli bir ədəbi mübahisədir. Dövrün ədəbi tənqidini, onun mündəricə səviyyəsini və məfkurəvi istiqamətini başa düşmək üçün bu səhnələr çox maraqlıdır.

Yaradıcılığının ikinci dövründə Aristofan, içində yaşadığı ictimai şəraiti bilavasitə tənqiddən ziyadə, gələcək ictimai quruluş və yaxud arzu edilməsi lazım gələn cəmiyyət haqqında bir sıra utopiyalar yaratmışdır. "Quşlar", "Xalq məclisində qadınlar" məzhəkələrində belə utopiyalar verilmişdir. Bu mövzu IV əsrin başlanğıcında olduqca aktual idi. Ağır ictimai böhran, aşağı təbəqələrin yoxsul həyatı və s. yeni bir dövlət qurluşu yaratmaq arzularını meydana çıxarır. Lakin bu utopiyaların səciyyəvi cəhəti ondan ibarət idi ki, burada bütün vətəndaşlar bərabər olaraq qul zəhmətinin məhsulu ilə dolanmalı idilər. Dövlət başında mütəfəkkir ziyallar, filosoflar durmalı idi. Məlumdur

ki, yunan filosofu Aristotel "Dövlət" adlı əsərində utopik bir cəmiyyət vermişdir. Bu əsərdə o, xüsusi mülkiyyəti və ailəni ləğv etməyi təklif edirdi. Aristofan isə həmin utopiyanı tənqid edərək öz utopiyasını yaradır.

Aristofan klassik məzhəkənin formasını, onun quruluşunu müəyyənləşdirmişdir. Onun sələflərindən bizə bütöv bir əsər gəlib çıxmamışdır. Aristofan, onların əldə etdiyi nailiyyətləri birləşdirmiş, məzhəkəni səhnə əsəri halına salmışdır. Onun yaratdığı quruluş, sonralar başqa məzhəkə yazanlar üçün nümunə olmuşdur. Aristofan məzhəkədə əxlaqilik tərəfdarı idi. O, söyüşlər, ədəbsiz sözlər, bayağı hərəkətlər vasitəsi ilə gülüş yaradan sələflərini kəskin surətdə tənqid etmişdir. Lakin buna baxmayaraq, Aristofanın öz əsərlərində belə bayağı sözlərə, ədəbsiz, qaba cümlələrə rast gəlmək mümkündür. Aristofan tənqiddə çox cəsarətli idi. Onun tənqidləri çox kəskin idi. Gülüşü sürəkli və ictimai məzmunlu idi. Hətta ədəbiyyatda "Aristofan gülüşü" deyə bir istilah da vardır.

Onun məzhəkələri bir çox cəhətdən indi də öz qiymətini itirməmişdir.

ATLILAR

İŞTİRAK EDƏNLƏR:

Xalq – Demos (yunanca xalq deməkdir) – əldən düşmüş bir qoca.
Daba – Kleon
Kolbasaçı – Aqorakrit
Birinci qul – Niki
İkinci qul – Demosfen
Xidmətçilər
Sülh pəriləri
Xor – iyirmi dörd atlı – gənc Afina əyanlarından ibarət xor.

PROLOQ

Səhnə. Demosun evi. Birinci qul (Niki) ağlaya-ağlaya qapıdan qaçaraq çıxır.

Niki[1]

Ay aman! Vay halıma! Vay halıma! Ay aman!
Allahlar qənim olsun məlum paflaqonluya,[2]
Yox etsinlər bu yeni bəlanı üstümüzdən!..
O hiyləgər bu evə ayaq basandan bəri,
Döyülüb-söyülməkdən göz açmır evdə heç kəs...

İkinci qul (Demosfen) yüyürə-yüyürə gəlir.

Demosfen

Ağzın fal olsun görüm!..
Görüm qəzəbə gəlsin o zalım paflaqonlu!..

Niki

(*Demosfeni görərək*)

Nə var, nə yox, necəsən?

Demosfen

Mən də sənin günündə, əla!

Niki

Bəri gəl görək!
Gəl birgə ahü-nalə edək Olimp[3] eşqinə...

Hər ikisi fleyta çalmağı yamsılayaraq, ulaşırlar.

Demosfen

Dayan, bəsdir, a qardaş, nə çıxar zarımaqdan?
Bəladan qurtarmağa, gəl, bir çarə axtaraq...

Niki

Bəs neyləyək?

Demosfen

Sən söylə!

Niki

Yox, yox, sən söylə görüm!
Mənim dilim gəlməyir...

Demosfen

Zevs haqqı, söz tapmıram!

Niki

Mən ölüm, gəl sən mənim
Dərdimi dinlə, sonra özün tərcümanım ol![4]

Demosfen

Yaxşı, sən cürətlə de, mən də sonra söylərəm.

Niki

Ürəyim gəlmir axı... Bir də Evripid kimi,
Mahiranə, axıcı, rəvan sözlər tapmıram...

Demosfen

Yox, canım, Evripidin turpu nə lazım bizə?[5]
Bu ağanın yanından qaçmağa bir çarə tap!..

Niki

Yaxşı, onda dalbadal söylə görüm: "Gəl cı"...

Demosfen

Yaxşı, söyləyim: "Gəl cı"...

Niki

İndi bir də "raq" artır onların axırına!

Demosfen

Necə "raq"?

Niki

Hə, "raq" artır, indi dalbadal söylə"!

Demosfen

Gəl-cı-raq, gəl cıraq!..

Niki

Hə, necədir, xoşladın?

Demosfen

Xoşlamağa xoşladım, ancaq düzü qorxuram,
Dərimizi soyarlar!..

Niki

Niyə ki?

Demosfen

Bilmirsənmi,
Döyə-döyə adamın soyarlar dərisini!..

Hər ikisi kədərlə susur.

Niki

Bu bəladan canımızı qurtarmaqçın gəlsənə
Məbədə səcdə edib, allahlara yalvaraq!

Demosfen

Nə məbəd? Allahlara inamın varmı sənin?

Niki

Əlbət ki!

Demosfen

Bəs o niyə?

Niki

Ay axmaq, çünki mənim
Allahlar düşmənimdir... Deməli allahlar var!..

Demosfen

Düzdür! Ancaq başqa bir çarə yoxdur görəsən?
Gəl tamaşaçılara söyləyək dərdimizi!

Niki

Çox gözəl, onda bir də xahiş edək onlardan,
Açıqca söyləsinlər, görək oyunumuzu
Bəyənirlərmi onlar,

Demosfen

Yaxşı, onda başlayım:

(*tamaşaçılara*)

Əziz tamaşaçılar! Bizim bir ağamız var:
Paxla yeməkdə qoçaq, əldən düşmüş bir qoca,
Özü də qulaqdan kar, ətiacı, bədrəftar,
Onun adı Demosdur, ləqəbi də küt, qanmaz.
Keçənlərdə bazardan bir qul alıb özünə;
Qul, nə qul paflaqonlu, sənəti də ki, dabbaq;
Bu bədzat, bu kələkbaz hər hiylədə ustadır:
Gələn kimi tez girib ağanın qılığına,
Hər sözə "bəli-bəli" söyləyib yaltaqlanır,
Şirin, yağlı, riyakar dillər tökür bu sayaq:
"Vəlinemətim Demos! Bəsdir üzülmə, dincəl,
Ye, iç, rahat yıxıl yat! Bu da sənə üç quruş![6]
Əmr edirsən hüzura təqdim edim naharı..."
Belə deyib ağaya biz bişirən təamı
Təzimlə təqdim edir, qulluq göstərir alçaq...
Bu yaxında, Pilosda mən yağlıca bir şorba
Bişirmişdim ki, dadı damağından getməzdi...[7]
Məlun oğlu yüyürüb qapdı onu bir anda,
Təqdim etdi ağaya, əlbət ki, öz adından!..
Bizi qulluq etməyə qoymur əsla, qovlayır;
Özü də bir dərini ağanın başı üstə

Yelpic kimi yelləyir, qaçırdır natiqləri.
Cürbəcür fallar açıb doldurur qulağını:
Yazıq qoca ağlını itirib, maymaqlaşıb...
Dabbaq buna sevinir, bizə böhtan ataraq,
Şallaq ilə döydürür; sonra qaçıb aləmə
Hay-küy salıb qorxudur, hədələyir hamını;
Deyir ki, "Gördünüzmü necə döydürdüm qulu?
Mənə boyun əyməyən şallaq altında ölər!.."
Bu sayaqla hamıdan rüşvət alır o zalım;
Biz də ki, verməliyik, neyləyək, çarə nədir!
Yoxsa ağa elə bir düdəmə gələr bizə
Ki, dünya gözümüzdə gönə dönər, qaralar...

(*Nikiyə*)

Yaxşı, dostum, indi gəl yenə çarə axtaraq.
Görək harda, nə sayaq, nə yol, hansı çarə var?

N i k i

Nə yol, nə çarə? Bircə, tez ol, qaçaq, qurtaraq!

D e m o s f e n

Ay hay! Paflaqonlunun gözündən qaçmaq olar?
O ki, hər şeyi görür, o ki, hər şeyi bilir!
Bir ayağı Pilosda, bir ayağı məclisdə,
Bax, bu sayaq!..

(*Ayaqlarını geniş ayırır*)

Sarğısı Aşırım ölkəsində
Bir əli Oğrustanda, biri Rüşvətistanda!..[8]

N i k i

Görünür onda bizim bir çarəmiz var: ölmək!..

D e m o s f e n

Ancaq ölsək də, gərək ləyaqət ilə ölək!

N i k i

(*fikirli*)

Axı necə ləyaqət? Ölməyə nə ləyaqət?
Yaxşı, gəl öküz qanı içib intihar edək!
Femistoklun ölümü[9] ən gözəl bir ölümdü...

D e m o s f e n

Yox, öküz qanındansa, gözəl şərab yaxşıdır,
Gözəl fikirlər verir insana gözəl şərab!

N i k i

Sənin də fikrin-zikrin şərabdadır həmişə!
Nə fikirlər olacaq məst adamın başında?

D e m o s f e n

(*tamaşaçılara*)

Ay-hay, bu qurbağanın sözlərinə bir baxın!
Şərabı pisləməyə necə cürət edirsən?
Şərabdan da faydalı bir şey varmı cahanda?
Məst adamda tapılar yenə dövlət, səxavət,
Məst adam məsud olar; zirək, diribaş, qoçaq,
Düşmən üçün amansız, dosta mehriban olar,
Tez ol, a dostum, tez ol, mənə şərab gətir ki,
Beynimi yusun bir az, fikirlərə yol açsın!

N i k i

Ancaq bu sərxoşluqda bir fayda görmürəm mən...

Demosfen

Görərsən, tez ol, tərpən!

(*Niki qaçaraq gedir*)

Mən də uzanım bir az,
Fikirləşim, görüm ki, şərab içəndən sonra
Bəladan qurtarmağa nə yol, nə çarə deyim...

Niki bir tuluq çaxır və piyalə ilə baxına-baxına gəlir.

Niki

Gizlincə çırpışdırdım, heç kəs xəbər tutmadı.

Demosfen

Bəs məlun paflaqonlu hansı cəhənnəmdədir?

Niki

Müsadirə edilmiş kökələrdən ötürüb,
Qarnı şişincə içib, indi yatır xorhaxor...

Demosfen

Onda qədəhi doldur, köpüklənsin al şərab!

Niki

(*tökərək*)

Mehriban iblislərə dua eylə, unutma!

(*qədəhi Demosfenə verir*)

Pramia[10] iblisinin bəxşişini al, ötür!

Demosfen

(*içərək*)

Sən, ey mehriban iblis, icadına afərin!

Niki

İndi fərmanın nədir?

Demosfen

İndi ki, paflaqonlu
Köpək kimi köpübdür, durma, onun falçılıq
Dəsgahını gətir gəl!

Niki

Bax, bu gözlərim üstə!

(*Öz-özünə*)

Ax, sənin o mehriban iblisin görək mənim
Bu bəlalı başıma nə bəla gətirəcək!..

Qaçaraq gedir.

Demosfen

(*tamaşaçılara*)

Mən şərabdan bir azca içim, o gələnədək
Beynimi yusun bir az, fikirlərə yol açsın...

İçir. Niki cədvəlləri gətirib gəlir.

Niki

Dabbaq orda elə bir xorhaxor qoparıb ki,
Gözünün bəbəyi tək qoruduğu bunları
Çırpışdırıb gətirdim; əsla xəbər tutmadı

Demosfen

Afərin, sağ ol, qoçaq! İndi şərabdan tök ver,
Mən də bunu oxuyum...

(*Cədvəli alır*)

Görüm nələr yazılıb;

(*Oxuyur*)

Aha, nə dərin hikmət!..

(*Nikiyə*)

Tez ol, bir qədəh şərab!..

N i k i

(*qədəhi verərək*)

Al, bəs fal necə oldu?

D e m o s f e n

Tez ol, bir də tök görək!

N i k i

"Tez ol, bir də tök" deyə, yazılıbmı cədvəldə?

D e m o s f e n

(*cədvəli oxuyur*)

Ey böyük Bakid[11]!..

N i k i

Necə?

D e m o s f e n

Tez ol, qədəhi doldur!

N i k i

Görünür Bakidin də xoşu varmış badəyə!..

D e m o s f e n

Ax rəzil paflaqonlu! Görünür öz barəndə
Burda yazılan faldan qorxurmuşsan!

N i k i

Hə? Necə?

D e m o s f e n

Burda onun nə cür məhv olacağı yazılıb...

N i k i

Necə ki?

D e m o s f e n

(*dəbdəbəli*)

Açıq-aşkar göstərilib hər nə var:
Əvvəl, hər şeydən əvvəl, gəlib kəndir taciri
Şəhrin ixtiyarını öz əlinə alacaq.

N i k i

Hələ ki, bir tacir var... Bəs sonra kim gələcək?

D e m o s f e n

Sonra da bir başqası, qoyun-keçi çodarı...

Niki

Yenə tacir? Bəs onun nə gələcək başına?

Demosfen

Sonra ondan da xəbis birini tapacaqlar;
O ağalıq edəcək; sonra da rədd olacaq...
Ondan sonra boşboğaz, dəyirmantək gurlayan,
Paflaqonlu bir dabbaq hökmranlıq edəcək...

Niki

Deməli ki, çodarı dabbaq yıxacaq? Yəqin
Qədərin hökmü budur?

Demosfen

Özün aşkar görürsən...

Niki

Nə fəlakət!.. Görəsən başqa bir tacir yoxmu?

Demosfen

Hələ dördüncü də var; əla peşə sahibi!..

Niki

O kimdir?

Demosfen

Söyləyimmi?

Niki

Lütf elə, söylə görüm!

Demosfen

(*dəbdəbəli*)

Bir Kolbasaçı gəlib dabbağı endirəcək?

Niki

Kolbasaçıma dedin? Ay allahlar, nə gözəl!
Bəs bu kolbasaçını hardan, tapacağıq biz?

Demosfen

Taparıq!

Bir kolbasaçı, əlində kolbasa dolu bir tabaqla orxestrə çıxır.

Budur, bir bax, allahların hökmilə
Özü gəldi!.. Deyəsən, bazara sarı gedir...

(*Bağırır*)

Bura bax, ey möhtərəm kolbasaçı, bura bax!
Sən bizim ölkəmizin pənahısan, bəri gəl!

Kolbasaçı

Baş üstə, buyur, buyur, hansından istəyirsən?

Demosfen

Dostum, qulaq as mənə,
Bəxtindən, taleyindən gözəl xəbərlər verim...

Kolbasaçı səhnəyə yanaşır.

Niki

Tabağı qoysun yerə; sən də falını söylə,
Qoy kişi öz gələcək səadətini bilsin;
Mən də gedim dabbağa göz yetirim gizlicə...

(*Gedir*)

Demosfen

(*Kolbasaçıya*)

Əvvəlcə tabağını yerə qoy, bir rahat ol!

Kolbasaçı tabağı yerə qoyur.

İndi də bu torpağa, allahlara səcdə et!

Kolbasaçı

(*səcdə edərək*)

Yaxşı, sonra nə olsun?

Demosfen

Salam, ey nəcib kişi!
Bu gün heç bir şey olan sabah hər bir şey olar!
Salam, ey əzəmətli Afinanın hakimi!

Kolbasaçı

Bu nə işdir, əzizim? Nə kolbasa alırsan,
Nə də ki, boğazımı yaşlayırsan, üstəlik
Bir də lağa qoyursan!..

Demosfen

Ay axmaq, boğaz nədir? Bir bura bax, gör nə var!

(*Tamaşaçıları göstərir*)

Bax, orda o minlərcə adamı görürsənmi?

Kolbasaçı

Əlbəttə ki, görürəm...

Demosfen

Bunların hamısına –
Bazarlara, məclisə, bargaha, hər bir şeyə,
Sən hakim olacaqsan! Şura sənin əlində
Bir oyuncaq olacaq... Bütün sərkərdələri
Mühakimə edəcək, bəzəyəcək, qırxacaq,
Qızları çəkəcəksən kefçin Pritaneyə[12]...

Kolbasaçı

Kim? Mənmi?

Demosfen

Əlbəttə, sən!.. Hələ bunlarda nə var!
Bura, bir az yuxarı, bir bura dırmaş görüm!
Dənizi, adaları görürsənmi, bax, orda?

Kolbasaçı

Hamısını görürəm.

Demosfen

O yüklü gəmiləri?

Kolbasaçı

Görürəm, hə, görürəm...

Demosfen

Bir gör, sən nə xoşbəxtsən!
İndi də sağ gözünlə Kariyaya sarı bax,
Sol gözünlə Karfagen sahillərini seyr et!

Kolbasaçı

Gözlərim çaş olar ki, görünür ki, doğrudan
Mənə kəc bir səadət nəsib olacaq, eyvah!

Demosfen

Yox, ey qüdrətli hakim! Falda belə deyilir:
Bütün burda nə varsa, sən satıb-sovacaqsan...
Falın dümdüz çıxacaq!..

Kolbasaçı

Axı necə, nə sayaq,
Adi bir kolbasaçı yekə adam olacaq?

Demosfen

Elə iş də bundadır: sən həyasız, şərəfsiz,
Rəzil, boşboğaz, alçaq olduğuna görə də
Böyük mənsəb sahibi bir adam olacaqsan!

Kolbasaçı

Yox, yox mən heç özümdən bədgüman-zad deyiləm.

Demosfen

Ax, aman ay allahlar! Axı niyə, a kişi?
Yoxsa, şərəfli-şanlı bir keçmişin var sənin?
Yoxsa adlı əcdadın, əslin-nəcabətin var?

Kolbasaçı

Yox, yox, buna əmin ol: nanəcibəm, bədəsil!

Demosfen

Onda bəxtin açıqdır, xoşbəxt doğulmusan sən!

Kolbasaçı

Axı bir də, əzizim, mənim savadım azdır...
Güclə-zorla bir az-maz oxumağı bilirəm.

Demosfen

Hayıf, hayıf... Heç gərək onu da bilməyəydin!
Fitnəkarlıq etməyə nə məlumat, nə savad?
Bu iş nəcib-namuslu adamın işi deyil,
Cahillərin, nahamvar avamların işidir...
Dostum, indi qulaq as, bir gör Febin falında
Nə deyilir.

Kolbasaçı

Nə var ki?

Demosfen

Zevs haqqı, çox gözəldir,
Çox hikmətli sözlərdir, ancaq məna cəhətdən
Bir azca qarışıqdır, çətin başa düşərsən...

Təntənəli bir ahənglə cədvəli oxuyur.

"Ol gün ki, qəzanın qəzəbilə iti caynaq qara-qartal
Qanlar soran ol əfi ilanla görüşüb üz-üzə gəldi.
Naoud olacaq Paflaqonun kirli həfidi və o gündən
Kolbasçılar övladı olub şanü-şərəflə nücəbadən,
Allahların əmrilə daha əl çəkibən kolbasalardan
Hakimliyə nail olacaqdır, əbədi şöhrət içində..."

Kolbasaçı

Yaxşı, bundan mənə nə? Yaxşı başa sal görüm?

Demosfen

"Qara qartal" Paflaqon itinin ləqəbidir.

Kolbasaçı

Bəs "iti caynaq" nədir?

Demosfen

Haman caynaqlarıyla
Yurdun bütün varını qamarlayır o alçaq...

Kolbasaçı

Bəs "ilan" nə deməkdir?

Demosfen

Bu ki, aşkar bir şeydir:
Bilmirsən ki, ilan da, kolbasa tək uzundur?
İlan qan sovurandır, kolbasa qandan olur...
Fal deyir ki, qartalı tələf edəcək ilan,
Hakim olacaq, əgər əl çəksə peşəsindən!..

Kolbasaçı

Eləsə, mən razıyam, ancaq bir şey də var ki,
Bilmirəm hökuməti necə idarə edim.

Demosfen

Buna nə var ki? Yenə əvvəlki peşən kimi,
Döy, əz, sonra bunları yaxşıca qat-qarışdır,
İstiot vur, duz vur, yağla; bir də üstüörtülü
Şirin sözlər də işlət, qat acıya şirini...
Müxtəsər ki, boyuna biçilib fitnə-fəsad,
Hakim ola bilməyə hər nə desən, səndə var:
Özün bazar adamı, heyvərə, səsin də gur...
Bil ki, falda bəxtinə hökmranlıq yazılıb:
Çələngi tax başına, allaha dua eylə,
Düşmənlərə döyüşdə sənin müinin olsun.

Kolbasaçı

Yaxşı, bəs özümüzə tərəfdar harda tapaq?
Dabbaq dövlətliləri salıb qorxu-ürküyə,
Kasıbların da ondan zəhləsi gedir tamam...

Demosfen

Tərəfdar çox tapılar, – minlərcə atlılar var,
Onlar hamısı yəqin tərəfdar olar bizə.
Bizimlə əlbir olar, namuslu vətəndaşlar,
Bir də ki, düşüncəli, zəngin tamaşaçılar...
Apollon da bu işdə kömək eləyər bizə...
Düzdür, bizim aktyor taxdığı maskasından
O qədər də bənzəmir əsl paflaqonluya.
Ancaq tamaşaçılar hamı arif adamdır,
Hamı yaxşı tanıyır onun kim olduğunu...

Kolbasaçı

Ay aman, paflaqonlu özü gəlir deyəsən!..

Orxestrdə o yan-bu yana qaçır. Kleon qızışmış halda yüyürə-yüyürə gəlir.

Kleon

Allahlara and olsun, xalqa qarşı bəd əməl
Qəsdindən siz özünüz peşman olacaqsınız!

(*Demosfenin içdiyi qədəhi görür*)

Aha, bəs bu Xalkida qədəhi nədir burada?
Demək üsyan qaldırmaq istəyirsiniz orda!
Rədd olsunlar məlunlar! xainlərə ölüm, qan!

(*Kolbasaçını qovalayıb tutmaq istəyir*)

Demosfen

Hey, hey! Hara qaçırsan? Qayıt, ey alicənab!
Ey əziz Kolbasaçı, yetim qoyma ölkəni!

BİRİNCİ ÇETA

PAROD

Demosfen

(*bağırır*)

Ay atlılar, igidlər! Dada çatın, amandır!
Ey Simon! Ey Paneti! Yetişin sağ cinahdan!

(*Kolbasaçıya*)

Gəlirlər, sən də qayıt, döyüşə gir, qorxma ha!
Bir bax, toz göyə qalxır, bizə kömək yetişir!
Haydı, cürətlə vuruş, qov önündən!

İki yarım xora bölünmüş iyirmi dörd atlıdan ibarət xor orxestrə girir.

Birinci yarımxor başçısı

EPİRREMA

Vurun, vurun o alçağı vurun o müftəxoru!
Vurun, acgöz tüfeylini, qan soran hörümçəyi!
Vurun, vurun o rəzili, vurun, vurun xaini!
Çoxdur onun bidətləri, çoxdur onun günahı.
Vurun, vurun baş-gözünə, yanına-yanbızına!
Tüpürün o pis üzünə, hücum edin, qoymayın,
Qoymayın ki, qaçıb gedər, o qoçaqdır qaçmağa
O Pniksi[13] qoyub qaçan Evkrat tək qoçaqdır!..

(*Atlılar Kleonu qovalayırlar*)

Kleon

(*qaça-qaça*)

Ey rəislər, hakimlər! Ey üç quruşluq dostlar![14]
Mən ki, əyridən-düzdən sizə bol-bol yedirtdim!
Gəlin, çatın dadıma, xainlər döyür məni!..

İkinci yarımxorun başçısı

(*dəstəsilə Kleonun qabağını kəsir*)

ANTEPİRREMA

Cəzandır, çək! Sən ki, payı haqq-hesabsız yeyərdin!
Sən ki, məhkum olanların axtarardın cibini.
Rüşvət üçün can verərdin, can alardın hamıdan,
Vətəndaşlar arasından cibi dolu, başı boş
Adamları axtarardın, keçirərdin pəncərə;
Xersonesdən çağırardın məhkəməyə onları,
Soyub sonra dilənçi tək salardın burdan yola...
Rədd ol, rədd ol! Hamı sənə nifrət edir, a məlun!..

Kleon

Siz də məni qovursunuz? Mən ki, sizi sevirəm,
Bu cəzanı sizin üçün çəkirəm mən, a dostlar,
Mən sizə bir heykəl qoymaq istəyirdim, ah, əfsus!..

Xor başçısı

SON EPİRREMA

Bu hiyləgər alçağa bax, bunun felinə bir bax!
Bizi qoca hesab edib dilə tutur bu axmaq...
Bir yaxın gəl, gör dadını vuracağım zərbənin
Hara qaçsan, qol-qabırğan əziləcək, əmin ol!..

Kleon

(*bağırır*)

Yetiş, ey Xalq! Ey şəhər! Qurdlar yedilər məni!

Demosfen

Çığırmaqda qoçaqsan!.. Çaxnaşdırma şəhəri!

Kleon

Mən nərəmlə səni də qaçırdaram önümdən!

Demosfen

(*bir kənarda durmuş Kolbasaçını göstərir*)

Hünərin var, onu qov! Onda sənindir çələng...
Əgər o qalib gəlsə, bizim olacaq zəfər!

Kleon

Omu, o qaçaqçıdır, ittiham edirəm onu,
Kolbasanı kəndirə satır Peloponnesə![15]

Kolbasaçı

Qaçaqçı sən özünsən! Pritaneyə qarnı boş
Gedib orda tıxayıb doldurarsan motalı!

Demosfen

Düzdür, düzdür, qadağan çörək, yağ, ət, kolbasa,
Nə varsa, ötürərsən, doldurarsan qarnını!
Heç belə ziyafəti Perikl də görməyib...

Kleon

(*bağırır*)

Canın çıxar bir nərəmdən!

Kolbasaçı

(*bağırır*)

Səndən də bərk çığırram mən!

Kleon

(*daha bərkdən*)

Bir bağırsam, bağrın çatlar!

Kolbasaçı

(*daha bərkdən*)

Təpik vursam, qarnın partlar!

Kleon

İsbat edərəm – xainsən!

Kolbasaçı

Özün edama layiqsən!

Kleon

Hərzə-hərzə donquldanma!

Kolbasaçı

Lovğalığa çox aldanma!

Kleon

Gözümün içinə bir bax!

Kolbasaçı

Mən bazar əhliyəm, axmaq!

Kleon

Səni lap yerə soxaram!

Kolbasaçı

Tüpürsəm, səni boğaram!

Kleon

Açıq deyim: oğruyam mən;
Bunu deyə bilməzsən sən!

Kolbasaçı

Oğurluğa mən də varam,
Oğrunu da oğurlaram!..

Kleon

Cibə girən, cibgir, hay-hay...

(*Hay-küy qoparır*)

Mən aləmə sallam haray:
Daim qurban ətlərindən
Oğurlayıb satanda sən,
Allahların şərəfinə
Ondan bir pay verməlisən!..

İKİNCİ ÇETA

KİÇİK AQON

Birinci yarımxor

ODA

Ey alçaq, ey həyasız, ey utanmaz heyvərə!
O murdar işlərindən
Dünya cəzana gəlib, təngə gəlibdir Pniks,
Məhkəmələr, meydanlar,
Bazarlar və dükanlar...
Sən, ey naqqal müqəvva,
Çaxnaşdırdın şəhəri,
Alt-üst etdin hər yeri!..
Müqəddəs Afinanı təngə gətirdi nərən,
Qonub qaya üstünə
Bir qarabatdaq kimi,
Bizim müttəfiqlərdən bac-xərac da güdürsən!

Kleon

Bilirəm hədənizin astarını-üzünü...

Kolbasaçı

Astardan başın çıxar, mən ət tanıyan kimi,
O yazıq kəndlilərə əyri-üyrü biçərək,
Çürümüş dəriləri satmağa çox qoçaqsan!
Bircə günün içində dağılır çəkmələri...

Demosfen

O mənim də başıma bir belə iş gətirdi;
Dost-aşna güldü mənə, biabır oldum tamam,
Perqasa[16] yetişməmiş qaldım lap ayaqyalın...

İkinci yarımxor

Sən əvvəldən qabasan,
Həm heyvərə, həm axmaq!
Sən kimi alçaqların,
Abrı-hayası olmaz!
Soymaqda birincisən, teatrda birinci;
Qippodam oğlu[17], yazıq dal cərgədə sıxılır...
Bəxtimizdən, nə yaxşı bir başqası tapıldı,
Səndən daha həyasız, səndən daha hiyləgər!
Sənin öhdəndən, əlbət, ancaq beləsi gələr!
Abrı yox, həyası yox,
Hiylədə ustadır çox!

Birinci yarımxorun başçısı

İndi göstər, ay qoçaq, görək zatında nə var,
Göstər ki, boş bir işdir elm oxumaq, mərifət!

EPİRREMA

Kolbasaçı

Qoyun mən deyim sizə bunun kim olduğunu...

Kleon

Əvvəl gərək mən deyəm!

Kolbasaçı

Mən də sən tək oğruyam!

Demosfen

Razı qalmasa, söylə: "Oğruyam əslən-nəslən!"

Kleon

Bir qoysana danışam!

Kolbasaçı

Qoymaram!

Kleon

(*ona hücum edir*)

Yox, qoyarsan!

Kolbasaçı

Sənə dedim qoymaram! Gəlirsən, gəl, bu meydan!
Çirməyim qollarımı, gəl, vuruşaq, gəl, görək!

Vuruşurlar. Kleonu döyürlər.

Kleon

Hirsimdən çatlayıram!

Kolbasaçı

(*hirslə*)

And içmişəm, qoymaram!

Demosfen

Niyə qoymursan, burax, çatlayır, qoy çatlasın.

Kleon

Sən kimsən ki, mənimlə bəhsə cürət edirsən?

Kolbasaçı

Səndən əksik deyiləm naqqallıqda, yalanda.

Kleon

Bu meydana girməyə dilli, dilavər gərək!
Bir iş üstü açmağı bacar görüm, ay qoçaq!
Bilirsənmi mən kiməm? Sənin tək naqqallardan
Bir naxır da yığılsa, mənlə bacara bilməz!
Görəsən hansı küncdə-bucaqda bir qəribə,
Bir fəqir mühacirə rast gəlib iş udubsan...
Onda da gecə-gündüz mırıldanıb sərasər,
Qarğa beyni yeyən tək donquldanıbsan yəqin,
Zəhləsini tökübsən, əlbət, dostun-aşnanın,
Natiq hesab edirsən özünü sən, ay axmaq!

Kolbasaçı

Bəs sən hansı sehrli iksirdən içibsən ki,
Şəhəri dəng edəsən, bir kəs dinməyə gərək?

Kleon

Hardan tapa bilərsən mənə bərabər adam,
Ki, bir tikə şor balıq, bir qədəh tünd şərabla
Vəcdə gəlib bağıra, belə ki, hüzurunda
Pilos sərkərdələri əyilib təslim ola!

Kolbasaçı

Mən də bol yağlı tikə, qaraciyər ötürsəm,
Bir güvənc şorba içsəm, sonra lap bir nəfəsə
Nikini də, səni də, bütün naqqalları da
Qataram bir-birinə bir anda, bir həmlədə!

Demosfen

Qiyamət danışırsan... Bir şeyə yoxam ancaq:
Şorbanı təkcə özün ötürmək istəyirsən!

Kleon

Öküz də yesən Milet əhlilə bacarmazsan!

Kolbasaçı

Bol soyutma yesəm lap mədənləri alaram...

Kleon

Qoy şuraya qayıdım bir küy salım ki, orda

Kolbasaçı

Sənin bağırsağını dolaram ayağına!

Kleon

Bir təpiklə mən səni salam ordan bayıra!

Demosfen

(*ona hücum edir*)

Elə isə, məni də! Biz onunla əlbirik!

Kolbasaçıya kömək edir. Vuruşurlar. Yenə Kleonu döyürlər.

Kleon

(*bağırır*)

Qəlibə salam səni!

Kolbasaçı

(*bağırır*)

Doğraram hər tikəni!

Kleon

(*daha bərkdən*)

Lap gönünü soyaram!

Kolbasaçı

(*daha bərkdən*)

Səni duza qoyaram!

Kleon

Səndən çarıq tikərəm!

Kolbasaçı

Səni qiymə çəkərəm!

Kleon

Ütərəm kipriyini!

Kolbasaçı

Əridərəm piyini!

Demosfen

Bax, belə ha! Sonra biz,
Aşpaz kimi ikimiz
Şaqqalarıq, yararıq,
Dilini, qopararıq,
O donuz xirtdəyini,
Leşini, cəmdəyini,
Yekə, piyli sağrını,
Ciyərini-bağrını

Doğrarıq, parçalarıq,
Lap canını alarıq!..

İkinci yarımxor

ANTODA

Daş qayaya rast gəlib, dinləyin, seyr edin bir.

Bu qəribə dalaşma
Qızışacaq get-gedə...
Düz çıxır hesabımız:
Az qalıb nəticəyə.
Gücdən düşübdür düşmən,
Qoyma göz açmağa sən
Qızışdır, vur, qoyma ha,
Qələ sökülür daha!

Bir az daha, şiddətlə, cürətlə hücum etsən,
Biz lap yaxşı bilirik, təslim olacaq düşmən!

Kolbasaçı

Qorxaq oğlu qorxaqdır əvvəldən də o, ancaq
Gözə qoçaq görünüb; biçib özgə əkəni...
Bu yaxında şəhərə gətirdiyi dərzləri,
Qiyməti qalxsın deyə, doldurub anbarlara.

Kleon

Nə qədər ki, Şura var, nə qədər ki, səfeh xalq
İclasda mürgüləyir, qorxmuram təhdidindən!

İkinci yarımxor

Ay həyasız, ay arsız,
Gör nə məğrur dayanır!

Gördüyü işlərindən,
Nə qorxur, nə utanır!
Lap zəhləm gedir səndən,
Əgər yalan desəm mən,

Morsimin[18] əsərində bir rol nəsibim olsun,
Ya da əyyaş Kratin[19] qoy mənə qənim olsun!
"Çəmənlərdə uçuşan arılar tək hər zaman,
Hansı çiçəyə qonsan, ondan rüşvət alırsan!"

Bəsdir, ay qoçaq, bəsdir,
Udduğunu qus bir-bir!..
Nəğmə deyim sənə mən:
"Bayramdır, ye, iç, əylən!"

İkinci yarımxorun başçısı

Qonşuda İul oğlu qoca acdır həmişə,
"Ey Vakx! Sən, ey Bromi!" – deməyi etmiş peşə.

ANTEPİRREMA

Kleon

And olsun allahlara, gücünüz çatmaz mənə,
Yalansa haram olsun mənə müftə içalat...

Kolbasaçı

And olsun kötəklərə, qəssab təpiklərinə,
Uşaqlıqdan çox üzlər görübdür mənim üzüm...
Həyasızlıqda səndən artığam yalan desəm,
Yediyim tör-töküntü burnumdan gəlsin mənim!

Kleon

Ey it kimi tullantı yeyib böyüyən əclaf,
Mənim tək itbaş ilə döyüşmək həddin deyil.
Aşpazlara deyirdim: "Baxın bahar elçisi -
Qaranquşlar gəldilər!" – Onlar göyə baxanda,
Yavaşca aşırardım yağlıca tikələri...

Demosfen

Doğrudan, qoçaqmışsan, yaman kələkbazmışsan;
Məsəl var ki, deyərlər: "Bacarana can qurban!"

Kolbasaçı

Əlaltı iş görərdim, üstü açılanda da
Əti altıma vurub and içərdim: "Görmədim".
Bir dəfə bir pniksli tutub məni iş üstə,
Hələ onda demişdi: "Fitnəkar olacaqsan!"

Demosfen

Kişi doğru deyibmiş, bilibmiş hünərini,
Oğurlayıb danıbsan, altdan ötürüb əti...

Kleon

Mən hər ikinizin də köpünüzü alaram,
Yeri virana qoyan, dənizləri daşdıran
Qorxunc bir fırtına tək cumaram üstünüzə!

Kolbasaçı

Xox, qorxdum... Bir buna bax! Kolbasanı dənizə
Töküb buna minərəm; tüpürərəm üzünə!

(*Qayığa minən kimi tabağa minir*)

Demosfen

(*eyni hərəkətlə*)

Mən də birgə minərəm, qayıq su versə əgər,
Boşaldaram bir anda dolan suyu dənizə...

Kleon

(*bağırır*)

Demetraya[20] and olsun, Afinadan çaldığın
O talantlar sənə çox baha tamam olacaq!

Demosfen

(*komanda verir*)

Hey, açın yelkənləri, fırtına havası var,
Bir də burdan iftira, böhtan qoxusu gəlir!

Kolbasaçı

Bilirəm, Potideydən[21] on talant aşırmısan...

Kleon

Nə olsun ki?

(*Yavaşcadan*)

Talantı versəm, dilin gödələr?

Demosfen

Razılaşar, elədir...

(*Kolbasaçıya*)

Yelkəni qaldır görək,
Daha yumşalır külək.

Kleon

İşini açaram mən,
Onda məhkəmə səndən
Yüz talant alar, əlbət!

Kolbasaçı

Onda səndən, a bədbəxt,
Oğurluqçun beşcə yüz,
Qaçaqçılıqçın dümdüz
Doqquzca yüz alarlar!

Kleon

Hələ bir dilin də var?
Mən də deyərəm onda,
Sənin murdar qanında
Alkmeonun[22] qanı var...

Kolbasaçı

Mən də edərəm aşkar
Ki, sənin ulu baban
Olub şah ərkanından.

Kleon

Necə, nə imiş adı?

Kolbasaçı

Şah Qipinin arvadı -
"Qoyunçunun" nəslindən!..

Kleon

Ay köpək, bir dayan sən!

Kolbasaçı

Kəs, köpəyoğlu, köpək!

(*Dalaşırlar*)

D e m o s f e n

Vur, kötək üstdən kötək!

K l e o n

Ay aman öldüm, aman!..
Yoxmu bir can qurtaran?

D e m o s f e n

Bərk vur, dönüm zoruna!
Vur, aman vermə ona.
Böyrünə, qarnına vur,
Vur, vur, ona qan qusdur!

(*Kleonu döyürlər*)

B a ş a t l ı

(*kolbasaçıya*)

Ey müqəddəs, ey ulu, ey yenilməz qəhrəman,
Bizi xilas etməyə enmisən səmalardan!
Döyüşdə qüdrətinlə məhv elədin düşməni,
Acizlik layiqilə tərif etməyə səni!..

K l e o n

(*yerdən qalxaraq*)

Demetraya and olsun bilirəm işinizi:
Gizlində hər nə ölçüb-biçmişsinizsə, bütün
Yaxşı məlumdur mənə, hər şeydən xəbərim var.

K o l b a s a ç ı

Biz də yaxşı bilirik Arqosdakı işini!..

(*Tamaşaçılara*)

İttifaq bağlamır o orda vətən xeyrinə,
Lakedomonlularla gizlincə alver edir...

D e m o s f e n

(*xırıltı ilə Kolbasaçıya*)

Yavaş, a zalımoğlu, bir az ehtiyatlı ol!

K o l b a s a ç ı

Yaxşı bilirəm orda nə alver edirsiniz:
Əsirlər barəsində bir saziş hoqqası var...

D e m o s f e n

Hə, belə de? Qanmaza kötəklə qandırarlar!

K o l b a s a ç ı

Cürbəcür fırıldaqlar qurursunuz xəlvəti...
Məni qızıl-gümüşlə susdurmağa çalışma.
Dostlarını göndərmə nahaq yerə minnətə...
Afinalılara mən açacağam sirrini!

K l e o n

Bu saatca gedərəm burdan şuraya bir baş,
İttiham edərəm sizi sui-qəsd niyyətində.
Gecə yığıncaqları təşkil edib əlaltı
İranlılarla əlbir üsyan hazırlamaqda
Beotiyada iyrənc işlər törətmişsiniz...

Kolbasaçı

Yəqin Beotiyada gönün qiymətdən düşüb...

Kleon

Herakla and olsun ki, lap gönünü soyaram!..

(*Azğın bir həyəcanla qaçaraq gedir*)

Xorbaşçısı

(*Kolbasaçıya*)

İndi öz hünərini burda əyan et bizə:
Görək uşaqlığında oğurladıqlarını
Necə altına vurub gizlədə bilirmişsən...
Tez dabbağın dalınca sən də yüyür şuraya!
Ora yetişən kimi, o hay-küy qopararaq,
Min cür böhtan atacaq hamımızın üstünə...

Kolbasaçı

Lap indicə gedərəm... Ancaq kolbasaları,
Bütün bu var-yoxumu qoyuram burda qalsın...

Demosfen

(*ona bir qədəh şərab verir*)

Al, əvvəl boğazını bir azca yaşla görək;
Onda böhtan, iftira yaxşı sürüşüb ötər...

Kolbasaçı

(içir)

Ağıllı məsləhətdir, sən yaxşı müəllimsən!

Demosfen

Al, bunu da bir ötür!

(*Ona sarımsaq verir*)

Kolbasaçı

Niyə?

Demosfen

Çünki sarımsaq
Yaxşı şeydir, adamın cürətini artırar!
İndi yüyür, get daha!

Kolbasaçı

Gedim, baş üstə, gedim!

Demosfen

Yaxşı yadında saxla: dimdiklə, cırmaqla, did,
Piyini cır, qanat, xoruz kimi döyüş,
Böhtan, iftira yağdır, məğlub et, tez qayıt, gəl!

(*Kolbasaçı qaçaraq gedir. Demosfen evə girir*)

ÜÇÜNCÜ ÇETA

BÖYÜK PARABAZA

Xor korifeyi

Get, allahlar köməyin olsun, şücaət göstər,
Sevindir qəlbimizi, ey meydanlar hakimi.
Zevs hifz eyləsin səni! Qalib gəl düşmənlərə,
Başında zəfər tacı, qələbə çələngləri!..

(*Tamaşaçılara*)

İndi bir parabaza oxuyacağıq sizə,
Ona diqqət yetirin!
Sizin ki, əvvəllərdə gözəl tamaşalardan
Qəlbiniz, damağınız ləzzət almış doyunca,
Əziz tamaşaçılar, bizləri parabaza
Oxumağa hər şair çağırsaydı, gəlməzdik,
Ancaq bu şairimiz layiqdir ehtirama,
O bizim dostumuzdur, haqqın, tərəfdarıdır.
Od püskürən Tifonla[23] vuruşdu cürət ilə,
Hamı heyrət edir ki, niyə bu vaxta qədər
Arxontdan istəməmiş özünə xor, aktyor?
Xahiş edib ki, sizə deyək onun adından:
Nə qorxu, nə də xəta mane olmayıb ona;
Bu fikirlə çəkilib indiyədək bu işdən:
Komediya əyləncə deyil, o da zəhmətdir;
Onun ilham pərisi lütf etməz hər yetənə.
Onunçun qiymətlidir sizin məhəbbətiniz,
Yayda bitən otlar tək qısadır onun ömrü.
Qocalan şairləri yaddan çıxarır hamı:
Yazıq Maqnet[24] qocalıq zamanı zəlil oldu;
O ki, qalib gələrək, şan-şöhrət qazanmışdı,
Çalmışdı, oxumuşdu sizə hər cür nəğmələr.
Quş, arı, şən qurbağa səsləri çıxarmışdı,
Ancaq qocalan kimi hamısı çıxdı yaddan...
Əldən düşmüş qocanı lağa qoyurlar indi...
Kratin[25] nə haldadır? O da bədbəxt deyilmi?
Bir zaman qürurundan yerə-göyə sığmazdı,
Azğın seltək keçirdi çəmənlərdən, çöllərdən,
Kökündən qoparardı qocaman palıdları,
Rəqibləri önündə kol-kos tək əsərdilər.
Hər bir kef məclisində gəzərdi dildən-dilə:
"Rüşvətxorlar" nəğməsi, "nəğməkarlar" nəğməsi...
İndi o sərsəmləyən, sərəkləyən zamanda,
Kifarası pozulub kökdən düşdüyü anda,
Niyə nəzərdən salıb unutmuşsunuz onu!

Yazıq qoca o əyyaş Koni[26] kimi avara,
"Başında solğun çələng", özü atəşdən yanır...
O əvvəllər çaldığı qələbələr naminə
İndi Pritaneydə kef etməyə layiqdi;
O gərək nazu-nemət, hörmət-izzət içində
Dionis kahinilə ən başda oturaydı!..
Krates[27] də çox bəla çəkibdir sayənizdə;
Şən məzhəkə bayramı günlərində sizlərə
Tədbirli sözlərilə çox ləzzət vermişsə də,
Sadədil adamlara əql-kamal öyrədib,
Gah alqış, gah fışqırıq qazanmışsa, yenə də
Səbatla axıradək çəkilməmiş meydandan...
İndi bizim şair də qorxmuş bu misallardan,
Bir də o söyləyir ki, sükançılıqdan əvvəl
Gərək kürək çəkəsən, sonra püşgah olasan!
Əvvəl gərək biləsən küləyi, fəlakəti,
Gəmini ondan sonra özbaşına sürəsən!..
O ki, belə ağıllı, təvazölə iş görür,
Lovğalanmadan sürür məzhəkə gəmisini,
Siz də bol-bol əl çalın, güc verin kürəklərə,
Qoy bu şən gurultular ona mükafat olsun!
O da, başının dazı şölələr saça-saça,
Razı getsin, şən getsin, onun könlü şad olsun!

Birinci yarımxor

ODA

Atlar hökmranı, sən ey Poseydon,
Xoşun var atların kişnəməsinə,
Ağır mis nalların coşqun səsinə!
Sevirsən gəminin önündə lay-lay
Yarılan suların köpürməsini.
Sevirsən bəzəkli gərdunələrdə
Gəzişən gənclərin qaynaşan, daşan
Coşqun dəstəsini, şən dəstəsini.
Sənincin əzizdir Sunilə, Qerest,[28]

Gəl bizim şənliyə, bizimlə əylən;
Sən ey Kron oğlu, delfinlər şahı,
Bizim Formiona[29] hami oldun sən!
Afina xalqı da səni hər zaman
Bil ki, üstün tutur hər bir allahdan.

Birinci yarımxor

EPİRREMA

Şəhərimizin şanına, Pallada örtüyünə,[30]
Layiq olan əcdadı mədh edirik bu gün biz...
Dənizlərdə, quruda saysız çarpışmalarda,
Qalib gəlib bu şəhrə şöhrət qazanmış onlar.
Düşməni saymazdılar bizim babalar əsla,
Coşqun ürəklərində zəfər ümidi vardı.
Döyüşdə büdrəyəndə, mahir döyüşçü kimi,
Qalxıb silkinərdilər heç bir şeyə baxmadan,
Yenə döyüşə girib basardılar düşməni.
Sərkərdələr ziyafət istəməzdilər onda,
İndisə mükafatsız getmir onlar savaşa.
Biz hazırıq qərəzsiz ana vətən yolunda,
Pak məbədlər yolunda döyüşməyə hər zaman
Mükafat istəmirik, arzumuz budur ancaq:
Müharibə qurtarıb fəlakət sovuşanda,
Bizdən əsirgəməyin lütf ilə məhəbbəti!

İkinci yarımxor

ANTODA

Bu yurdun hamisi, sən ey Pallada,
Gəl, sən ey bakirə, sal bizi yada.
Yurdun müqəddəsdir, qılıncın kimi
Kəsərli bir qılınc yoxdur dünyada.
Yoxdur məlahətdə sənin tək şair,
Gəl ki, sənlə birgə zəfər də gəlsin!

Sən bizə yar oldun daim savaşda,
Gəl ki, nəğməmizin səsi yüksəlsin!
Gəl, ey pak ilahə, gəl havadar ol,
Döyüşdə biz gərək qazanaq zəfər!
Yenə əvvəlki tək sən bizə yar ol,
İgid övladına qələbə göndər!

İkinci yarımxorun başçısı

ANTEPİRREMA

Mədh edək biz vəfalı dostlarımız atları,
Mədhə layiq cürbəcür hünərlər etmiş onlar.
Döyüşdə, şücaətdə həmdəm olub bizlərə,
Dənizlərdə, quruda savaşa getmiş onlar.
Səfər üçün götürüb qədəh, soğan, sarımsaq,
Sonra da adam kimi alaraq ələ kürək,
Kişnəyərək demişlər: "Haydı möhkəm yapışın,
Bərk çəkin kürəkləri, a Savras, ürəklə çək!"
Korinfdə dik sahilə atılmışlar dayçalar[31],
Dırnaqlarilə yeri qazıb qurmuş düşərgə,
Quru ot çeynəyərək əl çəkmişlər yoncadan,
Alışmışlar özləri yengəc tutub yeməyə.
Korinf yengəci Feor[32] onda belə bağırmış:
"Vay Poseydon, atlılar qırdı bizi, ay aman!
Nə quruda, nə suda vermirlər bizə aman!

DÖRDÜNCÜ ÇETA

Kolbasaçı, başında çələng, gəlir.

Başatlı

Sənə salam olsun, ey mərd qəzənfər!
Sən bizi, gözləri yolda qoymuşdun.
Çox şükür, qayıdıb gəldin müzəffər,
De görək, şurada necə vuruşdun?

Kolbasaçı

Necəmi? Şuraya rəis oldum mən!

Birinci yarımxor

ODA

İndi artıq hamı
Şad olsun gərək!
Sözlərin gözəldir, işlərin əla,
Bir danış görək!
Qızğın döyüşdən
Danış bizə sən.
Uzun da olsa,
Nəql eylə bir-bir.
Ey dost, tez danış,
Bizi sevindir!..

Kolbasaçı

EPİRREMA

Doğrudan danışmağa layiqdir bu əhvalat:
Ardınca düşüb getdim, tez yetişdim dabbağa,
Şuraya çatan kimi, o hay-küy qopararaq,
Xəyanətdə ittihama başladı atlıları.
Fitnəkar bağırtılar, dəhşətli sözlər ilə
İstədi qorxudaraq, inandıra hamını.
Şurada oturanlar bu fəsadı dinləyib,
Çatdılar qaşlarını, ağızları əyildi;
Sanki üz-gözlərindən lap zəhrimar yağırdı...
Mən bunu görən kimi, duydum ki, iş xarabdır,
Bu böhtan, bu iftira aldadacaq onları...
Öz-özümə dedim ki: "Ey fəsad iblisləri,
Ey cibgirlər, lotular, dor dibindən qaçanlar,
Sən ey mənim əqlimin, qəlbimin canı bazar,

Eşidin bu duamı, yetişin imdadıma,
Siz mənə hayasızlıq, vicdansızlıq lütf edin,
Mənə hərzə dil verin, gur səs əyləyin əta!"
Bu sayaqla ürəkdən dua etdim bir müddət;
Bu zaman sağ yanımda bir nəfər guruldatdı;
Mən bunu bir xeyir fal bilib sözə başladım,
Dalımı sürahiyə söykəyib bağırdım ki;
"Vətəndaşlar, dinləyin, xoş xəbər gətirmişəm!
İstəyirəm hamıdan əvvəl bildirim sizə:
Müharibə başlanan zamandan indiyədək
Şor balıq bugünkü tək ucuz olmayıb bilin!"
Həmin saat hamının açıldı qaş-qabağı,
Bu şad xəbərçin məni hamısı alqışladı.
Həmin saat yenidən başqa bir təklif etdim:
"Bir quruşa bir yığın şor balıq almaq üçün
Müsadirə edilsin çölməkçilərdən qablar!"
Şura əzası məni bir də bərk alqışladı;
Ağzını ayıraraq hamısı baxdı mənə...
Dabbaq da bunu görcək, başa düşdü fəndimi,
Şura isə onların boş damarını tapdı;
Onlara xoş gəlməkçin belə təklif eylədi:
"Vətəndaşlar, zənnimcə, bu xoş xəbərə görə
Allahlara yüz dana qurban kəssək, xoş düşər!"
Həmin saat şuranın ona çevrildi meyli.
Ancaq mən də fürsəti itirməyib bir anda
Yüz dana artıq deyib geridə qoydum onu,
Hələ Artemidaya min keçi qurban dedim...
Onda balığın yüzü düşərdi bir quruşa.
Şuranın mənə sarı çevrildi yenə meyli.
O, bunu eşidəndə elə sarsaqladı ki,
Yasavullar kötəklə çəkib saldılar onu.
Şura əzası isə hamı qalxıb yerindən,
Başladılar balıqdan sorğu-sual etməyə.
O söylədi ki: "Hələ iclas davam eyləsin,
Lakedemondan gələn qasidi dinləsinlər".
Hamısı bir ağızdan bağırdı: "Lazım deyil!
Düşmənlər eşidib ki, ucuzlaşıb balıqlar.

İndi sülh istəyirlər... Yox, biz razı deyilik,
Qoy indi müharibə davam etsin sonadək!
Ey məmurlar, şuranı bağlı elan eyləyin!"
Belə deyib hamısı başladı dağılmağa...
Mən durmayıb tələsik gedib çıxdım bazara,
Nə qədər göyərtilə soğan vardısa, aldım.
Onlar balıqçın soğan-göyərti axtaranda,
Mən müftəcə payladım onlara aldığımı.
Məndən razı qaldılar, min cürə dil tökdülər,
Təşəkkür eylədilər, minnətimi çəkdilər...
Bir ovuc soğan ilə bir çəngə göyərtiyə
Bu sayaqla şuranı mən aldım öz əlimə!

İ k i n c i y a r ı m x o r

ANTODA

Nə bəxtəvər adamsan,
Məharətinə əhsən!
Daş qayaya rast gəlib,
Ondan da ustasan sən!
Kələkbazsan, hiyləgər,
Yaltaqlıqda yox üstün...
İndi fikirləş görək,
Ona gələsən üstün...
Hələ böyük döyüş var,
Bunu yaxşı bilirik.
Qorxma, cürətli ol sən,
Biz səninlə əlbirik!

K o l b a s a ç ı

ANTEPİRREMA

Odur ha paflaqonlu, ağzı köpüklü gəlir!
Quduz kimi bağırır, od yağır gözlərindən...
Sanki məni udacaq... Müqəvvadır, müqəvva!..

Kleon qəzəbli, yüyürə-yüyürə gəlir.

K l e o n

Köhnə hiylələrimlə səni həlak etməsəm,
Qoy lap çatlayım ölüm, lap gözünün önündə!

K o l b a s a ç ı

(*onu lağa qoyub atılıb-düşür*)

Ay sən özün ölməsən, lap qorxdum təhdidindən!
Hap-gopuna gülməkdən bağrım çatlayır, bir bax!

K l e o n

Demetraya and olsun, səni bütün udmasam,
Dünyada bircə gün də salamat qalmayım mən!

K o l b a s a ç ı

Boğazında qalar ha! Yavaş ud, aşna, yavaş!
Çatlasam da, mən səni diri-bütün yeyərəm!..

K l e o n

Pilosda qazandığım şərəf haqqı, mən səni
Məhv edərəm büsbütün...

K o l b a s a ç ı

Şərəfinə bir baxın! Bəlkə birdən sən özün
Lap arxa cərgələrdə qaldın şərəfsiz-adsız!

K l e o n

Zevs haqqı tutub səni lap qəlibə çəkərəm!

Kolbasaçı

(tamaşaçılara)

Bir görün nə qudurub!.. Doydurummu qarnını?
Nə verim ona yesin, xayalarım ağzına!..

Kleon

Tutub dırnaqlarımla lap qarnını cıraram!

Kolbasaçı

Mən də Pritaneydə udduğun qusduraram!

Kleon

Qoy Xalq hökmünü versin, rüsvay edərəm səni!

Kolbasaçı

Səni Xalqın gözündən salaram köpək kimi!

Kleon

Yox ay küçük, o sənin sözünə uyan deyil,
O mənim əlimdədir, hər yana sürsəm gedər!

Kolbasaçı

Deyəsən Xalqa sən çox yaman bel bağlayıbsan!

Kleon

Onun qeydinə qalan, dayəlik edən mənəm.

Kolbasaçı

Doğrudan da, dayə tək bəsləyirsən onu sən:
Ən yağlı tikələri özün ötürüb əvvəl,
Qabağından qalanı yedirirsən uşağa.

Kleon

Allahlara and olsun, ustayam bu işdə mən,
Xalqı necə istəsəm, oynadaram əlimdə!

Kolbasaçı

Nə olsun ki, mənim də əlimdən gələr bu iş...

Kleon

Şurada yalan satıb mənə üstün gəldiyin
Keçmiş ola!.. Bir daha görə bilməzsən onu!
Gedək Xalqın yanına...

Kolbasaçı

Yaxşı, razıyam, gedək!
Niyə dayandın gəl də... Bəs niyə ləngiyirsən?

İkisi də Xalqın (Demosun) evinə yaxınlaşırlar.

Kleon

(qapını döyür)

Ay Xalq, buyur bayıra!

Kolbasaçı

Buyur, ey cənab Xalq!
Mənim əzizim, gözüm, Xalqım, tez ol, gəl bura!

Pəncərədən taqətsiz, ağ saçlı bir qoca halında Xalq görünür.

Kleon

Bir bura gəl, gör məni nə sayaq incidirlər!

Xalq

(evin orta qapısında görünür)

Ey mənim paflaqonlum, kimdir səni incidən?

Kleon

(Kolbasaçını və xoru göstərir)

Bax, bu, bütün cavanlar, hamı – sənin üstündə.

Xalq

Niyə ki?

Kleon

Sənə olan məhəbbətimdən ötrü!

Xalq

(Kolbasaçıya)

Sən kimsən, söylə görüm?

Kolbasaçı

Mənmi? Onun rəqibi!
Səni çoxdan sevirəm, çoxdan arzu edirəm
Bir çox nəcib, şərəfli vətəndaşlarla birgə
Sənə xidmət eyləyəm... Ancaq o qoymur bizi...
Ərköyün uşaq kimi sən də şıltaq edirsən,
Nəcib xadimlərini qovlayırsan qapından:
Şamçılar, dəriçilər, dabbağlar, gön soyanlar
Yanından əksik olmur... Nə uymuşsan onlara?!

Kleon

Xalqa mən xeyirliyəm!

Kolbasaçı

Nədir xeyrin, de görək?

Kleon

Necə nədir? Pilosdan sərkərdələr qaçarkən,
Mən oranı fəth edib xeyli əsir də aldım...

Kolbasaçı

Mən də gəzib, dolaşıb aşpaz dükanlarından,
Ona yağlı şorbalar oğurlayıb vermişəm...

Kleon

(Xalqa)

Ey Xalqım lap indicə bir yığıncaq qur burda,
Onda özün görərsən, kim səni artıq sevir...
Sonra da öz hökmünü burdaca bildirərsən!

Kolbasaçı

Çox gözəl, hökmünü ver, ancaq Pniksdə yox!

Kolbasaçı

(öz-özünə)

Aman, evim yıxıldı! Qoca yaman qocadır;
Evdə olanda, yenə az-çox düşüncəsi var.
Ancaq ki, o daşların üstünə oturanda,
Başlayır əsnəməyə, milçək dolur ağzına...

Orxestrə doğru yönəlirlər. Xalq Pniksin pillələri üstündə oturur.

BEŞİNCİ ÇETA

BÖYÜK AQON

Birinci yarımxor

ODA

Yelləndir yelkənləri, açıqdır qarşında yol,
Döyüşkən ol, məğrur ol!
Düşmənini məhv elə,
Qılınc kimi amansız, kəsərli bir dil ilə.
Hiyləgərdir düşmənin:
O, sənə hücum edər gizli-gizli arxadan,
Min hiylə qurar yəqin...
Şimşək ol, başında çax, sən ona vermə aman!

Birinci yarımxorun başçısı

Ancaq ehtiyatlı ol, o sənə soxulmadan,
Hazır saxla gəmidə ipləri, borazları,
Batanda xilas edən tirləri, kolazları...

Kleon

EPİRREMA

Yurdumuzu qoruyan Afina ilahəyə
And içib söyləyirəm: əgər Xalqıma mən də
Lisikl[33], ya Salabxo və yaxud Kina[34] kimi
Doğrudan böyük xidmət etməmişsə, o mənə
Pritaneydə müftə bir ziyafət haram olsun!
Ey Xalq, sənin yolunda tək başıma mən əgər
Hədsiz düşmənə qarşı savaşıramsa, mənim
Dərimi soyub ondan qayışlar doğrasınlar!

Kolbasaçı

Ey xalq, əgər mən səni ürəkdən sevmirəmsə,
Ətimi qiymə çəkib kolbasa qayırsınlar!
Əgər sən inanmasan mənim sədaqətimə,
Bax, bu tabaq içində razıyam, pendir kimi
Ovsunlar ovum-ovum, fəsəliyə qatsınlar!
Bax, burama keçirib bir qəssab çəngəlini,
Keramikə sürüyüb basdırsınlar məzara!..

Kleon

Aman, Xalqım! İnan ki, dünyada heç bir kimsə
Mənim tək sevə bilməz səni, əmin ol buna!
Bax, mən burda Şurada oturan gündən bəri
Doldurmuşam malamal pul ilə xəzinəni.
Heç kimə rəhm etməyib asıb-basıb kəsmişəm,
Qurban olsun, demişəm, hamı sənin yolunda...

Kolbasaçı

Ey Xalq, bu hünər deyil, bunu hamı bacarar,
Mən də qapıb özgənin əlindəki tikəni
Gətirib deyərəm ki, "Buyur, əzizim, ötür!"
Onun riyakarlığı aydındır; deyim bir-bir:
O, sənin özünə yox, tikənə xidmət edir;
Sən ki, vaxtilə şanlı Marafon döyüşündə
Midiya qoşununu dəf edən qəhrəmansan,
Zəfərlə şöhrətlənib bizim fəxrimiz oldun!
İndi, bax, quru yerdə daş kəsir səni, ancaq
Heç vecinə almayır sənin halını alçaq!
Mən buna yol vermərəm... Buyur, sənə nazbalış
Doldurub gətirmişəm, al, altına qoy, otur!
Salmatində əzilən yanbızın bir dincəlsin...

Xalqa bir balış verir.

Xalq

(balışın üstündə oturur)

Söylə, sən kimsən qoçaq? Demokrat Qarmodinin[35]
Nəcib nəslinə mənsub bir igidsən, eləmi?
Alicənab böyükdür sənin xalqpərəstliyin!

Kleon

(Xalqa)

Nəyini sevdin, sən də bu yaltaq sərsərinin?

Kolbasaçı

(Kleona)

Bəs necə? Sən ki, onu daha pis tovlayırdın!

Kleon

(Xalqa)

Bir də deyirəm: əgər səni məndən çox sevən,
Çox can yandıran olsa, qurban et məni ona!

Kolbasaçı

Sən öl, yaman sevirsən! Səkkiz qışdır o bədbəxt
Zirzəmidə, boçkada, qaranlıq anbarlarda,
Qarğa yuvalarında tir-tir əsir soyuqdan...
Hanı sənin insafın? Yazıqda qalmayıb can!..
Arxintolem[36] sülh üçün gəlmişdi, qovdun onu;
Sülh üçün, saziş üçün gələnləri hər zaman,
Köpək kimi dalayıb qovladın qapımızdan!..

Kleon

Çünki mən istəyirəm o bütün Elladaya
Hakim olsun!.. Bu onun taleyinə yazılıb:
Gözəl Arkadiyaya hakim olandan sonra,
Gündə tamam beş quruş alacaq əmək haqqı!
Hələ ki, oğurluqla, ya da ki, doğruluqla
Gündə üç quruş payı çatdırıram ona mən...

Kolbasaçı

Zevs özü şahiddir ki, sən onu Arkadiyaya
Hakim etmək qəsdində deyilsən əsla!.. Sənin
fikrin-zikrin budur ki, şəhərləri soyasan,
Talayasan; bol rüşvət alıb özün doyasan...
Xalqın başı qarışsın hərbin keşməkeşinə,
Sənin alçaq işlərin gözünə görünməsin;
Daim ac olsun, sənin tikənə möhtac olsun...
Xalqın başı ayılsa, öz kəndinə qayıtsa,
Yenə əvvəlki kimi yeyib-içsə doyunca,
Paxladan, çuğundurdan, şilədən doysa qarnı,
Onda başa düşər ki, sənin verdiyin tikə
O yazığa nə qədər baha tamam olurmuş...
Onda kəndli sayağı qəzəblənib əlindən,
Səsə qoyub Şurada, səni başından atar!..
Sən özün bunu yaxşı bilərsən; ona görə
Dadlı xülyalar ilə tovlayırsan bu Xalqı!

Kleon

Vay həyasız! Sən bütün Afinanın önündə,
Xalqın önündə məni rüsvay etdin... Mən ancaq
Demetraya and olsun, bizim bu şəhər üçün,
Sizcə əziz sayılan Femistoklun[37] özündən
Qat-qat artıq iş görüb ləyaqət göstərmişəm!

Kolbasaçı

Aman, arqivlilər! Bir görün, nə danışır!
Cürətə bax, özünü Femistokla tay tutur!
Femistokl bu şəhri ac-yalavac halından,
Qurtarıb yedirtmişdi, doydurmuşdu qarnını.
Üstəlik Pireyi də vermişdi şirni kimi;
Əvvəlki var-dövləti əlimizdən almadan,
Bizə, dadlı-məzəli yeməklər yedirtmişdi.
Ancaq ki, ay heyvərə, afinalıları sən
Fal açıb bürc tikməklə xırda alverçilərə,
Boşboğaz əsnaflara çevirmək qəsdindəsən!
Buna bax, Femistokla rəqib sürgündə həlak oldu,
Bir də bil Femistokl sürgündə həlak oldu,
Sən isə, nazü-nemət içində kef edirsən!..

Kleon

Ey Xalqım, necə dözüm mən bu həqarətlərə?
Sənə məhəbbətimdən gəlir başıma bunlar!..

Xalq

Sus, artıq ürəyimi bulandırır sözlərin!
Görürəm ki, aldadıb bu vaxtadək sən məni,
İndi də naqqallıqla tovlamaq istəyirsən!..

Kolbasaçı

Elədir, can, can ey Xalq, aldadıb səni məlun!
Sən gözünü yuman tək təftiş qəbzlərini
Əlaltı çırpışdırıb mənimsəyir pulları,
Qorxu-ürkü bilmədən, iki əlli soxulur,
Dövlət xəzinəsini talayır o bihəya!..

Kleon

Gözlə ha, yalanını faş edərəm mən sənin,
Özün yüz minlər ilə qoymursan cibişdana?!

Kolbasaçı

Boş danışma, heyvərə! Çərənləmə boş yerə!
Bu Afina xalqına eylədiyin xəyanət
Ən həyasız, ən alçaq rəzalətdir dünyada!
Demetraya and olsun, dinləyin, isbat edim:
Mitilendən min hiylə edib aldığın rüşvət
Qırx talantdan az isə, dünyada gün görməyim!

İkinci yarımxor

ANTODA

Sən bütün insanların xilaskarısan, inan!
Gözəl nitqin hər zaman
Layiqdir, bil, qibtəyə.
Bu şücaətlə yeqin, Elladada çatarsan
Ən ali bir rütbəyə!
Sən olub Afinaya, adalara hökmran,
Bol-bol pul qazanarsan, ey dilavər qəhrəman!

İkinci yarımxorun başçısı

Ancaq bərk dur və bərk vur, artıq yetişib sonu!
O boğaz ki səndə var, tez boğazlarsan onu!..

Kleon

Yox, yox, tələsməyin siz, sona çox qalıb hələ!
Bütün düşmənlərimin nəfəsini kəsməyə
Məndə şücaət də var, güc də var, qüdrət də var!
Pilos qalxanlarının bircəsi bəsdir mənə...

Kolbasaçı

Yavaş! Qalxanda dayan! Bax, burda çaşdın daha,
Xalqı sevsəydin əgər, sən bütün qalxanların
Dəstəyini qırardın!..

(*Xalqa*)

Bunlar kələkdir tamam...
Ey əziz Xalq; o məlun istəyir ki, bir zaman,
Ona cəza verəndə sən əliboş qalasan!
Diqqətlə bax, gör onun dalında kimlər durur:
Dəstə-dəstə dabbaqlar, gön soyanlar, sərraclar,
Hamısı bir zibildir, bir yuvanın quşudur...
Bir azca qaş-qabaqlı baxsan sifətlərinə,
Gecə yarı qoparıb yerindən qalxanları
Tökülüb üstümüzə hücum edərlər bizə,
Bircə tikə çörəyə həsrət qoyarlar, inan!

Xalq

Aman! Doğru deyirsən, dəstəkləri bütündür!

(*Kleona*)

Alçaq! Neçə illərdir ələ salıbsan Xalqı!..

Kleon

Axmaq, inanma ona! Bunu bil ki, heç zaman
Mənim tək sədaqətli pərəstişkar tapmazsan!
Nə qədər sui-qəsdin üstünü açmışam mən,
Üsyan duyulan kimi küy salmışam aləmə...

Kolbasaçı

Balıqçılar da belə salır tora balığı!
Dəniz sakit olarsa, balıq düşərmi tora?
Ancaq lili çalxayıb suyu bulandıranda,
Tutarlar balıqları o zaman qalaq-qalaq...
Sən də bulanıq suda balıq tutursan, alçaq!
Hay-küy xeyirdir sənə... Bircə cavab ver görüm:
Sən dəri tacirisən, ancaq yazıq qocaya
İsti ayaqqabılıq bircə parça verdinmi?
Sən ki, onu sevirsən, əldən-dildən gedirsən!..

Xalq

Yox, yox, vallah verməyib, bir parça da verməyib!

Kolbasaçı

İndi tanıdın onu! Budur, bir bax, mən sənə
Bir cüt başmaq almışam, buyur sağlıq ilə gey!

(*Qocaya ayaqqabı geydirir*)

Kleon

Belə də dərd olarmı? Başmağın hökmünə bax!
Bəs mən çıxdımmı yaddan? Yaxında Afinadan
Zinakarları qovub, Qritti rüsvay etdim...
Yaddan çıxdımı bunlar?!

Kolbasaçı

Sən ey yataq naziri, rəzalətsən sən özün!
Zinakarları qovdun, ancaq qorxundan qovdun;
Dil zinakarlarından yaman qorxmuşdu gözün!
Sən bu qocaya bir bax, əynində xiton da yox...
Bu şaxtada titrəyir... Bir pambıq sırınma da
Vermə misən ki, geysin, sümüyü qızsın bir az!
Al, ey Xalqcan, mən sənə bir rida bağışlayım!

(*Ona rida verir*)

Xalq

Femistoklun verdiyi Pirey pis deyilsə də,
And olsun ki, onda da yox idi bu zəkavət...
Düzü, məncə bu rida bərabərdir Pireyə!

Kleon

(*Kolbasaçıya*)

Ölməsən! Bu kələklə guya ki, basdın məni?..

Kolbasaçı

Səndə də əskik deyil belə kələklər, a dost!
İşin bərkə düşəndə, lap içki məclisindən
Elə durub qaçarsan, ayaqların görünməz!

Kleon

Onu bil ki, kələkdə ötə bilməzsən məni!
Əzizim Xalq, al, mən də sənə kürk bağışlayım!

(*Əynindəki kürkü çıxarıb qocaya verir. Kolbasaçıya*)

Hə, gördünmü, ay alçaq!..

Xalq

Tfu, tfu!.. Rədd elə!..
Kürkün başına dəysin... Bu ki, meyit qoxuyur!..

Kolbasaçı

Qəsdən elə edib ki, üfunət boğsun səni...
Əvvəllər də o səni öldürmək istəyirdi:
Yadındamı, bir zaman silfi[38] düşdü qiymətdən?

Xalq

Necə ki? Yadımdadır, əlbəttə!..

Kolbasaçı

Onda qəsdən
Silfinin qiymətini salmışdı ki, hakimlər
Ondan bolluca yeyib sonra da Geliyada[39]
Boğsunlar bir-birini onun üfunətilə.

Demosfen

Allahlara and olsun bu barədə Smerdi
Mənə çoxdan demişdi...

Kolbasaçı

Əlbət ki!.. Siz də axır
Üfunətdən saralıb soldunuz yarpaq kimi...

Demosfen

Deməli, onu həmin bu kürən icad edib?

Kleon

(*Kolbasaçıya*)

Ay rəzil, bir gör mənə nə cürə şər atırsan!

Kolbasaçı

(*təntənə ilə*)

İlahənin əmridir, mən gərək lovğalıqla
Sənin canını alam!

Kleon

Ala bilməzsən, alçaq!
Ey mənim əziz Xalqım, vəd edirəm mən sənə
Müftəcə, lap doyunca hər gün ziyafət verim...

Kolbasaçı

(*Xalqa*)

Al, budur bax, mən sənə bu şüşənin içində
Dizlərinə sürtməyə ətirli yağ bəxş edim...

Ona bir şüşə verir.

K l e o n

(*Xalqa*)

Dən düşmüş tüklərini dənlərəm sənin bir-bir
Yenə cavan olarsan!..

K o l b a s a ç ı

Al, gözünü silməyə
Sənə pambıq tək yumşaq dovşan quyruğu verim!

(*Verir*)

K l e o n

Ey Xalq, burnun axanda saçlarıma sil mənim!

K o l b a s a ç ı

Yox, mənim saçlarıma!

Hər ikisi bir-birini itələyib irəli soxulurlar.

K l e o n

(*Kolbasaçıya*)

Dayan bir, trieraxa düşürrəm səni[40],
Bütün var-yoxunu çıxarram puça:
Bir çürük gəmini verərəm sənə,
Yamaq-yırtığını təmir etməyə,
Dərini soyaraq satsan da çatmaz...
Əlimdən gələni əsirgəmərəm,
Nə alsan ya çürük olar, ya dəlik!..

K o l b a s a ç ı

Lovğalıq qazanı qaynayır, coşur,
Köpüyü daşar ha! Tutun, qoymayın!
Al qaşıq, al kəfgir, yığ köpüyünü!..
Lovğalıq qazanı daşar, qoyma ha!..

Kisəsindən bir qaşıq çıxarıb Kleona verir.

K l e o n

Görərsən, görərsən, hələ bir dayan!
Səni vergilərlə əldən salaram.
Elə düzəldərəm mən işləri ki,
Düşərsən varlılar siyahısına!

K o l b a s a ç ı

Hədəylə, təhdidlə işim yox mənim,
Bircə istəyim var, dinlə söyləyim:
Sənincin qazanda balıq bişəndə,
Milet işlərini həll eyləməyə,
Bol talant qazanmaq eşqinə düşüb,
Pniksə vaxtında yetişmək üçün,
Özün də iclasa bərk tələsərkən,
Balığı tələsik ötürən zaman,
Bu yanda qasid də gəlib çağıra,
Qorxasan talantlar çıxmaya əldən.
Balığı udmağa cəhd eyləyəndə,
Yol gedə-gedə,
Boğulub öləsən, qarnın partlaya!..

X o r

Gözəldir. Çox gözəldir! Allahlara and olsun!

ALTINCI ÇETA

X a l q

(*Kolbasaçıya*)

Məncə artıq şübhə yox, sən gözəl vətəndaşsan!
Üç quruşluq olanlar arasında hələ mən
Sənin tək bir kişiyə təsadüf etməmişəm!

(*Kleona*)

Sənin məhəbbətindən bir fayda görmədim mən...
Qaytar ver üzüyümü! Bir də bil ki, bu gündən
Daha mənim açarçım deyilsən, rədd ol, itil!..

K l e o n

(*üzüyü verir*)

Nə olar ki... Buyur, al! Ancaq onu da bil ki:
Nahaq yerə sən mənə etibar etməsən də,
Mənim yerimə gələn rəzalətdə, hiylədə
Məndən əlli qat artıq mahir olacaq yəqin!..

X a l q

(*üzüyü gözdən keçirib*)

Deyəsən heç bu üzük mənimki deyil axı...
Yox, yox, möhür başqadır... Yoxsa gözüm seçməyir!

K o l b a s a ç ı

Ver mən baxım!

(*Üzüyü alır*)

De görüm, sənin möhrün necəydi?

X a l q

Zeytunlar arasında bir kök donuz potası.

K o l b a s a ç ı

Yox, burda pota yoxdur!..

X a l q

Bəs nə var? Bir yaxşı bax!

K l e o n

Minbərdə nitq eyləyən boşboğaz bir qağayı!

X a l q

Aman, aman!

K o l b a s a ç ı

Nə var ki?

X a l q

Onu rədd elə, tulla!
O mənimki deyildir, Kleoniminkidir[41]!
Gəl, al bunu, sən mənim açarçım ol bu gündən!

(*Barmağından üzüyü çıxarıb ona verir*)

K l e o n

Yox, ey mənim sahibim, hələ səbr elə bir az,
Xəbərdar edim səni, sözlərimə qulaq as...

Kolbasaçı

Yox, sən mənə qulaq as!

Kleon

Ona etibar etmə!
İkicə gündə səni lüm-lüt soyar soğan tək..

Kolbasaçı

Özü də elə soyar quru canın da qalmaz!

Kleon

Bil ki, mənim falımda sənə xəbər verilib, -
Başında gül çələngi, dünyaya hakim olmaq!..

Kolbasaçı

Mənim falımda isə, xəbər verilib sənə.
Zərli porfira geyib, qızıl gərdunə minib
Aqirrilə Smikifin ayinində at çapmaq!

Kleon

(*Kolbasaçıya*)

Yaxşı, tez ol gətir gəl fallarını, qoy ağa
Özü bir-bir eşitsin...

Kolbasaçı

Çox gözəl, gətirərəm!

Xalq

Sən də özünkülərdən gətir, tez ol!

Kleon

Bu saat!

Kolbasaçı

Bu saat!

Xalq

Tez ol, yüyür!

Kleon və Kolbasaçı

Bu saat, gətirərik!..

(*Hərəsi bir tərəfə qaçır*)

Xor

ODA VƏ ANTODA

Kleon mənsəbdən düşən zamanda,
Yenə də al günəş parlar cahanda.
Onun işıq saçan ilıq şöləsi,
Qızdırar hamını, oxşar hər kəsi.
Düzdür, eşitmişəm məhkəmələrdə,
Camaat yığışıb toplaşan yerdə,
Çərənçi qocalar güc verib dilə,
Xalqı aldadaraq deyirlər belə:
"Əgər olmasaydı Kleon hakim,
Bu geniş dünyada görməzdi heç kim
Nə həvəng, nə toppuz... Bunları bizə
O verib, lütf edib bu ölkəmizə..."
Heyrət eləyirəm hələ mən yenə,
Onun əllərinin məharətinə...
Onunla məktəbdə oxuyanlardan,

Eşitdim, deyirlər oxuyan zaman,
Lirada bir hava bilərmiş çalmaq.
"Lütf elə" havası çalarmış ancaq...
Hər şeyi salarmış tək bu ahəngə;
Kifarist gəlibmiş əlindən təngə.
Onu qovlayaraq müəllim, demiş:
"Kötükdür, əlindən gəlməz başqa iş,
Qarğa tək bircə şey təkrar eləyir:
"Lütf elə, kərəm et, ehsan ver!" – deyir...

EPİRREMA

Kleon və kolbasaçı burulmuş kağızlarla (tumarla) yüklənmiş halda, qaçaraq gəlirlər.

K l e o n

Görürsən nə qədərdir?
Hələ evdə yenə var?!

K o l b a s a ç ı

Əldən düşdüm... Çoxunu gətirməmişəm hələ!

X a l q

Bunlar nədir?

K l e o n

Faldır də!

X a l q

Bunlar hamısı faldır?

K l e o n

Nəyə heyrət edirsən? Evdə bir sandıq da var!

K o l b a s a ç ı

Məndə düz iki anbar doludur ağzınacan...

X a l q

Ver, bir görüm kimindir, kim deyir bu falları?

K l e o n

Məndə – Bakidinkidir!

X a l q

(*ehtiramla*)

Ax, belə de, çox əla!

(*Kolbasaçıya*)

Səndəkilər kimindir?

K o l b a s a ç ı

(*gözünü qırpmadan*)

Məndəkilər – Bakidin
Böyük qardaşı olan Qlanidin falıdır...

X a l q

(*Kleona*)

Nədən xəbər verirlər?

K l e o n

Şəhərdən, səndən, məndən, Pilosdan, çox şeylərdən...

X a l q

(*Kolbasaçıya*)

Bəs sənin nələrdən xəbər verir?

K o l b a s a ç ı

Hər şeydən:
Şorbadan, Spartadan, ləzzətli balıqlardan,
Şəhərdən, bazardakı xəbis alverçilərdən,
Səndən, məndən...

(*Kleona*)

Necəsən, eşitdinmi?
Canın çıxsın, yan tökül...

X a l q

Yaxşı, başlayın görək, deyin falları bir-bir:
Məndən danışanları oxuyun, çox xoşum var,
Qartal tək səmalara uçmaq istəyir könlüm!..

K l e o n

Mənim falımı dinlə, diqqət ilə qulaq as:

(*Kağızı açıb təntənə ilə oxuyur*)

"Dinlə, dinlə ey Erexvid, məbədgahda zəki Febin
Kürsüsündən gələn səsi, onun qadir kəlamını
Hörmət elə iti dişli o müqəddəs köpəyə sən,
O köpək ki, sənin üçün keşik çəkir, hürür, qapır,
Sənin üçün ruzi tapır... Tapmasa, bil, gəbərəcək...
Başı üstə çox dolaşa hərlənərək qarıldaşır!.."

X a l q

Demetraya and olsun, heç bir şey qanmadım mən:
Köpək nə, Erexvid nə, dolaşa nə deməkdir?..

K l e o n

Həmin o köpək mənəm, boğazımı yırtıram...
Sənə əmr olunur ki, məni bərk qoruyasan!

K o l b a s a ç ı

Yox – yox heç belə deyil, it sümük gəmirən tək,
Bu köpək də bu falı gəmirdi, parçaladı.
Qoy, mən deyim, o köpək barəsində düzünü!

X a l q

Oxu görüm, qoy ancaq əvvəlcə daş götürüm,
Köpək falı adamı qapar, nə desən, çıxar!

K o l b a s a ç ı

(*oxuyur*)

"Allah deyir: ey Erexvid, o can alan xain Kerber
Quyruğunu bulayaraq, göz dikmişdir yeməyinə;
Güdür səni, göz yuman tək qapacaqdır, bil, tikəni!
Gecələri sən yatanda, gizlin girib mətbəxinə,
Yalayacaq qab-qabacağı, gəmiləri, kikladları..."

X a l q

Zevs özü şahiddir ki, Qlanid doğru deyir!

K l e o n

Ağacan, əvvəl dinlə, hökmü sonra verərsən.

(*Oxuyur*)

"O müqəddəs Afinada aslan doğar bircə arvad,
Həmin aslan Xalq yolunda yığın-yığın həşəratla
Dava edər... sənin borcun o aslanı taxta divar,
Tunc qüllələr arxasında qorumaqdır, bunu bil sən!"

(*Xalqa*)

Bunu başa düşdünmü?

X a l q

Mən ki, bir şey qanmadım...

K l e o n

Feb sənə əmr edir ki, məni yaxşıca qoru!
Mən ki, cəsur aslan tək xidmət edirəm sənə...

X a l q

Necə oldu sən köpək, tezcə aslana döndün?

K o l b a s a ç ı

O, falın bir yerini qəsdən gizlədi səndən!
O tunc qülləli divar nəydi? Onu demədi...
Loksi bizə əmr edir onu orda saxlayaq!

X a l q

Söylə, bu nə deməkdir?

K o l b a s a ç ı

Feb bizə əmr edir ki,
Biz onu beş dəlikli kündəyə vuraq gərək!

X a l q

Məncə yerinə yetər burda verilən xəbər...

K l e o n

(*oxuyur*)

"Sən inanma iftiraya, qarğalardır, qarıldaşır.
Tərlanı sev, yadına sal onun qadir caynağını,
Lakedemon mülkündəki quzğunları o qovladı!.."

K o l b a s a ç ı

Paflaqonlu yəqin ki, məstmiş onu edəndə...
Ey əqilsiz Kekronid, bu da bir hünərmidir!
Deyiblər ki: "Arvada kişi yükləsə əgər,
O yükü daşıyacaq... Ancaq döyüşə getməz,
Döyüşə getmiş olsa, yaralanar – qayıdar!.."

K l e o n

İndi dinlə, gör Loksi Pilos içində Pilos
barəsində nə deyir.
"Pilosdan başqa Pilos deyilən bir yer də var..."

X a l q

Necə yəni? Nə olsun? "Pilosdan başqa Pilos..?"

K o l b a s a ç ı

Deyir ki, o hamamdan su səpəni alacaq...

X a l q

Necə, bəs mən çimməmiş gəzəcəyəm bütün gün?

Kolbasaçı

O bizim su səpəni, ləyənləri aparıb...
İndi dinlə, mən sənə donanmadan fal açım,
Bu fala sən diqqətlə qulaq as axıradək!..

Xalq

Dinləməyə sözüm yox... Ancaq söylə bir görüm,
Gəmiçilər üçün mən hardan tapım bəs pulu?

Kolbasaçı

(*oxuyur*)

"Ey, Egeid! Özünü gözlə tülkü-köpəkdən,
Onun min hiyləsi var: yem qapmağa qoçaqdır!"

(*Xalqa*)

Başa düşdünmü?

Xalq

(*şadlıqla*)

Düşdüm... Filostratı deyir...

Kolbasaçı

Yox, yox, iş bunda deyil... səndən vergi yığmağa
Sürətli trieri istəyən olsa, vermə!
Feb özü sənə bunu qadağan eyləyir, bil!..

Xalq

Bəs niyə trierə tülkü-köpək deyilir?

Kolbasaçı

Çünki hər ikisinin yerişi sürətlidir.

Xalq

Niyə köpəyə bir də tülkü adı verilir?

Kolbasaçı

Burda Feb əsgərlərə verir tülkü adını,
Çünki onlar kəndlərdə dərirlər üzümləri.

Xalq

Yaxşı, sən deyən olsun!
Bəs həmin tülkülərə pulu hardan verim mən?

Kolbasaçı

Üçcə günə sənincin mən bolca pul taparam...
Letounun oğlunun bir falını da dinlə:
"Əyri əl Killenadan qorx, həzər et təmədən!"

Xalq

Hansı Killenadır o?

Kolbasaçı

Feb əyri əl deyəndə,
Bax, oğurluq eləyən bu pəncəni söyləyir!

(*Kleonu göstərir*)

Kleon

Düz yozmursan falı sən! Feb əyri əl Killena
Deyəndə, Dionisin əllərini söyləyir...
Ey Xalq, məndə çox fal var, səni ucaldır göyə,
Qartal tək qanadlanıb dünyaya hökm edəsən!

Kolbasaçı

(onun sözünü kəsir)

Məndə elə fal var ki, sənə yerdə, dənizdə
Hökmranlıq vəd edir. Akbatanda hökm edib,
Ləzzətli şirin qoğal, qaymaqla bal yeyərsən!

Kleon

(onun sözünü kəsir)

Mən röyada gözümlə görmüşəm ilahəni,
Əziz Xalqın başına o ləyənlə tökürdü
Sərvəti, səadəti...

Kolbasaçı

(onun sözünü kəsir)

Zevs haqqı, mən də gördüm...
Mən öz gözümlə gördüm röyada ilahəni;
Gördüm çıxır məbəddən, qonmuş çiyninə bayquş,
Sonra gördüm, ey mənim əziz Xalqım, başına
Bir yekə tas içində xoş ətir saçdı sənin,
Onun başına isə, sarımsaqlı çirkabı...

Xalq

(sevinmiş)

Bəh! bəh!..
Qlanid kimi zəkalı həkim olmaz!..

(Kolbasaçıya)

Bundan sonra mən sənə eyləyirəm etibar:
Mən qocaya hami ol, dayə tək bəslə məni...

Kleon

Yalvarıram, tələsmə, hələ bir azca gözlə:
Mən sənincin bolluca müftə taxıl taparam!

Xalq

(qulaqlarını tutaraq)

Taxıl barəsində heç bir kəlmə də danışma!
Bəsdir, Feofanla sən başımı ağrıtdınız...

Kleon

Yaxşı, onda sənə mən üyüdülmüş un verim...

Kolbasaçı

Mən sənə qıpqırmızı dadlı qoğal verərəm!..
Yaxşı pörtülmüş böyrək, qoy ağzına ərisin...

Xalq

Yaxşı, tezcə gətirin, görək kimin nəyi var:
Hər kim mənə yeməyi doyunca, yaxşı versə,
Pniksin cilovunu verəcəyəm mən ona...

Kleon

Mən birinci gətirim!

Kolbasaçı

Yox, yox, mənəm birinci!..

İkisi də yüyürüşür.

ODA VƏ ANTODA II

X o r

Ey Xalqım, qüdrətin əyandır sənin,
Dünyada adın da, dəhşətin də var.
Qadir bir hakimsən heyf ki, ancaq
Hər kəsə edirsən tezcə etibar.
Yaltaqlar dövrəni alıblar, heyhat,
Riyalar çulğamış səni hər yandan.
Sən də inanırsan hər riyakara,
Yaraşmır bu sənə, ey Xalqım, inan!
Ağzını ayırıb durursan yəqin,
Yerində deyildir şüurun sənin!..

X a l q

Mən sizə şüursuz görünürəmsə,
Özünüz şüurdan məhrumsunuz siz!
And olsun, özümü sadədilliyə,
Mən özüm qoymuşam, yaxşı biliniz.
Mən bundan alıram başqa bir ləzzət;
Özümü çağa tək göstərirəm mən.
Görürsən Pniksdə oğru məmurlar
Qoyuram; mən özüm çox zaman qəsdən;
Sonra qarınları şişən zamanda,
Vururam, partlayır onlar bir anda!

X o r

Eləsə, bəd deyil, bu yaxşı işdir,
Görünür doğrudan ağıllısan sən.
Yaramaz, rüşvətxor və zalımlara,
Gözəl, ədalətli cəza verirsən.
Onları qurbanlıq mal-qara kimi,
Pniksə toplayıb bir-bir sayırsan.

Sonra da zamanı gələndə bir gün,
Tutub köklərini boğazlayırsan.
Bişir qazanında yaxşı yağlı ət,
Yeyərsən, doyarsan, alarsan ləzzət!

X a l q

Bir görün ən mahir, həm də hiyləgər
Xain düşmənləri seçəndən sonra,
Onları nə sayaq məharətlə mən
Bir-bir tovlayaraq, salıram tora:
Oğrular hamısı məni kor sanır,
Çox fikir vermirəm onlara mən də.
Nə qədər talayıb yesələr ancaq
Bir anda alıram vaxtı gələndə.
Göz qoyub vermirəm onlara aman,
Çıxır yedikləri boğazlarından!..

ANTEPİRREMA

(*Kleon və Kolbasaçı boğuşa-boğuşa, səbətləri dolu, gəlirlər*)

K l e o n

Yerə soxum boyunu!

K o l b a s a ç ı

Özün yerə gir, alçaq!

K l e o n

(*səbətini qoyub oturur*)

Ey əziz Xalq, mən çoxdan hazırladım bunları,
Lap çoxdan mən hazıram sənə xidmət etməyə!

Kolbasaçı

(*səbətini qoyub oturur*)

Mən hazıram lap çoxdan,
Lap çox, çox-çox, lap çoxdan!

Xalq

Mən də sizi burada gözləyirəm lap çoxdan,
Tüpürüm üzünüzə çox-çox, çox-çox, çox-çoxdan!..

Kolbasaçı

(*Xalqa*)

Bilirsənmi neyləyək?

Xalq

Yox, deyərsən, bilərəm!

Kolbasaçı

Əmr elə biz yüyürüb bir-birilə ötüşək,
Yarışan itlər kimi əyləndirək bir səni...

Xalq

Yaxşı, başlayın, haydı!

(*Əl vurur*)

Kleon və Kolbasaçı

(*bir-birini itələyərək*)

Lap bu saat!

Xalq

Di haydı!

Kolbasaçı

Çox soxulma irəli!

(*Boğuşa-boğuşa yüyürüşürlər*)

Xalq

Deyəsən bu gün məni bu pərəstişkarlarım,
Yaxşıca doyduracaq... Çatlayınca yeyərəm...

Kleon

(*yüyürə-yüyürə bir yumşaq sandalya gətirir*)

Buyur, sandalyanı mən birinci gətirmişəm!

Kolbasaçı

(*öz səbətini gətirib gəlir*)

Yeməyi mən birinci gətirdim hüzuruna!

Kleon və kolbasaçı bir-biri ardınca öz səbətlərinin yanına yüyürüb cürbəcür yeməklər gətirirlər

Kleon

(*əlində bir qoğal*)

Bax, mən sənə bir qoğal gətirmişəm, lap əla!
Pilos unundan bişib, dadından doymaq olmaz...

Kolbasaçı

(çörək qabığı verir)

Budur, bax, xörək üçün gözəl çörək qabığı;
Bunu ilahə mərmər barmağıyla qoparıb!..

Xalq

(heyran-heyran)

Ay sahibim, ilahəm, Nə iri barmağın var!

Kleon

Ay sahibim, ilahəm, nə iri barmağın var!

Kleon

(bir qab paxla gətirir)

Bir gör necə paxladır, qıpqırmızı qızarıb,
Palladanın neməti, Pilosun bərəkəti...

Kolbasaçı

(bir qab şorba gətirir)

İlahə özü səni hifz eləyir aşkar,
Öz əlilə uzadıb sənə bir qab şorbanı...

Xalq

(daha artıq bir vəcd ilə)

Bəs necə, ilahənin bu qazanı olmasa,
Bizim üzərimizdə, şəhər tutarmı qərar?

Kleon

(qovurma gətirir)

Afina ilahəsi qızarmış ət göndərib...

Kolbasaçı

(bir parça ət verir)

Buyur, bax, bayquş gözlü ilahəmiz sənincin
Çapılıb qaynadılmış ləzzətli ət göndərib...

Xalq

Çox sağ olsun ilahə ki, bizi salıb yada!

Kleon

(qutab verir)

Budur, bax, bu qutabı ilahəmiz bişirib
Ki, gəmilərdə sizin canınız yaxşı qızsın...

Kolbasaçı

(gəmirilmiş sümük verir)

Buyur, bunu da buyur!

Xalq

Neyləyim qabırğanı?

Kolbasaçı

Necə? İlahə özü gəmi qabırğasını
Qəsdən göndərib sənə... Yəqin ki, ilahəmiz
Bizim donanmamızın qayğısına qalıbdır.

(Xalqa şərab təqdim edir)

Buyur, iç, bu da əla qarışdırılmış şərab!

Xalq

Ay allahlar, nə dadlı şərabdır, nə şirindir!
Tündlüyü də lap əla!

Kolbasaçı

Bunu qadir ilahə
Özü dadmış, sonra da lütf eləmişdir sənə.

Kleon

(bir parça kökə verir)

Buyur, sənə bir parça yağlıca kökə verim...

Kolbasaçı

Mən sənə bütününü təqdim eləyim, buyur!

Kleon

Özünü öldürsən də, dovşan tapa bilməzsən!

(Dovşan gətirməyə qaçır)

Kolbasaçı

(kənara)

Aman, evim yıxıldı! Dovşanı hardan tapım?
Ey ağlım, çat dadıma, mənə bir çarə göstər!

Kleon

(dovşanı gətirib ədalı bir surətdə kolbasaçıya göstərir)

Görürsənmi, öl, alçaq!

Kolbasaçı

Heç vecimə də gəlmir!

(Uzağa boylanır)

Odur, bax, haradansa elçi gəlir yanıma,
Kisə-kisə xəzinə gətirirlər, odur, bax!

Kleon

Hanı, hanı, hardadır?

Kolbasaçı

Sənə nə? Yaxın düşmə!

(Kleon yüyürür, kolbasaçı dovşanı qapır)

Ey Xalqım, buyur, sənə bir dovşan təqdim edim!

(Dovşanı qocaya verir)

Kleon

(əliboş qayıdır)

Ay zalım, həyasızca soyub taladın məni!

Kolbasaçı

Buna bax! Bəs sən özün Pilosu talamadın?

Xalq

(Kolbasaçıya)

De görüm bu oğurluq hardan gəldi ağlına?

Kolbasaçı

(*təntənə ilə*)

Fikri ilahə verdi, oğurluq da peşəmdir!

Kleon

Dovşanı tutan mənəm, onu mən qızartmışam!

Xalq

Rədd ol, mükafat onu təqdim edənə düşər!
]

Kleon

Ah, həyasızlıqda da axır ötdülər məni!

Kolbasaçı

(*Xalqa*)

Yaxşı, nə fikrə gəldin? Bizim hansı birimiz
Sənə bir də qarnına faydalıyıq, əzizim?

Xalq

Mən hansı əlamətlə seçim gərək sizi ki,
Ədalətli desinlər tamaşaçılar mənə?

Kolbasaçı

(*Xalqa*)

Mənim fikrim belədir: dur bizim səbətləri
Bir-bir nəzərdən keçir, sonra da hökmünü ver!
Bu hökmün ədalətli, həm də ki, düzgün olar...

Xalq

Durum baxım...

(*Kolbasaçının səbətinə baxır*)

Boşdur ki!

Kolbasaçı

Bomboşdur, babacanım!
İçində hər nə varsa, təqdim eylədim sənə.

Xalq

(*heyranlıqla*)

Bu səbətin özü də lap xalis demokratdır!

Kolbasaçı

İndi buyur, dabbağın səbətinə bax görək!

(*Xalq o səbətə yaxınlaşır*)

Nə görürsən?

Xalq

Bu səbət doludur ağzınadək!
Gör kökədən nə qədər gizlədib buda bədzat!
Mənəsə, bu boydaca balaca tikə verdi...

Kolbasaçı

O həmişə səninlə belə rəftar eləyib:
Qazanclardan bir azca sənə veribsə əgər,
Ən böyük hissəsini özü xəlvəti yeyib...

Xalq

Ay nadürüst! Sən məni aldatmısan, soymusan,
Gözünü tutsun mənim verdiyim mükafatlar!

Kleon

Oğurlamışam, ancaq şəhrin xatirinə...

Xalq

Tez ol, çıxar çələngi! O, bax buna layiqdir!

Kolbasaçı

Tez ol, çıxar, a bədzat!

Kleon

Yox, çıxaran deyiləm!
Mənim də öz falım var, mənə üstün gələcək
Adamın sifətləri orda xəbər verilib...

Kolbasaçı

Elə mənəm ki varam... Şübhə-zad ola bilməz

Kleon

Hər halda istəyirəm yoxlayım öz falımı...
Görüm ki, ilahənin falı düzmü çıxacaq?
Əvvəlcə sən cavab ver mənim bir sualıma:
Uşaqlıqda müəllim yanına getmisənmi?

Kolbasaçı

Əvvəl sallaqxanada almışam mən dərsimi.

Kleon

Nə söylədin? Ay aman, ağlım çıxdı başımdan...
Olan oldu, nə isə...
De görüm palestrdə sən nə təlim almısan?

Kolbasaçı

Oğurluq eləyəndə, dik, mərdana baxmağı...

Kleon

Aman, ey Feb! Gör nələr gəldi mənim başıma!
Boya-başa çatanda, nə alıb, nə satıbsan?

Kolbasaçı

Dalımı, qabağımı... Sonra da ki, kolbasa...

Kleon

Aman, evim yıxıldı. Aman puç oldum daha!
Bircə saman çöpünə qaldı artıq ümidim...
Bunu da söylə görüm, kolbasanı sən harda
Dükandamı satardın, yoxsa ki, darvazada?

Kolbasaçı

Darvazanın önündə, balıq satılan yerdə.

Kleon

Heyhat, allahın əmri artıq yerinə çatdı!
Sürüyün bu alçağı, çəkin, aparın evə!..

(*Çələngi yerə atır*)

Əlvida, ey çələngim, həsrət qaldım sənə mən!
İndi seni başqası gəzdirəcək başında...
Hiylədə üstün deyil, bəlkə xoşbəxtdir məndən...

(*Qaçıb evə girir. Kolbasaçı çələngi taxır*)

Kolbasaçı

(*təntənəli*)

Ey ulu Zevs! Sənindir bu zəfərim, şərəfim!..

Başatlı

Zəfərin çox mübarək! Ancaq bunu da bil ki,
Səni mən adam etdim... İndi sən əvəzində
Məni Fanın yerinə məhkəmə katibi qoy!

Xalq

Yaxşı, bəs adın nədir?

Kolbasaçı

Adımmı? – Aqorakrit...
Bazarda söyüşməkdə qazanmışam bu adı!

Xalq

Bu gündən Aqorakrit hami olacaq mənə,
O paflaqonlu bədzat cəhənnəm olsun daha!

Kolbasaçı

Ey mənim Xalqım, indi özün görürsən ki, mən
Necə xidmət edirəm... İndi özün görürsən
Ki, bütün Afinada mənim mislim tapılmaz!

(*Xalq və Kolbasaçı evə girirlər*)

ALTINCI ÇETA

KİÇİK PARABAZA

Birinci yarımxor

ODA

Nə gözəldir nəğmələri başlayanda,
Nəğmələri qurtaranda –
Köhlən atlar yetişdirən qoçaqları
Mədh eləmək!
Lisistrat barəsində bəsdir daha!
Bəsdir daha Fumant[42] kimi sərsərini
Nəğməmizlə zəhərləmək!
Mehriban Feb! O ki daim yalavacdır,
O ki acdır, -
Dəxil düşüb sənin əyri kamanına,
Ağlayır ki, rəhmin gəlsin bəlkə ona...

Birinci yarımxorun başçısı

EPİRREMA

Rəzilləri lağa qoymaq günah deyil, bilir hamı...
Doğru-dürüst adamlarçın bu şərəfdir!
İstehzaya layiq olan bu adamlar əgər sizin dostunuzsa,
Bu dostluğun xatirinə toxunmazdım onlara mən;
Gündüzləri gecələrdən, kifarada düzgün kökü əyrisindən
Seçən hər kəs Ariqontu[43] tanıyacaq, şübhə yoxdur.
Bir qardaşı var ki onun, bambaşqadır xasiyyəti;
Arifradsa, bir dəlidir, hərzə-söyüş düşkünüdür,
O, adi bir alçaq deyil (yoxsa onu seçməzdim mən);
Alçaqların alçağıdır, murdar işlər edir icad:
Ən iyrənc bir əyləncəylə murdarlamış dodağını,
Düşkünləşib, bu dünyada hər bir şeyi unudaraq,

Qəhbəxana künclərində yalayır o qəhbələri,
Eonix ön tərəfləri, Polimnest dal tərəfləri...
Hər kim belə rəzillərdən iyrənməsə, onunla mən
Kef məclisi qurulanda, mey içmərəm bir qədəhdən!

İkinci yarımxor

ANTODA

Çoxdandır ki, gecələrin sükutunda,
Məni yorub əldən salır bir düşüncə,
Deyirəm ki,
Kleonim heyvan kimi təpişdirib necə yeyir?
Deyirlər ki, bir varlının evindəykən,
Bərk soxulub yeyən zaman, pərçim olmuş bir qazana;
Ev yiyəsi yalvarmış ki:
"Diz çökürəm hüzurunda, bəsdir, dur get,
Ay əzizim, heç olmasa, süfrəyəsə eylə hörmət!"
Ancaq nahaq, o, qazana yaman girib, çıxmayacaq...

İkinci yarımxorun başçısı

ANTEPİRREMA

Deyirlər ki, trierlər yığışıbmış məsləhətə,
İçlərindən bir yaşlısı söyləmiş ki:
"Ay bacılar, şəhrimizdə təzə xəbər var, deyirlər:
Başı batmış, dili yanmış gic sərkərdə, o Hiperbol[44]
Karfagenə hücum üçün bizdən yüz qız tələb edir..."
Dəhşət almış hamısını, bu xəbərdən qızmış hamı,
Bir bakirə cuşə gəlib belə demiş:
"Ey allahlar, kənar edin bu bəlanı üstümüzdən!
Ona təslim olmaqdansa, qız qarıyıb çürüyərəm!"
"Mən ki, Letay balasıyam, təslim olan deyiləm mən,
And olsun o ağaca ki, mənə məzar olacaqdır;
Əgər hamı razı olsa, məsləhətim budur mənim:
Gedək Tesey məbədinə dəxli düşək qurbangaha!
Yox, yox, əsla, bu şəhərə hakim ola bilməz o it!
Qoy cəhənnəm olub getsin, təkbaşına, hara gedir,
Dənizlərdə təmə olsun balıqlara!.."

EKSOD

Kolbasaçı bayram libasında daxil olur.

Kolbasaçı

Kəsin sual-cavabı, pak dualar zikr edin,
Məhkəmələr qapansın, dinləyin şad xəbəri,
Şən teatr eşitsin, sevinsin, alqışlasın...

Başatlı

Salam sənə, ey uca Afinanın məşəli!
Ey adalar fatehi, söylə nədir şad xəbər!
Neçin gülsün, sevinsin təbrik eyləsin hamı?

Kolbasaçı

Mən Xalqı qaynatmışam, gənc gözəl eyləmişəm!..

Başatlı

Bəs hanı? Söylə görək, sən ey, mahir sehrbaz?

Kolbasaçı

Bənövşəli-çiçəkli müqəddəs Afinada...

Başatlı

Necə görək biz onu? Nə haldadır? Bir danış!

Kolbasaçı

Bir zaman Miltiadla, Aristidlə ziyafət[45]
Məclisində necəydi, indi yenə elədir...
İndicə görərsiniz, odur ha, səs-küy gəlir...

Alqışlayın! Afina o parlaq şöhrətilə
Gəlib hüzurunuza, pak, müqəddəs Afina!
Xalqın öz paytaxtı, parlaq, sönməz Afina!

Evin qapıları açılır. Xalq bayram libasında görünür.

Başatlı

Ey şəhərlər gözəli, bənövşəli Afina!
Göstərin Elladanın hökmdarını bizə!

Kolbasaçı

Budur ha, saçlarında qızıl bəzək-düzəklər,
Əynində babaların qədim, əziz libası...
Ondan üfunət deyil, ətir qoxusu gəlir.

Başatlı

Alqış sənə, ey Ellin yurdunun hökmdarı!
İndi layiqsən, əlbət, Marifon şərəfinə.
Layiqsən bu vətənə! Alqış sənə, min yaşa!

Xalq

Aqorakrit, əzizim, bir yanıma gəl görüm,
Nə xoşbəxtəm, sən məni cavan etdin yenidən!

Kolbasaçı

Bəli, dostum, keçmişin yadından çıxıb sənin,
Yoxsa, məni özünə allah bilərdin, əlbət!

Xalq

Söylə, əvvəl neceydim, nə işlər görürdüm mən?

Kolbasaçı

Məclisdə hər kim durub sənə söyləsəydi ki:
"Mən sənə dostam, ey Xalq, yaman sevirəm səni,
Təkcə mənəm dünyada sənin dərdinə qalan..."
Sən belə çərənləri eşidəndə, məst olar,
Lovğalanıb dik tutar, ucaldardın başını...

Xalq

Kim? Mənmi?

Kolbasaçı

Bəli, bəli!.. Səni aldadardılar...

Xalq

Nə deyirsən, a kişi?

Kolbasaçı

Bəli, Zevsə and olsun!
Sən hey qulaqlarını sallayardın, dinlərdin...

Xalq

Nə axmaq qocaymışam!..

Kolbasaçı

Allah haqqı, elədir!
Əgər iki natiqdən biri triyer tikmək,
O biri xəzinəni dağıtmaq istəsəydi,
Daim üstün gələrdi xəzinəni talayan...
Yaxşı, sənə nə oldu, sallamısan başını?

Xalq

Ax, yaman günahkaram... Keçmişçin dərd çəkirəm...

Kolbasaçı

Heç dərd çəkmə, əzizim, heç təqsir yoxdur səndə!
Günah səni aldadan ədnalarındır ancaq...
İndi söylə bir görüm, hərzə yazanın biri
Çıxıb hədəylə desə: "Ey hakimlər, siz əgər
Məhkəmədə işlərə baxıb qurtarmasanız,
Çörək yoxdur sizlərə!.." Söylə, belə natiqə
Nə eylərsən indi sən?

Xalq

Onu qaldırıb göyə,
Boğazına bağlayıb Hiperbolu, qayadan
Dik aşağı ataram!

Kolbasaçı

Bax, bu gözəl, bu əla!..
Söylə, ölkəni necə idarə edəcəksən?

Xalq

Ən əvvəl hərbi gəmi kürək çəkənlərinin
Haqlarını tamamən verəcəyəm...

Kolbasaçı

Çox gözəl!
Demək qabar bağlamış yanbızlar sevinəcək!

Xalq

İndi, hərbi xidmətə, əsgərliyə düşənlər,
Aşna, dostluq yoluyla azad edilməyəcək!
Hər kəs harda yazılıb, öz yerində qalacaq...

Kolbasaçı

Canını dərd alacaq onda Kleonimin!

Xalq

Məclisdə uşaq-muşaq susacaq bundan sonra!

Kolbasaçı

Bəs onda Straton, Klisfen[46] neyləyəcək?

Xalq

Mən o bəzək-düzəkli uşaqları deyirəm
Ki, yan-yan oturub belə çərənləyirlər:
"Yaxşı xilas oldu o Feak[47] böyük adamdır,
Mahirdir natiqlikdə, üslubda çox ustadır,
Bəlağətdə, inşada, tənqiddə misli yoxdur".

Kolbasaçı

Yanbızına kötəkmi vurduracaqsan onun?

Xalq

Yox, ova göndərərəm, getsin səhraya, çölə,
Mübahisə eyləmək çıxsın yadından təmiz...

Kolbasaçı

Eləsə, buyur sənə bir sandalya bəxş edim!

(*Bir oğlan, əlində sandalya, gəlir*)

Oğlanı da verirəm, gəzdirsin sandalyanı;
İstəsən lap özü də sandalya tək çömələr...

Xalq

Nə xoşbəxtəm, gəncliyim qayıdıb gəldi yenə!

Kolbasaçı

Gəlsənə otuz illik bir sülh təmin edərək,
Barışıq pəriləri bəxş edim sənə, dostum!..
Ey, hüzura barışıq pəriləri gəlsinlər!..

Barışıq pəriləri, rəqqasələr halında gəlirlər.

Xalq

Bəh-bəh! Nə gözəldirlər! Şükür sənə, ulu Zevs!
Söylə, dostum, bunları qucaqlamaq olarmı?
Bunları hardan tapdın!..

Kolbasaçı

O məlun paflaqonlu
Gizlədib saxlamışdı, sənə, nəsib olmasın...
Qəbul elə, mən sənə hədiyyə eyləyirəm,
Götür apar özünlə tarlalara, kəndlərə...

Xalq

Yaxşı, o paflaqonlu alçağa, törətdiyi
İşlər üçün nə cəza verəcəksən, a dostum?

Kolbasaçı

O heç... sadə bir işdir: getsin mənim peşəmə,
Getsin kolbasa satsın darvazanın önündə;
Qarışdırıb bişirsin eşşək əti, it əti;
Məst olub küçələrdə qəhbələrlə söyüşsün,
İçsin hamamdan axan sabunlu çirkabları...

Xalq

Tədbirin çox gözəldir! Alçaq layiqdir buna,
Hamamçılar, qəhbələr qoy ona tay-tuş olsun!
Səni mən o alçağın yerinə təyin etdim,
Buyur Pritaneyə!.. Get, əvvəlcə əyninə
Yaşıl bayram libası geyindirsinlər, buyur!..

Kolbasaçının əyninə yaşıl rəngli bayram libası geyindirirlər.

Onu da sürüsünlər öz yeni sənətinə,
Müttəfiqlər, qonaqlar gülsün aqibətinə...

Aktyorlar və xor orxestrdən çıxıb gedir.

Son

ARİSTOTEL

E.ə. 384-322

Aristotel antik dövrün görkəmli mütəfəkkirlərindən biridir. O, özünə qədər mövcud olan fəlsəfi cərəyanları nəzərdən keçirmiş, qədim yunan fəlsəfəsini yeni bir inkişaf mərhələsinə çatdırmışdır. Aristotel 20 il Platonun tələbəsi olmuşdur. Lakin sonralar Aristotel öz müəlliminin görüşlərini kəskin surətdə tənqid etmişdir. Rəvayətə görə, Aristotel minə qədər əsər yazmışdır. Demək olar ki, o, insan biliklərinin bütün sahəsinə toxunmuşdur. Bu əsərlərin hamısı bizə gəlib çıxmamışdır. Bəzi əsərləri XIX əsrin sonlarında papiros kağızlarında tapılmışdır. Bu əsərlərdə məntiq, təbiət elmlərinin psixologiya, metafizika, etika, dövlət nəzəriyyəsi, iqtisadiyyat, ritorika və s. bilik sahələri vardır. Bunların içində ədəbiyyat tarixi üçün ən əhəmiyyətlisi, heç şübhəsiz, "Poetika"dır. Hələ bu əsərdən əvvəl "Poetika" və "Politika" adlı əsərlərində Aristotel incəsənətin ictimai rolu haqqında öz fikirlərini söyləmişdi. Platon cəmiyyətdə və insan şüuru üzərində incəsənətin fəal rolunu və fəal təsirini inkar etdiyi halda, Aristotel cəmiyyətdə ona xüsusi yer vermiş və incəsənətin insan üzərindəki təsirini misallarla göstərmişdir. O, incəsənətə, insanın ən mühüm yaradıcılıq işi kimi baxmışdır.

"Poetika" əsərində isə bilavasitə sənət və ədəbiyyat məsələlərinə toxunmuşdur. Bu əsər təxminən 336-322-ci illər arasında yazılmışdır. İndiki vəziyyətdə əsər tamam deyil. Əsər sadəcə bir icmala bənzəyir. Aristotel bir çox yerdə öz mürəkkəb hökmlərini vermiş, lakin onlara geniş izahat vermədiyi üçün, belə düşünmək olar ki, öz fikirlərini dərs zamanı aydınlaşdırırmış. "Poetika"da Aristotel, incəsənətin mənşəyi və təsnifi, incəsənətin xarici aləmə, gerçəkliyə münasibəti, bədii qavrayışın mahiyyəti, gözəllik məfhumu, bədii qiymət vermənin əsasları, ayrı-ayrı sənət əsərlərinin xas cəhətləri və sairə kimi mühüm nəzəri məsələlərə toxunmuşdur.

Aristotelə qədər bu məsələlərdən bəziləri yunan filosofları tərəfindən işlənmişdir, ancaq "Poetika" əsərində bu məsələlər elmi cəhətdən sistemləşdirilmişdir.

İncəsənətin bir təqlid olduğunu Platon və başqa filosoflar da demişlər. Ancaq Aristotel bu hökmə yeni bir şey artırmışdır. O da təqlid edilən (yəni təsvir edilən) şeyin özüdür. Aristotel yazır ki: "Şairin vəzifəsi – həqiqətən olmuş bir şeydən danışmaq deyil, ola biləcək şeydən, deməli ehtimal, yaxud zərurət üzrə mümkün olan şeydən danışmaqdır" Bu fikri ilə Aristotel şair ilə tarixçini bir-birindən ayırmışdır. Aristotel yazır: "məhz buna görə tarixçi və şair bir-birindən – onların biri vəzndən istifadə etdiyi, digəri etmədiyi ilə fərqlənmir. Heredotun əsərlərini nəzmə çəkmək olardı, ancaq bununla belə o əsərlər, istər vəznli, istər vəznsiz olsun, yenə tarix olardı; onlar bir-birindən onunla fərqlənir ki, birinci, həqiqətən olmuş bir şey haqqında, ikinci isə, ola biləcək şey haqqında danışır. Buna görə, poeziya tarixdən daha fəlsəfi və ciddidir: poeziya daha çox ümumi, tarix isə tək-tək şeylərdən danışır". Bu fikri ilə Aristotel, şübhəsiz, yaradıcılıqda mühüm bir məsələni dolaşdırır. O da ondan ibarətdir ki, poeziya ümumiləşdirilmiş ideyaları fərdlərin simasında verir, halbuki Aristotel bu həqiqəti təhrif edir.

Onun faciəyə verdiyi məşhur tərifin ən mühüm ideyası ondan ibarətdir ki, faciə qorxu və mərhəmət vasitəsilə insanın həyəcanlı hisslərini təmizləyir. Faciənin təmizləmə (yəni katarsis) vəzifəsi uzun-uzadı mübahisələrə səbəb olmuşdur. Bəziləri təmizləməni əxlaqi mənada, bəziləri isə tibbi mənada anlayıb izah etmişlər. Aristotel özü bu sözə izahat vermədiyi üçün, onun fikri indi də şübhəli qalmışdır. Ancaq güman etmək olar ki, Aristotel bu sözü tibbi mənada işlətmişdir. Yəni faciədə göstərilən bu və ya başqa tragik vəziyyət tamaşaçını qorxudur; çünki tamaşaçı özünü onun vəziyyətində təsəvvür edir, ona görə onda mərhəmət əmələ gəlir; o ağlayır və cismani cəhətdən yüngülləşib, təmizlənir. Demək ki, müəyyən həyəcanlı hissləri oyadıb, onları təzədən islah etmək tibbi mənanın əsasını təşkil edir.

Aristotel dastan ilə faciəni müqayisə etmişdir. Hər ikisinin təsvir etdiyi hədəf yeni olsa da, faciə dastana görə daha mükəmməldir. Çünki Aristotelə görə, faciə hərəkətdə verildiyi üçün onun təsir qüvvəsi də çoxdur.

Faciəni Aristotel altı hissəyə ayırmışdır. Bu hissələr içərisində ən əsası fabuladır. Aristotelə görə, fabula faciənin "başlanğıcı və ruhudur". O, fabula üzərində müfəssəl dayanır. Fabulanın vəhdətindən danışır. Fabula vəhdəti onun ən əsas fikirlərindəndir. O, fabulanı epizodik və qeyri-epizodik, dolaşıq və sadə hissələrə bölür və s.

"Poetika" əsəri ədəbiyyatşünaslıq tarixində ədəbiyyatın nəzəri məsələlərini sistem ilə həll edən ilk təcrübədir. Əsərin tarixi əhəmiyyəti də bundan ibarətdir.

POETİKA

Parçalar

Biz həm poetik sənətdən, həm də onun ayrı-ayrı növlərindən, bu növlərin hər birinin əhəmiyyətinin təqribən nədən ibarət olduğundan, həmçinin poetik əsərin yaxşı çıxması üçün fabulanın necə qurulmalı olduğundan bəhs edəcəyik; bundan əlavə, poetik əsərin neçə və hansı hissələrdən ibarət olduğundan, eləcə də həmin bu məsələyə dəxli olan bütün digər şeylərdən danışacağıq; söhbətimizə, işin mahiyyətinə uyğun olaraq, ən əsas məsələdən başlayaq.

Epik və fəci poeziya, həmçinin komediya və difirambik poeziya, avletika və kifaristikanın böyük bir qismi – bütün bunlar hamısı, ümumiyyətlə desək, təqlidi sənətlərdir; bu sənətlər bir-birindən üç cəhətdən: ya təqlidin nə ilə olduğuna, ya nəyin təqlid olunduğuna, ya da təqlidin necə olduğuna görə fərqlənir ki, bunlar da həmişə eyni cür olmur.

Şeyləri təcəssüm zamanı necə ki, bəziləri ustalıq sayəsində, başqaları vərdişlə, digərləri isə təbii istedadın sayəsində rənglərdə və formalarda bir çox cəhətləri təqlid edirlər, indicə adları çəkilən sənətlərin də hamısında belə olur. Burada da eynilə təqlid, ya ayrı-ayrılıqda və ya birlikdə ritm, söz və harmoniyanın köməyi ilə başa gəlir: belə ki, harmoniyadan və ritmdən yalnız avletika, kifaristika və (həmin bu növdən olan) digər musiqi sənətlərində, məsələn, siringəçalma sənətində istifadə edirlər. Zira onlar məhz ifadəli ritmik hərəkətlərin vasitəsilə xarakterləri, əhval-ruhiyyələri, əməl və hərəkətləri təcəssüm etdirirlər; istər vəznsiz, istərsə bir neçə bəhri bir-biri ilə birləşdirmək, yaxud onlardan hər hansı birini işlətmək yolu ilə metrdən istifadə edən söz sənətinin isə hələ indiyə qədər müəyyən bir tərifi yoxdur. Axı biz nə Sofronun və Ksenarxın mimlərinə və Sokratın mükalimələrinə, nə də trimetrlər, elegik və başqa bu kimi şeirlər vasitəsilə təqlid edənlərin yaratdıqlarına eyni bir ümumi ad verə bilmərik; yalnız "yaratmaq" anlayışını metrlə bağlayan adamlar bəzilərini elegiyaçılar, digərlərini epiklər adlandırır və onları təqlidin mahiyyətinə görə deyil, ümumiyyətlə, metrə (vəznə, görə şair məqamına qaldırırlar. Əgər tibb və ya

fizikaya dair metrlə yazılmış hər hansı bir risaləni nəşr etsələr, həmin adamlar onun müəllifini adətən şair adlandırılır, halbuki Homerlə Empedokl arasında əsərlərinin metrlə (vəznlə) yazılmasından başqa heç bir oxşarlıq yoxdur və buna görə də birincini haqlı olaraq şair, ikincini isə şairdən daha çox fisioloq (təbiətçi) adlandırmaq ədalətlidir. Eynilə, əgər biri, Xeromon "Kentavr"ı hər cür metrdən alınmış vəznlərin (bəhrlərin) qarışığından ibarət olan rapsodiyanı yaratdığı kimi, bütün vəznləri (bəhrləri) birləşdirərək müəyyən bir əsər nəşr etsə, onda gərək (o da) şair adlansın. Bu barədə deyilənlər kifayətdir.

Lakin bəzi sənətlər də vardır ki, bütün bu deyilənlərin hamısından, yəni ritmdən də, vəzndən də, melodiyadan da istifadə edir; məsələn, difirambik poeziya, nomlar, tragediya və komediya belədir, bir-birindən isə onlar bununla fərqlənir ki, bir qismi bu vasitələrin hamısından birlikdə, digərləri isə onların hərəsindən özünün ayrı-ayrı hissələrində istifadə edir. Təqlidetmənin vasitələrinə görə sənətlər arasında mən bu fərqlərin olduğunu zənn edirəm.

***

Madam ki, təqlidçilər hamısı hərəkət və fəaliyyət (adamların) təqlid edir, bu adamlar isə mütləq ya yaxşı, ya da pis olurlar (zira xarakter, demək olar ki, həmişə bunlardan birinə meyl edir və xarakterə insanlar ya qəbahətlərinə, ya xeyirxahlıqlarına görə seçilirlər), deməli, ya özümüzdən yaxşılarına, ya pislərinə, ya da ki, elə özümüz kimilərinə təqlid eləmək lazım gəlir, necə ki, rəngkarlar məhz belə edirlər: məsələn, Poliqont – yaxşı, Pavson – pis, Dionisiy isə – adi adamları təsvir eləmişlər.

Aydındır ki, yuxarıda göstərilən təqlid sahələrinin də hər birində bu fərqlər olacaqdır və beləliklə də, təqlidin predmetindən asılı olaraq, onlar təqlidin başqa növünə deyil, məhz müəyyən növünə daxil olacaqdır: axı rəqsdə də, fleyta və kifara çalğısında da bu kimi fərqlər təzahür edə bilər; bu vəziyyət həm nəsr və həm də adi nəzmlə olan nitqə də aiddir: məsələn, Homer – yaxşı, Kleofont – adi, parodiyanın ilk yaradıcısı fasoslu hegemon və "Deliad" müəllifi Nikoxar isə – pis adamların təsvirini vermişlər. Bu deyilənlər difiramblara və nomlara da şamildir; Arqant, yaxud Timofey və Filoksen "Kikloplar"da necə təqlid etmişlərsə, bunlarda da o cür təqlid etmək olar. Eyni fərq faciə

ilə komediya arasında da mövcuddur: sonuncu indi mövcud olanlardan daha pis adamları, əvvəlincisi isə indi mövcud olanlardan daha yaxşı adamları təsvir etməyə çalışır.

***

Buna üçüncü bir fərq də əlavə olunur ki, o da deyilən halların hər birində təqlidin necə olmasından ibarətdir. Belə ki, təqlidin eyni bir növündə eyni bir şeyi də cürbəcür təqlid etmək olar, məsələn, necə ki, Homer eləyir, yəni əhvalatı özündən kənar hadisələr kimi nağıl etməklə təqlid etmək olar, yaxud, məsələn, təqlid edən adam özlüyündə qalıb, öz simasını dəyişmədən təqlid edə bilər, ya da ki, təsvir olunan bütün şəxsləri hərəkət və fəaliyyətdə göstərməklə təqlid etmək olar. Beləliklə, bütün mövcud təqlid növləri öz aralarında, lap əvvəlcədən dediyimiz kimi, məhz təqlidin vasitəsinə (predmetinə) və tərzinə görə üç fərqə ayrılır, elə buna görə də bir cəhətdən Sofokl Homerlə eyniyyət təşkil edə bilər, çünki hər ikisi ləyaqətli adamları təsvir edirlər, digər cəhətdən isə Aristofanla eyniyyət təşkil edə bilər, çünki onların ikisi də adamları hərəkət və fəaliyyətdə, həm də dramatik hərəkət və fəaliyyətdə göstərirlər. Bu əsasa görə də həmin əsərlər, bəzilərinin iqrar etdikləri kimi, "dram" adlanır, çünki adamları hərəkət və fəaliyyətdə təsvir edir.

Həmin səbəbdən dorilər faciə və komediyanın mənşəcə onlara mənsub olduğunu iddia edirlər, – komediyaya, yerli olduqlarına və onun guya demokratiyanın onlarda təşəkkülü zamanı yarandığına görə maqeralılar, Xionit və Maqnetdən xeyli əvvəl yaşayan şair Epixramın Siciliyadan çıxdığına görə isə siciliyalılar sahib çıxmağa çalışır və faciənin adının onlarla əlaqədar olduğunu buna sübut gətirirlər, belə ki, özlərinin dediklərinə görə, şəhərətrafı qəsəbəcikləri onlar – komlar, afinalılar isə – demlər adlandırırlar, beləliklə də, onlar deyirlər ki, komediyaçılara verilən ad da komadzeyn (keflənmək) felindən deyildir, şəhər əhlinin qiymətləndirmədiyi səyyar (aktyorların) komları gəzib dolaşmalarından götürülmüşdür; eynilə, "Hərəkət etmək" (fəaliyyətdə olmaq) anlayışı dorilərdə dran, afinalılarda isə – pratteyn feli ilə ifadə olunur.

Beləliklə, təqliddə neçə və nə cür fərqlər olduğu barədə kifayətcə danışıldı.

***

Zənn etmək olar ki, poeziya sənətini ümumiyyətlə iki, həm də təbii səbəb doğurmuşdur. Əvvələn, təqlid uşaqlıqdan bütün insanlara xasdır və onlar digər heyvanlardan bununla fərqlənirlər ki, təqlidə daha qabildirlər və ilk bilikləri də məhz onun sayəsində əldə edirlər; ikinci, təqlid və onun nəticəsi hamıya zövq verir. Həqiqətən baş verən hadisələr də bunu sübut edir: həyatda bizə iyrənc görünən şeylərin təsvirinə baxarkən xoşumuz gəlir, məsələn, iyrənc heyvanların və meyitin təsviri. Bunun səbəbi isə ondadır ki, bilik qazanmaq nəinki filosoflar, eyni dərəcədə başqa adamlar üçün də olduqca xoşdur, yalnız bir fərqlə ki, bu sonuncular bilikləri uzun zaman üçün əldə etmirlər. Mövcud şəkillərə (onlar) məmnuniyyətlə baxırlar, çünki baxarkən öyrənə və düşünə bilirlər ki, təklikdə (hansı şey) nədir, məsələn, bu – filandır. Əgər onlar əvvəllər rəsmdəki şeyləri görməmişlərsə, şəkildə təsvir olunan təqlidin özündən yox, şəklin işlənməsindən, yaxud rəngdən, ya da bu qəbildən olan başqa bir səbəbdən zövq alacaqlar.

Təqlid də, harmoniya və ritm kimi, insan təbiətinə xas olduğundan (metrlərin isə ritmlərin xüsusi növləri olduğu bəllidir), hələ ən qədim zamanlardan həmin təbii qabiliyyətə malik olanlar onu tədriclə inkişaf etdirərək, improvizasiyadan (əsl) poeziyanı yaratmışlar.

Sonradan poeziya (şairlərin) şəxsi xarakter xüsusiyyətlərinə görə müəyyən müxtəlif şöbələrə bölünmüşdür: belə ki, daha ciddi şairlər gözəl əməlləri, həm də özlərinə bənzər adamların əməllərini təcəssüm etməklə məşğul olmuş, daha yüngülləri isə əvvəllər gülməli nəğmələr yazmaq yolu ilə yaramaz adamların əməllərini əks etdirmişlər, halbuki o biriləri (əvvəlincilər) himn və mədhiyyə yaradıcılığı ilə məşğul olmuşlar. Homerə kimi biz heç kəsin belə bir poemasının adını çəkə bilmərik, halbuki, əslində, şairlər çox olmuşdur, bu isə yalnız Homerdən başlayaraq mümkün ola bilmişdir, onun "Margit"i və ona bənzər əsərləri buna misal ola bilər. Gülünc metr də məhz elə, gözlənildiyi kimi, həmin əsərlərdə yaranmışdır; indiyə kimi də ona yambik metr deyilir, çünki bir-birlərinə həmin metrlə gülmüşlər. Beləliklə, qədim şairlərin bəziləri qəhrəman şeir, bəziləri yamb yaradıcıları olmuşlar. Homer necə ki, ciddi poeziya növünün ən böyük şairidir, çünki o nəinki şeiri yaxşı qoşurdu, eyni zamanda dramatik təsvirlər yaradırdı, eləcə də komediyanın əsas formasını birinci dəfə o göstərmiş,

laqqırtını deyil, gülməlini dramatik cəhətdən işləyib mənalandırmışdır: buna görə də, "İliada" və "Odisseya"nın faciəyə əlaqəsi necədirsə, "Margit"in də komediyaya əlaqəsi elədir. Faciə və komediya meydana gələndə isə, poeziyanın bu və ya digər növünə təbii meyli olanlar yambla əsər yazmadılar, komik yazıçılar oldular, epik əsər yazanların əvəzində isə – faciə yazanlar yetişdi, çünki poetik əsərlərin bu axırıncı formaları əvvəlincilərə görə daha mənalıdır və daha çox hörmətə malikdir.

Burada artıq faciənin (bütün) şəkillərinin istər öz-özlüyündə, istər teatra nisbətlə lazımi inkişaf səviyyəsinə çatıb-çatmadığını nəzərdən keçirməyin yeri deyildir. Lap başlanğıcdan impravizasiya yolu ilə yaranan faciə özü də, komediya da (birincisi – difiramb banilərinin, ikincisi isə – hələ də bir çox şəhərlərdə işlənən fallik nəğmə ustalarının yaradıcılığından nəşət edərək) özlərinə aid xüsusiyyətləri tədriclə inkişaf etdirmək yolu ilə yavaş-yavaş böyümüş və zənginləşmişdir. Xeyli dəyişikliklərə məruz qaldıqdan sonra faciə özünün lazımi və mükəmməl şəklinə gəlib çatmışdır. Aktyorlara gəlincə, ilk dəfə Esxil onların sayını birdən ikiyə qaldırmışdır; xorun partiyasını da o azaltmış, dialoqu ön plana çəkmişdir; üç aktyor və dekorasiyanı isə ilk dəfə işlədən Sofokl olmuşdur. Sonra, mündəricəyə gəlincə, cüzi miflərdən və gülməli ifadə vasitələrindən nəşət edən faciə, – təbəddülat yolu ilə satirik tamaşadan doğduğuna görə, – artıq sonralar müəzzəm şöhrətinə çatmışdır; onun ölçüsü də teatr metrdən dönüb yambik (trimetr) olmuşdur: əvvəllər isə tetrametrdən istifadə olunurdu, çünki poetik əsərin özü satirik idi və daha çox rəqs xarakteri daşıyırdı; amma elə ki, dialoq inkişaf elədi, təbiət özü ona münasib ölçü də verdi, belə ki, yamb ölçülərin hamısından daha çox canlı danışıq dilinə yaxın olanıdır. Bunu o da sübut eləyir ki, biz bir-birimizlə söhbət əsnasında yambı daha çox və tez-tez, heksametri isə nadir hallarda, həm də adi danışıq dili çərçivəsindən kənara çıxaraq işlədirik. Nəhayət, episodiyaların sayının artırılması və faciənin ayrı-ayrı hissələrinə bəzək olan başqa cəhətlərə gəlincə, biz elə bu deyilənlərlə kifayətlənirik, çünki hər şeyi bütün təfərrüatı ilə şərh eləmək çox uzun çəkərdi.

***

Komediya, dediyimiz kimi, pis adamların əks etdirilməsidir, amma bunu da tam qəbahət mənasında yox, o mənada başa düşmək lazımdır ki,

gülməli özü də eybəcərliyin bir hissəsidir: gülməli – heç kimə iztirab və zərər verməyən, hər hansı bir müəyyən səhv və çirkinlikdir; misal üçün uzağa getmək lazım deyil, elə komik maska özü bir növ eybəcər və çirkindir, ancaq iztirab ifadə etmir.

Faciədəki dəyişikliklər və bunun səbəbkarları, gördüyümüz kimi, bizə məlumdur, lakin komediyanın tarixi bizə məlum deyil, çünki əvvəldən ona fikir verən olmayıbdır: hətta komiklər xorunun özünü xeyli sonralar arxont verməyə başlamışdır, əvvəllər o, həvəskarlardan düzəlirdi. Komediyanın yaradıcılarının adları isə ilk dəfə komediya müəyyən bir formaya düşdüyü zamandan çəkilməyə başlanmışdır. Komediyaya maskanı və proloqu kimin gətirdiyi, aktyorların sayını kimin artırdığı və s. isə məlum deyildir. Fabulaları Epixram və Formiy tərtib etməyə başlamışlar; həmin şəkildə də (komediya) Siciliyadan ilk dəfə (Yunanıstana) keçmiş, Afina komik şairlərindən isə birinci olaraq Kratet, yambik şeirdən əl çəkib, dialoq və fabulaları ümumi şəkildə tərtib edib işləməyə başlamışdır.

Epik poeziya, yalnız özünün mühüm vəznini istisna edib saxlamaqla, ciddiliyin təqlidi sayılan faciənin ardınca getmişdir; o, faciədən, özünün sadə ölçüsünə, təhkiyəsinə görə seçilir, bundan əlavə, onlar həcm etibarilə də fərqlənirlər: faciə cəhd edir ki, öz vaqiələrini, mümkün qədər bir günün ərzində yerləşdirsin və ya bu çərçivədən az kənara çıxsın, epos isə zamanca məhdud deyil və bununla da faciədən seçilir. Lakin onu da deyək ki, ilk zamanlar elə faciələrdə də epik poemalardakı kimi edilirmiş.

Qaldı bunların tərkib hissələri, onlar (faciədə də, eposda da) qismən eynidir, qismən yalnız faciəyə məxsusdur. Buna görədir ki, faciənin yaxşılığı və ya pisliyindən baş çıxaran adam eyni ilə eposdan da baş çıxara bilər, zira epik poeziyada nə varsa, faciədə də vardır, lakin bu sonuncuda olanların hamısı epopeyaya daxil deyildir.

***

Heksametrlə təqlid sənətindən və komediyadan biz sonralar danışacağıq, indi isə faciə haqqında danışaq, bir azca əvvəl deyilənlərdən onun mahiyyətinin tərifini çıxaraq.

Deməli, faciə ciddi və bitmiş, müəyyən həcmə malik hərəkəti nağıl etmə yolu ilə deyil, hərəkətin özü vasitəsilə, onun ayrı-ayrı hissələrində müxtəlif cür bəzənmiş dillə təqlid etməkdir ki, mərhəmət və

qorxu hissi sayəsində həmin hisslərin və onlara bənzər ehtirasların təmizlənməsinə kömək edir. "Bəzəkli dil" mən ona deyirəm ki, ritmi, harmoniyanı, nəğməni özündə ehtiva edir; onların faciənin ayrı-ayrı hissələri üzrə bölüşdürülməsi özünü bunda göstərir ki, bu hissələrin bəzisi yalnız metrin vasitəsilə, bəziləri isə nəğmə vasitəsilə icra olunur.

Madam ki, təqlid hərəkətdə icra olunur, onda faciənin birinci zəruri hissəsi dekorativ bəzək, sonra musiqi kompozisiyası və sözlə ifadə olunmalıdır, çünki təqlid məhz onların yardımı ilə əmələ gəlir. Sözlə ifadə dedikdə, mən sözlərin bilavasitə daxili əlaqəsini, musiqi kompozisiyası dedikdə isə onun hamıya məlum mənasını nəzərdə tuturam. Madam ki, faciə hərəkətin təqlididir, hərəkət isə müəyyən xarakterə və düşüncə tərzinə malik müəyyən cür adamlar tərəfindən edilir (hərəkətin müəyyən cür adlandırılması da elə bununla ayırd olunur), onda, deməli, buradan təbii olaraq hərəkəti doğuran iki səbəb meydana çıxır: fikir və xarakter – bunların da sayəsində adamlar ya ona müvəffəq olur, ya uğursuzluğa düçar olurlar. Fabula hərəkətin təqlid olunmasıdır.

Fabula dedikdə mən, əhvalatların əlaqələnməsini, xarakterlər dedikdə, iştirak edən şəxsləri nəyə görə müxtəlif cür adamlar adlandırdığımızı, fikir dedikdə isə, danışanların müəyyən bir şeyi nə ilə sübuta yetirmələrini və ya sadəcə olaraq öz mülahizələrini söyləmələrini nəzərdə tuturam.

Beləliklə, hər bir faciədə altı hissənin olması zəruridir ki, buna əsasən də faciə özü müəyyən cür olur. Həmin hissələr bunlardır: Fabula, xarakterlər, fikir, səhnə şəraiti, sözlə ifadə və musiqi kompozisiyası. Bu hissələrdən təqlidin vasitələrinə – ikisi, üsuluna – biri, predmetinə isə – üçü daxildir; bunlardan əlavə başqa hissələr yoxdur. Yeri gəlmişkən deyək ki, bu hissələrdən şairlərin az qismi deyil, hamısı istifadə edir; hər bir faciədə səhnə şəraiti, xarakter, fabula, sözlə ifadə, musiqi kompozisiyası, eyni zamanda fikir vardır.

Lakin burada ən mühüm olan – baş verən vaqiələrin tərkibidir, zira faciə insanların təqlidi deyil, hərəkət və həyatın, xoşbəxtliyin və bədbəxtliyin təqlididir, xoşbəxtlik və bədbəxtlik isə hərəkət sayəsində meydana gəlir.

Faciənin də məqsədi müəyyən keyfiyyəti yox, müəyyən hərəkəti təsvir etməkdir; insanlar isə xarakter etibarilə müəyyən cür, hərəkət və əməllərinə görə isə – xoşbəxt, ya əksinə olurlar. Deməli, şairlər hərəkət və fəaliyyət adamlarını ona görə göstərmirlər ki, onların xarakterlərinin təsvirini versinlər, əslində, bu hərəkətlərin sayəsində onlar

xarakterləri də əhatə edirlər; beləliklə, hərəkət və fabula faciənin məqsədidir, məqsəd isə hər şeydən mühümdür. Bundan başqa, faciə hərəkət olmadan keçinə bilməz, xaraktersiz isə keçinə bilər. Məsələn, yeni faciələrin çox hissəsi xarakterləri təsvir etmir və ümumiyyətlə, şairlərin çoxu arasında nisbət rəssamlardan Zevksidin Poliqonta nisbəti kimidir: məhz Poliqont elə xarakter yaradıcısı olduğu halda, Zevksidin rəsmləri heç bir xarakteri əks etdirmir.

Sonra, biri əgər nə qədər dalbadal hikmətamiz kəlamlar, gözəl ifadə və fikirlər yaratsa belə, yenə bununla faciənin qayəsini təşkil edən şeyə nail ola bilməz, halbuki, bu məqsədlə deyilənlərdən az istifadə edən, amma fabula və hərəkət əlaqəsinə malik olan faciə daha tez sona yetə bilər. Eyni hal rəssamlıqda da baş verir: belə ki, əgər biri tamam plansız olaraq ən qəşəng rəngləri də işə salmış olsaydı, yenə başqasının sadəcə çəkdiyi təsvirdən aldığımız xoş təəssüratı bizə bağışlaya bilməzdi. Hələ üstəlik, ən mühüm olan, faciənin qəlbi və ruhu cəlb edib ələ aldığı amil, fabulanın hissələri – peripetilər və tanımalardır. Bizim baxışımızın ədalətli olduğunu bu da təsdiq edir ki, yeni yazmağa başlayanlar əvvəllər hərəkətin əlaqələndirilməsindən daha çox üslub və xarakterlərin təsviri sahəsində müvəffəq olurlar ki, bu da ilk şairlərin, demək olar ki, hamısında müşahidə olunur.

Beləliklə, fabula faciənin əsası və bir növ canıdır, xarakterlər isə ondan sonra gəlir, çünki faciə hərəkətin və elə buna görə də xüsusi hal-hərəkət adamlarının təqlid olunmasıdır. Faciənin üçüncü hissəsi fikirdir. Bu, işin mahiyyəti və şəraitə müvafiq olaraq danışmaq bacarığıdır ki, nitqdə buna siyasət və ritorikanın köməyi ilə nail olurlar; odur ki, qədim şairlər siyasətçi, indikilər isə natiqvari danışan adamları göstərmişlər. Xarakter isə odur ki, onda iradənin istiqaməti özünü göstərir; buna görə də, hər hansı müəyyən bir şəxsin nəyi üstün tutub və ya nədən çəkindiyini aydın göstərməyən, (yaxud) danışanın nəyi üstün tutduğu və ya nədən çəkindiyi haqqında heç bir şey deməyən nitq xarakteri əks etdirmir. Fikir isə odur ki, onun vasitəsilə bir şeyin varlığı və ya yoxluğu sübut edilir, yaxud nə isə müəyyən bir şey söylənir.

Danışıqlara aid olan dördüncü hissə sözlə ifadədir, mətndir. Bunu dedikdə, yuxarıda söylənən kimi, mən söz vasitəsilə izahı nəzərdə tuturam ki, bu da həm vəznli nitqdə, həm də vəznsiz nitqdə – nəsrdə eyni dərəcədə əhəmiyyətə malikdir. Qalan hissələrdən beşinci musiqidir

ki, bu da bəzəklərin ən başlıcasıdır... Səhnə şəraiti isə, qəlbi oxşasa da, poeziya sənəti sahəsindən tamam kənardadır və poeziyaya hər şeydən daha az dəxli var, çünki faciə yarışsız və aktyorsuz da öz qüvvəsində qalır; həm də ki, dekorasiyaların işlənməsində şairlik sənətindən çox dekorçuluq sənətinin əhəmiyyəti vardır.

***

Bəzilərinin düşündükləri kimi, fabulanın vəhdəti heç də yalnız bir şına sonsuz dərəcədə çoxlu əhvalatlar gələ bilər və elə olar ki, bu əhvalatların müəyyən qismi arasında heç bir vəhdət də olmaz. Eynilə bunun kimi, tək bir adamın da hərəkətləri çox ola bilər, lakin onlardan vahid hərəkət düzələ bilməz. Buna görə də bizə elə gəlir ki, "Herakleida", "Teseida" və bu cür poemalar yazan şairlər yanılırlar: onlar belə zənn edirlər ki, Herakl tək olduğu üçün elə fabula da tək olmalıdır. Başqa məsələlərdə də (digər şairlərdən) əhəmiyyətli dərəcədə seçilən Homer sənətkarlığınmı, təbii istedadınmı sayəsində bu məsələyə də, görünür, düzgün yanaşa bilmişdir. Belə ki, o, "Odisseya" əsərini yaradarkən qəhrəmanın başına gələnlərin hamısını, onun Parnasda necə yaralandığını, müharibəyə səfərbərlik elan olunan zaman özünü nə cür dəliliyə vurduğunu təsvir etməmişdir, çünki bu əhvalatlardan heç biri qətiyyən nə zərurət, nə ehtimala görə bir-birindən doğmur; buna görə də o, öz "Odisseya" və eyni dərəcədə "İliada"sını yazarkən, hər şeyi, (indicə) müəyyən etdiyimiz kimi, yeganə vahid bir hərəkət ətrafında cəmləşdirmişdir.

Deməli, təqliді sənətlərin digər sahələrində olduğu kimi, vahid təqlid bir predmetə təqliddən ibarətdir, bunun kimi də, hərəkətin təqlidinə xidmət edən fabula özü də bitkin, yeganə hərəkətin təqlidindən ibarət olmalıdır, əhvalatların hissələri isə, bir-biri ilə elə bağlanmalıdır ki, onlardan biri dəyişdiriləndə və ya çıxarılanda tama da xələl gəlsin, onun bütövlüyü sarsılan, zira varlığı və yoxluğu sezilməyən bir şey tamın da üzvi hissəsi deyildir.

***

Deyilənlərdən o da aydın olur ki, şairin vəzifəsi həqiqətən olubkeçənlərdən deyil, ola bilən şeylərdən, daha doğrusu, ehtimala və zərurətə görə mümkün ola bilən hadisələrdən bəhs eləməkdir. Məhz, tarixçini və şairi (bir-birindən) fərqləndirən o deyil ki, biri vəznlərdən istifadə edir, o biri isə etmir. Herodotun əsərlərini nəzmə çəkmək olardı, bununla belə, onlar vəznlə də, vəznsiz də yenə tarixi əsər olaraq qalardılar; onları fərqləndirən budur ki, birincisi həqiqətən olubkeçənlərdən, ikincisi isə – mümkün ola bilən hadisələrdən bəhs edir. Buna görə də poeziya tarixdən daha fəlsəfi və daha ciddidir: poeziya daha çox – ümumidən, tarix – xüsusidən bəhs edir. Ümumi ondadır ki, müəyyən xarakterə malik adam ehtimal və ya zərurətə görə nə danışmalı və ya nə etməlidir, poeziya da qəhrəmanlara müəyyən adlar verməklə elə bunu göstərməyə çalışır; xüsusi isə odur ki, məsələn, Alkiviad nə eləyib və ya onun başına nə kimi əhvalat gəlibdir. Komediyada isə bu lap aydın görünür: əsərlərini ayrı-ayrı məlum şəxsiyyətlərə ithaf edən yamb (mədhiyyə) yazanlardan fərqli olaraq, fabulanı ehtimal qanunları üzrə quran şairlər (komediyalarında) istənilən adların uydurulması yolundan istifadə edirlər. Faciədə isə keçmişdən götürülən adlar verilir; bunun səbəbi isə odur ki, ehtimala görə mümkün olan (yalnız) budur. Zira biz olmayana, (baş verməyənə) hələ inanmırıq, amma olan (baş verən) isə olması, görünür mümkündür ki, olubdur (baş veribdir), mümkün olmasaydı, olmazdı (baş verə bilməzdi). Bununla belə, bəzi faciələrdə bir-iki məlum addan başqa qalan adların hamısı uydurma olur, bəzilərində isə heç bir dənə də məlum ad olmur, məsələn, Aqafonun "Çiçək" əsərində vəziyyət belədir: bu əsərdə əhvalatlar da, adlar da eyni dərəcədə uydurmadır, bununla belə, o əsər yenə xoşa gəlir. Deməli, faciəvi hadisələrdən bəhs edən miflərə eynilə, rəvayətlərdə deyildiyi kimi, mütləq riayət etməyə çalışmaq lazım deyildir. Buna riayət etməyin özü də gülməlidir, zira məlum olanın özü də adamların çox yox, azına məlumdur, amma yenə də hamının xoşuna gəlir. Beləliklə, buradan aydın olur ki, şair metr (vəzn) yaradıcısı olmaqdan daha çox fabula yaradıcısı olmalıdır, çünki o, təqlidi təsvir gücünə görə şairdir və o, hərəkəti təqlid edir. O, hətta, həqiqətən baş vermiş əhvalatları əks etdirməli olsa belə, yenə şair olaraq qalır, zira heç nə mane olmur ki, həqiqətən baş vermiş hadisələrin bəziləri özləri də ehtimal və ya imkan daxilində olsun: şair, bu mənada, (həmin) hadisələrin də yaradıcısıdır.

Sadə fabula və hərəkətlər içərisində ən pisi episodik olanlardır; episodik fabula isə mən o fabulaya deyirəm ki, onun ehtiva etdiyi episodilər bir-birinin dalınca gəlir, amma heç bir ehtimala və zərurətə əsaslanmır. Bu cür faciələri pis şairlər şəxsi qabiliyyətsizlikləri üzündən,

yaxşı şairlər isə – aktyorların xatirinə yazırlar: onlar, məhz yarışmalar düzəltmək və buna görə də daxili məzmunun ziddinə gedib, fabulanı uzatmaqla hadisə və hərəkətin təbii sırasını pozmağa məcbur olurlar.

Faciə nəinki yalnız bitkin hərəkətin, eyni zamanda qorxunc və acınacaqlı hərəkətin təqlididir ki, bu sonuncu da, xüsusən, o vaxt olur ki, (gözlənilmədən baş verir), çox halda isə, gözlənilənin ziddinə və birbirinin sayəsində baş verir, çünki təəccüb doğuran hadisə və hərəkət öz-özünə və təsadüf sayəsində deyil, naqafil baş verəndə daha böyük təsir qüvvəsinə malik olur, belə ki, təsadüflər içərisində ən çox təəccüb doğuranı bir növ sanki qəsdlə, olan əhvalatlardır, necə ki, məsələn, Mitiyanın Arqosdakı heykəli guya Mitiyanın qatili ona tamaşa edərkən uçmuş və qatilin üstünə düşüb onu öldürmüşdür; belə şeylər sanki məqsədsiz baş vermir.

***

Faciənin əsası kimi istifadə olunacaq hissələri haqqında biz əvvəl danışdıq; həcm etibarilə isə onun bölmələri bunlardır: proloq, episodiy, eksod və öz növbəsində, parod və stasimə bölünən xor hissəsi; bu sonuncu hissələr xor mahnılarının hamısı üçün ümumidir, səhnədən oxuma və kommoslar isə onların bəzilərinin xüsusiyyətini təşkil edir. Proloq – faciədə xorun daxil olmasınadək olan tam hissədir, episodiy – faciənin bitkin xor nəğmələri arasında olan tam hissəsidir, eksod isə – faciənin ondan sonra xor nəğməsi olmayan tam hissədir; xor hissəsindən isə porod – birinci tam xor nitqidir, stasim – anapestasız və troxeyasız xor nəğməsidir, kommos isə – xor və aktyorların ümumi hüznlü nəğməsidir.

Beləliklə, faciənin əsası kimi istifadə edilməsi zəruri olan hissələri haqqında biz əvvəlcə xatırlatmışdıq, onun həcmini və bölmələrini isə indi göstərdik.

***

Növbə ilə, indicə dediklərimizin ardınca, gərək biz fabulanı tərtib edərkən nəyə səy edib, nədən çəkinməyin və faciənin vəzifələrini necə yerinə yetirməyin lazım gəldiyi barədə danışaq. – Madam ki, ən yaxşı faciə tərkibcə sadə yox, dolaşıq olmalıdır, həm də qorxunc və zavallını təqlid etməlidir (zira bu, o cür bədii təsvirin xüsusiyyətini təşkil edir), o halda, hər şeydən əvvəl, aydındır ki, ləyaqətli adamların xoşbəxtlikdən bədbəxtliyə düçar olmasını təsvir etmək lazım deyildir, çünki bu nə qorxunc, nə də zavallı bir şey deyil, ancaq mənfur bir şeydir. Eynilə də pis adamların bədbəxtlikdən xoşbəxtliyə düşməsini təsvir etmək lazım deyildir, belə ki, bu, faciənin ruhuna daha yabançıdır, faciə üçün zəruri olan heç bir şeyi ehtiva etmir, yəni, nə insana məhəbbət duyğusu, nə mərhəmət, nə də qorxu oyadır; nəhayət, tamam yaramaz adamın da xoşbəxtlikdən bədbəxtliyə düçar olmasını vermək olmaz, zira hadisələrin belə cərəyanı insana məhəbbət duyğusu oyadar, mərhəmət və qorxu oyatmaz: axı mərhəmət günahsız adama qarşı oyanır, qorxu isə bizimlə eyni vəziyyətdə olan adamın bədbəxtliyini gördüyümüz zaman yaranır; deməli, bu (sonuncu qəbildən olan) əhvalatlar bizdə nə mərhəmət, nə də qorxu doğura bilər.

Nəhayət, bu iki halın arasındakı (adamın vəziyyəti) qalır. Bu (vəziyyətdə qalan) o adamdır ki, (xüsusi) xeyirxahlığı və ədaləti ilə fərqlənmir, əvvəllər daha şərəfli və xoşbəxt sayıldığı halda öz qəbahəti və yaramazlığı üzündən deyil, müəyyən bir səhvin nəticəsində bədbəxtliyə düçar olur, məsələn, Edip, Fiest və bu qəbildən olan görkəmli şəxsiyyətlər belədir.

Yaxşı düzəlmiş fabula, bəzilərinin dediyi kimi, qoşatərkib olmaqdansa, sadə olmalıdır və belə fabula daxilində taleyin dəyişməsi bədbəxtlikdən xoşbəxtliyə deyil, əksinə, xoşbəxtlikdən bədbəxtliyə dönməlidir ki, bu da indicə təsvir olunan şəxsdən nəinki aşağı, bəlkə yuxarı olan adamların qəbahətindən yox, hər hansı bir böyük səhvi üzündən baş verməlidir. Tarix də bunu sübut edir: əvvəllər şairlər dalbadal əllərinə ilk düşən mifləri işləyirdilər, indi isə ən yaxşı faciələr məhdud dairədən olan miflər ətrafında, məsələn, Alkmeon, Edip, Orest, Meleaqr, Fiest, Telef və bunlar kimi müəyyən bir dəhşəti yaşamış və ya törətmiş bütün digər şəxsiyyətlər ətrafında yaradılır.

Beləliklə, sənətin qanunlarına görə ən yaxşı faciə, həmin bu cür tərkibə malik olan faciədir. Bunun üçün də Evripidi bunda təqsirləndirən adamlar səhv edirlər ki, o bu deyilənlərə əməl edir və onun faciələrinin çoxu bədbəxtliklə nəticələnir: faciə, deyildiyi kimi, elə belə də olmalıdır. Buna ən yaxşı sübut odur ki, səhnədə və müsabiqələrdə məhz bu cür faciələr, yaxşı tamaşaya qoyulduğu təqdirdə, ən yaxşı faciələr hesab olunur, Evripid isə (əlindəki materialdan bəzi əsərlərində yaxşı istifadə etməsə də), şairlər arasında yenə ən yaxşı faciənəvisdir.

Faciənin bəzilərinin birinci adlandırdığı ikinci növü isə o növdür ki, "Odisseya" kimi, qoşa tərkibə malikdir, özü də yaxşı və pis adamlar üçün təzadla nəticələnir. Əslində, faciənin bu növü tamaşaçı kütləsinin zəifliyi üzündən birinci görünür: axı tamaşaçılara xoş gəlmək üçün şairlər onların səviyyəsinə enirlər. Lakin bu yolla (alınan həzz faciə əsərindən) alınan həzz deyil, daha çox komediyadan alınan həzdir; bu halda, doğrudan da, fabulaya görə, Orest və Eqisf kimi, qəddar düşmən olan şəxsiyyətlər axırda dostlaşırlar və biri digərinin əli ilə ölmür.

***

Hər bir faciədə iki hissə var: düyün və açılma; birincisi adətən dramdan xaric hadisələri və (dramın) öz daxilindəki əhvalatların bəzilərini, ikincisi isə (bütün yerdə) qalanlarını əhatə edir. Mən faciənin əvvəlindən başlayaraq ta bədbəxtlikdən (xoşbəxtliyə, yaxud xoşbəxtlikdən bədbəxtliyə) keçid həddi olan nöqtəyədək davam edən hissəni düyün, bu keçidin başlanmasından sonadək davam edən hissəni isə açılma adlandırıram: belə ki, məsələn, Feodektin "Linkey"ində əvvəlcə baş verən hadisələr, uşağın ələ keçirilib zindana salınması düyün, canilikdə ittihamdan sona qədərki hissə isə açılmadır.

Faciənin dörd növü vardır (hissələrinin də o qədər olduğu göstərildi); peripetiya və tanınmalara əsaslanan dolaşıq faciə, Aynat və İksion haqqındakı kimi iztirablar faciəsi, "Ftiotidlər" və "Peley"də olduğu kimi xarakterlər faciəsi, nəhayət, "Forkidlər", "Prometey" və hadisələri Aiddə baş verən bütün digər əsərlərdə olduğu kimi möcüzə faciəsi. Ən yaxşısı budur səy göstərəsən, bu növlərin hamısı, yaxud, heç olmazsa, ən mühümləri və mümkün qədər çoxu (bir faciədə) ehtiva olunsun, xüsusən indi, şairlərə haqsız hücumlar edildiyi bir zamanda buna səy göstərmək lazımdır: ayrı-ayrı faciə növlərinin hər biri üzrə qabaqlarda da yaxşı şairlər olduğundan (indiki şairdən) tələb edirlər ki, təklikdə əvvəlki şairlərin hər birindəki daha görkəmli ləyaqətlərə üstünə gəlsin. (Müəyyən bir) faciənin (başqası ilə) fərqini və ya eyniliyini fabulaya görə müəyyənləşdirmək bəlkə də ədalətsiz olardı: oxşarlıq o adamların arasında olur ki, onlarda düyün də, açılma da eyni olur. Çoxları düyünü yaxşı saldıqları halda, onu pis açırlar, halbuki hər iki vəzifəni yaxşı yerinə yetirmək lazımdır.

Sonra, haqqında dəfələrlə danışdığımız bir şeyi yadda saxlamaq lazımdır, o da budur ki, gərək epik tərkibli faciələr yazmayasan. Epik tərkibli dedikdə, mən çoxfabulalı faciəni nəzərdə tuturam, məsələn, elə bil ki, bir nəfər bütün "İliada"nı götürə və ondan bir faciə düzəltmiş ola. Axı eposun həcmi iri olduğundan, hissələri də müvafiq iri həcmə malik olur, dramda isə (belə etdikdə) gözlənilməyən nəticələr alınır. Evripidsayağı "İlionun dağılması"ndakı (materialın müəyyən bir) hissəsini götürüb işləmək yerinə bütövlükdə ondan bir faciə yaratmaq istəyənlərin (yaxud) Esxilə rəğmən Niob haqqında əsatiri bütövlükdə götürənlərin hamısının tam uğursuzluğa düçar olması və ya yarış zamanı başqaları ilə ayaqlaşa bilməməsi bunu sübut edir; Aqafon da yalnız buna görə məğlubiyyətə düçar olmuşdur; halbuki o, əksinə, peripetiyalarda və sadə əhvalatlarda öz məqsədinə çox böyük ustalıqla nail olur. Bu isə o zaman mümkün olur ki, Sisif kimi müdrik, lakin qəribəliyə malik adam aldanır, yaxud şücaətli, lakin ədalətsiz adam məğlub olur: belə süjet facianədir və ədalət hissini də kifayətləndirir. Bu, Aqafonun dediyi kimi ehtimala görə mümkündür, ona görə ehtimala görə mümkündür ki, bir çox işlər məhz ehtimala rəğmən baş versin.

Xorun özü də bir aktyor sayılmalıdır; o, tamın üzvi hissəsi olmalıdır və Evripidin əsərlərindəki deyil, məhz Sofoklun əsərlərində oynadığı rolu oynamalıdır. Daha sonrakı şairlərdə xor partiyalarının (mövcud) fabulaya aidiyyət dərəcəsi onun hər hansı bir başqa faciəyə olan aidiyyət dərəcəsi qədərdir; buna görə də onlarda (xor), sadəcə faciəyə daxil edilən mahnıları oxumaqla məşğul olur ki, bunun da ilk nümunəsini Aqafon vermişdir. Belə olandan sonra, istər kənar mahnılar oxunsun, istər müəyyən danışıq və ya bütöv bir episodi bir dramdan çıxarılıb başqasına daxil edilsin, nə fərqi var?..

QEYDLƏR

XALQ ƏDƏBİYYATINA AİD QEYDLƏR

1. Bu parça Aristofanın "Sülh" adlı məzhəkəsindən götürülmüşdür.

2. Bu parça Lesbos adasında Mitilen şəhəri ilə bağlıdır. VII əsr Yunan tarixçisi Plutarx tapmışdır.

3. P i t t a k – aşağı təbəqədən çıxmışdır. VII əsrin sonlarında Mitelen şəhərində gedən mübarizədə fəal surətdə iştirak etmiş və hökuməti öz əlinə alaraq tiran seçilmişdi.

4. L i n – əfsanəvi yunan şairidir. Guya, o da Orfey və Oleni lə birlikdə allahlara şeir yazmaqda şöhrət tapmışdı.

5. F e b – Apollon. Atası Zevsdir, anası Latona. Əkinçilik, yaşıllıq allahıdır. Şəhərləri təsis edən və incəsənəti himayə edəndir.

LİRİK ŞEİRLƏRƏ AİD QEYDLƏR

1. P e r i k l – Arixiloxun dostu, eyni zamanda yeznəsidir.

2. S a l a m i d e s s a – Frakiyada limandır.

3. E m b a t e r i y – yüksək vətəndaşlıq hissləri ifadə edən mart nəğmələri

4. A r e s – Yunan əsatirində müharibə allahı

5. X a l k i d – Evbey adasında şəhərdir.

6. A f r o d i t a – sevgi və gözəllik ilahəsi Yunan əsatirinə görə dəniz köpüyündən dünyaya gəlmişdir.

7. A r a b a – gərdunə deməkdir.

8. T a r t a r – yeraltı qaranlıq dünya, günahkarların cəzalandığı yer

9. A i d – yeraltı səltənətin allahı. Zevsin qardaşı. Atası Kronos, anası isə Reyadır.

10. E r o t – sevgi allahı. Afroditanın oğlu. Yunan əsatirlərində onu qanadlı əlində ox və ya məşəl təsvir edirdilər.

ESXİLƏ AİD QEYDLƏR

1. P a l l a d a – ilahə Afina

2. K i p r i d a – Afrodita. Eşq ilahəsi

3. F e r e t – Zevs

4. E r e x t e y – Erexfey – Afinada Afina ilahəsinin məbədi

5. K r a n e y ə h l i – Kranay, Yunanıstanın əsatiri hökmdarlarındandır. Attika əhalisinə kranay əhli deyirlər.

SOFOKL VƏ ƏSƏRLƏRİNƏ AİD QEYDLƏR

1. K a d m – Finikiya hökmdarı Aqenorun oğludur. Öz bacısı Avropanı axtara-axtara Delfə gəlir. O, burada arakuldan (hatif) məsləhət alır ki, axtarışını bitirsin, rast

gəldiyi inəyin dalınca getsin, inək harada yatsa, orada təzə şəhərin əsasını qoysun. Kadm belə də edir. İnəyin dayandığı yerdə ev qurur. Beləliklə, Fiv şəhərini təsis edir.

2. İ s m e n – Fivdə çay adıdır. Bu çay üzərində Apollonun məbədi var idi. Burada yandırılmış heyvanların külü ilə fal açırdılar.

3. S f i n k s – Fivaida əsatirinə görə, Tifonun və Exidnanın qızıdır. Sfinks, özünə yaxınlaşanlara belə sual verirmiş. "O kimdir ki, səhər dördayaqlı, günorta ikiayaqlı, axşam isə üçayaqlı yeriyir?" Bu tapmacaya cavab verməyənlər, qayadan uçuruma yuvarlanırlarmış. Edip bu tapmacaya cavab vermişdi və demişdi ki: o insandır. Ona görə Sfinksin özü uçuruma yuvarlanmışdır.

4. Diy nəzərdə tutulur.

5. T i r e z i – Gənc ikən allahlar onu kor etmişlər. Rəvayətə görə, Afina çimərkən birdən-birə ona rast olmuş; çılpaq bədənini görməsin deyə, onu kor eləmişdir. Sonra Zevs və Afina Tireziyə zəngin zəka vermişlər. Belə ki, o yeddi nəsil özündən qabağı və sonranı görə bilirmiş və gizlin hadisələri açıb söylərmiş.

6. K i f e r o n – Beotiya ilə Attika arasında dağdır.

7. Apollon deməkdir.

8. P a r n a s – dağdır. Apollonun məbədi burada imiş.

9. P o l i b – Korinf tiranıdır. O Edipi özünə oğulluğa götürmüş idi.

10. A b e y m ə b ə d g a h ı – Fokiddə, Abax şəhərində Apollonun arakulu

11. İ s t m i y l i l ə r – İstmiydə, Korinf şəhərlərinin əhalisi

12. P a n – meşələrin, dağların, sürülərin, kəndin allahıdır.

13. Arkutura ulduzunun çıxmasına qədər – yəni payıza qədər

14. İ s t r – Dunay çayı

15. F a s i s – Gürcüstanda Riona çayı

16. D i k a – Həqiqət və dürüstlük ilahəsi

17. T a n t a l i d a – daşa döndərilmiş Nioba

18. D a n a y a – qızdır. Onun atasına xəbər vermişlər ki, bu qızdan dünyaya gələn oğlan sənin qatilin olacaqdır. Ona görə ata öz qızını zirzəmidə gizlədir. Zevs, bu qıza aşiq olur. Qapının açar yerindən zirzəmiyə daxil olur və qız ilə evlənir. Sonralar bundan xəbərdar olan ata qızı da, onun doğduğu oğlanı da sandığa qoyub dənizə atır. Onlar Zevsin əmrilə xilas olurlar. Arakulun dediyi düz çıxır, oğlan öz babasını öldürür. Oğlanın adı Perseydir.

19. S e m e l a – Kadmın qızıdır. Zevs onu sevmiş və ondan şərab allahı Dionis dünyaya gəlmişdir.

20. D e m e t r a – münbitlik ilahəsi, Zevsin bacısı, Persefonanın anası

21. A m f i o n – atası Zevsdir, anası Antiona. Musiqişünas

22. P l u t o n – Aid. Yeraltı dünyanın allahı. Zevsin qardaşı

23. P e r s e f o n a s a r a y ı – Persefonaya tikilmiş saray Persefona Demetranın qızıdır. Atası Zevsdir. Onu Aid oğurlamışdır. O, ilin yarısını yer altında, yarısını isə işıqlı dünyada keçirir.

24. N e m e z i d a – cinayət üçün insanlardan intiqam alan allah. Gecənin qızıdır. Vəzifəsi etibarilə erinilərə yaxındır.

EVRİPİDƏ AİD QEYDLƏR

1. Apollonun məbədinə işarədir.

2. A m m o n – Misir allahlarındandır. Yunanilərin Zevsi deməkdir. Burada Livin çölü nəzərdə tutulmuşdur, çünki Ammonun məbədi orada idi.

3. A s k l e p i y – təbabət elmi allahı. Atası Apollon, anası Koroildadır.

4. X a r o n – ölüləri yeraltı dünyaya daşıyan. Atası Erebadır, anası gecədir. Xaron eyni zamanda ölüm iblisidir.

5. O r f e y – qədim yunanıstanın Homerdən qabaq əfsanəvi şairi. Yunanilər onun haqqında əsatir yaratmışlar.

6. K e r b e r-S e r b e r – qaranlıq yeraltı dünyanın qapısını gözləyən üçbaşlı it. O içəri girənlərə mane olmur. Lakin içəridən heç kəsi buraxmaz. Əsatirə görə, bir dəfə Orfey onu öz nəğməsilə aldatmış və zülmətdən çıxmışdır. Herakl isə Hermesin köməyilə onu oğurlamışdır.

7. P e l i a d a – yəni Peli qızı Alkesta

8. Herakl ilə bağlı əsatirdə deyilir ki, Bistoniyada Frakin hökmdarı Diomed öz atlarına onun ölkəsinə gələn səyyahların ətini yedirirmiş. Herakl o atları oğurlayıb gətirmişdir.

9. Heraklın on iki qəhrəmanlığı vardır. O, burada onlardan ikisini yada salır.

10. A l k m e n a – Heraklın anası

11. P e r s e i d – yəni Zevs nəsli. Persey Zevsin oğludur.

12. K i p r i d a – Afrodita deməkdir, eşq allahı

13. K o r – bax: Parsefon

14. Q o r q o n – bax: Esxilə aid qeydlər

15. K r o n k i n – yəni Zevs

16. S i r m p l e q a d a – Bosfor boğazının Qara dənizə birləşən yerində çox qayalı, dağlı iki ada

17. P e l i o n – Fessaliyada meşəli dağlar. Əsatirə görə, Arqo gəmisi buradan kəsilən ağaclardan düzəldilmişdir.

18. P e l e y – Yazonun dayısı

19. İ o l k – Fessaliyada şəhər

20. P i r r e n a – Kornifdə bulaq

21. F e m i d a – ədalət, həqqaniyyət və yer allahı (qadın). Atası Uran (Zevsin babası) anası isə Geyadır.

22. P o n t – Qara dəniz

23. S i z i f – əsatirə görə, Konrif ölkəsinin banisi. Sizif uşaqları ilə Medeya, Konrif hökmdarı Kreonu nəzərdə tutur

24. H a r m o n i y a – atası Ares (müharibə allahı), anası Afroditadır. Fivin əsasını qoyan çayın adı

25. Attikada iki çayın adı

26. Q e n i y – dar mənada himayə allahları

27. P i e r i – Pieri qəsəbəsinin muzaları

28. P a n – insanların ürəyinə çaxnaşma salan allah. Panika həmin sözdəndir.

29. S s i l a – üçbaşlı bədheybət varlıqdır ki, gəmiləri batırır

30. H e r a – uca dağlar allahı (qadın). Onun məbədi Kornif körfəzinin yaxınlığında imiş

ARİSTOFANA AİD QEYDLƏR

1. Niki və Demosfen simasında, Aristofan V əsrin 20-ci illərində Afina demokratiyasının başçısı Kleona qarşı mübarizə aparan Afina zadəganlığının nümayəndələrini vermişdir. Kleon dabbaqxana emalatxanasının sahibi idi. Bizim eradan əvvəl 424-cü ildə Kleon cəbhədə spartalıları məğlub etmişdi. Demosfen spartalıların Pilos limanını ələ keçirdikdən sonra, Kleon da Pilos yanında möhkəm cəbhə tutmuş Sfakteri adasında güclü və seçilmiş Sparta hissələrini darmadağın etmişdi. Buna görə, Afina xalq məclisi Kleon haqqında xüsusi qərar çıxararaq, onu böyük hörmət və təntənə ilə qarşılamışdı.

Peloponnes müharibəsinin düşməni olan Aristofan bu məzhəkədə Kleonun Pilos yaxınlığındakı qələbəsini mərkəzə qoyaraq, ona gülməyə və güldürməyə çalışır. Aristofan göstərməyə çalışır ki, Kleon həmin qələbəni hiylə ilə öz adına çıxmışdır. Pilos qələbəsi, bu məzhəkədə əsas gülüş hədəfidir.

2. P a f l o q o n l u – dabbaq emalatxanası sahibi Kleon deməkdir. Burada müəllif Kleonu dabaq nökər adı ilə vermişdir.

3. O l i m p – burada yunan fleyta çalanı

4. Bu misra eynilə Evripidin "İppolit" əsərindən götürülmüşdür.

5. Burada Aristofan Evripidin anasının göyərti-tərəvəz satan olduğuna işarə edir.

6. Məhkəmədə iştirak edənlərə hər iclas üçün pul verərdilər. Bu ona işarədir.

7. Afinalıların Pilosda əldə etdikləri qələbə nəzərdə tutulur ki, bu qələbəni Kleon öz adı ilə bağlayırdı. Niki isə həmin şərəfi öz adına çıxmaq istəyirdi.

8. Bunlar gülüşü artırmaq üçün yapma, düzəltmə adlardır.

9. F e m i s t o k l – V əsrin əvvəlində Afina sərkərdəsi və dövlət xadimi idi. O, sürgündə öküz qanı içərək özünü zəhərləmişdi.

10. P r a m i a – şərab növüdür.

11. B a k i d – əsatiri falçı

12. P r i t a n e y – xarici nümayəndələri və böyük şəxsiyyətləri qəbul etmək üçün ayrılmış dövlət binası

13. P n i k s – Afinada təpə adıdır. Burada xalq məclisi toplanırdı.

14. O zaman üç quruşa səs satırdılar.

15. Düşmənə şey satır, vətənə xəyanət edir, deməkdir.

16. Afina şəhərinin yanında kiçik qəsəbə

17. Q i p p o d a m – yunan arxitektorudur. Afina vətəndaşlığına qəbul edilməmişdi. Onun oğlu da Afina demokratiyasına düşmən idi

18. M o r s i m – yunan məzhəkə yazanıdır. Aristofanın müasiridir.

19. K r a t i n – yunan məzhəkə yazanıdır. Aristofanın böyük müasiridir.

20. D e m e t r a (D i m i t r a) – münbitlik allahı (qadın). Zevsin bacısı, Parsefonun anasıdır.

22. A l k m e o n i d l ə r – VII əsr Afina zadəgan nəslindəndir. O vaxt Afinadan sürgün edilmişlər. Bu misra onun demaqoqluğuna işarədir.

23. T i f o n – yunan əsatirinə görə, yerin bədheybət oğludur. Burada Kleon nəzərdə tutulur

24. M a q n e t – qədim yunan məzhəkə yazanlarındandır. V əsrdə yaşamışdır.

25. K r a t i n – IV əsr yunan məzhəkə yazanıdır.

26. K o n n – V əsr yunan musiqiçisidir. Kifara çalardı.

27. K r a t e s – V əsr yunan məzhəkə yazanıdır.

28. S u n i və Q e r e s t – Attikada burun; Evbey adasında burundur.

29. F o r m i o n – Afina sərkərdəsidir.

30. Afinanın hamisi, Afina – Pallodayaya işarədir.

31. 425-ci ildə Nikinin Korinfə hücumu nəzərdə tutulur. Atlılar öz atlarını barklara mindirmişdilər.

32. F e o r – Kleonun dostu

33. L i s i k l – qoyun satan idi. Periklin yaxın dostu olmaqla bərabər, demokrat partiyasının görkəmli nümayəndəsi idi.

34. Afina qeteralarıdır.

35. Q a r m o d i n – Tiran Qipparxı öldürən

36. A r x i n t o l e m – Afina demokratiyasının düşməni, Sparta ilə sülh tərəfdarı

37. F e m i s t o k l – sərkərdədir. Salamində iranlıları məğlub etmişdi.

38. S i l f i – Afrikada bitən göyərtidir. Xörəyə qatırlar.

39. G e l i y a – Afina məhkəməsi

40. Varlıları gəmi alıb dövlətə verməyə məcbur etmək

41. Aristofanın siyasi düşmənlərindən olmalıdır. O həmişə Aristofanın gülüş hədəfi olmuşdur.

42. L i s i s t r a t və F u m a n t – parazit, tüfeyli deməkdir.

43. A r i q o n t a – kifara çalandır.

44. H i p e r b o l – Kleonun tərəfdarlarındandır.

45. M i l t i a d – sərkərdədir. Marafonda iranlılara qalib gəlmişdi. Aristid – V əsrin əvvəlində mühafizəkar demokrat

46. Demokrat gənclərin nümayəndələri

47. F e a k – natiqdir.

KİTABDAKILAR

Ön söz 4

ƏN QƏDİM ƏDƏBİYYAT

XALQ ƏDƏBİYYATI

Zəhmət nəğməsi 7
Dəyirmançı qızlar nəğməsi 7
Qaranquş haqqında rodos nəğməsi 8
Lin şərəfinə nəğmə 8

ƏSATİRLƏR

Prometey 9
Herakl 30
Afina-Pallada 52
Araxna 52
Piqmalion 54
Narsis 55
Adonis 57
Dionis 58
Sizif 59
Dedal və İkar 60

ERAMIZDAN ƏVVƏL XII– VIII ƏSRLƏRDƏ YUNAN ƏDƏBİYYATI

Homer 63
Troya müharibəsi haqqında əsatir 64
"İliada"nın qısa məzmunu 65
"Odisseya"nın qısa məzmunu 69

ERAMIZDAN ƏVVƏL VIII-VI ƏSRLƏRDƏ YUNAN ƏDƏBİYYATI

Hesiod 74
Zəhmətlər və günlər. Parçalar (*çevirəni M.Rzaquluzadə*) 75

LİRİKA
Arxilox (*çevirəni M.Rzaquluzadə*) 79
Tirtey (*çevirəni M.Rzaquluzadə*) 81
Alkey (*çevirəni M.Rzaquluzadə*) 83
Sapfo (*çevirəni M.Rzaquluzadə*) 85
Anakreont (*çevirəni M.Rzaquluzadə*) 88

FACİƏ
Qədim yunan faciəsi haqqında bəzi qeydlər 90
Esxil 92
Evmenidlər (*çevirəni Ə.Məmmədxanlı*) 95
Sofokl 123
Tiran Edip (*çevirəni Ə.Sadıq*) 125
"Edip Kolonda" faciəsinin qısa məzmunu 165
Antiqona (*çevirəni O.Sarıvəlli*) 166
Elektra (*çevirəni Ü.Hüseynov*) 244
Evripid 292
Alkesta (*çevirəni M.Arif*) 295
Medeya (*çevirəni M.Rzaquluzadə*) 327

KOMEDİYA
Qədim yunan komediyası haqqında bəzi qeydlər 367
Aristofan 369
Atlılar (*çevirəni M.Rzaquluzadə*) 373
Aristotel 472
Poetika (*çevirəni A.Aslanov*) 474

Qeydlər 488

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Zahid Sarıtorpaq*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Kompyuter operatorları: *Maral Rəisqızı*
Ruhəngiz Arazqızı

Korrektor: *Elman Bəşirli*

Yığılmağa verilmişdir 01.06.2006. Çapa imzalanmışdır 02.08.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 31. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 100.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.

Ш6(0)
А79